"Here,...near the fire some were cooking for the settlement Sroganny ates-gava, called so up to this fire; others were Burning lime... two descendants of the ancient Persian tribe, newcomers hindus-fireworshippers were passively sitting around the wall, built by them and prayed... gazing at the flame gushing out of the ground and worshipped
Kempher / German traveller / 1683

«Burada ... odların yanında bəziləri... həmin odun adı ilə adlanan Sroqani, Ates-Qava sakinləri üçün yemək hazırlayırdılar; digərləri ... əhəng yandırırdılar...Qədim İran tayfalarından ikisi gəlmələr atəşpərəst hindlilər, tikdikləri divar ətrafında işsiz otururdular və dua edirdilər... gözlərini yerdən püskürən alova digərək ona sitayiş edirdilər...»

*B.Kempfer (alman səyyahı) 1683-cü il*


"...For twenty years / from 1713-1733 / a stone house of two wings was built there but before there used to be a small house.
E. Lerh / German traveller / 1738.

«... 20 il ərzində (1713-cü ildən 1733-cü iləd ək) orada iki gözdən ibarət daş ev tikmişlər. Əvvəl isə burada kiçik ev vardı»

*İ.Lerx (alman səyyahı) 1733-cü il*

Qədim Yunanstan coğrafiyaşünası Strabon B.E. I-ci əsrində Hindistana gedən ticarət yolunun Azərbaycandan keçdiyini xəbər verir.

Ancient Greece philosopher Strabon in[illegible]out trade with India through Azerbaijan in thi[illegible]


Число поклоняющихся в храме в разные периоды его истории


1683 2 чел. Э.Кемпфер
1746 40-50 чел. Дж.Ганвей
1770 3 чел. С.Гмелин
1796 5 чел. С.Броневский
1803 63 чел. С.Броневский со слов Ахвердова
1825 12 чел. Э.Эйхвальд
1843 10 чел. А.Гакстгаузен, Шварц
1844 5 чел. К.Кох
1846 20 чел. Г.Ленц
1848 5 чел. журн."Русский инвалид"
1856 3 чел. А.Писемский
1860 3 чел. Геи[illegible]-статистич. словарь
1861 5 чел. Б.Дорн
1862 1 чел. Д.Менделеев
1883 1 чел.

После ухода в Индию последнего жреца в 1883 году храм перестал действовать.


Tarixin müxtəlif dövrlərində məbəddə olan hindlilərin sayı.

| | |
|---|---|
| 1683 - 2 nəfər | E.Kespfer |
| 1746 - 40-50 nəfər | C.Qanvey |
| 1770 - 3 nəfər | S.Qmelin |
| 1796 - 5 nəfər | S.Bronevski |
| 1803 - 63 nəfər | S.Bronevski Axverdova əsasən |
| 1825 - 12 nəfər | E.Eyxvald |
| 1843 - 10 nəfər | A.Havsthauzen Şvarts |
| 1844 - 5 nəfər | K.Kox |
| 1846 - 20 nəfər | Q.Lents |
| 1848 - 5 nəfər | «Russkiy invalid» jurnal |
| 1856 - 3 nəfər | A.Pisemski |
| 1860 - 3 nəfər | Coğrafi statistik lüğət |
| 1861 - 5 nəfər | B.Dori |
| 1862 - 1 nəfər | D.Mendeleyev |
| 1883 - 1 nəfər | |

1883- cü ildə sonuncu kahin Hindistana gedəndən sonra məbəd öz fəaliyyətini dayandırır.




*Dorn*



*Mendeleyev*



*Tur Heyerdal Atəşgahda*




*«Atəşpərəst»*




















1859-cu ildə böyük fransız yazıçısı Aleksandr Düma Xəzərdə möcüzə görməsi haqqında belə yazır: «Biz sahilə tələsdik. Gəmiyə minib, dənizə çıxdıq. Xeyli aralanıb 3-4 metrlik dərinlikdə suyun altında dağılmış karvansarayı göstərdilər. Güllələri bir-biri ilə birləşdirən divar hələ də dururdu. Gördüyümüz bu karvansaray alimlər qarşısında həllini gözləyən qəribə bir sual qoymuşdur. Guya bu şəhər quruda olmuşdur. Getdikcə Xəzər dənizinin səviyyəsi artmış və bu tikililər suyun altında qalmışdır. Çünki ağlabatan deyildir ki, o vaxtlar suyun altında belə bir şəhər salmaq mümkün olsun. Dənizçilərdən biri yanacaq tökülmüş raketə bənzər patronu yandırıb güllələrdən birinin dibinə atdı. O saat dəniz işıqlandı və gülləni aydın gördük. Və güllənin yanındakı balıqlar qorxudan ora-bura çırpınmağa başladılar. Karvansarayın güllələri hava yaxşı olanda dənizdən suyun səthində aydın görünür». A.Düma qeyd etdi ki, bu sözləri A. Bakıxanovun «Gülüstani-İrəm» əsərindən oxumuşam. [1]

Tarixçilər şəhərin keçmiş vəziyyəti haqqında yazılardan belə nəticəyə gəlirlər ki, dörd-beş yüz il bundan əvvəl gördüyümüz bu yerlər suyun altında qalmışdır. Ehtimal ki, nə vaxtsa Xəzər dənizində sular çəkiləcək, bu yerlər yenə zahirə çıxa bilər.[2]

Qeyd etmək lazımdır ki, A. Düma (ata) Bakıya səyahəti zamanı, o cümlədən Atəşgaha səyahəti zamanı Xilə kəndində də olmuşdur. Bakı Atəşgahı bütün dünyada məşhurdur. Bakıdan 26 km uzaqdadı. Daimi alov yerin altında olan mazut, neftdən və qazdan baş alıb yanır. Atəşgahın sahəsi 4,5 km-dir. Atəşgahda olarkən Xilədə qonaq olduq. Rəssam Mone və məni çay süfrəsinə dəvət etmişdilər. Lakin buna çay süfrəsi demək günah olardı. Bu süfrədə Azərbaycanın yeməkləri zənginliklə düzülmüşdür. Qonaq olduqları ev tacirlər - Hacı Bəbir və Hacı Hacıbabanın olmuşdur.[3]

El arasında geniş yayılmış rəvayətlərə görə lap qədim keçmişlərdə dənizin içindən quru yol olmuşdur. Türkmənistana qədər uzanan bu yol ilə karvanlar, arabalar gedib-gəlmişlər. Tarixən Xəzər dənizinin səviyyəsi qalxmış və bu yol suyun altında qalmışdır. Dəniz kənarındakı yaşayış məntəqələri də suyun altında qalmışdır. Bu haqda A. Bakıxanov yazmışdır: «Bütün qədim alban əhalisi bütün hadisələri Makedoniyalı İsgəndərə istinad etdiklərindən belə nəticəyə gəlmək olar ki, qədimdə Bakı ölkəsində Bilgəh, Zirə, Bibiheybət, Xilə kəndlərində və bəzi adalarda daşlar üzərində dənizə doğru gedən yollar görünür. Bakı şəhərində Hacı Ağa Hüseyn oğlu Hacı Hacıbabanın otağının yerində quyu qazdıqları zaman dəniz səthindən aşağıda daşla döşənmiş bir yol çıxmışdır». Bakıxanov daha sonra yazır: «Qədimdə Bakıda Türkmən sahilinə quru yol getdiyi xalq arasında məşhurdur. Bakı şəhərinin qarşısında dəniz içərisində qəbirlər, daş hasarlar, bürclər, karvansaraylar indi də suyun altında durur». Bakı ilə Salyan arasında dəniz sahilində təxminən 8 coğrafi mil aralı suyun altında bir şəhər vardır.[4]

Lakin Dərxilə yolu dənizin içində batmış yollardan asılı olmayaraq Abşeron yarımadasının mərkəzi yolu kimi, özünün qədim tarixi ilə yaşamaqdadır. Bu yol Əmircan kəndinin kənarı ilə keçdiyi üçün qədimdə Şorun içi

***1. A. Düma, «Qafqaz səfəri», Bakı 1985, səh 58***
***2. A. Bakıxanov «Gülüstani-İrəm» Bakı 1951, səh 39***
***3. A. Düma, «Qafqaz səfəri», səh. 50-51***
***4. A. Bakıxanov «Gülüstani-İrəm» Bakı 1951, səh 38-39***

ilə daş yol salınmışdır. Az. EA, arxivində 1933-cü ildə Əmircanda olmuş tarixçi N. Minkeviç belə bir yazını qələmə almışdır. Əhalinin danışdıqları və sonradan özünün əmin olduğu faktları belə yazır ki, Əmircan boyu əhatə olunan Şorun içindən daş yol çəkilib. Bu daş yol suyun altında indi də qalmaqdadır. Yolun uzunluğu 120 m, eni 3 m-ə qədərdir. Bu sətirləri yazarkən yaşlı əhali ilə söhbətlərindən də məlum olduğu kimi bu yolu görənlər olub. Həqiqətən də bu yol indiki Bakıxanov və 8-ci km qəsəbələrinə gedən araba, dəvə karvanı və piyada yolu olmuşdur. Minkeviç qeyd edir ki, bunları yazan vaxt əhalidə 300-dən çox dəvə, 60-dan çox at və s. heyvan var idi. Kənddə 10 ovdan qeydə alınmışdır. Kənddən 2 yol keçir. Birincisi Keşlə istiqamətindəki yol, ikincisi Mərdəkan istiqamətindəki yoldur. Kənddə həyətlərdə 1000-dən çox quyu vardır. Kəndin əhalisi 14000 nəfərdir. Əhalinin əksəriyyəti neft mədənlərində və dövlət vəzifələrində çalışırlar. Qadınlar ictimai həyatda fəal iştirak edirlər. Kənddə böyük mədəniyyət sarayı, qadınlar klubu, yay klubu, 3 uşaq bağçası, xəstəxana, məktəblər, neft avadanlığı hazırlayan zavod vardır. Əmircan kəndinin qədimliyini sübut edən çoxlu faktlar yazılmışdır. Xilə kəndi haqqında Sara Aşurbəyli yazır: «Məşhur ərəb coğrafiyaçısı Əl Məsudi 332-ci il (hicri 943-44) yazır ki, Bakı ətrafında neft çıxır. Həmin dənizdə (Xəzər dənizi) Şirvan şahlığında Babul-Əbvabın (Dərbəndin) yaxınlığında. Burada ağ neft çıxarırlar, vulkan püskürür, yerdən yanar od çıxırdı». Əl-Məsudinin qeydindən məlum olur ki, ağ neft bildiyimiz kimi ən qədimdən indiyə kimi Əmircan ərazisi sahəsindən çıxır. Bakının yaxınlığında yanar qazın qədimdən çıxmasını sübut etmək üçün yalnız Atəşgahın adını çəkmək kifayət edər».[1] Məlumdur ki, ən qədimdə Sasani şahları dövründə, sonra ərəb xilafəti zamanı Xilənin eləcə də Abşeronun neftindən və duzundan həm daxildə, həm də xarici ixracda geniş istifadə olunmuşdur. Qədim keçmişdə bütün Azərbaycan xalqı kimi Xiləlilər də odu müqəddəs sayıb ona sitayiş edərdilər. Atəşgah məbədi buna əyani sübutdur. Oda sitayiş, atəşpərəstlərin dini ayinləri bu məbəddə yaranmışdır. El arasında indi də qədim keçmişin, atəşpərəstliyin, oda meyl etmək adətlərinin bəziləri qalmışdır.

Böyük Azərbaycan coğrafiyaşünası, səyyahı dəfələrlə Xilədə olmuş Hacı Zeynalabdin Şirvani Atəşgədə haqqında yazır ki, «Bakı şəhəri yaxınlığında, şərqdə üç verstlik məsafədə qədim Atəşgədə yerləşir. Bura qədimdən uzaq yerlərdən ibadət etmək üçün atəşpərəstlər gələrdilər». Bu haqda Hacı Zeynalabdin Şirvani «Bustanus-səyahət» əsərində (səh. 129-da) yazır. 1826-cı ildə Hacı Zeynalabdin Şirvani Bakıda olarkən Xilə Atəşgədəsində olmuş və bu haqda yazmışdır: «Atəşpərəstlərin əsas ayinləri Atəşqədədə həyata keçirilərkən odu yanar halda saxlamışlar və ayinləri yerinə yetirirmişlər». Atəşgədədəki odun yandırılması haqqında belə yazır: «Əgər bir şəxs atəşi yandırmaq istəsə, oda yaxın yeri bir az qazaraq kənardan torpağa alovu yaxınlaşdırır və od dərhal yanırdı, söndürmək istədikdə odun üstünə bir qədər torpaq töküb söndürürdülər». Bir çox yerli və xarici tarixçilər dəfələrlə qeyd ediblər ki, Zərdüştün vətəni Azərbaycandır. 1858-ci ildə Bakıya səyahətə gələn, «Xəzəri öz gözlərimlə görməsəm, ölərəm» sözlərinin müəllifi böyük fransız yazıçısı Aleksandr Düma «Qafqaz səfəri» əsərində Xilə Atəşgahında gördüklərini belə yazır:

«Bakıda atəşpərəstlərin müqəddəs məbədi Atəşgaha gedəndə yolun yuxarıdan çoxu dəniz qırağı ilə uzanırdı. İki saatlıq yoldan sonra mənzil başına çatıb təpəliyə qalxdıqda qarşıda təsəvvürə gəlməyən bir mənzərə açılırdı. Atəşgah dövrəsindəki binalar, tüstü və alov sovuran yüzlərlə irili və xırdalı ocaqlar ovuc içi kimi görünürdü. Onlar bir kvadrat liyalü sahədə yerləşirdi. Külək əsdikcə alovun zolaqları, dilləri qaynayır, dalğalar kimi şahə qalxırdı. Binanın içəri tərəfində dövrələmə düzəldilmiş ocaqlardan şölələnən qaz nəhəng məşələ bənzəyirdi. Bu ocaqlardan hər birisinin yanında dördkünc gümbəz vardır. Hər küncdəki gümbəzdən alov püskürürdü. Atəşpərəstləri iki min ildən çoxdur ki, təqib edirlər. Bu axırıncı ocaq idi ki, qorunub saxlanılır».

Müasir hindlilər İnduizm dininin bəzi əlamətlərini, zərdüştiliklə birləşdirmişlər».[2] Tarixə istinad edərək belə nəticəyə gəlmək olar ki, qədimdən bu məbədin adı dəyişikliyə uğrayaraq. Atəşhun, Atəşqədə və Atəşgah kimi adlandırılmışlar.[3] Xiləlilər Atəşgaha əvvəldən müqəddəs yer kimi baxmışlar. Atəşgahı atəşpərəstlərin Məkkəsi adlandırıla bilər. El arasında indi də qədim keçmişin, atəşpərəstliyin, oda meyl etmək adətlərinin bəziləri qalmışdır. Məsələn, mənim xalqım Novruz bayramında köhnə adət üzrə tonqal yandırıb yeni ili qarşılayar və bu sözləri tonqalın üstündən atlananda deyirlər: «Köhnə ildəki ağırlığım-uğurluğum bu tonqala tökülsün. Yeni ilə yüngüllüklə qədəm basım». Evlərdə bayram axşamı xonçalar qurular və dövrəsində şamlar yandırırlar. El adətincə toy zamanı bəy və gəlinin yanında şam yandırar, ayağının altında neft lampası yandırar və tonqal qalayardılar. Bu adət indi də elimizdə saxlanan adətlərdən biridir.

Azərbaycan yazıçısı Nurəddin Kərimov «Qırx il səyahətdə» kitabında yazır: «Demək olar ki, Bakıya gələn məşhur səyyahlar, alimlər, dövlət xadimləri Xilədəki Atəşgah məbədi ilə maraqlanmış və oraya baş çəkməyi lazım bilmişlər».[1] Atəşgah haqqında axtarışlarımdan belə məlum olur ki, bu gün də Atəşgah dünyanın səyyahlarının və alimlərinin ziyarət etmək istədikləri müqəddəs yerdir. Müasir dövr üçün belə faktları nəzərinizə çatdırmaq istəyirəm ki, Hindistan prezidenti İndira Qandi şəxsən oranı ziyarət etmişdir. Norveçin görkəmli səyyahı, tarixçisi, yazıçısı dünyanı qarış-qarış gəzmiş Tur Heyerdal dəfələrlə Atəşgahda olmuş, buranın qədimliyi və

***1. S. Aşurbəyli, «Очерки истории средних веков Баку», Bakı 1964, səh. 53***

***2. S. Aşurbəyli, "Очерки истории средних веков Баку" , Bakı 1964, səh. 26.***

***3. D. Axundov, "Архитектура древнего и раннесредневекового Азербайджана","Azərnəşr"1986, s.104***

müqəddəsliyini qeyd etmişdir. Yenə Azərbaycana gəlsəydim yenə Atəşgahda və Qobustanda olmaq istərdim. Bu yerlər bəşər insanlığının bizə qoyub getdiyi və izaha ehtiyacı olmayan canlı T A R İ X D İ R...».



Xilənin ərazisində çoxlu arxeoloji qazıntılar aparılmışdır. Əhali həmişə təsərrüfatla məşğul olmuşdur. Həyətlərdə təsərrüfat işləri görülən zaman, quyular qazılan zaman çoxlu məişət əşyaları, sümüklər və qədim əşyaların qalıqları, küplər, əski parçaları, zinyət əşyaları, pullar, silahlar, hətta heykəllər də tapılmışdır. Əfsuslar olsun ki, bunlar əhali arasında dildən-dilə keçərək bizə gəlib çatmışdır. Vaxtı ilə bu tapıntılar qeydə alınsa da, lazımi idarələrə bildirilsə də yazılı faktlara rast gəlinmir. Bunlar da mənə kəndin tarixi haqqında ətraflı məlumat verməyə çətinlik törədir. Bir bunu qeyd etmək istəyirəm ki, həyətlərin birində qazıntı aparılarkən kişi heykəli (büst) tapılmışdır. Bu heykəl Azərbaycanın xalq rəssamı Səttar Bəhlulzadəyə verilmiş və o bu büstü görkəmli sənətşünas Mürsəl Nəcəfova və tarixçi Sara Aşurbəyliyə göstərmişdir. Onlar tədqiqat aparmış və belə nəticəyə gəlmişlər ki, heykəl eramızdan əvvəl V əsrə aiddir. Heykəlin şəkli Sara Aşurbəylinin «Bakı şəhərinin tarixi» adlı kitabında səhifə 392-də vermişdir.

1932-ci ildə kəndin mərkəzində qədim bir qəbirstanlıq sökülür. Sökülərkən aşkar olundu ki, qəbirstanlıq yeddi mərtəbədən ibarətdir. Qəbirstanlığın dörd üst mərtəbəsi islamaqədərki basdırılan insanların qəbirləri olduğu aşkar olunur. Digər qatlar isə atəşpərəstlik və ondan əvvəlki dövrə aid edilmişdir. Lap alt qatlarda bir qəbirdə iki skeletin olması faktı aşkar edilmişdir. Alt qəbirlərdə məişətdə işlənən qablar, qədim pullar, parça qırıqları, ox, yay, xəncər, daş çıraq qabı, qadın qızıl zinyət-bəzək əşyaları aşkar edilmişdir. Bütün bunlardan məlum olur ki, burada yaşayış bizim eradan çox-çox əvvələ gedib çıxır. Kəndin lap qədim yaşayış məskəni olması haqqında kəndin özü öz qüvvəsi ilə məlumat verir. Mənim məqsədim müxtəlif dövrlərdə müxtəlif alimlərin dedikləri və yazdıqları məlumatları üzə çıxarmaq və həmin faktlara əsasən kəndin özünə layiq və insanlarına layiq böyük tarixini Azərbaycan oxucularına çatdırmaqdır.

Azərbaycanın qədim kəndlərindən biri Əmircandır. Kəndin ən qədim adı Xilə, sonradan dəyişdirilib ikinci adı Əmircan olmuşdur. El arasında geniş yayılmış rəvayətlərdən birində deyilir ki, çox-çox qədim zamanlarda burada Hillə qəbiləsi, bəzən onlara Xilə tayfaları deyildiyinə görə kəndin adı buradan götürülərək Xilə adlanmışdır. Bir daha qeyd etmək istəyirəm ki, aparılan arxeoloji qazıntılar bunu deməyə əsas verir ki, yaşayış burada qədimə gedib çıxır. Lakin Azərbaycanın bir çox ərazilərində Xilə kəndləri vardır. Onlarda nə qədər arxeoloji qazıntılar aparılıb deyə bilmərəm, lakin miladdan əvvəl V əsrə aid tapılmış kişi büstü belə deməyə əsas verir ki, Abşerondakı Xilə kəndi bu kəndlərdən ən qədimidir.

Sara Aşurbəylinin «Şirvanşahlar dövləti» kitabında Xilənin qədim adının yaranması haqqında belə bir məlumat verir: «Abşeron toponimikasının təhlili eyni bir ərazidə bir neçə toponimika qatının mövcud olduğunu göstərir. Bu baxımdan Əmircan kəndi səciyyəvidir. Onun müasir adı ilə yanaşı, heç bir dəyişikliyə uğramadan köhnə adı - Xilə adı da qalmışdır. Bu adla Azərbaycanın digər rayonlarında Xıllı, Xilə, Dağ Xıllı, Xile, Xilu, bir neçə kəndin adı çəkilir.

Məlumdur ki, VII əsrdə ərəblər tərəfindən istila edildikdən və burada islam dini yayıldıqdın sonra Arranda, Şirvanda və Zaqafqaziyanın digər ölkələrində qədim məbədlər müsəlmanlaşdırılmağa, ərəb-müsəlman dini adları ilə adlandırılmağa başlandı. Qədim məbədlərin, bütxanaların yerində pirlər, xanəgahlar, türbələr, məqbərələr, meydana gəldi.[2]

Kəndin ikinci adı «Əmir-həc» ərəb sözü olub, tərcüməsi - hacılar əmiri deməkdir. Ərəb xilafəti zamanı bir vəzifə və ya rütbə kimi meydana gəlmişdir. Əmir sozünün lüğəvi mənası - böyük, başçı, bəydir deməkdir. Xilə kəndinin ərəb xilafəti zamanı sahibi, böyük mülkədar, Əmir Nizaməddini Şirvan şahı və şeyxülislam Əmirhəc təyin etmişdir. Əmirhəc Nizaməddin XIV əsrdə Bakı mahalında çox məşhur və hörmətli şəxs olmuşdur.

***1. N. Kərimov, " Qırx il səyahətdə", Bakı 1977, səh. 56***

***2. S. Aşurbəyli, "Şirvanşahlar dövləti", Bakı 1997, səh. 32***

73. Представляет интерес термин «амир-и хадж», упомянутый в надписи. Ал-амир Низам ад-Дин амир-и хадж б. сахиб ал-а'зам Фахр ад-Дин, по повелению которого было построено здание мечети в 730 г. х. = 1329/30 гг., был амир-и хадж при дворе ширваншахов. Амир-и хадж возглавлял группу паломников в священный город Мекку. Лица, назначенные на эту должность, утверждались государством. По описанию позднейшего историка Мирзы Мехти Астрабади должность «амир-и хадж» имела международное значение. Надир-шах, заключая мирное соглашение в 1736 г. на Муганском курултае с турецким правительством, особое внимание уделял репутации лица, назначенного на должность «амир-и хадж».

Этот вопрос являлся одним из пяти пунктов соглашения о том, что «амир-и хадж» должен назначаться Иранским государством и должен быть призван Турецким государством как «амир-и хадж Египта и Шама» [259, *167*].

На основе этого можно сказать, что должность «амир-и хадж» имела политическое значение в мусульманских государствах Ближнего Востока.

Отец Низам ад-Дина Фахр ад-Дин, как видно из его эпитета «сахиб ал-а'зам», был визирем в государстве Ширван в конце XIII — начале XIV вв. Эпитет «сахиб ал-а'зам», по ал-Калкашанди, являлся лакабом визирей [236, *17*].

Его сыновья, как можно констатировать из других надписей на стене мечети «Низам ад-Дин» в пос. Амираджан и соборной мечети в крепости г. Баку, находились на ответственных должностях в Ширване.

Первый сын, Шараф ад-Дин Махмуд, был на должности главнокомандующего армией — «малик ал-умара ва-л-акабир», второй сын Низам ад-Дин был «амир-и хадж», третий сын — Шейх Насир ад-Дин Кутлуг-шах. Эпитет «шейх» говорит о том, что он был ученым. Сын Насир ад-Дина Кутлуг-шаха, носивший имя своего дяди Шараф ад-Дина Махмуда, расширил и отремонтировал здание мечети, которая была построена его дядей Низам ад-Дином в 730 г. х. = 1329/30 гг., о чем повествует другая надпись амираджанской мечети [143, *64*].

Пос. Амираджан свое название получил по должности «амир-и хадж» амира Низам ад-Дина. Здесь и по сей день существует предание о том, что оно основано когда-то жившими здесь братьями Амиром и Шарифом.

По всей вероятности, местность, где расположен поселок и его окрестности, были имениями визиря Фахр ад-Дина и его сыновей Низам ад-Дина, Насир ад-Дина Кутлуг-шаха и сына последнего — Шараф ад-Дина Махмуда


















*Alban memarlığından sütun altlığı*





**327. Пос. Амираджан.**

Мечеть «Низам ад-Дин». Двухстрочная арабская надпись, почерк — насх:

١) انما يعمر مساجد الله من آمن بالله و اليوم الآخر و اقام الصلوة و آتى الزكوة [1]

٢) قد بناء هذ المسجد فاطمه خانم بنت حاجى بدل فى تاريخ سنة ١٢٩٣ كتبه محمد تقى

1. ...[1].

2. Эту мечеть построила Фатима-ханум дочь Хаджи Бадала в 1293 году. Написал Мухаммад Таки[2].

1293 г. х. = 1876 г.

[1] Коран, IX — 18.

[2] *Нейматова, Рзаев.* Мечеть «Низам ад-Дина», с. 249, 250; *Она же.* Докторская, ч. 1, надпись № 137.

**290. Пос. Амираджан.**

Мечеть «Низам ад-Дина»[1]. Арабская надпись на главном фасаде, почерк — насталик. В картушах:

١) بسم الله الرحمن الرحيم

٢) فاد خلوها بسلام آمنين ١٢٤٦

٣) عمل سليمان

1. Во имя Аллаха милостивого, милосердного

2. Входите в нее (мечеть) с миром в безопасности, 1246.

3. Сделал Сулайман[2].

Имя мастера выходит за рамки надписи и высечено в ее верхних углах.

1246 г. х. = 1830/31 гг.

[1] Мечеть построена в 730 = 1329/30 гг. См. № 73.

[2] *Рзаев, Нейматова.* Мечеть «Низами ад-Дина», с. 247, 248; *Нейматова.* Докторская, надпись № 134.









**315. Пос. Амираджан.**

Мечеть «Низам ад-Дина». Двухстрочная арабская надпись вмонтирована над стрельчатой аркой двери, почерк — насх:

١) [هو]الحى [الذى لا يموت وكل حى س]يموت

٢) عمل استاد عباسعلى ١٢٨٣

1. Он [Аллах] живой [не умирает, а все живое] умирает.

2. Сделал мастер Аббас Али. 1233.

1283 г. х. = 1866/67 гг.

**290. Пос. Амираджан.**

Мечеть «Низам ад-Дина»[1]. Арабская надпись на главном фасаде, почерк — насталик. В картушах:

١) بسم الله الرحمن الرحيم

٢) فاد خلوها بسلام آمنين ١٢٤٦

٣) عمل سليمان

1. Во имя Аллаха милостивого, милосердного

2. Входите в нее (мечеть) с миром в безопасности, 1246.


3. Сделал Сулайман[2].

Имя мастера выходит за рамки надписи и высечено в ее верхних углах.

1246 г. х. = 1830/31 гг.

[1] Мечеть построена в 730 = 1329/30 гг. См. № 73.

[2] *Рзаев, Нейматова.* Мечеть «Низами ад-Дина», с. 247, 248; *Нейматова.* Докторская, надпись № 134.





**73. Пос. Амираджан. Мечеть «Низам ад-Дин».**

Надпись выполнена в гармоническом сочетании с растительным орнаментом на горизонтально вмонтированной над дверью плите на восточной стене центральной части мечети. На этом камне высечены две первые строки надписи, третья — на тимпанах дверного проема.

Первая строка содержит двустишие на персидском языке. Текст первого стиха сильно поврежден, что затрудняет его чтение. Первое слово о нем начинается со слога در . Все слово можно прочесть как درگه далее текст неразборчив, и по остаткам букв можно составить слово مرگز Последующие слова можно прочесть как زور و هوس .

Второй стих хорошо сохранился и читается легко:

كار درگاه خداوند جهان دارد وبس

Имеется дело до чертогов Властелина мира (Бога. — *М. Н.*), и только.

Весьма возможно, что дальнейшая работа над этой надписью приведет к более точному чтению[1].

Вторая строка — арабская:

١) امر هذ[ا] بيت الله تعالى الامير نظام الدين امير حاج ابن صاحب الاعظم فخر الدين لابده

٢) فى شهور سنه ثلاثين و سبعمائه

1. Приказал [построить] этот дом Аллаха всевышнего амир Низам ад-Дин амир-хадж б. сахиб ал-а'зам Фахр ад-Дин навеки.

2. В месяцы семьсот тридцатого года.

730 г. х. = 1329/30 гг.

Надпись в настоящее время выветрилась.

[1] *Нейматова.* Ширван, с. 27—29.







***Əmirhəc mavzoleyi***

Uzun illər axtardığım elmi arxivlərdə bu dövrə aid çox maraqlı bir sənədi sizin nəzərinizə çatdırmaq istəyirəm. 1951-ci ildə tarixçi və tədqiqatçı S. Kərimzadə kənddə maraqlı bir abidəyə rast gəlir. El arasında ona bu abidə ilə əlaqədar maraqlı söhbətlər danışırlar. Bu tədqiqatçını çox maraqlandırır, o, abidəyə baxır. Həqiqətən də bu abidə «Mavzoley» tipli bir tikilidir. XIV əsrə aid abidənin quruluşu haqqında «Göyçək pir»in qərb tərəfindəki tikili məlumat verir. «Göyçək pir» üstündəki qədim daş butalar 786-cı ildə (1384-1385 illər) bərpa edilmiş Nizaməddin məscidinin üstündəki daş butaların eynidir, oxşarıdır. Türbənin planı dörd bucaqlı olub, xaricdən 7.10x4.90 metr, daxildən isə 5.70x3.50 metrdir. Divarın qalınlığı 70 sm-dir. Abidənin düz səthi, damı və döşəməsi torpaqla örtülmüşdür. Tavanı çatma tağlı olduğu üçün daxili cənub və şimal divarlarında çatma tağ şəklini almışdır. Türbənin qapısının hündürlüyü 150 sm, eni 80 sm-dir. Türbənin daxili yüksəkliyi 3.3metr, xarici yüksəkliyi 3.6 metrdir. Türbənin iki pəncərəsi vardır. Birinci pəncərə 70 sm x 50 sm-lik, yerdən 1.9 metr hündürdədir. Türbənin içində üç qəbir yan-yanadır. İki qardaşın qəbri olan Əmir və Şərifdir. Həmin qəbirlərin birinin üstündə kitabədən üç sətirlik belə yazını oxuyuruq: «Allah, bu qəbir Cahan banunundur». Digər qəbrin baş daşının arxasında buta şəkli və Əmir həcc sözləri yazılıb. Bütün bunlar düşünməyə əsas verir ki, Əmir həcc bu kənddə yaşayıb və burada dəfn edilib. «Göyçək pir» və movzoley Azərbaycanın memarlıq tarixi üçün ən dəyərli maddi bir vəsiqə və maraqlı tapıntıdır.[1]

Əmircandakı Nizaməddin haqqında bunları demək olar. Kənddə belə rəvayət edirlər ki, ərəblərin gəlişinə qədər müqəddəs yerlər Atəşhun və Multanı məbədi (Nizaməddin) olmuşdur. VIII-IX əsrlərdə ərəblər Azərbaycana gəlməklə bütün məbədləri məscidlərə çevirdilər. Nizaməddin də o vaxt yenidən bərpa olundu. Lakin ətrafında aparılan arxeoloji qazıntılar burada qədim qəbirlərin olduğu və həmin qəbirlərdən çox qədim zamanlarda yaşamış insanların sümükləri və onlara məxsus əşyalar bunu deməyə əsas verir ki, buradakı tikili islamdan əvvələ aiddir. Məscidin qapısının üstündə yazılmışdır: «Bu məscidi Əmir Nizaməddin - «Əmir həc» böyük mülkədar Fəxrəddin Qutluqşah oğlu bərpa etmişdir. Hicri 730 (1329-1330 il). Daha sonra yazır: «Əmir Nizaməddin - Əmir həc kəndin böyük mülkədarı olmuş onun adı ilə kəndi Əmircan adlandırmışlar. Şirvanşahlar sarayında ona verilən şərəfli ad sahibi Məkkəyə ziyarətə gedənlərin rəhbəri hesab olunur».

Sonralar da Abşeron kəndlərində və Bakı mahalında Məkkəyə gedənlər Xilə kəndinə gəlib buradan həccə gedərdilər. Qədim zamanlardan kənd Nizaməddin məbədi, mülkü ətrafında tikilib böyüyürdü. O dövrün evləri yeri qazıb hündürə qaldırırdılar. Buna görə də evlər alçaq, tağlı və bir iki pəncərədən ibarət olurdu. Uzunluğu 7-8 metr, eni 3 metr olan bu tağlı evlərin 1 hissəsi ailə üçün, 2 hissəsi mal-qara üçün idi. Evin damında bir baca tikilirdi - bu baca həm işıq düşmək üçün, həm də tüstü çıxmaq üçün idi.

XVIII əsrin ikinci yarısı və XIX əsrin əvvəllərində yaşamış qədim nəsllərdən olan Mirzə Məhəmməd xan atası, babası və Abbasqulu ağa Bakıxanov Əmircanda Nizaməddin mülkündə yaşamışlar. Mülkün ətrafında qədim nəslə malik evlər indidə qalmaqdadır. Bu nəsillərdən Hacı Hacıbaba, Hacı Bəbir, Hacı Şeydabəy, Şıx Nəcəf, Hacı Nəzərəli, Şərifli, Aydəmir, Dəmirqaya, Doudbəylilər, Şahpulatı göstərmək olar.[2]

Nizaməddinin yanında Abbasqulu ağa Bakıxanovun yaşadığı mülkün bir hissəsi qalmaqdadır.

***1. Azərbaycan EATİ elmi arxivi, inventar 2192.***
***Azərbaycan EATİ elmi arxivi , S. Kərimzadə , "Xilədə movzoley, XIV əsr", 1951-ci il***
***2. Azərbaycan EATİ elmi arxivi, sənəd 2, səh. 127***





XVII-XVIII əsrlərə aid Əmircanda «Meydan yeri» deyilən həftə bazar yeri bu gün də qalmaqdadır. XIV əsrə aid Nizaməddin məscidi dəfələrlə bərpa edilmişdir. Bu məscid yonulmuş əhəng daşından tikilmişdir. Bu abidənin memarlıq baxımından əhəmiyyəti böyükdür. Məscidin baş qapısının üstündəki kitabələr bir neçə tarixi dövrü əhatə etdiyi üçün Xilə kəndinin tarixi haqqında məlumat verir. Son bərpa işi memarlıq abidəsində Kəsrani Şirvanşahlar sülaləsinin dövründə edilmişdir. Məbədin üstündə olan kitabələrdən ən qədimi onun qərb fasadının mərkəz hissəsindəki qapının üzərindədir. Birinci sətir fars dilində yazılmış bir beytdir: «Dünya bir əyləncə, dəbdəbə, şan-şövkət və iztirabdan başqa bir şey deyildir». Kitabənin ərəb dilində yazılmış ikinci sətri belə oxunur: «Bu Allah evinin bərpasını əzəmətli Fəxrəddin oğlu Əmir Nizaməddin Əmirhəc təmir etdi. Hicri qəməri 730-cu il, miladi tarix 1329-1330».

Həmin abidə üzərində adı qeyd olunmuş Əmir Nizaməddin Kəsrani Şirvanşahlar dövründə hörmətli mövqeyə malik olmuşdur. Kitabədə Nizaməddin kəlməsindən əvvəlki Əmir titulu məbədi tikdirən feodalın abidə tikilərkən Əmircan kəndinin və ya Abşeronun bir hissəsini idarə etdiyi ehtimalını yürütməyə imkan verir. 1384-85-ci illərdə Nizaməddin məbədi iki qardaş Əmir həc və Şərifətdin tərəfindən təmir edilmiş və onun cənub tərəfə baxan həyətində yeni bir qapı tikdirmişdir. Qapının üstünə kitabə qoyulmuşdur. Ərəb dilində iki cərgədə həkk olunmuş kitabənin oxunuşu belədir: «Bu imarətin tikilməsini Nəsrəddin Qutluqşah oğlu Şeyx Mahmudun oğlu Şərifətdin əmr etmişdir. Hicri 786, miladi (1384-1385)». Məbədin üzərində olan digər kitabələrə əsasən demək olar ki, 1830-1831-ci illərdə məbədə əsaslı təmir işləri aparılmışdır. Onun şimal divarının yanında əlavə yeni xanə tikilmişdir. Məbədin qərb fasadının şimal tərəfində qoyulan qapı yerinin yuxarısında yerləşdirilmiş iki üfüqi kitabədən nəstəliq xətti ilə yazılan üst kitabədən görünür ki, məscidi təmir etdirən yerli usta Süleyman Abbasqulu oğlu olmuşdur. 1876 - cı ildə Nizaməddin məbədində əsaslı təmir işləri aparılmışdır. İnşaat işləri haqqında kitabədə belə məlumat verilir: «Həqiqətən bu məscidi Hacı Rəsul qızı Fatma xanım tikdirmişdir. Kitabəni Məhəmməd Nağı yazmışdır. Hicri qəməri 1293, miladi tarixi 1876 cı il». Kitabədən bir daha məlum olur ki, 1876-cı ildə Fatma xanım tərəfindən məscid təmir etdirilmiş və cənuba tərəf xeyli genişləndirilmişdir.

XX əsrin əvvəllərində Nizaməddin məbədində Rizvan oğlu Hacı Xələf tərəfindən bir daha təmir və bərpa işləri aparılmışdır. Məbədin qərb fasadının mərkəzində Nizaməddinin tikdirdiyi qapının qarşısında dörd daş sütundan ibarət portik düzəldilmişdir. Burada ərəb əlifbası ilə bir sətirlik kiçik kitabə vardır. Onun tərcüməsi belədir: «Bu portikin banisi Rizvan oğlu Hacı Xələfdir».

Əhalinin sayı artıqca bir məbəd darısqal olmuşdur. XVII-XVIII əsrlərdə kənddə bir neçə məhəllədə məscid tikdirilmişdir. Bunlardan Binyətdilər məscidini göstərmək olar. Bu məscid 1904-cü ildə Binyətin özü tərəfindən öz vəsaiti hesabına tikilmişdir və məscid onların nəslinin adı ilə adlanmışdır. Bu məscidlər dövlət tərəfindən mədəniyyət abidəsi kimi qorunur.

Əmircan kəndinin qədim tikililərindən danışarkən özünəməxsus tikililərdən olan ovdanlardan söz açmaq lazımdır. Ovdan - (farsca ab, təhrif olunmuş şəkli ov-su+dan - yer bildirən şəkilçi, su olan yer deməkdir). Bəzi şərq ölkələrində o cümlədən Azərbaycanda (xüsusən Abşeronda) yağış, süxur və kəhriz sularını toplamaq üçün qədimlərdə tikilən su təchizatı qurğusudur. Ovdanlar yerüstü və yeraltı hissələrdən ibarətdir. Yerüstü hissə giriş yaraşıqlı baştaq şəklində tikilir. Müəyyən dərinliklərdə yerləşən hovuzda üstü tağvarı örtülmüş maili pillələr enir. Xilə yolu üstündə bir neçə ovdan olmuşdur. Bakıxanov dağı üstündə hal-hazırda dörd su ovdanı qeydə alınmışdır. Xilə kəndinin şərq hissəsində qədimdə içində kəhrizlər olan ovdanlar qeydə alınmışdır. Quyularda suyun artdığı, yağışların gur yağdığı vaxtlarda bu sular ovdanlara yığılar, yaxın kəndlərə və mədənlərə çəlləklərlə su daşınılardı. Kəndin yuxarı hissəsi olan indiki 232 saylı məktəbin yaxınlığında qədim bir ovdan qalmaqdadır. Bu ovdana «Bakirə qız ovdanı» deyirlər. Rəvayətə görə qız nişanlı olan zaman adaxlısı ölür. Qız adaxlısının xatirəsini əbədiləşdirmək üçün birinci dəfə görüşdükləri yerdə və adaxlısına su verdiyi yerdə ovdan tikdirmişdir.



187. **Пос. Амираджан.**
Водохранилище, ныне не сохранившееся. Фотонегатив надписи находится в НАИИ АН Азерб. ССР под инв. № 1559. Надпись врезная, почерк не каллиграфический. Текст содержит грамматические ошибки:

١) این تعمیرات شد مرسافلی
٢) بن امامعلی[1] وقف کرد و
٣) مرظتن[2] الله کاتب الرقه[3] کربال[4]
٤) هیتقلی سنة ١٠٣٣

1. Этот ремонт сделал, Мурсакули
2. б. Имамали пожертвовал его
3. ради милости Аллаха. Писец Кербалаи
4. Хайбат Кули. Год 1033.
1033 г. х. = 1623/24 гг.

[1] Должно быть لمرضات
[2] Должно быть الحروف
[3] Должно быть كربلائي
189. Пос. Ка[illegible]

187. В надписи речь идет о ремонте водохранилища в 1033 г. х. = 1623/24 гг. По-видимому, оно существовало еще задолго до этого. Но ныне водохранилище не сохранилось. В списке об охране памятников культуры и археологии оно не регистрировано.






**380. Пос. Амираджан.**
Мечеть у поселкового Совета. Надпись над входом. Почерк — насх:

١) المسجد اسس على التقوى يا الله
٢) سنة ١٣٢٢ اوستاد ميرزه ملك عباسقلى‌زاده

1. ...[1].
2. Год 1322. Мастер Мирза Малик Аббас Кули-заде.
1322 г. х. = 1904/05 гг.

[1] Коран, IX — 109. Стих не закончен.





***Səkinə xanım Mirmehdi Seyid qızı (17??-1880)***

XX əsrin əvvəllərində Bakıxanov qəsəbəsində Hacı Xonça ovdanı tikilmişdir. Azərbaycanın görkəmli milyonçusu Murtuza Muxtarov arvadı Gonçənaz Hacı Yusif qızı ilə nigahdan ayrılanda onun şərəfinə ovdanı tikdirib. Ovdan zövqlə yonulmuş ağ daşdan tikilmişdir. Bu ovdanlar müharibə vaxtı qorunmaq üçün istifadə olunmuşdur. Sonralar onları saxlamaq heç kimi maraqlandırmamışdır. Lakin, Abşeron və Bakının bəzi yerlərində bu ovdanlar saxlanılmışdır. Azərbaycanda və Şərqdə içməli su quyuları qazdırmaq və ovdanlar tikdirmək çox şərəfli iş sayılardı. Adətən ovdanların üstündə onu tikdirən adamların adları daş kitabələrdə həkk olunardı və tikildiyi tarix yazılardı. Ovdanlar əsas etibarı ilə karvan və araba yolları üstündə tikilərdi.[1]

Orta əsr kəndlərində ən çox işlənən bəqərə dəyirmanlarından da danışmaq lazımdır. Abşeronun bir çox kəndlərində hər məhəllədə bəqərə dəyirmanı olmuşdur. Onlar iki metr diametrində, 30-50 sm qalınlığında iri daşlardan düzəldilirdi. Bəqərə at və öküzlərlə hərəkətə gətirilərdi. Xilə kəndinin özündə dəyirman daşları düzəldən, yonan, dişli daşlar düzəldən ustalar olmuşdur. Bu ustalardan Süleyman, Abbasqulu, Əhməd, Məsmalı, Mirzə Məlik, Şeydabəyin adını çəkmək olar. Onlar yaxın kəndlər üçün də sifarişlər qəbul edərdilər. XIX əsrin birinci yarısına qədər bu dəyirmanlardan istifadə edərdilər.

Bəşər tarixində baş vermiş böyük coğrafi kəşflərin sədası kəndə də gəlib çatmışdır. XIX əsrin ikinci yarısında kənddə buxar maşını ilə işləyən dəyirman işə salındı. Bu Xələf kişinin dəyirmanı idi. 1896-cı ildə Xilə yolu üstə motor ilə hərəkətə gətirilən dəyirman işə salındı. Bu Paşa dəyirmanı ilə məşhur olmuşdur. Yaxın kəndlər də uzun illər bu dəyirmanın suyundan istifadə etmişlər. Əmircan kəndinin ərazisi olan Bakıxanov dağının altında bir mağara vardır. Qocaların dediyinə görə burada iki «küül» var idi. Biri kiçik, digəri isə 200 adam tutan böyük küül idi. Həmin adamlar atlarını da orada bağlayıb saxlayardılar. Orada daşdaq qazılmış böyük su anbarı da var imiş. Deyilənlərə görə, küülün çox möhkəm qapısı var idi. Həmin küüllərin üstündə bir neçə qələçə də var idi. Qələçələrə çıxmaq üçün pilləkənlər var idi. Onların ətrafında dövrələmə bürclər tikilmişdir. Beş-altı min

*1. S. Aşurbəyli, "Очерки истории средневекового Баку", Баку - 1964, стр. 167*



***Yel dəyirmanları***

adam tutan bürcün hündürlüyü üç sajen idi. Bürclərin içində böyük su anbarı var idi. Elə tikilmişdir ki, xüsusi daş yollarla yağış suları oraya toplanırmış. 1918-ci il erməni-müsəlman qırğınında, 1945-ci il müharibəsində Sabunçu, Bül-Bülə, Zığ, Əhmədli kəndlərinin əhalisinin amangah yeri olmuşdur. Həmin küül haqqında daha çox rəvayətlər danışılırdı. Rəvayətə görə Stepan Razin həmin dağın altına gəlib çıxmış, qaçaqlarını bir müddət orada saxlamışdır. Sonradan Stepan Razin hökumətə təhvil verilmiş və həmin yaşayış yeri uzun illər onun şərəfinə adlandırılmışdır. Deyilən rəvayətlərə baxmayaraq, bu yerlərdə tədqiqat işi aparılmamış və bir neçə dildən-dilə gəzən rəvayətlər bu günə qədər qalmaqdadır.



Kənddə heyvandarlıqdan danışarkən, böyük heyvandarlar nəsli olmuşdur. Bunlardan, böyük qoyunçular nəsli Şahpulat, Əlqılınc və Atabala nəslini göstərmək olar. Böyük dəvə karvanları olan nəsillərin də adlarını çəkmək olar. Bunlar kəndin varlı adamları sayılan Hacı Hacıbaba və Hacı Bəbirdir. Bunların dəvələrinin sayı 1000-ə çatırdı. Onların böyük taxıl zəmiləri var idi. Onlar taxılı toplayıb dərin quyularda saxlayarmışlar. Dəvə karvanları ilə bu taxılı Kərbəla, Nəcəf və Məkkəyə aparardılar. Bundan əlavə onlar zəfəran, quru meyvə və zinyət əşyaları, toxunmuş xalçalar aparardılar. Bu ticarətdən çoxlu gəlir götürürdülər.

Kənddə Xıdır nəslinin adamları atları saxlarmış. Kənddə çoxlu at arabası olan faytonçular da var idi. Hətta yaxın kəndlərdən at və fayton almaq üçün buraya gələrdilər. Faytonlar dəridən zövqlə bəzədilər, xalçalarla və qiymətli daş-qaşlarla bəzədilərdilər. Buna görə də kənddə bir neçə xalça karxanası və dabbaqxanalar var idi. Burada toxucular, papaqçılar, dulusçular, dərzilər, tuluq-motal qayıran peşə sahibləri var idilər. Xalçaçılıq qədim sənət olmaqla bu işlə kənddə əsasən qadınlar məşğul olurdular. Bu sənətin tarixi Abşeronda çox qədimdir. Buna görə də Xilə kəndinin xalçaları - «Xilə buta» və «Xilə əfşan» dünyanın hər yerində məhşurdur və dünyanın bir çox muzeylərində saxlanılır. Ən qədimdən bu günə qədər bu kənddə xalça toxunur. Bu gün də adları məşhur olan ustalardan Zibaxanım, Nurşərəf Həsən qızı, Umnisə Həsən qızı, Nistər və Meyri Nəməd qızları, Fatma Zeynalabdin qızı, Məstan xanım, Ağanisə Məlgümüd qızı, Tərlan Şıxverdi qızı, Pərzad xanım, Pəri xanım, Umxanım və başqalarının adlarını göstərmək olar.







Sub-Group: Khila Buta

Origin Country: AZERBAIJAN, Baku

GeneralHistorical Information: Khila village is located 15 km to the east of Baku. Today the name of the village changed to Amirjan.

Foreign sources erroneously name this carpet "Dagestan".

Pile: pure wool

Warps: wool


Wefts: cotton
DensityKpsm (knots per square meter): (40x50) up to 200 000
Colors: Naturally dyed
Size: 126cmx190cm
Area: 2.4m2
AGE: circa 1975
Art Analysis:

"Hila-buta" carpet has received its name from the village of Hila (Amirjan) while carpets of such pattern are produced in all other carpet-weaving centers of Baku-Absheron as well. Sometimes the name of a carpet type even doesn't have any connection with a certain place at all.

Carpet weaving really is a hard work. In some cases the complexity of this process has found its reflection in the name of a carpet type. For example, one from the "Hila-buta" varieties is named "Gizgaridan", meaning a carpet, that makes a weaving girl grow old - so long and complicated the process of its manufacturing is.


The local nature and dominant colors of the environment necessarily find their reflection in a carpet style's "color language". Dark-blue and yellow tints - colors of sea and sand, are typical for the carpets of the Baku group.The main element of composition of this group of carpets is Buta - one of the richest ornamental elements of Azerbaijan's decorative arts. Buta is frequently used for expression of the fire, flame images.

Chains of these elements are traditionally used either framing carpet's middle field or in the shape of helical tree branches. These chains are integrating separate main and auxiliary decorative elements of a carpet into a complete composition. Besides, they serve to integrate compositionally several Gels - special element groups, which are located horizontally and vertically in a carpet. Gels are medallions, decorating a middle field of a carpet. Sometimes Buta itself is placed in the middle of a Gel. In such carpets the fourth part of Gel happens to be repeated in each of four corners of a middle field, with addition of some elements symbolizing traditional items of household activities, such as wheel of well ("guyu charkhi"), small metal shovel ("kurek"), candlestick ("shamdan"), butterfish ("yagdan"), images of animals, vegetative elements.



***Buta ornaments***

Every new composition with Gels usually appeared as expression of a joy, celebration, wedding. For example Gels, referring to as "Khoncha", are symbolically featuring a bride's adornments and traditional big plates with sweets.



Technical Analysis: Density of "Khila Buta" carpets varies from 40x40 to 45x45 per square decimeter. (from 160.000 to 200.000 knots per square meter)

The height of pile: 5-7 mm

Comments: Khila Buta is considered as one of the best of Azerbaijan Carpets. There are very unique samples of Khila Buta carpets in The State Museum of Azerbaijan Carpet and Applied Art, and also in State Historical Museum of Moscow.

Khila Buta. Baku. 18th century

Khila Buta. Baku. 19th century

Apardığım tədqiqatlardan bunu aşkar etmişəm ki, Moskvada Dövlət Tarix Muzeyində «Xilə buta» və «Xilə əfşan» xalçaları saxlanılır. Bu xalçalar XVIII-XIX əsrlərdə toxunmuşdur. Ölçüsü 1.10x1.80 sm-dir. Ortasında göy rəngli medalyon şəkli, xalçanın üst tərəfində yazılmışdır: «Xilə karxanası hicri 1248-ci il, miladi 1803-cü il»[1]. Qeyd etmək lazımdır ki, evlərin çoxunda bu gün də xalça toxuyan dəzgahlar qalmaqdadır.

*1. S. Aşurbəyli, "Очерк истории средних веков Баку", səh. 205, 209*























Kənddə əhalinin digər məşğuliyyəti də duz istehsalı idi. Kəndin şoru qədimdən duz mənbəyi idi. Onun sahəsi 1.4 km-dir. Abşeron yarımadasında ən böyük şorlardan hesab olunur. Abşeronun bir çox kəndlərindən duzu toplamaq üçün buraya gələrdilər. Hər adam 50-60 batman duz yığar, bir hissəsini məişətdə işlətmək üçün saxlar, qalan hissəsini isə satardılar. Hər ilin iyul ayı duz yığımı ayı sayılırdı. Ailə üzvləri hamı Şora girib kürəklə duzu koma-koma yığıb, arabalara yığıb evlərə daşıyıb qurudardılar. Sonradan həmin duzu karvanlarla gəmilərə yükləyib Rusiya, Astraxan, Türkmənistan, İran və başqa ölkələrə göndərərdilər. Əhalinin bir qismi də əhəng yandırmaqla məşğul idi. Təbii qazın və daş karxanalarında əhəngli daşın olması əhəng yandırmağa şərait yaradırdı.[1]

Orta əsrlərdə Əmircanın mühüm sərvətlərindən biri də neft olmuşdur. XVII-XVIII əsrlərdə Suraxanı sahəsində neft çıxarılırdı. Neft çıxarılmasında işləyənlərin çoxu Xiləlilər idi. Suraxanıda ən qiymətli ağ neft çıxarılırdı. Ağ neft haqqında məlumatları xarici mənbələrdən öyrənirik. Məsələn, 1683-cü ildə Kempferin verdiyi məlumata görə, iki işləyən ağ neft quyusu və səkkiz atılmış quyu var idi.

Kempferin verdiyi məlumatda deyilir: «Suraxanı quyularında, hər quyuda 32 nəfər tər içində işləyən fəhlələr ayda 7-8 abbası pul alırdı». Neft istehsalı ilə məşğul olan fəhlələr nefti çıxarır, tuluqlara doldurur, lazımi yerlərdə anbarlara doldurur və satırdılar. Hər gün 80 araba, 7-8 batmanlıq tuluqlarda neft daşınırdı. Abşeron neftinin gəlirindən şahın xəzinəsinə 7000 tümən yığılardı.

Kənddə əhalinin bir qismi də kənd təsərrüfatı ilə məşğul idi. Varlı adamlar böyük sahələrdə buğda əkdirirdilər. Kənddə suvarma sistemi olmadığı üçün dəmyə taxıl əkilərdi. Kəndin bir qisim əhalisi də bağçılıq və bostançılıqla məşğul olurdu. Kəndin Şor tərəfi deyilən hissəsində başdan-başa böyük bağlar olmuşdur. Burada əncir, üzüm, nar, püstə, heyva, ərik və s. meyvə ağacları olmuşdur. Bostançılıqda qarpız, yemiş və digər tərəvəz bitkiləri yetişdirilirdi. Bunlar arabalarla yaxın kəndlərə satılmağa aparılırdı. Kempferin verdiyi məlumata görə bağlara yaxşı baxıldığına görə bol bəhrə verirdi. Kənddə ən qiymətli bitkilərdən olan zəfəran da yetişdirilirdi. Onun iki növü var: əla növ və sadə növ. Sonra həmin məlumatda deyilir: «XVIIIəsrin əvvəlində Bakı ətrafı ərazidə bir neçə yüz zəfəran bağı var idi. Bu zəfəran xarici ölkələrə göndərilirdi».[2]

Lap qədimlərdə Abşeronda əhali əkinçilik və maldarlıqla məşğul olurdu. İqtisadiyyatın inkişafı əhalinin dolanacağı üçün əsas sahələr idi. Arpa-buğda əkini ən çox üstünlük təşkil edirdi. Təbiətin quraqlıq vaxtı belə dəmyə taxıl əkini ilə yanaşı süni suvarma ilə də əkin əkirdilər. Feodal münasibətləri ömrünü başa vursa da əkinçilik əhalinin başlıca məşğuliyyəti idi. XIX əsrin ikinci yarısında kapitalizmin meydana gəlməsi ilə əlaqədar olaraq neft mədənlərinin salınması nəticəsində Abşeronun bir çox yerlərində olduğu kimi Əmircan sahəsində də əkinlər azalmağa başladı, kəndlilər neftli əkin sahələrini sataraq xeyli hissəsi varlanırdı. Kənd əhalisi arasında sürətlə təbəqələşmə baş verirdi. Artıq XIX əsrin sonunda bir tərəfdən yoxsul kəndliləri istismar edən varlılar kapitalistlər, digər tərəfdən yoxsullar, muzdurlar və fəhlələr meydana gəlirdi. Bunlara baxmayaraq, əhalinin dolanacağı bağçılıq, əkinçilik və heyvandarlıqdan gələn gəlirdən idi. Kəndin bağlarında becərilən meyvə, tərəvəz, zəfəran, meyvə qurusu, üzüm, əncir, tutdan bişirilən doşab, riçal istehsal edilirdi.

Kəndin əhalisinin çoxlu mal-qarası var idi. XX əsrin əvvəlində mal-qaranın sayı azalmağa başladı. Buna səbəb neft sənayesinin sürətli inkişafı idi. Kənddə məşhur heyvandarlar nəsli öz sürülərini qoruyub saxlayırdılar.

---

*1. S. Aşurbəyli, "Oçerk istorii srednix vekov Baku", səh. 204, 205, 209*

*2. S. Aşurbəyli, "Oçerk istorii srednix vekov Baku", səh. 200*






















Orta əsrə aid qədim tağ evlər
Əmircan kəndi 15-16-cı əsr



Ət-süd, yun satmaqla məşğul olurdular. Məsələn, məşhur qoyunçulardan Şahpulat və Atabala nəsli mal-qara surülərini saxlayırdılar. Onların 1500-dən artıq qoyunu olmuşdur[1] .

Kəndin varlı nəsllərindən olan Hacı Bəbirin və Hacı Hacıbabanın 200-250 dəvələri qalmaqda idi. Neftli sahələrdən varlanan sahibkar, «xozeyin» adlandırılan Ağa Şərif, Balaş Xıdır oğlu, Kərbalayi Muxtar, Məşədi Soltan, Kiçmirzə Babayev, Məşədi Babaş, Hacı Yusif, Məşədi Səməd, Abbasqulu, Süleyman, Məşədi Xəlil, Məşədi Sübhan, Kərbəlayi İsmayıl, Kərbəlayi Mülük, Kərbəlayi Şəmsi, Kərbəlayi Rəşid kimi adamlar bu kənddəndir. Onların həyətlərində 10-15 at arabası olardı. Onların böyük mülkləri və yaşayışı digərlərindən fərqlənirdi. XX əsrin 20-30-cu illərində kənddə telefon xətti, müasir texniki avadanlıq var idi. Onlar mədənlərində «götürə» (podryat) iş götürüb, muzdla arabaçılar götürüb işlədərdilər. Bu dövrdə podryat iş işləyənlərin sayı daha çox olmuşdur. Kənddə faytonçular və atı-arabbası olan kəndlilər podryat qrupuna daxil olurdular və birlikdə işləyirdilər. Podryatçılar heç vaxt iş axtarmırdılar. Çünki podryatçı sahibkarlar da böyük iş görmək üçün sifarişlər qəbul edirdilər, sonra da bu işlər briqadalar tərəfindən icra olunurdu. Bəzən podryatçılar qrupu 30-40 arabadan ibarət olurdu. Podryatçılar arabaçıları bu yolla istismar edirdilər və bu yolla daha çox varlanırdılar. Artıq XIX əsrin 60-cı illərindən başlayaraq kəndin ərazisində sürətlə neft mədənlərinin salınması başlandı.

Tarixə müraciət etsək görərik ki, Abşeron yarımadasında neft qaz yataqlarının olması ən qədim dövrdən məlumdur. Burada neft sənayesinin inkişafı Əmircanın Suraxanı sahəsindəki ərazisi olmuşdur. Bu ərazi ən qədim dövrlərdə özünün daimi odu və ağ nefti ilə tanınmışdır. Bu gün də Əmircanda keçmiş atəşpərəstlərin məbədi Atəşgah qalmaqdadır. Lap əvvəldə qeyd etdiyimiz kimi Atəşgah daimi işləyən muzey statusu alıb. Qədim dövrlərdən şərq ölkələrindən atəşpərəstlər buraya gəlirdilər. Azərbaycan bütün dünyada qədim adı odlar ölkəsi gedir. Bu adı ona ulu babalarımız vermiş və bütün ərazisində çıxan neft onu daimi odlar ölkəsi kimi dünyaya tanıtmışdır və bu gün Əmircandakı Atəşgah dünya atəşpərəstlərinin ən qədimdən bu günədək qalan canlı şahididir. Yunan tarixçisi və filosofu Plutarx Makedoniyalı İsgəndərin yürüşlərindən bəhs edərkən Abşerondakı Atəşgah və neft haqqında yazmış, eramızdan əvvəl I əsrdə yaşamış yunan tarixçisi və coğrafiyaşünası Strabon neftin təkcə yanacaq kimi yox, həm də təbabətdə tətbiq edilməsindən yazmışdır. Yunan tarixçisi və tarixin atası sayılan Herodot «Tarix» əsərində qədim Azərbaycan hökmdarı və sərkərdəsi Tomris haqqında yazılarında Tomrisin ordusundakı döyüşçülərin odlu mayedən istifadəsi haqqında qeydlər etmişdir.

Arxeoloqların fikrincə, neftdən eramızdan əvvəl VI minillikdən istifadə etməyə başlamışlar. Qədim dövrlərdə neftdən çıraqlarda yandırılır, dərman kimi istifadə edilir, hərbi yürüşlərdə «yandırıcı ox» hazırlanmasında istifadə edirdilər. VIII əsrdə yaşamış məşhur səyyah bakılıların ocaqlarında od əvəzinə neftli torpaq yandırılmasını qeyd edir. IX əsrin ikinci yarısında ərəb tarixçisi Əhməd Balazuri yazırıdı ki, 754-cü ildə Azərbaycan hökmdarı Abşeronda çıxarılan neft və duzun üzərinə vergi qoyurdu. Abşeron yarımadasındakı neft haqqında tarixi məlumatlar X əsrə təsadüf edir. O zamanlar neft Əmircan və Balaxanı kəndlərində, dərinliyi 8-10 metr olan, dayaz quyulardan çıxarılırdı. Venesiyalı səyyah Marko Polonun yazdığına görə, Abşeronda çıxarılan neft dəvə

*1. Azərbaycan SSR EATİ Elmi arxivi, fond 1-17, iş № 7802, sənəd №6, səh. I*

karvanlarında aparılaraq Bağdad bazarlarında satılırmış. Bakı nefti haqqında 1683-cü ildə İsveç müvəkkilinin katibi Kempfer məlumat vermişdir. O, Bakının ağ nefti haqqında danışarkən Əmircanda çıxarılan ağ nefti nəzərdə tuturdu.

XVIII əsrdə I Pyotr Bakının ağ nefti ilə ətraflı maraqlanmışdır. Neftin dünyada emalının vətəni - Azərbaycan sayılır. Belə ki, yerli sahibkar Cavad adlı şəxs Əmircanın yuxarı hissəsində ağ neft zavodu tikdirmişdir. Bundan sonra xarici ölkələrin şirkətləri Bakıya axışırdılar. Bakı mədənlərində gözlənilmədən elə fontanlar olurdu ki, bəzən gündə 1000 tonlarla neft çıxırdı. Heç yerdə, heç kəsin tanımadığı adi bir adam birdən-birə dönüb olurdu milyonçu. Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Musa Nağıyev, Murtuza Muxtarov və yüzlərlə adamlar belə varlanmışlar.

Kəndin əhalisinin həyatında böyük dəyişiliklər əmələ gəlirdi. Burada sürətlə neft quyuları qazılır, yollar çəkilir, müxtəlif texniki avdanlıqların düzəldilməsi, təmiri emalatxanaları meydana gəlir, buharxanalar, yaşayış evləri, qazarmalar tikilməyə başlayırdı. Suraxanı sahəsində əmircanlıların «Vurma» mexaniki üsul ilə birinci quyu 1873-cü ildə qazılmışdır. Mexaniki vurma üsulu neft quyularının qazılmasında tətbiqi quyuların qazılmasını xeyli sürətləndirdi ki, bunu Əmircanın Suraxanı sahəsində 1874-1878-ci illərdə qazılmış neft quyularının sayından görmək olar.

***Cədvəl 1***

| İllər | 1874 | 1875 | 1876 | 1877 | 1878 | Cəmi |
|---|---|---|---|---|---|---|
| Qazılmış quyular | 1 | 9 | 9 | 14 | 22 | 55 |

Bu cədvəldən məlum olur ki, yeni qazma üsulu ilə 5 ildə 55 neft quyusu qazılmışdır. Çox çəkmədi ki, ştanq ilə fırlanma qazma üsulu meydana gəldi. Bu üsul ilə də buruqdan, ştanqdan, balta, kanat və blokdan istifadə edilirdi. Qazılmış süxur jelonka vasitəsi ilə təmizlənirdi. Lakin bu üsul ilə baltanı vurma əvəzinə fırlatmaq lazım gəlirdi.[1]

Rza Mirzəyev firmaları istifadə etməyə başladı. Əvvəl Suraxanıda, sonralar Balaxanı və Ramanıda quyular qazılmağa başladı.

Azərbaycanda, o cümlədən Bakıda neft sənayesinin balta, jelonka, kanat və s. ilə təmin edən bir neçə xırda emalatxana və texniki cəhətdən geridə qalan kiçik zavodlar var idi. Fabrik, zavod məhsulları istehsalı aşağı səviyyədə olduğuna görə sənayenin kustar şəkildə artmasına səbəb olmuşdur.

Neft istismarı sahəsində yeni üsullar tətbiq edilmədiyindən əsrin əvvəlində neftin hasilatı azalırdı.

Maksim Qorki «Fabrika zavodların tarixi» adlı məqaləsində göstərmişdi: «Köhnə zavodların inkişafı və yeni zavodların yaranması fəhlələrin inqilaba qədər vəziyyəti, fəhlələrin zavodlarda istismarı, fəhlələrlə sahibkarların mübarizəsi, yaşayış şəraiti, işçi tiplərinin dəyişməsi, yeni mütəxəssislərin cəlb olunması istehsalatın inkişafına təsir göstərirdi»[2].

Neftçıxarma sahəsində dərinlik nasoslarının tətbiqi Əmircanlı ustalara XIX əsrin 80-ci illərindən məlumdur. Həmin dövrdə Abşeronun bütün kəndlərində Əmircanın qocaman neft ustaları böyük şöhrət qazanmışlar. Bunlardan Hacı Heybətqulu Məmmədqulu oğlu, Məmmədhüseyn Hacıbaba oğlu, Hacıbaba Hacı Hacıbaba oğlu, Yusuf Əbdülrəhman oğlu, Cəbrayıl Əyyub oğlu, Səməd Fərzəli oğlu, Dostməmməd Mürvətəli oğlu, Cənnətalı Güləli oğlu, Əlimədət Muradəli oğlu, Dövralı Yarəli oğlu, Həmzəli Fətəli oğlu, Əmirxan Mirzə oğlu, Əlihəsən Nadir oğlu, Dünyamalı Ağaəli oğlu, Məşədi Bünyət Hümbət oğlunu göstərmək olar. «Vışka» qəzeti birinci «Neftçilərin vətəni» məqaləsində yazır: «Hacı Heybətqulu birinci neft ustası Abşeron mayakı yanında (Pirallahıda) birinci buruğu qazmışdır. O, Yusuf Əblülrəhman oğlu və Əlimədət Muradəli oğlu həmin quyunu qazmışdır»[3].

XIX əsrin ortaları XX əsrin əvvəllərində Bakı nefti dünyaya səs salır. Abşerona Rusiyadan və dünyanın hər yerindən neftlə maraqlanan mütəxəssislərin axını başlayır. Peterburqdan böyük kimyaçı alim Mendeleyev Suraxanıya ağ neftlə əlaqədar tədqiqatlar aparmaq üçün göndərilir. Atam danışışr ki, Mendeleyev və Varonçov-Daşkov babamın bir neçə gün qonağı olmuşdur. Bir yerdə çəkdirdikləri şəkil Tbilisidə Dövlət arxivində saxlanılır[4].

1866-cı ildə sahibkar Mirzoyev Atəşgah yanında qüvvətli ağ neft zavodu tikdirdi. Bu zavodda hər birinin 100 pud tutumu olan qazanlar var idi. Bir dənə altı at qüvvəli buxar maşını var idi[5].


Neft hasilatı artdıqca neft emalı işi də inkişaf edirdi. Ağ neft, neftdən hazırlanan yağa ehtiyac artırdı. Əmircanın şimal hissəsi ərazisində birinci ağ neft zavodu işə salındı. Bu zavod haqqında kəndin qocaman neftçilərindən Hacı Heybətqulu Məmmədqulu oğlu (1827-1942) belə deyir: «Yadımdadır, Hacı İbrahim öz yerini (Atəşga-

***1. S. M . Quliyev, "Azərbaycanda neft quyularının qazılması tarixindən", Bakı, 1962, səh. 22.***
***2. "Pravda qəzeti", 7sentyabr 1931-ci il***
***3. "Vışka" qəzeti, 7 noyabr, 1935***
***4. Az. SSR EATİ Elmi arxivi, iş № 7802, sənəd № 5, səh. I***
***5. A.S. Sumbatzadə, "Промышленности Азербайджана в XIX век", səh. 287***

hın yanındakı torpağını) sahibkar Kokorevə satdı. Sonra Kokorev, Qubonin və Baron Tornao ilə o yerdə ağ neft zavodu tikdilər. Mən özüm onun tikintisində iştirak etmişəm. Zavod tikilib qurtardı, onun yaxınlığında olan bir neçə ağ neft quyusu sahmana salındı. Zavod bir müddət qüsurlu işlədi».

Sonralar qazmada buxarla, sonra isə neft və elektriklə işləyən dəzgahlar tətbiq olundu. İri neft sahibkarı Lüdviq Nobel neft quyularında nasos qoyulmasını tətbiq etdi. Bu əvvəllər yaxşı nəticə verdi. Lakin bu yeniliyin də ömrü uzun olmadı. Həmin dövrdə yeni qazma dəzgahları, baltalar, məhlul vuran dəzgahlar tətbiq olunurdu. Lakin bu yeniliklərin də ömrü uzun olmadı. Neft kapitalistləri hər bir texniki yeniliyi boğmağa çalışırdı. Fəhlələrin əməyinin vəhşicəsinə istismarı onlara daha çox gəlir gətirirdi.

«Gilli məhlul ilə fırlanma rotoru qazma dəzgahı ilə birinci dəfə 1913-cü ildə 45 nömrəli quyu qazıldı». Neftin istehsal olunması, quyulardan neftin əl ilə çəkilməsi də ağır və təhlükəli olmuşdur. Suraxanı sahəsində XIX əsrin 70-ci illərində 20-yə yaxın a ğ n e f t quyuları olmuşdur. Onlardan bəziləri daş ilə hörülmüş, bəziləri hörülməmiş, bəziləri isə ağızlarında dolama çarxlar vardı. Nefti çəlləklərlə çəkərdilər. Quyu yanında daşdan tikilmiş hovuz və ya qazılmış anbara tökərdilər. Oradan boçkalı arabalarla daşıyırdılar. Suraxanı ağ nefti dünyada bu gün də ən əla neft sayılır. Neft hasilatı artdıqca neft emalı işi də inkişaf edirdi. Dünyada ağ neft, neftdən hazırlanan yağlara da ehtiyac durmadan artırdı. Əmircanda dünyada ilk dəfə olaraq birinci ağ neft zavodu 1859-cu ildə tikilmiş və işə salınmışdır.





***1859-cu ildə tikilmiş ilk Ağ Neft zavodu.***



***Ağ neft zavodunun qalıqları***



***Birinci Ağ Neft Zavodunun qalıqları. XIX əsr.***





***Emanuil Nobel (Lüdviq Nobelin oğlu)***

***Xilə 1895-ci il (Hazırda Şəfəq küç. №1), Neft xozeyini Kəblə Muxtar Əbdül Həsən oğlunun həyətində çəkilmiş foto. Ailə foto arxivindən nəvəsi Bilqeyis xanım tərəfindən***


,



***Xilə. Emanuil Nobel mexaniki zavodun yaşlı nəsil fəhlələri arasında, 1897-ci il (ortada oturub)***



***Xilə. Nobel Ağ Neft Zavodunun qalıqları (1879-cu il)***



***Xilədə neft mədənləri. XIX əsr***

Xarici kapitalistlərlə yanaşı yerli neft milyonçuları sahibkarlar meydana çıxırdılar. Neft avadanlıqlarından və qazma işinin bilicisi və ustası Əmircanlı Murtuza Muxtarovun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Lap gənc yaşlarından səhər saat beşdən evdən çıxıb Zabrata neft mədənlərinə işləməyə gedən bu şəxs fəhləlikdən dünyanın neft milyonçularından birinə neft maqnatlarından ən görkəmlisinə yüksələ bilmişdir. Heç də təsadüfi deyil ki, XIX əsrin sonlarına qədər «bəy, xan, ağalar», XX əsrin əvvəlləri Abşeronda Əmircan «xozeyinlər», neft ustaları, neft milyonçuları kəndi kimi məhşur olmuşdur.

Əmircanda müxtəlif sənət sahələri ilə məşğul olanlar da çox olmuşdur. Kəndin kənarında Zığ və Xilə dağı vadisində kərpic bişirmək üçün yararlı gil olduğundan XIX əsrdə burada kərpicxana salınmışdır. Buranın sahibləri Durmuş və Nəcəfalı Əmircanlı olmuşdur. Onlar günəmuzd işləyən fəhlələrdən istifadə edirdilər. XX əsrin əvvəlində kəndin kənarında daha bir kərpic zavodu işə salındı. Bu zavodun tikilməsinə vəsaiti kəndxuda Məşədi Yaqub vermişdir. Zavodun (Univermağın arxasında) sahibi Ağakişi olmuşdur. Burada buraxılan kərpic Suraxanı, Zabrat, Ramanı, Sabunçu müəssisələrinin tikilməsinə və əhalisinə satılırdı.

Neft sənayesinin inkişafı ilə əlaqədar olaraq kəndin kənarında (indiki geofizika zavodunun yerində) Hümbət Bunyatov adlı sahibkarın mədən avadanlığı, alətlər və onları təmir edən emalatxanası olmuşdur. Bu emalatxanada 10-15 nəfər çilingər, dülgər və fəhlə işləyirdi. Həmin emalatxana 1920-ci ilə qədər işləmişdir. İnqilabdan sonra həmin emalatxana fabrik-zavod məktəbinə çevrilmişdir. İndi orada geofizika zavodu yerləşir.

XIX əsrin sonlarında kənddə 1880-cı ilə Bakı-Balaxanı-Sabunçu-Suraxanı dəmir yolunun salınması iqtisadi inkişaf üçün çox əhəmiyyətli oldu. 1873-cü ildə Bakı şəhərində dar dəmir yolu çəkilməsi üçün Abşeron kompaniyası təşkil olundu. Abşeronda neft mədənlərini Bakı ilə birləşdirmək üçün 45 verst uzunluğunda «Neft uçastoku» proyekti nəhayət 1878-ci il iyunun 16-da təsdiq olundu. 1926-cı ildə Bakı-Sabunçu-Suraxanıya gündə 6 sərnişin qatarı işləyərək fəhlələri mədənlərə daşıyırdı.[1] Bu yolun çəkilməsində kəndin bütün əhalisi ilə yanaşı arabaçılar da işləmişlər. Dəmir yolunda neft daşınırdı. Beləliklə, çəkilən dəmir yolu arabaçıları sıxışdırdı. Arabaçıların çoxu neftçilərin sıralarına daxil olurdular. Bəziləri ömürlərinin axırınadək dəmir yolunda işlədilər. Məsələn, Kərbəlayi Rəşid Rəhim oğlu, Bədirov Sadıx İbad oğlu, Hadiyev Ağahadi Vəli oğlu, Əbdül Hüseyn Hacıheybətqulu oğlu, Heybətov Nadir Baba oğlu və başqalarını göstərmək olar[2].

Kənddə sənətkarlar və xırda peşə sahibləri geniş fəaliyyət göstərirdilər. Bunlardan xalça-palaz, xurcun toxuyanlar, yun əyirən və iplik qayıran, gön-dəri emal edənlər, bənnalar, dülgərlər, ərəbəbənd, nalbənd, başmaqçı, papaqçı, misgərləri və başqalarını göstərmək olar.[3] Onların bəzilərinin həyətlərində öz dükanları var idi. Bəzilərinin şagirdi, nökəri və köməkçiləri də olurdu. Qeyd etmək lazımdır ki, ən qədim zamanlardan Əmircanda memarlıq sənətinin çox mahir ustaları olmuşdur. Onu da qeyd etməliyik ki, eramızdan əvvəl V əsrə aid Əmircanda həyətlərin birində tapılmış kişi büstü sübut edir ki, bu sənətin tarixi bu kənddə çox-çox qədimlərə gedib çıxır. Lakin XX əsrin əvvəllərində kəndin milyonçularından olan Murtuza Muxtarov öz kəndinin ağsaqqallarından kənddə məscid tikdirmək xahişini alır. Bu hadisə belə olmuşdur. Murtuza Muxtarov ikinci dəfə nigaha daxil olduğu Liza xanımın şərəfinə Vladiqafqaz şəhərində iki minarəli, çox gözəl göy məscid tikdirir. Bunu eşidən kəndin ağsaqqalları təvəqqe edirlər ki, əsli-kökü Əmircandan olan kəndində də nəsllərə yadigar olacaq ikinci belə məscid tikdirsin. Murtuza Muxtarov bu xəbəri eşidir və tikdirilməsinə razılıq verir. 1908-ci ildə vəsait ayıraraq məscidin tikilməsi üçün göstəriş verir. Bu məscidin layihəsini də Zivərbəy Əhmədbəyov hazırlamışdır. Məscidi tikən sənətkar kəndin görkəmli ustası Kərbəlayi Əhməd Səməd oğludur. Yerli ustalardan ona usta Məsməli, Şeydabəy, Fərzəli, Mirzə Məlik kömək etmişlər. Bu sənət nümunəsi olan iki minarəli məscid yaxın şərqdə memarlıq sənətinin gözəl nümunələrindən biri sayılır.

Qeyd etmək lazımdır ki, bu sənətkarlardan usta Mirzə Məlik Abbasqulu oğlunun bir çox tikililəri olmuşdur və bu günə qədər qalmaqdadır. 1910-cu ildən bu yana hal-hazırda Suraxanı maşınqayırma zavodunun iki böyük sexini, Səbail maşınqayırma zavodunun iki böyük sexinin daş divarlarını və həmin sexlərin pəncərə-qapılarını Əmircanlı dülgərlər düzəltmişlər. Bu günə qədər Əmircanda məhəllə məscid sayılan Binyətlilər məscidini usta Mirzə Məlik tikdirmişdir. Binə kəndindəki əsas məscidin tikintisi də onun işidir. Əmircan kəndinin mədəniyyət evinin tikintisi, öz yaşadığı ev onun əl işidir. Bütün bunlar tərifə layiq memarlıq sənəti nümunələridir. Kənddə adları çəkilən ustalar daşlarda naxışlar açmaq, saatlar təmir etmək, xalçalar üçün dəzgahlar (hanalar) qayırmaq, çilingərliklə, dülgərliklə də məşğul olmuşlar. Bunlar öz kəndlərindən başqa qonşu kəndlər üçün də sifarişlər qəbul edirdilər. İnqilabdan qabaq kənddə 15 xalça toxuyan usta, 10 nəfər dəri-gön emal edən usta, 110 papaqçı, 5 başmaqçı, 2 dərzi, 5 dəllək, 5 memar usta, 5 bənna, 2 dülgər, 2 nalbənd, 2 dəmirçi, 2 dəyirmançı, 5 çilingər, 2 zərgər olmuşdur.


---

***1. История Азербайджана, том II səh. 230-231.***

***2. Z. A . Zeynalov, N. B. Kərimbəyov, "Стальной магистрали Азербайджана 100 лет", Azərnəşr, Bakı, 1980. 3,2,3 Azərbaycan SSR EATİ Elmi arxivi, iş № 7802, sənəd № 6, səh. 3,4,4.***

***12 avqust 1912***
***kişi əhalinin siyahısı***

Starşina Bala Baba Ağa Rza oğlu
1. Əbdül Hüseyn Hüseyn
2. Qədim Səhya Bala
3. Mirzə Baba Dadaş
4. Əli Cəfər Məmməd Əli
5. Baba Can Məlik
6. Heydər Bədəl
7. Atakişi Güli
8. Məmməd Əli Abbasqulu
9. Məzəf Mövlan Verdi
10. Ata Baba Şıxı
11. Qulverdi Şıxverdi
12. Zülfüqar Əli Bəy
13. Ağa Alverdi
14. Babaxan Rədcəb
15. Kövsər Paşa
16. Qəhrəman Abbas
17. İslam Rəfi
18. Süleyman Misir
19. Kamil Xan Mirzə
20. Fərəc Məlik
21. Qasım Əli Can Mirzə
22. Calal Can Mirzə
23. Ağa Baba Əli Abbas
24. Qasım Məmməd Səlim
25. Nuru Ağa Məmməd
26. Əbdül Rza Qul Mirzə
27. Hidayət Mürşüd
28. Ata Əli Baba Əli
29. Murad Əsgər
30. Cavad Qara
31. Rüstəm Allahverdi
32. İsgəndər Əzimxan
33. Balağa Abbas
34. Məmməd Nəbi
35. Rəsul Əbdülrəhim
36. Almaz Yusif
37. Dadaş Murad
38. Nadir Kərim
39. Əsəd Qəndi
40. Məmməd Bağır
41. Mülük Abbas
42. Hacıbaba Hacıbaba bəy
43. Zərbəli Fəfəli
44. Əbdülqasım Məmmədxan
45. Əbdüləli Fərzəli
46. Heybət Əli Bünyət Əli
47. Əlimövsüm Məmmədsadıx
48. Həsən Ağamoğlan
49. İmana Əli Heybət
50. Məmməd Nəzərəli
51. Fətulla Misir
52. Gülhüseyn Sultan
53. Məmməd Rəhim
54. Şəfi Məlik Rza
55. Allam Mütəllim
56. Nüsrət Gümüş xan
57. Dovzali Tazəli
58. İmaməli Məmmədqulu
59. Balağa Ağayar
60. Müqabil Hüseyn
61. Həmzəli Fətəli
62. Əlibala Şəfər
63. Dovralı Mürsəqulu
64. Qulu Xafaqulu
65. Nəcəfqulu Qara
66. Əmir İsrafil
67. Məndil Əliağa
68. Hacıəli Hacıverdi
69. Əlihümbət Canməmməd
70. Ramazan Əhməd
71. Mənsur Baxış
72. Məlikəhməd Pərizad
73. Balakişi Mürsəl
74. Xanbufar Kəlbi
75. Baba Agasəf
76. Hacırza Məmmədxan
77. Səlim Baba
78. Mübaşir Seyid baba
79. Hacıyusif Əbdülrəhim
80. Cabbar Ağarəhim
81. Göyçay Şıxməmməd
82. Vəlixan İmamverdi
83. Səid Cəbrayıl
84. Bəşir Məmmədhüseyn
85. Mirzə Məmməd Manaf
86. Əhməd Səməd
87. Heybət Nəsrulla
88. Hüseyn Xəlil
89. Məmməd Qasım Qədiməli
90. Əbdül Mömün Qulam
91. Məmmədbağır Nəbi
92. Nadir Nağı
93. Əbdülmanaf Məmmədhəsən
94. Ağadadaş Cavad
95. Kərim Ağa Baba
96. Əlihümbət Xanməmməd
97. Şəbgül Əmhali
98. Yusif Əbli
99. Baba Rza Qulam
100. Baba Zorbalı
101. İbrahim Əbli.
102. Hüseyn Əli Mövlan
103. Hətəm Baxış
104. Əlicəfər Qulhüseyn
105. Qulhüseyn Hacıəli
106. Məmmədxan Baba
107. İsa Bədəl
108. Əmirxan Mirzə
109. Xaliq Salar
110. Rzaqulu Dərviş Kərim
111. Əli Hənifə İslam
112. Uman Hüseyn Əli
113. Baloğlan Dadaş
114. Qovlali Ağaməli
115. Vəzirxan Nadir
117. Dəmirqaya Əlibaba
118. Sultan Nəcəfqulu
119. Bənnal Nəcəfqulu
120. Abbasəli Gülməmməd
121. Müseyib Allah Nəzər
122. Cəfər Pənah
123. Qasım Müzəffər
124. Əlipaşa Zeynal
125. Əbdül Rəsul Kərim
126. Ədilcan Kərim
127. Hilal Rəhim
128. Məmmd Rəşid Rəhim
129. Hüseyn Məmməd
130. Xanmurad Apar
132. Məmmədəli Həmzə
133. Mirzə Məlik Abbasqulu
134. Əlihəsən Nadir
135. Əfras Əmiraslan
136. Allahverdi Rəhmətəli
137. Ağasəfər Əbduləzim
138. Əlihüseyn Allahverdi
139. Soydüm Seyidqulu
140. Abdin Nurəli
141. Hənifə Əli Nəcəfəli
142. Salam Əsmal Bala
143. Əhməd Məmməd
144. Salam Rəhim
145. İbrahim Cəbrayıl
146. Abbasqulu Məstan
147. Ağakişi Qara
148. Sadıx Gündüz
149. Turab Qərib
150. Səftər Bədəl
151. Əliqulu Qərib
152. Məlik Mustafa
153. Qasım Rəsul
154. Kazım Ağahacı
155. Əlihəsən Əmirhəmzə
156. Xanəli Xanmurad
157. Ataxan Murad
158. Nəcəfqulu Zeynalabdin
159. Bəyverdi Əliverdi
160. Dünyamalı Ağaəli
161. Ummay Zeynalabdin
162. Qədir Qafar
163. İmanəli Ağaəli
164. Təhməz Yaxşı
165. Sarab Əli
166. Əziz Qurban
167. Əbdüləzim Qurban
168. Hüseyn Novruz
169. Həbib Zair
170. Hüseyn Əmir Əhməd
171. Haşım Həbi
172. Əbdülhüseyn Həsən
173. Mirzə Hüseyn
174. Atabala Hüseyn
175. Əlibala Səfərəli
176. Atakişi Qulu
177. İskəndər Əzimxan
178. Dünyamalı Ağaəli
179. Dərgah Zeynalabdin
180. Haşım Həmzəxan
181. Bala Oğlan Dadaş.



*Xilədəki M. Muxtarov məscidi.*



*Murtuza Muxtarov*




*Zivərbəy Əhmədbəyov*



*Axund Əbu Turabi*

1908-ci ildə M. Muxtarovun vəsaiti ilə memarı Zivərbəy Əhmədbəyov, ustaları Kərbəlayi Əhməd Səməd oğlu, Mirzə Məlik Abbasqulu oğlu, Şeyda bəy, Məsmalı tərəfindən tikilib başa çatdırılmışdır. İlk axundu Mirzə Axund Əbu Turabi olmuşdur.



*Axund Hənifə*



*Kərbəlayi Əhməd Səməd oğlu*



*«Qurani - Kərim»*

1909-cı ildə Murtuza Muxtarovdan məscid üçün Quran yazdırmağı xahiş edirlər. Həmin il Pakistanda 26 kiloqram ağırlığı, 60x40 həcmi olan bu Quran 7 kiloqram qızıl suyu ilə yazılmışdır. Hal-hazırda məscidin özündə qorunub saxlanılır.

XIX əsrin axırı XX əsrin əvvəllərində kənddə 2 bazar olmuşdur. Onlardan biri Xilənin mərkəzində meydan yeri idi. Bu gündəlik bazar idi. Bu bazarda ərzaq malları, göyərti, yerli bağların meyvəsi, yerli sənətkarların hazırladıqları məhsullar bir-biri ilə dəyişdirilirdi. Mal-qara, heyvan alıb satmaq bazarda həyata keçirilirdi. İkinci bazar Xilə yolu üstündə indiki Suraxanı küçəsində yerləşən həftə bazar idi. Bu bazarda həftədə bir gün böyük alver keçirilərdi. Buraya gələn tacirlər, alverçilər öz mallarını gətirərdilər. Məsələn, karvanlarla gələn yəhudilər arşın malı və müxtəlif xırdavat satardılar. Əvəzində buradan xalça-palaz, gön-dəri, müxtəlif toxuculuq malları, zərgərlik əşyaları alıb aparardılar. Volqa çayı ilə Xəzərə gələn gəmilərdə ruslar da bu bazara gəlib çıxırdılar. Ruslar bu bazara kənd təsərrüfatı alətləri, ev əşyaları, gümüş əşyalar, qab-qacaq gətirib satar, əvəzində xalça-palaz, gön-dəri, zəfəran, duz, yundan toxunmuş geyimlər, mis qab-qacaqlar və müxtəlif əşyalar alıb aparardılar. XIX əsrin axırında neft quyularının qazılması ilə əlaqədar bu bazar yerini dəyişdi. Yeni çəkilmiş Bakı-Sabunçu-Suraxanı dəmir yolu da bu bazarın yerini dəyişdi. İndi də bu bazar Bakının yeddi kəndini birləşdirən yeganə bazar olaraq qalır.

Əmircan kəndinin əhalisinin siyahıya alınması XIX əsrin əvvəli 1813-cü ildə keçirilmiş, 14000 nəfər qeydə alınmışdır. Sonralar əhali daha da artmışdır. Bu də neft quyularının sürətlə qazılması ilə əlaqədar işləməyə gələn fəhlələrin hesabına olmuşdur. Təkcə bunu demək olar ki, XIX əsrin ikinci yarısından başlayaraq əsasən kənd təssərrüfatı ilə məşğul olan kəndlilər arasında sürətlə təbəqələşmə gedirdi. Torpaqların azlığı, əkin yerlərində neft mədənlərinin və başqa sənaye müəssisələrinin salınması nəticəsində kəndlilərin xeyli hissəsi təsərrüfatlarını atıb günəmuzd-muzdur işləməyə məcbur olurdular. Təkcə kəndlilər deyil, digər sənət sahələrinin gəlirli olmaması nəticəsində fəhləliyə keçirdilər. Azərbaycanın bir çox kəndlərində Bakı neft mədənlərində bir par-

ça çörək dalınca bir çox insanlar muzdla işləməyə gəlirdilər. Bakı qəzasının neft sənayesi sahəsində işləyən fəhlələr arasında sürətli proletarlaşma prosesi daha qüvvətli idi.[1]

XX əsrin əvvəllərində Əmircanda neft sənayesində işləyən fəhlələrin sayı sürətlə artmağa başladı. Belə ki, mövsümlə işləyən kəndlilər, muzdurlar və kasıb kəndlilər tamamilə neft sənayesi fəhləsinə çevrildilər. Cavanların çoxu da sənət öyrənməyə neft sənayesinə, zavodlara, dəmir yolunda və başqa sənaye müəssisələrində işləməyə gedirdilər.

Kənddə fəhlələrin çoxalması təkcə yerli əhali hesabına deyildi. Əsrin əvvəllərində qazanc dalınca gələn kəndlilər, Azərbaycan qəzalarından öz kəndlərini tərk edib Bakıya neft sənayesində işləməyə gəlirdilər. Belə ailələrin çox hissəsi Əmircan kəndində məskən salır və neft mədənlərində fəhlə işləyirdilər.

Bundan əlavə cənubi Azərbaycandan qazanc dalınca Bakı neft mədənlərinə gəlmiş 10-15 ailə Əmircanda daimi məskən salmış və bu da Əmircan əhalisinin sürətlə artmasına səbəb olurdu. Əhalinin bu sürətlə artımı bu gün də davam edir.

Fəhlələrin güzəranı həddindən artıq ağır idi. Neft mədənlərində işləməyə gələn insanlar çox çətinliklə kiçik, çox darısqal, natəmiz yaşayış evi düzəldə bilirdi. 14-16 saat ağır işdən çıxan fəhlələr yarı ac - yarı tox fəhlələr evlərdə də hisli lampaların işığında ağır vəziyyətdə yaşayırdılar. Həmin dövrdə fəhlələrin ağır şəraitdə yaşamalarının canlı şahidi olmuş qocaman fəhlə İsmayılov Seyfulla belə deyirdi: «Evlər darısqal, su çatışmır, neft buruqları arasında yaşadıqları üçün səhərdən-axşamadək neft və mazutun ağır iyi onların yaşayışını daha da ağırlaşdırırdı. Biz fəhlələr dəfələrlə narazılığımızı sahibkarlara bildirmişik, tətillər keçirmişik, lakin heç bir nəticə əldə etməmişik»[2].

Əmircanda neft mədənlərində işləyən fəhlələrin ağır həyat şəraitinin nəticəsi olaraq bir tətil haqqında Azərbaycan tarixində yazılmışdır: «XIX əsrin sonlarında 1896-cı ildə Ramanıda Şəmsi Əsədullayevin mədənində işləyən əmircanlı fəhlələr tətil etdilər. Bu tətilə Əmircan kəndi yaxınlığında su çəkən nasos qurub, buradakı bir neçə quyudan öz mədənlərinə su vuran Nobel qardaşları və Şəmsi Əsədullayevin neft sənaye şirkətlərinin hərəkəti səbəb oldu. Hərçənd ki, polis bu tətili yatıra bildi və tətilin bir neçə fəal iştirakçısı həbs edildi, lakin fəhlələrin həyəcanları dayanmaq bilmirdi»[3]. Bu tətilin iştirakçısı və şahidi olmuş Hacı Heybətqulu (1827-1942) - kənd sakini həmin günlər haqqında belə deyirdi: «Tarix miladi 1894-cü il sənədə Nobel qardaşları, Şəmsi Əsədullayev gəldilər. Əmircanda kənd əhalisini saya almadan kəndin aşağı tərəfində vodokaçka qurdular. Mən Hacı Heybətqulu Məmməd oğlu kəndin camaatını yığıb dedim: «Camaat, qoymayın». Lakin camaat mənim sözümə baxmadı. Dedilər ki, su qurtarmaz. Bir il tamam olanda kəndin quyularının suyu qurudu. Mən şikayətə başladım. Cəmi divanxanaları gəzdim, neçə dəfə protokol yazıldı, qubernator qərar çıxardı, vodokaçkanı bağlasınlar. Onlar rüşvət verir, vodokaçkanı işlədirdilər. Məni öldürmək istədilər, fürsət vermədim. Fəhlələr cana gəlib tətil etdilər, varlılar pul verib tətil edənlərin başçılarını öldürmək istəyirdilər. Sumbat Fətəli, Hafət Beyitov, Məhəmməd Rəhim Heybətov, Bürcəli Məmmədov, Məmmədhüseyn Məmmədqulu tətildə iştirak edirdi"[4].

Bir il sonra 1897-ci ildə Bülbülə daş karxanasında daş çıxaran fəhlələrin tətili baş verdi. Burada 50 nəfərdən artıq əmircanlı fəhlə və arabaçı işləyirdi, o zaman böyük tikinti işləri gedirdi, daş vacib tikinti materialı idi. Kapitalistlər daşı ucuz qiymətə alırdılar. Onlar xırda daşları atırdılar. Nəticədə xırda daşlar çoxalıb araba yolunu kəsdi, arabalar daha uzaqda dayanır, arabaçılar ağır daşları uzaq məsafəyə daşımalı olurdular. Fəhlələr və arabaçılar qəzəbə gəlib birlikdə tətil etdilər.Tətil bir neçə ay davam etmişdi. "1897-cı ildə Bülbülə kəndi yaxınlığındakı daş karxanası fəhlələrinin çıxışı oldu. Bu tətildə 400-dən artıq adam iştirak edirdi. Tətilə əsas səbəb dözülməz iş şəraiti idi. Tətil fasilələrlə uzun zaman davam etdi və fəhlələrin 2 tələbinin qismən ödənilməsi ilə qurtardı"[5].

O zaman kənddə fəal fəhlələr 5-6 nəfər idi: Z.Zeynalov, S. Fətəlizadə, Babayev M.H., Quliyev Piri, H.Heybətqulu, K.Rəşidi göstərmək olar.

Rusiyada 1905-1907 illər inqilabı siyasi partiya və təşkilatların formalaşmasına güclü təkan verdi. bu dövrdə Rusiyanın müstəmləkələrindən olan Azərbaycanda da ictimai hərəkatlar, siyasi partiya və təşkilatlar meydana gəlmişdir. Azərbaycanda maarifçi demokratlar, inqilabçı demokratlar, milli demokratlar, milli liberal burjuaziya, sosialist, sosial demokratiya və başqa ictimai hərəkatlar təşəkkül tapmışdı. Bu dövrdə Azərbaycanda da siyasi partiya və təşkilatlar yaranmağa başlamışdı.

Bunlarla yanaşı bu siyasi arenada Əmircanlı sosial-demokratların, inqilabçı demokratların, milli liberal burjuaziyanın nümayəndələrinin fəaliyyətini qeyd etməliyəm. Onlardan Sumbat Fətəlizadə, Zeynalov Zeynal, Hacıheybətqulu, Məmmədhüseyn Babayev, Piri Quliyev, Pirbaşı Ağadadaş, Şəmsi Əsədullayev, Murtuza Muxtarov, Məşədi Sübhan, Ağaşərif, Məşədi Əlişah, Kəblə Muxtarovu göstərmək olar.

***1. Azərbaycan tarixi, II cild, səh. 278***
***2. Az. SSR EATİ Elmi arxivi, iş № 7802, sənəd 8, səh. 3***
***3. Azərbaycan tarixi, II cild, səh. 319***
***4. Az.SSR EATİ Elmi arxivi.iş №7802,sənəd №2, səh.121***
***5. Azərbaycan tarixi, II cild, səh.319***

1904-ci ildə fəhlələr və zəhmətkeş kəndlilər arasında geniş iş aparmaq üçün RSDFP-nin Bakı Komitəsi «Hümmət» sosial demokrat qrupu yaratdı. Həmin ildə Əmircanda «Hümmət» sosial demokratik təşkilatı yarandı. Onun təşkilində kəndin fəal fəhlələrindən Sumbat Fətəlizadə, Zeynalov Zeynal Eynal oğlu, Məmmədhüseyn Heybətqulu oğlu, Məmmədhüseyn Babayev yaxından iştirak etmiş və bu təşkilata rəhbərlik etmişlər.

Onlar fəhlələr arasında «Hümmət» qəzetini oxuyur, müsəlman fəhlələrini «Hümmət» təşkilatına cəlb edirdilər. «Hümmət»in fəaliyyəti nəticəsində fəhlələr siyasi cəhətdən fəallaşır, onun ətrafına toplaşır, siyasi mübarizəyə qoşulurdular.

Çox çəkmədi «Hümmət» təşkilatının sıraları çoxaldı, onun hörməti el arasında artdı. Bu təşkilatın fəal üzvlərindən: Babayev Məmmədhüseyn, V. Nüriddin, Rəfiyev Kərim, Həsən Paşa oğlu və başqaları qabaqcıl mübariz fəhlələr olmuşlar. Neft sənayesi fəhlələrinin həmkarlar təşkilatında İsmayılov Seyfulla, Əlidadaş Quliyev, Piri Pirbaş Ağadadaş oğlu və başqaları fəal iştirak edirdilər.

1905-ci ildə Əmircanda həmkarlar Təşkilatının özəyi yarandı. Bu özəyin üzvləri başda Sumbat Fətəlizadə və Zeynalov Zeynal olmaqla, qazarmalarda, mədənlərdə fəhlələr arasında təbliğat apararaq fəhlələri həmkarlar təşkilatına cəlb edirdilər.

«M. Məmmədyarov və S. Fətəlizadə ilə birlikdə Zeynalov Zeynal Balaxanıda azərbaycanlı fəhlələr arasında inqilabi iş aparırdı. Birinci rus ilqilabı illərində Z. Zeynalov sosial demokrat «Hümmət» təşkilatında və neft sənayesi fəhlələri həmkarlar ittifaqında fəal işləyirdi»[1].

Sumbat Fətəlizadə (1871-1938) inqilabi hərəkatın ən köhnə xadimlərindən biridir. Azərbaycanda Sovet hakimiyyəti qurulması uğrunda mübarizənin fəal iştirakçılarından biridir. Bakı qəzasının Əmircan kəndində, yoxsul kəndli ailəsində anadan olmuşdur. 16 yaşından Balaxanı və Zabrat neft mədənlərində işləməyə başlamışdır. Sonralar Suraxanıda işləmişdir.

Fətəlizadə hələ XIX əsrin 90-cı illərində inqilabi hərəkata qoşulmuşdur. 1905-ci ildə birinci rus inqilabı ərəfəsində və həmin inqilab dövründə Bakı fəhlələrinin kütləvi çıxışlarının təşkilində fəal iştirak etmişdir. Fətəlizadə sosial-demokrat «Hümmət» təşkilatının və neft sənayesi fəhlələri həmkarlar ittifaqının fəal üzvlərindən biri idi. Azərbaycanlı fəhlələrinin bu ittifaqın sıralarına cəlb etməkdə böyük iş aparırdı.

İrtica illərində Fətəlizadə mədəni maarif işi ilə məşğul idi. Suraxanıda və öz kəndi olan Əmircanda fəhlələr üçün axşam kursları, məktəb təşkil edirdi. 1917-ci il Fevral inqilabından sonra S.Fətəlizadə Suraxanı mədən komitəsinin sədri, Suraxanı rayon fəhlə deputatları sovetinin üzvü seçilmişdir. Həmkarlar ittifaqlarının bərpa olunmasında iştirak edirdi. Neftçilər həmkarlar ittifaqının Suraxanıda şöbəsini təşkil etmiş və şöbəyə sədr seçilmişdir.

1918-ci ilin martında Fətəlizadə bolşeviklər partiyası sıralarına daxil olmuşdur. 1919-1920-ci illərdə gizli inqilabi fəaliyyət şəraitində müsavat üsul idarəsinə qarşı mübarizə edirdi. Digər yoldaşlarla birlikdə «Hümmət» təşkilatının Suraxanı şöbəsini həmin təşkilatın Əmircan, Binə, Hövsan kəndlərindəki özəklərini təşkil edənlərdən biridir.

1919-cu ildə «Hümmət»in Suraxanı rayon komitəsinin sədri seçilmişdi.

S. Fətəlizadə tez-tez fəhlə yığıncaqlarında çıxış edirdi. Mitinq və nümayişlər təşkil edirdi. 1919-cu ildə S.Fətəlizadə Suraxanı fəhlələrinin 1 may tətilinə rəhbərlik edirdi.

Digər bolşeviklərlə birlikdə zəhmətkeşlərin ingilis müdaxiləçilərinə qarşı minlərlə adam iştirak edən izdihamlı protest nümayişini təşkil etmişdi. İnqilabi fəaliyyət üstündə dəfələrlə müsavat hökumət orqanları tərəfindən həbs edilmişdir.

1920-ci ilin fevralında S. Fətəlizadə Azərbaycan Kommunist partiyasının gizli çağırılan 1-ci qurultayının işində iştirak etmişdi. Qurultayın direktivlərini yerinə yetirərək, S.Fətəlizadə əksinqilabi müsavat hökumətinin devrilməsini hazırlamaqda coşğun fəaliyyət göstərirdi.

1920-ci ilin martında o, Bakı general-qubernatorunun sərəncamı ilə «ictimai asayiş və dövlət quruluşu üçün zərərli və təhlükəli xadim» kimi tutulub həbs cəzasına məhkum edilmişdi və Azərbəycandan sürgün edilməli idi. 1920-ci il aprelin 28-də Azərbaycanda Sovet Hakimiyyəti qurulduğu gün həbsxanadan azad edilmişdir. 1920-ci ilin mayında S.Fətəlizadə Azərbaycan SSR Xalq torpaq komissarının müavini vəzifəsi və təyin olunur. Xalq torpaq komissarlığının fövqəladə müvəkkili olaraq Azərbaycanın Bakı, Şamaxı, Göyçay, Quba və digər qəzalarını gəzmiş, kənd təsərrüfatının yüksəldilməsində yerli Sovet hakimiyyəti orqanlarının möhkəmləndirilməsinə çoxlu qüvvə sərf etmişdir.

1922-ci ildə S. Fətəlizadə RSFSR-in aclıq çəkən əhalisinə yardım göstərmək üçün ümumi Rusiya sovetləri MİK yanında təşkil olunmuş Mərkəzi Komissiyanın Azərbaycanda müvəkkili idi. 1922-ci ildən 1924-cü ilin axırınadək Azərbaycan SSR Ali inqilabi tribunalının kollegiya üzvü və Azərbaycan SSR Ali Məhkəməsinin sədr müavini idi. 1924-1925-ci illərdə «Azərneft» yanında neft mədənlərinin abadlaşmasında şöbə müdiri idi. 1925-ci ildən etibarən S.Fətəlizadə «Azərneft»in texniki bürosunun ixtiralar şöbəsində işləmişdir.

S. Fətəlizadə dəfələrlə Bakı Sovetinin deputatı, Azərb. SSR MİK Rəyasət heyətinin üzvü, Zaqafqaziya və

*1. "Azərbaycanda Sovet Hakimiyyəti uğrunda fəal mübarizlər", Bakı,1958, səh.46*

Ümumrusiya Mərkəzi icraiyyə komitələrinin üzvü, habelə AK(b)P MK və BK-nın üzvü seçilmişdi. Azərbaycanda nümayəndə olaraq 1921-ci ilin dekabrında IX Ümumrusiya sovetlər qurultayının işində iştirak etmişdir.

Kommunist partiyası və Sovet hökuməti S.Fətəlizadənin xidmətlərinə görə yüksək qiymət verib, onu Qırmızı Əmək Bayrağı ordeni ilə təltif etmiş və ona əmək qəhrəmanı adı vermişdir.

Ş. Əsədullayev pul vəsaiti ilə kənddə 1906-cı ildə 84 nömrəli məktəbin tikintisinə kömək etmişdir. Məktəbin açılışında Şəmsi Əsədullayev və Sumbat Fətəlizadə də iştirak etmişdir. Bu məktəbi gənc fəhlələr üçün açmışdılar.

Əmircanlı görkəmli inqilabçılardan biri də Zeynal Eynal oğlu Zeynalovdur (1876-1938). O, Bakı qəzasının Əmircan kəndində fəhla-bənna ailəsində anadan olmuşdur. Yeniyetmə ikən neft mədənlərində işləməyə başlamışdır. Tornaçı və buruq ustası olmuşdur. 1901-1904-cü illərdə Z. Zeynalov Bakı fəhlələrinin tətil və nümayişlərində iştirak edirdi. M. Məmmədyarov və S. Fətəlizadə ilə birlikdə Z. Zeynalov Balaxanıda azərbaycanlı fəhlələr arasında inqilabi iş aparırdı, birinci rus inqilabı illərində Z.Zeynalov sosial demokrat «Hümmət» təşkilatında və neft sənayesi fəhlələri həmkarlar ittifaqında fəal işləyirdi. Bolşevik qəzeti «Təkamül»də, habelə «İrşad» qəzetində əməkdaşlıq edirdi.

Coşğun inqilabi fəaliyyəti sayəsində Z. Zeynalov fəhlələr və kəndlilər arasında böyük nüfuz qazanmışdı. 1907-ci ildə o, Bakı quberniyasından II dövlət dumasına deputat seçilmişdi. Peterburqda onun redaktorluğu ilə Azərbaycan dilində «Duma» qəzeti çıxırdı. Z. Zeynalov dumadakı öz nitqində fəhlələrin və kəndlilərin mənafeyini qətiyyətlə müdafiə edirdi.

Mülkədar torpaqlarının əvəzsiz olaraq əllərindən alınıb kəndlilərə paylanmasını tələb edirdi. II Dövlət duması qovulduqdan sonra çar hökumət orqanları tərəfindən təqib olunan Z. Zeynalov, xaricə mühacirət edir. Çox çəkmədən Bakıya qayıdır və inqilabi iş aparmaqda davam edir. O, eyni zamanda maarifçilik fəaliyyəti ilə məşğul olurdu. Suraxanıda və Əmircanda fəhlələr üçün məktəblər və axşam kursları təşkil olunmasında iştirak edirdi. Z. Zeynalov Əmircanda «Əkinçilər və işçilər» adında təşkil edilmiş cəmiyyətin və istehlak kooperativinin yaradılması təşəbbüsçülərindən və rəhbərlərindən biri olmuşdur.

1917-ci ildə Z. Zeynalov Bakı qəzasının ərzaq komissarı vəzifəsində işləyirdi. 1918-1920-ci illərdə Əmircan kəndində «Hümmət» təşkilatının rəhbərlərindən biri idi. 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Z.Zeynalov Az. SSR Xalq Komissarlığında təlimatçı, sonra isə Mərdəkan, Qala və Buzovna rayonlarındakı nümunəvi sovet malikanələri idarəsinin rəisi, Bakı qəzasını su ilə təchiz etmə komissiyasının sədri vəzifəsində işləyirdi. Zeynalov Zeynal Eynal oğlunun şəxsi arxivindən bir sənəd tapılmışdır. Bu sənəd rus dilində yazılmış siyahıdır. Siyahıda Əmircan fəhlələrinin 30 nəfərinin adı və atasının adı qeyd olunmuşdur. 1917-ci il fevralın 11-də 60 nəfərin iştirakı ilə «Əkinçilər və İşçilər» adlı təşkilat yaradır. Həmin təşkilatın protokolunu olduğu kimi veririk: (Zeynal Zeynalov şəcərəsinə)

Bu təşkilatın vəsaiti ilə kənddə 97 saylı məktəbin tikintisini başa çatdırılmışdır. Əhalinin ərzaqla təmin edilməsində də bu təşkilat kömək göstərmişdir.

Bu sənəd əsasında ehtimal etmək olur ki, Əmircanda RSDFP BK qanuni fəaliyyət göstərmişdir. Ola bilsin ki, bu dərnək, ya özək, bəlkə də, yerli təşkilat formasında iş aparmışdır. Qrupun üzvlərindən: Məmmədəli Hacı Heybətqulu oğlunu, Əliyev Əbdül Hüseyni, Əliabbas İmamməmməd oğlunu, İslam Nəzər oğlunu, Eyvaz İsa oğlunu, İman Əli Rəfi oğlunu, Qardaş Güləli oğlunu, Dadaşbala Yusif oğlunu və başqalarını göstərmək olar.

1922-ci ilin oktyabrından 1934-ci ilin axırınadək N.Nərimanov adına pedaqoji texnikumda müəllimilik etmişdir[1].

Fəhlə sinfinin sayının və keyfiyyətcə üstünlüyü ona gətirib çıxarırdı ki, kapitalizmin neft sənayesinin coşğun inkişafı neft ustalarının işinə geniş meydan verirdi. Bu ustalar Bakı kəndlərinin hər yerində öz işləri ilə tanınmışdılar. Əmircana ustalar kəndi, sonralar neft akademiyası filialı kimi adlar verilib. Azərbaycanın müxtəlif geoloji qatlarında uğurlu qazma işlərinə rəhbərlik edən qazma neft ustalarının şöhrəti artırdı. Onlardan Paşayev Məmmədəli, Quliyev Əliməmməd, Heybətov Xeyrulla, Piri Quliyevi qeyd etmək olar.

Onlar 1924-cü ildə ABŞ-a göndərilmişdilər. Neft sənayesində əsl inqilaba səbəb olan turbabur üsulu kəşf edildi. Bakı neft mühəndislərinin bu cahanşümul ixtirasında usta Xeyrullanın həlledici xidməti olmuşdur. Beləliklə, ölkəmizin iqtisadi qüdrətinin əsas göstəricisi olan neft istehsalının sürətli inkişafında usta Xeyrullanın adı ixtiraçı mühəndislər sırasında ilk yerdə gedir.

XIX və XX əsrin əvvəllərində Azərbaycanın mədəniyyətinin inkişafı üçün geniş imkanlar əmələ gəldi. Azərbaycan mədəniyyətinin qabaqcıl xadimləri vasitəsi ilə mütərəqqi ictimai ideyalar Azərbaycana nüfuz etdi.[2] O zaman Əmircanda 3 mollaxana var idi. Onlardan biri Nizaməddin məscidində idi. «1866-67-ci illərdə Nizaməddin məscidinin Şimal şərq küncündə üzəri çatma tağ tavanla örtülmüş 3,06 x 3,88 metr ölçüdə alçaq bir xanə tikilib əlavə edilşmidir. Bu xanəni Seyid Məmməd adlı bir şəxs tikdirərək orada dərs deyərmiş, bura mollaxana olmuşdur».[3] 1908-ci ildə yeni məscid tikiləndən sonra burada mədrəsə açılmışdır.

***1. Azərbaycanda Sovet hakimiyyəti uğrunda fəal mübarizlər, Bakı, 1958***

***2. "Azərbaycan tarixi", II cild, səh.106.***

***3. "Azərbaycan incəsənəti", V cild, Bakı,1956.***

1920-ci ildə kənddə bir mədrəsə, bir qız mollaxanası və 7 kişi mollaxanası fəaliyyətdə olmuşdur. Bunlardan əlavə 1906-cı ildə rus-tatar məktəbi 4 il işləyib sonra bağlanmışdır.

Əmircanda «tatar-rus» məktəbi Z. Zeynalov və fəhlələrin təşəbbüsü ilə açılmışdı. Kəndin camaatı pul yığmış, özləri məktəb binasını iki otaqdan ibarət tikmişlər (97 saylı məktəb). Lakin müəllim yox idi. O zaman Zeynalov Zeynal fəhlələrin adından «İrşad» qazetinə bir məktub yazdı. Hamı məktubu imzaladı. Məktubda müəllim məsələsində redaksiyanın köməyinə müraciət edilirdi, ancaq bunun bir nəticəsi olmadı.

1906-cı ildə Nəriman Nərimanov kəndə gəldi. O, məktəbə baxdı, çox sevindi və razı qaldı, sonra çıxış etdi. Məktəbin açılışı münasibəti ilə hamını təbrik etdi. O, məktəbə iki kitabça bağışladı, biri «Türk Azərbaycan dilinin sərf-nəhvi», ikinci «Müsəlmanlar üçün müəllimsiz rus dilini öyrənmək üçün».

1906-cı ildə N.Nərimanovun «İrşad» qəzetində «Əmrican-Xilə kəndinə səyahətim» məqaləsi dərc edilmşdir: (Zeynal Zeynalov şəcərəsinə).

Kənddə ikinci məktəb 1912-ci ildə Şəmsi Əsədullayevin öz fəhlələri üçün vaxtilə kəndin kənarında tikdirdiyi yataqxanada məktəb açdılar. Məktəbin 50% xərcini Ş.Əsədullayev ödəyirdi, qalan xərcini fəhlələr və «Xeyriyyə cəmiyyəti» verirdi. 1913-ci ildə Ş.Əsədullayev öləndən sonra 1917-ci ilə qədər məktəb fasilə ilə fəaliyyət göstərmiş, sonra bağlanmışdır. 1917-1920-ci illərdə S.Fətəlizadə və Zeynalov Zeynalın təşəbbüsü ilə fəhlə-gənclər üçün məktəb və axşam kursları açılmış idi[1]. Buna görə kapitalist Musa Nağıyev öz fəhlələri üçün tikdirdiyi iki otağından istifadə etmişlər. Bu məktəbdə gündüz fəhlə balaları, axşam fəhlələr oxuyurdu.

Azərbaycan xalqının görkəmli simalarından biri ***Abbasqulu ağa Bakıxanov*** 1794-cü il iyulun 3-də Əmircan kəndində anadan olmuşdur.

Abbasqulu ağa Bakıxanov 1826-cı ildə Kərbəlayı Hüseyn ağanın qızı Səkinə xanım ilə evlənmişdir. Ondan iki qızı olmuşdur. Zibanisə bəyim və Tuğra xanım[2].

A.Bakıxanov öz ailəsi ilə Əmircanda yaşamışdır. Hacı Heybətqulu Məmmədqulu oğlu deyərmiş ki: «10-12 yaşım var idi, mollaxanada oxuyurdum, bir gün molla bizə dedi: «Sabah cənab Abbasqulu ağa bizim mollaxanaya təşrif gətirəcək». «Sabahı gün otaq bəzənmişdi. Həmişə həsir üstündə oturardıq. O gün palaz salındı. Abbasqulu ağa çərkəs paltarında gəldi. Hamımız ayağa durub onu ehtiram ilə qarşıladıq. Bir neçə şagird çərəkə oxudu, şəriətdən sorğu-sual olundu. Sonra bizi buraxdılar, onlar qaldı».[3] Çoxları belə güman edir ki, A. Bakıxanov yalnız uşaqlıq dövründə 8 yaşına qədər Əmircan kəndində keçirmiş, sonra Qubada yaşamışdı. Lakin Bakixanov Əmircanla əlaqəni kəsməmiş həmişə məktublaşırmış və kəndə gəlib gedirmiş. Onun Əmircan ünvanı ilə ailəsinə yazdığı bir məktubu oxuyaq. Məktub bu sözlər ilə başlanır: «Şirin canım, əzizim, mehribanım! Yazdığınız məktub çatdı. Sizin və uşaqların səlamətliyindən çox xoşhal oldum, bir azdan sonra yaz fəsilində Bakı bağlarında olacağam. Mirzəalını göndərdim ki, kitablarımı və bəzi şeyləri mənim üçün gətirsin. İki qamış arabası kəndlilərdən ya rəiyyətlərdən alıb onları göndərin

Qardaşım Əli Paşa ağaya da yazmışam. Onun adamlarından və ya əmircanlılardan beş-altı nəfər yaxşı atlı Xızır-zindəyə gəlmək üçün ona qoşun»[4].

Buradan və başqa məktublarından məlum olur ki, A. Bakıxanovun ailəsi Əmircanda yaşamışlar, özü də fasilə ilə kəndə gəlib getmişdir.

Elin sözü düz olur. El onu Qüdsi deyərək çağırırmış. «Adı Qüdsi, özü Qüdsi, sözü qüdsi», «elin sevimli oğlu», «elin dayağı, şair Qüdsi», «Damad Qüdsi» belə söz ifadələri indi də qocaların yadındadır. O kəndə gələndə el onu hörmətlə qarşılarmış, gedəndə də hörmətlə yola salarmışlar».

A. Bakıxanov XIX əsrin birinci yarısında görkəmli Azərbaycan tarixçisi, maarifpərvəri, yazıçısı və şairi Azərbaycan tarixinə dair ilk dəfə əsl elmi tədqiqat əsərinin müəllifidir. Bu 1848-ci ildə yazılmış «Gülüstani irəm» tarixi kitabıdır. Onun haqqında ədəbiyyat çoxdur və biz burada bu məsələ üzərində dayanmaq fikrində deyilik. Lakin A.Bakıxanovun ailəsi haqqında ədəbiyyatda məlumatlar verilmir.

Polşa inqilabçısı M. Qrolevski Qubada yaşarkən Abbasqulu ağanın qardaşı Cəfərqulu ağa ilə dostlaşmış, onun evində tez-tez qonaq qalmışdır. M.Qrolevski yazır: «Abbasqulu ağanın iki qızı var idi. Zibanisəbəyim və Tuğra xanım. Atası hər ikisinə savad vermişdi. Böyük qızı Zibanisəbəyim həddi-buluğa çatan kimi atasının malikanəsini idarə edirdi. Təhsilli, şeirlər yazan Zibanisəbəyim haqqında yazılar çoxdu. 1857-ci ildə qonşu Koür xanlığının hakimi Yusif bəy Zibanisəni oğluna ərə getməsini təklif etmişdi. Zibanisə razılıq vermişdi. Bunu eşidən əmisi Cəfərqulu ağa demişdi: «Zibanisə mənim oğluma ərə getməyə bilər. Lakin o sünnilərə ərə gedə bilməz. Yusif bəy də bir sünni evinə şiə qızı apara bilməz» Cəfərqulu ağa qardaşı qızlarını öz iki oğlu üçün almaq istəyirdi. Bu əhvalat bütün Quba mahalını, sünni və şiələrin müharibə etməsinə səbəb olmuşdu.

---

***1. S.Fətəlizadə və Z.Zeynalovun bioqrafiyası***

***2. Azərbaycan SSR EATİ Elmi arxivi, iş №7802 sənəd №4.***

***3. Yenə orada, sənəd № 3.***

***4. "Azərbaycan" jurnalı , №7,1968, səh. 189-200***

Hamı qohumlar Zibanisədən üz döndərmişdilər. Bu məsələyə şiələrin başçısı müctəhid İsmayıl əfəndinin oğlu Hacı əfəndi qarışmış və bu işin müharibə ilə nəticələnə bilməsini Zibanisəyə demişdir. O cavabında demişdir : «Atamız bizə belə təlim verməmişdir, mən Yusif bəyin oğlunu rədd edirəm. Müharibəni sülh ilə əvəz edin. Bacım Tuğra Əhmədə, mən də Həsən ağaya ərə getməyə razılıq verirəm».

Bu şad xəbər şəhərə yayıldı və toy tədarükü görüldü. Zibanisə əvvəl kiçik bacısı Tuğranın toyunu gördü. 1857- ci ildə Tuğranın toyu oldu. 1859 - cu ildə isə Zibanisəbəyim ilə Həsən ağanın toyu oldu. Çünki o evin böyüyü idi, anasını əvəz edirdi. Öz toyunu bir müddət təxirə saldı»[1].

M. Qrolevski toy mərasiminin qonağı olmuşdur. Toy haqqında maraqlı məlumat verir.

Bircə onu qeyd etmək istəyirik ki, Abbasqulu ağanın nəsli indi də yaşayıb yaradırlar. Bu böyük şəxsiyyətin xeyirxah əməl və hərəkətlərini, elmini, mədəni-maarif işini, xalqa xidmətini davam etdirilər.

Azərbaycan SSR-nin əməkdar artisti Məmmədxan Bakıxanov tar sənətinin ustası olmuşdur. Əhməd Bakıxanov (1892-1973) Azərbaycan xalq musiqisinin mahir ifaçısı və müəllimi, Azərbaycan SSR Əməkdar incəsənət xadimi, Azərbaycan SSR xalq artistidir. Xalqımız onun adını iftixar hissi ilə çəkir.

Azərbaycan Respublikasının xalq artisti, əməkdar incəsənət xadimi, bəstakarlar ittifaqının üzvü, Bakı Musiqi akademiyasının kamera-ansamblı kafedrasının professoru, bəstəkar Tofiq Bakıxanov, Azərbaycan SSR Əməkdar incəsənət xadimi Zirvəxanım Bakıxanova və Məmməd Rza Bakıxanov musiqi müəllimləridirlər, kamança ustası Tələt Bakıxanov, Bakıxanov Əli Soltan oğlu həkim, Bakıxanov Həşim Məmməd Rza oğlu geoloqdur. İndi Əmircanda A. Bakıxanov adına böyük bir kitabxana, bir küçə və bir xiyaban vardır. Bu xiyabanda onun heykəli qoyulmuşdur, onun yaşadığı evə xatirə lövhəsi vurulmuşdur.

Xiləli Murtuza Muxtarov Mərdəkanda bağında qonaqlıq verirmiş. Hörmətli qonaqlar içərisində Axund Mirzə Əbu Turabi, katolikos keşiş, Bakının general-qubernatoru da var idi. Usta Məsmalı da dəvət olunubmuş. Hansısa çirkin və pis əməllər barəsində mübahisələr gedir, hərə öz fikrini söyləyir. Nəticə hasil olmayanda söz usta Məsmalıya verilir. O deyir: «Çirkin şey kasıbçılıqdır. Əgər belə olmasaydı, Seyfullanı da dəvət edərdiniz» (Seyfulla kəndin ən yoxsul adamı imiş).

Bir gün usta Məsmalı bir nəfəri qovurmuş. Kimsə qışqırır: «Hə, usta az qalıb ha! Bir az da!». Bu vaxt usta Məsmalı dayanır, geri qayıdıb, həmin adama hirslə:«Paxıllıq nə yaxşı şeydir. Kimisə döyülməkdən qurtarır» deyir.

Kənddə danışırlar ki, əmircanlılar zəngin süfrə açmaq mədəniyyətinə də malik olublar. Şərq mətbəxinin ən gözəl xüsusiyyətlərini özündə qoruyub saxlaya bilmişlər. Düşbərəni, bozbaşı, quru xingəli, dəvə ətindən qutabı bişirməkdə məharət sahibi olan xiləlilər bəzən ifrat tələbkarlığa gətirib çıxarırdılar. Belə söyləyirlər ki, Kərbəlayi Vəli arvadı Qızyetərin hazırladığı quru xingaldakı soğanın Hövsanın günçıxan tərəfindən olmadığı üçün xörəyi yeməyib, geri qaytarıb və gülə-gülə demişdir: «Xingal hazırlanar Dəli Məmmədin unundan, ucar camışının qatığından, Göyçay cöngəsinini ətindən, Kürdəmir sarımsağından, Buzovna nanəsindən, Bilgəh zəfəranından, Hövsanın soğanından, özü də günəçıxan tərəfindən, çünki çox acı olur. Sənin xörəyində hamısı var idi, bircə soğanı Hövsanın günbatan tərəfindən idi».

Kəndin fəhlələri içərisindən maarifpərvər şəxsiyyətlər çıxmışdır. Onlardan biri də, Hacı Heybətqulu Məmməd oğludur. Hacı Heybətqulu fəhləlikdən neft ustasına qədər yüksəlmiş, adlı-sanlı buruq ustası olmuşdur. Kənddə 1906-cı ildə məktəbin açılmasında fəal iştirak etmişdir və iki oğlu (Məmmədəli və Əbdülhüseyn) o məktəbdə oxumuşdur.

Kənddə ruhanilərin təqibinə baxmayaraq, 1915-ci ildə özü həyətində iki otaqlı məktəb tikmək istəmişdir. Lakin tikib qurtara bilməmişdir (indi Vaqif küçəsi 48-də o binanın bir divarı qalıb).

Hacı Heybətqulu rus dilini bildiyi üçün müsəlman fəhlələri ilə rus kapitalistləri və onların xidmətçiləri ilə çar məmurları arasında tərcüməçi olmuşdur.

1860-cı ildə Kokorevin zavodunu səhmana salmaq üçün Peterburqdan gəlmiş böyük rus alimi D.İ. Mendeleyev Hacı Heybətqulunun və Hacı Hacıbabanın evində qonaq olmuşdur.

Hacı Heybətqulunun şəxsi kitabxanası olmuşdur. 1920-ci ilə qədər evində kəndin tərəqqipərvər adamları yığışıb qəzet və jurnallar oxuyardılar. Hacı Heybətqulu həm də teatr həvəskarı olmuşdur.[2]

Hacı Heybətqulunun Bakı tarixinə aid iki dəftər əl yazması vardır. O, cəfalətə, avamlığa, ədalətsizliyə nifrət etmişdir. Hacı Heybətqulu 1894-cü ildə baş vermiş Əmircan fəhlələrinin çıxışında iştirak etmişdir.

Hacı Heybətqulunun bir oğlu Məmmədəli Heybətqulu oğlu 1917-ci ildə Əmircanda RSDFP-nin (Rusiya sosial demokrat fəhlə partiyası) üzvü olmuşdur.[3] İkinci oğlu Əbdülhüseyn və 3-cü oğlu Əbdüləhəd kəndin fəal fəhlələrindən olmuşlar. Hacı Heybətqulu 1942-ci ildə 115 yaşında vəfat etmişdir.

---

***1."Azərbaycan gəncləri" qəzeti, 6IX-1964, Sulduz Rüstəmov***

***2. Az..SSR EATİ Elmi arxivi, iş № 7802 sənəd №5, səh. 1***

***3. Az.SSR EATİ Elmi arxivi, iş 7802, sənəd № 5, səh. 1***

Əmircanda mahir xalça ustaları olmuşdur. Onlardan biri də Ümnisə Həsən qızıdır. Onun toxuduğu «Xilə buta» və «Xilə əfşan» xalçaları tərifə layiq görülmüşdür. Bu xalçaların nümunələri Moskva Tarix Muzeyində saxlanır.

Ümnisə Həsən qızının toxuduğu bir xalça indi nəvəsi Həbib Pirbaş oğlundadır (tarixi 1856-cı il). Ümnisə Həsən qızı kəndin görkəmli tərəqqipərvər qadınlarından biri olmuşdur. O həmçinin saz çalan, aşıq havaları, nəğmələri oxuyan bir xanəndə kimi tanınmışdır.

Ümnisə hələ 100 yaşında ikən «Əsli və Kərəm», «Aşıq Qərib» dastanlarını və 100-ə qədər nağılları əzbərdən danışardı.

Ümnisə Həsən qızı 1938-ci ildə 124 yaşında vəfat etmişdir.

1879-cu ildə Əmircanda anadan olmuş şair Səməd Mənsurinin Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yeri var. Onda «İqbal», «Səda», «Bəsirət», «Azərbaycan fəhləsi», «Qırmızı əsgər», «Molla Nəsrəddin», «Tuti», «Zənbur», «Ədəbi parçalar» kimi qəzet və jurnallarda şeirləri çap olunurdu.[1]

Səməd Mənsur rus, türk və fars dillərini bilirdi. Bir neçə pyesi «Tənqid və təbliğ» teatrında oynanmışdır.[2]

Onun rejissorluğu ilə kəndin gənc fəhlə və kəndliləri, Sabunçu teatr həvəskarları və Suraxanı teatr həvəskarları Balaxanıda və Suraxanıda teatr tamaşaya qoymuşlar.

Azərbaycan teatrının salnaməsi kitabında yazılıb:

1. «24 yanvar 1914-cü il Bakıda şəhər teatrı, Səfa artistləri, Ş. Sami «Əhdə Vəfa», təbdil Səməd Mənsur Rəcəb və Dəmirbəy-Abbasmirzə Şərifzadə, rejissor A.M. Şərifzadə» (s. 353).

2. «Kərimbəy Şərifov «Məmmədəli şah Qacar», yaxud «Səttar xan» dramını, Əhməd Məlikov «Rüstəm və Zöhrə», Mirzə Qədir İsmayılzadə «Seyful Mülk», Səməd Mənsur «Əhdə Vəfa» əsərlərini yazmışlar» (s.386).

XlX əsrin axırı və XX əsrin əvvəlində şifahi söz ustası olmuş Kərbəlayı Rəşid Rəhim oğlu (1842-1927) dəmir yolunda fəhlə işləmişdir. Mollaxanada oxumuş, sonralar rus dilini öyrənmişdir, qoşmaları ilə hamının rəğbətini qazanmışdır.

«Kəndin birinci məktəbi 1906-cı ildən onun həyətində tikilməsində iştirak və kömək etmişdir»[1].

K. Rəşid daima deyərdi: «Yaşasın Rəşidin hökuməti, kasıblar hökuməti, şura hökuməti». O, ömrünün sonuna qədər kənddə elmin, mədəniyyətin inkişafına kömək etmişdir. Ona Əmircanın «Molla Nəsrəddin»i deyərdilər.

Heç də təsadüfi deyildir, onun ailəsindən, oğlanları və qızları kəndin ən fəallarından olmuşlar. Oğlu Məmmədəli 1917-ci ildə partiyaya üzv olmuşdur. Oğlu Malik Rəşid oğlu 1920-30-cu illərdə kənddə artel-kooperativ təşkil etmişdir. Bacısı Xalmana kənddə qadınlar hərəkatının fəal iştirakçısı olmuşdur. Qohumu Xəlfə Hüseynov kəndin fəallarından biri olmuşdur. 1937-ci ildə repressiya qurbanı olmuşdur. 1956-cı ildə SSRİ Ali Məhkəməsinin qərarı ilə bəraət qazanmışdır.

Kənddə xalq sənəti də xeyli inkişaf etmişdir. Memar usta Süleyman XIX əsrin birinci yarısında yaşamışdır. 1830-31-ci illərdə Nizaməddin məscidini təmir etmişdir. Daş kitabədə usta Süleymanın adı həkk olunmuşdur.

Usta Süleymanın nəslindən ustalar çıxmışdı. Onun oğlu Abbasqulu da XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllində memar usta olmuşdur. Daşdan tağ çatmaqda mahir usta olmuşdur. Məhəllə məscidində daş kitabədə «Abbasqulu və Mirzə Məlik» adları həkk olunmuşdur.

XX əsrin əvvəlində Əmircan kəndində memarlıq sənətinin iki görkəmli ustası meydana çıxmışdır. Onlardan biri Mirzə Məlik Abbasqulu oğludur. O, atası başladığı kənd məhəllə məscidini ustalıqla tikib qurtarmışdı. Bu memar ustanın əli ilə Binə kəndində tikilən məscid tərifə layiqdir (1914-cü ildə tikilmişdir).

Daha sonra Murtuza Muxtarovun sifarişi ilə Mirzə Məlik Bayılda Mexaniki zavodun sexlərini tikmişdir. Bu tikinti işi bu gün də memarlıq cəhətdən hamının heyrətinə səbəb olur.

Binə məscidinin günbəzinə 1918-ci ildə top gülləsi dəyib deşmişdir. Lakin günbəz uçmamışdır. İndidə də o deşiyin yeri məlumdur. Nəhayət bu ustanın əli ilə Əmircan klubu 1926-cı ildə bərpa edilmişdir. Klubun qabaq hissəsi ağ daşla onun əli ilə tikilmişdir.

Usta Mirzə Məlik ən çətin obyektlər də tikmişdir. Başqa ustalar buna cürət etməmişdir. Məsələn, İsmailiyyə binasının üstündə usta Mirzə Məlik və Məsmalının adları həkk olunmuşdur, Sanqaçal körpüsü və Dzerjinski adına zavodun «kuznets sexi» və digər məsuliyyətli obyektlər indiyə qədər qüsursuz işləyirlər.

Usta Mirzə Məlik 1859-cu ildə anadan olmuş, 1943-cü ildə vəfat etmişdir.

Digər memar usta Kərbəlayi Əhməd Səməd oğludur (1860-934). Kənddə iki minarəli məscidi o tikmişdir. Memarlıq sənətinin gözəl nümunələrindən biridir .

XX əsrin tarixi mədəniyyət abidələrindən biri olan bu iki minarəli məscid 1908-ci ildə tikilmişdir.

1905-ci ildə Bakı quberniya idarəsinin inşaat şöbəsində işləmiş memar mühəndis Zivərbəy Əhmədbəyov, Əmircanda tikilmiş iki minarəli məscidin günbəzinin və minarətlərinin layihəsini vermişdir. Onun haqqında «Qobustan» incəsənət toplusu yazır:

---

***1. C.R. İsmayılzadə, "Deyilən söz yadigardır", Bakı, 1981, səh. 163***

***2. Yenə orada, səh. 168***

«Memar Zivərbəy Əhmədbəyov 1902-ci ildə Peterburq mülki mühəndislik institutunu bitirmişdir. Bakı quberniya idarəsinin inşaat şöbəsində işləmişdir. Onun layihəsi əsasında 1905-ci ildə Təzə Pir məscidi və indiki göz xəstəxanası Bakıda tikilmişdir. O, ilk azərbaycanlı mühəndisdir[1].

Mən bu kitabın materiallarını uzun illər toplamışam. Lakin gəlib indiki müasir dövrdə ictimai proseslərin dəyişdiyi, yeni fikirli siyasi xadimlərin demokratik nəzəriyyələrinin yarandığı dövrdə tarixdə baş vermiş hadisələri dəyişə bilmərəm.Yeni baxışlar yarada bilmərəm. Bunlar tarixdə baş verib. O dövr tarixi bu gün öz qiymətini itirməməlidir. O tarixi dəyərlərə qiymət verənlər də lazımi şəxsiyyətlər, simalar və dövlət xadimləri, həm də sadə insanlar olmuşlar. Gəlin tarixə yamaqlar vurmayaq, onu dəfələrlə saxtalaşdırmayaq. Əgər həmin tarixi hadisələr gizlədilibsə, tarixin dönüklüyündən yox, dövlət xadimlərinin «öz şəxsi hisslərindən, milli mənsubiyyətləri üzündən baş verdiyi üçün» tarixi hadisələri bu gün olduğu kimi, sağ qalanların doğru-düzgün deyimlərindən irəli gələrək verə bilək. Sovet hakimiyyəti dövrü, 1918-ci il mart qırğını, 1937-ci ilin faciələri olduqca ziddiyətli faktlarla, bir çox yalanlarla bizə çatdırılıb . Mən 15 il əvvəl yazdıqlarımı çox dəyişmək istəmirəm, bu gün isə Sovetlər imperiyası dağıldığı üçün o illərin şəxsiyyətlərinin fədakarlığını olduğu kimi saxlamaq istəyirəm. Mənim buna tarixçi kimi haqqım olmalıdır.

1917-ci ildə V.İ. Leninin rəhbərliyi altında Rusiyada Böyük Oktyabr sosialist inqilabı qalib gəldi. Yeni Sovet dövləti yarandı. Proletar diktaturası quruldu. Fəhlə sinfi Kommunist partiyasının rəhbərliyi altında hakim sinfə çevrildi. Ölkəmizin fəhlələri Bakı proletariatı Oktyabr çevrilişindən sonra Sovet hakimiyyəti uğrunda, öz milliazadlığı uğrunda daha qətiyyətlə mübarizəyə qalxdı.

1990-cı ilə qədərki sovet tarixşünaslığında Oktyabr çevrilişi «ümumdünya əhəmiyyəti olan qanunauyğun bir tarixi proses», «kapitalizmin ümumi böhranının birinci mərhələsinin mütləq nəticəsi», «XX əsrin dünyanın inkişafına köklü surətdə təsir göstərən başlıca hadisəsi», «inhisarçı kapitalizm şəraitində sinfi mübarizənin qanunauyğun nəticəsi», «dünya ölkələrində bütün siniflərin şüuruna və əxlaqına nüfüz edən hadisə», «milli azadlıq hərəkatının inkişafına güclü təkan verən», «marksizm-leninizmin sosialist inqilabı haqqında təliminin təntənəsi olan», «bəşəriyyətin kapitalizmdən sosializmə keçid dövrünün təntənəsi dövrü» hadisəsi kimi qiymətləndirilirdi. Artıq Birinci dünya müharibəsi dövründə Rusiyada baş vermiş ümummilli böhranın nəticəsi olan Oktyabr çevrilişi XX əsrin mühüm hadisəsi kimi qiymətləndirilib.

Qərbin tarix ədəbiyyatında Oktyabr çevrilişi «tarixi təsadüf», «bolşeviklərin avantürizmi», «qeyri-proletar», «öz nəzəriyyəsini təcrübədə sınamağı qərara almış peşakar inqilabçılar, bolşeviklər tərəfindən yuxarıdan zorla qəbul edilmiş əsası olmayan» çevriliş, «təhlükəli və ehtiyatlı oyun» kimi qiymətləndirilmişdi.

1990-cı ildən sonra Oktyabr çevrilişinin mənasızlığını sübut edən faktlar üzə çıxdı. Bu çevrilişdən keçən onilliklər ərzində sovet cəmiyyətində və sosialist Rusiyası modeli ilə gedən ölkələrdə baş vermiş dərin ictimai, siyasi və iqtisadi böhran, SSRİ-nin və dünya sosializm sisteminin dağılması bir daha oktyabr çevrilişinin mahiyyətcə uğursuzluğunu sübuta yetirdi. Oktyabr çevrilişi bölünməz, toxunulmaz və tənqid olunmaz vahid ideyalı, vahid siyasi partiyalı sistemin yaradılmasının başlanğıcını qoymuşdur. Habelə «xalqlar həbsxanası» adlandırılan keçmiş Rusiya imperiyasının beynəlmiləlçilik şüarı altında avtomatik olaraq sovet imperiyasına çevrilməsinə təminat vermişdir. Keçən onilliklərdə millətlərarası münasibətlərdə özünü göstərən dərin böhran sosial və milli qarşıdurmalar, məhz bu çevrilişin uğursuz nəticəsidir.

Oktyabr inqilabının Petroqradda qələbəsinin altıncı günü, 1917-ci il noyabrın ayının 2-də Bakıda Sovet hakimiyyəti elan edildi. Beləliklə, Bakı, Azərbaycanın inqilab qalasına çevrildi. Bu inqilabda iki cəbhə arasında mübarizə gedirdi. Onlardan biri Bakı proletariatının inqilab cəbhəsi idi, digəri burjuaziya əksinqilab cəbhəsi idi.

1917-ci il noyabrın 22-də Sovet hökuməti «Rusiya və Şərqi bütün müsəlmanlarına müraciət» elan etmişdir. Orada deyilirdi ki, müsəlmanların dini adət-ənənələri, milli-mədəni təsisatları sərbəst və toxunulmazdır, onlar milli həyatlarını azad, maneəsiz qura bilərlər. Azərbaycan xalqının milli mənlik şüurunun artdığı keçmiş milli-müstəmləkəçilik əsarətinin bütün təzahürlərinə son qoymağa çalışdığı bir şəraitdə suveren Azərbaycan Respublikası tələb olunurdu. Bu cəhətdən Azərbaycan Demokratik Respublikası mövzusunun obyektiv araşdırılması sahəsində Azərbaycan mühacır ədəbiyyatı və xarici Azərbaycanşünaslıq nümunələri nəzərə alınmazsa, bu sahədə az işlər görülməmişdir. İndi demokratiya şəraitində, müstəqillik əldə etdiyimiz bir vaxtda arxivlər açılmış, tarixin bu qaranlıq səhifəsini işıqlandırmaq mümkün olmuşdur. 1918-ci ilin mart hadisələri ilə əlaqədar ola-



*1. Az. SSR EATİ Elmi arxivi, iş №7802, sənəd №13, səh. 1*

raq Zaqafqaziya seyminin müsəlman fraksiyası istefa verdi, buna səbəb Bakıda və onun ətraf kəndlərində on minlərlə azərbaycanlının erməni daşnakları tərəfindən qırılması idi.

1918-ci il aprelin 17-də Bakı məsələsinin Nazirlər kabinetinin təcili iclasında həll olunması qərara alındı, çünki bu gün Bakı məsələsi respublikanın ölüm-dirim məsələsi idi. Bakıya çoxlu dəstələr göndərilir, seymin azərbaycanlı üzvləri həbs edilir, ermənilər Bakıda tam ağalıq uğrunda çalışmağa başlayırdılar. Daşnaklar Salyan, Quba, Kürdəmirdən başlayaraq kütləvi qırğınlar törətməyə başladılar. 1918-ci il mayın 28-də Tiflisdə dörd partiyanı təmsil edən qırx dörd nəfərlik azırbaycanlı deputatlar Milli Şurada birləşərək yeni dövləti - Azərbaycan Demokratik Respublikasını yaratdılar. Həmin gün İstiqlal Bəyannaməsini imzaladılar. Bu bəyannamədə deyilirdi ki, Azərbaycan öz sərhədləri daxilində suveren hüquqlu, müstəqil dövlətdir.

Bu dövrdə kəndin əhalisi iki yerə ayrılmışdı, birinci fəhlələr, kasıb kəndlilər, sənətkarlar, muzdurlar təşkil edirdilər. Yerdə qalanlar M. Muxtarov və Ş. Əsədullayevin xidmətçiləri - din xadimləri idi ki, azlığı təşkil edirdilər.

1918-ci ilin aprel ayının 25-də Bakıda Sovet Hakimiyyəti qələbə çaldı, xalq komissarları şurası (XKŞ) yaradıldı. Onun sədri S.Q. Şaumyan, Bakı quberniya komissarı M.B. Əzizbəyov, üzvləri P.A. Caparidze, N. Nərimanov, M.Q. Vəzirov, İ.D. Zevin, İ.N. Kolesnikov, Fioletov və başqaları idi.

1917-ci ilin sonlarında V.İ. Lenin tərəfindən Cənubi Qafqazın fövqəladə komissarı təyin edilmiş Şaumyan Qafqaz ordusunun Tiflisdə çağrılan qurultayında milliyətcə erməni olan Korqanovun başçılığı ilə yaradılmış Hərbi inqilab komitəsi Bakıya gəlmişdi. Şərq və Qafqaz cəbhələrindən dönən altı min rus, səkkiz min erməni əsgərini Bakıya topladılar. Bundan başq, bolşevik-daşnak qrupunun kök saldığı Bakı Sovetinin ixtiyarında Qırmızı ordu adı ilə çoxlu ermənilərdən təşkil olunmuş iyirmi minlik silahlı qüvvə də cəmlənmişdir.

1918-ci il martın 30-da saat 16:40-da Bakıda erməni kilsəsinin yanında toplaşan daşnak dəstələri müsəlmanlara ilk atəşi açdı. Bundan istifadə edən erməni millətçiləri şəhərin dinc əhalisinə divan tutdular. Bundan sonra erməni millətçiləri Bakı ətrafı kəndlərində də, o cümlədən Əmircanda da qırğınlar törətdilər. Lakin əhalini tez bir zamanda kənddən çıxarıb Mərdəkan, Şüvəlan bağlarında yerləşdirə bildilər. Əhali kəndə yalnız 1920-ci ilin payızında qayıda bildi. Bu zaman Bakıda hakimiyyəti ələ keçirən erməni - bolşevik cəlladları bütün Azərbaycanda türk-müsəlman əhalisini yox etmək və kökünü kəsmək istəyirdilər. Bəşər tarixindən bilirik ki, bir xalqın başqa xalq tərəfindən şüurlu surətdə kökünü kəsmək - s o y q ı r ı m adlanır. Soyqırım günü kimi ermənilər Azərbaycan türklərinin ən əziz bayramı olan Novruz gününü seçdilər. 1918-ci il martın axırları Bakıda otuz minə yaxın silahlı erməni-rus əsgəri var idi. Bu hadisələrlə əlaqədər bir neçə məlumatı nəzərinizə çatdırmaq maraqlı olardı. Bu qırğınlar zamanı Bakı kəndlərinin əhalisi də köməklik göstəmişdir. 1918-ci ildə Bakını qutarmağa gələn Türk-İslam ordusu kəndlərdə möhkəmlənib Bakı kəndlərinin əhalisinə köməklik göstərdilər. Çünkü bu kəndlərdə əhali əli silahsız idi və gələn ordudan silah alaraq, düşməni qırmaqda Türk-İslam ordusuna kömək edirdilər.

Bu yaxınlarda əlimə keçən Məmməd Əsəd bəyin «Şərqdə neft və qan» kitabında həmin dövrün Bakı ilə əlaqədar bu misralarını oxudum. Onları sizin nəzərinizə çatdırmaq istəyirəm:

«1918-ci ilin həmin günlərini xatırlayanlar, bolşevik hökmranlığı, yaxud Azərbaycanın «azad sosialist respublikasının» yaranması belə başlandı. Hər gün yüzlərlə adam həbs olunur, qoçular, bankirlər, kapitalistlər, sahibkarlar, xozeyinlər, mülkədarlar, müəllimlər, tələbələr, jurnalistlər, həkimlər, bir az varlı adamlar, əvvəlki varlı nəsildən olanlar, onlara xidmət edib varlananlar ç e k a n ı n zindanlarına atılırdılar. Çekanın başında dənizçilik təcrübələrini tətbiq etməyə imkan tapmış bir rus matrosu dayanmışdı. Bütün bu tutulanlar gəmilərlə Nargin adasına aparılardı, çünki çekanın rəsmi qərarqahı orada yerləşdirilmişdir. Həqiqətdə isə əsirlər adaya çatmamış gəmidəcə güllələnir, boğazlarına ağır yük bağlanıb adada qırağa atılırdı. Nargində minlərlə əsirlərin vəd edilən görünüşü belə başa çatmışdır. Bütün əhali təbəqəsinin kökünün planlı şəkildə kəsilməsinə qəti tələb bununla verilmirdi. Bunuda çeka məhz ozünə bir vəzifə seçdi: «Sahibkarlar sinfinin» kökünün planlı kəsilməsi... Bu dövrü kommunistlər «terrorun böyük günləri» adlandırdılar. Bunun üçün heç bir cinayət etmək lazım deyildi, bütün ailə üzvləri ilə Nargin adasına sürükləmək üçün ailənin bir üzvünün qeyri-loyal fikirdə olması bəs edirdi. Əsas o idi ki, bu adam neft sənayesi üçün əvəzsiz olmasın. Şübhəlilərin yaşı heç bir rol oynamayırdı. Çekanın fikrincə, on beş yaşından tutmuş səksən yaşınadək olan hər bir adam ölüm yetkinliyinə malik idi. Milyonçu Hacı Zeynalabdin Tağızadəyə ölüm hökmü çıxarıldı. Lakin xalqın və fəhlə sinfinin qəti etirazlarından sonra Moskvadan general üçün əfv fərmanı gəldi. Qoca generalın bütün varidatı əlindən alınaraq Mərdəkandakı bağına sürgün edildi və H.Z. Tağızadə səksən altı yaşında vəfat etdi. Qocalardan biri deyirdi ki, var-yoxu əlindən alınanlar yoxsul camaatla bir səviyyədə olurdular. Onlar bunu dərk edib, belə söyləyirdilər ki, zərdüştün məmləkəti bu anlarda qırmızılar tərəfindən toxunulmamış qalırdı - elə bil, yeni bahar idi. Köhnə dünyaya vida səfəri belə başa çatırdı. Artıq köhnə dünya bizə nağılları xatırladırdı. Sonralar köhnə dünyadan qalan əşyaları əlimizə götürəndə dərindən ah çəkirdik. Bunları bizə danışanda, elə bil, üstümüzdən ağır yük götürülürdü. Bunu başa düşmək bəzən asan, bəzən də çətin olurdu mənə ...»

1918-ci ilin aprel ayında Məşədi Əzizbəyov Əmircan kəndinə gəldi. Böyük bir yığıncaqda əhali qarşısında

nitq söylədi. Bu haqda o zaman «Hümmət» qəzeti belə yazmışdı:

«Məşədibəy Əzizbəyov bu günlərdə Bakı ətrafında olan müsəlman kəndlərinə getmiş, kəndinə məxsus bir məharətlə həmin kəndlərdə təşkilat yığmağa səy etmişdir. Bir neçə gün müddətində M. Əzizbəyov Əmircan, Bülbülə, Suraxanı, Mərdəkan, Şüvəlan kəndlərinə gedərək həmin kəndlərin əhalisini Şura hökuməti ilə əl-ələ verib camaatı öz zəhməti ilə işləməyə dəvət etmişdir. Yoldaşımız Əzizbəyovun belə ciddi və hərarətli çalışması gözəl nəticələr vermişdir»[1].

Hələ o günü kəndin fəal fəhlə və kəndliləri Əmircan kənd sovetini seçdilər (1918) və onun katibi Novruzov Əli Zahab Dövralı oğlu oldu. Lakin hələ kəndin işlərini kəndxuda Məşədi Yaqub onunla birlikdə aparırdı. "Bolşeviklərin mübariz işi nəticəsində az bir müddətdə Abşeronun 17 kəndində M. Əzizbəyovun şəxsən iştirakı ilə Sovet hökuməti quruldu və kənd sovetləri seçildi". M. Əzizbəyovun işi haqqında o zaman «Bakinskiy raboçiy» qəzeti yazırdı: «Bu günlərdə Bakı qurberniya komissarı təyin olunmuş yoldaş Məşədi Əzizbəyov ona məxsus məharəti ilə müsəlman kəndlərində kəndliləri təşkil etmək üçün bir neçə gün ərzində kəndləri gəzmişdi. O, şura hökuməti tərəfindən çıxış edərək əsarətdə qalmış müsəlman kütlələrini sinfi düşmən ilə mübarizə etməyə və Rusiya sosial-demokratiyası ilə birlikdə işləməyə çağırmışdır. M. Əzizbəyovun hərarətli çıxışı və işi böyük nəticələr vermişdir. İcraiyyə komitəsinə biri-birinin ardınca kənd cəmiyyətindən sovet hökumətini tanımaları haqqında qərarlar gəlir»[2].

Əmircan kənd soveti yaranan gündən hər cür imkanlardan istifadə edərək aclığın qarşısını alır, nizam-intizam yaradır, əks-inqilabi qüvvələrlə mübarizə aparır.

Kənddə çoxları işə çıxmırdı. Ələlxüsus Suraxanı sahəsində, qazarmalarda yaşayan fəhlələrin bir qismi öz vətənlərinə qayıdırdılar. Fəhlələrin sayı azalırdı. Mədən və zavodların yarısı işləmirdi. «Nəticədə 1918-ci ildə Bakıda neft sənayesində işləyən fəhlələrin, qulluqçuların sayı azalmışdı».[3]

Kapitalistlər bilə-bilə, qəsdlə neft hasilatını azaldırdılar ki, yeni Rusiya Sovet Respublikasını neft ilə təmin etməsinlər. Bakı xalq komissarlar şurası 2 iyun 1918-ci ildə Bakı neft sənayesini milliləşdirmək haqqında dekret verdi. Dekretdə deyilir:

«Bu gündən etibarən bütün mədənlərin, zavodların, emalatxanaların və avadanlığın yeganə sahibi xalqdır, fəhlə və kəndli hökumətidir»[4].

Bu şad xəbər kəndə yayıldı. Bu dekreti evlərdə, küçələrdə, dükanlarda, hətta məscidlərdə oxuyurdular.

Kəndin varlıları, sahibkarlar, ruhanilər Sovet hökuməti əleyhinə təbliğat aparırdılar. Onlar fəhlələri qorxudurdular ki, Sovet hökuməti mədənləri işlədə bilməsin. Hamı işsiz qalacaqdır. Ruhanilər deyirdilər ki, sahibkarların mədən və zavodların malını, dövlətini əlindən almaq «haramdır».

Sonra o mədəndə işləmək «günahdır». Onların bu təbliğatı nəticəsində hətta kənddə qohumlar arasında biri-birilə ədavət və narazılıq əmələ gəlirdi. Onlar mədənlərdə, zavodlarda talanlar, yanğın, qəzalar törədirdilər. Sənayeyə böyük ziyan vururdular. Abşeronun ən qədim kəndi olan Xilədə bu hadisələrin baş verməsini uzun illər böyüklərdən eşitmiş adamları dinlədik. Kəndin tarixi ilə əlaqədər kəndin yaşlı əhalisinin bir çoxunu dindirib belə məlumatlar əldə etdim.

Bu qırğın ilə əlaqədar doxsan yaşlı ağbirçək Mənzər xalanın dediklərini olduğu kimi sizə çatdırıram. Qeyd edim ki, bu adamlar daim gileylənirdilər ki, 1905-1907, 1918-1920 erməni soyqırımı, 1937-ci ilin repressiyası çox az öyrənilmişdir. Lakin bunlar da Azərbaycan tarixinin səhifələridir. Bu bolşevik rejimi kitablardan silinsə də, yaddaşlardan silinə bilməmişdir. Kəndin yaşlı əhalisinin söhbətlərindən çox məsələlər agah oldu. Belə ki, əmircanlı milyonçu Şəmsi Əsədullayevin oğlu Əli Əsədullayev 1918-ci ilin mart qırğınlarında kəndin əhalisinə böyük köməkliklər göstərib. «Evelina» gəmisindəki Rusiyadan bolşeviklərə gətirilən silahların xeyli hissəsini kəndin əhalisinə göndərib. Həmin silahlardan istifadə edərək əhali özünü ermənilərdən qorumuşdu. Xəzərdə olan gəmilərin çoxu neft daşıyırdı. Lakin bolşeviklər gəmiləri ələ keçirməyə çalışırdı. Bu gəmilərin çoxu Şəmsi Əsədullayevə məxsus idi. Arxiv materiallarına nəzər saldıqda həmin gəmilərin çoxunun Şəmsi Əsədullayevin şəxsi vəsaiti ilə düzəldiyinin şahidi oluruq. Bunlardan «Amerika», «Afrika», «Asiya» gəmiləri şəxsən Şəmsi Əsədullayev tərəfindən düzəltdirilmişdir və Xəzər dənizində neft daşınmasına xidmət edirdi. Onun ölümündən sonra əmlakı oğlanlarının və ailəsinin ixtiyarına verilmişdir[5].

1918-1920-ci illərdə erməni-müsəlman qırğınından danışarkən ADR-in xidmətlərinin də bu günkü gün qeyd etməliyik. Həmin dövrdə Məmmədəmin Rəsulzadə Xilə kəndinə gəlir, ağsaqallar və əhali ilə görüşür. Belə qərara gəlirlər ki, başqa kəndlərə də xəbər göndərib bütün qüvvələri birləşdirsinlər. 1918-ci il martın 21-də Nov-

***1. "Hümmət" qəzeti, aprel 1918-ci il.***
***2. Azərbaycan tarixi, cild III, səh. 135***
***3. Azərbaycan tarixi, cild III, səh. 146***
***4. Yenə orada, səh. 144***
***5. Azərbaycanın Mərkəzi arxivi, fond 530***

ruz bayramı günü gecədən keçmiş, əhali nə mümükünsə, götürüb arabalara yığışaraq kənddən köçürülüblər. Onlar Şağan və Şüvəlandakı bağ evlərinə köçürülüblər. Bu dövrdə Məmmədəmin Rəsulzadə bilirdi ki, əhalidə silah yoxdu və müdafiə olunmaq üçün silah tapmaq lazımdı. Bu zaman Şəmsi Əsədullayevin oğlanları Mirzə və Əli Əsədullayevlər belə dar gündə kömək əlini uzadırdılar. Çünki artıq kömək üçün Türkiyəyə müraciət olunmuşdur və onlar gələnə qədər kəndlərdə özünü müdafiə dəstələri yaratdılar. Kürdəxanlı Məşədi Adil, Maştağalı Xunxar məhəlləsinin qoçusu Əziz Əbdüləzim oğlu, Hacı Mirabtalıb öz dəstələri ilə köməyə hazır olduqlarını bildirdilər. Yaşlı adamlar belə nəql edirlər ki, o zaman kəndlərdə qoçular arasında küsülülük var idi. Maştağalı qoçu Əziz və Mirabtalıb bir-birindən küsülü imiş. Onları görüşdürürlər. Mirabtalıb tapançasını açıb yanındakına verib Əziz ilə belə söhbət edir: «Gəl indi, vaxt o vaxt deyil, vəziyyət çox ağırdı, düşmənçiliyimizi qoyaq bir tərəfə. Camaatımızı erməninin bu qırğınından xilas edək. Sonra yenə küsülülüyümüzü davam etdirərik.

Ermənilərin hücumlarının qarşısını almaq üçün bir şey fikirləşək. Mənim Zabratda əlli min qoyunum var. Bir neçə atlı göndərək qoyunları sürüb gətirsinlər, onun yarısını buraxaq ermənilərin qabağına, var dövlət şirin şeydi, qoy onların başları qarışsın yemək içməyə, iki-üç gün vaxt qazanaq ki, türklər gəlib çıxsın. Yarısını da kəndlərin əhalisinin arasında bölüşdürək, qoy dolansınlar, çünki camaat acdır, həm də qurban bayramı gəlir.

Bu zaman Bilgəh, Nardaran, Buzovna, Ramana əhalisi də köməyə gələr, həm də o tərəflərə top qoyarıq ki, türklər gələnədək kəndləri qırğınlardan qoruyaq».

Bu hadisələri xatırlayan Əmircanın doxsan yaşlı ağbirçək qocası Mənzər xala və yaşlı ağsaqqal Məmmədəmi deyirlər ki, həqiəqətən, çox ağır vaxtlar idi. Türkiyədən Ənvər paşa və Nuru paşanın dəstələri köməyə gəldilər. Əhalini silahla təmin etdilər və kəndlərin müdafiəsinə qalxdılar. Nuru paşa Xilə kəndinə gəlib, həqiqətən də əhali ilə söhbət edib. Nuru paşa (Türkiyədən gələn Möminin dedikləri) Kürdəxanlı Məşədi Adilin hünərini çox qiymətləndirib onun şəklini Türkiyəyə apararaq orada Ankara şəhərində heykəlini qoydurtdurub.

1918-1920-ci ildə kənddən öldürülənlərdən ilk Mənzər xalanın atası Mirzobba olub. Kəndin əhalisinin varlı xozeyinləri olan Kiçmirzə Babayev, Mülük əmi, Kəblə Mirzə əhaliyə və ailəsinə o vaxtlar barəsində tez-tez söhbət açarmış. Onlar gecələr də yatmırmış, kəndin bir neçə yerində pusqu qurub, ermənilərin kəndə girməsinin və evləri dağıdıb talan etməsini görüblər. Bütün öldürülənlər kəndin mərkəzi qəbirstanlığında dəfn olunublar. 1931-ci ildə həmin qəbirstanlıq açılarkən, onların sümükləri başqa qəbirstanlıqda yenidən dəfn edilib.

Ərzaq mallarının çatmaması, bahalaşması, aclıq əhalini ruhdan salmırdı. Kəndin bolşevikləri, fəhlə və kəndliləri Bakı xalq komissarlarına inanırdılar. Mədən və zavodları fəhlələr daxili düşmənlərdən qoruyurdular. Hər cür əksinqilabi hərəkətlərə qarşı mübarizə aparırdı.

Şura hökuməti iş gününü 8 saata keçirməsi, fəhlələrin əmək haqqını 90% artırması, fəhlələri, onların ailəsini çörəklə təmin etməsi sübut edirdi ki, gələcəkdə zəhmətkeşlərin güzəranı daha da yaxşı olacaq.

O zaman beynəlxalq vəziyyət çox gərgin idi. Rusiya Sovet respublikasına xarici və daxili düşmənlər hər tərəfdən hücum etmişdilər.

İyunun sonunda Bakıda Sovet hakimiyyəti müvəqqəti yıxıldı, ingilislər Bakıya soxularaq şəhəri işğal etdilər.

Bakıda Sovet hakimiyyəti müvəqqəti süqutundan sonra şəhərdə «Sentrokaspi» adlı əksinqilabçı hökumət təşkil edildi. Bu hökumətin menşevik-daşnak başçıları ingilis ağaları ilə birlikdə Bakı fəhlələrinə, onun təşkilatlarına və rəhbərlərinə qarşı hücuma keçdilər.

Əksinqilabi qüvvələrin cidd-cəhdlərinə baxmayaraq, bütün Azərbaycanda, Bakıda olduğu kimi Əmircanda da inqilabi qüvvələr qəti hücuma hazırlıq götürürdülər. «Bolşevik partiya təşkilatlarını səylə möhkəmləndirdilər. 1919-cu ilin yazında iri sənaye müəssisələrinin demək olar, hamısında özəklər var idi.[1] 1919-cu ildə Sumbat Fətəlizadə Suraxanı «Hümmət» rayon partiya komitəsinin sədri seçilir»[2]. Həmin ildə «S. Fətəlizadə «Hümmət» təşkilatının özəklərini Əmircanda, Suraxanıda, Binədə, Hövsanda təşkil edir. 1919-cu il 1 may nümayişinə Suraxanıda rəhbərlik edir»[3].

«1918-1920-ci illərdə Zeynal Zeynalov Əmircan, Hümmət təşkilatına rəhbərlik etmişdir»[4].

Kəndin Suraxanı sahəsində, mədənlərdə «Hümmət» Kommunist partiya təşkilatlarının özəkləri yarandı. Bolşeviklər fəhlələri çətin iqtisadi və siyasi vəziyyətdən xilas etmək üçün müsavat hökumətinə qarşı mübarizəyə qaldırdı.

1919-1920-ci ilin əvvəllərində neçə-neçə Suraxanı mədənlərində və partiya təşkilatının özəkləri yarandı.

Suraxanı kommunist təşkilatlarının yaranmasında S. Fətəlizadə, Vaşikidze (Kote), Bunyatov Bəşir, Parfyonov Semyon, Safkina Zinaida, Savkin Stepan, Ramazanov Hüseyn, Gülrəhim və Rəhmətulin Yaqub fəal iştirak etmişlər[5].

***1. "Azərbaycan tarixi", III cild, səh. 193***
***2. S. Fətəlizadənin bioqrafiyası***
***3. Yenə orada.***
***4. Zeynal Zeynalovun bioqrafiyası***
***5. İz materialov part.arxiv Az.filial NML pri KPSS***

1920-ci il fevralın 2-də Bakıda gizli şəraitdə Azərbaycan kommunist təşkilatlarının 1-ci qurultayı toplandı. Qurultay Azərbaycan Kommunist (bolşeviklər) Partiyasını yaratmaq haqqında qərar qəbul etdi.[1] Kommunist «Hümmət» təşkilatları Azərbaycan kommunist (bolşeviklər) Partiyasının yaranmasından sonra daha böyük qüvvə ilə fəhlə və kəndliləri silahlı üsyana hazırlamağa başladı.

Suraxanıda hərbi ştab yarandı. Əmircanda qvardiya dəstəsi yarandı. Bu qvardiya dəstələrində kəndin fəal gəncləri; Əliyev Cabir, Hüseynov Xəlfə, Əliyev Murtuz, Bunyatov Cabir, Hadıyev Ağahadı, Ağaqulu Səməd oğlu, bolşeviklərdən Quliyev Piri, Babayev M. H., Heybətov Ə. V., Əliyev Ə. H. «Fəhlə döyüşçü dəstələri kommunistlərdən, komsomolçulardan və bitərəflərdən yaradılırdı. Kəşfiyyat işində çoxlu komsomolçu iştirak edirdi.

O zaman müsavat ordusunda da Əmircan gəncləri bolşevik təbliğatı aparmış, partiya ilə əlaqə saxlamışlar. Məsələn, Novruzov Əlizahab Dövrəli oğlu, Kərimov Sabbar Əlican oğlu, Yusifov Hənfə Hacı Yusif oğlu, Quliyev Ağa Södüm oğlu və başqaları Sovet hakimiyyəti uğrunda mübarizə aparmışlar.

Digər Əmircanlı Novruzov Əlizahab Dövrəli oğlu Azərbaycanda Sovet hakimiyyəti uğrunda fəal mübariz olmuşdur. O, 1895-ci ildə fəhlə ailəsində anadan olmuşdur. İlk təhsilini kənd məktəbində almışdır. Uşaq yaşlarından çobanlıq edirdi. 1910-cu ildə Suraxanıda neft mədənində fəhləliyə girmiş, 1913-cü ildə inqilabi hərəkata qoşulmuşdur.

1917-ci ilin oktyabrında Suraxanı fəhlələri onu həmkarlar ittifaqı mədən komitəsinin sədri seçmişlər. Suraxanı fəhlələrinin numayəndəsi olaraq Bakı fəhlə və əsgər deputatları sovetinin işində iştirak edirdi.

1918-ci ilin fevralında bolşevik partiyası sıralarına daxil olur, «Hümmət» təşkilatının işində fəal iştirak edir. Qızıl qvardiya sıralarında olan Novruzov silah götürüb Bakıda və onun rayonlarında sovet hakimiyyətinin möhkəmləndirilməsi uğrunda vuruşurdu. 1918-ci ildə Əmircan kəndli deputatları soveti icraiyyə komitəsinin katibi seçilmişdi. O, eyni zamanda Suraxanı qızıl qvardiya ştabının tərkibinə daxil idi.

Həmin qızıl qvardiya neft mədənlərini eserlərin yandırmasından qoruyurdu.

O, Bakı bolşevik təşkilatı ilə sıx əlaqəyə girib əsgərlər arasında gizli surətdə təşviqat işi aparırdı.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1921-ci ildə iyun ayınadək 2-ci Azərbaycan fəhlə kəndli atıcı polkunda rabitə rotasının komandiri idi. 1921-1925-ci ilin axırınadək rəhbər həmkarlar ittifaqı işində idi. Kommunal təsərrüfatı işçiləri həmkarlar ittifaqı şurasının sədr müavini idi.

Sonrakı illərdə partiya icraiyyə komitəsinin sədri Kürdəmir MTS-in direktoru, Azərbaycan su təsərrüfatı idarəsinin sədri, 1941-1945-ci illərdə Azərbaycan K(b)P MK inzibati şöbəsinin müdiri və partiya kollegiyasının sədri, 1950-1953-cü illərdə Azərbaycan SSR-in maliyyə nazirinin müavini vəzifələrində işləyirdi.

Novruzov dəfələrlə Azərbaycan və Zaqafqaziya sovetlər qurultayında, habelə Azərbaycan KP-nın qurultayına nümayəndə seçilmişdir. Bakı Sovetinin üzvü, Zaqafqaziya MNK, Azərbaycan K(b)P BK və MK üzvü olmuşdur. Qırmızı Əmək bayrağı ordeni və medallarla təltif edilmişdir[2].

Hər şeydən əvvəl kənddə ərzaq çatışmamazlığının, bahalığın, aclığın qabağını almaq lazım gəlirdi. Ona görə hökumət tərəfindən çörək, ərzaq və başqa malları zəhmətkeşlər arasında düzgün bölüşdürmək, əhalini çörəklə təmin etmək vacib məsələlərdən biri idi. «Ərzaq çatışmamazlığı ilə əlaqədar olaraq, respublika hökuməti əhaliyə ərzaq payı verilməsini tətbiq etdi və birinci növbədə fəhlələri və uşaqları təmin etdi».[3]

1920-ci ildə yaz aylarından başlayaraq kənddə əhali iməcilik keçirərək abadlaşma işlərinin səhmana salırdılar. Fəhlələr mədənləri səhmana salır, dayanan quyuları yenidən işə salırdılar. Kəndin inqilab komitəsi kənd təsərrüfatını və neft sənayesini bərpa etmək üçün kənddə əhalini səfərbərliyə alırdı. Sovet hakimiyyətinin ilk günlərində neft sənayesi bərbad halda idi. Neft quyularının yarıdan çoxu dayanmışdı. İşləyən quyular da qüsurlu işləyirdi. Yeni neft quyularının qazılması işi tamamilə dayandırılmışdı. Alət və avadalıqlar sıradan çıxmışdı. İşçi qüvvəsinə böyük ehtiyac var idi. Yerli əhalinin çoxu fəhlələr aclıq üzündən mədənlərdə işi atıb çörək axtarmaqla, bəziləri dənizdə balıq tutmaqla, bəziləri də bağ-bağça əkməklə ailəsini dolandırırdı. Hələ inqilabdan qabaq və inqilabdan sonra da kəndin əhalisinin 50%-dən çoxu neft sənayesində işləyən təcrübəli fəhlələr idi. Bakı kəndlərinin neft sənayesində işləyən fəhlələrin və təcrübəli neft ustalarının çoxu Əmircan kəndindən idilər. Buna görə də bu kəndi «ustalar kəndi» deyə fəxrlə adlandırırdılar.

Bu dövrdə Birinci dünya müharibəsi, xarici hərbi müdaxilə, vətəndaş müharibəsi getdiyi üçün neft sənayesi çox acınacaqlı bir halda idi. Neftçıxarma və neftayırma sənaye məhsulunun kəskin surətdə azalması ilə əlaqədar olaraq, maşınqayırma və metal emalı sənayesinə də böyük zərbə dəymişdir. İnqilabdan qabaqkı maşınqayırma zavodları öz fəaliyyətlərini tamamilə dayandırmış və ya çox cüzi miqdarda məhsul istehsal edirdilər. Bu zaman neft sənayesinin balta, jelonka və s. təmin edən bir neçə xırda emalatxana və texniki cəhətdən geridə qalmış kiçik zavodlar var idi. Bunlardan Əmircanda alətqayıran emalatxana, Bayılda Murtuza Muxtarovun alətqayırma emalatxanaları və sexləri, yenə də onun Zabratda, Ramanada və Balaxanıda emalatxanaları fəaliyyət göstə-

***1. Azərbaycan tarixi, III cild, səh. 230***

***2. "Azərbaycanda Sovet Hakimiyyəti uğrunda fəal mübarizələr" kitabından Novruzovun bioqrafiyası.***

***3. Yenə orada, 253***

rirdi. İnqilabdan sonra yeni üsullar neft sənayesinə tətbiq edilmədiyindən neft hasilatı gündən-günə azalırdı. Köhnə üsul olan dərinlik nasoslarından istifadə də neftin azalmasına səbəb olurdu.

Azərbaycan neft sənayesi milliləşdirildikdən sonra qəhrəman Bakı neftçiləri, o cümlədən Əmircan neftçiləri və neft ustaları neft sənayesində yaranmış ağır vəziyyəti aradan qaldırmaq, istehsalatı qaydaya salmaq, neft hasilatını ölkənin tələbləri səviyyəsinə çatdırmaq üçün əzm və fədəkarlıqla yenidən işə başladılar. Neft sənayesinin bərpası və inkişaf etdirilməsi mühüm sənaye sahələrindən biri də mexaniki zavodların bərpası və yenilərin tikilməsi idi. Artıq 1923-cü ildə Bakının bir sıra mexaniki zavodlarının bərpası başa çatdırılmış və yeni avadanlıqla təmin edilib işə salınmışdı. O dövrdə Əmircan sahəsində Fomin adına qazma alətləri hazırlayan mexaniki zavod işə salındı. İlk əvvəllər bu zavod ABŞ-dan gətirilən «Qall» zənciri buraxmağa başladı.[1]

Bakı və onun ətrafındakı neft mədənlərinin neft avadanlığı ilə təmin edəcək yalnız kustar emalatxanalar hələ də qalmaqda idi. Bunlar keçmiş neft sahibkarları Rotşild, Nobel qardaşları, Bekkendorf, Musa Nağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev, Qubonin, Kokorev və başqalarından qalma zavodlar və emalatxanalar idi. Bakı neft mədənlərində dərinlik nasoslarına olan tələbat onu istehsal edən bir zavodun yaradılmasını lazım bilirdi. Bu məqsədlə yeni iqtisadi siyasət dövründə Bakıda tikilən zavodlardan biri də Əmircandakı F. Dzerjinski adına maşınqayırma zavodu idi.[2]

1923-cü ilin payızında Əmircanın yaxınlığındakı düzənlikdə ilk emalatxanın tikintisinə başladı. Emalatxanın tikintisində S. M. Kirov yaxından iştirak edirdi. Kəndin görkəmli ustası Mirzə Məlik Abbasqulu oğlu bütün tikinitinin məsuliyyətini öz üzərinə götürdü. Qeyd edək ki, Bakı və ounun ətrafındakı bir çox ictimai binalar və məscidlərin tikintisi onun əlindən çıxmışdır. Emalatxana dörd binadan ibarət idi:

1. Emalatxananın baş binası
2. Kompressor qurğusu
3. Anbar
4. Yüngül tipli saray

Bakı soveti emalatxananın sürətlə tikilib, başa çatdırılmasına təkan vermək üçün sənaye bölməsi komissiyasını bu işə təhkim etmişdir.[3]

Emalatxanaya lazım olan avadanlıq və dəzgahlar xaricdən gətirilirdi. Bu işdə Azərneft idarəsinin rəisi A. Serebrovskinin xidməti qeyd edilməlidir. S.M. Kirov, A. Serebrovski tez-tez zavoda gəlib yeni avadanlıqların Amerikadan gətirilməsinə şəxsən nəzarət edirdilər.[3]

Yeni-yeni işçi qüvvələrinin emalatxanaya cəlb edilməsində Əmircan, Bülbülə, Ramana, Suraxanı, Balaxanı fəhlə qəsəbələrinin «El köməyi təşkilatları» yaxından yardım göstərirdilər.[3]

1925-ci il noyabr, dekabr aylarında emalatxana artıq 100 ədəd dərinlik nasosu istehsal edib ölkənin neft sənayesinə təhvil verdi.[3]

Artıq 1930-cu ildə Azərneftin əmri ilə Baş emalatxana kimi müstəqil oldu və «F. Dzerjinski adına mexaniki zavod» adlandırıldı. Zavodun yenidən qurulması 1932-ci il yanvarın 1-də başa çatdırıldı.[3]

Bu zavodda Məmmədhüseyn Babayev, Piri Dostməmməd oğlu, Xeyrulla Heybətov kimi əmircanlılar təcrübələr aparırdılar. Qocaman neft ustası Piri Dostməmməd oğlunun şagirdi Müseyib Dadaş oğlu 1921-ci il iyun ayında kommunist beynəlmiləli III konqresinə nümayəndə seçilmişdir. 1921-ci il iyun ayında kəndin klubunda keçirilən yığıncaqda konqresdən təəssüratlarını danışmışdır.[3]

Kommunist iməcilikləri, «avral həftələri» ilə kəndin Suraxanı sahəsindədə böyük işlər görülmüşdür. Bu dövrdə xarici və daxili düşmənlər hər vasitə ilə neft sənayesinə ziyan vurmağa çalışır, hətta yanğınlar da törədirdilər. Məsələn, Suraxanıda 1922-ci il aprel ayının 10-da gecə eserlər tərəfindən təşkil olunmuş yanğın böyük dağıntılar törətdi. II-III mədənlər təhlükə altında idi. Həmin dövrdə qocaman neftçi Manaf Rza oğlu öz xatirəsində bunların haqqında belə deyirdi: «Üç gün, üç gecə yanğınla mübarizədə fəhlələr qalib gəldilər. Bütün kənd əhli bacardığı köməyi etdi. Yanğının söndürülməsində Əliyev Məhərrəm, S. Kirov və Serebrovski iştirak edirdilər, orada onlarla tanış oldum. Yanğının söndürülməsində iştirak edən əmircanlı fəhlə və ustalara, mühəndis-texniki işçilərə V. Lenin şəxsi teleqramla təşəkkür etmişdi[4]».

Teleqramda deyilirdi: «Aprelin 9-dan 10-na kecən gecə fəhlə sinfinin düşmənləri Suraxanı neft mədənlərində yanğın törətdilər. Həyat üçün çox böyük bir təhlükə şəraiti yaradıldı. Mədənlərin fəhlələri və mühəndislərinin qeyri adi qəhrəmanlıq və fədakarlıq faktları ilə tanış olduqdan sonra Sovet Rusiyası adından Suraxanı neft mədənləri fəhlələri və mühəndislərinə təşəkkür etməyi özümə borc bilirəm». Bu tarixi hadisəyə qiymət verərək, ümumi Rusiya mərkəzi İcraiyyə Komitəsi Bakı fəhlələrini Qırmızı Əmək bayrağı ordeni ilə təltif etdi[5].

---

***1. MLİ Azərbaycan filialının partiya arxivi, fond 1, ş. 789, bölmə 41, vərəq 222***

***2. F. Dzerjinski adına zavodun arxivi. "Историческая справка", vərəqə 6***

***3. "Qızıl Bakı" (məcmuə), 1925-ci il, səh. 7***

***4. "Bakinski raboçi" qəzeti, 11 oktyabr, 1925-ci il.***

***5. Azərneft Birliyinin Mərkəzi Arxiv, f. 47, iş 12. vərəqə 27.***

Əmircan neftçiləri dahi rəhbəri V.İ. Leninin təbrik teleqramından ruhlanaraq, onun xatirəsini əziz tutaraq, 1923-cü ildə qocaman neft ustası Quliyev Pirinin rəhbərliyi ilə Suraxanıda 3-cü mədəndə 55 №-li buruğu qazıyıb istismara verdilər. «V.İ. Leninin adına qazıyıb işə buraxılmış quyu sutkada 15.000 pud neft verir və İliç mədən komitəsinin fəxri sədri seçilmişdir».

1921-1925-ci illərdə neft hasilatı iki dəfə artmışdı. Neftçilər tez bir zamanda nəinki dağılmış neft mədənlərini bərpa etdilər, həm də yeni texnikadan istifadə etdilər. 1923-cü ildən başlayaraq Əmircanda dərin tulumba nasosu, mancanaq dəzgahından, fırlanma qazma dəzgahından istifadə etdilər.[1]

Beləliklə dartayçıların ağır, az məhsuldar «jelonka» üsulunu dərin tulumba nasosları və kompressor üsulu əvəz etdi. 1925-ci ildə 30% neft hasilatı, dərin tulumba nasosu və kompressor üsulu ilə hasil edildi.[2]

**Azərbaycanda quyuların dərin tulumba üsulu ilə işlədilməsi**

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra görülən ilk tədbirlərdən biri, neft sənədinin milliləşdirilməsi haqqında dekrekt verilməsi idi.

Əsrlərcə davam edən ağır zülm və istismardan azad edilmiş Sovet Azərbaycanı zəhmətkeşlərinə komunistlərdən irs olaraq qalan mədənlər yarım dağınıq halda idi və həmin mədənlərdə ibtidai texnika tətbiq edilirdi. Kapitalistlər zamanı neft texnikasının və səviyədə olduğunu bundan görmək olar ki, 200-300 metr dərinlikdə olan bir quyu zərbə üsulu ilə 10-12 ay ərzində qazılırdı. Neft əsasən jelonka ilə, yəni ucunda qapağı olan uzun vedrə ilə çıxarılırdı. Açıq fantan xoşbəxtlik hesab edilirdi. Acgöz neft sahibkarları bunu nəzərə almırdı ki, açıq fantan nəticəsində zəngin neft yataqlarında qəza çıxır və həmin yataqları su basır. Sahibkar ancaq öz mənfəətini güdür, sərvətini artırır və qalan şeyləri düşünmürdü.

Çıxarılan neft açıq anbarlara yığılırdı. Fantan vurduqda neft bütün mədən ərazisinə tökülür, sel kimi axır, onlarca fəhlə göydən yağış kimi tökülən neftin altında qanov qazaraq nefti anbarlara axıdırdı. Təbiidir ki, belə şəraitdə çoxlu yanğın baş verirdi. Yanğın söndürmək texnikası da çox zəif olduğundan onlarca buruq məhv olur və qiymətli mədənlər viran qalırdı.

Neftçilər belə şəraitdə gündə 12-14 saat işləyirdilər. 1921-ci ilin may ayında V,İ,Lenin partiyanın Mərkəzi Komitəsi üzvlərinin müşavirəsində Azərbaycan neft sənayesini bərpa və inkişaf etdirilməsi məsələsini irəli sürdü. Stalin həmin müşavirədə neft məsələlərinə baxan müvəkkil təyin edildi. 1921-ci ilin payızında Vladimir İliç bu məsələni yenə müzakirəyə qoydu. Stalin neft sənayenin yenidən silahlandırmaq üçün böyük məramnamə ilə çıxış etdi. O, zərbəli qazma üsulundan çox məhsuldar olan hərlənmə üsuluna keçmək haqqında layihə verdi.

Beləliklə biz dərin tulumba ilə iş üsuluna keçmək haqqında birinci sözü Stalin yoldaşdan eşitdik. O, özünə məxsus uzaqgörənliklə hələ 1921-ci ildə neft sənayesinin əsas inkişaf yollarını göstərdi ki, indiyədək Sovei İttifaqı neftçiləri bu yola getməkdədirlər. Stalin yoldaşın planlarını həyata keçirmək üçün 1921-ci ildə ÜMK(b)PMK Sergey Mironoviç Kirovu Azərbaycana göndərdi. Kirov yoldaşın rəhbərliyilə Azərbaycan bolşevikləri sənayesini yenidən silahlandırmaq üçün ciddi işə başladılar. 1923-cü ilin iyun ayında İliç buxtasındakı 52 nömrəli quyuda birinci dəfə olaraq dərin tulumba işləməyə başladı. Həmin gün, sənayemizdə dərin tulumba üsulunun həyata keçirilməsinin başlanğıcı hesab edilir.

Quyuların köhnə qayda ilə, vəhşicəsinə üsullarla işlədilməsini görmüş və bu ruhda tərbiyə edilmiş mühafizəkar, geridə qalan adamlar dərin tulumba üsuluna müqavimət göstərdilər. Onlar bu üsulun baş tutmayacağı haqqında təbliğat aparırdılar.

Azərbaycan bolşevikləri bütün bunlara baxmayaraq, Kirovun rəhbərliyi altında yeni iş üsulunu tətbiq etmək üçün ciddi fəaliyyətə başladılar. Dərin tulumba üsulunun tətbiq edilməsi ilə fəhlələrdən və qabaqcıl mütəxəsislərdən ibarət fəallar yaradıldı.

Dərin tulumbaların ilk nümunəsi və buna aid başqa avadanlıq xarici ölkələrdən gətirilmişdi. 1923-cü ilin may ayında Şmidt adına Zaqafqaziya metal zavodunda xaricdən gətirilmiş tulumba hissələrindən birinci dərin tulumba quraşdırıldı. Elə həmin ilin avqust ayında zavodun özü 3-5 tulumba istehsal etdi və ilin axırınadək buraxılan tulumbaların sayını gündə 10-a çatdırdı.

Lakin bu qədər tulumba mədənlərin getdikcə artan tələbini ödəyə bilməzdi. Mədənləri sovet dərin tulumbaları ilə lazımınca təchiz edə bilmək üçün öz maşınqayırma müəssisəmiz olmalı idi.

Budur, Suraxanı rayonu mexanika şöbəsi partiya təşkilatının qərarı ilə1923-cü ilin payızında Əmircan kəndinin yaxınlığındakı düzənlikdə Dzerjinski zavodunun təməli qoyuldu. Mədənlərimizdə dərin tulumbanın tətbiq edildiyi günün 25 illiyini qeyd edərkən həmin zavodun neft sənayesinin dərin tulumba üsulu ilə işləməyə keçməsində oynadığı böyük rolu göstərməmək olmaz.

1925-ci ildə tikilib qurtaran bu zavod dərin tulumba istehsal etmək üçün Şmidt zavoduna təhkim edildi. Sergey Mironoviç Kirov hər gün özü zavoda yardım göstərir, demək olar ki, hər gün buraya gələrək zavodun ava-

***1. "Qızıl Bakı" (məcmuə), 1925-ci il, səh. 7***

***2. SSRi OİMDA, Fond 5446, səh. 13, iş №265, vərəqə 41-42***

danlıq lavazimat, fəhlə və mühəndis-texnik kadrları ilə təmin olunması üçün tədbirlər görürdü. Kirov yoldaş başqa zavodlarda fəhlələrin yığıncağını çağırır, Dzerjinski zavodunun əhəmiyyətini izah edir və arzu edənlərə yeni zavoda işləməyə gəlməyi təklif edirdi. Beləliklə Dzerjinski zavodu getdikcə böyüyür, avadanlıqla təchiz olunur, ixtisaslı fəhlələr, mühəndis və texniklər toplayırdı.

1925-ci ilin noyab-dekabr ayında Sergey Mironoviç köməyilə Dzerjinski zavodunda xarici ölkələrdən gətirilmiş maşın hissələrindən quraşdırılan birinci 100 dərin tulumba buraxıldı. Zavod ayrı-ayrı hissələrin istehsalını təşkil edərək 1926-cı ildə daha xaricdən maşın hissələri gətirməməklə özü müstəqil surətdə dərin tulumbalar buraxmağa başladı. Həmin ildə zavod 3813 dərin tulumba istehsal etdi.

1929-cu ildə mədənlərdən jelonkalar tamamilə yığışdırıldı. Sonrakı illərdə öz avadanlığını getdikcə artıran və kadrlar yetişdirən Dzerjinski zavodu bir ildə 32000-ə qədər dərin tulumba istehsal etdi.

Dzerjinski zavodu öz fəaliyyəti dövründə 49 cür dərin tulumba buraxmışdır ki, bunların çoxu zavod işçilərinin təklifilə hazırlanmışdır. Azərbaycan bolşeviklərinin rəhbəri M.C.Bağırov gündəlik və bilavasitə yardımı sayəsində Dzerjinski zavodu yeni avadanlıq və texnika ilə gündən-günə qüvvətlənir, fəhlə, mühəndis və texnik kadrları getdikcə kamilləşir. Hazırda zavodda istehsalatı genişləndirmək üçün bir sıra tədbirlər görülür.

Tulumbaların keyfiyyətinin hər cəhətdən yüksəldib, onları mürəkkəb iş şəraitinə uyğunlaşdırmaq üçün tədbirlər görülür.

Eyni zamanda "Bakı fəhləsi" və L.Şmidt zavodlarında da ştaqn mancanaq dəzgahları və başqa avadanlıq buraxılışı tamamilə yeniləşmişdir.

Hazırda Sovet İttifaqının neft sənayesində yeni avadanlıqla təchiz edilən minlərlə quyu işləyir. Bu quyuların avadanlığı sovet layihə təşkilatlarının təklifi əsasında öz zavodlarımızda istehsal edilmişdir.

Keçən 25 il ərzində quyuların dərin tulumbalarla işlədilməsi texnikası xeyli irəliləmişdir. Mədənlərdə quyuları dərin tulumbalarla işləmək qaydasını çox yaxşı öyrənən ixtisaslı işçilərin sayı xeyli artmışdır. Dişamoqraf, Yakovlev cihazı, Exolot və sairə kimi ən yeni yoxlama-ölçü cihazları tətbiq edilməkdədir.

Lakin sovet adamları əldə edilən nailiyyətlərlə kifayətlənməyə adət etməmişlər. Daha artıq irəliləmək üçün mədən, zavod, ali və texnika işçilərinin qarşısında böyük vəzifələr durur.

Çox keçməz ki, 2500 metr və daha dərin quyuları dərin tulumba ilə işlədəcəyik. O zamanadək biz həmin quyular üçün münasib avadanlıq layihələri hazırlamalı və bu cür avadanlıq istehsal etməliyik.

Dərin tulumbanın özünü yaxşı öyrənmək lazımdır. Bu və ya digər quyu üçün tulumba layihələri hazırlamaqdan ötrü hələ müəyyən nəzəri əsaslar yoxdur. Quyuların müxtəlif xasiyyətdə olması tulumbaların da müxtəlif çeşiddə olmasını tələb edir. Halbukt tulumbaların çeşidi azdır. Buna görə bir sıra quyularda tulumbalar cəmisi 10-15 gün işləyir.

Lazımı çeşiddə tulumbalar yaratmaq üçün bir sıra elmi-tədqiqat işləri aparılmalıdır. Quyuların təmiri işi də texniki cəhətdən əsaslandırılmalıdır. Görülən tədbirlər mədənlərin ayrı-ayrı işçilərinin mülahizələrinə deyil, quyuların ətraflı öyrənilməsi nəticələrinə əsaslanmalıdır ki, çox fayda versin.

Ən yeni növ dərin tulumba avadanlığı icad edilməsi və tədqiq olunması məsələlərilə məşğul olmaqdan ötrü xüsusi konstruktor-tədqiqat bürosu yaradılmalıdır. Dərin tulumba vasitəsilə quyuların işlədilməsi sahəsində əldə edilən təcrübə burada ümumiləşdirilməlidir. Həmin büro tulumbalar hazırlayan zavodlarla sıx əlaqə şəraitində işləməlidir.

Tulumbalar hazırlamaq, endirmə-qaldırma əməliyyatını yaxşılaşdırmaq və bu kimi işlər sahəsində böyük fəaliyyət göstərmək lazımdır. Mədən və zavodlar üçün ixtisaslı kadrlar hazırlamağa ciddi girişmək tələb olunur.

Quyuların dərin tulumba ilə işlədilməsi sahəsində 25 illik təcrübəmiz vardır. Bu təcrübə, qarşıya çıxan hər bir çətinliyin aradan qaldırıla biləcəyi üçün təminatdır. Qarşıdakı vəzifələr mədən və zavodların bütün işçilərindən yorulmadan yaradıcılıq işilə məşğul olmağı tələb edir.

Biz əminik ki, neft sənayesinin işçiləri partiya təşkilatının rəhbərliyi altında qarşılarında duran vəzifələri müvəffəqiyyətlə yerinə yetirəcək və vətənimizin tələblərini həyata keçirəcək neft çıxarılmasını xeyli artırmağa müvəffəq olacaqlar.

***Dzerjinski zavodunun tədqiqat rəisi A.Q.Mirantsev***

***«Бакинский рабочий» qəzeti, 1925 il, 11 oktyabr***

1925-ci ildə mühəndis Kapelyuşnikovun qazma turbini dünyada ilk dəfə olaraq Suraxanıda, Quliyev Pirinin iştiraki ilə tədbiq olundu. 1929-1930-cu illərdə neft sənayesində ən böyük texniki nailiyyətlərdən biri olan elektrik karatajı tətbiq edilməyə başladı. Bu quyunun açdığı bütün layları öyrənməyə imkan verdi və işi asanlaşdırdı.

1930-cu ildə fevral ayında quyuların əyriliyini göstərən «inklinometr» quyunun şaquli qazılmasında böyük rol oynadı. Bu cihazın icad olunması gələcəkdə maili qazma üsulunun əsasını qoydu.

Nəhayət, yeni texnikadan biri də 1938-ci ildən çoxpilləli reduktorsuz qazma turbini tədbiq olunması idi. Bu da qazma texnikası tarixində yeni sahifə açdı.

1932-33-cü təsərrüfat ilində ölkədə 22 milyon ton neft hasil edilməlidir. Onun 11.250 250 min tonunu Azər-

baycan verməli idi.

Qəhrəman Bakı neftçiləri, o cümlədən Əmircan neftçiləri sosializm yarışına qoşularaq zərbəçi briqadalar yaratmışlar. Zərbəçilərin sayı aydan-aya artırdı. Əmircan ərazisində (Qaraçuxur sahəsində) neft quyuları qazılmağa başladı (1928-ci il). Həmin ildə neft mədənləri elektrikləşdirildi, elektrik matorları işə salındı.

1930-cu ilin əvvəlində Bakı neftçiləri 5 illik planı 2 il yarımda həyata keçirmək uğrunda təşəbbüs irəli sürdülər. Bu təşəbbüsü Azərbaycan kommunist partiyası təbrik etdi.

Qəhrəman neftçilərin mərd sözü, doğrudan da, 1930-cü il 31 martda yerinə yetirildi.

Partiya və hökumət Bakı neftçilərinin əməyinə qiymət verərək «Aznefti» Lenin ordeni ilə, neftçilərin həmkarlar təşkilatını və Azərbaycan Lenin Komsomolu təşkilatını Qırmızı Əmək bayrağı ordeni ilə təltif etdilər. 100-dən artıq zərbəçi fəhlələr, mühəndis-texniki işçilər Lenin ordeni ilə təltif olundular. O cümlədən Əmircan neftçilərindən Nuriyev Piri və Quliyev Məhərrəm Lenin ordeni ilə təltif olundular və 7 nəfər Qırmızı əmək bayrağı ordeni və fəxri fərmanlarla təltif olundular. Bunların arasında Məmmədov Məhərrəm Hüseyn oğlu və başqaları da vardı.

Əmircan neftçilərinin birinci beşillikdə ikinci qələbəsi ondan ibarət olmuşdu ki, onlar kəndin «Qara-Çuxur» sahəsində yeni neft mədəni açmışdılar.

Suraxanıda, Qalada, Qara-Çuxurda yeni neft laylarının kəşf edilməsi və bununla əlaqədar yeni neft mədənlərinin salınması böyük neft ustası «professor» Quliyev Pirinin adı ilə bağlıdır.

1930-cu illərin adlı-sanlı ustalarından Nuriyev Piri, Paşayev Məmmədəli, Əliyev Əmbiya Əliağa oğlu, Əlimirzə Eynulla oğlu, Baba Cənnətəli oğlu, Usta Mehdixan və başqalarının Azərbaycan neft sənayesinin inkişafında böyük zəhmətləri olmuşdur. Onlar hələ texnikanın inkişaf etmədiyi bir zamanda özlərinin təcrübələri ilə, əməli təklifləri ilə neft quyularının qazma sürətini artırmışlar. Onlar mühəndis-texniki işçilər çatmadığı bir zamanda onları əvəz etmişlər.

Neft ustası Quliyev Piri Dostməmməd oğlu 1869-cu ildə mayın 2-də Əmircan kəndində anadan olmuşdur. Əmək fəaliyyətinə 1885-ci ildən Bakı neft cəmiyyətinin çəllək zavodunda başlamışdı. 1887-1904-cü illərdə Balaxanı və Suraxanı neft mədənlərində açarçı, qazmaçı, usta köməkçisi, usta, 1904-1920-ci illərdə baş usta işləmişdir. 1917-1920-ci illərdə Bakıda inqilabi hərəkatda iştirak etmişdir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra, neft sənayesinin bərpası və qazma işinin yenidən qurulmasında fəal çalışmışdır. 1925-ci ildə qazma işinin təşkili ilə tanış olmaq üçün ABŞ-da olmuşdur.

Biz neft sənayesi sahəsində Sovet-Amerika elmi texniki əməkdaşlığı tarixindən danışarkən bu münasibətlərin yaradılması tarixinə də nəzər yetirməliyik. Azərb. SSR mərkəzi dövlət arxivlərinin fondlarında aşkara çıxarılmış çoxsaylı sənədlər 20-30-cu illərdə SSRİ-ABŞ arasında neft sənayesi sahəsində aparılmış elmi-texniki əməkdaşlıqdan söz açır.

20-30-cü illərdə ölkənin əsas yanacaq mənbəyi olan Bakı bu əməkdaşlığın əsas mərkəzi idi. 20-30-cu illərdə özümüzdə texniki bazanın çatışmadığı bir dövrdə Amerikadan bir sıra avadanlıq neftçi mütəxəssislər göndərilmişdir. O dövrə də neft problemlərinə dair çağırılmış konfrans və konqreslərə neft mütəxəssisləri və neftçiləri göndərilmişdir və onların çıxışları böyük marağa səbəb olurdu.

O dövrün arxiv sənədləri sübut edir ki, neft və neft texnikasının təkmilləşdirilməsi üzrə sənaye obyektlərinin layihələndirilməsi gedişində o zaman qarşıya çıxan problemlərin müzakirəsində sovet təşkilatlarının alim və mütəxəssislərinin qərarları əsas götürülmüşdür. Bizim mütəxəssislər təkcə Amerika mütəxəssislərinin layihə və konstruksiyalarında dəyişikliklər etməklə kifayətlənməmişlər. Həm də yeri gəldikdə özlərinin daha ucuz, texniki cəhətdən daha mükəmməl yeni plan və konstruksiyaları ilə əvəz edilmişdir. Həm də sənədlərdən göründüyü kimi neft texnikasının bir çox nümunələri sayəsində məhz bizim ölkəmiz irəli çıxmış, Amerika kompaniyaları sovet dövlətinin neft işlərinə, xüsusilə Xəzərdə neft hasilatı problemlərinə daha böyük maraq göstərməyə başlamışlar.

Bu gün reallıq göz qabağındadır.



***«Бакинский рабочий», 8 fevral, 1925 il.***

(Usta Piri Quliyev, Piri Nuriyev, Xeyrulla Heybətov, Əlməmməd Məmmədov, Məmmədəli Paşayev, Məmmədhüseyn Babayev 1925-ci ildə ABŞ-da təcrübədə olmuşdu.

***Проводы нефтерабочих в Америку***


ПЕРВЫЙ РЙАД: 1) Шахоркин, 2) Габкин, 3) Матаушек, 4) Кулиев, 5) Рйумков, 6) Скитаев, 7) Сйамриков, 8) Серебрйаков, 9) Мордовин.

ВТОРОЙ РЙАД: 10) Золин, 11) Тарусов, 12) Алекперов, 13) Магеррамов, 14) Рыжов, 15) Додонкин, 16) Мирошников, 17) Куделин, 18) Салманов, 19) Коклйаэин.

Вчера в клубе «Нефтяник» состоялись торжественные проводы нефтерабочих, командируемых Азнефтьйу в Америку для практических работ в нефтяной промышленности ходящего в нашем союзе, - одна из задач тех, кто сегодня отправляется туда.

**НАПУТСТВИЕ ТОВ. СЕРЕБРОВСКОГО.**

Шумными аплодисментами было встречено … даем, невозможна. Нам необходимо воспринять у американцев их наилучшие методы работы, перенять их опыт и позаимствовать их знания, и приложить все это к нашему Советскому Родину….




***Награжденые Орденом Красного Трудового Знанении. Слева направо Осакин, Кабанов, Сараков, Джалалов, Лаврантьев. Посредине: Серебровский, Баринов, Рустамбеков, Опарин, внизу справо налево: Калмыков, А.З.Кашимов, Ранов, Грушенков и Али Худат.***

1925-ci ildə Sov. İKP sıralarına daxil olmuşdur. 1925-ci ildə Azərneftin yeni neft sahələrində kəşfiyyat şöbəsinin müdiri işləmişdir. Quliyevin xüsusi ilə Qara-Çuxur, Qala və sairdə yeni neft yataqlarının kəşfi və istifadəyə verilməsində, neft quyularının qazılması sahəsində mütəxəssislər hazırlanmasında xüsusi xidmətləri olmuşdur.[1]

Əmək qəhrəmanı adına layiq görülmüş. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

Usta Piri nəinki neft ustası kimi məşhur olmuşdur, o həm də kənddə sovet hakimiyyəti uğrunda mübarizədə də fəal bolşeviklərdən biri olmuşdur.[2]

«Yadımdadır, 1918-ci ildə birinci şura hökuməti qurulanda usta Piri qazarmaları gəzib fəhlələri işləməyə, dayanan quyuları buraxmağa, qazılıb qurtarmayan quyuları qurtarmaq üçün təbliğat aparırdı».[3] Qocaman neftçi S. İsmayılovun xatirəsindən məlum olur ki, usta Piri inqilabi yürüşlərdə fəhlələrlə birlikdə köhnə üsuli idarəyə qarşı çıxmışdır.

Yazıçı Süleyman Vəliyev usta Pirinin həyat və fəaliyyətini «Деды, отцы, внуки» (Babalar, atalar, nəvələr), «Династия Гулиевых» (Quliyevlər şəcərəsi) sənədlər əsasında, tərifə layiq əsərlər yaratmışdır. Əlavə etmək lazımdır ki, Quliyeva Fatma xanım ərindən geri qalmamışdır. 1921-ci ildən qadınlar hərəkatına qoşulmuş, qadınlar klubunun açılmasında, savadsızlığı ləğv etməkdə fəal iştirak etmişdir, iclaslarda çıxış etmişdir. «Moskvaya nümayəndə göndərilmiş, Bakı sovetinə deputat seçilmişdir».[4]

Qocaman neft ustası Nuriyev Piri (1872-1938). Suraxanıda neft quyularının qazılması onun adı ilə bağlıdır. Ömrünün çoxunu qazma ustası işləmişdir. Onun haqqında Hacı Heybətqulu 1935-ci ildə «Vışka» qəzetində belə yazmışdır: «Piri Nuriyev, mənim dostum, köhnədən buruq ustasıdır. Özü də Lenin ordenlidir. Yadımdadır, 25 il bundan əqdəm kazaklar Əmircan küçələrini? inqilabçı fəhlələri izləyən zaman o, onları məharətlə gizləmişdir. Qızı Sona Nuriyeva təyyarəçidir. Həmişə gümüş quşda kəndimizin üstündən uçur».[5]

«Piri Nuriyev 1930-1935-ci illərdə quyuların sürətlə qazılmasının təşəbbüsçüsü idi. Bu qocaman ustanın o zaman 60 yaşı olmasına baxmayaraq, beşillik planı 2 il yarımda həyata keçirmişdi (onun şəkli briqada üzvləri ilə çəkilmiş və yazılmışdır: «Əməkdar usta Piri Nuriyev birinci beşilliyin qəhrəmanıdır»).[6]

Paşayev Məmmədəli Paşa oğlu. 1893-cü ildə anadan olmuşdur. Qocaman neft ustalarından biridir. 1912-1928-ci illərdə neft quyularının qazma ustası. 1929-cu ildə ABŞ-a təcrübəyə göndərilmişdir. 1930-cu ildə baş qazma ustası işləmişdir. 1931-1934-ci illərdə Moskva «Prom akademiya»nı oxuyub qurtarmışdır. 1934-1937-ci illər kəşfiyyat idarəsində rəis, 1937-1954-cü illər qazma kəşfiyyat idarəsinin rəisi olmuş, sonra təqaüdə çıxmışdır. O, ye-

***1. "Trud" qəzeti, 1925 II-8***
***2. "Bakinski raboçiy", 1925 II-8***
***3. Az. EATİ Elmi arxivi, iş №7802, sən. №8***
***4. Süleyman Vəliyev, "Династия Гулиевых", Moskva, 1979 il***
***5. "Vışka" qəzeti, 7 noyabr 1935***
***6. "Bakı", 22 aprel 1971-ci il***

ni neft yataqlarının (Düvannı, Xilli, Babazan, Türkan və s. yerlərdə) kəşf edilməsində böyük işlər görmüş, medallarla təltif olunmuşdur.

1935-ci ildə onun haqqında «Yeni yol» qəzeti yazır: «Zığ-Türkan kəşfiyyatının müdiri Paşayev Məmmədəli yoldaş onun rəhbərliyi ilə bütün buruqlarda yeni neft yataqlarının tezliklə aşkara çıxarılması uğrunda mübarizə aparır».[1]

Əmircan ustalarının adı təkcə Suraxanı-Qara-Çuxur mədənlərində deyil, Balaxanı, Bibiheybət, Binəqədi, Sabunçu, Ramanı, Əzizbəyov, Buzovna neft mədənlərində də fəxri lövhələrdə bu mədənlərin qəhrəmanları tarixinə yazılmışdır.

Bunlardan Həsən Ağadadaş oğlunu, Baxışov Bəyəlini, Babayev Əbdülkərimi, Heybətov Xeyrullanı, Pirbaş Məmməd Qasım oğlunu və başqalarını göstərmək olar.

Əmircan kəndliləri kənd təsərrüfatı ilə də məşğul olurdu. Əkin yerlərinin, mədənlərin salınması üçün satılması ilə əlaqədar olaraq kənd təsərrüfatı ilə məşğul olan kəndlilərin sayı ildən-ilə azalırdı.

1920-ci il may ayında kənd təsərrüfatı ilə məşğul olan kəndlilərin sayı 50-60 nəfər idi. Bir o qədər də muzdurlar, yarım kəndli, mövsümi kənd təsərrüfatı ilə məşğul olanlar var idi ki, onların 50%-i yalnız maldarlıq, bağçılıq və arabaçılıqla məşğul olurdu.

Kəndli Əliyev Məhərrəm öz xatirəsində belə deyir: «Biz 3 qardaş kənd təsərrüfatı ilə məşğul olurduq. Qardaşlarım fəhlə oldular. İnqilab ərəfəsində bir at-ərəbə və bir parça əkin yeri ilə ailəni dolandıra bilmirdik. Bizim kənddə 1921-ci ildə kəndli dükanı, sonra kooperativ açdı, sonra artel açdı, üzərimizdən kənd təsərrüfatı vergisini götürdü. 1925-ci ildə biz kasıb bir kəndlidən ortabab kəndli səviyyəsinə qədər yüksələ bildik».[2]

Kəndli Məmməd Salam öz xatirəsində belə deyir: «1922-ci ilin axırı idi. İnqilab komitəsi biz kəndlilərin iclasını çağırdı. Orada bizə şad xəbər verdilər. Hökumət kasıb kəndlilərə kömək olaraq kredit pul buraxırdı ki, kimin atı, inəyi, keçi və qoyunu yoxdursa, alsın. Çox çəkmədi ki, mən Ağaqulu Abbasqulu oğlu və Mirzəbaba Məmməd Şəfi oğlu artelin və inqilab komitəsinin bizə verdiyi sənədlər əsasında gedib bankdan hərəmiz 600 manat kredit pul aldıq. Mən özümə bir at aldım. O çətin zamanda hökumətin bizə köməyi bizi ruhlandırdı. Kənd təsərrüfatımız ildən-ilə inkişaf etməyə başladı».[3]

Hökumətin köməyi nəticəsində 10 il ərzində ortabab kəndlilərin sayı 10-15 nəfərdən 1930-cu ildə 30-40 nəfərə çatdı. Yoxsulların azalması səbəbinə ortabab təbəqəsi artdı.

1926-1927-ci ildən başlayaraq əkin yerləri azalırdı. Arpa, buğda əkini azalırdı. Yeganə əkin yerləri olan Razin dağı sahəsində fəhlə qəsəbəsi salındığına görə 1929-cu ildən tamam arpa-buğda əkini kəsildi. Kəndin arteli fərdi kəndlilər, xır-bostan əkini ilə məşğul olurdular, bunun üçün sahələr kəndin ətrafında və həyətlərdə idi. Bu dövrdə ən çox inkişaf etmiş maldarlıq idi.

Bəzi fəhlələr ailələrində qoyun, keçi saxlayırdı. Kənd təsərrüfatının bərpası işi 1927-ci ildə başa çatmaqda idi.

Kəndli fəhlə dükanı, kooperativ ticarəti yavaş-yavaş ticarətdə özünə yol açа bilmişdi. Mal dövriyyəsi, ticarət ildən-ilə çoxalırdı. Lakin ticarət kənddə əsas etibarı ilə xüsusi dükançıların - alverçilərin əlində idi. Onlar malı nisyə buraxaraq alıcıları öz tərəflərinə çəkir, onlardan qazanc əldə edirdilər.

Fəhlə-kəndli dükanı kooperativ əhalini gündəlik ərzaq malları ilə təmin edə bilmirdi. Lakin kənd zəhmətkeşləri sənaye mallarını yalnız hökumət dükanından ala bilirdilər.

Sevindirici halı əhalinin əhvali-ruhiyyəsinin yüksək olması, məhsulun artması, malların qiymətinin artması ilə izah etmək olur. Daha bir sevindirici hal onunla izah olunur ki, kəndli-fəhlə ittifaqı, onların dostluğu kəndlilərin fəallaşmasına səbəb olmuşdu. Fəhlə və kəndlilərin əlaqəsinin möhkəmlənməsi, biri-birilərinə köməyi kənddə kolxozun təşkil olunması üçün zəmin yaratdı. Torpaqların paylaşdırılması zamanı ortaya çıxan çətinliklər nəzərə alınmağa başladı. Belə ki, korlanmış, əslində yararlı olmayan torpaqları yenidən təmizləmək məsələsi qarşıda dururdu. Kənd təsərrüfatı və Torpaq komissarlıqları bunları nəzərə alaraq, fərman imzaladı.

1929-cu ilə qədər kənd kooperativ-arteldə kəndlilər torpağı birlikdə əkib becərdilər. Torpaq ilə əmək ictimai xarakter aldı. Kənd təsərrüfatı avadanlığı inventar - at, araba, kəndlinin xüsusi malı idi.

Kollektiv təsərrüfatda isə at-araba, inventar hamısı birlikdə ictimai kolxozun malı olmaqla inkişaf etməlidir.

«1930-cu ildə kənddə kolxoz təşkil olundu. Onlar üçün ferma tikildi. Su kəməri və elektrik xətti çəkildi. Xır və bostan quyularında nasoslar qoyuldu. Bütün bu işlərin görülməsində, tikinti materialları, nasos, truba və s. şeyləri fəhlələrin köməyi ilə əldə etdilər.

1930-cu ildə kolxozçu 16 nəfər idisə, 1931-ci ildə 35, 1932-ci ildə 56 nəfərə çatmışdı.

1930-cu ildə kolxozun 17 atı, 25 arabası, 26 kotanı, 20 inəyi, 150 qoyunu var idi. 1932-ci ildə 25 at, 30 araba, 60 inək, 200-ə yaxın qoyunu var idi».[4]

***1. "Yeni yol" qəzeti, 26 aprel 1935-ci il***
***2. Az. SSR EATİ Elmi arxivi, fond 1-17 inv. №7802, sən. №6***
***3. Az. SSR EATİ Elmi arxivi, fond 1-17 inv. №7802, sən. №6***
***4. Az.SSR EATİ Elmi Arxivi, iş № 7802, s. 6.***

1933-cü il 22 may Az. EA tarix arxivində Əmircanda olmuş N. Minkeviç belə bir yazını qələmə almışdır: «Kəndin kənarında Şor gölü var. Kəndin içində Şorun o biri tərəfinə keçmək üçün daş döşənmiş yol vardır. Həmin yol suyun altında qalıb. Yolun uzunluğu 120 metr, eni 3 metrdir. Bu yol indiki Bakıxanov və 8-ci kilometr qəsəbələrinə aparıb gedən araba, dəvə karvanları və piyadalar üçün olmuşdur. Kənddən kənara 2 yol çıxır. Birinci yol Keşləyə gedir, ikinci yol isə Mərdəkana tərəf gedir. Keşlə yolu üstündə Əmircan varlıları tərəfindən - «Hacı Xonça», «Bakirə qız», «Qızlar» və s., Mərdəkana gedən yolda isə dörd ovdan salınıb. Əmircanda 1 - TOZ, 200-300 dəvə, 55 at siyahıya alınmışdır. Kəndin təsərrüfat işlərinə Ağadadaş Qasımov sədrlik edirdi. Əhalinin sayı 14 000 idi. Həyətlərdə 1 000-dən çox quyu qeydə alınmışdı. 1916-cı ildən kəndə şollar suyu çəkilmişdi. Kəndin 14 000 əhalisindən 6 472 nəfəri neft mədənlərində işləyirdi. Kəndin neft ustaları, görkəmli adamlarla 100 yaşlı kişi və qadınlar qeydə alınmışdı.[1]

Əmircan F.Dzerjinski adına Bakı maşınqayırma zavodu 1924-cü ildən fəaliyyətə başlayıb. Əvəllər kiçik emalatxanadan və sexlərdən ibarət idi. İlk zavod kimi 1928-ci il avqust ayından işə başlayıb.

1930-cu illərdə böyük proletar yazıçısı M.Qorki ilk dəfə ölkəmizdə fabrik və zavodların tarixinin yazılması ideyasını irəli sürdü. Həmin ildə «Pravda» qəzetində "fabrik və zavodların tarixi" adlı məqaləsini yazır.

Milyonlarla insanların şəxsi enerjisini cəmləşdirilmiş fəhlə sinfinin əməyi ilə nəzər edildiyini son dərəcə çox pis bilirik. Zavodun fəhlə sinfinin yarandığı işlərin tarixini bilmədən xalq kütlələrinin rolunu düzgün qiymətləndirmək çox çətindir.

Kollektiv surətdə öz ölkəsində hər ildə hakim olmuş xalq tamamilə yeni həyat şəraiti yaratmağa can atır, xalq bunu ətraflı bilməlidir. O, necə təsərrüfatçılıq edir, nəyə yiyələnmişdir, nə əldə etmişdir. 1930-cu illərdə M. Şoloxov yazırdı ki, fəhlə sinfinin şöhrət və şərəfinə aid zavodların tarixi haqqında kitablar yazılmalıdır.

Dzerjinski adına maşınqayırma zavodu ümumittifaq əhəmiyyətli mühüm sənaye obyektlərindən hesab olunur. Zavodun tarixinə aid iki kitab nəşr edilmişdir. «Опыт стахановского коллектива завода им. Дзержинского» və «Передовой опыт коллектива машиностроителного завода им. Дзержинского»

Birinci kitabı Q. D. Bardin: U.A Savelyev, M. L. Qostontexizdat, 1953. U.A. Mir Mövsümov, M. N. Matus, S.İ Şapuro, A.B Kuliyev. (Baku, Azneftizdat 157). Hər iki kitab zavodun qısaca tarixi dövrünü əhatə etmiş və texnixi əhəmiyyətə malik olan əsərlərdir. Zavodda ilk məhsul 1928-ci il avqustun 4-də 924 N-li əmrlə baş emalatxana dərinlik nasosu istehsal etmək üçün L. Şmidt zavodu ilə birgə fəaliyyətə başlayıb. Zavodun tarixi ilə əlaqədar olaraq. (Marksizim Leninizim İnstitutunun Azərbaycan filialının partiya arxivindən) Azərbaycan OİMDA Azərneft Birliyinin mərkəzi arxivindən Azərneftmaş və AHİMŞ arxivlərindən istifadə etmişəm. Zavodun öz arxivindən ümumi əmək, ixtira səmərələşdirmə və başqa şöbələrdən əmək işçilərindən istifadə etmişəm. Bundan başqa əmək qvardiya aralarından «Qızıl əllər» kimi tanınan, zavodda uzun müddət yeganə əmək qəhrəmanı olan azərbaycanlı (həm də mənim atam) Kərim Baba oğlu, M. Mirzəyev, A.Sayqanov, L.Tuferis, S.Kuzovkin, A.Stepenkin xatirələrindən istifadə etmişəm.

S.M.Kirov 1923-cü ildə Dzerjinski adına zavodda dərinlik nasosu quraşdırmaq və istismara verilməsi haqqında texnik L. D. Tiferisə göstəriş verir. Dərinlik nasoslarının tədbiqi xüsusi əhəmiyyətli iş kimi ilk dəfə bu istehsal 1923-25-IV ayında başlanır. Zavodda istehsal olunan bu dərinlik nasosu Əzizbəyov neft 7-ci mədənində işə başladı. Nasosu ilk işə salan S. M. Kirov özü oldu». Bakinskiy raboçiy» qəzeti Nasosun işə başlamasında usta Piri Məmmədəli Ramayev, Xeyrulla Heybətov, Həsənbala, Əlməmməd Məmmədov, Məmmədhüseyn Babayev, Cənnətalı, usta Səməd, Kəblə Muxtar, Kiçikmirzə Babayev, S.Fətəlizadə, Hüseynov Xəlfə, Əliyev Murtuz, Əliyev Məhərrəm, Ağaqulu Səməd oğlu, Ağayev Ağahadı, Novruzov Əlizahab, Zeynalov Zeynal iştirak ediblər. S.M.Kirov Azneft idarəsinin rəisi A. Serebrovski iştirak edirdilər.

Zavoda ABŞ-dan avadanlıqlar gətirilməsinə S. M. Kirov və A. Srebrevski V.İ.Leninin göstərişinə özləri nəzarət ediblər. Təsadüfi deyil ki, 1925-ci ildə ABŞ təcrübə mübadiləsinə dəvət olunan 20 neftçidən 9-u Əmircandan idi. Onların ABŞ-a getməsinə şəxsən V. İ. Lenin, S. M. Kirov və A. Srebrovski göstəriş vermişdir. Dərinlik nasosunun istehsalına ilk dəfə L.Şmidt zavodunda başlansa da ən çox istehsal Dzerjinski adına zavodun payına düşür. Texniki cəhətdən Amerika nasoslarından o vaxt azca geri qalırdı. 1923-cü ildə Bakıda 7 quyuda dərinlik nasosu işləyirdi ki, bu da çıxan neftin 231 tonunu təşkil edirdi.

Artıq 1925-ci ildə noyabr-dekabr aylarında 100 ədəd dərinlik nasosu istehsal edildi. Zavod həm də geri qaytarılan dərinlik nasoslarının təmiri ilə də məşğul olurdu. (Azərbaycan SSR OİMDA fond 1393, iş1313, vərəq 160). 1926-cı ilin sonu zavod 1800 dərinlik nasosu istehsal etdi.

1917-ci ildə 1239 ədəd dərinlik nasosu buraxılmışdır. 1928-ci ildə F.Dzerjinski adına zavodun mexaniki avadanlığı SSRİ üzrə ən birincilərdən biri sayılırdı.

(Azərbaycan SSR OİMDA fond 2943 s.1 in 328 Vərəq 12).

1928-ci il avqustun 1-dən Dzerjinski adına emalatxana zavod kimi fəaliyyətə başladı.

(MM Azərbaycan filialı, partiya arxivi fond 2364 s.1. bölmə 1. iş 4. vərəqə 131).

***1. Az. EA tarix institutunun elmi arxivi, inv. 279***




*Dzerjinski adına zavodun 1-ci sexi*



*Dzerjinski adına zavodun 2-ci sexi*





**ŞTANQLI QUYU NASOSLARI**


Suraxanı maşınqayırma zavodunda Amerika Neft İnstitutunun (ANİ) API Specification 11AX (SPEC 11AX) standartı əsasında · Azərbaycan Respublikasının Dövlət Standartı AzS012-98-ə uyğun ştanqlı dərinlik nasosları istehsal olunur.

Konstruksiyasına, şərti işarəsinə və nominal ölçülərinə görə bu nasoslar göstərilən standarta tam uyğundur. Birləşdirici yivlərin ölçüləri isə həm ANİ standartına uyğun "düymə" sistemi ilə, həm də DÜİST 91-50-yə uyğun Sİ sistemi ilə metriki sistemdə göstərilmişdir.

Həmçinin ölkədə və xaricdə geniş tətbiq tapmış yığılma silindrli (ornaqlı); mürəkkəbləşmiş istismar şəraiti olan quyular üçün xüsusi nasoslar istehsal olunur.


Dərinlik nasosları istehsalı üzrə tanınmış zavodlardan biri olan Suraxanı maşınqayırma zavodu hələ SSRİ dövründə ölkədə yeganə zavod olaraq, istehsal etdiyi nasosları bir sıra sosialist ölkələrinə də ixrac edirdi.

1. Mancanaq dəzgahı.
2. Quyuüstü kipkəc.
3. Nasos-kompressor boruları kolonu.
4. Nasos ştanqları kolonu.
5. Qıfıl dəyağı.
6. Quyu nasosları: a) R- tipli ;b) T - tipli.



**22–ci şəkil. Rotor üsulu ilə neft–qaz quyularının qazılmasının teoxnoloji sxemi**

lulu (və ya digər yuyuntu məhlulu–***C.M.***) qəbul çənindən (16) soraraq manifold adlanan xətt (19), dik boru (10), rezin buruq şlanq (9), fırlanğıc adlanan mexanizm (21) vasitəsilə qazıma kəmərinə vurur. Baltanın gözlərindən sür'ətlə çıxan gilli məhlul quyu dibində qazılmış süxur hissəciklərini özü ilə bərabər qazıma kəməri ilə quyu divarının arasındakı həlqəvi fəza (4) ilə yuxarı qaldırır. Quyudan çıxan gilli məhlul mail istiqamati olan novlar (14) və təmizləyici qurğular (15) vasitəsilə süxurlardan təmizlənərək, yenə də nasosun qəbul çəninə daxil olur. Beləliklə, gilli məhlulun hərəkət dövranı yaranır.



1925-ci ilin əvvəlində D. Dzerjinskinin (DTK sədri) təklifi ilə «Fəhlə ixtiraçılarına kömək» komissiyası daha sonra daimi bürosu, soqra fondu yaradıldı. (SSRİ AXTŞ ilə birgə).

Səmərələşdirici və ixtiraçıların araşdırılması ilə əlaqədar olaraq zavodu 1928-ci ilin əvvəlində fəhlə ixtiraçılarının işlərinə baxmaq üçün 4 nəfərdən ibarət komissiya yaradıldı. 1929-cu ildə təkcə Dzerjinski adına zavodda 30 səmərələşdirici təklifə baxılmışdır. Zavoda F. E. Dzerjinskinin adı verilmişdir.

1928-ci il torpaqçı köməkçisi D. N. Baybakovun «Dərinlik nasosu üçün yastıq»ın yeni istehsalına başladı. 1927-ci ildə zavodun

ətrafında 150 mənzillik evlər tikilib fəhlələrə verilir. Zavodun ümumi yığıncağı həmin əraziyə Dzerjinski qəsəbəsi adı verilir. 1928-30-cu illər ABŞ-dan gələn fəhlələrə hörmət əlaməti olaraq ABŞ-ın bir qrup varlı adamları həmin qəsəbədə «Amerikanka evlər» və 87 №-li məktəb tikib fəhlə uşaqlarına verirlər.

SSRİ XKS 1931-ci il fəhlələrin komunal məişət xidmətinin yaxşılaşdırılması ilə əlaqədar Əmircan Dzerjinski zavodunun fabrik mətbəxi tikildi. Zavodun aşxanası işçiləri isti xörəklə təmin etməyə başladı. Sonra həmin aşxana Atəşgah restoranı adı ilə yenidən tikildi.

Birinci beşillikdə Azərneftin zavodları içərisində fərqlənənlərdən biri də F. E. Dzerjinski adına zavod idi. 1933-34-cü illərdə zavodda zərbəçilik üsulu geniş yayılmağa başlamışdır. Zavodun 1934-cü il yanvar ayında I qırmızı lövhəsi yaradıldı. Həmin lövhədə ilk 16 nəfər tornaçı Kərim Baba, Çikanov, frezerçi B.Fefer, dəmirçi Nasıfayev əks edildi.

1935-ci ildə SSRi-də Staxanov hərəkatı geniş vüsət aldı. Yenilikçilər 3 növbədə işləyərək 82 nəfər zavodda staxanovçu adını aldı. Zavod yeni məmulatlar hazırlamağa başladı: 1. «RİD» tipli fasonlu «FD» baltası.



***Almas Yunis oğlunun evində qızlar məktəbinin şagirdləri***



***İsmayıl Babayevin evindəki məktəbin şagirdləri***




***İndiki 84 №-li məktəbin məzunları***



*97 №-li məktəbin müəllimləri*



*Məktəbin 70 illiyi yubileyindən çəkilmiş şəkil*



*Qadınlar klubunda dərs (T.Bayram №65)*



*Qadınlar klubunda dərs*

2. Elektrorefrejeratorlar

3. «QOFKO» tipli «FD» markalı salınma nasoslar.

1939-I - SSRİ XKS qərarı ilə vahid əmək kitabçaları tətbiq edildi. Bu da əmək intizamının yüksəlməsinə, əmək məhsuldarlığının artmasına və möhkəmlənməsinə böyük təsir etdi.

1941-ci ildə artıq gündə zavodda 135 dərinlik nasosu yüksək keyfiyyətli məhsul buraxılmağına başlandı.

1939 mart 5 günlərində zavodda sosializm yarışı kütləvi xarakter almağa başladı. Bu hərəkata XVIII partiya qurultayı geniş təkan verdi. Zavodda çoxlu dəzgahda işləmək üsulu kütləvi xarakter almağa başladı. Bu hərəkat xalq təsərrüfatının bütün sahələrinə yayılmağa başladı. Zavod bu üsula 1939-cu ilin noyabrda keçdi. Hər işçi eyni zamanda bir neçə ixtisas və dəzgahda işləməyə başladı. 1940-cı ildə Dzerjinski adına emalatxana kiçik bir istehsal müəssisəsindən böyük bir zavoda və SSRİ neft sənayesinə dərinlik nasosları verən mühüm bir sənaye bazasına çevrildi.

Müharibə dövründə zavodun gənc fəhlələri Vladimir Balandin və Əvəz Haşım oğlu Verdiyev Rostov, Xarkov, Orlov, Lvov şəhərləri uğrunda döyüşlərdə qəhrəmanlıqla vuruşaraq igidliyə görə, 1944-cü il sentyabrın 23-də SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adı almışlar. 1941-ci il iyulun 14-ü zavodda toplanmış mitinqdə qərara alındı ki, əmək məhsuldarlığını daha yüksəyə qaldırmaq, neft sənayesinə daha çox məhsul vermək, yüksək keyfiyyətli dərinlik nasosları vermək, çoxlu baltalar hazırlamaq, üçün hamı çalışırdı, düşmən üzərində böyük qələbəyə xidmət etməlidir. (MLİ Azərbaycan filialı, partiya arxivi fond 2304 s.1. v.4. iş 61.vərəqə 74).

Cəbhəyə gedən ərləri arvadları əvəz etdi. Əminə Rüstəmova, Mariya Simyonova, Ağabacı və başqa qadınlar işə başladılar.

Müharibə dövründə istehsalatda vaxta qənaət əsas yer tuturdu. Zavoda Kərim Baba oğlu dəzgahların uzun müddət dayanmadan təmirsiz işləməsi təklifini irəli sürür. Bu iş üsulu ölkədə kütləvi hal almağa başladı. Daha sonra avadanlıqların təmirarası vaxtının uzadılması və işlənmə dövrünü artırmaq üsulu təklif edildi. Bu üsullar o vaxt SSRİ də bir çox zavodlarda geniş yayılaraq məhsuldarlığın yüksəlməsinə və artmasına kömək etdi.

Bu üsulu Moskvada Lixaçov adına zavodu, Kiyevdə Arsenal zavodlarında tətbiq etdilər. Zavodda tank və təyyarə eskadrliyaları yaratmaq üçün hərəkata qoşuldu. Müdafiə fondu toplanışı zavodda ənənə halını aldı. «Dzerjinski» adına tank yaratmaq üçün fond yaradıldı. Suvorov hərbi məktəbinə kömək məqsədilə vəsait toplayıb göndərilirdi. İşləməyə gələn gənclər, qadınlar, qardaş və oğullar cəbhəyə gedənləri tez bir zamanda əvəz etmək

üçün özləri təcrübə keçirdilər. Sosializm yarışının bütün formalarına tez bir zamanda yiyələnib işləyirdilər. Zavod o dövrdə SSRİ-də ən çox hərbi sursat istehsal edirdi. 1-2 sexlərdə Dövlət Müdafiə komitəsinin yeni seriyalı silahlar istehsal edilməsinə görə tanınırdı.

II sexi «zavodun ürəyi» adlandırırdılar. Burada iş 3 növbədə idi. 1944-cü ildən SSRİ Dövlət Müdafiə Komitəsinin əmri ilə xüsusi məhsul buraxılışı dayandırılırdı və zavod bütünlüklə dərinlik nasosları buraxmaq üçün işləməyə keçdi. (MLİ Az. filialı partiya arxivi f.2364 s.2.v.5. iş 26. vərəqə 3).

Müharibədən sonra da Kərim Babanın yeni iş üsulları, təklifləri irəli sürüldü. Dzerjinski adına zavod ilk dəfə növbəni təhvil alarkən dəzgahları dayandırmadan təhvil almaq işinin ustası kimi məşhurlaşmağa başlamışdı. «Vışka» qəzeti. 1946-12 mart.

SSRİ kimya və neft maşınqayırma sənayesi müəssisəsi. 1974-cü ildə F.Dzerjinski adına Bakı maşınqayırma zavodu və neft quyularının ayrılıqda istismarı avadanlıqlarının konstruksiyası tədqiqi və tətbiqi üzrə xüsusi konstruktor bürosu əsasında yaradılmışdır. Birlik dünya naliyyətləri səviyyəsinə cavab verə bilən sənayenin artan ənənələrinə uyğun olan bir sıra neft və qazçıxarma üsulları üçün yeraltı quyu avadanlıqlarının yaradılmasını, kütləvi istehsalını və geniş tətbiqini mərkəzləşdirir. SSRİ-də dərinlik nasosları yalnız bu zavodda hazırlanır (1975-ci ildə 85,1 min ədəd). Dərinlik nasosu xarici ölkələrə ixrac edilib. 1976-cı ildən zavod mexaniki yığma sexi istifadəyə verilmişdir. Burada mütərəqqi üsulla neft və qaz çıxarılması üçün avadanlıq buraxılır. Bu avadanlığın tətbiqi sayəsində bir quyu vasitəsilə bir neçə laydan məhsul almaq mümkündür.






***Bakı Mayesiz Transformatorlar zavodu***

Baki mayesiz transformatorlar zavodu 1961-ci ildən Azərbaycan elektrik zavodunun əsasında yaradılmışdır. Zavod TSZ, TSZV, TSZP tipli II, III qabaritdə mayesiz transformatorlar istehsal edir. Məhsulu 20-dən çox xarici ölkəyə göndərilir.

1930-cu ildə kolxozda 4 qadın, 1932-ci ildə 12, 1935-ci ildə 16 qadın işləyirdi. Sonralar bir neçə kəndin kəndliləri (Bülbülə, Zığ, Suraxanı və başqaları) Əmircan kolxozuna daxil oldular. Beləliklə, kolxoz böyüdü və inkişaf etdi. 1935-ci ildə kolxozda Bülbülə kəndindən 10, Zığdan 20, Suraxından 15 nəfər kolxoza daxil oldu. Kolxozun bir traktoru, iki yük maşını və s. texnikası var idi, bundan əlavə iki ferması, Hövsan kəndi sahəsində əkin yeri, Qobustan sahəsində heyvanları saxlamaq üçün qışlaq və əkin sahələri olmuşdur. Əlavə etmək lazımdır ki, 1920-1935-ci illərdə Əmircanın qabaqcıl fəhlələri, kommunist və komsomolları, Azərbaycan rayonlarında Sovet hakimiyyətinin möhkəmlənməsində və inkişafında fəal iştirak etmişlər. Onlardan: Əliyev Əbdülrəhman, Qulamov Yaqubəli, Səfərəliyev Əliyusif və başqalarını göstərmək olar.

Beynəlxalq vəziyyət bu dövrdə xeyli sabit idi. 1922-28-ci illərdə ABŞ-ın varlı adamları «Zəif və geridə qalmış ölkələrə yardım» adı altında dövlətlərə kömək edirdilər. Əmircanda fəhlələr üçün bir neçə qəsəbə salındı. Əhali bu evlərə köçdü.

Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi zəhmətkeş kütlələrin mədəniyyətini, maarifini inkişaf etdirmək üçün böyük imkan yaratdı. 1920-ci ildən başlayaraq kənddə savadsızlığın ləğv edilməsi sahəsində tədbirlər görülürdü. Əhalinin 90% -i savadsız idi. 1921-ci ildə kənddə bir neçə kurs açıldı.

1923-cü ildə kişilər klubunda iki məktəbdə 25-30 nəfər dərs keçirdi. 1923-cü ildə qadınlar klubunda bir məktəb 10-15 nəfər, axşamlar da oğlan məktəbində bir sinifdə 30 nəfər dərs keçirdi. 1925-ci ildə kənd təsərrüfatı artelində və qadınların tikiş artelində daha iki kurs açıldı. 1927-1928-ci illərdə kənddə daimi 6 yerdə savadsızlığı ləğv etmək kursları fəaliyyət göstərirdi. Burada oxuyanların sayı 100 nəfərdən artıq idi.[1]

1930-cu ildə savadsızlığı ləğv etmək məqsədilə məktəb və kurslar üçün fasiləsiz dərs ili müəyyən edildi. Kənddə ziyalıların sayı çoxalmışdı. Bu işə məktəb müəllimləri, ali məktəb tələbələri və orta məktəbin yuxarı sinif tələbələri cəlb olunmuşdu. Onlar könüllü olaraq və heç bir haqq tələb etmədən yaşlı əhali arasında savad-

***1. Az.SSR EATİ Elmi Arxivi, f. I - 17, sənəd №17, iş № 7802.***

sızlığı ləğv etməklə məşğul olurdular. Bunlardan əlavə məktəbdə iki sinif azsavadlılar üçün ayrılmış idi. Bura axşamlar oxumaq üçün əsas etibarı ilə fəhlələr cəlb edilmişdi.

Orta hesabla hər il 100-150 adam öz savadsızlığını ləğv edirdi. 1930-cu ildə əhali arasında savadsızlıq 30% təşkil edirdi. O cümlədən qadınlar (Məleykə Babanlı, Mehri xanım, Mikeymə Baba qızı, Qəmər Rəhimova və s.) təxminən 20%-ni təşkil ediridi.[1]

Əlavə etmək lazımdır ki, fəhlələrin bir qismi müəssisələrdə, mədən və zavodlarda, həmkarlar təşkilatının təşkil etdiyi kurslarda öz savadsızlığını və az savadsızlığını ləğv edirdilər. Bunlardan əlavə «texnikum» kurslarında savadlı fəhlələr öz sənəti üzrə texniki savad alırdılar.

«1935-ci və 1940-cı illərdə savadsızlığın ləğv edilməsi və ümumi təhsilin həyata keçirilməsi uğrunda başlanan maarif yürüşü nəticəsində əhalinin savadlanması 70% təşkil edirdi».

Kənddə köhnə məktəblər əvəzinə yeni tipli məktəblər yarandı: 1. beşillik təhsil müddəti olan, bir dərəcəli məktəb; 2. doqquz il təhsil müddəti olan, iki dərəcəli məktəb açıldı.[2]

Kənddə inqilabi komitə bu işə başlayarkən bəzi tədbirləri çətin vəziyyətdə həyata keçirirdi. Məsələn, məktəb binası. ləvazimat, inventar, müəllim yox idi. Bu işdə də əhali köməyə gəldi.

Belə çətin vəziyyətdə fəhlələrdən Babayev İsmayıl evini məktəb açmaq üçün elin ixtiyarına verdi.[3]

Bununla məsələ bitmədi, camaat oğlanlarla qızların bir yerdə oxumasına razı olmurdular. İkinci bir bina tapmaq lazım gəlirdi. «Bu dəfə qızlar məktəbi açmaq üçün fəhlələrdən Almas Yunus oğlu və Məmmədhüseyn Babayev öz evlərini elin ixtiyarına verdi».[4] Eləcə də fəhlə Abbas Xamtay oğlu və Məşədi Soltan da öz evlərini kənddə xəstəxana açmaq üçün verdi.


Yaşlı uşaqları məktəbə cəlb etmək məsələsində çətinliklər var idi. Ələlxüsus, qızları məktəbə cəlb etmək çox çətin məsələlərdən biri idi.

Qocaman müəllim Məhəmmədəli Məmməd öz xatirəsində deyir: «Yadımdadır, 1920-ci ildə Balayev Əsəd müəllimlə evləri gəzib valideynlər arasında təbliğat aparırdıq. Əməkdar müəllimlər: Kübra Şıxəliyeva, Bağır Bağırov, Bikəxanım Salamova, Ümbulbanu, Əsəd Balayev, Zeynəb Bünyadova, Məmmədəli Məmmədhüseyn, Əsgərova Fatma xanım, Axundova Anaxanım, Əlibəyli Sara, Əbülhəsən Bağırov, Bəbirov Ağacavad. Dərslər başlamışdı, üç sinifdə 30 şagird var idi. Bu çox az idi.

1921-ci tədris ilində şagirdlərin sayı 60, 1925-ci ildə 100 nəfərə çatmış idi. Artıq bir növbədə dərs keçmək darısqal olduğu üçün iki növbədə dərs keçirdik».[5]

Birinci qızlar məktəbinin müəlliməsi Əsgərova Fatma xanım öz xatirələrində belə deyir:

«1922-ci ildə qızlar məktəbində cəmi 15-20 nəfər şagird oxuyurdu. 1925-ci ildə onların sayı iki dəfə artdı. 40 nəfərə çatdı. Qadınlar klubunun fəalları bizə kömək edirdi. Evləri gəzib qadınlar arasında təbliğat aparırdıq. Mən və Sara müəllimə bəzən hətta söyülüb təhqir olunurduq. Buna baxmayaraq, ruhdan düşmürdük. Birinci dəfə çətin vəziyyətdə biz məktəb təşkil etmişik və qalib gəlmişik».[6]



***İlk tramvay yolunda at qoşqusu ilə***

1925-ci il aprelin 10-da ilk elektrik stansiyasının bünövrəsi qoyuldu. Azərneft elektrik stansiyası tikintisi üçün xeyli vəsait ayırdı. Əmircan elektrik stansiyasının tikintisində kənd camaatı da yaxından iştirak etmişdi. Yaxınlıqdakı Dzerjinski adına zavodun ətrafında fəhlə qəsəbəsi və məktəb tikildi. Vəsaitin xeyli hissəsini ABŞ-ın varlı adamları ayırmışdılar. Bu qəsəbəni zavod fəhlələrinin xahişi ilə «F. Dzerjinski adına fəhlə qəsəbəsi» adı verildi. 1 (Az. SSR EATİ Elmi arxivi, fond 1-17, səh. №17 №7802)

***1. Az.SSR EATİ Elmi Arxivi, iş № 7802, sənəd № 17***
***2. Az.SSR EATİ Elmi Arxivi, iş № 7802, sənəd № 17***
***3. Az.SSR EATİ Elmi Arxivi, iş № 7802, sənəd № 11***
***4. Yenə orada.***
***5. Yenə orada.***
***6. Azərbaycan tarixi, cild III , səh. 443***

Heç də təsadüfi deyil ki, partiya və hökumət 50 illik yubileyi münasibəti ilə Ali Sovetin Rəyasət heyyətinin Fərmanında deyilir: «Böyük Oktyabr inqilabında, Vətəndaş müharibəsində və Sovet hakimiyyətinin möhkəmlənməsində fəal iştirak etdiklərinə görə təltif edilsinlər. O cümlədən əmircanlılardan:

***Qırmızı Ulduz Ordeni ilə:***
1. Kərimov Cabbar Əlican oğlu
2. Quliyev Ağa Södüm oğlu

***Şərəf Nişanı Ordeni ilə:***
1. Novruzov Əlizaab Dövrəli oğlu

***«Rəşadətli əməyə görə» medalı ilə:***
1. Baxışov Bəyəli Abbasəli oğlu
2. Qafur Xanbaba oğlu
3. Qədimov Nadir Əsgər oğlu

***Moskva, Kreml, 28 oktyabr 1967-ci il.***

1927-ci ildə kənddə iki mərtəbəli, 12 sinifli məktəb binası tikilib istifadəyə verildi. Bu məktəb beşillik təhsil müddəti olan I dərəcəli ibtidai məktəb idi. Həmin ildə kəndin oğlan və qızları bir yerdə oxumağa başladılar. Onların sayı 300 nəfərə çatırdı. 1930-cu ildə kənddə ikinci yeni məktəb tikildi. Bu məktəbdə dördillik təhsil müddəti olan ikinci dərəcəli orta məktəb idi. Burada rus sektoru da var idi. Həmin ildə bu məktəbdə 300-ə yaxın şagird təhsil alırdı. 1932-ci ildə iki məktəbdə oxuyan şagirdlərin sayı 800 nəfər idi. 1926-cı ildən başlayaraq məktəblərdə rus dili və xarici dil dərsi də keçirilirdi. 1930-40 illərdə kənddə daha iki yeni məktəb tikilib istifadəyə verildi. Bunlardan biri 87 №-li məktəb idi. Bu məktəblərdə yaxında yaşayan Bülbülə kəndindən və Suraxanı sahəsindən şagirdlər oxuyurdular. Bundan əlavə 1922-ci ildə Əmircanda «Hümmət» emalatxanasında (İndiki geofizika zavodunun həyətində) fabrik-zavod məktəbi açıldı. Bu məktəb neft sənayesi və zavodlar üçün mühəndis kadrlar və ixtisaslı fəhlələr hazırlayırdı. Bu məktəbin hazırladığı 100-lərlə kadlar birinci və ikinci beşillik planların yerinə yetirilməsində görkəmli qabaqcıl ustalar və istehsalat rəhbərləri olmuşdur.

«ÜİK (b)P XIV qurultayı (1930-cu ilin iyun-iyulu) ümumi icbari ibtidai təhsilin həyata keçirilməsi haqqında direktivlər verdi. 1930-31-ci dərs ilindən etibarən bütün ölkədə 8-10 yaşlı uşaqlar üçün icbari ibtidai təhsilin həyata keçirilməsini müəyyən etdi».

Tələbələrlə birlikdə müəllimlərin də sayı ildən ilə artırdı. Hərgah 1920-30-cu illərdə kənddə 7 müəllim vardısa, 1932-ci ildə 15 müəllim, 1935-ci ildə 30 nəfərdən artıq idi. Məktəblərlə yanaşı, maarif və mədəniyyətin digər sahələri də inkişaf edirdi.

1920-ci ildə Murtuza Muxtarovun mülkü bərpa edilib və klub binasına verilir. Klubda qızlardan ibarət tar ansamblı, dram dərnəyi, ilk nəfəsili orkestr, özfəaliyyət dərnəkləri təşkil olunur. Klubun ikinci mərtəbəsində kitabxana və qiraət guşəsi açıldı. Klubda mühazirələr görkəmli elm, dövlət xadimləri, incəsənət adamları ilə görüşlər keçirilir və konsertlər verilir. Bu klub yalnız kişilər üçün idi. Həmin ildə kənddə qadınlar klubu da açıldı (Tofiq Bayram küçəsi, 65).

1918-30-cu illərdə Əliağa Vahid tez-tez kəndin əhalisi qarşısında çıxış edirdi. Söhbətlərində deyirdi ki, Əmircanlılar həyatsevər, üzügülər, zarafatçılıqda məşhur idilər. Sonradan 1925-ci ildə bu misraları yazmışdır:

***Dost olublar biliyə, əldə tutublar kitab.***
***Bir zarafat həvəsi, bir də ki təndir qutabı.***
***Alimin, mirzələrin, axundların olmaz hesabı.***
***Xilələrdir mərsiyəxan əhli üçün.***

Klubda fəaliyyət göstərən nəfəsli orkestrin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. 1926-28-ci illərdə nəfəsli orkestrin bədii rəhbəri - Qancumandır, 1932-38-ci illərdə isə Matvey Borisoviç Bortşumbinder olmuşdur. Orkestrin ilk iştirakçıları:

Trombetlər: Musa Rzayev, Bunyatov Nadir, Nəhmətov Turab, Nəhmətov Yəhya, Qafarov Məmmədağa
Baritonlar: Nəhmətov Qabil, Məhərrəm Humay oğlu, Kərimov Şərif Cavad oğlu
Tuba: Əliabbas Xaliq oğlu
Tenor: Bunyatov Nuru Hafiz oğlu, Quluzadə Məmmədpaşa Piri oğlu
1946-48-ci illərdə orkestr yenidən təşkil olundu. Bədii rəhbəri Kərimov Şərif Cabbar oğlu oldu.
Tronpetlər: Əziz Əkbər oğlu Əzizov, Rahib Məmmədov.
Bariton: Azər Məmmədov

Tenor: Akif Nərgiz oğlu, Davud Hənifə oğlu
Tuba: Mehdi Xankişi oğlu Əlizadə
Zərb alətləri: Əsgər Quluzadə

Orkestrin repertuarında Azərbaycan, sovet və xarici bəstəkarların əsərləri səslənmişdir. Rzayev Musa orkestrin 20 il rəhbəri olmuşdur. Dram dərnəyinə isə Atamoğlan Rzayev həm rəhbərlik edib, həmdə rejissoru olmuşdur.

Sonra kənddə uşaq bağçaları açıldı. Anaların hüququnun müdafiə olunması, hüquq bərabərliyi, onları yüngül ictimai faydalı işə cəlb edilməsi, qadınlar üçün şəfqət bacıları kursu və başqa dərnəklər açıldı. 1922-ci ildə qadınlar klubuna 20-25 qadın gəlirdisə, 1925-ci ildə 50-60 qadın gəlirdi. 1930-cu ildə yalnız tikiş artelinə cəlb olunanların sayı 100 nəfərdən çox idi. 1 (Az. SSR EATİ Elmi arxivi, fond 1-17, iş №7802, sən. 12)

Dadaşova Səriyyə 1930-cu illərdə qadınlar klubunun müdiri işləyirdi. O deyirdi: «1930-cu ildə klubda təşkil etdiyimiz dram dərnəyi, tar çalan qızlar ansamblı və xanəndələrimiz var idi. Öz klubumuzdan başqa Bülbülə, Suraxanı, Hövsan, Binə kəndlərində də qadınlar üçün konsertlər və teatr tamaşaları verirdik». 2 (Az. SSR EATİ Elmi arxivi, fond 1-17, iş №7802, sən.14).

1927-ci ildən başlayaraq Əmircan qadınları arasında çadranı atmaq uğrunda hərəkat genişləndi. 1935-ci ildən başlayaraq kəndin 50% qadınları çadranı atmışdılar. 1 (Az. SSR EATİ Elmi arxivi, fond 1-17, iş №7802, sən.13)

Klubun gənc texniki həvəskarlarının təşəbbüsü ilə kino qurğusu və radio qurğusu 1928-ci ildən işə başladı. Əliyev Rəhman, Nuriyev Yusif və Yunus Ələkbər oğlunun rəhbərliyi ilə radio, foto dərnəkləri təşkil edildi. 1930-35-ci illərdə kəndin evlərində küçə və meydançalarında radio səsləndi.

1928-30-cu illərdə kino seanslarının verilişi kəndin bütün əhalisinin marağına səbəb olmuşdur. 1928-ci ildə Əmircan neftçilərinin topladığı pul vəsaiti hesabına yaraşıqlı və zəngin mədəniyyət sarayı tikilib istifadəyə verildi. Burada iki zal, kitabxana, qiraətxana, foye, geniş otaqlar, məşğələlər üçün idman zalı Suraxanı və Əmircan neftçilərinə xidmət edirdi. Bura hal-hazırda Səttər Bəllulzadə adına mədəniyyət sarayı adlanır.

## KİTABXANAMIZA GƏLİN



Orconikidze rayonunun ən yaraşıqlı güşəsində əzəmətli bir bina yerləşir. Bu, mədəniyyət sarayıdır. Saray 1929-cu ildə təşkil olunmuşdur. Elə həmin ildən kitabxana da fəaliyyətə başlamışdır və 50 ildən çoxdur ki, oxuculara xidmət edir.

Bu müddət ərzində kitabxananın fondu zənginləşmiş, oxucuların sayı və kitab verilişi artmışdır. Hər il oxucular 155 min adda kitabdan istifadə edirlər.

S. Orconikidze adına mərkəzi kitabxananın 3 şöbəsi və 6 filialı vardır.

Oxu zalı müasir avadanlıqlarla təchiz olunmuşdur. Burada oxucular istədikləri sorğuya tez cavab tapırlar. Hər həftə oxu zalında tədbir keçiririk. Bu tədbirlər kitabxana işçilərinin birgə səyi ilə hazırlanır. Oxucularımızın əksəriyyəti gənclərdir. Tez-tez oxucu konfransları, kitab xülasələri, şair və yazıçılarla görüş və müzakirələr keçiririk.

Oxuculara kömək məqsədilə «Sov. İKP XXVII» qurultayını ləyaqətlə qarşılayaq», «Azərbaycan KP XXXI qurultayı», «Ateizm və din» və başqa vitrinlər, kartotekalar və tövsiyə göstəriciləri tərtib etmişik. Oxucuların əksəriyyəti kataloq kartoteka və tövsiyə göstəricilərindən istifadə etməyi bacarmırlar. Bu zaman şöbənin biblioqrafı onların köməyinə çatır. Xidmət şöbəsində kitablar yeni kitabxana-biblioqrafiya təsnifatına əsasən düzülmüşdür. Oxucular üçün açıq rəf üsulu da təşkil olunmuşdur ki, burada onlar istədikləri ədəbiyyatı seçirlər. Təcrübə göstərir Ki, bu üsul oxucu sorğusunun daha tez ödənilməsinə köməklik edir.

Kitabxanaçılarımız müntəzəm olaraq öz ixtisasını təkmilləşdirir, partiya və dövlətimizin qərarları ilə tanış olurlar.

Oxucularımızın əksəriyyətini neftçilər təşkil edir. Veteran oxucularımızın da sayı az deyil. Bu yaxınlarda «biz fəhlə qüvvəsiyik» adlı maraqlı tədbir keçirildi. Tədbirdə Suraxanıda çalışan veteran neftçilər və gənc fəhlələr iştirak edirdi. Axşama dəvət olunmuş şair Söhrab Tahir neftçilərə öz yeni şeirlərini oxudu.

Qeyd etmək istəyirəm ki, fəhlələrlə şair və yazıçılarımızın görüşləri tez-tez təşkil olunur. Bu da oxucuları kitabxanaya daha da yaxınlaşdırır.

Xidmət şöbəsinin nəzdində səyyar kitabxana fəaliyyət göstərir. Kitabxananın 40-a qədər ünvanda gözləyəni vardır. Kitabxananın işçisi böyük biblioqraf Zoya Qurbanova tez-tez müqavilə bağladığı təşkilatlara gedir, fəhlələri yeni kitablarla sevindirir.

Kitabxanamızın 6 filialı vardır. Metodika şöbəsinin işçiləri tez-tez filiallara gedir, fondun düzgün yerləşdirilməsində, kataloq və kartotekaların hazırlanmasında kitabxana işçilərinə kömək edir, bəzi göstərişlər verirlər. Mərkəzi kitabxana bir sıra tövsiyyə vəsaitləri tərtib etmişdir ki, filial işçiləri bundan istifadə edirlər.

Kitabxanamızın nəzdində «şəlalə» adlı ədəbi-bədii birlik yaratmışıq. Bu birliyə yaradıcı gənclərlə bərabər rayonun ədəbiyyat müəllimlərini də dəvət edirik. Onların maraqlı söhbətləri yaradıcı gənclərimizə daha düzgün istiqamət verir. Kitabxananın bütün bu nailiyyətlərində Pərviz Kazımi və Zenfira İsmayılovanın əməyi az deyil.

***Ədilə ƏZİZOVA,***
***Səttar Bəhlulzadə adına kitabxananın böyük biblioqrafı***

1935-ci ildə kənddə böyük hamam və univermaq tikilib istifadəyə verildi və kəndə qaz kəməri çəkildi. 3, 4 (Az. SSR EATİ Elmi arxivi, fond 1-17, iş №7802, sən.17,20 səh 1)

1930-35-ci illərdə kəndin mərkəzində olan 5-7 mərtəbəli kənd qəbirstanlığı açıldı. Əvvəldə qeyd etdiyimiz kimi həmin qəbirstanlıqdan kəndin tarixinə aid xeyli məlumatlar əldə edilmişdir, sonradan həmin qəbirstanlığın yerində əhalinin istirahəti üçün park salınmışdır. Həmin illərdə kəndin neft mədənlərinə yaxın elektrik qatarı xətti yanında gözəl park salındı və hal-hazırda görkəmli rəssam Səttar Bəhlulzadənin adını daşıyan möhtəşəm mədəniyyət sarayı tikilib fəhlələrin istifadəsinə verildi.

1930-35-ci illərdə kəndin bütün palçıq yollarına daş döşəndi, 1940-cı ildən asfalt çəkilmişdir.[1]

1935-40-cı illərdə kəndin ətrafında elektrik stansiyası tikildi, dəmir yolu çəkildi, stansiyalar tikildi, elektrik nəqliyyat idarəsi yaradıldı. 7-ci mədən tərəfdə Qazelin zavodu tikildi və beləliklə də, Əmircan kəndi Orconikidze rayonunun mərkəzinə çevrildi. Hələ Oktyabr inqilabının ilk illərində, yəni 1919-cu ildə komsomol təşkilatının ilk özəyi Əmircanda yaradılmışdı. Ə. Ənnağıyev «Qəhrəmanlıq unudulmur» kitabında kəndlərdə komsomol təşkilatlarının yaranması haqqında yazmışdır: «Əmircanda, Bülbülədə, Binədə, Zirədə və Mərdəkan kəndlərində, Russkiy neft şirkətində (mədənində) Cabir Əliyevin başçılığı ilə, Balaxanı, Sabunçu, Zabrat, Ramanada Müseyib Dadaşovun başçılığı ilə ilk komsomol təşkilatları yaranmışdır».[1]

Azərbaycanda Sovet həkimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizədə fəal iştirak etmiş Cabir Əliyev və onun təşkil etdiyi gənclərdən ibarət döyüş drujinası 1920-ci ildə Suraxanıda polisin və jandarmların tərkisilah edilməsində və rayonda qayda-qanun yaratmaqda böyük işlər görmüşlər.

1920-ci iln may ayından başlayaraq komsomol təşkilatı, kənddə öz ətrafına gənc fəhlələri, fəal gəncləri toplayaraq öz sıralarını artırmış və böyük komsomol komitəsi yaratmışdır. 1921-ci ildə onun sıralarında 50-yə yaxın komsomolçu olmuşdur ki, bu da rayonda ən böyük komsomol təşkilatı olmuşdur.

1920-ci ilin may ayından 1921-ci ilin sentyabrınadək Əmircan yayım rayon komsomol təşkilatının 1920-1930-cu illərdə tərbiyə etdiyi 100 nəfərdən artıq komsomol, sonralar partiya, sovet və komsomol təşkilatlarında məsul rəhbər vəzifələrdə işləmişlər. Bəziləri təsərrüfat rəhbərləri, bəziləri elmi işçi olaraq akademik rütbəsinə qədər yüksəlmişlər.

Komsomollar xalq təsərrüfatının bərpasında və inkişafında partiyanın yaxın köməkçisi olmuşlar. 1929-cu ildən başlayaraq zərbəçi komsomol gənclər briqadaları yaranırdı.

1923-24-cü illərdə kənddə komsomol təşkilatının rəhbərliyi ilə fəal komsomollardan Əliyev Məhərrəm və Paşayev Məmmədşahın iştiraki ilə birinci pioner klubu açıldı. Bu ilk pioner təşkilatı idi. 1926-27-ci illərdə kənddə artıq 4 pioner klubu, 300-ə yaxın pioner var idi.[2]

Birinci pionerlər şurasının sədri Qarayev Məhərrəm idi. «1930-32-ci illərdə Şəki komsomol təşkilatında təlimatçı işləmişdir».[3]

1921-ci ilin əvvəlində kənddə qadınlar klubu açıldı. Bu klubun açılışında kəndin ən fəal qadınlarından Qəmər xanım Rəhimovanın zəhməti tərifə layiqdir. O, bir-bir evlər gəzərək qadınlar arasında təbliğat aparmış, kəndin qadınlar hərəkatına rəhbərlik etmişdir. Kənddə birinci qadınlar təşkilatının «Jen otdel» yaratmış və onun ilk rəhbəri olmuşdur.[4]

---

***1. Ə. Ənnağıyev "Qəhramanlıq unudulmur", Bakı, 1968, səh. 56.***
***2. Az. SSR EATİ Elmi arxivi fond 1-17, işⅈ 7802, sənəd 15***
***3. Az. SSR EATİ Elmi arxivi fond 1-17, işⅈ 7802, sənəd 15***
***4. Az. SSR EATİ Elmi arxivi fond 1-17, işⅈ 7802, sənəd 15, səh. 6***

1921-ci ildə Azərbaycan qadınlarının birinci qurultayı açıldı. Qurultayda kəndin fəal qadınlarından Qəmər Rəhimova, Fatma Quliyeva, Xanımana Həsənova, Sara Əlibəyli, Şahzaman Rəfiyeva, Şirvan Muradova, Səriyyə Dadaşova Xurşud, Safura, Mikeymə, Meri iştirak etmişlər.

Həmin ildə Moskvada qadınların birinci qurultayında Qəmər Rəhimova, Şahzaman Rəfiyeva iştirak etmişdilər.

Kəndin qadınlar təşkilatı Əli-Bayramov klubu ilə (Bakının mərkəzi qadınlar klubu) sıx əlaqədə olmuşdur və onun rəhbərliyi ilə kənddə qadınlar klubunda tikiş arteli açılaraq qadınları kluba və işə cəlb etmişdir.

1925-ci ildə qadınların işə cəlb olunması hərəkatı daha da genişləndi. Həsənova Xanımana qadınlar klubunda artelin müdürü işləyirdi. O, öz xatirələrində deyir:

«Qadınlar klubunda təşkil etdiyimiz tikiş dərnəyi və toxuculuq əl işi üzrə qadınların sayı 20-25 nəfərə çatmışdı. Biz Bakı Mərkəzi qadınlar klubunun yaxından rəhbərliyi və köməyi ilə bu dərnəyi tikiş artelinə çevirdik. Ayna xanım Sultanova və Qəmər xanım Rəhimova qadınlar təşkilatının rəhbərləri idilər. Bunlar kəndin qadınlarına böyük köməklik göstərirdilər. 1923-cü ildə qadınlar klubunun yanında iki böyük otaqlı binada arteli təşkil etdik. Həmin arteldə qadınların sayı 30-40 nəfərə çatırdı. 20 ədəd tikiş maşını verilmişdir və bəziləri də evdə tikiş maşını olduğu üçün işi evə aparıb tikirdilər».[1]

1927-ci ildən başlayaraq qadınlar təşkilatının təşəbbüsü ilə kənddə boş qalmış böyük, iki minarəli məsciddə və məhəlli Nizaməddin mülkündə tikiş arteli açdılar. 1930-cu ildə artel böyük tikiş fabrikasına çevrildi və bir neçə binalarda da tikiş fabrikinin sexləri fəaliyyətə başladı. 1940-cı ildə Əmircanda tikiş fabrikinin işçiləri 300 nəfərə çatdı. Burada yaxın kəndlərdən başqa, başqa xalqların nümayəndələri - rus, erməni, tatar, gürcü, osetin, alman, polyak, fransız - millətlərdən qadınlar işləyirdi. Xalqlar dostluğunu nümayiş etdirən bir ailə kimi birləşən bu kollektiv birinci və ikinci beşillik planları vaxtından qabaq yerinə yetirmişdi. O zaman üçün bu qadınlar ölkə üçün böyük işlər görürdülər.

1917-ci ildən başlayaraq qadınlarla kişilər bərabər hüquq əldə etdilər və texnika sahəsində fərqlənməyə başladılar. İlk təyyarəçi qadın Bəyimxanım Zəfər qızı (Şəmsi Əsədullayevin bibisi nəvəsi) Peterburqda təyyarəçilik məktəbini bitirib qayıtmışdı.

Nuriyeva Sona Piri qızı ilk təyyarəçi qadınlardan hesab olunur. 1939-cu ildə birinci dəfə olaraq SSRİ Ali Sovetinin deputatı seçilmişdir. İki çağırış 1935-ci ildə Azərbaycanın Sovet hakimiyyətinin qurulmasının 15 illik yubileyi ilə əlaqədar Lenin ordeni ilə təltif edilmişdir.

Qadınlar təşkilatının əldə etdiyi müvəffəqiyyətlərindən biri də qadınların çadralarını atmaq kimi mühüm və çətin bir məsələni həll etməsidir.

Əlibəyli Sara Əliverdi qızı (1900-1966) 1921-25-ci illərdə kənddə qızlar məktəbini təşkil etməkdə iştirak etmiş, həmin məktəbin müəllimi və müdiri işləmişdir. Kənddə mədəni maarif işində və savadsızlığı ləğv etməkdə, qadınlar arasında böyük işlər aparmışıdır. 1930-33-cü illərdə Şəki rayon partiya komitəsində təlimatçı işləmişdir. 1934-35-ci ilərdə Bakı partiya məktəbini bitirmiş, 1935-37-ci illərdə Maştağa rayon partiya komitəsinin təlimatçısı, 1937-39-cu illərdə Azərbaycan həmkarlar ittifaqının mərkəzi komitəsində işləmişdir. Dəfələrlə şəhər və rayon sovetinə deputat seçilmiş, müxtəlif orden və medallarla təltif edilmişdir.

1937-ci il represiyası bizim kənddən də yan keçməyib, neçə-neçə oğul-qızlar represiyanın qurbanı olub. Sonralar onların övladları sürgün olunub, damğalanıb, yaşadıqları kənddən didərgin salınıb. Ən böyük zərbə ziyalı ata-anaların övladlarına dəyib, onların çoxu təhsil almaqdan məhrum olublar.

1937-ci ildən real tarixi hadisələri, real adamların fəaliyyətinin üstündən sükutla keçilməsi, onlar birtərəfli, subyektiv işıqlandırılması xaricdə bu gün də dərhal əleyhimizə təbliğat üçün istifadə edilir. Bütün bu tarixi reallıqları və həqiqətləri heç bir hadisəni yaxşılaşdırmadan və pisləşdirmədən, düzgün tədqiq edib vermək lazımdır. Bu halda biz 1937-ci ilin faciə qurbanlarının qarşısında borcumuzu verə bilərik.

Ötən əsrin 20-50-ci illəri bir sıra xüsusiyyətləri ilə bərabər, eyni zamanda kütləvi represiyaların aparılması ilə də tarixdə dərin iz buraxmışdır. Bu illər ərzində kommunist diktaturası və totalitar rejim dövründə qanunçuluğun icrasında təhlükəsizlik və daxili işlər orqanlarına böyük səlahiyyətlər verilməsi nəticəsində qanunlar kobud şəkildə pozulmuş, kütləvi represiyalarla minlərlə günahsız insanlar, o cümlədən görkəmli ziyalılar, təsərrüfatın müxtəlif sahələrində işləyən insanlar, hüquq-mühafizə orqanları işçiləri amansız cəza tədbirlərinə məruz qalmışdır.

1956-cı ildən başlayaraq represiyalara uğramışların təmizə çıxarılması ilə əlaqədar dövlət orqanlarının yerinə yetirilməsi vəziyyətində prokuror nəzarətinin gücləndirilməsinin nəticəsi olaraq prokurorluğun təqdimatları, məhkəmələrin qanunsuz qərarlarından verdiyi protestlər əsasında kütləvi represiyaya məruz qalmış minlərlə vətəndaş təmizə çıxarılmışdır. Lakin sonralar bu nəcib iş dayandırılmış və SSRİ Ali Sovetinin "20-30-cu illər represiya qurbanlarına bəraət verilməsi" haqqında 1989-cu il tarixli fərmanı əsasında yenidən bərpa edilmişdir. Göstərilən fərmanın icrası üçün Respublika Prokurorluğunda siyasi repressiya qurbanlarının təmizə çıxarılması şöbəsi yaradılmış, təqaüddə olan təcrübəli kadrlar yenidən işə çağırılaraq cinayət işlərinin öyrənilməsi və rəy

*1. Az. SSR EATİ Elmi arxivi fond 1-17, iş№ 7802, sənəd 13, səh. 2*

verilməsi onlara həvalə edilmişdir. Bununla əlaqədar E.H.Əliyev də təqaüdə çıxmasına baxmayaraq, 1989-cu ildə göstərilən şöbənin böyük prokuroru vəzifəsinə təyin edilmiş və 1999-cu ilin dekabr ayının 31-nə kimi bu vəzifədə çalışmışdır.

E.H.Əliyev Milli Təhlükəsizlik Nazirliyinin arxivində nazirliyin işçi qrupunun köməyi ilə dörd il ərzində 3500-dən artıq cinayət işlərini öyrənərək 60 minə yaxın adamın təmizə çıxarılması haqqında rəy vermiş, məhkəmə qərarlarından protestlər hazırlamış və repressiyaya məruz qalmış vətəndaşlara, onların ailə üzvlərinə vəraət verilməsi barədə arayışlar göndərmişlər. Kitabda toplanmış materiallardan görünür ki, XXəsrdə totalitar rejim diktaturasının ən dəhşətli olaylarından sayılan siyasi repressiyalar fırtınası bütün keçmiş sovet respublikalarını bürümüş milyonlarla günahsız insan amansız diktatura rejiminin qurbanı olmuşdur. Bu dövrdə bizim xalqımız repressiyalara ən çox məruz qalanlardan olmuşlar. Belə ki, keçmiş SSRİ DİK-in məlumatlarından görünür ki, 1920-50-ci illər ərzində əksinqilabi cinayətlərə görə dövlət siyasi idarələrinin kollegiyaları, onların təşkil etdikləri "Üçlük", "Beşlik", "Yeddilik", "Xüsusi müşavirələr" və "Hərbi tribunal"lar tərəfindən 3778234 nəfər əsassız olaraq repressiyalara məruz qalmışlar ki, bunların da 79852 min nəfəri həmin dövrdə 3 milyon əhalisi olan Azərbaycandan olmuşdur.

Əldə edilmiş məlumatlara görə, onların 5752 nəfəri güllələnmiş, minlərlə insan yaşayış yerlərindən sürgün edilmişdir. Müəllif topladığı məlumatlar və sənədli faktlar əsasında, repressiyaya məruz qalmış günahsız insanların cinayət işlərinin saxtalaşdırılması, qanunsuz metodlardan istifadə edərək cəzalandırılması faktını belə halların baş vermə səbəblərini kitabda açıqlaya bilmişdir.

Müəllif möhtərəm prezidentimiz cənab H.Ə.Əliyevin 15 mart 1996-cı il tarixli "Siyasi repressiya qurbanlarına bəraət verilməsi haqqında" fərmanın Azərbaycan Respublikasının Prokurorluğu tərəfindən lazımınca yerinə yetirilməsi haqqında məlumatlar vermişdir.

Bu kitab faktlar, XX əsrin repressiya tarixini əks etdirən arxiv materialları, o dövrün canlı şahidlərinin müşahidələri, xatirələri əsasında yazılmış maraqlı tədqiqat əsəridir.

Kitabda olan materiallar respublikamızda XX əsrdə baş vermiş repressiyaların gələcək nəsillər tərəfindən öyrənilməsində istifadə edilə bilər. Bu kitabın çap olunması hüquq mühafizə orqanlarının işçilərinə universitetlərin hüquq fakültələrinin tələbələri, müəllim və professor heyətinə böyük əyani köməklik göstərə bilər.

Fərəhlidir ki, E.H.Əliyev yaşının müdriklik çağında, təqaüddə olmasına baxmayaraq, repressiya qurbanlarının təmizə çıxarılması işinə öz məsləhətləri ilə yaxından kömək edir. Onun prokurorluq orqanlarının yaranmasının 85 illik yubileyinə həsr etdiyi "Azərbaycan SSR-də XX əsrin siyasi repressiya qurbanları" kitabı bu insanın öz peşəsinə olan məhəbbət və bağlılığını bir daha sübut edir.

8 oktyabr 2003-cü ildə E.H.Əliyevin 80 yaşı tamam olur. O, ömrünün 50 ilini cinayətkarlıqla mübarizə, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması işinə sərf etmişdir. O, bu gün də gənclik illərində olduğu kimi yüksək iş qabiliyyətini qoruyub saxlaya bilmişdir. Eynal müəllim ona müraciət edən hər bir kəsə, kimliyindən asılı olmayaraq düzgün yol göstərən, məsləhət verən, köməyini əsirgəməyən bir ağsaqqaldır. Bu münasibətlə ona uzun ömür, can sağlığı diləyib, yaradıcılıq işlərində uğurlar arzulayırıq.

Xalqımızın çox əsrlik tarixində elə hadisələr, tarixi məqam və anlar vardır ki, onların araşdırılması və gələcək nəsillərə çatdırılması, milli şüura hopdurulması hər bir Azərbaycan ziyalısının, ilk növbədə tədqiqatçı alimlərin çox mühüm vəzifələrindəndir. Xüsusən xalqımızın soykökü, qəsdən saxtalaşdırılmış və təhrif edilmiş dövrlərlə bağlı yazılan hər bir məqalə, əsər əsl vətənpərvərlik nümunəsi olmaqla gənc nəslə böyük ərmağandır.

Vaxtilə ağlasığmaz dərəcədə saxtalaşdırılmış, təhrif olunmuş və ictimaiyyətə qeyri-obyektiv şəkildə çatdırılmış repressiya dövrü (XX əsrin 20-30-cu illəri və 50-ci illər) məhz bu qəbildəndir. Həmin illərin əsl həqiqətlərinin üzə çıxarılması ilə bağlı bir sıra tədqiqat və araşdırılmalar aparılsa da, bu istiqamətdə axtarışların davam etdirilməsi olduqca zəruridir.

Respublika prokurorluq orqanlarında uzun illər böyük əmək sərf etmiş, peşakar hüquqşünas kimi gənc kadrların yetişdirilməsində əvəzsiz xidmətlər göstərmiş əməkdar hüquqşünas Eynal Əliyevin "Azərbaycan SSR-də XX əsrin siyasi repressiya qurbanları" kitabı yuxarıda göstərilən məqsədlərə xidmət etməklə bərabər, eyni zamanda prokurorluq orqanlarının yaranmasının 85 illiyinə layiqli töhfədir. Məlumat üçün bildirək ki, bu, E.Əliyevin işıq üzü görmüş ikinci kitabıdır. Onun "Azərbaycan Respublikası Prokurorluğunun tarixindən səhifələr" adlı birinci kitabı isə Respublika prokurorluq orqanlarının 80 illik yubileyinə həsr olunmuşdur.

Baş ədliyyə müşaviri, Azərbaycan Respublikası Prokurorluğunun veteranı, prokurorluğun fəxri işçisi, əməkdar hüquqşünas, hüquq elmləri namizədi, görkəmli tədqiqatçı-alim Eynal Hacı oğlu 1923-cü ildə Bakının Əmircan kəndində sadə neftçi ailəsində anadan olmuşdur. 1941-ci ildə orta təhsilini başa vurduqdan sonra o, Azərbaycan Tibb İnstitutuna daxil olur.

Böyük vətən müharibəsi illərində ordu sıralarında xidmət edən böyük qardaşı Novruzun ölüm xəbərindən sonra gənc Eynal, təhsilini yarımçıq qoyaraq, vətəndaşlıq börcünü yerinə yetirmək üçün 1942-ci ildə könüllülər

sırasında alman faşistləri ilə döyüşməyə gedir. Lakin 1943-cü ilin axırlarında ağır xəstəliyə görə cərrahiyə əməliyyatı keçirdiyindən ordudan tərxis olunur.

1944-cü ildə VDU-nun hüquq fakültəsinə daxil olan E.Əliyev prokurorluq orqanlarında kadr çatışmadığından, təhsilini başa vurmamış, 1947-ci il oktyabr ayının 6-da keçmiş Lenin rayon prokurorluğunda indiki (Sabunçu rayonu) prokuror köməkçisivəzifəsinə təyin olunur.

1948-ci ildə hüquq fakültəsini bitirdikdən sonra Bakı şəhərinin Əzizbəyov, Oktyabr (Yasamal) rayonlarında prokuror, Bakı Şəhər Prokurorluğunda istintaq şöbəsinin prokuroru, 1969-1974-cü illərdə Qaradağ rayon prokuroru vəzifəsində işləyir. Mərhum akademik, hüquq fakültəsinin kafeda müdiri V.P.Qəhrəmanovun rəhbərliyi altında 1972-ci ilin noyabr ayında T.Şevçenko adına Kiyev İniversitetinin hüquq fakültəsinin elmi şurasında dissertasiya müdafiə edib, hüquq elmləri namizədi adına layiq görülən E.Əliyev 1975-ci ilin yanvarından Respublika prokurorluğunun Cinayət işləri üzrə məhkəmə qərarlarının qanuniliyinə nəzarət idarəsinin böyük prokuroru vəzifəsinə təyin edilir. 1989-cu ildə təqaüdə çıxmasına baxmayaraq, 1989-cu ildə siyasi repressiya qurbanlarının təmizə çıxarılması işi ilə əlaqədar yenidən sonuncu vəzifəsinə təyin edilərək 1999-cu il dekabr ayının 31-nə kimi həmin vəzifədə çalışmışdır.

Eynal müəllim həmin dövrü belə xatırlayır: "1989-1998-ci illər ərzində bizim şöbə prokurorları tərəfindən 14444 cinayət işi öyrənilərək, 25524 nəfər siyasi repressiya qurbanına bəraət verilmişdir. Şəxsən mən 3500-dən artıq cinayət işi öyrənmiş və MTN arxivlərinin işçi qrupunun köməkliyi ilə 6 minə yaxın adamın təmizə çıxarılması haqqında rəy vermişəm. Azərbaycan Respublikası MTN-in arxivlərində qalaq-qalaq yığılmış qovluqları gözdən keçirmiş, saralıb-solmuş, əl vurduqca qopub-tökülən qovluqları vərəqləmişəm.Cansız kağızların qoxusu adamı vurduqca o illərin xofunu bir daha yaşayırdım. Bir insan taleyini bir neçə dəhşətli cümlə ilə həll edən sənədləri, hökmləri, imzaları həyəcansız oxumaq mümkün deyildi. Ən işıqlı, nurlu şəxsiyyətlərin anfas-profildən çəkilmiş isti nömrəli şəkilləri, bu şəkillərdən baxan ümidsiz, qorxu dolu gözlər, miskin görkəmlər ürək ağrıdırdı. Ona görə də saatlarla və günlərlə belə qovluqlar vərəqləmək, diqqətlə öyrənmək qrupumuzun prokuroluğundan böyük səbr tələb edirdi. Bütün bu çətinliklərə baxmayaraq, biz 10 il müddətində də bitün əziyyətlərə dözdük və minlərlə insanın təmiz adlarının onlara qaytarılmasında yaxından iştirak etdik".

Ayrı-ayrı vətəndaşlardan, repressiya qurbanlarının ailələrindən alınan təşəkkür məktubları və teleqramlar Eynal müəllimin və onun həmkarlarının apardıqları işin vacib olduğunu bir daha sübut edir.

Eynal müəllimin prokurorluq orqanlarında çalışdığı uzun illər ərzində topladığı zəngin materiallar əsasında yazdığı "Azərbaycan Respublikası Prokurorluğunun tarixindən səhifələr" adlı kitabı 1997-ci ildə "İşıq" nəşriyyatı tərəfindən çap edilmişdir. 1980-1990-cı illər ərzində Azərbaycan Prokurorluğu və Azərbaycan Respublikası Prokurorluğunun müstəqilliyi dövrü (1991-1997-ci illər) adlanan iki bölmədən ibarət kitabın müəllifi Azərbaycan prokurorluq orqanlarının yaradılması və inkişafının aktual məsələlərini şərh etmişdir. Respublika Prokurorluğunda yaradılan Prorukorluğun tarixi muzeyi mövzusuna, eksponatlarının zənginliyinə, əhatə dairəsinə görə buraya gələnlərin zövqünü oxşayır. Eynal müəllimin təşəbbüsü və iştirakı ilə, onun kitabına əsaslanaraq tərtib edilmiş muzeyin ziyarətçiləri buradan joş təsuratla ayrılırlar. Gərgin əməyin bəhrəsi olan bu kitabda prokurorluq orqanlarının təşəkkülü tarixi, ölkəmizin inkişaf edərək, daha da təkmilləşməsində prokurorluq orqanlarının oynadığı çox böyük rol diqqətlə araşdırılmışdır.

"Azərbaycan SSR-də XX əsrin siyasi repressiya qurbanları" kitabında isə repressiya dövrünün cəza üsulları, qeyri-qanuni istintaq metodları, günahsız insaların, xüsusən düşünən beyinlərin həyatından məhrum edilməsi, onların ailə üzvlərinin acı taleyi zəngin arxiv materialları əsasında araşdırılmış və oxucuların ixtiyarına verilmişdir. Eynal müəllimin ciddi axtarış aparmaqla, əsl tədqiqat səri yaratmış, peşəkar hüquqşünas, təcrübəli istintaqçı kimi müstəqil mülahizələr söyləmiş, tariximizdə baş verən ədalətsizlikləri, qeyrətli Vətən oğullarına qarşı edilən zorakılıqları, erməni hiyləgərliyini özünəməxsus ustalıqla ifşa etmişdir. Kitabın sonunda günahsız güllələnmə cəzasına məhkum olunmuş şəxslərin siyahısının çap edilməsi, eləcə də həmin şəxslərə bəraət verilib təmizə çıxarılması istiqamətində aparılmış araşdırmalara geniş yer ayrılması mühüm əhəmiyyət daşıyır.

Kitabın müsbət məziyyətləri çoxdur, o, təkcə tarixçi və hüquqşünaslar üçün deyil, həmçinin digər ixtisas sahibləri, siravi vətəndaşlar üçün də olduqca gərəklidir.

Bütün bunlara görə mənalı ömrünün 80-ci payızını yaşayan əməkdar hüquqşünas, hümanist insan, tanınmış ziyalı Eynal Əliyevə böyük zəhmət hesabına ərsəyə gətirdiyi məzmunlu və çoxəhatəli kitabı üçün dərin minnətdarlıq edir, ömrünün müdriklik çağında gənc nəslin maariflənməsi istiqamətində göstərdiyi xidmətləri qarşısında baş əyirik.

Son illər, xüsusən mənfur sovet imperiyasə dağıldıqdan, zorla imperiya zəncirləri ilə buxovlanan xalqlar ilər boyu həsrətində olduqları azadlıq və müstəqillik arzularına qovuşduqdan, eləcə də cəmiyyətdə demokratikləşmə prosesi dərinləşdikdən sonra tarixin bir çox qaranlıq səhifələrində işıq düşməyə, uzun müddət ərzində təhrif olunmuş, xalqdan gizlədilmiş hadisə və faktlar obyektiv qiymətini almağa başladı. Belə ağrılı-acılı və məhrumiyyətlərlə dolu dövrlərdən biri kimi XX əsrin 20-30-cu illəri və 50-ci illərin əvvəlləri xüsusilə diqqəti cəlb edir. Çünki həmin dövrün reallıqları elə "məharətlə" ört-basdır edilmişdir ki, onların üzə çıxarılması üçün hələ

bundan sonra da xeyli gərgin axtarış, tədqiqat və təhlillər aparılması zəruridir və bu tarixi missiya gənc nəslin üzərinə düşən ən mühüm vətəndaşlıq borclarından biridir.

XX əsrin ən dəhşətli olaylarından sayılan siyasi repressiyalar fırtınası bütün keçmiş sovet məkanını bürümüş, milyonlarla günahsız insan amansız diktatura rejiminin qurbanına çevrilmişdir. Elə bir millət və xalq olmamışdır ki, "qırmızı terror" və Stalin diktaturası dövründə bu və ya digər sayda qurban verməsin. "Əksinqilabçı", "eser", "qolçomaq", "pantürkist", "xalq düşməni", və sairə yarlıqlarla damğalanan alim, mütəxəssis, hərbçi, müəllim, həkim, şair, yazıçı, inzibati orqan işçiləri, bir sözlə ziyalı ordusunun ən fəal üzvləri kütləvi şəkildə həyata keçirilən həbs, sürgün və güllələnməyə məruz qalmışdır. Maraqlıdır ki, bu cəza tədbirləri siyasətdən tamamilə uzaq, hətta ölkədə baş verənlər hadisə və proseslərdən heç bir xəbəri olmayan minlərlə fəhlə və kəndlidən də yan ötməmişdir. Tədqiqat və araşdırmalar göstərir ki, XX əsrin siyasi repressiyalar siyahısında Rusiya birinci yerdə dayanır. Prefessor Kurqanovun fikrincə, Sovet hakimiyyəti dövründə baş verən repressiya zamanı həlak olanların sayı aşağıdakı kimidir:

***"Qırmızı terror"*** illərində (1917-1923-cü illər) 160 min akademik, professor, yazıçı, rəssam, müəllim, tələbə, 1,7 min dövlət məmuru, zabit, ticarətçi, 50 min polis və jandarm, 40 min din xadimi, 130 min kəndli və fəhlənin həyatına son qoyulmuşdur.

***"Çekist"*** terrorunun ikinci dalğası zamanı (1923-1930-cu illər) 2 milyon insan, o cümlədən 750 min "qolçomaq" həlak olmuşdur.

1 milyon 600 min adam isə "çekist" terrorunun üçüncü dalğasının qurbanı olmuşdur.

***"Yejovşina"*** dövründə (1937-1938-ci illər) 635 min kəndli və fəhlə, 340 min Kommunist Partiyasının üzvü, qızıl ordunun təmizlənməsi zamanı isə 30 min hərbçi məhv edilmişdir.

SSRİ MTN-nin keçmiş sədri Y.Kriçkov isə tamamilə başqa fikirlər söyləyib. Müsahibələrindən birində o bildirir ki, repressiyalara məruz qalanların sayı 20 milyon nəfərdən 60-70 milyona qədərdir.

Əslində isə 30-40-cı illərdə və 50-ci illərin əvvəllərində 3.778.234 adam məhkum olub ki, onların da 786.098 nəfəri güllələnib.

***"Arqumentı i faktı"*** qəzetinin 1990-cı il tarixli 35-ci sayında "Faciəli dövrlərin sənədləri" sərlövhəli məqalədə göstərilir ki, 1 yanvar 1939-cu ilə kimi ölkədə 1.317.195 nəfər vətən xaini adı ilə həbs edilib. Bunlardan 830.491 nəfəri rus, 181.095 nəfəri ukraynalı, 44.725 nəfəri belarus, 24.894 nəfəri tatar, 24.499 nəfəri alman, 17.123 nəfəri qazax, 16.860 nəfəri polyak, 11.723 nəfəri gürcü, 11.064 nəfəri erməni olub. Azərbaycanlıların adı çəkilmir. Yerdə qalanlar isə siyahıda olan 100 xalqın nümayəndələrindəndir ki, azərbaycanlılar da onların içərisindədir.

***"Komsomolskaya pravda"*** qəzetinin 17 oktyabr 1990-cı il tarixli sayında dərc olunmuş SSRİ Daxili İşlər orqanlarının məlumatından görünür ki, totalitar rejim illərində əksinqilabi cinayətlərə görə 1920-50-ci illər ərzində Dövlət Siyasi İdarələrinin kollegiyaları, Daxili işlər orqanlarının təşkil etdikləri "Üçlük", "Beşlik", və "Yeddilik"lər, Xüsusi Müşavirələr, Dövlət Siyasi İdarələri və Hərbi Tribunalar tərəfindən 3.778.234 nəfər adam əsassız olaraq cəzalandırılaraq repressiyalara məruz qalmışdır. Bunlardan 642.980 nəfərə güllələnmə cəzası verilmiş, 2.396.220 nəfəri həbsxana və islah düşərgələrində saxlanılmış, 765.180 nəfər məcburi surətdə sakin edilmə yerlərinə göndərilmişdir. Həmin şəxslərdən 2 milyon 900 min nəfəri Mərkəzi İcraiyyə Komitəsi və SSRİ Xalq Komissarlar Sovetinin 5 noyabr 1934-cü il tarixli qərarı əsasında Xalq Daxili İşlər orqanları tərəfindən təşkil edilmiş qeyri-qanuni məhkəmə orqanları olan "Üçlük", "Beşlik", "Yeddilik" və Xüsusi Müşavirələr tərəfindən, 877.000 nəfəri isə Hərbi tribunalar tərəfindən məhkum edilmişdir. Bunların 75.852 nəfəri isə Azərbaycan Respublikasının payına düşür.

Tədqiqatlar göstərir ki, Azərbaycanda tək-tək ailə tapılar ki, siyasi repressiya ondan yan keçsin. İlkin məlumatlara görə, keçmiş ittifaq respublikaları arasında ən çox Azərbaycan siyasi repressiyalara məruz qalmışdır. Əgər 150 milyon əhalisi olan RSFSR-də 3 milyon 778 min insan siyasi repressiyaya məruz qalmışdırsa, o vaxtlar 3 milyondan bir az artıq əhalisi olan Azərbaycanda 75.852 nəfər siyasi repressiya qurbanı olmuşdur. Bu insanlar 1920-ci il aprelin 28-dən başlayaraq siyasi əqidələrinə, fəaliyyətinə, düşüncə tərzinə, milli mənsubiyyətinə və digər səbəblərə görə müxtəlif cəza tədbirlərinə məruz qalmış, bir çoxu güllələnmiş, bir qismi isə sərt iqlim şəraiti olan şimali Qazaxıstana və Sibirə sürgün edilib uzun müddət xüsusi rejim şəraitində saxlanılmışdır.

27 may 1997-ci ildə respublikamızın müstəqilliyinin ildönümü ilə əlaqədar keçirilən yığıncaqda xalqımızın qayğıkeş, sevimli oğlu, möhtərəm prezidentimiz Heydər Əliyev bu mövzuya toxunaraq demişdir: "Sovet hakimiyyəti dövründə, ümumiyyətlə SSRİ ərazisində -bir yerdə az, bir yerdə çox-bütün xalqlara qarşı repressiya olmuşdur. Ancaq mən bu gün bunu xüsusi qeyd etmək istəyirəm ki, 1937-38-ci illərdə Azərbaycan xalqına qarşı edilən repressiya başqa respublikalardakı repressiyalardan daha ağır, çox itkili olmuşdur".

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin orqanı olan "Sərhəd" qəzetinin xüsusi buraxılışının 4-cü sayında "Yaddaşın bərpası" başlığı altında əməkdaşı Cəlal Qasımovun arxiv sənədləri əsasında dərc edilən repressiya qurbanlarının siyahısında görünür ki, Azərbaycanda 1920-1941-ci illər ərzində 5752 nəfər güllələnmişdir. Bunlardan 5485 nəfər 1920-1940-cı illər ərzində güllələnənlərdir. İllər üzrə bu miqdar aşağıdakı kimi-

dir:

| | |
|---|---|
| 1920-1925 -ci illər | 527 nəfər |
| 1930-1936-cı illər | 328 nəfər |
| 1937-ci il | 1572 nəfər |
| 1938-ci il | 2741 nəfər |
| 1939-1940-cı illər | 317 nəfər |

Yuxarıda göstərilən günahsız güllənənlərin milli tərkibi belədir: 4.842 nəfəri azərbaycanlı, 114 nəfəri erməni və 529 nəfəri rus, yəhudi, alman və başqa millətlər.

Bundan əlavə, siyahıdan görünür ki, 1941-ci ildə məhkum olunanlardan 397 nəfəri güllələnmişdir. Milliyyət etibarı ilə onlardan 106 nəfəri azərbaycanlı, 133 nəfəri erməni, 155 nəfəri başqa millətlərdən olmuşdur.

Hörmətli xalq şairi Bəxtiyar Vahabzadə "qırmızı terror" qurbanlarının siyahısı ilə bağlı yazır ki, bu siyahını oxuyarkən adam dəhşətə gəlir, inanmaq istəmirsən. İlahi görən həqiqətən bir belə günahsız adam güllələyiblər? Görən o illər insan niyə belə ucuz olub? Görən dövlət niyə belə insan ovuna çıxıb? Bu suallara belə birmənalı cavab vermək çox çətindir. Amma bütün bunlar bir həqiqəti tam təsdiqləyir ki, Azərbaycan xalqı öz azadlığı, müstəqilliyi uğrunda daim mübarizə aparmış və Azərbaycan cümhüriyyətini istər gizli şəkildə təşkilatlanaraq, istərsə də açıq üsyanlar vasitəsilə bərpa etməyə çalışmış, təəssüf ki, nəticədə öz haqq işi uğrunda mübarizə aparanlar amansızcasına məhv edilmişlər.

Oxucular üçün daha maraqlı olmaq və deyilənləri bir daha təsdiq etmək üçün həmin siyahı kitaba əlavə olunur və bu siyahını hazırlayan Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşı Cəlal Qasımova və başqalarına minnətdarlığımı bildirirəm.

***(Müəllif: Eynal Əliyev «Azərbaycan SSR-də XX əsrin siyasi repressiya qurbanları». Bakı 2003, səh 4-18.)***

1937-1940-cı illərdə Azərbaycan üçün çox dəhşətli nəticələrə gətirən hadisələri izlədik. Bu dövrün daha başqa bir faciəvi hadisəsi də qərbi Azərbaycandan əzəli yurdlarından kütləvi surətdə təqib və təhqirlərlə qovulmuş on minlərlə azərbaycanlının Azərbaycana gəlib məskən salması oldu. Belə bir çətin beynəlxalq şəraitdə Azərbaycan həm iqtisadiyyatını, həm də əhalinin inkişaf səviyyəsini qaydaya salmalı idi. 1939-cu ildə senyabrın birində Almaniya Polşaya hücum etməklə İkinci Dünya müharibəsinə başladı. Almaniyanın işğalçılıq planlarında Azərbaycan da var idi. Azərbaycanın sərvətləri, Qərb ilə Şərq arasındakı əlverişli strateji coğrafi mövqeyi faşistlərin nəzər-diqqətini özünə cəlb edirdi. Almaniya hökuməti Bakı neftindən istifadə etməklə bütün Şərqi istila edəcəyinə böyük ümidlər bəsləyirdi. Bakı zəbt edildikdən sonra Azərbaycan şimallı-cənublu Almaniyanın özündən asılı hala salacağı, türk xalqlarının yaşayacağı «Böyük Türküstan» dövlətinə qatılmalı idi. Bakı neftinin hasil edilməsi, emalı və daşınması 1941-ci ilin martında Almaniyanın «Kontinental neft cəmiyyəti»nə tapşırılmışdı. Bütün Azərbaycanın neft və sənaye müəssisələrinə alman rəhbərləri təyin edilməli idi. Artıq Qafqaza dair hücum planı - «Edelveys» hazırlanmışdı. 1941-ci il sentyabr 25-də bu plana uyğun olaraq Bakı tutulmalı idi.

Digəri isə Sovet rəhbərliyinin Azərbaycan üçün hazırladığı çirkin bir plan idi. Mənfur plana görə Azərbaycan əhalisi zorla Orta Asiya və Qazaxstana köçürülməli idi. Səbəbi isə Sovet dövlətinin Qafqazda azərbaycanlılara etibar etməməsi idi. Lakin hamıya «düşmən kimi tanıdılan» Mircəfər Bağırov gətirdiyi tutarlı arqumentlərlə və faktlarla Stalini bu yoldan çəkindirə bilmişdi. Və o zaman M. Bormanın qeydlərində Fürer qeyd edirdi ki, Bakı və onun ətrafları alman hərbi məskəninə çevrilməlidir. Belə ki, qeyd etməliyik ki, Əmircanın kənarındakı alman əsirlərinin müharibə və müharibədən sonra tikdikləri qəsəbələr bu planın yerinə yetirilməsi kimi də qəbul etmək olar.

1941-ci il iyunun 22-də Almaniya SSRi üzərinə hücum etdi. Bununla da sovet xalqlarının faşist Almaniyasına qarşı Böyük Vətən müharibəsi başladı. Azərbaycan xalqı var qüvvəsi ilə bu müharibəyə qoşuldu. Müharibənin ilk günlərində düşmənin şəhər və kəndləri müvəqqəti işğal etməsinə baxmayaraq, sovet adamları ruhdan düşməmişdi. SSRİ-nin hər yerində olduğu kimi, Əmircanın gənc oğlan və qızları, qəddar düşmənə qarşı vuruşmaq üçün öz vətənpərvərlik borcunu yerinə yetirmək üçün yüzlərcə mübarizlər könüllü olaraq cəbhəyə yola düşmüşdülər.

«Müharibənin ilk günlərindən qırx mindən çox gənc, o cümlədən minlərlə qadınlar könüllü olaraq cəbhəyə getmək üçün Azərbaycan SSR Hərbi komissarlığına ərizə vermişdi».[1]

Hər yerdə yığıncaqlar çağırıldı, o cümlədən də Əmircanda ümumi yığıncaqda Sovet hökumətinin orduya səfərbərlik haqqında qərarı oxundu. Hamı cəbhəyə getmək haqqında qəti qərarını bildirdi. Elə ailələr var idi ki, ilk günlərdən vətənin müdafiəsinə beş-altı nəfər döyüşçü göndərdi. Məsələn, Əliyevlər ailəsindən Əminağanın

***1. Qaraş Mədətov "Azərbaycan Böyük Vətən Müharibəsində -1941-1945", səh 20.***

dörd oğlu, Fərzəlinin iki oğlu, Bunyatovlar ailəsindən yeddi nəfər, bəzən ata və analar öz oğul və qızları ilə birgə müharibəyə getmişdilər. Müseyib Qulu oğlunun üç oğlu, Əli Səfər oğlunun dörd oğlu, Məmmədəli Paşa oğlunun üç oğlu və bir qızı - Suğra Məmmədəli qızı Paşayeva, Səkinə İbrahim qızı Əliyeva, Sona Piri qızı Nuriyeva, Yusifova Fatma Əliyoldaş qızı, Quliyev Pirinin üç oğlu, Ağaəli kişinin dörd oğlu, Fatma xanım Əcəmova və yüzlərcə başqaları vətənin müdafiəsinə getmişdilər. Vətənin müdafiəsinə gedənlərdən əlavə arxada özünü müdafiə dəstələri də hazırlanırdı.

Əmircan fəhlələri cəbhəni yanacaq, silah, hərbi sursat, paltar və sair avadanlıqla təmin etmək üçün faşizm üzərində qələbə çalmaq naminə əmək növbəsində durmuşdular. Həmin günlərdə «Pravda» qəzeti yazırdı: «Orconikidzeneft» trestinin kommunistləri, təmir ustaları, mexanikləri, maşinistləri iki yüz əlli saatlıq işi fasiləsiz olaraq otuz altı saata başa çatdırmış, yüksək keyfiyyətli neft verən quyunu təmir edib qurtarmışdılar».[1]

«Orconikidzeneft»in birinci mədəninin yeraltı təmiri, qocaman ustası, Lenin ordenli Yusifov Əlikömək Hacı Yusif oğlu iki vəzifə, usta və açarçını əvəz edərək normanı yüz əlli-yüz altmış faiz yerinə yetirmişdir. Çox zaman istehsalatda fəhlələr çatışmadığından tək özləri, bəzən üç nəfəri də əvəz edirdilər. Quyuları bir an belə saxlamadan təmir edib işə buraxırdılar.[2]

Qocaman neftçi, Lenin ordenli Abbasəli Nəcəfəli oğlu 1924-cü ildə «Əzizbəyovneft» mədənində birinci neft quyularını qazmış, qazmaçı 1927-ci ildə isə Qarçuxur neft mədənində birinci neft quyularının qazılmasında iştirak etmiş, müharibənin əvvəlindən axırına qədər kəşfiyyat qazmasında işləyərək yeni-yeni neft yataqları kəşf etmişdir. Qoca yaşlarında cəbhəyə gedənləri əvəz edərək çoxlu cavan kadrlar hazırlamışdı.[3]

Müharibə illərində hökumətin qərarı ilə neftçilər, ixtisaslı fəhlələr ordudan geri istehsalata çağırılırdılar. Bu dövrlərdə çoxlu gənclər briqadaları yaradılmış, çoxlu neft ustaları yetişdirilmiş, onlar iş planından artıq neft hasil edirdilər.

Müharibə illərində tikiş arteli kəndin qabaqcıl müəssisələrindən sayılırdı. 1941-45-ci illərdə bu artel cəbhə üçün yalnız xüsusi geyimlər, əsgərlər üçün geyimlər və sair hazırlayırdılar. 1942-ci ildə kənddə yetmiş faiz qadınlar istehsalatda, müəssisələrdə və ictimai həyatda işləyirdilər. 1940-cı ildə kəndin qadınlarının təxminən otuz faizi istehsalatda işə cəlb olunmuşdular. 1942-ci ildə işləyən qadınların əlli faizi Suraxanı, Qaraçuxur neft mədənlərində, Dzerjinski adına zavodda, Qazelin zavodunda və başqa vacib sayılan, cəbhəyə hərbi sursat verən istehsalatda işləyirdilər.

Müharibəinin ilk günlərindən kənddə Dzerjinski adına zavod hərbi qaydada işləməyə keçir. Zavodda yalnız əsl ixtisasçıları saxlamışdılar. Onlar ən çətin və gizli müharibə planlarının yerinə yetirilməsinə xidmət edirdilər. Məsələn, «təcrübəli tokar staxanovçu, ixtiraçı, Lenin ordenli Kərim Baba oğlu, 1942-ci ildə yeni növ silahların ilk istehsalına birinci başlamışdır. Silahın ilk nümünəsini hazırladıqdan sonra təsdiq olunurdu və sonra seriya ilə istehsalına başlayırdı. Müharibəyə gedənləri yeniyetmə cavanları və qadınları əvəz edənləri Kərim Baba oğlu beş-altı ay ərzində öyrədərək gündəlik normanı üç yüz-dörd yüz faiz yerinə yetirmişdi».[4]

Zavod 1942-ci ilin may ayına nisbətən iyun ayında silah istehsalını 144%, avqustda 268%, 433%, 449% artırmışdı.[5]

Dzerjinski adına bu zavod illik planı yerinə yetirmək haqqında vətən müdafiəçilərinə 1942-ci ilin dekabrında raport verdi. Zavodun kollektivi üç ay dalbadal cəbhənin sifarişlərini artıqlaması ilə yerinə yetirərək Dövlət Müdafiə Komitəsinin keçici Qırmızı bayrağını əldə etdilər.[6]

«Yüzlərcə vətənpərvər kəndimizin ana, bacı, gəlin və qızları toxuduqları isti corab, əlcək, tikdikləri dəsmal və sairə şeyləri toplama məntəqəsinə verirdi. 1942-1943-cü ilin axırına qədər 1000 ədəd müxtəlif paltar, 4 maşın müxtəlif şeylər cəbhəyə yollanmışdır».[7]

«Orconikidzeneft» rayonunun neftçiləri qısa müddət ərzində sovet döyüşçülərinə 1139 yeşik bağlama göndərmişdilər. Cəbhəyə göndərilən hədiyyələrin üzərinə sovet əsgərlərini igidlik və qəhrəmanlığa çağıran sözlər yazılırdı. Qaraçuxur neftçilərinin birgə 1942-ci il bir may münasibəti ilə cəbhəyə göndərdikləri 800 yeşik bağlamanın üzərində «Alman faşistləri ilə döyüşdə fərqlənən qızıl əsgərə», «Cəsur kəşfiyyatçıya», «Sərrast atıcıya», «Qartal kimi şığıyan şahinə» sözləri yazılmışdır.[8]

Əmircan neftçilərini əksəriyyəti Orconikidzeneft və Qaraçuxurda işləyirdilər.

---

***1. "Pravda" qəzeti, 10 iyul 1941-ci il***
***2. Az. SSR EATİ elmi arxivi, iş № 7802, sənəd 24, səh. I***
***3. Az. SSR EATİ elmi arxivi, iş № 7802, sənəd 24, səh. I***
***4. Az. SSR EATİ elmi arxivi iş № 7802, sənəd 24 səh. 24***
***5. Yenə orada, sənəd 24***
***6. Qaraş Mədətov, "Azərbaycan Böyük Vətən müharibəsində-1941-1945", səh 176***
***7. Az. SSR EATİ Elmi arxivi, iş № 7802, sənəd 3***
***8. "Vışka" qəzeti , 1 iyun 1942.***

Həmin günlərdə müharibənin ədalətli xarakterini dərk edən və vətənin müdafiəsinin zəruri olduğunu başa düşən döyüşçülər hamını kütləvi qəhrəmanlıq göstərməyə çağırırdılar. Bu deviz müharibə dövründə döyüşçülərimizin əksəriyyəti üçün əxlaqi keyfiyyət oldu.

Zavodun kollektivi müharibənin ilk günlərindən müdafiə fondu hesabına dəfələrlə bir günlük əmək haqqını keçirmişlər.

Zavod tank və təyyarə eskadrilyarı yaratmaq üçün başlanan hərəkata fəal qoşulmuşlar. 1943-cü il dekabr ayında iki günlük əmək haqqının «Dzerjinski» adına tank yaratmaq üçün pul köçürdülər.[1]

Müharibənin ilk günlərindən zavoda gələn yeni-yeni kadrlar dəstəsinin əsas hissəsini qadınlar təşkil edirdi. Onlar cəbhəyə getmiş ərlərini, qardaş və oğullarını, ana və bacılarını əvəz etməyə hazır olduqlarını bildiriridilər. 1942-ci ilin aprelin birində zavodda 272 qadın işləyirdi.[2]

Keçmiş evdar qadınlar da zavoda gələrək dəzgah arxasında dayanaraq kişi peşəsinə yiyələnirdilər. 1943-cü ildə zavodda qadınların sayı 539 nəfər idi.[3]

Mühəribə dövründə zavodda müstəqil işləmək üçün ixtisaslı fəhlələr 131 nəfər, ondan 32 nəfəri tornaçı dəzgahında, 8 nəfəri çilingər dəzgahında işləmək üçün hazırlandı.[4]

Zavodu ixtisaslı fəhlələrlə təmin etmək üçün :

İxtisasartırma kurslarına - 83 nəfər;

Qabaqcıl əmək metodu kursuna - 35 nəfər;

Yeni kadr hazırlanması kursuna - 157 nəfər adam göndərildi.[5]

Beləliklə, Dzerjinski adına zavodda Böyük Vətən Müharibəsi dövründə cəbhəyə gedən ixtisaslı fəhlələri əvəz etmək üçün hazırlanan kadr problemi belə həll edildi.

Zavodda minlərlə fəhlə və qulluqçu sosializm yarışının yeni formalarına qoşuldular. Zavodda altı cəbhəçi briqada yaradıldı. Bunlara rəhbərlik edən briqadirlər Kərim Baba oğlunu və Babayevi göstərmək olar.[6]

Zavod SSRİ Neft Sənayesi Komissarlığının Keçici Qırmızı Bayrağını beş dəfə almışdı.[7]

Azərbaycan SSR digər maşınqayırma zavodları ilə birlikdə Dzerjinski adına zavod cəbhənin hərbi sursat, xüsusi silah və ləvazimatla təchiz etmək işindəki istehsalat nailiyyətlərinə görə bütün SSRİ-də tanınmışdır.[8]

Azərneft kombinatının əmri əsasında 1944-cü ilin may ayında zavodda dərinlik nasoslarının quraşdırılması üçün xüsusi komissiya təşkil edildi.[9] Zavodda 1941-45-ci illərdə dərinlik nasosları istehsalı üzrə dövlət planını dörd yüz on iki faiz yerinə yetirərək SSRİ Neft Sənaye Komissarlığının Keçici Qırmızı Bayrağını aldı.[10]

«Zavodda işləyən fəhlələrdən yeganə zərbəçi azərbaycanlı Kərim Baba oğlu idi.

Artıq müharibənin sonunda zavod SSRİ-də neft avadanlığı istehsal edən məşhur maşınqayırma zavodlarından birinə çevrilmişdir».[11]

Kənd zəhmətkeşlərinin vətənpərvərliyi nəticəsində kənd məktəblərinin və mədəniyyət sarayının qospitala çevrilməsi ilə daha çox büruzə verdi. Daha sonralar əhali könüllü olaraq onun təşkilində ən yaxşı avadanlıqları qospitala bəxş edirdi. Kəndiin zəhmətkeşləri müdafiə fonduna yüz min manat nəğd pul, əlli min manat istiqraz, iki kiloqram qızıl, bir kilo gümüş qaşıq və gümüş şam qabları vermişdilər.[12]

Bütün bunlar cəbhə ilə arxanın sarsılmaz birliyinin sübutudur.

«223-cü atıcı diviziyasının əsgər və zabitləri respublika zəhmətkeşlərinə göndərdikləri məktubda yazırlar: «Sizin cəbhəyə köməyinizi biz heç zaman unutmayacağıq. Sizin pullarınızla düzəldilən tank və təyyarələri biz cəsarətlə düşmən üzərinə sürəcək, rəşadətli Sovet ordusunun sıralarında qardaş Ukraynanı, Belorusiyanı, bütün Sovet torpağını tezliklə düşməndən azad edəcəyik. Biz vətənə ancaq qələbə ilə qayıdacağıq»[13]

Kommunist partiyası və sovet hökuməti əsgər ailələrinə qayğı göstərməyi, onların güzəranının yaxşı olmasına xüsusi fikir verirdi. Partiya və hökumət müharibə şəraitində zəhmətkeşlərin ərzaq təchizatını yaxşılaşdırmaq üçün yerli imkanlardan istifadə etməyi mühüm məsələ hesab edirdi. Yerli təşkilatlar və təsərrüfat rəhbərləri kən-

***1. "Pravda" qəzeti , 7 mart 1942***
***2. MLİ Partiya arxivi, fond 2364, sənəd №1, iş 81, vərəq 15***
***3. Yenə orada, sənəd №2, b. 5, iş № 9, vərəq 45***
***4. MLİ Partiya arxivi, fond 2364, sənəd №2,b 5, iş 15, vərəq 86***
***5. Yenə orada, s.3, b.6, iş №2 , vərəq 24***
***6. Yenə orada, s.2, b.5, iş №9 , vərəq 15***
***7. Yenə orada, s.1, b.4, iş №84 , vərəq 89***
***8. Qaraş Mədətov "Azərbaycan Böyük Vətən Müharibəsində -1941-1945", Bakı 1965, səh. 163***
***9. MLİ Partiya arxivi, fond 2364, iş 17, sənəd 147***
***10. MLİ Partiya arxivi, fond 28, iş 536, sənəd 2, b. 108, vərəq 47***
***11. MLİ Partiya arxivi, fond 28, iş 862, sənəd 1, b. 42, vərəq 8***
***12. Az. SSR EATİ elmi arxivi, iş № 7802, sənəd 13, səh. 3***
***13. "Bakinskiy raboçiy" qəzeti, 14 yanvar, 1943 il.***

din ətrafında boş yerlərdə bağça, bostan əkməyi lazım bildi. Buna görə də qədim su quyularından istifadə edildi. Bu işə təcrübəli rayon təşkilatı rəhbərlərindən olan İbrahimov İsrafil rəhbərlik edirdi. Beləliklə də, müharibə illərində kəndin ətrafında 20-yə yaxın mədənlərin, zavod və müəssisələrin bağ-bostan təsərrüfatı, xırda quşçuluq, donuzçuluq, qoyunçuluq fermaları fəaliyyət göstərməyə başladı.[1]

Azərbaycanın oğulları, o cümlədən əmircanlılar Böyük vətən müharibəsi cəbhələrində müxtəlif ordularda və diviziyalarda cəsarətlə vuruşur, qəhrəmanlıq nümunəsi göstərirdilər. Əliyev Ağahüseyn Taman yarımadasının Feodosiya şəhərinin müdafiəsində iştirak etmişdi. Novorossiysk uğrunda qanlı vuruşmada yaralanıb, lakin vuruşu davam etdirmişdir.[2] Yalnız ikinci dəfə başından ağır yaralanmış, vuruş meydanın tərk etmişdir. Vuruşmada fərqləndiyi üçün medal ilə təltif edilmişdir. Cəbhədən qayıdandan sonra bu cəsur döyüşçü əmək cəbhəsində Orconikidzeneftin kompressor sexində çilingər, maşinist, mexanik işləmişdir. Azərbaycan SSRİ fəxri fərmanı ilə, Lenin ordeni ilə, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdu.

Əliyev Ağahüseynin qardaşı Əliyev İsmayıl (1916-1978) İkinci dünya müharibəsinin cəsur döyüşçülərindən biri olmuşdur. Onun keçdiyi yol Berlinə qədər davam etmişdir. Döyüşlərdə fərqləndiyinə görə II dərəcəli Qırmızı ulduz ordeni, «Qəhrəmanlığa görə» medal və ordenlərlə təltif edilmişdir.

Rzayev Hüseyn Həsənbala oğlu 1942-ci ildə Mozdok istiqamətində, 1944-cü ildə isə Melitopol istiqamətində vuruşmalarda 8 dəfə fərqlənmiş, orden və medallarla təltif edilmişdir. Minamyot vzvodu komandiri Hüseyn Rzayev iki dəfə ağır yaralandıqdan sonra arxa cəbhəyə əmək fəaliyyətinə qayıtmışdır. Qeyd etməliyik ki, 1961-ci ildə dahi sənətkarımız Bül-bül İtaliyanın Milan şəhərindən vokalçı kimi qayıtdıqdan sonra Əmircanda klubda ilk konsertində Hüseyn Rzayev onun böyük portretini işləmiş və özünə təqdim etmişdir. Portret Bülbülün ev muzeyində saxlanılır . H. Rzayev ömrünün sonuna qədər rəssam və müəllim işləmişdir.

«1942-ci il oktyabr ayında azərbaycanlı leytenant Mikayıl Həbibovun komandanlığı altında 11 nəfər döyüşçü ilə mühüm strateji məntəqəni 12 gün 400 nəfər faşistin hücumundan müdafiə etmiş, həmin təpəni yeni qüvvə gələnə qədər əldə saxlamışlar. «Komsomolskaya pravda» qəzeti yazırdı: «Müdafiənin 12-ci günü patron və başqa hərbi ləvazimat qurtardıqda 10 nəfər döyüşçü başda leytenant Mikayıl Həbibov olmaqla faşistlərlə süngü davasına girdilər. Bu zaman köməyə gələn Sovet əsgərləri döyüş meydanında 120-dən çox faşistin meyidini gördülər. M.N. Həbibov göstərdiyi bu qəhrəmanlığa görə Lenin ordeni ilə təltif edildi».[3]

1942-ci ildə Stalinqrad uğrunda qanlı döyüşlərdə Əlirza Əliyev də iştirak edirdi. O, ikinci tank korpusunda sürücü mexanik kimi vuruşurdu. Cənub-qərb döyüşləri zamanı Əlirza Əliyevin tankının heyəti düşməni 4 tankını, 7 topunu və xeyli canlı qüvvəsini tələfata uğratmışdır. Tank heyətinin bütün üzvləri döyüşlərdə mərdlik göstərdiklərinə görə Qırmızı Ulduz ordeni ilə təltif edilmişdilər. Sonra döyüşlərin birində düşmən mərmisi Əlirza Əliyevin tankına dəyir, onu alovlandırır. Ağır yaralanan həmyerlimiz müalicə olunub yenidən cəbhəyə qayıdır. Belorusiyanın, Polşanın faşistlərdən azad olunmasında iştirak etmişdir. Ə. Əliyev Könsberq qalasının alınması uğrunda fədakar döyüşlərinə görə İkinci Qırmızı Ulduz ordeni ilə təltif olunmuşdur».[4]

Ağayev Kərim Namazəli oğlu da cəsur döyüşçülərdən biri olmuşdur. Birinci Ukrayna cəbhəsində, Cənub cəbhəsində tank batalyonu, rabitə, serjantlıqdan böyük leytenant rütbəsinə qədər yüksəlmişdir. Boqdan Xmelnitski adına Qırmızı Ulduz ordeni ilə təltif edilmişdir.

Pribaltika cəbhəsində vuruşan döyüşçülərimizdən biridə Hacıyev Novruzəli Heydər oğlu İkinci Pribaltika cəbhəsində 22-ci orduda 36-cı qvardiya Qırmızı Bayraqlı Suvorov ordenli hissədən cəsur igid döyüşçü kimi tanınmışdır. Qvardiya baş leytenantı Hacıyev Novruz döyüşlərdə xüsusi fərqləndiyinə görə Aleksandr Nevskiy adına II dərəcəli Böyük Vətən müharibəsi ordeni ilə təltif edilmişdir.

Pribaltika cəbhəsində vuruşan igid təyyarəçi Vladimir Balandin döyüşlərdə qəhrəmanlıq göstərmişdir: «1944-cü ilin oktaybr ayı V. Balandinin döyüş hesabatında 16 məhv edilmiş təyyarə qeyd edilmişdir. Artıq dekabr ayının 30-da növbəti döyüşündə igid şahin iki faşist təyyarəsini də məhv etmiş, yanan təyyarədən tullanarkən paraşüt açılmamış və həlak olmuşdur. Ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir».[5]

İndi Əmircanda gözəl küçələrdən biri V. Balandinin adını daşıyır. Mühəribədən əvvəl Dzerjinski adına maşınqayırma zavodunda işləmişdir. İndi zavodun həyətində V. Balandinə və qonşu Bül-bülə qəsəbəsində Əvəz Verdiyevə, yəni bu iki Sovet İttifaqı Qəhrəmanının abidəsi qoyulmuşdur.

Əmircandan müharibəyə gedən igid oğlanlarımızla yanaşı qızlarımızın da adı çəkilir.

Qvardiya polkovniki Heybətov Musa Həmdulla oğlu, Əliyev Rəhman Əbdülrəhman oğlu, Dadaşov Həsən Ağadadaş oğlu, polkovnik Əliyev Rəhman Kərim oğlu, Sadıqov Rza, Nəhmədov Nadir, Əliyev Teymur, Ağayev Ağaqulu, Bünyadov Xankişi, Rzayev Mövsüm qardaşları Müqatil və Ağahüseyn Rzayevlər müharibədən qayıtmadılar və başqaları cəbhədə xüsusilə fərqlənmişdir.

***1. Az. SSR EATİ Elmi arxivi, iş № 7802, sənəd 24, səh. 2, fond 1-17***
***2. "Baku" qəzeti, 21 mart, 1970 il***
***3. Yenə orada, səh. 99***
***4. "Komsomolskaya pravda" qəzeti, 9 yanvar, 1970-ci il***
***5. Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları", Azərnəşr, Bakı, 1963, səh. 74***

Böyük Vətən Müharibəsində Əmircandan təxminən 1460 nəfər vətən müharibəsində iştirak etmişdir. Bunlardan cəmi 696 nəfəri qayıtmışdır.

Əmircanın qorxmaz, igid qızları da Böyük Vətən müharibəsi illərində misilsiz fədakarlıqlar göstərmişlər. Onlar neft buruqlarında, dəzgahlarda, dəmir yolunda, traktor sükanı arxasında kişiləri əvəz edirdilər.

Sov. İKP MK Siyasi bürosuna namizəd Azərbaycan KP MK-nın birinci katibi H.Ə. Əliyev yoldaşın «Azərbaycan qadını» jurnalının 50 illik yubileyində söylədiyi nitqində deyilir:

«Azərbaycan qadınlarının möhkəm iradəliliyi, vətənpərvərliyi, xüsusi ilə Böyük Vətən müharibəsində özünü göstərmişdir. Onlar neft mədənlərində, zavodlarda dəzgəhlarda, dəmir yolunda, traktorlar arxasında kişiləri əvəz edirdilər. Ləyaqətli vətəni müdafiə edənlər içərisində Əmircanlı qəhrəman qızlar da var idi. Suğra Paşayeva və onun rəfiqəsi Səkinə Əliyeva Əmircanda məktəbi bitirib birlikdə Azərbaycan Dövlət Universitetinə daxil olmuşlar. Birlikdə də könüllü olaraq cəbhəyə getmişdilər. Onlar 47-ci ordunun səhra poçtunda rabitəçi olmuşlar. Hətta lazım gələndə canlı döyüş meydanında şəfqət bacısı və sanitar vəzifəsini yerinə yetirmişlər. «1942-ci ilin may ayında döyüş meydanında Suğra və Səkinə düşmənin arası kəslmədən atışları altında mina partlayışından yaralandılar. Yaralanmalarına baxmayaraq, döyüşü davam etdirdilər. Döyüşçülərin yaralarını sarıyıb və onları qospitallara göndərirdilər. Qolundan ağır yara almış Suğra 183 döyüşçünün yarasının sarımışdır».

İkinci dünya müharibəsində iştirak edən qadınlardan Yusifova Fatma xanım, Vəliyevə Səkinə, Zamanova Gülizar Məşədi Sübhan qızı, Əliyeva Mənzər Əliyunus qızı, mühəribəyə getməyib arxa cəbhədə əvəzolunmaz işçiləri saxlayıb əmək fəaliyyətlərini davam etdirirdilər.

Alman faşistləri 1941-ci il iyul ayının 22-də Sovet İttifaqına xaincəsinə basqın etdilər.

Ölkənin hər yerində olduğu kimi, əmircanlı oğlan və qızlar da qəddar düşmənə qarşı vuruşmaq, öz vətənpərvərlik borcunu yerinə yetirmək üçün cəbhəyə yola düşdülər. Təkcə onu demək kifayətdir ki, müharibənin ilk günlərində 40 mindən çox komsomolçu gənc, o cümlədən qadın könüllü olaraq cəbhəyə getmək üçün Azərbaycan SSR hərbi komissarlığına ərizə verdi.

Əmircan fəhlələri cəbhəni yanacaq, silah, hərbi sursat, paltar və sairə ilə təmin etmək, faşizm üzərində qələbə çalmaq üçün gecə-gündüz əmək növbəsində dururdular. «Pravda» qəzeti hələ müharibə başlananda yazırdı: «Orconikidzeneft» trestinin kommunistləri-təmir ustası Dzoqayev, mexanik Podkletkov və maşinist Quliyev 250 saatlıq işi fasiləsiz olaraq 36 saata başa çatdırmış, yüksək keyfiyyətli neft verən quyunu təmir edib qurtarmışlar».(«Pravda» qəzeti, 10 iyul 1941)

«Orconikidzeneft»in 1-ci mədəninin yeraltı təmir ustası, qocaman neftçi, Lenin ordenli Əlikömək Yusifov iki nəfəri - usta və açarçını əvəz edərək normanı 150-160% yerinə yetirirdi. Çox zaman fəhlələr çatışmadığından tək özü bəzən üç nəfərin yerinə işləməli olurdu.

Partiya və hökumətin qərarı ilə ixtisaslı fəhlələr ordudan arxa cəbhəyə çağırılmışdı. Onlardan biri də Kərim Paşayev idi. «Əzizbəyovneft» trestinin 3-cü mədənində gənclər briqadasının neft ustası işləyən bu əmək qabaqcılı müharibə illərində plandan artıq tonlarla neft hasil etdiyinə görə 1947-ci ildə Lenin ordeninə layiq görülmüşdür.

Müharibə illərində tikiş arteli cəbhə üçün yalnız əsgəri müxəlləfat və sırıqlı (isti paltar) hazırlayırdı.

1942-ci ildə işləyən qadınların 50%-i Suraxanı, Qaraçuxur neft mədənlərində Dzerjinski adına zavodda, Qazelin zavodunda və başqa istehsalat sahələrində çalışırdılar.

Dzerjinski adına zavod 1942-ci ildə illik planı yerinə yetirmək haqqında Vətən müdafiəçilərinə ilk raport verənlər sırasında idi. Zavodun kollektivi üç ay dalbadal cəbhənin sifarişlərini artıqlaması ilə yerinə yetirərək DMK-nin Gənclər Qırmızı bayrağını öz əlində saxladı. Əmircanlılar cəbhədə vuruşan əsgərləri corab, əlcək, dəsmal və sairə şeylərlə təmin etməkdə fəallıq göstərirdilər. Onlar 1942-1943-cü illərdə cəbhəyə min ədəd müxtəlif paltar, 4 maşın və s. yollamışdılar. Ümumiyyətlə, Orconikidze rayonunun neftçiləri qısa müddət ərzində Sovet döyüşçülərinə 1139 ədəd hədiyyə qutusu göndərmişdi. Cəhbəyə göndərilən hədiyyələrin üzərinə sovet əsgərlərini igidlik və qəhrəmanlığa çağıran sözlər yazılırdı. Qaraçuxur neftçilərinin 1942-ci il 1 May bayramı münasibəti ilə cəbhəyə göndərdikləri 800 ədəd hədiyyə qutusu üzərində «Alman faşistləri ilə döyüşdə fərqlənən qızıl əsgərə», «cəsur kəşfiyyatçıya», «Sərrast atıcıya», «Qartal kimi şığıyan şahinə» sözləri yazılmışdı.

Ümumiyyətlə, kənd zəhmətkeşləri müdafiə fonduna yüz min manat nəqd pul, yüz əlli min manat istiqraz, on iki qızıl üzük, on bir kiloqram ağırlığında gümüş qaşıq və s. vermişdilər.







*Xankişi Bünyatov, Paşayev Paşa İmangül*



*İmran, Paşa, Ağaqulu, Xankişi*



***Zeynalov Cabbar Əlipaşa*** 1904-1975. Əmək fəaliyyətinə Balaxanıda Şıbayevin mədənlərində fəhləlikdən başlayıb. 1914-cü ildə "Ruskaya tovarişestvo" neft şirkətində qazmaçı işinə keçirilib. 1924-1928-ci illərdə Zaqafqaziya Kommunist Universitetini (ZKU) bitirib. 1921-ci ildə Şamaxı qəzasının İnqilab Komitəsinin sədri seçilib. 1930-1931 illərdə Salyan qəzasının Partiya Komitəsinin sədri seçilib. Tbilisidə keçirilən Zaqafqaziya Kommunist təşkilatlarının qurultaylarının nümayəndəsi olub. 1932-ci ildə Sovnarkomun İxtiraçılar komitəsinin sədri işləyib.

1946-1960-cı illərdə Bakıda Artel koperativ şöbəsinin sədri, sonra nəzarətçi işləyib.



***Zeynalov Əlövsət Əlipaşa oğlu.*** 1931-ci il 8 fevraldan Bakı şəhər sovetinin sədr müavini işləyib. 1931-ci il noyabrın 30-da vəzifəsindən azad edilib, Moskvada oxumağa göndərilib. 1932-34-cü illərdə IX çağırış Bakı sovetinin deputatı olub. Bakı şəhər sovetinin şöbə müdüri işləyib. Müxtəlif dövlət orden və medalları ilə təltif olunub.





***Müharibə veteranı Məmmədhüseyn***

***Bağırov Qulu Müslüm oğlu.*** (1912-1977) ADU-nun hüquq fakultəsini bitirib. Göyçay, İsmayıllı, Ucar, Yevlax rayonlarında prokuror işləyib. Bakı Yol Polis idarəsində müfəttiş, 2№ li taksi parkının müdiri olub.

***Əliyev İbrahim Alı oğlu*** (1908) Azərbaycan Dövlət Təhlükəsizlik orqanlarında, Lənkəran, Şamaxıda polkovnik rütbəsində işləmişdir.



***Əliyev Novruz İmangül***

Dəmir yolunda çoxillik fəaliyyətinə görə Sovet hökumətinin Qırmızı Əmək Bayrağı ordeni, «Şərəf ordeni», Böyük Vətən müharibəsinin bir neçə medalları ilə, Lenin ordeni ilə, əmək veteranı ordeni ilə təltif olunmuşdur. Uzun illər Azərbaycan Ali Məhkəməsinin xalq iclasçısı olmuşdur, ittifaq əhəmiyyətli fərdi təqaüdçüdür.

Ukrayna uğrunda vuruşda Kursk ətrafında «Odlu qövs»də Ağakişi Niyətbala oğlu 70-ci qvardiya atıcı diviziyasının 207-ci polkunda qəhrəmacasına döyüşmüşdür. Baş leytenant pulemyotçular vzvodunun komandiri Qorodiş kəndi uğrunda, düşmənin böyük qüvvəsinə qarşı döyüşdə həlak olmuşdur. Qoradiş kəndində qardaşlıq məzarında dəfn olunmuşdur.

Böyük Vətən müharibəsində 700 minə qədər azərbaycanlı iştirak edib.

XX əsrdə II dünya müharibəsi illəri bəşəriyyət üçün ən ağır və dəhşətli dövr olmuşdur. Almaniyada və Italiyada yaranmış faşizm nəinki bu ölkələrin özünü, hətta bütün bəşəriyyəti təhlükə altına almışdı.

Haqqında yazmaq istədiyim insan da Böyük Vətən müharibəsi iştirakçısıdır.

Mən o insanı görməsəm də, haqqında çox eşitmişəm və onunla fəxr edirəm. O, çox xeyirxah, mehriban, səmimi, mülayim, ailəsini sevən, övladlarına qarşı çox diqqətli, üzü nurlu olan (bunlar sadalandıqca bitməz) bir şəxs olub. Deyilənlərə görə, o, həddindən artıq təvazökar bir insan olduğu üçün heç vaxt istəməyib ki, kimsə onun haqqında nə isə qələmə alıb yazsın. Hər zaman deyib ki, «mənim mükafatlarım mənə bəsdir». Amma mən bu gün onun haqqında cürət edib yazmaq istədim.

***Mayor Əliyev Mövlan Məzahir oğlu*** 17 iyun 1909-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1926-cı ildə FZO məktəbini bitirdikdən sonra, təhsilə olan marağı onu 1930-cu ildə Lassal adına Bakı Neft Texnikumuna gətirir, sonra isə 1937-ci ildə Bakı Neft İnstitutunu (indiki Neft Akademiyası) bitirir. Bir neçə il neft sahəsində işlədikdən sonra M. Əliyev 1939-cu ildə Bakıda Kirov adına Sənaye Akademiyasını bitirib, 1940-cı ildə "Körgöz" rayonuna ikinci katib təyin edilir.



***Bakı şəhərinin meri Hacıbala Abutalıbov Məmmədhüseynlə***

1941-ci ildə o, ailəsi ilə birlikdə Moskvaya V. I. Lenin adına Hərbi-Siyasi Akademiyada təhsilini davam etdirməyə yollanır. Həmin ildə də Moskva şəhərində ÜIK(b)P MK-nın 6 aylıq kursunu bitirir.

Almaniya ordusunun Polşaya hücuma başladığı 1 sentyabr 1939-cu il tarixi İkinci Dünya Müharibəsinin başlanma tarixi sayılır.

Qəflətən başlanan Böyük Vətən müharibəsində Ali Baş Komandan İ. V. Stalinin 3 iyul 1941-ci ildə xalqa müraciəti çox böyük əhəmiyyətə malik idi. Hitlerçilərin ölkəmizə basqın etməsi haqqındakı xəbər hamı kimi M. Əliyevin də qəlbini qəzəblə doldurur. O, ailəsini Bakıya yollayaraq, hərbi komissarlığa ərizə yazıb cəbhəyə könüllü göndərilməsini xahiş edir.

Beləliklə, Müharibə!

1941-ci ilin sonu - 1942-ci ilin əvvəllərində Şimal-Qərb cəbhəsinin bazasında 52-ci atıcı briqada yaradılır və həmin briqadanın batalyon komissarı mayor Əliyev Mövlan təyin olunur.

1942-ci ilin may ayında 780-ci Artilleriya alayının komandir müavini təyin edilir, həmçinin də 207-ci Don və Stalinqrad cəbhəsinin atıcı diviziyasında vuruşur.

Qvardiyaçı mayor M. Əliyev 1942-ci il sentyabrın 13-dən əfsanəvi Stalinqrad (indiki Volqoqrad) döyüşlərində topçu komandiri kimi iştirak etməyə başlayır. Həmin ilin noyabr ayında o, Stalinqrad şəhərində iki ayağından da yaralanır. Amma buna baxmayaraq, döyüşlərə davam edir. M. Əliyev dekabrın 22-də SSRİ Ali Soveti Rəyasət heyətinin qərarına əsasən "Stalinqradın müdafiəsi uğrunda" orde-

ni, həmin ildə də "Varşava şəhərinin azad edilməsi uğrunda" medalla təltif edilir.

Beləliklə, 1943-cü il fevralın 2-də Stalinqrad döyüşü sona yetir.

1943-1944-cü illərdə M. Əliyev 27-ci qvardiyanın 54-cü atıcı diviziyasının siyasi hissəsinin topçuluq üzrə diviziyon komandirinin müavini kimi döyüşməkdə davam edir.

1944-1945-ci illərdə atıcı alayının komandiri olmuş mayor Mövlan Əliyev 1944-cü ilin iyun ayında Polşanın Visla çayı ətrafında sağ ayağından güllə yarası alır. Həmin ilin noyabr ayında isə Estoniyanın Narva çayı ətrafında gedən döyüşlərdə kontuziya alır.

1944-cü ildə M. Əliyev "SSRİ-nin Böyük Vətən Müharibəsinin II dərəcəli" ordeni və həmin ildə də "Qırmızı Ulduz" ordeni ilə təlif edilir.

23 aprel 1945-ci ildə o, yenidən SSRİ Ali baş komandanı, marşal İ.V.Stalinin əmrinə əsasən təşəkkür alır və SSRİ Ali Soveti Rəyasət heyətinin qərarına əsasən 09 iyun 1945-ci ildə "Berlinin alınması" uğrunda medalla təltif edilir.

1945-ci il aprelin 25-də SSRİ Ali Soveti Rəyasət heyətinin qərarına əsasən SSRİ Ali baş komandanı, marşal İ.V.Stalinin əmri ilə Mövlan Əliyev təşəkkür alır və 09 may 1945-ci ildə "Almaniya üzərində qələbə" uğrunda medalla təltif edilir.

Qeyd edim ki, ümumilikdə, qvardiyaçı mayor M. Əliyev və onun döyüşçüləri bütün döyüşlərdə göstərdikləri şücaətlərə görə Generalissimus Stalindən 12 dəfə təşəkkür məktubu almışlar.

İkinci Dünya müharibəsi çox böyük miqyas alaraq, demək olar ki, bir çox dünya dövlətlərini əhatə etmişdi. 1945-ci il sentyabrın 2-də qələbə ilə başa çatan bu dəhşətli müharibə 10 milyonlarla insanın ölümünə səbəb olmuşdu. Belə ki, döyüş meydanlarında, əsirlikdə, düşərgələrdə 27 milyon hərbi xidmətçi həlak olmuş, 25 milyona yaxın dinc əhalinin həyatına son qoyulmuşdu.

Böyük Vətən müharibəsi illərində neftçilərimizin fədakar əməyi nəticəsində Azərbaycanın neft tarixində ən çox 23,5 milyon ton neft istehsal olundu ki, bu da SSRİ-də istehsal olunan neftin 71,4%-ni təşkil edirdi. Ümumiyyətlə, müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları vermişdilər. Tam əminliklə demək olar ki, Bakı nefti faşizm üzərində qələbə qazanılmasında əsas amillərdən biri idi. Bunu demək kifayətdir ki, hər beş təyyarənin, hər beş tankın, hər beş avtomobilin dördü Bakı benzini ilə işləyirdi. İkinci Dünya Müharibəsi məhz sovet xalqının və Azərbaycan xalqının fədakarlığı sayəsində, cəsarətli xalq olduğunu bir daha sübut etdi və bütün Avropanı ağuşuna almış alman faşizmi 1945-ci ildə öz yuvasındaca məhv edildi.

Həmin illərdə qvardiyaçı mayor Mövlan Əliyevi Almaniyada qazanılmış qələbənin keşiyində durmaq üçün ilk azərbaycanlı olaraq 1945-ci ilin fevralından Bilzen şəhərinin Şverin rayonunun hərbi komendantı təyin edirlər. Ailəsi ilə birlikdə Almaniyada yaşayan Mövlan Əliyev sonrakı illərdə Maqdeburq mahalının Blankerburq şəhərində kənd təsərrüfatı üzrə hərbi komendantın köməkçisi və 1946-1947-ci illərdə Veniqerod, Maqdeburq mahalının Hərbi Komandanlığında plan-uçot şöbəsinin müdiri işləyir.

Üç il yüksək vəzifələrdə çalışdığına baxmayaraq, Vətən həsrəti onu rahat buraxmırdı. Elə məhz bu səbəbdən də o, 3 ildən sonra öz doğma Vətəninə qayıdır və yenidən neft sahəsində işləməyə başlayır. Mövlan Əliyev 1947-ci il avqustun 15-də Bakı şəhər İcra komitəsinə direktor müavini təyin edilir. 1951-ci ildə "Əməyə görə" medal ilə təltif olunur.

M.Əliyev 1948-1952-ci illərdə baş mühəndis vəzifəsindən tutmuş buruq ustası, sex rəisi, sahə müdiri, mədən müdiri vəzifələrində çalışır. O, Abşeronun bir çox səfalı və gözəl yerlərində neft sahəsində çalışıb. (Duvanny, Qobu, Novxanı, Corat, Bilgəh, Fatmayı və s.). Son iş yeri Qum adası olur və sonra da o, təqaüdə çıxır.

1955-ci il fevralın 15-də isə kənd əhalisinin istəyi ilə Əmircanda Kənd Soveti sədrinin müavini seçilir. Kənd sovetinin müavini işlədiyi dövrlərdə o, insanlarla görüşüb onların problemlərini həll etməyə çalışırdı. Məhz buna görə də o, dəfələrlə yerli sovetlərə deputat seçilmişdir. Respublikamızın müxtəlif bölgələrindən gələn gənclərə qayğı ilə yanaşar, onları neft mədənlərində işlə və evlə təmin edərdi.

1965-ci ilin mayında M. Əliyev SSRİ Ali Sovetinin Rəyasət heyətinin qərarına əsasən "Böyük Vətən Müharibəsinin 20 illiyi" ilə əlaqədar medalla, avqustda isə müharibədən sonra əmək cəbhəsində qüsursuz çalışdığına görə qabaqcıl işçi kimi medalla təltif edilir.

1967-ci ilin dekabrında isə o, SSRİ Ali Soveti Rəyasət heyətinin qərarı ilə "Silahlı Qüvvələrin 50 illiyi" ilə əlaqədar medalla, 1970-ci ildə "V. İ. Leninin anadan olmasının 100 illik yubileyi münasibətilə şanlı əməyə görə" medalı ilə və "Böyük Vətən Müharibəsinin 25 illiyi" medalı ilə təltif edilir.

Hər ilin 9 May Qələbə günündə Mövlan Əliyev bir çox kənd və şəhər məktəblərində keçirilən tədbirlərə hər zaman dəvət alar, həvəslə Böyük Vətən müharibəsi illərindən danışar, xatirələrini onlarla bölüşər, həmçinin ordu sıralarına yazılan əsgərləri yola salıb onlara mərd olmağı və düşmənə baş əyməməyi nəsihət edərdi.

Mayor Əliyev Mövlan Məzahir oğlu 1971-ci il oktyabrın 12-də 62 yaşında ürək xəstəliyindən vəfat edir.

Əmircan kəndinin camaatı onun xeyirxah əməllərindən hələ də danışır!

Qvardiyaçı mayor Əliyev Mövlanın 3 oğul, 5 qız övladı var, onun adının daşıyıcısı olan nəvəsi Əliyev Mövlan

Zakir oğlu baba yolu ilə gedir. O, Neft Akademiyasını bitirdikdən sonra Qum adası neft-qaz çıxarma idarəsində neftçıxarma üzrə operator vəzifəsindən Quyuların Əsaslı Təmir sexində buruq ustası vəzifəsinə kimi qalxıb öz işini layiqincə davam etdirir.

Yəqin, hər birinizə maraqlıdır ki, haqqında yazdığım bu böyük insan kimdir?

Vətən üçün məğlubedilməz, nümunəvi QVARDİYAÇI MAYOR, Təcrübəli NEFTÇİ,

Ailəsi üçün mehriban, qayğıkeş ATA və BABA. Əmircan kənd əhalisi üçün XEYİRXAH İNSAN. Mənim üçün isə onu görmədiyimə görə təəssüf hissi keçirdiyim sadəcə BABAM!

***Lamiyə NƏBİYEVA***
















**HƏMYERLİLƏRƏ ABİDƏ**

Orconikidze rayonundakı Əmircan kəndində 1941-1945-ci illərdə Sovet Vətənini qorumaq uğrunda döyüşlərdə həlak olmuş yerli sakinlərə xatirə abidəsi açılmışdır.

1941-ci ildə kəndin yüzlərlə sakini doğma evlərini tərk edərək sosialist Vətənini düşmənlərdən qorumaq üçün cəbhəyə yola düşdü. Onlardan bir çoxu Kerçdə və Moskva yaxınlığında Kaxissberqdə və Ukrayna çöllərində düşmən gülləsi ilə qarşılaşdıqları yerlərdə həmişəlik uyumaqdadır.

Bir vaxtlar onlar bu meydandan cəbhəyə yola düşmüşdülər. İndi oktyabrın son günlərinindən birində isə Əmircan kəndinin yüzlərlə əhalisi buraya toplaşaraq həmyerlilərini qoyulan abidənin ətrafına toplaşır.

Abidə tamamilə əmircanlılardan könüllü surətdə verdikləri vəsait hesabına ucaldılmışdır.

Budur abidənin açılışı günü gəlib çatmışdır. Meydana qocaman kommunistlər, müharibə veteranları, bayraqlı pionerlər, neftçilər, qəhrəmanların qohumları toplaşmışlar. Azərbaycan KP Orconikidze PK katibi Elxan Kərimov qırmızı lenti kəsir. 26 Bakı Komissarının movzoleyindən yandırılmış məşəli əbədi məşəl alovlanır. Heykəlin üzərindən örtük açılır. Əmircanlılar öz həmyerlilərinin - bu günkü dinc həyatını təmin edənlərin xatirəsini yad etmək üçün abidəyə yaxınlaşırlar.

***«Komsomolskaya pravda» qəzeti.***
***"Bakı" qəzeti 1983 oktyabr 27***

Sovet xalqı böyük Vətən müharibəsini qalibiyyətlə qurtarıb. Kommunist partiyasının rəhbərliyi altında xalq təsərrüfatının bərpasına başladı.

Azərbaycan ərazisində hərbi əməliyyat getməsə də, müharibə xalq təsərrüfatına böyük yara vurmuşdu. Neft sənayesində qazma işi tamam dayandırılmışdı, yeni quyular qazılmırdı. Köhnə quyular sıradan çıxırdı. Avadanlıq köhnəlir, alət çatmır, ixtisaslı kadrlar çatışmır və sairə bu səbəblərə görə «1945-ci ildə çıxarılan neftin miq-



# Пламя Амираджан

***Рассказ о том, как в азербайджанском селе воздвигли памятник не вернувшимся с войны землякам.***

ЖАРКИМ летом 1945 года по узким, кривым улочкам азербайджанского селения Амираджаны шел молодой старшина. Никто не узнавал его. И в этом не было ничего удивительного. Он ушел на фронт добровольцем с тремя тысячами земляков, едва успев отметить шестнадцатилетие. Кто бы узнал теперь в механике-водителе танка веселого и быстрого Али? Если б даже нашелся такой человек, то и он не поверил бы себе: в Амираджанах Али Рза Алиева считали погибшим.

В одном из боев загорелся его танк. Повинуясь команде, Али выбросился через десантный люк... Раненого водителя подобрала пехота. Потом госпиталь, другая часть. А боевые товарищи видели, как горел танк Алиева, искали его после боя и, не найдя ни среди живых, ни среди мертвых, решили: сгорел...

Так в Амираджаны пришла еще одна «похоронка».

Великое счастье, когда судьба объявляет недействительной хотя бы одну «похоронку». Это счастье, такое же большое, как и редкое, вошло в дом Алиевых с возвращением сына. Другим домам возвращение не было суждено.

Ханниши Абдулла-оглы Бунятов, член президиума республиканского комитета ветеранов войны, сказал мне:

— Плох тот народ, который не чтит своих предков. Но дважды плох тот народ, который не чтит своих героев.

Этой весной в Амираджанах была создана секция ветеранов войны. Ветераны предложили построить памятник погибшим землякам. Построить своими руками, на свои средства.

Со стройки начинался теперь рабочий день Ханниши Бунятова — он был автором проекта, председателя поссовета Саттара Керимова, парторга, гвардии майора запаса Мовлана Алиева.

Тянулся ввысь обелиск. Если кончался цемент, кто-нибудь приносил куль своего, не хватало песку — утром на площадке обнаруживали целую гору свежего.

У народного художника Азербайджана Саттара Бахлулзаде, как всегда, было много работы. Но он все отложил в сторону: «Я ведь тоже амираджанец».

Художник предложил украсить обелиск чеканными украшениями. Эскизы по его темам взялся выполнить студент художественного училища Гайюр Юнусов.

Когда потребовался мрамор, заведующий библиотекой Агаэули Мирзабаба-оглы Агаев сам погрузил, привез в Амираджаны и разгрузил десять кубометров мраморной плитки. Ему потом здорово досталось от товарищей: бывший военный моряк Агаев потерял под Севастополем обе ноги. Но никто не решился помешать ветерану, когда он целый день, сидя на своих протезах, подгонял плитки к кайме постамента...

...Тот день выдался сумрачным. Лил дождь, правда, не сильный, но беспрерывный.

Все селение пришло к памятнику. Ждали факельщиков, отправившихся в Баку к могиле 26 бакинских комиссаров. И когда они появились, принеся с собой жаркую частицу Вечного огня, с обелиска медленно, словно нехотя расставаясь с мрамором, сползло белое покрывало.

Обнажилась медь чеканки — орден Отечественной войны, барельеф солдата, застывшего с автоматом на фоне Кавказских гор, и несколько слов по-азербайджански: «Воинам-амираджанцам, павшим в боях...»

Летом у памятников всегда живые цветы, зимой — венки. Женщины псковских деревень говорили нам у братских могил: «Здесь спят наши дети». На памятниках я видел имена — русские и украинские, грузинские и татарские, белорусские, казахские, азербайджанские. Как знать, может, там, в глубине России, остался навсегда кто-то из этого азербайджанского поселка.

...По вечерам в Амираджаны врывается ветер Каспия. Промчавшись по узким улицам, стиснутый стенами домов, он налетает на пламя Вечного огня. И, кажется, еще сильнее раздувает это пламя.

**Б. БАРЫШНИКОВ.**
**(Наш спец. корр.).**
**Амираджаны,**
**Азербайджанская ССР.**

darı 2,5 milyon ton təşkil edirdi. 1941-ci ildə 23,5 milyon ton idi».[1] Neft hasilatı respublikada yarı azalmış idi.

12 mart 1946-ci ildə SSRİ I sessiyasında 5 illik plan qəbul etdi.

Beşillik planın vaxtından qabaq yerinə yetirilməsində kəndin qabaqcıl staxanovçularının rolu az olmamışdır. Əzizbəyovneftin 3-cü mədəninin müdiri Hacıyev Ağahüseyn, kəndin tikiş artelindən Mirzəyeva Püstə, Nərgiz Hilal qızı, geofizika idarəsinin qabaqcıl staxanovçusu Əliyev İsmayıl, Dzerjinski adına zavodun qabaqcıl staxanovçusu, ixtiraçı Kərim Baba oğlu və Babayev Mustafa, yüzlərcə başqaları fədakar əməyi ilə elimizin şöhrətini, vətənimizin qüdrətini daha da inkişaf etdirmişlər.

Neft sənayesinin inkişafında yeni-yeni metodlardan istifadə etmək, neft hasilatının artmasına səbəb oldu.

Dördüncü beşilliyin nailiyyətlərindən biri də dənizdə «Neft daşları» neft mədəninin açılmasıdır.

Cəsur dəniz neftçilərindən Sadam Məmmədəli oğlu, Şamil Əmir oğlu Azərbaycan SSR Fəxri neftçisi, Mirzə Məmmədovu, Xanoğlan Bayramovu, Zeynalov Şökəti və başqalarını göstərmək olar. Məmmədov Mirzə Böyük Vətən müharibəsi veteranı 1970-ci ildən SSRİ-nin fəxri neftçisi və ÜİLKGİ MK «Gənclərin tərbiyəçisi» nişanı ilə təltif edilmişdir.

Vətən X. O. Bayramovun əməyini yüksək qiymətləndirmişdir. O, Sosialist Əməyi Qəhrəmanı, Lenin ordeni, Qırmızı Əmək bayrağı ordeni, neçə-neçə medallar və əlaçı nişanları, 5 fəxri fərman ilə təltif edilmişdir. X. O. Bayramov Az.KP-nın 28-29-30-cu qurultaylarına nümayəndə seçilmişdir.

1958-ci ildə zərbəçi kommunist əməyi briqadası adı almaq uğrunda sosializm yarışı başladı. Respublikada bu təşəbbüsə qoşulanlardan Əmircanlılardan Yusif Fərzəliyev və Mirzə Məmmədov olmuşdur.

Səttar Bəhlulzadənin şəxsi kolleksiyalarının birində qorunan qiymət kitabçası ilə tanışlıq onun Moskvadakı təhsil illərinə duyulası işıq saldı desək, yanılmarıq. 404 saylı bu sənədə əsasən demək olar ki, gənc rəssam 1934-1935-ci dərs ilində institutun birinci kurs tələbələri sırasına qəbul olunub və zaçot-imtahanlarda iştirak edib. Bu vaxta qədər bu təhsilin 1933-cü ildən başlandığı qeyd olunub. Bizcə, S.Bəhlulzadə bir il bu nufuzlu ali məktəbin hazırlıq kursunda oxuyub. Sənəddən həm də aydın olur ki, bu heç də gənc Səttara məhz 1934-cü ildə verilən sənəd deyil. Ola bilsin ki, rəssam əvvəlkini nə vaxtsa itirib və yenisini almağa məcbur olub. Odur ki, kitabça 1934-1940-cı illərdə aldığı qiymətlər göstərilsə də, onların qarşısında müəllim imzaları yoxdur. Sadəcə fənnin adı, tarix (ay və il) və qiymət yazılıb. 1934-cü ildən tələbə adını qazanmış Səttar Bəhlulzadənin qiymət kitabçasının birinci səhfəsindəki fotoşəklinin yanında SSRİ Xalq Komissarları Sovetinin və ÜK(b)P MK-nın "Ali təhsil ocaqlarında iş və ali məktəblərə rəhbərlik haqqında" 23.06.1936-cı il tarixli qərarından çıxarışın verilməsi də göstərir ki, sənəd sonradan təkrar yazılıb. 1934-1940-cı illərdə qırx səkkiz dəfə bilik sınağından keçən Səttarın cəmisi üç dəfə "əla" alması müəyyən mənada diqqətimizi çəkdi. Belə ki, o, bu "beş"ləri "Anatomiya"

və"İncəsənət tarixi", bir də "Marksizm-leninizmin əsasları" fənlərindən alıb... Əslində bu beşlərin hər biri Səttar barəsində müxtəlif fikirlərdə olanlar üçün kifayət qədər düşündürücüdür. Xüsusilə də rəssamın mənzərə janrına meylliliyini onun anatomiyanı zəif bilməsi ilə əlaqələndirənlər üçün... Elə Səttarın kitaba daxil edilən natura rəsmləri və çoxsaylı qrafik əsərləri də onun rəsm etməyə kifayət qədər yiyələndiyini əyani nümayiş etdirir...

Sonralar Səttar Moskvadakı təhsil illərini xatırlamaqdan usanmazdı, dövrünün görkəmli qrafikləri olan V.A.-Favorski, P.Y.Pavlinov, K.N.İstomin və L.A.Brunidən sənətin bu növünün incəliklərinə yiyələndiyini fəxrlə söyləyərdi. Doğrudan da, Səttar bu görkəmli sənətkarlardan , xüsusilə də bilavasitə emalatxanasında çalışdığı V.A.Favorskidən qrafikanın sayagəlməz texniki və bədii ifadə vasitələrini öyrənə bilib və bunu bütün yaradıcılığı boyu çəkdiyi qrafik əsərlərin əlçatmaz bədii məziyyətləri ilə təsdiqləyib. Lakin elə təhsil illərində Səttarın həyatında çox önəmli bir hadisə baş verir. Özü də hiss etmədən onun qeyri-adi rəng duyumunu müəlimləri görür və buna biganə qalmırlar. Krımda keçirilən yay təcrübəsi zamanı Səttarın uğurlu rəngkarlıq etüdlərini görən məşhur rəssam Q.M.Şeqal ona rəngkarlıq fakültəsinə keçməyi təklif edir və o da tərəddüd etmədən buna razılıq verir. Beləliklə, Səttar Bəhlulzada üçüncü kursdan başlayaraq institutda Q.M.Şeqalın rəhbərlik etdiyi emalatxanada təhsilini davam etdirir, realist sənət ənənələrini dərindən mənimsəyir. Gənc Səttarın həmin illərdəki uğurlarını yağlı boya ilə çəkdiyi "Naturaçı qız" (1939) və "Qaraçı qadın" (1939) etüdləri də təsdiqləyir. O, müəllimin tövsiyyəsi ilə tez-tez A.S.Puşkin adına təsviri sənət muzeyinə gedər, orada nümayiş olunan xarici ölkə rəssamlarının çəkdikləri mənzərələrə baxar, müxtəlif janrlarda işlənmiş əsərlərin surətlərini çıxarardı. Rəssam sağlığında söyləyərdi ki, belə surətlərin arasında özündə lirizmi yaşadan tablolar daha çox idi. Təsadüfi deyil ki, Səttar Bəhlulzadənin mənzərə yaradıcılığının ilk dövrlərində, yəni Quba mənzərələrində xüsusilə də "Qudyalçay vadisi", "Qızbənövşəyə gedən yol", "Qudyalçay sahili"əsərlərində bu təsirin müsbət cəhətləri ilə rastlaşırıq. Moskvada bir-birindən maraqlı təhsil illərinin sonu hiss olunmadan yaxınlaşır. Səttar Bəhlulzadə diplom işi olaraq Babək hərəkatı mövzusunu seçir. Mövzu ilə əlaqədar material toplamaq üçün 1939-cu ildə Bakıya qayıdır. Mövzusunun kifayət qədər təsirli və əhatəli olması qarşılığında o, bir yox, iki əsər yaradır. Onlardan birincisi "Babək üsyanı" adlanır və hazırda əsər Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılır. İkinci əsər - "Bəzz qalasının müdafiəsi" adlanan tablo da həmin muzeyin kolleksiyasındadır. Bu əsərlərdə gənc rəssam öz qarşısına böyük sərkərdə Babəkin işğalçılara qarşı apardığı mübarizəni tərənnüm etmək məqsədi qoymuşdur. Bu çoxfüqurlu kompozisiyalar barəsində zamanında o qədərdə təqdiredici fikirlər söylənilməsə də, qədim və keşməkeşli tariximizin bədiiləşdirilməsi istiqamətində həmin tabloların yaradılması gənc rəssamın cəsarətinin və vətənpərvərliyinin ifadəsi kimi dəyərləndirilməlidir. Bütün bunlarla yanaşı demək lazımdır ki, hər iki tablo ölçüsünə görə bir o qədər kiçik görünməsələr də, kompozisiya biçiminə və personajların çoxluğuna görə yalnız uğurlu hazırlıq işi-etüd xarakteri daşıyır. "Bəzz qalasının müdafiəsi" (100x200 sm) tablosunda yadelli işğalçılara qarşı mübarizəyə qalxan xürrəmilərin çoxsaylı ümumiləşdirilmiş füqurların müdafiənin uğurlu olması təəssüratını yaradır. Digər tablodakı (65x112 sm) süjeti Babakin fiquru ətrafında cəmləşən döyüşçülərin ağır məqamda əqidə dostlarını həlledici döyüşə səsləyən xalq qəhrəmanının müraciətini dinləməsi təşkil edir. Ancaq birinci tabloda olduğu kimi, burada da kompozisiya döyüşçülərin qələbə ruhunu və məqamın gərginliyini göstərməyə yönəldiyindən bədii ümumiləşdirilmələrlə həll olunub. Hadisəyə uzaqdan göz qoyan rəssam təbii ki, bu səbəbdən Babəkin və döyüşçülərin psixoloji yaşantılarını qabarıq göstərə bilməyib. O, yaşanan gərginliyi əsərin koloriti ilə göstərməyə çalışıb. Hər iki çox fiqurlu əsərdəki arxa planı təşkil edən və ilk baxışdan diqqət çəkməyən müxtəlif ovqatlı mənzərələri bu gün duyulası zaman distansiyasından Səttar Bəhlulzadənin mənzərəçi istedadının ilk işartıları hesab etmək olar. Bu iki tablonun rəssamın diplom işinin daha tutumlu-yekun variantı olduğunu birmənalı söyləmək çətindir. Ehtimal etmək olr ki, gənc rəssam bu iş bir qədər də etüd xarakterli əsərlərin əsasında diplom işinin yekun variantını da işləyə bilərdi. Ancaq, bəzən diplom işlərinin etüd səpgili olduğunu və rəssamın yenidən bu mövzuya qayıtmamasını nəzərə almalı olsaq "Babək üsyanı" əsərinin də yekun mahiyyətli olduğunu söyləyə bilərik. Elə bu tabloların müxtəlif sərgilərdə nümayiş etdi-



*Atası Bəhlul Bəhlulzadə* *Anası Hökumə xanım* *Bacısı Bikəxanım*

*Bacısı Pərzad xanım* *Səttar Bəhlulzadə* *Qardaşı Fəttah Bəhlulzadə*



rilməsi də əldə olunan nəticədən başqalarından fərqli olaraq rəssamın özünün razı qaldığını göstərir.

Sərbəst yaradıcılıq yoluna qədəm qoymağa hazırlaşan Səttarın elə ilk sərlərində vətənpərvərlik nümunəsi nümayiş etdirməsinin nəticəsi bu oldu ki, Azərbaycan təsviri sənəti öz torpağını ürəkdən sevən, onun keçmişini və bu gününü tablolarında vəsf etməyə qüdrəti çatan bir sənətkar qazandı. Səttarın başqalarından üstünlüyünü görmək üçün ondan sonra Bakıdan kənarda təhsil alanların əksəriyyətinin işlədikləri diplom işlərinin mövzularına diqqət yetirmək kifayət edər.

Gənc rəssam diplom işini tamamlasa da, onu müdafiə edə bilmədi. 1941-ci ildən başlanan Böyük Vətən müharibəsi onu Bakıda qalmağa məcbur etdi. Ancaq müharibə qurtarandan sonra dəfələrlə Moskvadan dəvət gəlsə də o, diplom müdafiəsinə getmədi. Səbəbini soruşanlara da "Məgər diplomsuz rəssam olmur?" cavabını verərdi. Səttar çəkdiyi diplom işini müəllimləri qarşısına çıxarıb onu rəsmi qaydada müdafiə etməsə də, 1940-cı ildə Bakıda və Moskvada Azərbaycanda sovet hakimiyyəti qurulmasının 20 illiyinə həsr olunmuş yubiley sərgilərində geniş ictimaiyyətə təqdim etdi. Elə müəllimləri də Moskva sərgisində tələbələrinin hesabat işini gördülər və müsbət dəyərləndirdilər. Bir il sonra (1941) isə o, SSRİ Rəssamlar İttifaqına üzv qəbul olundu.



*Səttar Bəhlulzadə tələbəlik illərində. Moskva*

Müharibə illərində o, vaxtilə təhsil aldığı rəssamlıq texnikumunda dərs dedi. Müharibədən sonra pedoqoji fəaliyyətinə bidəfəlik son qoydu. Bunun nə ilə bağlı olduğunu soruşanda əsl müəllim olmağın çətinliyini vurğulamaqla, bu işin onu çox yorduğunu dilə gətirərdi. Görünür, müəllimliyə ürəkdən bağlanmağının nəticəsidir ki, o, müharibə illərində fərdi yaradıcılıqla duyulası dərəcədə az məşğul olub. Elə sonrakı dövrlərdən kifayət qədər məhsuldar işləyən rəssamın "Qubalı Fətəli xan" (1945) və "Xəttat Mirəli Təbrizinin portreti" (1945) tablolarını yaratması da bunun təsdiqidir. Səttar Bəhlulzadə yaradıcılığının tədqiqatçıları rəssamın müharibə illərində "Azərbaycan xalqının qəhrəman oğulları" adlı tarixi mövzuda əsərlər çəkdiyini qeyd etsələrdə, nə muzeylərin saxlanclarında, nə şəxsi kolleksiyalarda, nə də ki rəssamın öz arxivində bu adda heç bir əsər aşkarlanmayıb. Amma bloknotlarında vətənpərvərlik ruhlu bəzi qeydlərə rast gəlmək mümkündür. Buradakı "Ölüm kabusuna yol verə bilmərik", "Vətənimin keşiyində", "Biz vətən yolunda həlak olduq" və "Gülüstan-sülhüstan vətənim" kimi ifadələrin mövcudluğu rəssamın hansısa kompozisiyalar üzərində düşündüyündən xəbər verir. Onun yaradıcılıq metodunda əvvəlcə fikrin-sözün, ardınca ilk eskizlərin, sonda isə bitkin kompozisiyanın yaradılması ardıcıllığının mövcudluğu qarşılığında "Azərbaycan xalqının qəhrəman oğulları" mövzusunda əsərlərin yarandığını da ən azı ehtimal etmək olar. Elə təkcə Fətəli xan mövzusu ilə bağlı üzə çıxarılan çoxsaylı eskizlər və rəngli etüdlər göstərir ki, rəssam Quba xanının həyatına sujetli tablo həsr etmək istəyib. Bəlkə də, belə bir əsər çəkilib, amma hələlik onun yerini dəqiqləşdirmək mümkün olmayıb. Onun Fətəli xanı əks etdirən əsəri isə Azərbaycan Dövlət İncəsənət Muzeyinin saxlancındadır. Şaquli kompozisiyada təntənəli geyimdə görüntüyə gətirilən Fətəli xan ayaq üstə, inamlı görkəmdə təsvir olunub. XVIII əsrdə parçalanmış şəkildə olan feodal Azərbaycan xanlıqlarının vahid dövlətdə birləşdirilməsinə çalışan dövlət xadimi düşüncəli, baxışları naməlum istiqamətə yönəlidir. Tirmə ilə örtülmüş mizin üzərindəki əlyazmaları və Fətəli xanın çöhrəsini işıqlandıran mənzərə az atributlu kompozisiyanın başlıca köməkçi komponentləridir. Bu portretdə böyük arzularla yaşayan xanın psixoloji yaşantılarına vətənpərvərlik duyğularına arxa planda görünən Qubanın rahiyəli bahar mənzərəsi zirvəsi qarlı Şahdağın görüntüsünün kifayət qədər yardımçı olması du-



ЗАЧЕТНАЯ КНИЖКА № 604



*Qubalı Fətəli xan, 1945-ci il Azərbaycan Dövlət İncəsənət Muzeyi*



*"Qubalı Fətəli xan" əsərinin eskizi. 1944-cü il. "E"-nin kolleksiyası*

yulandır. Həm bu, həm də elə həmin yaratdığı "Xəttar Mirəli Təbrizi" əsərlərində rəssamın kompozisiyaya daxil etdiyi bahar mənzərəsi onun mənzərəçi istedadının yüksələn xətt boyunca artdığını nümayiş etdirir. Bəzən bu iki portretdə psixologizmin azlığını rəssama irad tutan və hər şeyə ifrat gerçəkli, "soalist realizmi" bədii prinsipi çərçivəsindən baxanlara xatırlatmaq lazımdır ki, həmin illərdə daha çox milli bədii ənənələrə müasir görkəm vermək arzusunda olan Səttarın obrazların bədii-plastik şərhinə münasibəti də tamam fərqli olmuşdur. Sadəcə, o, doğma mövzuya elə doğma da görünə biləcək forma-biçimdən imtina edə bilməzdi. Axı niyə də etməli idi? Rəssam hələ 30-cu illərdə (S.Bəhlulzadənin tələbəlik illəri nəzərdə tutulur) özündən bir qədər yaşlı olanların və yaşıdlarının miniatür ənənələrinə müraciətlərini ideoloqların təpgisi ilə qarşılandıqlarından xəbərdar idi, olubkeçənləri də unutmamışdır. Odur ki, elədiklərinə görə "Sağ ol!" eşitməyəcəyinə əmin ola-ola, yenidən Azərbaycan rəssamlarının öz əski bədii ənənələri unutmadığını sovet gerçəkliyində sərgiləməkdən çəkinməmişdir. Bu mənada rəssamın dekorativliyə və geniş ümumiləşdirmələrə meyl etməsi bəzilərinin hesab etdiyi kimi "zəiflik" yox, sənətkar cəsarəti və milli ənənələri dirçəltməyə meylin göstəricisidir. Özü də hər iki portretə daxil edilmiş mənzərələr bədii-plastik həllinə görə rəssamın sonrakı bütün dövrlərdə yaratdıqlarından fərqlidir, özünəməxsusdur.



*Xəttat Mirəli Təbrizi. 1945-ci il. N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi*

Müəyyən mənada "Qubalı Fətəli xan"əsərinin ardınca onun "Xəttat Mirəli Təbrizi"(1945) tablosunu işləməsi elə rəssamın "Azərbaycan xalqının qəhrəman oğulları" silsiləsinin reallaşdırılması kimi də qəbul etmək olar. Belə ki, məhz ağır müharibə illərində azərbaycanlı rəssamların tarixi keçmişə, ötən əsrin şanlı qəhrəmanlıq səhifələrinə müraciət etmələri, bununla da döyüşçülərdə qələbəyə inam, arxa cəbhədəkilərə qürur və vətənpərvərlik hissləri aşılamağa çalışmaları faktları (T.Tağıyev. "Koroğlu", 1942;M.Abdullayev, B.Mirzəzadə, S.Şərifzadə, "Böyük Babəkin" 1942; S.Şərifzadə, "Babək" 1944; F.Əbdürrəhmanov. "Koroğlu", 1942; C.Qaryağdı. "Fərhad qaya çaparkən") kifayət qədərdir. Belə əsərlərin işlənilməsi təqdir olunası fakt sayılsa da, onların bilavasitə rəsmi sifarişlə yaradıldığı və ideoloji psixoloji mübarizədə vasitə rolu oynadığı da istisna deyil. Elə Xəttat Mirəli Təbrizinin obrazı da o vaxtlar Nizami muzeyinin sifarişi ilə çəkilmişdir və hazırda əsər həmin muzeyin kolleksiyasındadır... Tabloda başında sarımtıl çalma, əynində sürmeyi qurşaqlı uzunqol yaşıl köynək, üstü zərli qırmızı arxalıq olan, saçları boynunun ardına tökülmüş xəttat xalçanın üstündə oturmuş və yazı ilə məşğuldur. Qarşısındakı üstü naxışlı rəhil, kiçik kətilin üstündəki rəng qabı və fincan kompozisyanın rəssam düşüncələrinin açılmasına xidmət edən əsas atributlarıdır...

Əsəri bütünlükdə rəssamın xalqının şərəfli tarixinə məhəbbətinin ifadəsi, tarixi janrda söz demək istəyinin əksi hesab etmək olar. Ancaq hər şey birdən-birə dəyişdi. Rəssam doğma Abşeron motivlərini əks etdirən və çox da böyük ölçülü olmayan əsərlərin ("Sübh çağı, "Maştağaya yol", "Xəzərin axşamı", "Buzovnaneft"-hamısı 1947-ci il) ardınca çoxtutumlu sayıla biləcək "Atəşfəşanlıq"(1947) adlı mənzərəsini yaradır. Rəssam etiraf edir ki, məhz bu əsərində ilk dəfə olaraq öz duyğularını incəliyinə qədər kətana köçürə bilmişdi. Bunu sənət xiridarları, həmkarları da hiss etmiş və rəssamı bu yaradıcılıq uğuru münasibətilə təbrik etmişdilər. Onları ilk növbədə əsərin yadda qalan rəng həlli heyran etmişdi. Dəniz üzərində "Üzən" yelkənlərin arxasında şəhərin əzəmətli silueti, rəngarəng işıqlara qərq olmuş gecənin poetik təsvirinin oyatdığı lirik ovqat kifayət qədər duyğulandırıcı idi. Əsərin tuşla çəkilmiş hazırlıq eskizlərindəki şəkilaltı yazıya əsasən demək olar ki, rəssam onu Bakıda qələbə bayramı şərəfinə keçirilən atəşfəşanlığın təəssüratı əsasında çəkmişdir. Yeri gəlmişkən qeyd edək ki, onun həm bu, həm də sonrakı illərdə yaratdığı qrafik mənzərələri rəngkarlıq əsərləri kimi heyratamiz lirik və romantik ovqatlıdırlar. Onun elə həmin il yaratdığı "Sübh çağı" əsərinin də Moskvada uğurlu nümayişi rəssamın mənzərə janrında uğur qazanacağına uğur yaratmışdır. Əllinci illərdən başlayaraq Səttar Bəhlulzadənin bu istiqamətdə axtarışları əvvəlki dövrə nisbətən daha ardıcıl, məqsədəuyğun aparılır. O, tez-tez yaradıcılıq səfərlərinə çıxır, Abşeronu başdan-ayağa gəzir, Buzovnada, Zuğulbada, Əmircanda, Bilgəhdə çoxlu etüdlər çəkir. Bu işlərində rəssamı rənglərin uyarlığı və ahəngi, eləcə də təbiətdən alınan ilk təəssuratın təravətini saxlamaq daha çox maraqlandırmışdır.



*Atəşfəşanlıq. 1947-ci il. Şəxsi kolleksiya*

1952-ci ildən isə rəssamın yaradıcılığında yeni dövr başlanır. Həmin ildə o, Azərbaycan rayonlarını gəzir, doğma yurdun təbiətinin səciyyəvi cəhətlərini dərindən öyrənməyə başlayır.

Rəssam öncə bağlar diyarı Qubada olur. Qısa müddət ərzində xeyli etüd işləyir. Az sonra isə bilavasitə naturadan çəkilmiş kiçik etüdlər irihəcmli epik mənzərə-tablolara çevrilirlər. Səttar Bəhlulzadənin Quba mənzərələrində Şahdağın möhtəşəmliyi, sakit yay axşamlarının lal sakitliyində hifz olunan gözəlliyi, bahar vaxtı yaşıl don-



*Xəzərin axşamı. 1947-ci il. N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi*

lu çəmənlərin və meyvə bağlarının incə rayihələri duyulur.

"Qudyalçay vadisi" (1953) əsərində rəssam yayın əvvəlində, Şahdağın ətəklərində qar əriyən zamanı coşğun bir axınla gedən Qudyalçayı təsvir edib. Çayın hərəkətini aydın göstərmək üçün müəllif mənzərənin kompozisiyasını bir qədər maili qurmuşdur. Getdikcə uzaqlaşan sildırım sahil mənzərənin əhatə etdiyi məsafəni duyulası dərəcədə genişləndirib. Sol tərəfdə görünən hündür yaşıl sahil, kompozisiyanın bu tərəfini çox diqqətlə işlənmiş sağ sahillə müvazinətdə saxlayır. Mənzərinin ürəkaçan gümüşü-yaşıl koloriti rəssamın rəng axtarışlarının nəticəsi kimi qiymətləndirilməlidir.

Bu əsərdən əlavə, Səttar Bəhlulzadə Qubada gördüklərini ümumiləşdirərək "Qudyalçay sahili" (1953), "Qızbənövşəyə gedən yol" (1953) və s. tablolarını yaradır.

Yeni lövhələrin müəllifinin bədii ifadə tərzi, təsvir dili göstərir ki, o, insanın doğma təbiətlə, ana diyarla bağlılığını vəsf etmək istəyi ilə yaşayıb yaradır. Təzadların qarşıdurmasından alınan qüvvətli emosional effekt qarlı zirvələri, göylərə baş vuran Şahdağın əzəmətli siluet təsvirlərinin Qızbənövşə vadisinin zərif öytüyü ilə, qaynaqlarını dağ döşündən götürən Qudyalçayın sakit axan suları ilə çıçəklənən alma bağlarının ürəkaçan mənzərəsinin müqayisəsindən yaranır. Bu isə öz növbəsində, aramsız davam edən axtarışların və nəhayətsiz düşüncələrin, həssas və qüdrətli duyğularının bədii təcəssümüdür.


"Qudyalçay vadisi"1954-cü ildə Zaqafqaziya rəssamlarının Moskva sərgisində, onun 1955-ci ildə Bakıda, 1956-cı ildə isə İrəvanda və Tiflisdə açılmış fərdi yaradıcılıq sərgilərində göstərilir. 1957-ci ildə həmin əsər Praqada "Sovet təsviri sənəti" sərgisində göstərilir, tamşaçılar və bədii tənqid tərəfindən yüksək qiymət alır.

Səttar Bəhlulzadənin "Qızbənövşəyə gedən yol" mənzərəsində Quba ətrafının təbiəti daha lirik səpkidə təsvir edilmişdir. Burada rəssam müşahidə zamanı aldığı təəssuratın təravətini bütünlüklə saxlaya bilmişdir. Boyaların harmoniyası, kolorit zənginliyi, bağ-bağatlı vadidən Şahdağın dümağ zirvələrinə qədər baş alıb gedən geniş sahənin bütövlükdə, vəhdətdə verilməsi təsvirə monumental,əzəmətli bir görkəm verir, tabloya epik bir həyəcan, lirik əhvali-ruhiyyə bəxş edir. Havanın açıq yaşılı-qızılı rəngi kolların tünd yaşıl rəngi ilə birlikdə həzin yay axşamının gözəlliyini çox düzgün əks etdirir.

Səttar Bəhlulzadə öz müşahidələrindən, gəzib-gördüyü yerlərdən aldığı təsiri ümumləşdirmə nəticəsində konkret obraz yaratmağa çalışır. Bu mənada onun Neft daşlarından aldığı təəssüratdan yaratdığı "Dəniz mədənləri" (1953), "Yeddi gəmi adası" (1954), "Neft daşlarında" (1955), "Estakada" (1955), "Dəniz mədənlərində" (1955), "Neft daşlarının görünüşü" (1955), "Dəniz buruqları" (1955) və s.tabloları yaddaqalandırlar. Xəzərin dərinliklərində insan əli ilə qurulmuş estakadalar və buruqlar bu əsərlərə yeni məna gətirib. Dənizin müxtəlif anlarını özündə cəmləşdirən bu tablolar həm lirikliyi, həm də dramatik gərginliyi ilə seçilirlər.

Rəssamın 1954-cü ildə Qubaya növbəti səfərindən sonra yaranmış "Yaşıl xalı", "Payız", "Qızıl axşam", "Bahar", "Meyvə bağı", "Dağlar", "Çinarlar", "Yol kənarında", "Almalar çiçəkləyəndə", "Qürub çağı" əsərləri də kompozisiya bitkinliyi, rəng həlli cəhətdən diqqəti cəlb edir.

"Qızıl axşam" tablosunda təsvir olunmuş payız mənzərəsindəki əsrarəngiz gözəllik, sarı, narıncı rənglərin vəhdətindən yaranan kolorit olduqca uğurlu və inandırıcıdır.



***Qızıl axşam 1955-ci il. ADİM***



***Bahar nəğməsi. 1957-ci il. ADİM***

"Yaşıl xalı" əsərinə xas olan lirik ovqatı şərtləndirən bədii məziyyət isə dağlar qoynunda uzanıb gedən meyvə bağının çəmənlik boyu yaratdığı ecazkar və duyğulandırıcı ritm və koloritdən yaranıb. Elə digər Quba təbiəti ilə bağlı mənzərələr də lirik və yadda qalandırlar.

1955-ci ilin yayında Səttar Bəhlulzadə respublikanın cənubuna-Lənkəran zonasına gedir. Bu yerlərin başqa bölgələrdən fərqli və bənzərsiz təbiəti çoxdan rəssamı özünə cəlb etmişdir. Büllur, zümrüdü çəmənlər, dünyanın hər yerindən uçub gələn quşların məskən saldığı kiçik göllər onun üçün yeni və maraqlı təsvir obyekti idi.

"Doğma düzənlər" (1957) adlı tablosunda rəssam sözün əsl mənasında Lənkəran torpağının, onun özünə məxsus təbiətinin monumental səpkidə umumiləşdirilmiş təsvirini verə bilmişdir. Geniş düzənliklər, yamyaşıl ağaclar, qamışlıq, bir də ki, yaşılbaş ördəklər və quşlar buranın gözəlliyini birəbeş artırmışdı.

"Lənkəranda", "Payız", "Ördəklər gölməçədə" və digər cənub ünvanlı əsərlərində rəssam subtropik zonanın payız mənzərəsini gözoxşayan rəng həlli ilə ifadə etməyə nail olmuşdur.

1955-ci ilin payızında R.Mustafayev adına Azərbaycan



*Yaşıl xan. 1954-cü il.*
*Azərbaycan Dövlət İncəsənət Muzeyi*



*Doğma düzənlər. 1957-ci il.*
*Azərbaycan Dövlət İncəsənət Muzeyi*



*Anam. 1962-ci il. Ağalı İbrahimovun kolleksiyası*



*Bacım Pərzad. 1966-cı il. Ağalı İbrahimovun kolleksiyası*



*Rəssamın anası Hökumə xanım. 1958-ci il*



*Bacısı Pərzad oğlu Rafael ilə. 1947-ci il*




*Cıdır düzü. 1956-cı il. Üzeyir Hacıbəyovun ev muzeyi*

Dövlət İncəsənət Muzeyində Səttar Bəhlulzadənin fərdi sərgisi açıldı. Sərgidə artıq görkəmli mənzərə ustası kimi tanınan rəssamın təxminən son üç il ərzində yaratdığı 180-ə qədər mənzərə və etüdləri nümayiş etdirildi. Sərgi böyük müvəffəqiyyətlə keçdi və müəllifinə ümumxalq şöhrəti gətirdi.

Əllinci illərin ortalarında rəssam Qarabağa səfərindən sonra topladığı zəngin təsvir materialı əsasında bu yerlərin bənzərsiz təbiətinə həsr olunmuş silsilə əsərlər üzərində çalışır. Şuşanın şairanə gözəlliyi rəssamın "Cıdır düzü" (1956) "Çaxmaq meşəsi" (1956), "Bahar nəğməsi" (1956), "Dağlarda yol" (1956), "Şuşa ətrafında" (1957), "Yuxarı Daşaltı" (1957), "Dumana bürünmüş dağlar" (1957) və sair əsərləri də şux boyalarlarla canlandırılmışdır.

"Cıdır düzü" və "Dumana bürünmüş dağlar" tablolarındakı buludlardan süzülüb gələn günəş şəfəqləri, gümüşügöy rənglərin ahənginin vəhdətindən yaranmış dağların təsviri güclü emosional təsir bağışlayır.



*Bağlar arasında. 1954-cü il.*
*Azərbaycan Dövlət İncəsənət Muzeyi*

Həmin mənzərələr 1957-ci ildə Moskvada və Bakıda Oktyabr inqilabının 40 illiyinə həsr olunmuş sərgilərdə müvəffəqiyyətlə nümayiş etdirildi. Artıq arxada qalan bu illərin nəticəsi olaraq onun Quba və Şuşa ünvanı mənzərələrini təbiətin daşıdığı, özünə "hopdurduğu" rənglərin bütün incəliyinə qədər rəssam tərəfindən kəşf olunması əsl sənətkarlıq nümunəsi hesab etmək olar. "Qızbənövşəyə gedən yol" (1953), "Yaşıl xalı" (1954), "Çiçəklənən torpaq" (1954), "Səhər şəfəqləri" (1955), "Bağlar arasında" (1955), "Cıdır düzü" (1956) "Əmsar bağlarında" (1959) tablolarının özünəməxsus- "əllinci illər Səttar görümü"nün təntənəsi, zirvəsi hesab etmək olar. Bu əsərlərdə rənglərin axıcılığı, keçidləri, harmoniyası və onlrın yaratdığı lirizm və romantik ruh sənətkarlıq baxımından əlçatmazdır desək, əsl həqiqəti ifadə etmiş olarıq. O, az sonra əldə etdiyi bu bədii məziyyətləri sənət xiridarlarına göstərmək qərarına gəldi.

Rəssamın 1960-cı ildə Bakı, Tiflis və İrəvan şəhərlərində açılan yeni fərdi sərgilərində də tamaşaçılar onun axırıncı beşillik axtarışlarının nəticəsi olan dünyaya özünəməxsus baxışa şahidlik etdilər.

Ötən əsrin ikinci yarısını çoxəsrlik Azərbaycan təsviri sənətinin yenidən dirçəlişi mərhələsi də hesab etmək olar. Belə ki, həmin dövrdə yaşayıb-yaradanların sırasında qibtə ediləsi sənətkarlar az deyildir. Naturanı kölə kimi təkrarlamağı tövsiyyə edən "sosialist realizmi" bədii prinsipinə mahiyyətcə "əlvida" deyənlərin sırasında müxtəlif nəsillərin nümayəndəsi vardı. Həbsxana və sürgün həyatını başa vuran Ələkbər Rzaquliyev, "formaca milli, məzmunca sosialist" göstərişinə "öz yeni realizmi" ilə cavab verən



*Cıdır düzü. Etüd. 1956-cı il.*
*Şəxsi kolleksiya*




*Şuşa ətrafında. 1957-ci il.*
*İlqar Qurbanovun kolleksiyası*




*Qarabağ mənzərəsi. 1957-ci il.*
*İlqar Qurbanovun kolleksiyası*




*Araqvi. 1960-cı il.*
*Şəxsi kolleksiyası*




*Gülüstan. 1965-ci il.*
*Azərbaycan Dövlət İncəsənət Muzeyi*




*Bozdağın ətəklərində. 1965-ci il.*
*Azərbaycan Dövlət İncəsənət Muzeyi*



*Tut ağacı. 1965-ci il. Azərbaycan Dövlət İncəsənət Muzeyi*




*Abşeronun tacı. 1968-ci il. Azərbaycan Dövlət İncəsənət Muzeyi*



*Novxanı bağlarında. 1968-ci il.*
*Azərbaycan Dövlət İncəsənət Muzeyi*

Səttar Bəhlulzadə, "sığallı-üstülü" rəngkarlığa sərt görüm tərzi gətirən Tahir Salahov, dünyaya milli folklor qəhrəmanlarının gözü ilə baxan Mircavad Mircavadov, Toğrul Nərimanbəyov və Rasim Babayev, gerçəkliyi mütərəqqi bədii vasitələrlə göstərməyə çalışan Əşrəf Muradoğlu və Qorxmaz Əfəndiyev, sonda da gözəllik qaynaqlarını adi gün-güzəranımızda axtaran "Abşeron məktəbi"nin mövcudluğu keçmişdən zamanına və daha uzaqlara uzana biləcək çətin yolda sarban mayakdı desək, yanılmarıq. Bu sənətkarlar bəzi cəhətlərinə görə bir müstəvidə duruş gətirə bilməsələr də, sənətə və dünyamıza münasibətdə bir gəminin sərnişinləri idilər. Zamanının axarına təsir göstərməyə çalışan yerli və moskvalı ideoloqlar bütün mənalarda bu milli kadrların axtarış dolu yaradıcı səylərinə nə qədər "yox" deməyə çalışsalar da, onları inamlarından döndərə bilmədilər. Səttar da, onun həmfikirlərini də özünəinam səsləyən onlara Təbriz miniatür məktəbi və digər neçə-neçə nəhayətsiz ədim bədii qaynağın arxa olması idi. Bu gün çox da uzun olmayan zaman distansiyasından bu yaradıcıların artıq tarixə dönən cəsarəli axtarışlarına güzgü tutanda görünür ki, onlar, həqiqətən də, böyük iş görmüş, təsviri sənətimizi duyulası dərəcədə yeni görüm tərzi ilə zənginləşdirmişlər.

Altmışıncı illəri rəssamın yaradıcılığında kəskin dönüş mərhələsi hesab etmək olar. Belə ki, bu dövrdə rəssamın kompozisiya həlli üçün önəmli olan formata münasibəti kəskin şəkildə dəyişir. Bununla yanaşı, əsərlərində ayrı-ayrı hissələrin bütövlüyə, tamlığa köklənməsi qabarıq şəkil alır. Rəssamın tablolarında kölgə də yoxa çıxır, onu rənglərin təzadı əvəz edir. Bütün bu köklü dəyişikliklər ilk növbədə onun qədim miniatür sənəti kimi ruhi mənəvi qaynaqdan yaradıcılıqla bəhrələlənməsinin nəticəsi idi. Deyilənlərin əyani görüntüsü onun əsərlərində gerçəkliyə, canlı təbiətə daha fəal nüfuz etməyə başlaması, boyakarlıq manerasının ifadəliliyi, emosionallığının qüvvətlənməsi sayıla bilər. İnsan əli ilə canlanan sərt təbiətin



*Azərbaycan nağılı. 1970-ci il.*

monumental, həqiqi və həssas təcəssümünün əsərlərinin başlıca leytmotivinə çevrilməsi təbii ki, təbiətin bakirə gözəlliyini təsvir etməkdən fərqli idi. Bu mənada doğma təbiətin dəyişilib-yeniləşən və şairanə sürətdə ümumiləşdirilən bədii obrazı panoram xarakterli yeni kompozisiyaların yaranmasına səbəb olur. Bu mənada rəssamın "Qəhrəmanlıq haqqında povest" (1959), "Torpaq, su, günəş və əmək" (1961), "Yaz səhəri" (1961), "Əbədi alovlar" (1963), "Kür boyunca" (1961), "Xəzər gözəli" (1961), "Abşeronda axşam" (1962), "Xınalıq yaylağı" (1962), "Torpağın arzusu" (1963), "Yaz axşamı" (1963), "Nərgiz gülləri" (1962), "Muğanda bahar" (1961), "Payız mənzərəsi" (1964), "Abşeronun bəzəkləri" (1967), "Bozdağın ətəklərində" (1965), "Kəpəzin göz yaşları" (1965), "Oyanma" (1965), "Gülüstan" (1965), "Qədim alov" (1967) tabloları zəngin koloriti, əhatəli- üfüqi kompozisiya biçimi və bitkinliyi ilə diqqəti cəlb edir. Bu əsərlərdə biz ilk növbədə tanış obyektlərə, ənənəvi mövzulara özünəməxsus münasibətin şahidi oluruq. "Sosialist realizmi" bədii prinsipini gerçəkliyə ifrat köklənmək kimi qəbul edən əksəriyyətdən seçildiyini təbiət və əmək motivli əsərlərində sərgiləyən Səttar Bəhlulzadə, əslində ideoloji buxov rolunu oynayan "ali tövsiyyə"ni başqa cür başa düşdüyünü qarşı tərəfin istəyinin əksinə olsa da davamlı şəkildə nümayiş etdirməklə, həm də öz sənətkar müstəqilliyini heç nəyə qurban verməyəcəyini təsdiqləmiş oldu. Etiraf edək ki, həmin dövrdəki özünəməxsus Səttar görümü nəinki idealoqlara, hətta öz həmkarlarına qəribə gəlirdi. Ancaq Azərbaycan bədii məkanı üçün ənənəvi olan neft və pambıq mövzusuna Səttarsayağı şairanə və lirik yanaşma o qədər fərqli və cəlbedici idi ki, yığcam və lakonik rəng qatından "boylanan" gerçəklik nə qədər ideal və irreal görünsə də, inadırıcı qəbul olunurdu. Rənglərin yumşaq "akvarel görüntüsü" yaratması və kompozisiyaların az qala qəlibləşən formatdan çıxması ("Payız mənzərəsi", "Kür boyu", "Muğanda", "Nərgiz gülləri", "Xəzər gözəli", "Torpağın arzusu") ən azı Azərbaycan rəngkarlığı üçün yeni idi. Bütünlükdə isə rəssamın altmışıncı illər yaradıcılığı milli təsviri sənətimizin yeni bədii nəfəslə zənginləşməyə başlaması demək idi. Bu yerdə qeyd edək ki, Səttar öz axtarışlarında artıq tək deyildi. Sənətsevərlər də artıq hər yeni sərgidə onunla yanaşı, T.Salahov, T.Nərimanbəyov, T.Cavadov, M.Mircavadov, Ə.Rzaquliyev və b.əsərlərini də axtarırdılar. Rəssamlar kimi tamaşaçılar da gerçəkliyə, onları əhatə edənlərə fərqli münasibət görmək istəyirdilər. Yeri gəlmişkən qeyd edək ki, Səttarın və digərlərinin "sosialist realizmi" adlı bədii prinsipin çərçivəsində "boğulmaqdan" yaxa qurtarmalarına elə hökümətin daxilində mənəvi dəstək verənlər vardı. Bu mənada o vaxtlar Azərbaycan KP MK-nın ikinci katibi vəzifəsində işləmiş P.M.Yelistratovun qaygısını xüsusi qeyd etmək lazımdır. Onun birbaşa dəstəyi olmasaydı, nə Səttar Bəhlulzadə, nə də Tahir Salahov və Toğrul Nərimanbəyov öz sənət axtarışlarını duyulası sərbəstliklə davam etdirə bilməzdilər. Xatırladaq ki, onlar o vaxtlar üçün çox yüksək dəyərləndirmə sayılan Lenin beynalxalq mükafatına təqdim olunan azərbaycanlı şair Rəsul Rzaya bu mükafatın verilməməsi üçün Moskvaya donoslar yazanların məkanında yaşayıb-yaradırdılar.

Sonrakı illərdə rəssam respublikanın, demək olar ki, bütün rayonlarında, o cümlədən Şamaxıda, Naxçıvanda Göyçayda, Qazaxda və s. yerlərdə olur, bir-birindən yapışıqlı, təravətli lövhələr yaratmağa nail olur. Sonda da rəssamlığımızda "fəlsəfi mənzərə"nin yaradıcısı kimi tanınır.

Səttar doğma yurda, onun zəngin təbiətinə kifayət qədər bələd olduğundan bölgələrə xas rəngləri də ustalıqla bir-birindən fərqləndirə bilirdi. Onun Quba təbiətində üzə çıxardığı və motiv ovqat yaxınlığına qədim Naxçıvan torpağına həsr etdiyi tablolarda rast gəlmək, demək olar ki, mümkünsüzdür. Özü həmişə vurğulardı ki, Naxçıvan torpağı rəngarəngliyinə görə bir-birindən fərqlənir. Yaxşı haldır ki, rəssam bunu təkcə sözdə deməyib və yaratdığı neçə-neçə rəngkarlıq ("İlandağ", 1969; "Bizim dağlar", 1970; "Naxçıvanda payız", 1971) və qrafika ("İlandağ", 1963; "Araz sahillərində", 1964; "Naxçıvan", 1965) əsərləri ilə Naxçıvanın cəzbedici təbiətə malik olduğunu başqalarına göstərməyə nail olub.

Etiraf edək ki, bu təbiətə Səttardan əvvəl də, sonra da heç kəs yalnız Naxçıvan dağlarına xas olan zəngin "rəng seli"nin Səttar kimi göstərə bilməyib...

Rəssamın yaratdığı hər yeni mənzərə insan qüdrəti sayəsində dəyişdirilən, yeniləşən təbiətə onun sevgisini



*"Mənim anam" əsərinə eskiz. 1960-cı illər. "E"-nin kolleksiyası*



Ədəbiyyat, incəsənət və arxitektura sahəsində 1972-ci il Azərbaycan SSR Dövlət mükafatlarının verilməsi haqqında

Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin qərarı

Azərbaycan KP MK katibi
H. ƏLİYEV

Azərbaycan SSR Nazirlər Sovetinin sədri
Ə. İBRAHİMOV

SƏTTAR BƏHLULZADƏNİN DÖVLƏT MÜKAFATINA LAYİQ GÖRÜLMÜŞ ƏSƏRLƏRİ



*Mərdəkan bağlarında*



*Azərbaycan nağılı*



*Piti*



*Şahnabad dağları*



*Suraxı torpağının qədim alovları*



*Kələğayı ilə natürmort*



*"Mənim anam" əsərinə eskiz. 1960-cı illər. "E"-nin kolleksiyası*

əks etdirirdi. O, tez-tez Azərbaycanın şəhər və kəndlərini gəzir, sənətini dəyərləndirənlərlə görüşür, çiçəklənən bağların, bol məhsullu pambıq tarlalarının, üzüm plantasiyalarının, bütünlükdə, respublikanın ürəkaçan, yaddaqalan guşələrini cazibədar mənzərələrini yaradırdı. Respublikanın hər guşəsində böyükdən-kiçiyə kimi hamı onu "özününkü" hesab edirdi. Baharın əksər günlərini, yayın, bəzən də payızın çox hissəsini qəlbən bağlandığı dağlarda, kəndlərdə və meyvə bağlarının əhatəsində keçirərdi. Bir an belə, etüd çantasından və rəsm albomundan ayrılmayan rəssam yazda almaların çiçəklənməsindən qızıl payıza- məhsul toplanışına kimi gördüklərini kətana, kağıza köçürər, gələcək əsərləri üçün təsvir materialı toplayardı.

O, təbiətin qoynunda yorulmadan, rahatlıq etmədən çalışardı. İstirahəti də, yeməyi də çox vaxt unudardı. Onu sübhdən qürub çağına kimi iş başında görmək mümkün idi. Havanın yaxşı-pisliyinə baxmadan, qızmar günəş altında da, yağış yağanda da işləyərdi. Çoxlarının bütün günü fasiləsiz işləməyə qadir olan bu çəlimsiz adamdakı enerjinin tükənməzliyi və sonsuz həvəs heyrətləndirirdi. Bu yerdə rəssamın 1973-cü ildə Moskvada açılmış sərgisində iki nəfərin söhbətini xatırlamaq yerinə düşərdi... Əsərlərə heyranlıqla tamaşa edən qadın ərindən soruşur ki, görəsən, bu rəssamın neçə yaşı var? Kişi cavab verir ki, yəqin cavandır. Çünki əsərləri təbiətlə bağlıdır. Bunları çəkmək üçün çox gəzmək, görub-götürmək lazımdır. Həmişə hərəkətdə olmaq, dağa-daşa çıxmaq hər yaşlı adamın işi deyil. Rəssamın əsərlərindəki heyrətamiz baxış nöqtələri, ecaskar rəng duyumu, qeyri-adi təravət və yaxıların ekspressiyası, yəqin ki, kişini bu qənaətə gəlməyə məcbur etmişdi. O vaxt isə Səttar Bəhlulzadənin nə az, nə çox, düz 64 yaşı vardı...

Moskva sərgisi ilə bağlı bir deyimi də xatırlasaq, Səttar sənətinin bəşərliliyini bir daha təsdiqləmiş olarıq. Rəssam Moskvadan geri qayıdandan sonra dəfələrlə dilə gətirmişdi ki, mən gərək çoxdan orada fərdi sərgimi göstərmiş olardım. Özü də, elə oradakılar da bu fikirdə idi. Üzünə deyilən bir tamaşaçı fikri isə çox ibrətamizdir: "Görün Azərbaycan xalqı nə qədər "istedadlıdır" ki, Səttar kimi bir rəssamı 60 il ərzində dünyadan gizlədə bilib!". Düşündürücüdür, elə deyilmi? Biz də xatırlatdıq ki, bir daha təkrarlanmasın...

Vətən torpağının gözəllik rəmzi kimi tərənnümü Səttar Bəhlulzadənin tam bir silsilə tablolarının ana xəttini təşkil etməklə yanaşı, bayramsayağı, nikbin ruhlu əsərlərində həssas və həzin nəğmələrə çevrilir. Bu münasibəti xüsusilə rəssamın yaradıcılığının son dövründə müşahidə etmək mümkündür. Rəssamın növbəti dəfə yeniləşən dəst-xətti, yaxıların daha ekspressiv və dinamik şəkil alması 60-cı illərin ortaları və 70-ci illərdə yaradılan əsərlərin başlıca bədii məziyyət ifadəçiləridir. "Dədə günəş" (1970), "Corat yemişləri" (1971), "Bilgəhdə dəniz sahili" (1964), "Mərdəkan bağlarında" (1969),"Azərbaycan nağılı" (1970), "Azərbaycan bağlarında" (1970), "Bazardüzü"(1970), "Laza kəndinin şəlalələri" (1972), "Sərv ağacları"(1972),Şamaxı üzümlükləri"(1971), "Gəncə çinarları"(1973), "Girdman təpələri" (1971), "Qədim Şamaxı" (1971), "Qırmızı mənzərə" (1973), "Naxçıvan dağları" (1973), "Suraxanı torpağının qədim alovları" (1971), "Laza ətrafi" (1974), "Mənim anam" (1972-1973) və digər lövhələrin dekorativ boyalar, ekspressiya dolu yaxılar aləmində Səttarın ilhamlı fırçasından silinməz izləri yaşayır. Tablolarda ayrı-ayrı su-

jetlər həssaslıqla və dərin məhəbbətlə təcəssüm etdirilmiş, lirik romantika ülvi və pak duyğular yeni kompozisiya həllində, eləcə də boyakarlıq üslubunun zənginliyində təsirli ifadəsini tapmışdır.




*"Mənim anam" əsərinə eskiz. 1960-cı illər. Şəxsi kolleksiya*



*"Mənim anam" əsərinə eskiz. 1960-cı illər. Şəxsi kolleksiya*



***Mənim anam. 1972-1973-cü illər. Azərbaycan Dövlət İncəsənət Muzeyi***



***Atəşgah***





***Ümidsizlik. 1968-ci il. Yusif Ümidin kolleksiyası***



***Leyli. 1974-cü il. Azərbaycan Dövlət Rəsm Qalereyası***



***Məhəbbət və kədər. 1969-cu il. Qəyyur Yunusun kolleksiyası***



***Leyli sorağında. 1969-cu il. Qəyyur Yunusun kolleksiyası***



***Məcnun. 1965-ci il. Şəxsi kolleksiya***



***Nofəl. 1969-cu il. Qəyyur Yunusun kolleksiya***







*Səttar Bəhlulzadə Meksika rəssamı D.Sikeyros və azərbaycanlı həmkarları ilə. Bakı, 1973*



*Səttarların görüşü. 1967-ci il. Foto Kamal Babayevindir*




*Fətəli xana həsr olunmuş kompozisiyanın eskizi. 1940-1950-ci illər. Fərhad Əhmədovun kolleksiyası*




*Fətəli xana həsr olunmuş kompozisiyanın eskizi. 1940-1950-ci illər. Fərhad Əhmədovun kolleksiyası*



*"Torpağın arzusu" əsərinə eskiz. 1963-cü il. Ziyadxan Əliyevin kolleksiyası*



*Torpağın arzusu. 1963-cü il. Azərbaycan Dövlət İncəsənət Muzeyi*






*Əmircanda rəssam büstü. 1994-cü il. Müəllif: Natiq Əliyev*



*Xatirə lövhəsi. Bakı. 1978-ci il. Müəllif: Xanlar Əhmədov*



*Xatirə lövhəsi. Əmircan. 1980-ci il. Müəllif: Cümşüd İbrahimli*










*"Azərmarka" şirkətinin Səttar Bəhlulzadənin 100 illik yubileyi münasibətilə buraxdığı poçt markası dəsti. 2009-cu il*



*Səttar Bəhlulzadənin Londonda fərdi sərgisinin açılışı. 1995-ci il*














**Tofiq Bayram**

**SƏTTAR BƏHLULZADƏNİN XATİRƏSİNƏ**

*O fırça barmaqlar büküldü birdən,*
*O mavi gözlərin işığı söndü.*
*Göylər də hönkürdü qara xəbərdən,*
*Təbiət Səttarsız yetim göründü.*

*Danışa bilmirəm dərddən, qubardan,*
*Köməyə çağırın coşan Xəzəri.*
*Sanki yellər əsdi, qopdu divardan*
*Sənət sərgisinin bir şah əsəri.*

*Bilirdi dünyadan bir gün köçəcək,*
*Yatacaq kəndinin bir bucağında.*
*Yazda köçmədi ki, solar gül-çiçək,*
*Köçdü təbiətin xəzan çağında...*

*Bakı yola salır rəssam oğlunu*
*Qıy çəkib ağlayan küləkləriylə.*
*Durnalar Səttarın nekroloqunu*
*Göylərə nəqş etdi lələkləriylə.*

*Bir duman yeridi Qızbənövşədən,*
*Vurdu xəzan yeli çiçəyi, gülü.*
*Sonuncu ceyran da çıxıb meşədən,*
*Yollara göz dikdi boynu bükülü.*

*Dağların zirvəsi hüznlü, həzin,*
*Şimşəklər ayrılıq nəğməsi çaldı.*
*Axdı göz yaşları qoca Kəpəzin*
*Ahından Göygölün rəngi qaraldı.*

*Bu xəbər Qoşqarın büküb dizini,*
*Dağlar mehribandır, dağlar səmimi.*
*Yamaclar Səttarın ayaq izini*
*Köksündə saxlayır təbərrük kimi.*

*Biri turac vurdu, kəklik ovladı,*
*Qırdı ağacları gur ocaq üçün.*
*Gəzdi bu sənətin Məcnun övladı,*
*Ana təbiəti sağaltmaq üçün.*

*Sənət tufanıydı o zərif bədən,*
*O zərif ürəkdən bir dağ hünəri.*
*Füzuli dünyaya gəlib təzədən,*
*Fırçayla nəqş etdi gözəllikləri.*

*Elə nəqş etdi ki, ürəyimizi*
*Həmişə vüsala, eşqə səsləyə.*
*Onun hər lövhəsi çağırdı bizi*
*İşığa, paklığa, müqəddəsliyə.*

*Sənət daimidir, ömür ötərgi,*
*Solar məzar üstə güllər, çiçəklər.*
*Əbədi muzeydir, əbədi sərgi*
*Səttar sənətini sevən ürəklər.*

## Səttər Bəhlulzadənin əsərlərinin siyahısı Rəngkarlıq

**1936**

M.Bağırov və İ.V.Stalin neft mədənlərində. Etüd. Karton, yağlı boya. 32x16 sm "E"nin şəxsi kolleksiyası.

**1937**

Naturaçı qadın. Karton, yağlı boya. 25x35 sm. Ağəli İbrahimovun şəxsi kolleksyiası.

**1939**

Naturaçı qadın. Kətan, yağlı boya. 69x54 sm. "Yeni qalereya"

Qaraçı qadın. Kətan, yağlı boya. 60x80 sm. Şəxsi kolleksiyada saxlanılır.

Babək üsyanı. Kətan, yağlı boya. 65x112 sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Bəzz qalasının müdafiəsi. Kətan, yağlı boya. 100x200 sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

"Babək üsyanı" əsərinə çəkilmiş eskiz. Karton, yağlı boya. 31x14,5 sm. "E"-nin şəxsi kolleksiyası.

**1943**

M.P.Vaqifin portreti. Karton, yağlı boya. 10x10 sm. Ağəli İbrahimovun şəxsi kollenksiyası.

**1944**

Şair. Karton, yağlı boya. 8x20 sm. Ağəli İbrahimovun şəxsi kollenksiyası.

Fətəli xan. Etüd. Karton, yağlı boya. 28x11,5 sm. "E"-nin şəxsi kolleksiyası.

**1945**

Qubalı Fətəli xanın portreti. Kətan, yağlı boya. 230x120 sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Çayda. Kətan, yağlı boya. 52x72 sm. Şəxsi kolleksiyada saxlanılır.

Çaya gedən yol. Kətan, yağlı boya. 60x78 sm. Şəxsi kolleksiyada saxlanılır.

Xəttah Mirəli Həbibinin portreti. Kətan, yağlı boya. 100x75 sm. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.

Fətəli xana həsr olunmuş eskizi. Karton, yağlı boya. 40x70 sm. Fərhad Əhmədovun şəxsi kolleksiyası.

Fətəli xana həsr olunmuş eskizi. Karton, yağlı boya. 20x50 sm. Fərhad Əhmədovun şəxsi kolleksiyası.

**1946**

Dənizkənarı park (əsər Tağı Tağıyevlə birlikdə işlənilib). Kətan, yağlı boya. 71x121 sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Əmircanda həyət. Karton, yağlı boya. 50x70 sm. Şəxsi kolleksiyada saxlanılır.

Təzə doğulmuş ay. Karton, yağlı boya. 22x29 sm. Şəxsi kolleksiyada saxlanılır.

**1947**

Atəşfəşanlıq. Kətan, yağlı boya. 79x140 sm. Şəxsi kolleksiyada saxlanılır.

Buruqlar. Kətan, yağlı boya. 37x53,5 sm. Şəxsi kolleksiyada saxlanılır.

Erkən səhər. Karton, yağlı boya. 60x70 sm. Şəxsi kolleksiyada saxlanılır.

Maştağaya gedən yol. Karton, yağlı boya. 36,5x24 sm. Şəxsi kolleksiyada saxlanılır.

Buzovnaneft. Kətan, yağlı boya. 72x50 sm. Şəxsi kolleksiyada saxlanılır.

Sənaye mənzərəsi. Kətan, yağlı boya. 41,5x57 sm. Şəxsi kolleksiyada saxlanılır.

Kənd üzərində axşam. Karton, yağlı boya. 17x34 sm. Şəxsi kolleksiyada saxlanılır.

Xəzərin axşamı. Kətan, yağlı boya. 54x43 sm. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.

**1950**

Quba mənzərəsi. Karton, yağlı boya. 35x50 sm. Şəxsi kolleksiyada saxlanılır.

Bağlar diyarında. Karton, yağlı boya. 35x50 sm. Şəxsi kolleksiyada saxlanılır.

**1951**

Qaraqumda 26 Bakı komissarlarının abidəsi (əsər Tağı Tağıyevlə birlikdə işlənilib). Kətan, yağlı boya. 24,5x50 sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

**1953**

Qızbənövşəyə gedən yol. Kətan, yağlı boya. 112x180 sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Dənizmədəni. Kətan, yağlı boya. 23x40 sm. Şəxsi kolleksiyada saxlanılır.

Qudyalçay. Kətan, yağlı boya. 90x85 sm. (Səməd Vurğunun 50 illik yubileyində ona hədiyyə olunub). Səməd Vurğunun Bakıdakı ev muzeyi.

Natürmort. Kətan, yağlı boya. 44,5x60 sm. Şəxsi kolleksiyada saxlanılır.

Alma ağacı. Kətan, yağlı boya. 40x40 sm. Şəxsi kolleksiyada saxlanılır.

Budaq. Karton, yağlı boya. 7,5x6,5 sm. Şəxsi kolleksiyada saxlanılır.

Quba ətrafında. Kətan, yağlı boya. 60x130 sm. Şəxsi kolleksiyada saxlanılır.

Qudyalçay vadisi. Kətan, yağlı boya. 72x121 sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Qudyalçay sahili. Kətan, yağlı boya. 94x200 sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Qubada etüd. Karton, yağlı boya. 35x50 sm. Şəxsi kolleksiyada saxlanılır.

**1954**

Yaşıl xalı. Kətan, yağlı boya. 101x201 sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Bizim bağlar. Kətan, yağlı boya. 136x200 sm.

Bağlarda. (Bağlar arasında.) Kətan, yağlı boya. 88x200 sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Quba mənzərəsi. (Şahdağ vadisi.) Kətan, yağlı boya. 100x200 sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Qovaqlar qürub çağı ərəfəsində. Karton, yağlı boya. 24,5x35,5 sm. Şəxsi kolleksiyasiyada saxlanılır.

Meyvə bağı. Karton, yağlı boya. 25x35 sm. Şəxsi kolleksiyada saxlanılır.

Dağlar. Karton, yağlı boya. 24,5x34,5 sm. Şəxsi kolleksiyada saxlanılır.

Çinarlar. Karton, yağlı boya. 34x48,5 sm. Şəxsi kolleksiyada saxlanılır.

Düzənlik. Karton, yağlı boya. 33,5x48 sm. Şəxsi kolleksiyada saxlanılır.

Yol kənarında. Karton, yağlı boya. 34,5x48 sm. Şəxsi kolleksiyada saxlanılır.

Yeddi gəmi adası. Karton, yağlı boya. 25x35 sm. Şəxsi kolleksiyada saxlanılır.

Alma çiçəkləyir. Karton, yağlı boya. 24,5x34,5 sm. Şəxsi kolleksiyada saxlanılır.

Qürub ərəfəsində. Karton, yağlı boya. 34x48 sm. Şəxsi kolleksiyada saxlanılır.

Təpələr. Karton, yağlı boya. 34x48 sm. Şəxsi kolleksiyada saxlanılır.

Bağda. Karton, yağlı boya. 24,5x34,5 sm. Şəxsi kolleksiyada saxlanılır.

Mənzərə. Kətan, yağlı boya. 46,5x110 sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Mənzərə. Karton, yağlı boya. 22,5x50 sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Əmircan. Kətan, yağlı boya. 25x35 sm. Gürcüstan Dövlət İncəsənət Muzeyi.

Neft daşlarında. Kətan, yağlı boya. 25x35 sm.Gürcüstan Dövlət İncəsənət Muzeyi.

Gavalı. Kətan, yağlı boya. 20x30 sm. Şəxsi kolleksiyada saxlanılır.

Payız mehi. Kətan, yağlı boya. 65x135sm. Şəxsi kolleksiyada saxlanılır.

Quba mənzərəsi. Şahdağ. Karton, yağlı boya. 25x40 sm. Rafael Abdinovun şəxsi kolleksiyasiyada saxlanılır.

**1955**

Qızıl axşam. (Payız). Kətan, yağlı boya. 60x110 sm.Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Neft daşları. Kətan, yağlı boya. 46x74 sm. Şəxsi kolleksiyada saxlanılır.

Qızılgüllər. Kətan, yağlı boya. 39x40sm. Şəxsi kolleksiyada saxlanılır.

Çimərlik. Kətan, yağlı boya. 27,5x47,5sm. Şəxsi kolleksiyada saxlanılır.

Lənkəranda. Karton, yağlı boya. 30x40 sm. Şəxsi kolleksiyada saxlanılır.

Ördəklər nohurda. Kətan, yağlı boya. 97x66 sm. Şəxsi kolleksiyada saxlanılır.

Qovaqlar payızda. Kətan, yağlı boya. 66x135 sm. Şəxsi kolleksiyada saxlanılır.

Estakada. Karton, yağlı boya. 30x40 sm. Şəxsi kolleksiyada saxlanılır.

Dəniz sahili. Kətan, yağlı boya. 20x30sm. Şəxsi kolleksiyada saxlanılır.

Dənizdə. Kətan, yağlı boya. 40x60sm. Şəxsi kolleksiyada saxlanılır.

Bahar axşamı. Kətan, yağlı boya. 40x60sm. Şəxsi kolleksiyada saxlanılır.

Lənkəran mənzərəsi. Kətan, yağlı boya. 120x65sm. Şəxsi kolleksiyada saxlanılır.

Astara kənarında. Karton, yağlı boya. 35x50 sm. Şəxsi kolleksiyada saxlanılır.

Almalar çiçəkləyir. Karton, yağlı boya. 27x36 sm. Şəxsi kolleksiyada saxlanılır.

Yol kənarında. Kətan, yağlı boya. 35x45sm. Şəxsi kolleksiyada saxlanılır.

Əmircanın köhnə guşəsində. Karton, yağlı boya. 30x36 sm. Şəxsi kolleksiyada saxlanılır.

Alma ağacları. Karton, yağlı boya. 35,5x24,5sm. Şəxsi kolleksiyada saxlanılır.

Ağaclar çiçəkləyəndə. Karton, yağlı boya. 24x34sm. Şəxsi kolleksiyada saxlanılır.

Tala. Karton, yağlı boya. 24x34sm. Şəxsi kolleksiyada saxlanılır.

Meşə. Karton, yağlı boya. 24x35,2sm. Şəxsi kolleksiyada saxlanılır.

Ağ buludlar. Karton, yağlı boya. 14x49sm. Şəxsi kolleksiyada saxlanılır.

Qarlı dağlar. Karton, yağlı boya. 14x49sm. Şəxsi kolleksiyada saxlanılır.

Yelkənli qayıqlar. Karton, yağlı boya. 13x24sm. Şəxsi kolleksiyada saxlanılır.

Dağüstü parkdan Bakının görünüşü. Karton, yağlı boya. 24,5x34,5sm. Şəxsi kolleksiyada saxlanılır.

Dənizdə mədənlər. Karton, yağlı boya. 24,5x34,5sm. Şəxsi kolleksiyada saxlanılır.

Neft daşlarının görünüşü. Karton, yağlı boya. 28x38,5sm. Şəxsi kolleksiyada saxlanılır.

Lənkəran motivi. Kətan, yağlı boya. 120x70sm. Şəxsi kolleksiyada saxlanılır.

Dəniz buruqları. Karton, yağlı boya. 24,5x34,5sm. Şəxsi kolleksiyada saxlanılır.

Körpü. Karton, yağlı boya. 25x35sm. Şəxsi kolleksiyada saxlanılır.

Səhər şəfəqləri. Kətan, yağlı boya. 150x120sm. Şəxsi kolleksiyada saxlanılır.

Cənub motivi. Karton, yağlı boya. 70x50sm. Etibar Babayevin şəxsi kolleksiyası.

Bahar gəlir. Karton, yağlı boya. 27x50sm. "S"-nin şəxsi kolleksiyası.

Bakıda yaz səhəri. Kətan, yağlı boya. 140x260sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Xaçmaz. Kətan, yağlı boya. 95x63sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Yol. Karton, yağlı boya. 50x35 sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Amsar bağları. Kətan, yağlı boya. 30x73sm. Şəxsi kolleksiyada saxlanılır.

Gölə gedən yol. Kətan, yağlı boya. 60x70sm. Şəxsi kolleksiyada saxlanılır.

Sülh göyərçinləri. Kətan, yağlı boya. 80x120sm. Şəxsi kolleksiyada saxlanılır.

Bahar nəğməsi. Kətan, yağlı boya. 60x80sm. Şəxsi kolleksiyada saxlanılır.

Bahar. Kətan, yağlı boya. 50x110sm. Şəxsi kolleksiyada saxlanılır.

Çiçəklənən yurd. Kətan, yağlı boya. 110x140sm. Şəxsi kolleksiyada saxlanılır.

Laləzarlıq. Kətan, yağlı boya. 110x140sm. Şəxsi kolleksiyada saxlanılır.

Qubada baharın gəlişi. Kətan, yağlı boya. 80x130sm. Şəxsi kolleksiyada saxlanılır.

Çiçəklənən torpaq. Kətan, yağlı boya. 130x170sm. Şəxsi kolleksiyada saxlanılır.

Amsar bağlarında. Kətan, yağlı boya. 132x200sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Payız. Kətan, yağlı boya. 120x195sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Dağ mənzərəsi.Etüd. Karton, yağlı boya. 35x50sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Dağlar. Karton, yağlı boya. 50x70sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Dağın zirvəsi.Etüd. Karton, yağlı boya. 50x70sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Qəhrəmanlıq haqqında povest. Kətan, yağlı boya. 133x200sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

İlk bahar. Kətan, yağlı boya. 96x200sm. Şəxsi kolleksiyada saxlanılır.

Quşlar. Kətan, yağlı boya. 59x73sm. Şəxsi kolleksiyada saxlanılır.

Xəzər gözəli. Kətan, yağlı boya. 75x120sm. Şəxsi kolleksiyada saxlanılır.

Füsunkar torpaq. Kətan, yağlı boya. 133x200sm. Şəxsi kolleksiyada saxlanılır.

Zəhmət təranəsi. Kətan, yağlı boya. 133x200sm. Şəxsi kolleksiyada saxlanılır.

Bülbül baharı. Kətan, yağlı boya. 133x200sm. Şəxsi kolleksiyada saxlanılır.

Füzuli. Kətan, yağlı boya. 80x120 sm. Şəxsi kolleksiyada saxlanılır.

Yaz natürmortları. Karton, yağlı boya. 47x67sm. Xəyyam Mirzəzadənin şəxsi kolleksiyası.

Xəzər sahili. Karton, yağlı boya. 5x10sm. Saleh Tahirovun şəxsi kolleksiyası.

"Şirvanşahlar sarayının həyətində.Etüd. Kətan, yağlı boya. 38x60 sm. "S"-nin şəxsi kolleksiyası.

**1960**

Birinci qar. Karton, yağlı boya. 70x50sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Payız fəsli. Karton, yağlı boya. 70x50sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Rəssamın emalatxanasından görünüş. Karton, yağlı boya. 35x50sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Payız.Etüd. Karton, yağlı boya. 35x50sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Payız mənzərəsi. Etüd. Karton, yağlı boya. 35x50sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Mənzərə. Kətan, yağlı boya. 59x95sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Göl sahili. Kətan, yağlı boya. 50x70sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Alma ağacının budağı. Karton, yağlı boya. 50x70sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Mənzərə. Karton, yağlı boya. 50x120sm. Rəsul Rzanın şəxsi kolleksiyası.

Kür kənarında. Karton, yağlı boya. 50x25sm. Şəxsi kolleksiyada saxlanılır.

Araqvi. Kətan, yağlı boya. 65x140sm. Şəxsi kolleksiyada saxlanılır.

**1961**

Xəzər gözəli. Kətan, yağlı boya. 134x200sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Kür boyunca. Kətan, yağlı boya. 70x200sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Muğanda bahar. Kətan, yağlı boya.140x290sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Çuvari. Karton, yağlı boya. 70x50sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Torpaq, su, günəş və əmək. Kətan, yağlı boya. 200x234sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Kürdə axşam. Kətan, yağlı boya. 218x138sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Səhər. Kətan, yağlı boya. 112x168sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Muğanda. Kətan, yağlı boya. 62x94sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Mavi əfsanə. Kətan, yağlı boya. 75x120sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Kür boyu. Kətan, yağlı boya. 52x120sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Düzənlik (Tarlalar). Karton, yağlı boya. 35x50sm. Azərbaycan Dövlət İncəsənət Muzeyi.

Nağıl(Azərbaycanın nağılı). Kətan, yağlı boya. 106x183sm. Dövlət Tretyakov Qalereyası.

Abşeron motivi. Karton, yağlı boya. 50x70sm. Ümumilli liderimiz Heydər Əliyevin şəxsi kolleksiyası.

Neft daşları əfsanəsi. Kətan, yağlı boya. 10x140sm. Şəxsi kolleksiyada saxlanılır.

Çinarlar. Kətan, yağlı boya. 60x80sm. Saleh Tahirovun şəxsi kolleksiyası.

Əmircan mənzərəsi. Karton, yağlı boya. 35x50sm. Saleh Tahirovun şəxsi kolleksiyası.

1962

2000-ci ildə prezidentin fərmanı ilə «Tərəqqi medalı» ilə təltif olunmuşdur.

2001-ci ildə Azərbaycan Respublikasının Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Azərbaycan Neft Akademiyasının Neft və Qaz quyuların qazılması kafedrasının müdiri işləyib.



***Quliyev Danil Pirməmməd*** (1923-2001). Əmircanda orta məktəbi bitirən kimi orduya çağırılıb, Bakı hərbi məktəbinə daxil olub, oranı leytenant rütbəsilə bitirib. 1943-cü ildə 416 Taqanroq diviziyasının tank vzvoduna komandir təyin olunub. Yaralanıb, müalicə olunub. 1947-ci ildə ADU-nun tarix fakültəsinə daxil olub II kursdan Moskva M. V. Lomonosov adına Universitetin tarix fakültəsinə keçirilib. 1952-ci ildə MDU-nu bitirib, orada SSRİ tarixi kafedrasının aspiranturasında saxlanılıb. 1982-ci ildə tarix elmləri doktoru, Az KP MK yanında Partiya Tarixi İnstitutunda baş elmi işçi, 1976-cı ildə həmin institutda direktor təyin olunub. Bakı Ali Partiya Məktəbində Sov İKP Tarixi kafedrasının baş müəllimi və müdiri (1959-61), sonra direktoru (1961-70), Az SSR Ali və Orta İxtisas Təhsili Naziri (1970-71) olmuşdur. 1971-76-cı illərdə Azərbaycan KP MK katibi işləyib. AKP Tarixinin və Azərbaycan Sovet dövrü tarixinin tədqiqatçılarındandır. «Azərbaycan Tarixi» (c. III. Hissə 2. 1963) Az KP tarixinin oçerkləri (B. 1964) «Zaqafqaziya Kommunist Təşkilatlarının Zəhmətkeşlərin beynəlmiləl tərbiyəsi sahəsində fəaliyyəti» (Tbilisi, 1977) kitablarının müəllifidir. «Az KP tarixinin oçerkləri»nin redaksiya heyətinin rəhbəri (3 cilddə c. 1, B. 1985) Azərbaycan dilində K. Mark və F. Engelsin seçilmiş əsərlərinin tam külliyyatının (55 cilddə, B. 1973-85) tərcümə redaktorlarından biridir. Nazirlər Kabineti yanında Azərbaycan Respublikası Bakı Arxiv idarəsinin direktor müavini işləyib. 2 Qırmızı Əmək Bayrağı, 2-ci dərəcəli Vətən müharibəsi ordenləri və medalları ilə təltif olunmuşdur (1990).

***Гулиев Данил Пири*** оглы родился 17 сентября 1925 г. В с. Амираджаны. Отец его уста Пири Гулиев, был известным нефтяником, мать Фатима ханум домохозяйка, вырастившая пятерых детей.

Д.П.Т. окончил среднюю школу в Амираджанах.

В 1941 году был призван в ряды Советской Армии, поступил в Бакинское пехотное училище, которое окончил со званием лейтенанта. Затем был направлен в Действующую Армию и назначен командиром взвода противотанковых ружей в 416 Азербайджанской дивизии был ранен, лечился в госпитале, получил боевые награды.

В 1947 г. Поступил на исторический факултеть Азербайджансого Государственного Университета им. С. М. Кирова. После второго курса перевелся в Московский государственный университет им. М. В. Ломоносова.

В 1952 г. Окончил исторический факултет МГУ и был оставлен при кафедре истории СССР аспирантом.

Успешно защитил дисетрацию на тему: «Борба Коммунистической партии Азербайджана за дальнейшый

технический прогресс в нефтедобывающей промышленности республики в годы четвертой пятилетки».

В сентябре 1956 г. решением объединенного Ученого совета исторического, экономического - факултетов и кафедры марксизма - ленинизма МГУ Гулиеву Д. была присуждена ученая степень кандидата исторических наук.

Вернувшись в Баку, Д. Т. Больше двух лет работал в Институте истории партии при УККП Азербайджана старшым научным сотрудником.

Позднее преподовал в Бакинской высшей партийной школе при УККП Азербайджана.

С 1961 по 1971 г.г. являлся ректором Высшей партийной школы. В течении этих лет Д. П. Г. Написал ряд научных очерков статей, посвященных истории Компартии Азербайджана, принимал участие в создании коллективного труда «История Азербайджана».

В 1971-77 был избран на должность секретаря ЦККП Азербайджана по идеологии, где проработал по 1976 г.

С 1977 г. Работал директором Института истории партии при ЦККП Азербайджана-филиала Института Марксизма-Ленинизма при ЦК КПСС.

В институте истории партии под его руководством проводилась дольшая работа по изданию Полного собрания сочинений В. И. Ленина, был выпущен ряд монографий и сборников документов по истории нашей республики. В том числе «Очерки истории компартии Азербайджана», «Воспоминания ветеранов партии об Октябрской революции», участвовал в создании «Азербайджанской эенциклопедии».

Был членом комиссии по подготовке проекта новой Конституции Азербайджанской ССР.

Под редакцией Д. П. Г. В 1989 г был выпущен сборник документов «К истории образования Нагорно-Карабахской автономной области Азербайджанской ССР», им была написана монография о Наримане Нариманове, а также многочисленные статьи по проблеме Карабаха.

В 1987 по совокунноети работ Д. Гулиеву была присуждена ученая степень доктора исторических наук.

В 1990 г. Институт истории партии был переименован в Главное Архивное управление при Совете Министров Азербайджанской ССР, где он продолжал работать в качестве замдиректора Института до 1995 г.

Многие годы был депутатом Верховного Совета республики, нескольках созывов, делегатом многих съездов республики.

Имел боевые награды: «Орден боевого Красного знамени», «Орден Отечесивенной войны», медали: «За оборону Кафказа», «За участвие в Великой Отечественной войне 1941-1945» и др.

## TARİX ŞAHİDDİR Kİ...

### *1918-1920-ci illərin hadisələri bu günün gözü ilə: faktlar və şərhlər*

XIX əsrin axırlarından indiki Azərbaycan və Ermənistan Respublikalarının Rusiya imperiyası tərkibində ərazisi o vaxtkı inzibati bölgüyə görə Bakı, Yelizavetpol və İrəvan quberniyaları hüdudlarında idi. Bölgənin çoxmillətli, polietnik tərkibi onun əhalisinin səciyyəvi xüsusiyyətləri sayılırdı. Əsrin əvvəllərində "vahid, bölünməz Rusiya" şəraitində ərazi cəhətdən parçalanma məsələləri və diyarda məskunlaşmış xalqlarda separatçılıq əhval-ruhiyyəsinin və hərəkatlarının olmaması cari siyasi həyatın gündəliyinə daxil edilmirdi.

Bununla yanaşı, çar bürokratiyası "parçala və hökm sür" siyasətini, Zaqafqaziya millətlərini və xalqlarını mütləqiyyətə qarşı əlbir çıxış etməyə qoymamaq üçün onları süni surətdə bir-birinə qarşı qoymaq siyasətini məqsədyönlü şəkildə yeridirdi. Bu siyasətdə çarizm bir para yerli mülkədarların, kapitalistlərin, xırda burjuaziyanın, mürtəce ruhanilərin və millətçi əhval-ruhiyyəli ziyalıların simasında özünə arxa, bu və ya digər formada icraçılar tapırdı. Lakin bir milləti başqasına qarşı qoymaq, Zaqafqaziya xalqlarının tarixən təşəkkül tapmış əlaqələrini qırmaq və dinc yanaşı yaşamalarına əngəl törətmək cəhdləri bu xalqların özləri tərəfindən daim dəf olunurdu. Əməkçi siniflər, tərəqqipərvər ziyalılar, inqilabi, demokratik və liberal partiya və hərəkatlar bu siyasətə qarşı çıxış edirdilər.

Millətləri bir-birinin üstünə qaldırmaq üçün çarizmin yeritdiyi siyasət birinci rus inqilabı illərində xüsusilə güclənmiş və müvəqqəti "müvəffəqiyyət" qazanmışdır ki, bu da ermənilərlə azərbaycanlılar arasında qanlı toqquşmalardan ibarət olmuşdur. Lakin bolşeviklərin, digər inqilabi partiyaların, fəhlələrin qəti tədbirləri, geniş ictimaiyyəti bürüyən hiddət və qəzəb dalğası qanlı qırğın yanğınını söndürməyə, fitnəkarların və talançıların ağzından vurmağa imkan vermişdir.

Millətlərarası ədavət və gələcək qarşılıqlı ərazi iddiaları toxumu XX əsrin ikinci onilliyində ideoloji baxımdan müəyyən dərəcədə "cücərti vermiş" və bu, 1914-1918-ci illər dünya müharibəsi dövründə xüsusilə güclənmişdir.

Hər şeydən əvvəl "daşnaksütyun" millətçi burjua partiyası və erməni millətçilərin digər partiyaları ədalətsiz imperialist müharibəsində çarizmin və Antanta ölkələri hökumətlərinin tərəfini saxlayaraq, türklərə nifrəti hər vasitə ilə qızışdırırdılar. "Türk" dedikdə isə cahil ermənilər çox vaxt müsəlmanları, eləcə də azərbacanlıları başa düşürdülər. Millətçilərin elan etdikləri "böyük ermənistan" şüarları ermənilərin şüurunu öz ərazisini qorşu torpaqları, ən əvvəl Azərbaycan torpaqları hesabına genişləndirmək kimi avanturist ideyaya hazırlayır və yönəldirdi.

1918-ci ilin mart günlərində Bakıda azərbaycanlıların kütləvi surətdə qırğın və talanlara məruz qalması daşnak partiyasının cinayətkar əməlləri tarixində ən mənhus səhifələrdən biridir.

Uzun illər ərzində naşı tarixçilərin dəridən-qabıqdan çıxaraq göstərdikləri səylərə həmin hadisələr "müsavatçıların əksinqilabi qiyamı" kimi qələmə verilmişdir. Amma arxiv sənədləri, məsələnin öyrənilməsinə yeni metodoloji mövqelərdən yanaşılması sübut edir ki, bu qırğın və talanların əsl təşkilatçıları daşnaklar olmuşlar, onlar cahil ünsürləri sovetlərə qarşı qəsdən qızışdıraraq müsəlman əhalisi üzərində dəhşətli zorakılıq əməlləri törətmişlər.

Bakı Soveti İcraiyyə Komitəsinin, onun sədri S. G. Şaumyanın Bakıdakı erməni hərbi hissələrindən istifadə etməsi bu müsibətdə faciəli rol oynamışdır. Erməni hərbi hissələri sovetləri, bolşevikləri "müdafiəsi" bəhanəsi ilə azərbaycanlılara amansızcasına və qəddarcasına divan tuturdular.

Qeyd etmək lazımdır ki, Bakı Soveti də, onun yaratdığı ordu da əsas etibarilə ermənilərdən ibarət idi. Sovetdə olan daşnaklar Sakko Saakyan, Arakelyan və başqaları ona müsəlman fəhlələrin qəbul edilməsinə hər vasitə ilə əngəl törədirdilər. Onlar azərbaycanlılara öz Milli ordusunu yaratmaqda mane olmaq üçün hər şeyi edirdilər. Sovetin adından sui-istifadə edən daşnaklar özlərini sosialistlər kimi qələmə verərək, öz millətçi-şovinist siyasətini canfəşanlıqla yeridir, Bakının, Şamaxının və Azərbaycanın digər şəhər və rayonlarının azərbaycanlı əhalisinə qaşrı qırğınlar hazırlayırdılar. Bu baxımdan Erməni Milli Komitəsi Xüsusi fəallıq göstərirdi. 1918-ci il aprel ayının əvvəllərində N. Nərimanov S. G. Şaumyana və P. A. Caparidzeyə həyəcan dolu məktub göndərmişdir. Məktubda deyilirdi ki, "müsəlmanlar sovet hakimiyyətini bütün varlığı ilə qəbul etdilər. Lakin onları narahat edən budur ki, siyasi mübarizə Milli mübarizəyə çevrilmişdir". Nərimanov yazırdı ki, tüfəngin köməyilə qazanılmış hakimiyyətə xalq arxa durmasa və hörmət etməsə, o, uzun müddət yaşaya bilməz. Buna görə də siz var qüvvənizlə çalışmalısınız ki, adamlar başa düşsün və hiss etsinlər ki, sovetlər bu mübarizəyə Milli don geydirən "qara qüvvələr"ə yoldaş deyildir. Təkcə sözdə deyil, işdə də qətiyyətlə göstərmək lazımdır ki, siz "qara qüvvələr"lə açıq mübarizə aparırsınız.

Müsəlmanlara qarşı talanlar Azərbaycanın bir çox şəhər və rayonlarını - Şamaxını və Göyçayı, Gəncəni və Nuxanı (Şəkini - red.), Qazaxı, Lənkəranı və digər yerləri bürümüşdü.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. Azərbaycan hökuməti hələ parlament çağırılmazdan əvvəl bir sıra qərarlar qəbul etdi ki, onlar da respublikanın həyatının müxtəlif sahələri ilə bağlı idi. Daşnak canilərin törətdikləri cinayətin təhqiqi üçün 1918-ci ilin iyulunda Fövqəladə İstintaq Komissiyası yaradılması Azərbaycan hökumətinin birinci dərəcəli aktlarından idi. Hökumətin iclasında ADR-in xarici işlər naziri Mehdi bəy Hacınski həmin məsələ barəsində çıxış edərək bildirmişdi: "Dörd aydır ki, erməni cəlladlar dinc müsəlman əhalisinin həyatı və əmlakı üzərində görünməmiş vəhşiliklər törədirlər. Bununla yanaşı, zorakılıq təşkilatçılarının yalan xəbərləri nəticəsində Avropa ictimaiyyətində tamam əks əhval-ruhiyyə yaradılır". Buna görə də, elə bir təşkilatın yaradılması, şübhəsiz, labüd idi ki, o, bütün zorakılıq halları barəsində dəqiq məlumat verməklə, həmin zorakılıqların törədildiyi şəraiti aydınlaşdırmaqla, müqəssirləri üzə çıxarmaqla və onların vurduğu zərərin məbləğini müəyyənləşdirməklə məşğul olsun.

Həmin təşkilat Fövqəladə Komissiya xarakteri daşımalıdır, həm də bu komissiyanın zəhmətinin nəticələri azərbaycan, rus, ingilis, fransız, alman dillərində elan edilib yayılmalıdır.

Vəkil Ələkbər bəy Xasməmmədov (sonralar Azərbaycan məhkəmə palatasının sədri olmuşdur) İstintaq komissiyasının sədri təyin edilmişdir.

Bir neçə ay ərzində Fövqəladə İstintaq Komissiyası daşnak quldur dəstələrinin qanlı əməllərinin təhqiqi sahəsində böyük iş görmüşdü. Zərər çəkmiş yüzlərlə vətəndaş və şahid dindirilmiş, çoxlu material, maddi dəlil-sübut, fotosənəd toplanmışdı.

İstintaq komissiyası tərəfindən şahid kimi dindirilmiş Bakı şəhərinin sakini A. N. Kvasnik demişdi: "Bu il martın 17-21-də Bakıda baş vermiş hadisələri əsla vicdan əzabı çəkmədən belə şərh etmək olar: "Müsəlman əhalisinin əvvəlcə Bakı şəhərində, sonra isə ətrafda qismən məhv edilməsi, onların əmlakının hamısının qəsb olunması və bütün var-dövlətlərinin və siyasi üstünlüyünün ermənilərin əlinə keçməsi məqsədilə ermənilərin müsəlmanlara qarşı təşkil etdikləri qanlı qəsd".

Azğınlaşmış və vəhşiləşmiş erməni quldurlar dinc azərbaycanlı əhalini qırıb-çatmaq üçün ən amansız üsullara əl atırdılar. Fövqəladə İstintaq Komissiyasının üzvü A. Y. Kluge "Bakı şəhərinin müsəlman əhalisinə qarşı törədilmiş zorakılıqlara dair iş haqqında" bu komissiyanın sədrinə məruzəsində yazırdı: "Yaxşı silahlanmış, təlim keçmiş erməni əsgərləri çoxlu miqdarda pulemyotların mühafizəsi ilə hücum edirdilər... ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini qırır, onları qılınc və xəncərlərlə doğram-doğram və süngülərlə deşik-deşik edir, uşaqları yanan evin alovları içərisinə atır, üç-dörd günlük çağaları süngünün ucunda oynadır, baş götürüb qaçan valideynlərin atıb getdikləri südəmər körpələrin, demək olar ki, hamısını öldürür, valideynlərin özlərini isə yaxaladıqları yerdə asıb-kəsirdilər...

Müsəlmanları qırıb-çatmaqla yanaşı, ermənilər onların əmlaklarını da məhv edir, az-çox qiymətli olan şeyləri isə özləri ilə aparırdılar. Sonralar təkcə bir yerdə torpağın altından 57 müsəlman qadın və qızın meyiti tapıl-

mışdır. Onların qulaqlarını, burunlarını kəsmiş, qarınlarını yırtmışdılar. Ermənilərin nədənsə öldürməyə macal tapmadıqları qadınları onlar öz hörükləri ilə bir-birinə bağlayaraq başıaçıq, ayağıyalın arabalara mindirib aparır,- yolda isə tüfənglərin qundaqları ilə döyürdülər".

Bütün bu vəhşətlər erməni quldurların indii Xocalıda, Şuşada, Malıbəylidə, Daşaltıda və Qarabağın neçə-neçə obalarında törətdikləri cinayətlərə necə də oxşayır!

Şəhər camaatından 400 milyon manatlıq daş-qaş və əmlak oğurlanmışdır. Xalqın bir çox ziyarətgahları və tarix abidələri dağıdılıb yerlə yeksan edilmişdir. Uzaqvuran toplarla Təzəpir məscidi zədələnmişdir. Daşnaklar Bakıda dünya memarlığının incilərindən sayılan "İsmailiyyə" binasına od vurub yandırmışlar.

İstintaq Komissiyasının bu vəhşilik barəsində materiallarında yazılmışdır: "Martın 20-də bir erməni zabit yanında da üç erməni əsgər "Kaspi" qəzeti redaksiyasının və "İsmailiyyə" müsəlman xeyriyyə cəmiyyətinin binaları arasındakı dalana gəldi və "İsmailiyyə" binasına daxil oldu. Bir azdan binanın pəncərələrindən tüstü və alov göründü. Bakı müsəlmanlarının iftixarı sayılan, həm də bütün şəhərin yaraşığı olan bu əzəmətli bina yanğından məhv oldu. Yanğını söndürməyə adam yox idi, çünki müsəlmanlar küçəyə çıxa bilmirdilər, onları pulemyotlarla və top-tüfənglə atəşə tuturdular".

Həmin zabit "daşnaksütyun" partiyasının görkəmli xadimi Tatevos Əmirov idi. Bu həmin Tatevosdur ki, uzun illər ərzində tarix və ədəbiyyatımız, mətbuatımız onu "yenilməz inqilabçı", xalqlar dostluğu uğrunda mətin mübariz kimi təbliğ etmişdir.

Talançılar "Kaspi" qəzetinin redaksiyası və "Dağıstan" mehmanxanasının binalarını, "İslamiyyə"ni də yandırmışlar.

Bu müəssisələr təkcə Azərbaycan müsəlmanlarının deyil, bütün Qafqaz müsəlmanlarının da həyatında böyük rol oynayır. Məsələn, "İsmailiyyə"də Bakı müsəlman xeyriyyə cəmiyyəti, Qafqaz müsəlman komitələri yerləşirdi, burada həmin təşkilatlara məxsus pul və sənədlər saxlanılırdı, müsəlmanların yığıncaq və qurultayları keçirilirdi. "Kaspi" qəzeti redaksiyasında Azərbaycan dilində kitablar nəşr edilirdi. Bina yandırılan vaxtadək burada Quranın yenicə çap edilmiş 5.000 nüsxəsi saxlanılırdı. Onların hamısı yanıb külə dönmüşdür.

Mart talanlarında yaxşı təşkil olunmuş hərbi hissələrlə yanaşı, erməni ziyalıların, gənclərin nümayəndələri də işitrak edirdilər. İstintaq komissiyasının materiallarında göstərilirdi ki, "erməni əhalinin bütün siniflərinin nümayəndələri bu "müharibə"də iştirak etməyi özlərinə borc bilirdilər. Burada neftxudalar, mühəndislər, həkimlər kontor işçiləri var idi, bir sözlə, erməni əhalinin bütün təbəqələri öz "vətəndaş borcu"nu yerinə yetirirdi".

İstintaq komissiyasının materiallarında insanı sarsıdan yırtıcılıq faktları gətirilir.

Fəhlə, əsgər və matros deputatları sovetinin keçmiş üzvü, "Nikolay Bunyatov" paraxodu komandirinin köməkçisi Kazım Axundova Bakının Çəmbərəkənd adlandırılan dağüstü hissəsinin mühafizəsi üçün martın 24-də təyyarəçi Rozenblyumun başçılığı ilə 10 silahlı matros göndərilmişdir. Axundov martın 25-dən Nikolayev küçəsindəki meyitlərin yığışdırılmasına başladı. Onların arasında süngülərlə didik-didik edilmiş və qılıncla tikə-tikə doğranmış 3 müsəlman gimnaziyasının, 11 gimnaziyaçı qızın, bir rus qadının, 3-5 yaşlarında üç müsəlman oğlan uşağının, 8 rus kişisinin, 19 iran təbəəli müsəlman qadının və müxtəlif peşə sahibləri olan 67 azərbaycanlının meyitləri var idi. Bundan başqa "Vulkan" cəmiyyətinin köhnə yanalma körpüsünə müsəlman kişilərin, qadın və uşaqların 6.748 meyiti gətirilmişdi. Axundov öz tanışı texnik Vladimir Sokolovu "Kərpicxana" deyilən yerə aparmışdı. Burada o, üç fotoşəkil çəkmişdi. Birinci şəkildə başında güllə yarası bədənində beş süngü yarası olan və sağ körpücük sümüyünə qılınc zərbəsi endirilmiş qadın meyiti təsvir olunmuşdur. Onun sağ döşü üsitündə hələ də sağ olan körpə uzanmışdır. Anasının döşünü əmən bu körpənin ayağında süngü yarası vardır.

İkinci şəkildə iri mismarla divara vurulmuş iki yaşlı uşaq təsvir edilmişdir. Mismarın başından aydın görünür ki, onu divara daşla vurmuşlar. Daş elə oradaca idi.

Üçüncü şəkildə 13-14 yaşlı qızın meyitidir. Biçarənin bədənindən görünür ki, onu bir dəstə kişi (əgər bu alçaqlara "kişi" demək mümkündürsə) zorlamışdır.

Axundovla Sokolov dördüncü evə daxil olduqda onlar dəhşətli bir mənzərə görmüşdülər: geniş bir otağın döşəməsi üstündə 22-23 yaşlı çılpaq bir qadının, iki qarının, 6 yaşlı qızın, 8 yaşlı oğlanın və südəmər körpənin meyitləri var idi. Körpənin əl-ayağını itlər gəmirib yemişdi. Təsvir olunan mənzərə Sokolova elə ağır təsir göstərmişdi ki, o, daha fotoşəkil çəkə bilməmişdi.

Talançılar hətta öz tanışlarına da rəhm etmirdilər. Məsələn, martın 20-də Stepan Lalayev erməni əsgərlərdən ibarət dəstə ilə Vorontsov küçəsində yaşayan həkim Bəybala bəy Sultanovun mənzilinə soxulmuş və revolverini çıxarıb onu öldürmüşdür. Həyətə düşən Lalayev müsəlman dalandarı, onun arvadını və iki yaşlı oğlunu da güllələmişdir. 30-dək silahlı erməni Məşədi Əhməd Rəhim oğlunun evinə soxulmuş, 34.840 manat dəyərində qiymətli əşya oğurlamışdır. Məşədi Əhməd cinayətkarlar arasında qorşuları - dərzi Haykı və dükançı Zexuşu tanımışdır.

Mart talanları hələ 1917-ci ildən "Daşnaksütyun" partiyası və Erməni Milli Komitəsi tərəfindən hazırlanırdı. Onlar müsəlmanları silahlı çıxışa təhrik etməyə dəfələrlə cəhd göstərmişdilər, məqsədləri də sonra onları cismən məhv etmək idi. Adamların qətlə yetirilməsi və müsəlman məhəllələrinin darmadağın edilməsi şəhərin hər

yerində mütəşəkkil erməni hərbi hissələri və ekstremist ünsürlər tərəfindən planlı surətdə, qabaqcadan müəyyənləşdirilimiş sistem üzrə həyata keçirilirdi.

Bakıda baş vermiş faciəli hadisələr şəhərə olduqca böyük ziyan vurmuşdur. Epidemiya xəstəlikləri tüğyan edərək minlərlə insanı qırmış, əhalinin su, ərzaqla təchizatı dayanmışdır. Bazar və mağazalardan, demək olar, bütün ərzaq məhsulları yoxa çıxmışdır. Talançılar olan-qalan ərzaq ehtiyatlarını toplayıb aparmışdılar. Mətbuat yazırdı ki, "əhali aclıqdan əməlli-başlı zillət çəkirdi".

Qədim Azərbaycan şəhəri Şamaxı dəhşətli talan və vəhşiliklərə məruz qalmışdır. Burada bədnam S. Lalayevin başçılıq etdiyi əsgərlər və T. Əmirovun dəstəsi azğınlaşaraq müsəlmanları soyub-talayır və qırırdılar. Şamaxının müsəlmanlar yaşayan hissəsinin hamısına od vurulmuşdu. On üç məhəllə məscidi və məşhur müqəddəs ocaq - Cümə məscidi yandırılmışdı. Bu məscid müsəlmanlara həm bir qibləgah kimi, həm də qədim abidə kimi əziz idi. Erməni quldurlar minlərlə dinc adamı qətlə yetirmişdi.

Şamaxıda böyük hörmət sahibi olan axund Cəfərquluya olmazın işgəncələri verilmişdi. Ermənilər ona axund olduğu məsciddə dəhşətli əzab-əziyyət verərək, bu Allah bəndəsinin saqqalının tüklərini bir-bir yolmuş, dişlərini, gözlərini çıxarmış, qulaqlarını və burnunu kəsmişdilər. Ermənilər axunda pənah gətirmiş saysız-hesabsız qadın və uşağı da öldürmüşdülər.

Şamaxı qəzasının müsəlmanlar yaşayan təxminən 80 kəndinin də bu cür faciəsi olmuşdur. Daşnakların törətdiyi vəhşiliklərin həddi-hüdudu yox idi.

1918-ci il martın 30-da "Azərbaycan" qəzetində Fövqəladə İstintaq Komissiyyasının "Çağırış"ı dərc edilmişdir. Komissiyanın sədri Ə. Xasməmmədovun imzaladığı bu sənəddə deyilirdi: "Şamaxının özündən yalnız xarabalıqlar qalmışdır. Şəhərin müsəlman hissəsindəki bu xarabalıqlarda məscidlərin ən qədimi, 800 ildən çox tarixi olan Cümə məscidinin ancaq yanıb qaralmış minarələri görünür, şəhərin on beş minlik müsəlman əhalisindən sağ qalanlar isə bütün Zaqafqaziyaya dağılmış, əllərində qoltuq ağacı və bellərində torba qapı-qapı düşüb dilənirlər ki, acından ölməsinlər. Adlarını "bolşevik" qoyan qaçaq-quldur dəstələrinin əlindən qaçıb can qurtaran əhalinin qalan hissəsi türk qoşunları Zaqafqaziyaya gəldikdən sonra öz el-obalarına qayıtmışdır. Onlar qayıdıb gəldikdə əsrlərdən bəri yaşadıqları ocaqlarını yandırılmış və yerlə-yeksan edilmiş halda görmüşlər.

"Çağırış" bu sözlərlə qurtarırdı: "Şamaxı qəzasının zərər çəkmiş əhalisinə yardım göstərmək hər bir vətəndaşın, xüsusən, müsəlmanın vətəndaş vəzifəsi və mənəvi borcudur. Vətəndaş müsəlmanlar, həlak olan Şirvanı xilas edin!".

Fövqəladə İstintaq Komissiyasının üzvləri - Gəncə quberniyasının Nuxa və Areş qəzalarında yoxlama keçirmiş N. Klassovskinin məruzəsində dəqiqləşdirilmişdir ki, "... təkcə təsvir edilən qəzaların ermənіləri deyil, həm də başlıca olaraq, gəlmə hərbi hissələr və İrəvan quberniyasının ermənіləri müsəlman əhalisini müntəzəm surətdə qırmaq, kəndləri dağıtmaq və dövlət hakimiyyət orqanlarını və müsəlman ərazilərini tutmaq üçün bütöv bir plan hazırlamışdılar".

Lənkəranda iki minlik daşnak dəstəsi azğınlıq etmiş və müsəlmanlara divan tutmuşdur.

Göyçay qəzasının Kürdəmir kəndində daşnaklar 56 ev və dükanı, 127 malikanəni, iki məscidi yandırmış, yerli İmamın mənzilini talan etmişlər. Mənzildəki Quranın təfsirinə dair zəngin kitabxanadan tonqal düzəldilmiş, Quranın özü isə təhqir olunmuşdur. Göyçay qəzasındakı Cəngi (Çaylı), Qaravəlli, Qarabucaq, Mustafanı, Xəlil-Qasımbəy, Ərəb-Mehdibəyli, Sadalı kəndləri və digər obalar da darmadağın edilmişdir.

Daşnaklar tərəfindən azərbaycanlı əhalinin küitləvi surətdə məhv edilməsini istər hüquqi baxımdan, istərsə də mənəvi cəhətdən soyqırımı kimi qiymətləndirmək lazımdır.

O vaxtlar Azərbaycan Demokratik Respublikasının düşdüyü mürəkkəb siyasi vəziyyət daşnakların cinayətlərinin təhqiqini başa çatdırmağa mane olmuş, onların təşkilatçılarını və iştirakçılarını məsuliyyətə cəlb etməyə imkan verməmişdir.

İndi də gec deyil. Faciəvi reallığımız bu vəhşilik hərəkətini unutmağa imkan vermir. Zənnimcə, Azərbaycan əhalisinin kütləvi şəkildə qırılması hallarını işıqlandıran tarixi materialların hamısını hərtərəfli öyrənmək üçün Azərbaycan Respublikasının Milli Məclisi deputatlarından, hüquqçulardan, tarixçilərdən, iqtisadçılardan və arxiv işçilərindən ibarət nüfuzlu komissiya yaradılması haqqında xüsusi qərar qəbul etməlidir. Bu sənəd qəbul edildikdən sonra Milli Məclis onu istər ölkəmizdə, istərsə də xaricdə geniş yaymalıdır.

Fövqəladə İstintaq Komissiyasının materiallarının xeyli hissəsi - dindirmə protokolları, arayışlar, qərarlar, ADR hökumətinin və parlamentinin, Ədliyyə Nazirliyinin və Xarici işlər Nazirliyinin ünvanlarına göndərilmiş məktublar, respublikanın, Moskvanın arxivlərində saxlanılır. O vaxtlar Versal sülh konfransında Azərbaycan nümayəndə heyətinin sərəncamında olmuşbir çox sənədləri Fransa, Türkiyə və digər ölkələrin arxivlərindən xahiş edib almaq lazımdır.

İctimaiyyətçilərimiz mart hadisələri ilə bağlı problemlərin dərindən öyrənilməsi sahəsində böyük tədqiqat işi aparmalı, kök salmış yanlış dəyərləri yenidən nəzərdən keçirib dəqiqləşdirməli və tarixi həqiqəti yenidən bərpa etməlidirlər.

1918-ci ildə Zaqafqaziya respublikalarının elan edilməsi ilə əlaqədar millətlərarası münaqişələr xüsusilə şid-

dətləndi və geniş miqyas aldı. 1918-1920-ci illərdə Zaqafqaziya əslində qanlı toqquşmalar meydanına çevrilmişdi. Diyarın qarışıq etnik tərkibi bunun üçün zəmin yaradırdı. Ən müxtəlif "prinsiplər" işə salınmışdı - tarixi hüquq, iqtisadi şərtlər, əhalinin milli tərkibi, dövlət sərhədlərinin qorunması, onun təbii sərhədləri prinsipi, tarixi ənənələri və s. və i. a. başlıca səbəblərdən biri də hakim dairələrin şovinist niyyətləri, bütün qaydalara məhəl qoymayaraq öz ərazisini qonşunun ərazisi hesabına genişləndirmək cəhdləri idi. Zaqafqaziyada "parçala və hökm sür" siyasəti yeridən imperialist dövlətləri ərazi üstündə mübahisələri və münaqişələri qızışdırırdılar.

Bu mübahisələr, münaqişələr və müharibələr cəmiyyətin bütün fikir-zikrini, özünə cəlb edir və rəhbər siyasi dairələrin diqqətini respublikaların sosial cəhətdən yeniləşməsi, iqtisadi və mədəni inkişafı ilə bağlı ümdə problemlərdən yayındırırdı.

Azərbaycan xalqı respublikanın istiqlaliyyətini və ərazi bütövlüyünü fədakarlıqla müdafiə edir, erməni qəsbkarlara qarşı ağır, qanlı mübarizədə öz müqəddəs torpağını igidliklə qoruyurdu.

ADR Xarici İşlər Nazirliyinin məlumatına görə, 1920-ci ilin əvvəllərinədək Azərbaycanın ərazisi 113.896 kvadrat kilometrə bərabər idi. Onun 97.298 kvadrat kilometrini mübahisəsiz, 16.599 kvadrat kilometrini isə mübahisəli ərazilər təşkil edirdi. Mübahisəsiz ərazilərə aşağıdakı ərazilər daxil idi:

- Bakı quberniyası (39.075 kvadrat kilometr) və onun Cavad (Salyan) Lənkəran, Göyçay, Şamaxı və Quba qəzaları;

- Gəncə quberniyası (44.371 kvadrat kilometr) və onun Gəncə, Şamxor (Şəmkir), Qazax, Tovuz, Nuxa (Şəki), Şuşa, Ağdaş (Areş), Cavanşir (Tərtər), Cəbrayıl (Qaryagin), Zəngəzur qəzaları;

- Zaqatala quberniyası (3.993 kvadrat kilometr) və onun (bu quberniyada qəzalar yox idi) Əliabad, Car-Muxax, Muxax, Qax, Almalı, Balakən sahələri;

- Naxçıvan və Şərur-Dərələyəz qəzaları (9.859 kvadrat kilometr).

Mübahisəli ərazilərə İrəvan quberniyasının İrəvan, Sürməli, Yeni Bəyazid və Eçmiədzin qəzalarının, Tiflis quberniyasının Tiflis, Siqnax, Axalsixi və Borçalı qəzalarının azərbaycanlılar yaşayan rayonları aid idi.

Aşağıdakı ərazilər Zaqafqaziya respublikaları arasında uzun sürən mübahisələrin, toqquşmaların və müharibələrin obyektləri olmuşdur:

- Zaqatala mahalı. Burada əsas etibarı ilə azərbaycanlılar, habelə ləzgilər, avarlar, saxurlar və laklar yaşayırdılar. Mahal əhalisinin 85 min nəfəri, yaxud onun bütün sakinlərinin 92 faizi müsəlmanlar idi. Mahal Azərbaycanın inzibati tabeliyində idi. Gürcüstan bu mahal barədə iddia irəli sürürdü.

- Siqnax qəzası. Onun qərb hissəsində gürcülər, şərq hissəsində isə azərbaycanlılar məskunlaşmışdılar. Gürcülər qəzanın azərbaycanlılar yaşayan şərq hissinə də göz dikmiş və əslində oranı tutmuşdular.

- Qarayazı düzü. Gəncə-Qazax düzənliyinin davamı olaraq, onunla istər etnik, istərsə də iqtisadi cəhətdən tam vahid təşkil edirdi. Sakinlərinin təxminən 90 faizi azərbaycanlılar idi. Gürcüstan tərəfindən qəsb olunmuşdu. Səbəb onun Tiflis qəzasında olması idi. Azərbaycan bu torpağın qaytarılması uğrunda çıxış edirdi.

- Borçalı qəzası. Onun da Axaltsixi qəzasının sərhədlərinədək orta hissəsində azərbaycanlılar (38 min nəfər), cənub hissəsində ermənilər (34 min nəfər), şimal hissəsində isə gürcülər (4 min nəfər) məskunlaşmışdılar. Azərbaycan qəzanın bütün bütün orta şissəsin iddiasında idi. Çünki əhalinin 93 faizini azərbaycanlılar təşkil edirdilər. Ermənistan qəzanın cənub hissəsinə göz dikmişdi. Gürcüstan isə "tarixi ənənələr"ə isnad edərək qəzanın bütün ərazisinə yiyələnməyə çalışırdı.

- Gəncə quberniyasının Qazax qəzası. Onun aran hissəsində azərbaycanlılar (bütün əhalinin 50.9 faizini təşkil edirdilər), dağlıq hissəsində isə ermənilər (45,7 faiz) yaşayırdılar. Ermənilər qəzanın bütün ərazisini öz torpaqlarına qatmağa can atırdılar.

- Qarabağın dağətəyi hissəsində əsasən ermənilər məskunlaşmışdılar. Ermənistan bu topaqların iddiasında idi.

Bütün Qarabağda 170 min erməni, 415 min azərbaycanlı və kürd yaşayırdı. Qarabağda erməni əhalinin sayının xeyli artması ermənilərin buraya Türkiyə və İrandan elliklə köçüb gəlməsi ilə, habelə çar hökumətinin köçürmə siyasəti ilə bağlı idi. O, buna azərbaycanlı əhalinin yığcam kütləsini parçalamaq vasitəsi kimi baxırdı.

- Axaltsixi qəzası. Burada 52 min nəfərdən çox azərbaycanlı (bütün qəza əhalisinin 73,5 faizi), 23 min erməni (12,5 faizi), 10 min gürcü (8,8 faiz) yaşayırdı. Türklər çıxıb getdikdən sonra qəza gürcülər tərəfindən tutulmuşdur, Azərbaycan Respublikası bu qəza ilə bağlı iddia irəli sürürdü.

- Naxçıvan və Şərur-Dərələyəz qəzaları. Azərbaycanlılar məskunlaşmışdılar. Adda-budda ermənilər də vardı. Ermənistan bu qəzaların iddiasında idi.

- Zəngəzur qəzası. İstər əhalisinin sayına, istərsə də ərazisinin sahəsinə görə təkcə Gəncə quberniyasının deyil, həm də bütün Azərbaycanın ən böyük qəzası idi. Burada 123 min nəfərdən çox azərbaycanlı və 99,2 min erməni yaşayırdı. Qəzanın azərbaycanlı əhalisi daşnaklar tərəfindən dəhşətli soyqırımına məruz qalmış və öz yurd-yuvalarından qovulub didərgin salınmışdı. 1921-ci ilin başlanğıcınadək qəza Ermənistanın inzibati tabeliyində olmuşdur.

1918-1919-cu illərin qışında, Parisdə beynəlxalq sülh konfransı ərəfəsində millətlərarası toqquşmalar daha da şiddətlənərək, ən yüksək həddinə çatmışdı. Bu da təsadüfi deyildi. Məhz həmin dövrdə daşnak ermənistanı özü-

nün "böyük ermənistan" ideyasını həyata keçirmək üçün Azərbaycan Respublikasına qarşı geniş miqyasda döyüş əməliyyatlarına, Gürcüstana qarşı müharibəyə başlamışdı. Daşnakların məkrli və mənhus niyyətləri qısa müddətdə İrəvan quberniyasını, Qarabağı, Naxçıvanı, Şərur-Dərələyəzi, Ordubadı, Zəngəzuru və digər rayonları azərbaycanlılardan tamamilə təmizləmək, bu yerlərə ermənilər köçürmək, onları erməni vilayətləri elan etmək və Paris konfransında həmin ərazilərin Ermənistana mənsubiyyətinin böyük dövlətlər tərəfindən rəsmən tanınmasına nail olmaq idi.

Ermənistan hökuməti qonşu respublikalar hesabına "həyati əhəmiyyətli məkanı genişləndirmək" barədə öz planlarını gizlətmirdi. 1919-cu il aprelin 9-da "Borba" qəzetində "Temps" qəzetinin 1919-cu il 27 fevral tarixli nömrəsindən götürülmüş "Sülh konfransında erməni məsələsi" sərlövhəsi ilə məqalə dərc edilmişdi. Məqalənin bir yerində deyilirdi: "Bugün böyük dövlətlər şurası tərəfindən dinlənilən erməni nümayəndələr Ermənistan Respublikası üçün öz iddialarını yalnız Ermənistan ərazisi ilə sözün əsl mənasında məhdudlaşdırmırlar. Yeri gəlmişkən, onların iddiaları qonşu müsəlman vilayətlərini də əhatə edir..." Belə bir tələb qoyulurdu ki, yaradılan yeni erməni dövlətinin açıq dənizə çıxışı olmalıdır. Nümayəndə heyəti riyakarcasına bildirirdi: "Hər tərəfdən düşmən və Qərb mədəniyyətinə yad ünsürlərlə əhatə olunmuş bir xalq kimi biz dənizə çıxış olmadan, nə öz təhlükəsizliyimizi, nə də öz iqtisadi və mədəni inkişafımızı təmin edə bilərik".

Bədnam general Andranikin hərbi hissələri və quldur dəstələri daşnakların ilhaqçılıq planlarının həyata keçirilməsində zərbə qüvvəsi kimi çıxış edirdi. O illərin saysız-hesabsız sənədləri və mətbuat xəbərləri sübut edir ki, Andranikin dəstələri Azərbaycanın dinc əhalisinə amansızcasına divan tutur, talanlar, zorakılıqlar, qətllər, edamlar, dağıntılar törədirdilər.

Andranik erməni burjuaziyasının ən mürtəce cinahının siyasətinin təbliğçisi kimi çıxış edirdi, onun əməlləri "Daşnaksütyun" millətçi burjua partiyasının avantürist xəttinə uyğun gəlirdi. O, Antanta imperialistlərinin Zaqafqaziya xalqlarını əsarət altına almaq planlarının həyata keçirilməsində əlaltı kimi çıxış edirdi. Azərbaycanlı əhalinin kütləvi surətdə qırılıb-çatılması onun adı ilə bağlıdır. Onun başkəsənləri Azərbaycanın heç bir günah sahibi olmayan on minlərlə dinc əməkçisini məhv etmişdir. Andranikin dəstələri İrəvan quberniyasının müsəlman rayonlarına, Naxçıvan qəzasına, Zəngəzura, Qarabağa soxularaq yüzlərlə azərbaycanlı kəndini yandırmış və qılıncdan keçirmiş, dinc camaata qəddarcasına divan tutmuşdu.

1918-ci il dekabrın 10-da "Azərbaycan" qəzeti Zəngəzurdan alınmış teleqrama əsasən yazırdı: "Camaat vahimə içərisindədir. İrana qaçmağa çalışır, Arazda çoxlu qadın və uşaq batıb həlak olmuşdur. Sağ qalan sakinlər çöl-biyabanda qalmış, Arazın sahillərini gəzib dolaşırlar... Andranikin dəstəsi hər cür müdafiədən kənarda qalmış müsəlmanları qırmağı qəti qərara almışdır".

Ordubad Milli komitəsinin sədri Mirhidayət Seyidzadə 1918-ci il dekabrın 22-də Azərbaycan hökumətinə göndərdiyi məktubda bildirirdi ki, son vaxtlar daşnaklar Zəngəzur qəzası, Şərur və İrəvan qəzası barəsində yenə də düşmənçilik hərəkətlərinə əl atmışlar; onlar kəndlərimizə basqınlar edir, camaatı soyub-talayır və qırırlar. Silahlı daşnak dəstələri Kəmərli və Sədərək kəndlərini məhv etmişlər. Zəngəzur qəzasında 20 kəndin sakinləri öz doğma ocaqlarını ataraq Ordubada, Qarabağa və İrana qaçıb canlarını qurtarmışlar. Kəndlərdə bütün Zəngəzur, Şərur, Naxçıvan və Ordubad qəzalarının Emənistana birləşdirildiyi barədə Ararat hökumətinin elanları yapışdırılmışdır. Məqsəd sülh konfransında bu yerlər üzərində öz hüquqlarını sübut etmək və onları erməni torpaqları kimi qələmə vermək üçün həmin qəzaları müsəlmanlardan təmizləməkdir. Məktubda deyilirdi: "Bu səbəbdən də ermənilər minlərlə sakinlərimizi asıb-kəsir, qanımız sel-su kimi axaraq çölləri və dağları al rəngə boyayır, yüzlərlə kənd yerlə yeksan edilir, xarabalığa çevrilir və namusumuz ermənilərin ayaqları altında tapdalanır. Hara baxırsansa, hər yerdə müsəlman qaçqınlar görürsən, hər yerdə qadınların və qızların ah-naləsini eşidirsən. Gəncə və Bakıdakı qanbir, canbir xalqımız torpağımızda yaşayan öz qardaşlarını, nəhayət, nə vaxt yada salacaqdır!".

İrəvan quberniyasının müsəlman əhalisi Azərbaycan Respublikası hökumətindən xahiş etmişdi ki, diyarın əhalisinin tamamilə qırılması və didərgin salınması üçün təcili və qəti tədbirlər görsün, onlara lazımi miqdarda qoşun göndərsin və onların acınacaqlı vəziyyəti barədə mətbuat vasitəsilə İslam və Millət naminə bütün dövlətlərə və xalqlara məlumat versin.

ADR parlamenti və hökuməti qanlı zorakılığın qarşısını almaq üçün mümkün olan bütün tədbirləri görmüşlər. Andranikin və onun quldur dəstələrinin Qarbağda azğınlıqları barədə məsələ 1918-ci il dekabrın 20-də respublika parlamentinin növbəlidə iclasında müzakirə olunmuşdur. Parlamentin sosialist fraksiyasının üzvü Əhməd Pepinov öz çıxışında demişdir: "...Düşünmək lazımdır ki, Andranik Qarabağın müsəlman əhalisini heç də təkcə özünün qan axıtmaq həvəsinə görə, heç də qan hərisliyinə meyl etməsinə görə qırmır, onun müəyyən məqsədləri olmalıdır. Əgər Gəncə quberniyasının dağlıq vilayətlərini süni surətdə ermənləşdirmək barəsində "Daşnaksütyun" partiyasının həmişəki kələyini yada salsaq, bu məqsədlər aydın olar".

Ermənistanın şovinist dairələri öz ilhaqçılıq planlarını "Müstəqil Qarabağ Respublikası", "vahid Rusiya", "Sovet partiyasının Qarabağ hissəsi" və s. bayraqlar altında həyata keçirməyə can atırdılar.

ADR hökuməti Qarabağda siyasi vəziyyəti sabitləşdirmək, Azərbaycan xalqını daşnak ermənistanı tərəfdən

fitnəkarlıqlardan qorumaq üçün konkret tədbirlər görürdü. Hər şeydən əvvəl bölgədə dövlət hakimiyyətini möhkəmlətmək lazım idi. 1919-cu ilin yanvarında Azərbaycan hökumətinin qərarı ilə Qarabağda baş qubernatorluğun yaradılması mühüm tədbirlərdən biri oldu. Sultan bəy Sultanov baş qubernator təyin edildi. O, həmin vəzifəyə ittifaq komandanlığı tərəfindən aprelin 3-də rəsmən təsdiq olunmuşdur.

Ermənistan respublikası Qarabağ barəsindəki iddia ilə Azərbaycan hökumətinə müraciət edərək, onun baş qubernatorluq tətbiq olunması haqqında qərarına qarşı etirazını bildirmiş və bunu "ermənistanın ərazi hüquqları"na qarşı qəsd kimi qiymətləndirmişdir. ADR hökuməti daşnakların həyasız iddialarını layiqincə və əsaslı şəkildə dəf etmişdir. Ermənistan xarici işlər nazirliyinə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin göndərdiyi teleqramda deyilirdi: "Azərbaycan Respublikasının Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur rayonlarında müvəqqəti baş qubernatorluq təsis edilməsi haqqında qərara qarşı sizin hökumətinizin etirazı əsaslı deyildir, çünki bu rayonlar Azərbaycanın heç bir mübahisə doğurmayan və ayrılmaz hissəsidir. Həyatın irəli sürdüyü şərtlərə uyğun olaraq, öz ərazisində qayda-qanunu bərpa etmək və milliyyətinə fərq qoymadan öz vətəndaşlarının həyatını, namusunu və əmlakını qorumaq üçün güclü tədbirlər görmək ali idarə orqanı kimi Azərbaycan hökumətinin nəinki hüququ, hətta mənəvi vəzifəsidir... Buna görə də baş qubernator təyin olunması haqqında hökumətimizin qərarı Ermənistan ərazi hüquqlarına qarşı əsla qəsb hesab edilə bilməz, halbuki bununla əlaqədar sizin hökumətinizin etirazını daxili işlərimizə qarışmaq cəhdi ilə yanaşı, suverenliyimizə qəsd kimi qiymətləndirmək olar".

1919-cu il yanvarın 23-də "Azərbaycan" qəzeti yazırdı: "Əzəli Azərbaycan vilayəti və Azərbaycan xalqının tarixi beşiyi olan Qarabağ onun barəsində heç bir hüququ olmayan və məsələni silah gücünə həll etməyə can atan daşnak quldur dəstələri və ya müxtəlif andraniklər tərəfindən hər cür fitnə-fəsadlardan özünü, nəhayət, xilas etməlidir. Ermənistanın Qarabağ barəsində iddiaları Azərbaycanın əzəldən bir parçası olan Qarbağın nə tarixi ilə, nə də müasir vəziyyəti ilə hesablaşmayan sırf imperialist niyyətlərinə əsaslanır".

Qəzet yazırdı: "Azərbaycan xalqının bütün həyatı Qarabağla elə sıx bağlıdır ki, heç bir azərbaycanlı Zaqafqaziyada türk xalqının məskunlaşdığı diyarın ürəyi olan bu vilayət barəsində öz ayrılmaz hüququna heç vaxt əsla şübhə etməmişdir.

Qarabağın müdafiəsi öz doğma diyarını qanlı döyüşlərdə qəhrəmancasına qoruyan bütün Azərbaycan xalqının, sözün əsl mənasında, müqəddəs bir işinə çevrilmişdi.

Erməni qoşunlar Andranikin dəstələri ilə əl-ələ verib İrəvan quberniyasında azərbaycanlılar yaşayan rayonlarda öz hakimiyyətini ən amansız və ən qəddar vasitələrlə bərqərar edirdilər.

1917-ci ildə buraxılmış Qafqaz təqviminə görə, İrəvan quberniyasında təxminən 423 min nəfər azərbaycanlı yaşayırdı ki, bu da quberniyanın bütün əhalisinin 37.7 faizi demək idi. Azərbaycanlılar İrəvan və Sürməli qəzaları əhalisinin yarısından çoxunu, Eçmiədzin və Yeni Bəyazid qəzaları əhalisinin təqribən üçdə bir hissəsini təşkil edirlər.

Erməni daşnak respublikası minlərlə azərbaycanlını qırıb-çatır və doğma yurd-yuvalarından qovub pərən-pərən salır, onların ev-eşiklərinə erməniləri doldururdu.

Azərbaycan mətbuatı "Daşnaksütyun" partiyasının mürtəce siyasətini "İrəvan quberniyasını erməniləşdirməyə dair son dərəcə qanlı plan" kimi səciyyələndirmişdir.

İrəvan quberniyasında baş vermiş qanlı hadisələrlə əlaqədar 1919-cu il yanvarın 26-da parlamentin iclasında M. Ə. Rəsulzadə növbəti bəyanatla çıxış etmişdir. Yanvarın 28-də "Azərbaycan" qəzeti onun çıxışını şərh edərək yazmışdır: "Naxçıvan qəzasının türk əhalisinin vəziyyəti barəsində və ümumiyyətlə, İrəvan quberniyasındakı türk vilayətlərinin vəziyyəti barəsində parlamentdə M. Ə. Rəsulzadənin növbədənkənar bəyanatı göstərir ki, general andranikin daşnak dəstələri öz qanlı əməllərini Qarabağdan İrəvan quberniyasının qonşu qəzasına keçirmişdir. Bu sübut edir ki, erməni şovinistlər, imperialist dairələri öz dövlətini türk əhalisinin saysız-hesabsız qurbanlarının qanı üzərində qurmaqdadır. Bu, dövlət siyasəti səviyyəsinə qaldırılmışdır".

Olduqca böyük strateji, siyasi və iqtisadi əhəmiyyətə malik Naxçıvan diyarının ələ keçirilməsi daşnakların "böyük Ermənistan" yaratmaq planında xüsusi yer tuturdu. Bu bölgə iri dəmir yolu qovşağı məntəqəsi idi. Buradan bir xətt İranın Maku xanlığına, oradan da Türkiyəyə, başqa bir xətt isə İrana gedirdi. Bütün bunlar daşnakları cəlb edir, onların dincliyinə haram qatırdı.

1918-ci ildə türk qoşunları çıxıb getdikdən sonra, Ermənistan hökumətinin idarə etmək perspektivləri meydana gəldiyi vaxtdan diyarın əhalisi müvəqqəti müstəqil "Türk - Araz Respublikası" elan etdi. Onun yaradılması, bir tərəfdən, ermənilərin iddialarını dəf etməyə, digər tərəfdən isə diyarı Azərbaycanla birləşdirməyə hazırlıq görməyə imkan verirdi. Naxçıvan diyarının bütün əhalisi Azərbaycanla birləşməyə təbii olaraq meyl göstərirdi.

1919-cu il fevralın 13-də "Azərbaycan" qəzeti ermənilərin "Zəmanəmiz" qəzetinin fitnəkar çıxışlarını ifşa edərək yazırdı: "Azərbaycanın Naxçıvanla və Zaqafqaziyada türklərin yığcam yaşadıqları bütün ərazilərlə birləşmək kimi təbii niyyətini qəzet "panislamizm" adlandırır, özü də elə bir vaxtda ki, Türkiyə və Qafqaz Ermənistanın birləşdirilməsi cəhdi "panermənizm" adlandırılmır".

1919-cu ilin martında Bakıya Türk - Araz Respublikasının xüsusi nümayəndə heyəti göndərilmişdi. Ona bir-

ləşmək məsələsinin həlli üçün öz hökuməti tərəfindən geniş və fövqəladə səlahiyyət verilmişdi. Nümayəndə heyətinə görkəmli Azərbaycan şairi və dramaturq Hüseyn Cavid də daxil idi.

Daşnakların azğınlığından, onların əzəli Azərbaycan torpaqlarına əl uzatmasından yaranan hiddət və qəzəb cəmiyyətin bütün təbəqələrini sıx birləşdirmiş və göstərmişdir ki, dar ayaqda Azərbaycan xalqı, lazım gələrsə, özünün sülhpərvərliyinə baxmayaraq, özünü qətiyyətlə qorumağa, təcavüzkar cəhdlərin qarşısını layiqincə almağa qadirdir. Bir neçə il ərzində Naxçıvan diyarının əhalisi öz istiqlaliyyətini daşnaklardan igidliklə qorumuşdur. Erməni şovinistəlrin diyarı ələ keçirmək cəhdləri boşa çıxarılmışdır. İngiltərə işə qarışmalı olmuşdur. O, diyarı öz qoşunları ilə tutaraq əhalinin açıq etirazlarına baxmayaraq, bu torpaqları zor gücünə daşnaklara vermişdir. Lakin ingilis qoşunları çıxıb getdikdən sonra dərhal hər yerdə əsl partizan müharibəsi başlanmışdır. Nizami daşnak qoşunları darmadağın edilmişdir.

Son dərəcə səbatsız vəziyyətdə, dövlətlərarası sərhədlərin tənzimlənmədiyi şəraitdə ADR qarşısında respublikanın ərazi bütövlüyünü qorumaq kimi çox mürəkkəb vəzifə dururdu. İndiki vəziyyətdə məlum oxşarlıq burada da özünü büruzə verir. Budur, müqəddəs Azərbaycan torpağı yenə də Ermənistan tərəfindən təcavüzkarlıq meydanına çevrilib. Ermənistan rəhbərliyi kütlələr arasında qızışdırılan milli əhval-ruhiyyəyə arxalanaraq 1918-1920-ci illərdə olduğu kimi, yenə də Azərbaycan ərazilərini qəsb etməyi öz dövlət siyasətinin əsas məqsədinə çevirmiş, Azərbaycan xalqına qarşı qaraqışqırıqçı böhtan kampaniyasını getdikcə genişləndirir.

Müstəqil respublikanın mühüm və ayrılmaz atributu kimi güclü, döyüş qabiliyyəti olan ordu yaradılması sahəsində ADR-in əldə etdiyi təcrübə olduqca ibrətamizdir. Respublikanın baş naziri F. X. Xoyski 1918-ci il dekabrın 26-da parlament iclasında hökumətin bəyannaməsi ilə çıxış edərkən demişdi: "Sülhsevərlik istəyi nə qədər böyük olsa da, hökumət xalqın hüquq və mənafelərinin müdafiəsi üçün canlı qüvvəyə - orduya arxalanmalıdır. Beləliklə, hökumətin başlıca vəzifələrindən biri ərazinin bütövlüyünü qorumağa qadir hərbi qüvvə təşkil etməkdən ibarətdir. Söz yox ki, bu qüvvə lazım olan hər şeylə - silah, ərzaq və hər cür başqa hərbi ləvazimatla təmin edilməlidir. Hökumət onun təşkilinə dərhal başlamalıdır".

Hələ 1918-ci ilin sentyabrında Azərbaycan Respublikasının Hərbiyyə Nazirliyi təsis olunmuşdu. Respublika Nazirlər Şurasının sədri F. X. Xoyski nazir, adlı-sanlı artilleriya generalı Səmədbəy Mehmandarov isə onun müavini təyin edilmişdi. Noyabrın 22-də nazirlik ordunun yaradılmasına dinc şəraitdə və metodik surətdə başlamaq üçün Gəncəyə köçdü. Hökumətin 25 dekabr tarixli qərarı ilə S. Mehmandarov Hərbiyyə Naziri, dekabrın 29-da isə artilleriya generalı Əlağa Şıxlinski onun müavini təyin edildilər.

Respublika Dövlət Müdafiə Komitəsi yaradıldı, ona ADR-in baş naziri rəhbərlik edirdi. Respublika parlamenti "Ümumi əsgəri vəzifə haqqında" qanun təsdiq etdi.

Hərbiyyə Nazirliyinin fəaliyyəti, Azərbaycan ordusunun təşkili ADR parlamenti və hökumətinin, bütün Azərbaycan xalqının gündəlik diqqət və qayğı obyekti idi. 1918-ci il dekabrın 7-dən 1919-cu ilin dekabrınadək olan dövr ərzində parlament hərbi məsələlərə dair doqquz qanun layihəsini müzakirə və təsdiq etmişdi. 1919-cu il fevralın 25-də parlament S. Mehmandarovun məruzəsini dinləmişdi. Məruzədə təşkilat, kadr, maliyyə məsələləri işıqlandırılmış, ilkin mərhələdə nazirliyin fəaliyyətinə yekun vurulmuşdu.

Sosialist fraksiyasının üzvü A. Səfikürdski parlament iclasında çıxış edərək demişdi ki, "bu gün bizim qarşımızda çıxış etmiş şəxsin Hərbiyyə Naziri qoyulması sayəsində hərbi işlər yaxşılaşmışdır... Xalq özü başa düşmüşdür ki, öz hüquqlarını və inqilabın qazandığı azadlıqları öz qüvvələri ilə, öz qoşunları ilə qorumaq lazımdır".

S. Mehmandarov məruzəsinin sonunda inamla bildirmişdi: "...Mən bundan sonra da özümün qəbul etdiyim planı həyata keçirəcək və müəyyən edilmiş yolla gedəcəyəm, heç bir qüvvə məni bu yoldan döndərə bilməyəcəkdir".

Azərbaycan ordusu qısa müddətdə, əslində tək bir il - 1919-cu il ərzində yaradılmışdı. Ordunun tərkibinə iki piyada və bir süvari diviziyası, altı piyada alayı - Cavanşir, Gəncə, Zaqatala, Bakı, Quba və Göyçay alayları, iki artilleriya briqadası, üç süvari alayı daxil idi.

Ordu sıralarında ruslar, kürdlər, türklər, farslar, talışlar, tatarlar, gürcülər, yəhudilər, dağlılar və başqa xalqların nümayəndələri azərbaycanlılarla çiyin-çiyinə respublikanı müdafiə edirdilər. Süvari tatar alayı, kürd süvari divizionu və kürd atıcılıq batalyonu, Lənkəran batalyonu və başqa döyüş dəstələri yaradılmışdı.

Ordu o vaxt üçün mükəmməl struktura malik idi. Baş qərargahın baş idarəsi ilə yanaşı müvafiq bölmələri olan baş artilleriya, texniki, intendant, hərbi sanitariya və hərbi baytarlıq idarələri vardı. Respublikanın zonaları - Bakı, Göyçay - Şamaxı, Lənkəran - Salyan, Nuxa - Zaqatala - Ağdaş, Şuşa zonaları üzrə hərbi rəis vəzifəsi təsis edilmişdi; Bakı, Gəncə, Biləcəri, Xaçmaz, Yevlax, Kürdəmir, Poylu, Ağstafa kimi iri dəmiryol stansiyalarında komendantlıqlar fəaliyyət göstərirdi. "Möhkəmləndirilmiş Bakı rayonu" yaradılmasının böyük əhəmiyyəti vardı. Onun rəhbəri eyni zamanda paytaxt qarnizonunun rəisi idi. Hərbi liman rəisi vəzifəsi təsis edilmişdi. Ordu üç zirehli qatara, Xəzərdə bir neçə hərbi gəmiyə malik idi.

Ordu üçün kadrlar Gəncə praporşiklər məktəbində, istehkamçılar, hərbi dəmiryol və hərbi feldşer məktəblərində və başqa məktəblərdə hazırlanırdı. Azərbaycan gəncləri hərbi tədris müəssisələrində təhsilə böyük həvəs

göstərirdilər. Respublika Baş Qərargahının 1919-cu il 18 fevral tarixli "Azərbaycan" qəzetində dərc olunmuş məlumatında deyilirdi: "Bir çox gənclər onları Gəncə hərbi məktəbinə götürmək haqqında vəsatətlə Hərbiyyə Nazirliyinə müraciət edirlər".

Azərbaycan ordusu ixtisaslı hərbi kadrlara malik idi. Generallar Həbibbəy Səlimov, Əbdülhəmidbəy Qaytabaşı, Haşımbəyov, Teymurbəy Novruzov, Firudinbəy Vəzirov, Məmmədmirzə Qacar, İbrahim Usubov və başqaları belə kadrlardan idilər.

Mühəndislik idarəsinin rəisi vəzifəsinə general-leytenant Gennadi Nikolayeviç Tarxanov, nazirliyin hərbi gəmiçilik hissəsinin müdiri vəzifəsinə general-mayor Vasili İvanoviç Dubrovski, baş artilleriya idarəsi rəisinin müavini vəzifəsinə qvardiya polkovniki Vladimir Vladimiroviç Rozenmeyer dəvət edilmişdilər.

Polkovniklər Mehdibəy Sultanov, Nuhbəy Sofiyev, Fərhadbəy Ağalarov, Rzabəy Hacıbəylinski, Rüstəmbəy Şıxlinski, Hüseynbəy Ququşov, Əhmədbəy Dibirov, Əlibəy Əlibəyov, Konstantin Davidoviç Çxeidze, Azadbəy Vəzirov, Yevgeni Serebyakov, podpolkovnik Tərlanbəy Əliyarbəyov, Cümşüdxan Naxçıvanski, Səmədbəy Rəfibəyov, Mahmud Zeynalov, Lətif İbrahimbəyli, Cahangirbəy Qasımbəyov, İsrafilbəy İsrafilov və başqaları diviziya, briqada, alay komandirləri və onların müavinləri, qərargah rəisləri, hərbi rəislər işləyirdilər.

Tarix təkrar olunur: indiki kimi, o vaxt da erməni millətçilər həyasız böhtan, yalan və iftiralar yolu ilə dünya ictimai rəyini Azərbaycan xalqına qarşı qaldırmağa çalışırdılar. Onlar bu məsələdə də Avropa və Amerikadakı erməni lobbilərinin köməyi və yaxından iştirakı ilə çox məkrli məqsədə nail olmuşdular.

Bu arsız yalanlara və cürbəcür uydurma və saxtakarlıqlara Azərbaycan haqqında həqiqəti bütün dünyaya yaymaqla cavab vermək, dünya ictimaiyyətini Azərbaycan xalqının çox zəngin tarixi, mədəniyyəti və gözəl ənənələri, onun sülhsevər niyyət və amalları ilə tanış etmək lazım idi. Bu istiqamətdə ADR parlamenti, hökuməti, nazirlikləri və mətbuatı böyük məqsədyönlü iş aparırdılar. M. Ə. Rəsulzadə deyirdi: "Azərbaycan məsələsi beynəlxalq məsələdir. Azərbaycanın kənardan müdafiəsi və hüquqi cəhətdən tanınması yeni yaradılan dövlətin siyasətinin əsasının əsası olmalıdır".

Azərbaycan Demokratik Respublikası çətin və mürəkkəb xarici siyasi şəraitdə idi. Onun mövcudluğuna şimaldan Denikinin ağqvardiyaçıları təhlükə törədirdilər. Onlar "vahid və bölünməz Rusiya"nı bərpa etməyi, yəni imperiyanın xarabalıqlarında meydana gəlmiş müstəqil Milli dövlətləri ləğv etməyi qarşılarına məqsəd qoymuşdular. Qərbdən daşnak cəlladların viranedici basqınları ara vermirdi. İngilis imperialistləri xüsusilə güclü təhlükə törədirdilər. Onlar Azərbaycanı öz müstəmləkəsinə çevirməyə can atır, əslində respublikanı işğal edirdilər.

Qərbi Avropa dövlətlərində Azərbaycanın təbliğinin təşkilində, onun Milli mənafelərinin müdafiəsində Paris Sülh Konfransında iştirak edən respublika nümayəndə heyətinin böyük xidmətləri olmuşdur. Nümayəndə heyətinə görkəmli siyasi xadim Əlimərdanbəy Topçubaşov başçılıq edirdi. Nümayəndə heyətinin üzvləri Məmmədhəsən Hacınski, Əkbərağa Şeyxülislamov, Əhmədbəy Ağayev (o, Türkiyədə tutulub saxlanmış və buna görə də Parisə gedə bilməmişdi. - D. Q.) nümayəndə heyəti yanında müşavirlər Ceyhunbəy Hacıbəyov, Məhəmməd Məhərrəmov, Miryaqub Mehdiyev idilər. Nümayəndə heyəti qarşısında belə bir vəzifə qoyulmuşdu: bütün vasitələrlə və üsullarla Azərbaycanı qorumalı və onun tam istiqlaliyyətinə nail olmalı. Bununla yanaşı ADR nümayəndə heyətinə tapşırılmışdı ki, İrəvan quberniyasının müsəlman rayonları əhalisinin fiziki varlığının və bu rayonların ərazi toxunulmazlığının qorunması üçün müttəfiq dövlətlər qarşısında dərhal və təxirə salmadan məsələ qaldırsın.

Saxtalaşdırılmış və yalan ifadə əsassız məhkum edilmiş bir insan haqqında da söhbət açmaq istərdim. Bakı şəhər sakini, 1880-ci ildə anadan olmuş neftçıxarma ustası vətəndaş Hüseynbala Nəsrulla oğlu Heybətov 6 noyabr 1936-cı ildə XDİK siyasi idarəsi tərəfindən həbs edilərək məhkum edilmişdir. Ona görə ki, guya o, şahidlər Əli Abbas Canbaxış oğlunun, S. N. Zeynalov, M. Bıstrikovun yanında sovet quruluşuna qarşı əksinqilabi təbliğat apararaq, Staxanov hərəkatının fəhlələrin maddi şəraitinin pisləşməsinə səbəb olduğunu söyləmiş və özündə icazəsiz odlu silah saxlamışdır. Ona görə də H. Heybətov Azərbaycan SM-nin 72 və 226 maddələri üzrə ittiham edilərək Azərbaycan XDİK «Üçlüyünün» 1937-ci il 20 avqust tarixli qərarı ilə 5 il müddətinə azadlıqdan məhrum edilərək cəzasını çəkmək üçün Sibirə - islah əmək düşərgəsinə göndərilmişdir.

İş üzrə istintaq siyasi idarənin müstəntiqi T. Silayev tərəfindən qanunsuz istintaq üsullarından istifadə edilməklə aparılmış H. V. Heybətovun və şahidlərin ifadələri onlara təzyiq edilmək, istintaq materiallarını saxtalaşdırmaq yolu ilə tərtib edilmişdir. Belə ki, istintaq materiallarından görünür ki, onun dediyi sözləri CM-in 72 maddəsində nəzərdə tutulmuş əksinqilabi təbliğatın tərkibi kimi qiymətləndirmək əsassızdır. Digər tərəfdən iş materiallarından görünür ki, T. Silayevə 20 fevral 1937-ci ildə onun yaşadığı evdə, Əmircan kəndində axtarış aparmaq üçün order verilmişdir. Silayev bu axtarışı hal şahidləri olmadan guya Heybətovun qaynı Hacının iştirakı ilə onun Mərdəkan qəsəbəsindəki bağında axtarış apararkən bostanın içərisində türk silahı olan 100171 №li beşaçılan tüfəng tapılmışdır. Lakin Hacı adlı şəxs silahın tapılması haqqında dindirilməmişdir. Axtarışın hansı səbəbdən Heybətovun evində yox, bağında aparılması aydınlaşdırılmamışdır. Digər tərəfdən işə tikilmiş124 saylı 21 fevral 1937-ci il tarixli mədaxil orderindən görünür ki, tapılan yararsız silah XDİK anbarına verilmişdir. Lakin Daxili İşlər Orqanı Məlumat Mərkəzinin arayışından görünür ki, göstərilən silah anbara mədaxil edilmişdir. Beləliklə də, müəyyən edilmişdir ki, silahın tapılması haqqında tərtib edilmiş akt saxtalaşdırılmışdır. Digər tərəfdən əgər göstərilən silah yararsız idisə, onda Heybətov CM-in 226-cı maddəsi ilə heç cür məsuliyyət daşıya bilməzdi. Yoxlama nəticəsində müəyyən edilmişdir ki, XDİK əməkdaşı göstərilən cinayət işinin istintaqçısı T. Silayev istintaq zamanı məhbusların barəsində qanunsuz istintaq üsullarından istifadə edib.

Məhbuslara əziyyət verilməsi şahid ifadələri ilə təsdiq edilmişdir. Göstərilənləri nəzərə alaraq Azərbaycan Respublikası baş prokurorunun müavini Heybətovun haqqında çıxarılmış qanunsuz və əsassız XDİK «Üçlüyün» 20 avqust 1937-ci il tarixli qərarının ləğv edilməsi üçün protest vermiş, Azərbaycan Respublikasının cinayət işləri üzrə Məhkəmə kollegiyası işə baxaraq 18.04.1989-cu il tarixdə Heybətovun haqqında işin icraatına hərəkətində cinayət tərkibi olmadığı üçün (ölümündən sonra) xitam vermiş və təmizə çıxarmışdır. Repressiya dövrünün istintaq sualları haqqında çox faktlar göstərmək olar. Ancaq hesab edirik ki, göstərilənlər kifayətdir.

**МОЖНО ЛИ СЧИТАТЬ «ВРАГОМ НАРОДА»?**



Алийев Магерам Гаджи оглы, 1906 года рждения, уроженец с. Амираджаны г. Баку, член КПСС с 1926 работающий в 1928-1929 гг. председателем райбюро пионеров Сураханского района г. Баку;

1929-30 гг. - секретарем Кала-Маштагинского РК ЛКСМ;

1930-31 гг. - инструктором Бакинского комитета АЛКСМ;

1931-32 гг. - зав. Отделом БК ЛКСМ;

1933-34 гг. - секретарем Ленинского РК АЛКСМ;

1934-35 гг. - секретарем БК ЛКСМ;

1936-37 гг. - зав. Отделом руководящихкадров БК ЛКСМ;

1937-38 гг. - инструктором ЦК КП/б/ Азербайджана и вдруг 13 ийуня 1938 г. Алиев был арестован по ст. ст. 21-70,73 УК Азерб. ССР /в редакции 1927 года/, якобы за участие в контрревалюционной организации-подготовке террористического акта против жизни первого секретаря ЦК КП/б/ Азербайджана Мир Джафар Багирова. Ордер на его арест был подписан наркома госбезопасности Боршевым, тем самым Боршевым, кторый наводил страх на честных людей в роли одного из преданнейших холуев Багирова и позже, уже в 1956 году / вместе с Григоряном, Маркаряном, Атакишиевым, и другими/ был арестован и расстрелян на преступления против азербайджанского народа.

Из материалов уголовного дела за № ПР-22942 усматривается, что Алиев М. Г. Был арестован по навету неких Велиева Д. и Митрошна В. /бывших комсомольских работниов/ и обвинен в государственном контрревалюционном преступлении.

На первом же допросе Алиев М. категорически отверг все выдвинутые против него о бвинения, как клеветнические. Однако палачи не растерялись и не торопились. На второй допрос Алиева следователь Антомони вызвал через три месяца, а потом еще через четыре месяца. Но к этому времени он успел пройти все круги ада /20 суток стоянки, содержание 10 месяцев в одиночной камере и избиение/.

Вот выдержка из его писма от 13.03.38г. на имя Сталина, копия В. М. Молотову и Жданову:

«После ареста, я следователю заявил о своей непричастности к контрревалюционной организации… Я ему напомнил, что это сделано с целью истребить партийно-комсомольские кадры. Но следствие вместо проверки, стало применять ко мне пытки - 20 суток держали меня на ногах без перерыва, за исключением выходных дней и это сопроваждалось систематическим избиением меня следователем Антомони и Еоржевым, начальником отдела Аз. НКВД А. Атакишиевым. Они хотели, чтобы я оклеветал себя и рукводящих комсомольских работников - Ягубова Теймура / депутата Верховного Совета, секретаря ЦК/, Али Гусейнова Ага Гусейна / прокурора республики и депутата Верховного Совета/, Исмаилова / секретаря Нахичеванского обкома, депутата Верховного Совета/, а также требовали вербовку руководящих районных комсомольских кадров.

Следствие довело меня до полусмертного состояния, не добившись от меня ложных показаний 10 месяце продержали в одиночной камере в подвале тюрьмы…»

Он писал о творившихся безобразиях в стенах Аз. НКВД т. Сталину, хотя знал, что его письма могут угробить его, но он хотел пожертвовать собою, помочь партии. 13 апреля 1939 года состоялось закрытое заседание Выездной Коллегии военного трибунала Зак. ВО без вызова свидетелей и вместо справедливого разбирательства жалобы Алиева М. и выяснения лживости сфабрикованных следственных документов в течение получаса незаконно приговорил его к 10 годам лешения свободы, 5 лет поражения в избирательных правах и с конфичкацией имущества.

После осуждения в своей жалобе, адресованный руководительям партии и правительства он 11 ийуля 1939г. Писал «сидя в самых тяжелых условиях в подвале НКВД, я ожидал с нетерпением суда… ибо я был уверен, что суд своим справедливым решением снимет с меня незаслуженное клеймо «врага народа», но к сожалению, получилось обратное. Меня мучает одно, почему я должен страдать невинно, ведь нет же никаких причин, чтобы меня прочила в лагерь контрреволюции…»

Из материалов дела видно, что Алиев М. вышел из рабочей семьи, его отец почти 40 лет был рабочимключником на нефтяных промыслах, брат - Алиев Муртуз в то время работал председателем Шушинского РИКа, позже начальником Управления местной промышленности НКАО, член КПСС с 1926г. И член Зак. ЦИКа / т. е. к моменту ареста Алиева М. / Сам с 12 лет работал по найму на нефтяных промыслах Нобеля, затем на комсомольских работе. Но палачей из ОГПУ не интересовали его автобиографические данные. Им нужно было добиться во что бы то ни стало, всеми незаконными методами следствия признания им своей вины и клеветнически -лживых показаний на других партийно-комсомольских работников, однако он оказался крепким орешком и пришелся не по зубам следователям из Аз. ЧК. Хотя палачи пытали его, но он остался непоколебимым до конца - не виноват!

По многочисленным жалобам Алиева М., дело его все таки было пересмотрено военной коллегией Верховного Суда СССР и определением от005.10.39 года и через 1 год 4 месяца за отсутствием в его действиях состава преступления, предусмотренного ст. ст. 21-70 и 73 УК Азерб. ССР прекращено и он был освобожден из-под стражи.

Позже Алиев М. был восстановлен в партии, и перешел на хозяйственную работу, сделал многое для ук-

репления экономики, строительной базы республики. Алиев М. за строительство Сальянского моста на реке Кура, за заслуги в деле развития народного хозяйства и культуры республики Указами Верховного Советареспублики от 10.05.46г. и от 23.04.60г. награжден почотными грамотами, за активное участие в строительстве автодороги Баку-Аеропорт-Бина 09.10.70г. - почетной грамотой Бакгорисполкома, являлся почетным дорожным работником и за участие в великой Отечественной войне награжден медалями «За победу над Германией 1941-45гг.» и другими орденами и медалями СССР.

Az SSR Ali Sovetinin 1946-10 may qərarı ilə Salyan-Kür üzərində körpünün tikintisini müvəffəqiyyətlə başa çatdırdığı üçün «Fəxri fərmanla» təltif olunsun.

Bakı şəhər Zəhmətkeş Deputatlar Soveti İcraiyyə Komitəsinin qərarı ilə Bakı-Təyyarə meydanı - Binə avtomobil yolu çəkilişində fəal iştirakına görə «Fəxri fərmanla» 1970-9 oktyabr təltif edilsin.

SSRİ Ali Sovetinin qərarı ilə «Əlaçı yol mühəndisi» nişanı ilə təltif edilsin.

Az. «Bilik» cəmiyyətini 1974-12 iyun Zəhmətkeşlər arasında elmi bilikləri fəal təbliğatçısı» fəxri fərmanı ilə təltif edilib.

СЕКРЕТАРЮ ЦК КП/б/ ТОВ.СТАЛИНУ

Копия: тов.тов. МОЛОТОВУ,ЖДАНОВУ

ПИСЬМО

[illegible]-го Июня 1938 года я был арестован органами НКВД АзербайджанскойССР следствие об"явило обвинение по ст.ст.ст. 73 64 УК Аз.ССР якобы я являясь членом к.р организации молодежи.Токое наглое обоснованное обвинение ошеломило меня и я в котегорической форме отвергая эту ложь и почему прошы следствие детально проверить мое дело и установить истину.

Я следствию заявил о своем не причастностии никакой к.р организации, одновременно говорил,что враги могут оклеветничать с целью перебить партийно-комсомольские кадры,но следствие вместо детальной проверки начало применять ко мне репрессии как-то:20 суток стоики на ногах без перерива за исключением в ночных дней,что сопровождало систематическими избиениями со стороны КОРНЕВА,АТАКИШИЕВА и АНТОНОВА.

Являясь преданным членом партии ЛЕНИНА-СТАЛИНА,я решил умереть под репресией,чем наговорить на себя и оговорить других,так с первого-же дня меня требовали не только оклеветать себя,но и вербовать честных партийно-комсомольских работников-ПУЗОВА ТЕЛМУРА/депутата Верховного Совета/Секретаря ЦК партии Азербайджана/,АЛИ ГУСЕЙНОВА АГА ГУСЕЙНА/Депутата Верховного Совета,Прокурор республики Азербайджана/,ИСМАЙЛОВА ЯШИМА/Депутата Верховного Совета секретаря Нах.Обкома/и также требовали вербовку руководящих районных комсомольских кадров.

Все это больше укрепляли меня так как я убедился,что вражеская рука самым подлым методом хочет перебить преданных людей делу ЛЕНИНА-СТАЛИНА.

Следствие доводши меня до полусмертного состояния не добившись от меня ложного показания бросило мое дело и я ровно 10 месяцев сидел подвале в одиночке.


[illegible]-го Июл 1938 года во время вадержки стоики мне дали очную ставки стайку с Митрошиным-Шестеровым.

Тот:заявил:"Со слов ТРУБИНА мне известно,что Алиев Магерам,является членом к.р организации молодежи.

Осенью 1935 года я встретился в книжном пассаже с АЛИЕВЫМ Магеррамом он же говорил"ты являешся членом к.р организации молодежи.

Он же МИТРОШИН в своих показаниях говорить:"АЛИЕВ со мной встретился на улице и сказал-РЕЙНИЯ в районе скоро он приедеть и мы возобновим работу Неужели грани лжи фабрикации не бывает.

Ведь начиная с 1933 года я с РЕЙНИЯМ не встречался даже не знал где он работает.Неужели следственным работникам не было ясно что-это ~~вестник-ких~~ ~~лоыработа,неужели подлая работа путем обмана Партии~~ ведь им это было ясно так-как их подлая работа.Неужели подлая работа путем обмана Партии может нажить себе дешевого авторитета,если это не явная вражаская работа.Характерним является показания МОЛЧАНОВА,у которого взято через 10 дней после моего ареста.Когда следственным работникам не удалось взять от меня ложных показаний,то им нужно было его МОЛЧАНОВА показанием закрепить мой арест. МОЛЧАНОВ во время очной ставки сказал:"Я и АЛИЕВ Магеррам являлись членами к.р организации молодежи и проводили анти-Советскую работу,о чем дал исчерпывающее показание от 28-го июня 1938 года,а в показаных своих от 29-го июня 1938 года МОЛЧАНОВ говорить:После Январского Пленума 1938 года я был у АЛИЕВА Магеррама к которому я пришел советоватся о своем партийном деле". Алиев мне говорил:без этого целыми пачками заявления исключенных лежать в ЦК Партии Азербайджана.Ничего невыйдет,давай организуем теракт против БАГИРОВА/секретаря ЦК Компартии Азербайджана/,ведь ли и фабрикации этого показания ясно говорит сами за себя.



Кому неизвестно,что после январского Пленума ЦК ВКП/Б/ с каким усилен-
ным темпом разбирали заявления исключенных и восстановлении в ряди парти
какие я мог этого сказать и как мог этому верить МОЛОТОВ которому все
это хорошо было известно,тем боле в решении Пленума особо было отмечен
искажение в рассмотрени жалоб исключенных по Азербайджану.Неужели следс
ственным работникам ляи от всего этого .Конечно все это им было ясно,н
нужно было оправдать арест мой.
Немнее характерно является положение,что даже по показаниям МИТРОШ
НА меня даже не допрашивали а в моем обвинительном заключение фигурир
ет как организ.Ясно почему следствия нашло нужным меня не допрашивать
по показаниям МИТРОШИНА-очень просто потому что они хорошо знали и раз
обл это фабрикованое показания МИТРОШИНА .Также характерно то что ко
да привели ко мне на очную ставку ВЕЛИЕВА,я разбил его перекрестними.К
Когда следственные работники с ВЕЛИЕВЫМ засыпались даже протокола с
очной ставки не составили потому,что было не в пользу фабрикаторов.
Таким образом следственные работники вместо большевистской прав-
дивости заведемо на основе фабрикованих ложних документов передали
мое дело Военному трибуналу САКВО.
При чем очень отрицательно повлияло на мое дело мои письма вообще
убедившись,что вражеская рука хочет окончательно перебить партийно-со-
ветские кадры,я об этом 5-го октября 1938 года писал БАГИРОВУ/Секретар
ЦК Партии/,а 3-го ноября 1938-года писал наркому Внутренних дел Азерба
джана РАЕВУ и развернутое письмо о вражеской работе о творившихся без-
образиях в стенах Аз.НКВД.
Я писал от 13-го Марта 1939 года тов.СТАЛИНУ я знал,что эти мои
письма могут угробить меня.Я считал самим тяжелым преступлением перед
таким фактом о вражеской работе и решил помертвовать собой знал,что я
своим письмом не мало могу помочь Партии.13-го апреля 1939 года состо-
ялся Суд выездная Коллегия Военного Трибунала САКВО судила меня без
вызова свидетелей дабы на судебном заседании выявить ложность и фаб-
рикацию документов-показание против меня,но по неизвестним мне причина
Трибунал не удовлетворил мою просьбу,закончил разбор моего дела в тече
ние полчаса,приговорил меня к 10-ти годам лишения свободы и 5-ти годам
поражения политических правах с конфискацией личного имущества.
При этом суд не принял все мои доводы основываясь на ложные с фаб
рикованные материалы,вынес токое не справедливое решение,характерно то
что свидетели на следствии говорили,что им стало известно о моем при-
надлежности к. К.Р. организации со слов ВОЛЧКА и ГРУЗМАНА,но в моем
деле нет против меня показаний того и другого иначе не могло быть,так-
как с этими людими никогда никокой К.Р. связи не имел и о существовани
не знал,а суд все это не принял во внимание.
Сидя в самих тяжелых условиях в подвале НКВД Азербайджана ожидал с
нетерпением суда будучи невинним,я был уверен что суд своим справедли-
вым решением снимить с меня незаслуженное клеймо врага народа,но к мое
му великому сожелению получилось обратное,т.е.и суд оказался в заблуж-
дении.Меня мучает одно,почему-же я должен страдать невинно,нет никаких
обективных и субективных причин,чтобы перебросили в лагер К.Р.
Я вышел из рабочей семьи,отец ровно 37 лет был робочим на нефтя-
ных промислах,сейчас инвалид по старости лет и получает обеспечивающу
пенсию.
Сам родился в 1906 году с 13-ти лет работал по найму,т.е с 1918
года на промыслах/были.Побеля/.
Решением райкома комсомола Сураханского района 1928 года я был
направлен на учебу КСУ одновременно секретарем комсомольской ячейки.
По окончании КСУ в 1926 году был направлен в механическую мастерскую
АЗНЕФТИ.В МАРТЕ месяце 1928 года решением Райкома Партии с комсомола б
был переброшен на руководящей комсомольскую работу,до 1937 года находи-
лась на руководящей комсомольской работе дралея за Генеральную линию
Партии ЛЕНИНА-СТАЛИНА.
С 1937 года перебросили меня на партработу/инструктора ЦК ПАРТИИ АЗ./
за все это время я ни вчем перед осудительным не был замешан,наоборот
вел озесточеную борьбу с мусаватистами и националистами,что очень хоро
известно Секретарям ЦК Партии Азербайджана т.т.БАГИРОВУ и ТЕЙМУР ЯГУБО
Вся моя семья есть коммунизированная,все мои братья,двоюродне и троюрод
ные,родные братья являются коммунистами.Так каким-же образом я мог быт
врагом своей семьи и роду,где-же тут логика.
Благодаря партии ЛЕНИНА-СТАЛИНА я вышел в люди,этим я жил счастлив
и радостно.Неужели я мог быть врагом своего счастливого быта.Где-же
учение МАРКСА,ЛЕНИНА,СТАЛИНА-бытье определяет сознание человека.

Сообщая о вышеизложенном я уверен в том,что ваше личное вмешатель
ство может меня вернуть на счастливую плодотворную социалистическую ра
боту и я не буду оторван от великого счастливого Советского народа,ко-
торый с гордостью дерется за новые победы социализма-коммунизма.Я не в
аг и никакая сила не сможет ~~сожрат~~ меня перебросит в лагерь контр-рев
люции.И никто несможеть создать недоволствие на партию ЛЕНИНА-СТАЛИНА,
так как я волнуюсенно знаю,что в моей невинной силе партии не винавата
а винавать отделные личности которые несут заслуженную кару.Я рожден и
воспитан в духе борьбы против капитализма,я не враг,а друг социализма
Я уверен,что Сталинская правда справедливость возмет верх.

письмо перепечатано с подлинника осужденного с личной подписью.

11/VII-1939 года
г.Баку

АЛИЕВА ГОЙЧА, почтовый улица №2
АЛИЕВА ГОЙЧА.

## O ƏZİYYƏTLƏRƏ DÖZDÜ, ƏQİDƏSİNDƏN DÖNMƏDİ

1926-cı ildən partiya üzvü, keçmiş komsomol işçisi Əliyev Məhərrəm Hacı oğlu 1938-ci ildə Zaqafqaziya hərbi dairəsi tribunalı tərəfindən, guya əksinqilabi təşkilatda iştirakına, Mir Cəfər Bağırova qarşı terror aktı hazırladığına görə 10 il müddətinə azadlıqdan məhrum edilmişdi.

O illərin gənc komsomol rəhbər işçisi kimi irəli çəkilən AK(b)P MK-nın məsul işçisi M. Əliyev qocaman neftçi ailəsində ehtiyac və məhrumiyyətlər içində böyümüş, əmək fəaliyyətinə tez başlamışdı.

Lakin 13 iyun 1938-ci ildə Vəliyev və Mitroşin familiyalı şəxslərin yalançı ifadələrinə əsasən dövlətə qarşı əksinqilabi cinayətdə təqsirləndirilərək həbs edilmişdir. Onun həbsi üçün orderi təhlükəsizlik üzrə ali komissarının müavini Borşov imzalamışdı.

Elə ilk istintaq dövründən M. Əliyev ona qarşı irəli sürülən ittihamları rədd etmişdi. Lakin cəlladlar tələsmirdi. İkinci istintaqa onu müstəntiq Antomoni üç aydan sonra çağırdı. Bu müddət ərzində o, siyasi idarənin zirzəmilərində hər cür cəhənnəm əzabları çəkmişdi.

Bu müddət ərzində o, zirzəmilərdə müstəntiqlərin qanunsuz hərəkətlərindən SSRİ hökümət başçıları Stalinə, Molotova, Jdanova dəfələrlə məktublar yazmışdı, istintaq zamanı bildirmişdi ki, onun heç bir günahı yoxdur, bu qanunsuz hərəkətlər hamısı partiya-komsomol kadrlarını qırmaq, günahsız insanları məhv etmək məqsədilə təşkil edilmişdir.

Lakin faktları yoxlamaq əvəzinə, istintaq orqanı M. Əliyevə işgəncələr verməyə başlamış, onu 20 sutka ayaq üstə saxlamış, növbə ilə müstəntiqlər Antomoni, Korginov və Axərbaycan DİXK-nın şöbə rəisi Atakişiyev, siyasi idarənin rəisi Rzayev tərəfindən döyülmüşdü. Onlar istəyirdilər ki, M. Əliyev Ali Sovetin rəhbər işçilərinə, deputatlarına, o cümlədən Naxçıvan Muxtar Vilayət Komitəsinin sabiq katibi Kazım İsmayılov MK-nın katibi Teymur Yaqubova qarşı böhtanlar

irəli sürsün. İstintaq zamanı onu yarımcan hala düşənə qədər döysələr də, yalan izahatlar ala bilməmişlər. 10 ay M. Əliyevi tək kamerada, həbsxananın zirzəmisində saxlamışlar. M. Əliyev Azərbaycan DİXK-da törədilən rüsvayçılıqlar haqqında AK(b) MK-nın katibinə məktubla yazıb göndərirdisə də, M. Əliyevin şikayətlərinə baxılmaq əvəzinə, Zaqafqaziya hərbbi dairəsinin hərbi tribunalının səyyar kollegiyası qapalı məhkəmə iclası keçirərək şahidləri dindirmədən 13 aprel 1939-cü ildə əmlakı müsadirə olunmaqla onu 10 il müddətinə azadlıqdan və beş il hüquqdan məhrum edilməsi haqqında hökm çıxartdı. M. Əliyev fəhlə ailəsindən çıxmışdı. Onun atası 40 il neft mədənlərində fəhlə işləmişdir. Özü Nobelin neft müəssisələrində 12 il işləmişdi, bütün bunlar nəzərə alınmadan o, əsassız cəzalandırıldı. İttiham variantına görə M. Əliyev Bağırovun «özünə» qarşı sui-qəsdə görə terror aktı hazırlamaqda təqsirləndirilirdi. Bu işdə cəlladların əsas məqsədi başqaları haqqında yalan ifadələr almaq və repressiyaya qarşı müqavimətə görə M. Əliyevlə hesablaşmaq idi. Lakin cəlladların ona dişi bata bilmədi. M. Əliyevə qarşı heç bir sənəd, dəlil, sübut toplaya bilməmişdilər. Cəlladlar ona işgəncələr vermişsələr də, lakin məqsədələrinə nail ola bilməmişdildər, o, axıra qədər günqhı olmadığını söyləmişdi.

M. Əliyevin çoxsaylı şikayətlərinə əsasən SSRİ hökumətinin göstərişilə SSRİ Ali məhkəməsinin hərbi kollegiyası tərəfindən iş yenidən nəzarət qaydasında yoxlanılmış, hökmün ləğv edilib cəzadan azad olunması haqqında verilən protest onun terror aktı hazırlaması və iksinqilabi təşkilatın üzvü olması haqqında irəli sürülən ittiham sabun köpüyü kimi partlamışdı. Zaqafqaziya dairəsi hərbi tribunalı, görünür, Ali Məhkəmə üzvləri bunun əsassız və cəfəngiyyat iş olmasını özünün 11 oktyabr 1939-cu il tarixli qərarında etiraf etməyə məcbur olmuşdu. Lakin buna baxmayaraq, M. Əliyevi başqa maddə lə cəzasını bir il müddətinə qədər azaldıb həbsdən azad etmişlər. Daha sonra Azərbaycan Respublikası prokurorunun protesti ilə onun hərəkətində cinayət tərkibi olmadığına görə M. Əliyevə 1992-ci ildə Azərbaycan Ali Məhkəməsinin qərarı ilə bəraət verilərək tam mənada ölümündən sonra təmizə çıxarıldı. Göründüyü kimi, o, zalım müstəntiqlərin qanunsuz hərəkətlərinə və ədalətsiz hakimlərin hökmlərinə dözdü. Lakin əqidəsindən dönmədi. Həbsdən azad olunduqdan sonra M. Əliyev 1941-1946-cı illər Böyük Vətən müharibəsi iştirakçısı olmaqla təsərrüfat işlərinə keçmiş, 67051 saylı səhra hərbi hissəsinin inşaat materialları və metal Şöbəsinin mühəndisi vəzifəsində işlərkən Salyan körpüsünün inşasını müvəffəqiyyətlə başa çatdırdığına görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 3708 saylı 10 may 1946-cı il tarixli fəxri fərmanı ilə təltif edilmiş, 1947-1975-ci illər Azərneftin asfalt zavodunda sex müdiri, müdir müavini işlədiyi illər ərzində Bakı təyyarə meydanı - Binə avtomobil yolu çəkilişində fəal iştirakına görə Bakı şəhər Zəhmətkeş Deputatları Sovetinin deputatı olmuş, şəhər sovetinin 41827 saylı fəxri fərmanı ilə təltif edilmiş və respubilikanın iqtisadiyyatının, tikinti bazasının möhkəmlənməsi üçün bir çox işlər görmüşdür. Lakin ömrünün axırına qədər həbsxanada keçirdiyi dəhşətli günləri unuda bilməmişdi.

Oxucuların nəzər-diqqətinə çatdırmaq istərdim ki, 1997-ci ildə beynəlxalq «YUNESKO» təşkilatı tərəfindən repressiya qurbanlarının 60 illiyinin qeyd olunacağını nəzərə alaraq siyasi repressiya qurbanları haqqında az da olsa məlumatları kitabda əks etdirməyi məqsədə müvafiq hesab etdim.

КОПИЯ.

ИНСТИТУТ ИСТОРИИ ПАРТИИ ЦК КОММУНИСТИЧЕСКОЙ ПАРТИИ
АЗЕРБАЙДЖАНА ФИЛИАЛ ИНСТИТУТА МАРКСИЗМА-ЛЕНИНИЗМА ПРИ ЦК КПСС

ПАРТИЙНЫЙ АРХИВ

№-1073 27 декабря 1966 года

АРХИВНАЯ СПРАВКА

По документам Партархива Азербайджанского филиала ИМЛ при ЦК КПСС установлено,что АЛИЕВ Магерам Гаджи оглы считается работавшим с марта 1928 года по 31 августа 1929 года председателем райбюро пионеров Сураханского района,с1 сентября 1929 года по 15 сентября 1930 года секретарем Кала-Маштагинского РК ЛКСМ,с 16 декабря 1930 года по 15 сентября 1931 года инструктором БК АЛКСМ с 15 сентября 1931 года по 15 сентября 1932 года зав.отделом БК ЛКСМ.
с 20 марта 1933 года по 13 августа 1934 года секретарем Ленинского РК АЛКСМ,с 13 августа 1934 года по 30 мая 1935 года вторым секретарем БК АЛКСМ,с 1 июня 1935 года по 17 июня 1936 года комсоргом ЦКАЛКСМ Баководпроводстроя,с17 июня 1936 года по 16 октября 1937 года зав.отделом ОРК ЦК АЛКСМ и с 16 декабря 1937 года по 27 марта 1938 года в распоряжении ОРПО ЦК КП/б/ Азербайджана.

Решениями бюро БК АЛКСМ от 31 августа 1929 года/протокол № 20/АЛИЕВ Магерам рекомендован секретарем Кала-Маштагинского РК АЛКСМ,от 18 декабря 1930 года /протокол №1/утвержден инструктором БК АЛКСМ,от 20 марта 1933 года /протокол №26/ АЛИЕВ Магерам рекомендован секретарем ЛенинскогоРК ВЛКСМ.Решением бюро ЦК АЛКСМ от 11 сентября 1936 года /протокол №-21/-Алиев Магерам утвержден зав.отделом ОРК ЦК АЛКСМ.

Архивная справка выдано для представления в органы собеса.

Зам.Директора
Азербайджанского филиала ИМЛ при
ЦК КПСС по партархиву - МЕХТИЕВ Г.Г.

Kitabda dərc edilən məlumatların toplanmasında mənə yaxından köməklik göstərən respublika prokurorluğunun rəhbərliyinə, şəxsən respublika baş prokuroru Eldar Həsənov cənablarına, elmi işçilərimizə və prokurorluğun bütün əməkdaşlarına böyük minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Nəhayət, qeyd etmək istərdim ki, Azərbaycanda baş vermiş 1920-1991-ci illərin siyasi repressiya qurbanları haqqında cinayət, sürgün və inzibati köçürmələr haqqında arxiv işlərinin, respublika baş prokurorluğunun idarə prokurorları tərəfindən yoxlanılması davam etdirilir və bu şikayətlərin nəticəsi haqqında bir çox vətəndaşlardan təşəkkür məktubları alınıb. Ona görə siyasi repressiya qurbanları haqqında səbəblər araşdırılıb, bu barədə ətraflı məlumatlar ikinci kitabda veriləcəkdir.

***Eynal Hacı oğlu Əliyev***
***Əməkdar hüquqşünas,***
***hüquq elmləri namizədi.***




ЗА НАШУ СОВЕТСКУЮ РОДИНУ!

УДОСТОВЕРЕНИЕ
К НАГРУДНОМУ ЗНАКУ
„ОТЛИЧНЫЙ ДОРОЖНИК"

Выдано настоящее удостоверение гражданину
Алиеву М. Г.
в том, что он на основании Указа Президиума Верховного Совета СССР от 8 июля 1943 г. приказом Начальника Дорожного Управления ГДУ Красной Армии фронта № 259 от 03.11 1944 г. награжден нагрудным знаком „ОТЛИЧНЫЙ ДОРОЖНИК".

НАЧАЛЬНИК ДОРОЖНОГО УПРАВЛЕНИЯ
Дорожный фронта
Гавричев

2-я дип. зак. 904



АЗӘРБАЙЧАН ССР БАШ СОВЕТИНИН ПРЕЗИДИУМУ

Мәһәррәм Һачы оғлу
Әлиев йолдаша


Азәрбайчан Совет Социалист Республикасы
Баш Советинин Президиуму
Сәлан корпусунун иншаатыны мүвәффәгиййәтлә гуртарманыз үчүн
1946 ил 10 май тарихли фәрманы илә сизи

ФӘХРИ ФӘРМАНЛА

тәлтиф әдир

Азәрбайчан ССР Баш Совети Президиумунун сәдри
Азәрбайчан ССР Баш Совети Президиумунун катиби

№ 3708
10 май 1946 ил
БАКЫ шәһәри



АЗӘРБАЙЧАН ССР АЛИ СОВЕТИНИН РӘЈАСӘТ ҺЕЈ'ӘТИ

МӘһӘРРӘМ Һ.АҒЫ
ӘЛИЈЕВ йолдаша

Азәрбайчан Совет Сосиалист Республикасы
Али Советинин Рәјасәт Һеј'әти

Азәрбайчан Совет Сосиалист Республикасынын вә Азәрбайчан Коммунист партијасынын 40 иллији мүнасибәтилә, республиканын халг тәсәррүфатынын вә мәдәнијјәтинин инкишафы саһәсиндәки хидмәтләриниз көрә

1960 ил 23 апрел тарихли Фәрманы илә сизи

ФӘХРИ ФӘРМАНЛА

тәлтиф едир

Азәрбайчан ССР Али Советинин Рәјасәт Һеј'әтинин Сәдри С. Чәфәров
Азәрбайчан ССР Али Совети Рәјасәт Һеј'әтинин Катиби З. Шүкүрова

№ 478
25 апрел 1960 ил
БАКЫ шәһәри





***Əliyev Nazim Məhərrəm oğlu***. Bakı Musiqi Akademiyasının bəstəkarlıq fakültəsini bitirib. Türkiyədə İzmir şəhər Bələdiyyə orkestrinin rəhbəridir.



***Əliyev Murtuz Hacı oğlu*** (1906-1958). Bakı şəhəri Partiya məktəbində təhsil alıb.

Suraxanı mədənlərində işləyib. Partiya təşkilatı katibi olub. 1922-ci ildə VII mədəndə yanğın söndürmə briqadasının başçısı olub. Suraxanı neft mədənlərində yanğın söndürülməsində 1922aprelin 28-də Leninə teleqramında 1926 Sov İKP üzvü M. Əliyevin də adı var idi. 1929-cu ildə Suraxanı İcra Hakimi sədri olub. 1932-ci ildə Bakı su təsərrüfatı idarəsi rəisi, 1933-37-ci illərdə Şuşa Rayon İcraiyyə komitəsi sədri olub.

1930-1935-ci illərdə Zaqafqaziya Sov SR təftiş komissiyasının üzvü olub.

1937-ci ildə DQMV yerli sənaye sədri olub. 1938-ci ildə Bakıda Yerli Sənaye Nazirinin müavini olub.

1939-1944-cü illərdə metal-hərbi zavodun direktoru, 1955-ci ildə metal sənayesi naziri Komvol Kombinatının direktoru olub. Müharibə-əmək veteranıdır.



Baş ədliyyə müşaviri ***Eynal Hacı oğlu Əliyev*** 1923-cü il oktyabr ayının 8-də Bakının Əmircan kəndində neftçi ailəsində anadan olub. 1941-ci ildə orta təhsilini başa vurduqdan sonra o, Azərbaycan Tibb İnstitutuna daxil olub. 1942-ci ildə könüllülər sırasında alman faşistləri ilə döyüşməyə gedib. Lakin 1943-cü ilin axırlarında ağır xəstəliyinə görə ordu sıralarından tərxis olunub.

1944-cü ildə BDU-nun hüquq fakültəsinə daxil olan Eynal Əliyev prokurorluq orqanlarında kadr çatışmazlığından, təhsilini başa vurmamış sonuncu kursdan - 1947-ci il oktyabr ayının 6-da Lenin (indiki Sabunçu) rayonuna prokuror köməkçisi vəzifəsinə təyin olunub. 1948-ci ildə hüquq fakültəsini bitirdikdən sonra Bakı şəhərinin Əzizbəyov, Oktyabr rayonlarında prokuror, Bakı Şəhər prokurorluğunda istintaq şöbəsinin zona prokuroru, 1969-1974-cü illərdə Qarabağ rayon prokuroru, 1975-1999-cu illərdə Azərbaycan Respublikası Prokurorluğunda Məhkəmə qərarlarının qanuniliyinə nəzarət idarəsinin böyük prokuroru vəzifələrində çalışıb. 1986-cı ilin iyun ayında təqaüdə çıxmasına baxmayaraq, 1989-cu ilin avqust ayında siyasi repressiya qurbanlarının təmizə çıxarılması işi ilə əlaqədar İstintaqa nəzarət idarəsi nəzdində yaradılmış şöbədə böyük prokuror vəzifəsinə təyin edilib və 1999-cu ilin dekabr ayının 31-nə kimi həmin vəzifədə işləyib.

Mərhum akademik, hüquq fakültəsinin kafedra müdiri V. P. Qəhrəmanovun rəhbərliyi altında 1972-ci ilin noyabr ayında Kiyev şəhərində dissertasiya müdafiə edərək, hüquq elmləri namizədi alimlik dərəcəsi alıb. O, «Azərbaycan Respublikası prokurorluğunun tarixi səhifələrindən», «Azərbaycan SSR-də XX əsrin siyasi repressiya qurbanları» kitablarının və 50-yə qədər elmi-kütləvi məqalənin müəllifidir.

50 il Azərbaycan Respublikası prokurorluq orqanlarında xidmət edən E. Əliyev peşəkarlığı, əməksevərliyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, «SSRİ prokurorluğunun fəxri işçisi», «Azərbaycan Respublikasının Əməkdar hüquqşünası» fəxri adlarına layiq görülmüş, müxtəlif orden və medallarla təltif edilmiş, dəfələrlə mükafatlandırılmışdır...

## BİZİM EYNAL MÜƏLLİM

Yazının sərlövhəsinə ad seçməyim səbəbsiz deyil. Ona görə ki, bütün prokurorluq işçiləri, o cümlədən təqaüddə olanlar Eynal müəllimi özlərininki hesab edirlər.

Baş ədliyyə müşaviri Eynal Hacı oğlu Əliyev 1923-cü il oktyabr ayının 8-də Bakının Əmircan kəndində neftçi ailəsində anadan olmuşdur. 1941-ci ildə orta təhsilini başa vurduqdan sonra o, Azərbaycan Tibb Universitetinə daxil olmuş, lakin Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar 1942-ci ildə könüllülər sırasında cəbhəyə getmiş, bununla əlaqədar, ali tibb təhsilini almaq arzusu yarımçıq qalmışdır. O, 1943-cü ilin axırlarında ağır xəstəliyinə görə ordu sıralarından tərxis olunmuşdur.

Eynal müəllim 1944-cü ildə BDU-nun hüquq fakültəsinə daxil olmuş, lakin prokurorluq orqanlarında kadr çatışmazlığı səbəbindən təhsilini başa vurmamış, sonuncu kursdan - 1947-ci il oktyabr ayının 6-da Lenin (indiki Sabunçu-İ.A.) rayonununa prokuror köməkçisi vəzifəsinə təyin olunmuşdur. O, 1948-ci ildə hüquq fakültəsini bitirdikdən sonra Bakı şəhərinin Əzizbəyov (indiki Xəzər-İ.A.), Oktyabr (indiki Yasamal-İ.A.) rayonlarında prokuror, Bakı şəhər prokurorluğunda istintaq şöbəsinin prokuroru, 1969-1974-cü illərdə Qaradağ rayon prokuroru, 1975-1988-ci illərdə Azərbaycan Respublikası Prokurorluğunda şöbə rəisi, Məhkəmə qərarlarının qanuniliyinə nəzarət idarəsinin böyük prokuroru vəzifələrində çalışmışdır. 1989-cu ilin avqust ayında siyasi repressiya qur-

banlarının təmizə çıxarılması işi ilə əlaqədar İstintaq nəzarət idarəsi nəzdində yaradılmış şöbədə böyük prokuror vəzifəsinə təyin edilmiş və 2000-ci ildə təqaüdə çıxmışdır. O, hüquq üzrə fəlsəfə doktorudur.

Eynal müəllim 50 il, başqa sözlə, yarım əsr prokurorluq orqanlarında qüsursuz xidmət etmişdir. O, peşəkarlığı və əməksevərliyi ilə həmişə fərqlənmiş, onun bu cəhəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, ona «Azərbaycan Respublikasının Əməkdar hüquqşünası» fəxri adı verilmiş, bir çox orden və medallarla, həmçinin, keçmiş SSRİ Baş Prokurorluğu tərəfindən «SSRİ Prokurorluğunun fəxri işçisi» döş nişanı ilə təltif edilmiş, Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi tərəfindən dəfələrlə xidməti qaydada fərqləndirilmişdir.

Yaxşı yadımdadır ki, 1998-cu ildə Eynal müəllimin 75 illiyini Xaqani küçəsindəki «Aktyor evi»nin binasında yerləşən restoranda qohumları, dostları və iş yoldaşları ilə birlikdə qeyd etdik. Həmin tədbirdə Eynal müəllimin həyat yoldaşı Mənijə xanım da iştirak edirdi. Eynal müəllimin həyat yoldaşı Mənijə xanım hazırda dünyasını dəyişsə də, Eynal müəllim həmişə onu böyük hörmətlə xatırlayır. Onlar 50 il birlikdə ömür sürmüş və mehriban ər-arvad olmuşlar.

Eynal müəllim çox məsuliyyətli, nizam-intizamı sevən, dəqiq, yüksək nəzəri hazırlığa və böyük təcrübəyə malik prokurorluq işçisidir. Az-az prokurorluq işçilərinə rast gəlmək olar ki, onlar peşələrinə dair kitab yazmış olsunlar. Lakin Eynal müəllim, çoxlarından fərqli olaraq, bu işlə mütəmadi məşğul olmuşdur. 1997-ci ildə onun «Azərbaycan Respublikası Prokurorluğu tarixindən səhifələr» kitabı işıq üzü görmüşdür. Həmin kitabın əlyazmasını üç dəfə oxumalı olmuş və müvafiq təkliflər də vermişdim.

2003-cü ildə çap olunmuş «Azərbaycan SSR-də XX əsrin siyasi repressiya qurbanları» və 2008-ci ildə isə işıq üzü görmüş «Xatirələr...düşüncələr...mülahizələr» kitablarının da müəllifi Eynal Əliyev olmuşdur.

Eynal müəllimin üçüncü kitabı 2008-ci ildə çapdan çıxmaqla, Azərbaycan Respublikası Prokurorluğunda təqdimatı keçirildi və təqdimata prokurorluğun təqaüdçüsü kimi bu sətirlərin müəllifi də dəvət olunmuşdu.

Təqdimat mərasiminə prokurorluğun bir çox təqaüdçüləri, o cümlədən Azərbaycan Respublikası Prokurorunun birinci müavini vəzifəsində işləmiş, III dərəcəli dövlət ədliyyə müşaviri, həmin vaxt Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi işləyən, Azərbaycan Respublikasının Əməkdar hüquqşünası Ələddin Sultanov, Respublika Prokurorluğunda əsasən rəhbər vəzifələrdə işləmiş Azərbaycan Respublikasının Əməkdar hüquqşünası, III dərəcəli ədliyyə müşaviri Yamən Yusifov, Azərbaycan Respublikası Ədliyyə Nazirinin müavini, II dərəcəli dövlət ədliyyə müşaviri Toğrul Musayev və bir çox başqaları dəvət olunmuşdular. Tədbir çox maraqlı keçməklə, kitabın müəllifinin və toplantı iştirakçılarının da yüksək əhval-ruhiyyəsinə səbəb oldu.

Eynal müəllimin dəqiqliyi və nizam-intizama nümunəvi əməl etməsinə dair bir neçə epizodu qeyd etmək oxucular üçün də maraqlı olar.

1996-cı il olardı. Respublika Prokurorluğunun Mərkəzi Aparatında Kadrlar idarəsinin rəis müavini vəzifəsində işləyirdim. Rəhbərlikdən tapşırıq almışdım ki, prokurorluq işçilərinin xüsusi rütbələri və geyim forması ilə əlaqədar bir təlimat layihəsi hazırlamalı idim. Sovetlər dönəmində qüvvədə olmuş müvafiq təlimatlarla tanış olmaq və təlimat layihəsini hazırlayarkən onlardan isrifadə etmək qərarına gəldim. Ona görə də Prokurorluğun Mərkəzi Aparatının kitabxanasına gəldim. Burada mənə məlum oldu ki, 1990-cı illərdə kitabxanada yanğın baş vermiş və kitabxana fonduna daxil olan bir çox kitablar və normativ hüquqi aktlar məhv olmuşdur. İş yoldaşlarımdan biri mənə dedi ki, həmin təlimatları yalnız Eynal müəllimdə tapa bilərsən. O zamanlar Eynal müəllimin iş otağı prokurorluğun birinci mərtəbəsində yerləşirdi.

Mən Eynal müəllimin iş otağına gəldim. Həmin otaqda daha iki nəfər, təxminən, həmin yaşda olan əməkdaşlar otururdular. Mən gəlişimin məqsədini Eynal müəllimə bildirdim. Onu da əlavə etdim ki, bu təlimatlar olsa-olsa sizdə olacaq.

Eynal müəllim mənə qulaq asıb, diqqətlə üzümə baxdı və dedi:

-Xahiş edirəm, qapını örtüb, içəri keçin.

Mən qapını örtüb və Eynal müəllimin nə deyəcəyini gözlədim.

Eynal müəllim dedi:

-Mən hər adama belə sənədləri vermirəm, doğrudur, artıq Azərbaycan Respublikası müstəqil dövlətdir. Lakin bu təlimatların elmi və tarixi əhəmiyyəti vardır. Ona görə mən belə sənədləri saxlayıram. Xahiş edirəm, həftənin birinci günündən gec olmayaraq həmin sənədləri mənə qaytarasan.

Onu da deyim ki, bu hadisə həftənin beşinci günü günün ikinci yarısı baş vermişdi. Mən Eynal müəllimə söz verdim ki, ondan alacağım sənədləri həftənin birinci günü qaytaracağam.

Bu sözlərdən sonra Eynal müəllim cibindən açarı çıxardıb, iş stolunun siyirməsini açıb, oradan maraqlandığım sənədləri götürüb mənə verdi və dedi:

-Bax, həftənin birinci günü sənədləri qaytar, sənə böyük hörmətim var, ona görə sənədləri sənə verirəm.

Mən sənədləri alıb, Eynal müəllimdən razı qalaraq, üçüncü mərtəbədə yerləşən iş otağıma qayıtdım. Qapını açmamış şəhər telefonunun aramsız zəng etməsini eşitdim. Otağa daxil olub telefonun dəstəyini qaldırdım. Zəng edən Eynal müəllim idi. O, dedi:

-Bax, sənədləri həftənin birinci günü qaytarmağını rica edirəm.

Dedim ki, Eynal müəllim, mən də sözümün sahibiyəm, sənədləri həftənin birinci günü sizə qaytaracağam. Narahat olmayın.

Eynal müəllimin dəqiqliyini göstərən daha bir epizodla oxucuları tanış etmək istəyirəm.

Yuxarıda qeyd etdik ki, Eynal müəllim prokurorluğun geyim formasına həmişə ciddi əməl edərdi. Qış vaxtlarında xüsusi geyim formasının paltosunu geyinər, boynunda həmişə ağ rəngli şarf, əllərində isə əlcəkləri əksik olmazdı.

Qış vaxtı günlərin birində iş vaxtının axırına yaxın Eynal müəllim paltosunu geyinir, forma papağını başında, əlində dəri əlcək, ağ rəngli şarfı boynunda, əlləri arxasında otaqda var-gəl edirdi. Onunla bir otaqda oturan iş yoldaşlarından biri qayıdır ki:

-Eynal müəllim, daha geyinmisiniz, gedin də.

Eynal müəllim sağ əlini qaldırıb, sol əli ilə paltosunun qolunu bir qədər yuxarı qaldırıb, qol saatına baxır və deyir:

-Yox, iş vaxtının qurtarmağına hələ iki dəqiqə qalır.

Belə epizodların sayı Eynal müəllimin xidməti fəaliyyətində çox olmuşdur.

İkinci Cahan müharibəsindən sonra prokurorluq işçilərinin yay geyim formasına ağ rəngli parçadan tikilmiş pencək də daxil idi. Lakin çoxları belə pencəkdən istifadə etmirdilər. Lakin mən ilk dəfə belə pencəyi Eynal müəllimin geyindiyini görmüşəm.

Ümumiyyətlə, ötən əsrin sonlarında ağ pencəkdən üç nəfərin istifadə etdiyini müşahidə etmişəm:biri Eynal müəllim, digəri isə vaxtilə Azərbaycan Respublikası Baş Prokurorunun birinci müavini vəzifəsində işləmiş, hazırda hüquq elmlər doktoru, professor olub, elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan Mirağa Cəfərquliyev idi. Üçüncüsü isə..., yox bunu deməyəcəyəm, ağ pencək geyinənlərin üçüncüsünü müəyyən etməyi oxucuların üzərinə buraxıram.

Eynal müəllimin mənzili Respublika Baş Prokurorluğunun yerləşdiyi küçədə - Murtuza Muxtarov küçəsində (sovetlər dönəmində həmin küçə «Poluxin» küçəsi adlanırdı - İ.A.) idi. Eynal müəllim həmişə, bir qayda olaraq, işə piyada gələr və heç vaxt işə gecikməzdi, demək olar ki, iş vaxtının başlamasına 3-4 dəqiqə qalmış həmişə işdə olardı. Onun evdən çıxması ilə, mübaliğə olmasın, günün saatını dəqiqləşdirmək mümkün idi.

Hazırda Eynal Əliyev təqaüddədir. Lakin o, mütailə etməkdən yorulmur, demək olar ki, bütün rəsmi qəzetləri oxuyur və hərdən zəng edərək mənimlə fikir də bölüşür.

Sonda biz Eynal Əliyevə möhkəm can sağlığı, Qafqaz uzunömürlülüyü və yeni-yeni kitablarının işıq üzü görməsini arzu edirik.

***İlham Qurbani oğlu Abbasov, Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının prorektoru-hüquq üzrə fəlsəfə doktoru, Baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi***

**Xatirələr**

***Nəvəm Lamiyəyə ithaf edirəm.***

Mən Çuburam, noyabrda doğuldum,
Eloçkanın bədənində boğuldum.
Böhranlardan çıxıb dünyaya gəldim,
Yaşamaq üçün gündə bir fərman verdim.
Mən Çuburam, bələklərdə gəzərəm,
Oturanda babaların kostyumunu əzərəm.

Mən Çuburam, soskaları üzərəm,
Fındıq versən iki dişlə əzərəm.
Mən Çuburam, hər əzaba dözürəm,
Dilim yoxdur, baxıb sizi süzürəm.
Yerimədim kolyaskada üzüldüm,
Qızlar məgər bu dərdlərə dözürmü?

Qolu bağlı beşiklərdə dözürəm
Dursam əgər, səkkiz ayda gəzərəm.
Mən Çuburam, nənələri istərəm
Böyüyürəm, evlərini bəzərəm.
Mən Çuburam, daydostumu gözlərəm,
Gələn kimi dodaqlarından öpərəm.

**Qızım Səkinə xanıma ithaf edirəm**

Xanım qızım Pərvanədir,
Söz-söhbəti təranədir.
Gözəlliyi bir yanədir,
Əflatunu bir dənədəir.

Yanaqları qırmızıdır,
Xalqımızın şən qızıdır.
Xasiyyətdə bir quzudur,
Həyatın min ulduzudur.

Saçları var şana-şana
Göz bir yana, qaş bir yana.
Ceyran kimi qaməti var
Baxıb keçsən həzz aparır.

Ceyhun oğlu sultanıdır,
Fərid oğlu fərmanıdır.
Mənzər onun sirdaşıdır,
Tələt, Mahmud əziz qardaşıdır.

**Dostum Mirmehdi Seyidzadənin yubileyinə xatirə**

***Şair, 60 yaşı vurdun sən başa***
***Nə qədər arzun var həyatda sən yaşa.***

Ancaq şərtim var dostluqda yenə
Şair olmasam da söyləyim sənə
Nə qədər düşməyib qələm əlindən
O böyük, gənc nəslin qədrini bilsən
Elinə sadiq ol, qəzəl də yaz bol
Sənin ardıcılın gənclərə aç yol
Yaradıb onlardan xalq sevər olsun,
Xoşbəxt xalqımıza qoy sadiq qalsın.

**Sevgilimin ad gününə ithaf edirəm**

Səni sevən gündən keçir 20 bahar
O ala gözlərə baxanda xumar.
Yenə ilk baxışın düşür yadıma,
Sadiq məhəbbətin yanır qəlbimdə
Deyirəm, o günlər bir də olaydı.
Eynalın sevgisi alovlanaydı.
Sevgilim, ad günün mübarək olsun,
Gözlərin önündə yüz bahar olsun,
Arzum odur, daim salamat olaq,
Birgə ömür sürüb, birgə qocalaq.

Ürəyimin dayağı
Elimin bayraqdarı.
Arzum budur, sağlam ömür sürəsən,
Bu şən vətənimdə daim güləsən.
Kədər, qəm, bədbinlik, olsun uzaqda səndən
Heç bir xəta səni ayrı salmasın məndən
Deyirəm, ad günün mübarək olsun
Mənim də həyatım sənlə olsun.

***02.05.65.***

**Oğlum Tələtin toyuna ithaf edirəm**

Oğlum Tələt, toyun mübarək
Yaşa! Bu dünyanın kef, ləzzətin çək
Bu gündə səni də görəndə Qoşa,
Bil ki, ilham sazım az qalır coşa
Arzum budur, daim xoşbəxt olasan
Uzun ömür sürüb, cüt qocalasan.

***27.12.78.***

**Respublikanın xalq artisti Sara xanım Qədimovanın 75 illik yubileyinə həsr edirəm**

Kəşkəşanlı əsrin bahar ayında,
Göz açdın dünyaya 31-i mayında
Vətənin yolunda can verdin qurban
Sənət yollarından dönmədin bir an.
Xalqının ruhunu şad etdin hər an.
Zəhmətinə bu gün verdi fərman
Zati-aliləri o dahi insan
Bu gün yetmiş beşi vurursan başa
Səmərəli həyatda salamat yaşa
Qoy gəmin heç vaxt dəyməsin daşa
Eynal arzu edir yüz əlli yaşa.

***31.05.92.***

**Tənhalığın acısı**

Gəldi işıqlı dünyaya iki körpə.
Biri oğlan, biri qız.
Böyüyüb çatdılar başa
Məktəbə getdilər qoşa
Bir ürəkdə birləşərək sevişdilər
Sədaqətlə, məhəbbətlə, dəyanətlə öyündülər.
Həddi büluğa çatıb qurdular xoşbəxt həyat
Bu sevginin şahidi oldu bütün kainat
Xeyirxah əməllərlə sadiq oldular ellərə
Sevgiləri nümunə oldu bütün gənclərə
Lakin gəmiləri tez dəydi daşa
Ülvi məhəbbəti vurmamış başa
Vəfalı eşqi ilə yanan o gözəl insan
Tək qaldı həyatda vəfalı oğlan
Yaşamaq çətindi, bilmir neyləsin.
Ürəkdəki dərdin kimə söyləsin?
Fikirləşib tapmayırdı bir çara
Dərd əlindən üzün tutdu qara məzara
Tənhalığın acıların, yalnız orada o duydu
Göz yaşları ilə yarın məzarın yudu.

**Sevimli qızım Brilliant xanıma ithaf**

Həzin nəfəsinlə tüğyan edirsən.
Bircə Cahidini candan sevirsən.
Adına bəstələdin mahnı maç-maç, quç-quçu.
Paxıllar ardınca edir pıç-pıçı.
Qorxutmasın səni bu bəd əməllər.
Çünki səni sevir bütün xalq! Bütün ellər.
Sənsən sənətinin gözəl neməti
Adın Brilliantdır, yoxdu qiyməti.
Anan Qızxanımdır, atan Süleyman.
Sənət aləmində etdilər tüğyan
Xalqın ruhunu etdilər heyran.
Övladlar yolunda, can verdilər qurban.
Zəhmətləri unudulmaz, heç zaman
Arzum budur, uzun ömür sürəsən
Bu şən vətənində daimi güləsən.
Kədər, qəm, bədbinlik, olsun uzaqda səndən.
Tanrı səni, ayrı salmasın bizdən.

***Eynal Əmircanlı***
***19.08.2002-ci il***

**Dahi insan**

Qədim Naxçıvan diyarında
1923-cü ilin may ayının onunda
İlahi yaratdı, nadir şəxsiyyətli bir insan.
Dünyaya göz açdı Heydər adlı bir oğlan.
Gəncliyində memar olmaq istədi
Lakin «Siyasətçi» oldu qisməti.
Qüdrətinə heyran olmuşdu cahan.
Quruculuq yolunda vətənində qoydu can.
Həyatda yarartdı min canlı dastan
Səsinə səs Verdi milyonlarla insan
Şöhrətlənib, oldu millət atası
Başında fırlandı daim düşmən xətası
O dözürdü müxalif təhqirlərinə
Amansız cinayət əməllərinə
O dözürdü əzablara, tökməyirdi qan.
Əksinə, əfv haqqında verirdi fərman.
Onda gördüm şücaəti, dəyanəti, sədaqəti
Vətəninə, öz xalqına, ailəyə məhəbbəti.
Qəriblikdə itirdi o, istəkli yarını
O dərmədi əkdiyi ağacların barını.
Çox istədi gənclərin xətrini.
İyləmədi doyunca becərdiyi güllərin ətrini.
Xalqının yolunda can verdi qurban
Dəyişdi dünyasın, o dahi insan.
Ziyarət evinə milyon insanlar gəldi.
Məzarı üstünə güllər sərildi.
Xiyabana gələn ellər, güllər ağladı
Ürəyimi fələk belə dağladı.
Həyatda ötüşüb keçən aylar, illər olacaq,
Heydərin xatirəsi tarixlərdə yaşayacaq.

***Eynal Əmircanlı***
***15.12.2003-cü il***


ПРОКУРАТУРА СССР

ЗА ПРОДОЛЖИТЕЛЬНУЮ И БЕЗУПРЕЧНУЮ СЛУЖБУ В ОРГАНАХ ПРОКУРАТУРЫ

НАГРАЖДАЕТСЯ НАГРУДНЫМ ЗНАКОМ «ПОЧЕТНЫЙ РАБОТНИК ПРОКУРАТУРЫ»

МОСКВА


ВЭСИГӘ №292

Азәрбајҹан Республикасы Президентиндән

1992 ил 14 сентјабр тарихли Фәрманы илә

"Азәрбајҹан Республикасынын әмәкдар һүгугшунасы"

фәхри адына верилмишдир.

Азәрбајҹан Республикасынын Президенти

14 сентјабр 1992 ил/г.

УДОСТОВЕРЕНИЕ №292

Тов. Алиеву Эйналу Гаджи оглы

Указом Президента Азербайджанской Республики

от 14 сентября 1992 года

присвоено ПОЧЕТНОЕ ЗВАНИЕ

Заслуженный юрист Азербайджанской Республики


















*Prokurorluğun muzeyinə baxış*



***Azərbaycan Respublikası Baş Prokurorluğu Kadrlar İdarəsinin rəisi Toğrul Musayev Böyük Vətən müharibəsində Qələbənin 50 illiyi münasibəti ilə Eynal Əliyevi təbrik edir.***



*Azərbaycan Prokurorluğunun 80 illiyi yığıncağında*



*Eynal Əliyev tribunada*





***Baş Prokurorun müavinləri İ.Nəcəfov və F.Məmmədov E.Əliyevi əmək fəaliyyətinin 50 illiyi münasibətilə təbrik edirlər.***

Xəlil Xəlilov «Orconikidzeneft»in 1-ci mədəninin neft hasilatı üzrə briqadasının qabaqcıl neft ustası, komsomolçu-gənclər briqadasının briqadiri idi. Briqadanın üzvlərinin 60%-i 16-18 yaşlı məktəbli gənclər, 40%-i qocalar, evdar qadınlar idi. Mancanaq dəzgahları, avadanlıq, alət çatışmırdı. Belə bir vəziyyətdə işləyən briqada hər ay planı artıqlaması ilə yerinə yetirərək plandan əlavə 500-600 ton yüksək keyfiyyətli neft hasil edirdi.Bu təcrübəli usta çox vaxt daxili vəsaitdən istifadə edir, köhnə alət və hissələri təmirdən sonra yenidən istehsalatda işlədirdi. Əmək qəhrəmanı və müharibə veteranıdır.

***«Pravda» qəzeti, 10 iyul 1941***



***Hüseynov Abdulla Hüseyn*** (1912-1983). Ukrayna SSR xarkov şəhərində Ali Partiya məktəbini bitirib. Zaqafqaziya Dəmiryol İdarəsinin Azərbaycan Dəmiryol idarəsində, Qroznı şəhərində Qafqaz tunel qazıntısı idarəsinin rəisi vəzifələrində işləyib.

1954-1962-ci illərdə Bakı şəhər Tikinti idarəsinin sədr müavini, Bakı Vaqon deposunun sədri, Bakı şəhər Metro Tikinti idarəsinin rəis müavini vəzifələrində işləyib. Müharibə və əmək veteranı idi. Böyük Vətən müharibəsinin orden və medallarilə təltif olunub.

***Hüseynov Hüseyn Abdulla oğlu*** (1940-2011). ANKİ-nin geoloji kəşfiyyat fakültəsini bitirib. İvanov-Frankov şəhərində İdarəetmə İnstitutunun məzunu olub. Qum adasında rəis işləyib.



***Hüseynova Sənəm Abdulla*** (1935). Əmircanda 154 №li məktəbi qızıl medalla bitirib. ADU Fizika-riyaziyyat fakültəsini bitirib, ANKİ-nin fizika kafedrasının assistenti olub. Moskvada aspiranturaya daxil olub, sonra namizədlik dissertasiyasını müdafiə edib alimlik dərəcəsi alıb. 20 çap olunmuş elmi əsərin müəllifi, 4 ixtiraya görə müəlliflik şəhadətnaməsi alıb. 1978-ci ildən SSRİ Hərbi Nazirliyinin Kosmik Tədqiqatlar İnstitutunda elmi işçi vəzifəsində çalışıb.



***Hüseynova Rufa Abdulla.*** 1948-ci ildə Əmircanda 154 №li məktəbi gümüş medalla bitirib. N. Nərimanov adına DTU-nun həkim-pediatr fakültəsini bitirib. Rusiya Tibb Elmləri Onkoloji mərkəzində namizədlik dissertasiyası müdafiə edib alimlik dərəcəsi alıb.1985-ci ildə R. E. Kavesik adına Onkologiyanın Problemləri institutunda Onkologiya üzrə dosent elmi rütbəsi alıb. 1952-ci ildən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Onkoloji Mərkəzində baş elmi işçi, 1988-ci ildən elmi katibi vəzifəsində çalışır. 90 çap vərəqi elmi işin müəllifi, 4 ixtiraya müəlliflik şəhadətnaməsi alıb. İlk dəfə Azərbaycanda şelen-tərkibli şiş əleyhinə preparatı sınaqdan keçirib. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Namizədlik Dissertasiya şurasının katibi, Onkoloji Elmi Mərkəzinin Elmi katibidir. Dəfələrlə SSRİ Onkoloqlarının qurultaylarında Ümumittifaq biofiziklərinin qurultaylarında, MDB ölkələrinin onkoloqlarının qurultaylarında çıxış edib, Azərbaycan elminin nailiyyətlərini məruzələri ilə tanıdıb. 2011-ci ildə «Tərəqqi» medalı ilə təltif olunub.



***Hüseynova Səbirə Abdulla qızı.*** 1959-cu ildə Əmircanda 154 №li məktəbi fərqlənmə diplomu ilə bitirib. 1976-cı ildə N. Nərimanov adına ADT-iyə daxil olub 1982-ci ildə pediatriya fakültəsini pediatr ixtisası üzrə bitirib. Təhsilini Rusiya tibb Elmləri Elmi-Tədqiqat Pediatriya İnstitutunun ordinaturasında davam etdirib. Orada namizədlik dissertasiyası müdafiə edib, alimlik dərəcəsini alıb. Bakıya qayıdıb, ADTU-nun müalicə-profilaktika fakültəsinin uşaq xəstəlikləri kafedrasına müsabiqə yolu ilə assistent, 2003-cü ildən dosent vəzifəsində işləyir. Onun 50 çap olunmuş elmi əsəri, 3 metodik tövsiyəsi var. O, I Ümumittifaq tənəffüs orqanlarına həsr olunmuş konqresdə, Kiyevdə III Ümumittifaq tibb genetiklərin qurultayında, Moskvada I Avrasiya qastroenteroloqların konqresində, İstambulda Ümumdünya pediatrlarının konqresində, MDB ölkələrinin pediatrlarının, İranda pediatrların qurultaylarında məruzələrlə çıxış edib. Azərbaycan Tibb Universitetinin Namizədlik dissertasiyalarının ilkin müzakirəsi Elmi Şurasının üzvüdür.

İlk dəfə olaraq Azərbaycanda uşaqlarda QİÇS sindromunu öyrənərək, ona aid metodik vəsait çap etdirib. 2011-ci ildə «Əməkdar həkim» adına layiq görülüb.

- İlk öncə mən bazanın deyil, dövlətin idmana göstərdiyi qayğının tarixindən danışmaq istərdim. İdmanla yaxın əlaqəsi olan hər kəs yaxşı bilir ki, ölkəmizdə idmana qayğı prezident İlham Əliyev hələ 1996-cı ildə Azərbaycan Dövlət Neft Şirkətində işlədiyi andan yaranıb. O zaman İ. Əliyev heç MOK-un da prezidenti deyildi. Ancaq bununla belə o ARDNŞ-nin birinci vitse-prezidenti kimi Suraxanıda «Neftçi» İSM-in balansında olan Suraxanı Olimpiya Tədris İdman Bazasının yenidən tikilməsində böyük köməklik etmişdi. Suraxanıdan sonra isə Əli Bayramlıda, Neftçalada, bir sözlə respublikamızın ARDNŞ-ə aid olan zonalarının hamısında olan idman arenalarında və bazalarında yenidənqurma işləri başlamışdı. Lökbatan Olimpiya bazasına gəlincə isə, çox şey danışmaq olar. Bu bazanın yaranma tarixi 2000-ci il Olimpiya Oyunları ərəfəsinə təsadüf edir. Artıq həmin dövrdə İ. Əliyev həm Milli Olimpiya Komitəsinin prezidenti, həm də Qaradağ rayonundan MM-ə seçilmiş deputat kimi fəaliyyət göstərirdi. Məhz həmin dövrdə İ. Əliyev seçiciləri ilə keçirdiyi görüşlərdə insanlar ona yaxınlaşaraq Lökbatanda böyük bir idman bazasının qurulması həm şifahi, həm də yazılı şəkildə xahiş etmişdilər. Həmin müraciətlər isə göründüyü kimi kağız üzərinə qalmadı. İ. Əliyev məni yanına çağırdı və tez bir zamanda Qaradağ rayonu ərazisində lazım olan Olimpiya bazasının tikilməsi üçün yer seçməyi tapşırdı. Mən də rayonun ərazisini gəzəndən sonra məhz buranı seçdim. O zaman bura bataqlıq bir yer idi. Demək olar ki, qəsəbənin bütün çirkab sularının hamısı gəlib bura cəmləşirdi. Bu baxımdan da yerin idman bazası üçün əhəmiyyətli olması ilə yanaşı, həm də çətinlikləri vardı. Gördüklərimin hamısını ilham müəllimə məruzə etdikdən sonra o, tikintinin dərhal başlanmasını tapşırdı. Və mən də bütün işlərimi bir yana qoyub ancaq bu bazanın tikintisi ilə məşğul olmağa başladım. Lökbatan qəsəbəsinin böyüklüyünü və Sahil qəsəbənin bura yaxın olduğunu, eləcə də qəsəbənin ildən-ilə böyüyəcəyini nəzərə alaraq, burada Olimpiya İdman Kompleksi deyil, Olimpiya Tədris İdman Bazasının tikilməsini planlaşdırdıq. Elə buna görə də bazada eyni vaxtda hamısı 3 mərtəbədən ibarət olan 16 bağlı idman zalının təməlini qoyduq. Hazırda bazanın içərisində 8 belə zal istifadəyə verilib.



***Bünyatov Zabulla Hənnan oğlu.***



***Bünyatov Rəşid Hənnan oğlu.***

Məmmədrəşid
Məmmədkərim
Məmmədəmin
Məmməd
Rəhim
Məryəm
Mehdi
Rübabə
Məryəm
Zaabit
Anaxanım
Çimnaz
Flora
Valida
Çingiz
Mixtar
Tamila
Leyla
Bəyim xanım
Mehdi
Əzizbəla
Ekxan
Şəhriyar
Paşa
Nəmiq
Akif
Gülağa
Rəhim
Səbinə
Səmayə
İntiqam
Cavanşir
Firəngiz
Vüsalə
Leyla
Rühəngiz
Səlim
Fərhad
Samirə
Aynur
Şahin
Vahid
Məmmədəmin
Pərvanə
Təranə
Şəlalə
Xanım
Heşim
Ağa
Rəşid
Nəriman
Əhməd
Tamara
Aslan
Tofiq
İmran
Tubu
Nəzakət
Məlahət
Lətifə
Nəzifə
Tubuxanım
Həmid
Şəfəq
Fikrət
Ziya
Həmid
Ülvü
Zəhra



***Həmid Axundlu Məmmədrəhim oğlu*** (1909-1964). Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən sayılır. 30-cu illərdə rəhbər komsomol vəzifələrində çalışmışdır. O, «Kələfin ucu» povesti ilə nəsrimizə gəlmişdir. Sonralar «Toy kimindir?» hekayələr toplusunu nəşr etdirir. Bu hekayələrdə yeni sovet adamının, fədakar gəncliyimiz və cahanşümül quruculuq vüsətimiz haqqında sənət dili ilə, yüksək bədii deyim tərzi barədə söhbət açılır.

Yazıçının qələm zirvəsi onun «Ağır günün dostları» romanıdır. Bu əsərdə müəllif sovet xalqının Böyük Vətən Müharibəsində göstərdiyi kütləvi qəhrəmanlıq əzmini, xalqlarımız arasında sarsılmaz dostluğu qələmə almışdır.



«Əlli il buruqdar arasında» əsəri tanınmış qocaman buruq ustası Sosialist Əməyi Qəhrəmanı Gülbala Əliyevə həsr olunub. O, Azərbaycan Xarici Ölkələrlə Əlaqə cəmiyyətində sədr müavini, Azərbaycan Teleqraf Agentliyində sədr müavini vəzifələrində çalışmışdır.

***Axundlu Ziya Həmid*** (1944). ADU-nun şərqşünaslıq fakültəsini bitirib. 1979-1989-cu illərdə Əfqanıstanda sovet qoşunlarında tərcüməçi işləyib. Azərbaycan Milli EA-nın AMOKA elmi-tədqiqat İnstitutunun tərcüməçilər qrupunun rəhbəridir.



***Axundlu Fikrət Həmid*** (1946). Azərnəşrin direktor müavini işləyib. Bacısı Şəfəq xanım.



***Əzimov Əzimbala Xanbaba oğlu,*** 7 sentyabr 1948-ci ildə Bakı şəhərində Əmircan kəndində anadan olub və 1966-cı ildə 208 № -li məktəbi bitirib.

1961-ci ildən Hüseynbala Əliyev adına Bakı aeroklubunda avia-modelçilik ilə məşğul olmağa başlayıb. Sonra 1966-cı ilə qədər Planerlərdə (mühərriksiz təyyarə) uçmağa başlayıb. 1966-1969-cu illər ərzində Mülki Aviasiyanın Saova şəhəri uçuş peşə məktəbində oxuyub. 1969-cu ildən isə Mülki Aviasiya Nazirliyinin nəzdində Zabrat birləşmiş aviadəstəsinin AN-2 HG-nin 2-ci pilotu vəzifəsində işləyib. Sonralar həmin tip gəminin komandiri olub. 1972-ci ildə "Şöhrət Nişanı" ordeni ilə mükafatlandırılıb. 1974-ci ildən 1998-ci ilə qədər 107 №-li uçuş dəstəsinin İL-18 HG-nin 2-ci pilotu, İL-18 HG-nin komandiri, TU -154 HG-nin 2-ci pilotu, TU-154 HG-nin komandiri, AE-nın komandiri müavini, BOİNG 707-HG-nin kapitanı, 1-ci aviadəstənin böyük təlimatçı pilotu vəzifələrində çalışmışdır.

1980-1985-ci illər ərzində D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda oxumuş və iqtisadçı ixtisasına yiyələnmişdir. Həmçinin 1991-ci ildə Lenin ordenli Leninqrad Mülki Aviasiya Akademiyasını mühəndis-pilot ixtisası üzrə bitirmişdir. 1998-2007-ci illər ərzində Azərbaycan Hava Yolları Dövlət Konserninin Yük Aviaşirkətinin Aviaeskadriliyanın komandiri vəzifəsində çalışmışdır. 2007-ci ildən bu günə qədər "Silk Way" aviaşirkətinin 1-ci aviaeskadriliyanın şef pilotu vəzifəsində çalışır.




Babamın məni övladlığa götürdüyünə görə onun soy adını daşıyıram.



ОРДЕНСКАЯ
КНИЖКА


СОЮЗ
СОВЕТСКИХ
СОЦИАЛИСТИЧЕСКИХ
РЕСПУБЛИК
ОРДЕНСКАЯ
КНИЖКА


СОЮЗ
СОВЕТСКИХ
СОЦИАЛИСТИЧЕСКИХ
РЕСПУБЛИК
ОРДЕНСКАЯ
КНИЖКА


МИНИСТЕРСТВО
ГРАЖДАНСКОЙ АВИАЦИИ
MINISTRY OF CIVIL AVIATION
СОЮЗ
СОВЕТСКИХ СОЦИАЛИСТИЧЕСКИХ
РЕСПУБЛИК
UNION
OF SOVIET SOCIALIST REPUBLICS
СВИДЕТЕЛЬСТВО
ПИЛОТА
ГРАЖДАНСКОЙ АВИАЦИИ
LICENCE
of Civil Aviation Pilot
XV П № 7005


AZƏRBAYCAN RESPUBLİKASI
ORDENİNİN VƏSİQƏSİ
Əzimov
Əzimbala
Xanbaba oğlu
Azərbaycan Respublikasının
"ŞÖHRƏT"
ordeni
İLHAM ƏLİYEV


МИНИСТЕРСТВО
ГРАЖДАНСКОЙ АВИАЦИИ
MINISTRY OF CIVIL AVIATION
СОЮЗ
СОВЕТСКИХ СОЦИАЛИСТИЧЕСКИХ
РЕСПУБЛИК
UNION
OF SOVIET SOCIALIST REPUBLICS
СВИДЕТЕЛЬСТВО
ПИЛОТА
ПЕРВОГО КЛАССА
ТРАНСПОРТНОЙ АВИАЦИИ
LICENCE
of an Airline Transport Pilot
Class I
VII П № 005980


СОЮЗ
СОВЕТСКИХ
СОЦИАЛИСТИЧЕСКИХ
РЕСПУБЛИК
УДОСТОВЕРЕНИЕ К МЕДАЛИ
„ВЕТЕРАН ТРУДА"


AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
SƏRƏNCAMI
Azərbaycan Respublikasının mülki aviasiya işçilərinin
təltif edilməsi haqqında
"Şöhrət" ordeni ilə
Əliyev Ramiz Salamulayevic
Əzimov Əzimbala Xanbaba oğlu
"Tərəqqi" medalı ilə
İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti


Фамилия Азимов
Имя Азим Бала
Отчество Ханбабаевич
ПРАВИЛА
ЗАПОЛНЕНИЯ КНИЖКИ



***Mehdi Axundov Zabit oğlu***. Professional ifaçılıq sənətindən söhbət gedəndə, nədənsə, hamı pianoçuları, skripkaçıları və violonçel çalanları nəzərdə tutur. Halbuki, ifaçılar arasında müxtəlif nəfəsli, zərb və başqa simli alətlərdə çalanlar da var. Səbəb bundadır ki, çalğıçıların böyük bir qismi taleyini orkestr ifaçılığı ilə bağlayır. Onların səyi simfonik orkestrin ümumi ahənginə qarışır və buna görə də geniş dinləyici kütləsinin diqqətindən yayınır. Lakin məhz musiqi sənətinin bu fədakar sıravilərinin gündəlik əməyi nəticəsində bəstəkarlarımızın monumental simfonik tablolarına həyat verilir, bu əsərlər öz dinləyicilərinə çatdırılır.

Respublikamızda orkestr ifaçılığı sənətinin həqiqətən gözəl ənənələri vardır. Bakı nəfəsli alətlər məktəbinin nümayəndələri uzun illər SSRİ Böyük Teatrının, S. M. Kirov adına Leninqrad opera və Balet Teatrının, Leninqrad filarmoniyasının simfonik orkestrlərində çalışıblar. Hazırda P. İ. Çaykovski adına Moskva dövlət konservatoriyasında qoboy və trombon alətlərini azərbaycanlı professorlar - qoboyçu Məmməd Orucov və trombonçalan Məmməd Zeynalov tədris edir.

Haqqında söhbət açacağımız qoboyçu Mehdi Axundov da Bakı nəfəsli alətlər məktəbinin ənənələrini layiqincə davam etdirən gənc və mahir ifaçıdır.

Mehdi Axundovun qazandığı nailiyyətlərlə, həqiqətən, fəxr etmək olar. O, Azərbaycan Dövlət Konservatoriyasının və aspiranturasının məzunu, respublika radio və televiziyası simfonik orkestrinin solistidir. Mehdi nəfəsli alətlərdə çalanların birinci Zaqafaziya müsabiqəsinin laureatı, konservatoriyanın müəllimidir.

M. Axundovun sənətdə fəth etdiyi bu zirvələrin hər biri yaradıcılığının yeni mərhələsidir.

1967-ci il. Bakı Nəfəsli alətlərdə Çalanlar Birliyinin ilk müsabiqəsi. Bu zaman Mehdi Asəf Zeynallı adına Bakı orta musiqi məktəbinin ikinci kurs tələbəsi idi. Gənc ifaçı respublikamızın müxtəlif musiqi kollektivlərində işləyən peşəkar çalğıçılarla yarışda laureat adını qazandı.

1970-ci il. Konservatoriyanın ikinci kurs tələbəsi M. Axundov müsabiqə yolu ilə yenicə açılan respublika televiziya və radiosu simfonik orkestrinə solist vəzifəsinə qəbul edilir. Elə bu dövrdən ifaçının geniş konsert fəaliyyəti başlanır. O, simfonik, eləcə də, kollektivin nəzdində təşkil edilmiş kamera orkestrlərində birinci qoboyun partiyalarını çalır. Mehdi hər iki orkestrin müşayətilə Bax-Marçello, Çimaroza, Hendelin qoboy üçün konsertlərini ifa edir. O, həmçinin əməkdar incəsənət xadimi Tofiq Bakıxanovun qoboy və orkestr üçün konsertinin ilk ifaçılıq təfsirini verir. Mehdinin çalğısında orijinal həllini tapan əsər Azərbaycan musiqisində qoboy aləti üçün yazılmış ilk və hələlik yeganə konsertdir. Onu da qeyd edək ki, ifaçı repertuarında olan bütün konsertləri orkestrin müşayiətilə lentə yazdırıb.

Mehdi Axundovun orkestrdəki fəaliyyəti barədə kollektivin bədii rəhbəri və baş dirijoru əməkdar incəsənət xadimi Ramiz Məlikaslanov belə deyir: «Orkestrdə qoboyçunun qüvvətli olması dirijorun xoşbəxtliyidir. Çünki bütün dövrlərdə yazıb-yaratmış bəstəkarların əsərlərində qoboy solo aləti kimi geniş istifadə edilir. Orkestrimizin solisti M. Axundov istər solo partiyalarını, istərsə də ümumi çalğı yerlərini bacarıqla ifa edir. Bundan əlavə ifaçı orkestrin alətlərini kökləməkdə və yeni qoboyçu-orkestrantlar tərbiyə etməkdə mənə yaxından kömək edir».

1974-cü il. Konservatoriyanın böyük salonunda dövlət imtahanı. Mehdi imtahanda maraqlı və müxtəlif janrlı proqramla çıxış edib aspiranturaya göndəriş aldı. «Mehdinin çalğısı məni valeh etdi», - deyə dövlət imtahan komissiyasının sədri, P. İ. Çaykovski adına Moskva Dövlət Konservatoriyasının professoru, qoboyçu M. Orucov radionun müxbirinə verdiyi müsahibədə gənc ifaçıya yüksək qiymət vermişdir.

1979-cu il. Nəfəsli alətlərdə çalanların birinci Zaqafqaziya müsabiqəsi. Müsabiqədə Mehdi həm ifaçı, həm də müəllim kimi qələbə çaldı. O, müsabiqənin birinci, yetirməsi Vahid Qafarov isə ikinci dərəcəli diplomuna layiq görüldü.

Müsabiqə günlərində Mehdinin ixtisas müəllimi professor Azər Abdullayev belə deyib: «Mehdinin zəhmətsevərliyi, inadkarlığı məni heyrətə gətirir. Son zamanlar onun çalğıçılıq sənəti xeyli yüksəlmişdir. O, tamamilə hazır, cilalanmış əsərlər üzərində yaradıcılıq işini davam edir, yeni boyalar, ifadə vasitələri tapır. Yalnız müsabiqə günlərində mən tələbəmin həqiqətən nəyə qadir olduğunu müəyyən etdim».

Mehdi Axundov müsabiqədə Loyenin, çimarozanın, Platonovun, Məlikovun, Bartokun əsərlərindən ibarət geniş proqramla çıxış etdi. Bu əsərlərdə olan üslub rəngarəngliyi, forma kamilliyi qardaş Zaqafqaziya respublikalarından gəlmiş musiqiçilərin də rəğbətini qazandı.

1980-ci il. Konservatoriyanın böyük tamaşa salonunda iki şöbədən ibarət konsertlə Mehdi aspiranturanı bitirdi.

1983-cü il. M. Axunovun yetişdirmələrindən bir qrupu müvəffəqiyyətlə qəbul imtahanları verib konservatoriyaya qəbul olundular. Bülbül adına musiqi məktəbinin məzunları olan bu istedadlı gənclər orta təhsil ocaqlarının IV respublika müsabiqəsinin laureatları idi. Tələbə həyatın yenicə qədəm qoymuş bu gəncləri xoş bir xəbər gözləyirdi. Onlar öz təhsillərini konservatoriyanın gənc müəllimi Mehdi Axundovun sinfində davam etdirəcəkdilər.

Azərbaycan KP MK-nın «Respublikada musiqi ifaçılığının vəziyyəti və onu daha da yaxşılaşdırmaq tədbirləri haqqında» qərarından irəli gələn əsas vəzifələr solo və orkestr çalğıçılığının yüksəldilməsi, yeni ixtisaslı kadrların yetişdirilməsi məsələləridir. İstedadlı qoboyçu Mehdi Axundovun ifaçılıq və müəllimlik fəaliyyəti partiyamızın bu tarixi qərarının yerinə yetirilməsinə xidmət edir.







***Hüseynov İmran Hüseyn*** (1921-1982). ARİ-nin tarix-coğrafiya fakültəsini bitirib. 1941-1945-ci illərdə Böyük Vətən müharibəsi veteranıdır. 1948-ci ildə Yardımlıda müəllim, sonra Yardımlı rayon PK-nın təlimatçısı işləyib. Bakıda Ali Partiya (1955-1959) məktəbində təhsil alıb. Yardımlıda məsul vəzifədə, Suraxanı rayon İcraiyyə Komitəsinin müavini, 1980-ci ildə Əmircan qəsəbəsinin kənd soveti sədri işləyib.

**Ağaqulu**



**ТАМ, У ИНКЕРМЕНА…**

За столом заведующего библиотекой сидел седой, сухощавый человек средних лет. Когда он поднялся, опираяс о стол обеими руками, в его движениях было что-то неестественное, непривычное. Вышел навстречу, слегка прихрамывая. Шел, широко расставив ноги, как моряки при качке.

- Агакулы Агаев, - представился он.

Потом я узнал что, в годы войны, чтобы сохранить ему жизн, врачам пришлось ампутировать ноги.

Когда началась Великая отечественная Война, Агакулы только что окончил Бакинский нефтяной техникум. Работая техником-геологом в нефтепромысловом управлении в Карачухуре (ныне НГДУ им. Серебровского), молодой специалист строил даеко идущие планы. Но им не суждено было осуществиться. Помешала война.

В начале августа 1941 года двадцатилетний Агакулы был призван на военную службу и попал в часть береговой охраныв Севостополе. Обучение военным навыкам и принятие присяги на верность родинепроисходили под артиллерийской канонадой и взрывами бомб.

Боевое крещение Агакулы получил неожиданно. К Севостополю один за другим приходили корабли с эвакуированными из Одессы. Находясь в тюрме одного из кораблей, он с товарищем замешкался, а когда поднялся на палубу, то корабль был уже на открытом море - спешил на помощь оставшимся в Одессе. Они оказались совсем не лишними при погрузке раненных, которая происходила под обстрелом вражеской артиллерии. Корабль, на борту которого был Агакулы, оказался последним отправляющимся из Одессы в 1941 году. Тогда же он был ранен в руку осколком снаряда.

Вскоре на Крымском полуострове начались ожесточонные бои. Фашисты рвались на главной военно-морской базе Черноморского флота - Севастополю. После недолгого относительного затишья в декабре 1941 года, на подступах к Севастополювозобновилис кровопролитные сражения.

… У Инкерманских высот, на одном из участков нелегкую оборону держали семеро. Двое - Агакулы Агаев и рядовой Хлебников (тоже бакинец) только начинали военную службу, а пятеро - настоящие моряки, «морские волки», сошедшие с корабля для защиты города. Младший политрук Николай Фильченко, Василий Цибулько, Юрий Паршин, Иван Красносельский и Даниил Одинцов уже закончили срочную службу, их увольнению в запас помешала только война.

Агаев вспоминает:

- Мы были молоды и неопытны. Моряки, которых так боялись фашисты, прозвавшые их «черной смертью», поставили меня с Хлебниковым во вторую линию обороны. Через их головы мы вели минометный огонь по фашистам. Это продолжалось недолго. Вскоре начался поединок моряков с немецкими танками.

… На позицию наших бойцов двинулись десять танков. Метким огнем семь из них были побиты. Кончились беоприпасы. Два матроса погибли. Три танка с черной свастикой на броне стремительно двигались на трех моряков, у которых осталось по одной связке гранат. Раздались еще три взрыва, и три танка остановились.

Немцы начали бешеный обстрел позиции наших бойцов. От разрыва снаряда Агакулы Агаев был тяжело ранен и потерял сознание. Пришел он в себя далеко от Севастополя, в открытом море, на борту корабля, который доставил его в Батуми. В госпитале в Тбилиси врачи боролись за его жизн в течение года. Война для него закончилась, но бой продалжался. Бой за жизнь, бой за место в ней.

Вернувшись в октябре 1942 года домой, Агакулы Агаев начал упорно тренироваться. Процесс обучения ходьбе длился долго, проходил мучительно и требовал огромного нервного и физического напряжения. Упорство его было вознаграждено. Он научился свободно ходить. Вот тогда и предложили ему пойти работать в библиотеку. В том памятном 1848 году его неожиданно вызвали в военкомат и вручили боевую награду, которая искала его шесть лет, - Орден отечественной войны Ы степени - за героизм, проявленный в боях под Севастополемь.

А. Агаев в Амираджанах, да и пожалуй, во всем Орджоникидзевском районе знают все. И не только потому, что он давно работает в библиотеке (кстати, за это время он успел заочно окончить библиотечный техникум им. Н. К. Крупской). Член комитета ветеранов войны республики А. Агаев - частый и желанный гость школьников, рабочий промышленных предприятий, воинов Советской Армии.

Много сил и энергии тратит ветеран для увековечения памяти погибших. Он один из инициаторов создния памятника в Амираджанах воинам-землякам, погибшим на фронтах Великой Отечественной…

Двадцать восем лет назад, в сентябре 1943 года, наши воиска освободили от гитлеровцев село Городише Бахмачского района Черниговской области. В центре села возвышается монумент из гранита, на котором высечены имена освободителей. Среди них - шесть азербайджанцев.

В годовщину освобождения села от фашистов делегация ветеранов войны Азербайджана, побывало в селе городище. Был там и Агакулы Агаев. Возложыв венок на могилу военовн крепко стоял на земле, широко расставив ноги, устремив взгляд вперед. И ветер шевелил его поседевшие волосы.


O, Krım uğrunda döyüşlərdə iki ayağını itirib. A. A. I dərəcəli Vətən müharibəsi ordeni və s. Medallarla təltif olunmuşdur. SSRİ Müharibə Veteranları Komitəsinin qərarı ilə fəxri veteran adını almışdır. Ömrünün sonunadək Əmircanda A. A. Bakıxanov adına kitabxananın müdiri işləmişdir.

Pirəli
Novruz
Pənah
Ağaəli
Cənnətali
Baba
Ağakişi
Canbaxış
Hüseyn
Əbdül-rəhman
Tuhu
Gülnaz
Ümleyla
Dostu
Pənah
Səmayə
Şüşə xanım
Əlirza
Denis
Ofelya
Kamala
Əlibaxış
Sona
Sügra
Püstə
Raisa
Aliyə
Ağaəli
Əyyub
Bahadır
Boris
Aslan
Sabir
Fuad
Fərhad
Ağaəli
Elmira
Eldar
Aydın
Nadir
Nasir
Asif
Mübariz
Bəhruz



***Cənnətalı Gülli oğlü*** (1896-1982). Neft ustası. I-II dünya müharibələrində iştirak emişdir.

***Baba Cənətalı oğlu***. Neft ustası. "Lenin", "Şərəf", "Qırmızı Əmək Bayrağı" ordenləri ilə təltif olunub. Hörmətli ağsaqqal kimi yaşayıb.



***Əlpənah Cənnətalı oğlu*** (1900-1937). Peterburq Texniki Universitetini bitirib. Əmircanda mədən müdiri işləyib. 1937-ci il repressiya qurbanı olub. 1956-ci ildə SSRİ Ali Sovetinin qərarı ilə bəraət qazanıb.



***Əliyev Ağəmi Baba oğlu***. (1921-2011) Dövlət Təhlükəsizlik orqanlarının əməkdaşı.



***Əliyev Boris Baba oğlu***. 114 №li məktəbin direktoru vəzifəsində işləyib, tarixçi olub.

***Əliyev Bahadır Baba*** (1925). İlk iş yeri Suraxanı neft mədənlərindən başlayıb. Əmircanda neftçi sülalərindlən biri də Cənnətalı nəslidir.

Bahadır neftçi sənətini davam etdirir. Neft quyularının əsaslı təmir sexində çalışır. Onlarla səmərələşdirici təklifi istehsalata tətbiq olunub. Neft quyusunun genişliyini yoxlamaq üçün istismar kəmərinin başlığı, iş yerində qaldırıcı kranın təkmilləşdirilməsi təklifləri var.

Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordeni və «SSRİ neft əlaçısı»dır.

Həm özü, həm oğlu klassik güləş ürzə idman ustasıdırlar. Həm də gözəl futbolçudur.

Üç cür yaşamaq var. Birincisi, yaşadığının fərqində belə olmamaq. İkincisi, harada olursan ol, yaşamaq bir səadətdir sənincün. Düşünmək, öyrənmək, çalışmaq, bir sözlə, bu maddi və mənəvi keyfiyyətlər səadətdir sənincün. Üçüncüsü, yaşamaq, sadəcə bir vəzifədir. Verilmiş sözü yerinə yetirmək kimi.

***N. Hikmət***

**OÇERK**

Növbədən qayıdan usta Baba evə çatan kimi «gözün aydın, oğlun olub» deyə onu muştuluqladılar. Şad xəbər ustaya bir anlığa bütün yorğunluğunu unutdurdu. Nəslin ağsaqqallarına, ağbirçəklərinə xəbər göndərildi. Bir azdan hamı onlarda idi. Yenicə dünyaya göz açmış körpəyə ad qoymaqda çox fikirləşmədilər. Ağsaqqallar «Bahadır» qoyaq, dedilər. Ağbirçəklər «adlı-sanlı yaşasın, adına layiq olsun» deyib xeyir-dua verdilər.

Bu hadisə beşilliyin ilk ilində olmuşdu...

...İllər keçdi. Lap nağıllardakı kimi. Bahadır böyüdü. Nağıl qəhrəmanları kimi sürətlə. Sənət seçmək vaxtı gəldi. Atasının məsləhətilə peşə məktəbinə getdi. Neftçi olacaqdı (Adı tarix kitablarına düşən babası Cənnətəli, neft Bakısını şöhrətləndirən məşhur buruq ustası, Lenin ordenli atası kimi). Bir qədər də keçəcək, özü də bu şöhrət çələngini yeni-yeni əmək qələbələri ilə bəzəyəcək, ad-san qazanacaq, əmək bahadırı olacaqdır.

Beşillikləri vaxtından əvvəl yerinə yetirdiyinə görə «Qırmızı Əmək Bayrağı», «Şərəf nişanı» ordenləri, Azərbaycan Xalq Təsərrüfatı Şurasının «Sosializm yarışı əlaçısı» döş nişanı ilə təltif olunub. SSRİ Neft Sənayesi Nazirliyinin fəxri fərmanlarına, diplomlarına layiq görülmüşdür. Suraxanı rayonunun futbol komandasının çempionudur. Oğlu Asif klassik güləş üzrə idman ustasıdır.

Bahadır Əliyev bu gün də gümrahdır. Sirrini - fiziki iş, bədən tərbiyəsi və idmanla məşğul olmaqda görür.

***Əliyev Əlirza İbrahim oğlu***. 1942-ci ildə Stalinqrad uğrunda qanlı vuruşlarda iştirak edib. Tank korpusunda sürücü mexanik işləyib. Belarusiyanın, Polşanın, Konsberqin alınmasında fədakarlıq göstərib. «Qırmızı ulduz» ordeni ilə təltif olunub.

Əhməd
Səməd
Kazım
Gülnaz
Tahir
Əkrəm
Tofiq
Zəhra
Səməd
Əşrəf
Əkrəm
Tofiq
Zəhra
Əşrəf
Aytən
Lalə
Rahə
Elmira
Firəngiz
Əsmər



***Səməd Hacı Əhməd oğlu Mənsurov*** 1879-cu ildə Bakı şəhərində anadan olmuşdur. Onun inqilabdan əvvəl və sonra «İqbal», «Səda», «Bəsirət», «Azərbaycan fəhləsi», «Qırmızı əsgər», «Molla Nəsrəddin», «Tuti», «Zənbur», «Ədəbi parçalar» kimi qəzet və jurnallarda şeirləri çap olunmuşdur.

Səməd Mənsur rus, türk, fars dillərini bilirdi. Bir neçə pyesi «Tənqid və təbliğ teatrı»nda oynanılmışdır.

Uzun müddət dövlət idarələrində müxtəlif vəzifələrdə çalışmışdır.

1927-ci il yanvar ayının 3-də Bakıda vəfat etmişdir.

**ŞAİR, AKTYOR, DRAMATURQ...**

İctimai-siyasi və tarixi hadisələrlə zəngin bir dövr olan XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı bir sıra görkəmli sənətkarlar yetişdirmişdir. Keşməkeşli zəmanə onların başına çox oyunlar açıb, taleləri ilə oynasa da, bu şəxsiyyətlər vətən və millətin azadlığı uğrunda heç bir fədakarlıqdan çəkinməmişlər. Ədəbiyyatımızın çoxəsrlik zəngin ənənələrinə arxalanan bu qələm sahiblərinin hər biri öz qabiliyyət və imkanı dairəsində yazıb-yaratmış, millətin güzəranı, arzu, istəkləri, mübarizəsi barədə öz ürək sözlərini demişlər. 1905-ci ilin inqilabından sonra nisbi söz azadlığının verilməsi, qəzet və jurnalların çıxması bu yazarlara öz fikirlərini xalqa çatdırmaq imkanı vermişdir.



***Ortada oturanlardan 3-cü adam Səməd Mənsur***

Bu gün təəssüflə qeyd etməliyik ki, öz yaradıcılıqları ilə xalqımızın mədəniyyət tarixində unudulmaz səhifələr açmış bu şəxslərin hamısı, hətta 37-ci ilə qədər həyatdan köçənlər də, sovet quruluşunun dəhşətli repressiyalarından yaxalarını qurtara bilməmişlər. Bu baxımdan seçilmiş əsərlərini oxuculara təqdim etdiyimiz Səməd Mənsur xüsusi yer tutur.

Sovet dövründə S. Mənsurun əsərləri toplusunun çapa hazırlanması təşəbbüsünü göstərən, uzun müddət arxivlərdən onun əsərlərini toplayan filologiya elmləri namizədi Əliheydər Hüseynov olmuşdur. Müxtəlif məsul vəzifələrdə fəaliyyət göstərdikdən sonra o, ömrünün sonuna kimi Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda işləmiş, bir sıra müəlliflərin, o cümlədən S. Vurğunun çoxcildlik əsərlər toplusunu nəşr etdirmiş, «Molla Nəsrəddin» jurnalının transliterasiya edilərək yenidən çapa hazırlanmasına çalışmışdır. Hazırda təqdim olunan əsərlər toplusu onun fəaliyyətinin son səhifəsi olmuş, 1989-cu ildə qəfil ölüm onu bizim aramızdan aparmışdır. S. Mənsur sağlığında əsərlərinin çapına səy etmədiyindən heç bir əsəri nəşr edilmədiyi kimi, Ə. Hüseynovun topladıqları da uzun illər işıq üzü görməyərək qalmışdı. Lakin həm S. Mənsurun, həm də Ə. Hüseynovun xatirələrini əziz tutaraq bir neçə il öncə bu toplunu nəzərdən keçirtdik. Topluya bir sıra əlavə və düzəlişlər etdikdən sonra sizin nəzərinizə təqdim edirik.

Səməd Hacı Əhməd oğlu Kazımov (Səməd Mənsur) 1879-cu ildə Bakıda anadan olmuşdur. Uşaqlıqda xüsusi təhsil görməyən şair «Övladıma vəsiyyətlərim»də özü haqda belə yazır: «Çox gənc ikən on beş, on altı yaşlarımdan kəndi zəhmətlərim sayəsində yaşamağa başladım. Savadsız, məlumatsız meydana atıldım. Təbii zəkavətə malik olduğumdan hər şeyi tədqiq etmək, hər şeyi anlamaq təbii xasiyyətim oldu... Daimə yazılar ilə, kitablar ilə uğraşardım. Bir məsələ barəsində də mütəfəkkirin fikir və nəzəriyyəsini digər bir mütəfəkkirin fikir və nəzəriyyəsi ilə müqayisə etmək vasitəsi ilə get-gedə özüm də müəyyən fikir və nəzəriyyə sahibi oldum...»

Bu parçadan göründüyü kimi, gənc Səmədin universitetləri həyat və kitablar olmuşdur. O, ağlı, zəyası ilə yaxşını pisdən, düzü əyridən seçməyi öyrənmiş, özünü gələcək mübarizələrə hazırlamışdır.

S. Mənsur özünün yazdığına görə, 1908-ci ildən ədəbiyyat sahəsində çalışaraq Bakıda fəaliyyət göstərən «Məcməüş-şüəra» adlı ədəbi məclisin iştirakçıları olan Mirzə Əbdülxaliq Yusif, Əbdülxaliq Cənnəti, Mikayıl Seydi, Buzovnalı Azər, Əliabbas Müznib, Əliağa Vahid və başqa sənətkarlardan öyrənmiş, onlarla şeirləşmələrdə uğur qazanaraq «Mənsur» təxəllüsünə layiq görülmüş və poeziya sənətinin zirvəsinə ucala bilmişdir. Onu da qeyd edək ki, S. Mənsur «Məcməüş-şüəra» şairlərinin əksəriyyətindən fərqli olaraq təkcə klassik poeziyanın nümunələrini yaratmaqla kifayətlənməmiş, zəmanəsinin aparıcı istiqaməti olan satirik şeirin, yəni «Molla Nəsrəddin» ədəbi məktəbinin nümayəndəsi kimi də tanınmışdır. S. Mənsurun lirikada ustadı Füzuli, satirada isə M. Ə. Sabir olmuşdur.

Şairə daha çox şöhrət qazandıran və eyni zamanda onun «ifşa»sına əsas verən lirik şeirləri, daha doğrusu, «Həpsi rəngdir» adlı bir müxəmməsi olmuşdur. Bu şeir 1919-cu il martın 22-də yazılmış və 1926-cı ilin mayında nəşr edilən «Ədəbi parçalar» məcmuəsində «Klassik ədəbiyyatımızdan» yarımsərlövhəsi ilə dərc edilmişdir. Göründüyü kimi, hələ sağlığında klassik adlandırılan S. Mənsurun yaradıcılığını şərti olaraq üç mərhələyə ayırmaq olar: birinci mərhələ 1918-ci ilin əvvəllərinə qədər, ikincisi 1918-1920-ci illər, üçüncüsü isə Azərbaycanın bolşeviklər tərəfindən işğalından şairin ölümünə qədər olan dövr.

S. Mənsurun ilk şeirlərini nə vaxt yazdığı, yaxud ilk mətbu əsəri barədə dəqiq fikir söyləmək hələlik mümkün deyildir. «Seçilmiş əsərləri»nə daxil etdiyimiz «Qələmdir» rədifli qəzəli 5 avqust 1912-ci il tarixli «Tazə xəbər» qəzetində dərc edilmişdir. Şübhəsiz ki, bu, gənc yaşlarından ədəbi yaradıcılığa başlayan şairin mətbuatda çıxartdığı ilk əsəri ola bilməzdi. Gələcək axtarışlar bu fikri təsdiqləyəcəkdir.

S. Mənsur yaradıcılığının ilk dövründə klassik üslubda şeirlər yazmaqla yanaşı, əsasən, bir satirik şair kimi fəaliyyət göstərir. Bir sıra mətbuat orqanlarında əsərlərini dərc etdirən, «Tuti» jurnalında fəal iştirak edən müəlliflərdən biri kimi, orada həm satirik şeirləri, həm də felyetonlarla çıxış etməsi buna əyani sübutdur. Bu səbəbdən, «Tuti» jurnlı haqqında yazan müəlliflər S. Mənsurun da yaradıcılığına toxunmaya bilməzdilər. Professor N.Axundovun mətbuatla bağlı tədqiqatında şair haqqında dediklərinə diqqət yetirək: «Dinə münasibət məsələsində jurnalın əməkdaşlarının hamısı eyni mövqedə dayanmırdılar. Bəziləri xalqın fəlakətdən xilası üçün Allahı köməyə çağırırdılar. Bu məsələdə S. Mənsur fərqlənirdi. Onun nəğmələrinin birində deyilirdi:

***Ya Rəbb, öz lütfünü kəsmə millətdən,***
***Lütf qıl qurtaraq, cəngi-zillətdən.***
***Bu möhlik yanğından saxla islamı,***
***Etmə bizi məhrum feyzi rəhmətdən».***

Müəllif haqlıdır, Azərbaycanın XX əsr mollanəsrəddinçi şairlərindən heç birisi ateist olmamışdır. Onlar, o cümlədən, S. Mənsur da millətin inkişafında dinin müəyyən rol oynadığını qəbul etmiş, zəhmətkeş xalqı xurafatda saxlamağa çalışan yalançı ruhanilərə qarşı kəskin mübarizə aparmışdır.

Odur ki, N. Axundovun misal gətirdiyi bu fikrilə razılaşa bilmərik: «Lakin elə müəlliflər də tapılırdı ki, onlar mühafizəkarlığı qoruyur, köhnə məsləkdən əl çəkməməyə çağırırdı. Səməd Mənsurun Sabirin «Satıram» şeirinə yazdığı bənzətmədə deyilirdi:

***«Tuti», çünki işimiz düşdü belə,***
***Sən də bu işdə bir az qıl əcələ,***
***Yaz bu elanımızı, bildir elə,***
***Neçə illər çalışıb yığdıq ələ,***
***İndi mən onları tək-tək satıram,***
***Gəl, gəl, ay müştəri, məslək satıram!»***

Qəribədir, əgər hər hansı bir şair ustadına bənzətmə yazırsa, onun fikir və düşüncələrini təqdir edirsə, bu necə «mühafizəkarlığı qorumaq, köhnə məsləkdən əl çəkməmək» kimi qiymətləndirilə bilər? Bir də axı satirik qəhrəmanın obrazı, məni ilə müəllifin görüşləri arasında bərabərlik işarəsi qoymaq nə qədər doğrudur?

Əlbəttə, biz müəllifi günahlandırmaq fikrindən uzağıq. 60-cı illərdə S. Mənsurun adını çəkmək, onun şeirlərindən nümunə vermək tədqiqatçıdan böyük cəsarət tələb edirdi. Təəssüflər olsun ki, bu cəsarət adi inkarçılıqdan irəli gedə bilməmişdi.

Eyni zamanda, qeyd etmək istərdik ki, N. Axundov həmin kitabda, 1906-1920-ci illərdə nəşr edilmiş 14 satira jurnalından 12-ni tədqiqat obyekti kimi araşdırdığı halda, xalqımızın tarixinin əlamətdar bir dövründə nəşr edilən «şeypur» və «Zənbur» məcmuələri, fikrimizcə, obyektiv olmayan bu sözlərlə tədqiqatdan uzaqlaşdırılmışdı: «Onu da qeyd etmək lazımdır ki, müsavat ağalığı illərində «Şeypur» (1918-1919) və «Zənbur» (1919) kimi əksinqilabi mahiyyət daşıyan, burjua-mülkədar hökmranlığını müdafiə edən «Gülgü» jurnalları da olmuşdur ki, onlar barədə müfəssəl danışmağı məqsədə uyğun bilmədik».

Bu fikirlə də razılaşa bilmərik. S. Mənsur və onun yaradıcılığı ilə bağlı araşdırmalar apararkən «Şeypur»dan danışmamaq mümkün deyildir. Çünki «Şeypur»un nəşri şairin yaradıcılığının ikinci mərhələsinin başlanğıcında əlamətdar bir hadisə idi. Elə ilk nömrəsində çap edilmiş «Altı ay» məqaləsində bu mətbuat orqanının məqsəd və məramı belə verilmişdi: «Bu altı ay müddətində çalınmağa çox şey var idi. Lakin «Şeypur»umuz yox idi. Şükür olsun, indii «Şeypur»umuzu parıldayana qədər təmizləyib çalmağa başlayırıq...

İndii sən də elə oynamalısan ki, «Şeypur»umuz da səni biabır edən hava çalsın.

Bir həftəlik oynayanların havasını bundan belə biz həftədə bir dəfə çalıb aləmə xəbər verəcəyik.

İndi oyna görək, nə oynayırsan».

Məqalənin məzmunundan bəlli olur ki, «Şeypur» bir həftə ərzində olanları qələmə almaq məşsədilə üç ay yarım müddətində çıxmışdır. Cəmi 14 nömrəsi çap olunan «Şeypur»un redaktoru M. Ə. Sidqi, naşiri isə S. Mənsur olmuşdur. Bu məcmuənin, demək olar ki, hər nömrəsində şairin satirik şeirləri ölkə daxilində və xaricdə baş verən siyasi məsələlərə münasibətdən tutmuş, millətin maariflənməsi istəyi, ana dilinə olan dözülməz münasibət və s. məsələlərə qədər mövzu rəngarəngliyi ilə diqqəti cəlb edən, dialoq formasında yazılan «Ziyalılarımız» başlıqlı silsilə felyetonları dərc edilmişdir. S. Mənsur elə ilk felyetondan ziyalılarımızın öz dillərinə göstərdikləri ehtiramsızlığı tənqid edərək ana dilini «ruslaşdırma» siyasətindən azad etməyə çağırır. Övladlarının türkcə danışması tərbiyəsizliklərinə dəlalət edəcəyindən qorxan ziyalıların dililə: «İndii mənə deyirlər ki, hökumət müsəlmandır, gərək uşaqlar türk dili danışsınlar. Pamiluy! Mən öz əlimlə öz uşaqlarımı necə portit eləyim? İndii gərək mən bunlara türk yatmağı, türk yeməyi, türk oynamağı öyrədim. Onda bunlardan nə çıxar, axı bunlar gərək doktor, injener olsunlar» - deyərək indiyə qədər uşaqlarına rusca verdikləri təhsildən söhbət açır, biri digərini sakitləşdirərək buranın Qafqaz olduğunu, rusların köklərini buradan uzun müddət qazıb çıxarmaq mümkün olmayacağından danışaraq təskinlik verirlər. «Canım, sən özün yaxşı görürsən ki, burada türk dili bilən biçarələri heç qapıdan içəri qoymurlar ki, gedib dərdlərini öz köhnə ağalarına ərz eləsinlər.

Sən özün görürsən ki, tamam böyüklərimiz də hələ sənin uşaqların kimi vaspitannıy adamlardırlar. Ağızlarının əyilməyindən qorxub, türk dili öyrənməyiblər. Hələ indii də ki, müsəlmanlıqdır, yenə bir-biri ilə rus dili danışırlar».

S. Mənsurun bir sıra felyetonlarında ürək ağrısı ilə dəfələrlə qeyd etdiyi Qafqaz müsəlmanlarına qarşı olan münasibət, erməni-müsəlman qarşıdurmasında rusların tutduğu mövqe digər bir «Ziyalılar»ımızda «sən elə demə, sən degilən ki, kaqda delo kasayetsya müsəlman, onda bolşevik də, menşevik də, daşnak da, maşnak da, hamısı birdir» deyə qorxmadan tənqid edilirdi. Şair «Şeypur»da şeirlərini «Pampuşalı», felyetonlarını isə «Kənarçı Pampuşalı» imzaları ilə nəşr etdirirdi. Yeri gəlmişkən, qeyd etmək istərdik ki, S. Mənsur müxtəlif mətbuat orqanlarında əsərlərini çap etdirdikcə eyni bir gizli imzadan deyil, «Kəndli», «Mütəşair», «Tuti», «Şeypur» və s. imzalardan da istifadə etmişdir.

Göründüyü kimi, S. Mənsur fəaliyyətinin yeni bir sahəsilə də tanış oluruq. Naşirlik işinə şair 1917-ci ilin iyulunda böyük maddi çətinliklərlə əldə etdiyi «Turan» elektrik mətbəəsində başlamış və bu işi 1920-ci ilin mayına, yəni Azərbaycanı qəsb edən bolşeviklərin mətbəələri «nasionalizirovat» edənə qədər davam etmişdir. Bu mətbəədə müxtəlif məsləkli bədii əsərlər, dərsliklər, elanlr, afişalarla yanaşı İran Demokratik Partiyasının nizamnaməsi, həmçinin «Hümmət», «Bakı Fəhlə konfransının əxbarı», «Zəhmət səsası», «Füqəra səsası», «Al bayraq», «Hüriyyət» kimi bolşevik qəzetləri, «Yoldaş» adlı gənclər məcmuəsi, «Məşəl» satirik bolşevik jurnalı və s. çap olunmuşdur.

Naşirlik fəaliyyəti, şübhəsiz ki, S. Mənsurun zamanın hadisələri, insanları ilə daha yaxından təmasına geniş imkan yaradır və onun ictimai-siyasi təkamülünə əsaslı təsir göstərirdi. Bunun nəticəsidir ki, şairin ən güclü lirik və satirik şairləri məhz bu mərhələdə yaranmışdır. Onların içərisində XX əsr Azərbaycan poeziyasının qızıl fonduna daxil olan «Həpsi rəngdir», «Gülməlidir», «Sən mənim olsan», «Naz et» və s. nadir sənət inciləri vardır. Fikrimizcə, S. Mənsuru repressiyanın tüğyan etdiyi ən dəhşətli illərdə belə yaşadan, tam unudulmasına imkan verməyən, yaddaşlardan silinməyə qoymayan məhz bu əsərlər olmuşdur. Bu yazının müəlliflərindən biri hələ universitet illərində, 50-ci illərin ortalarında ilk dəfə S. Mənsurla «tanış» olmuş, şairin qüdrətli poeziyasının dadı damağında, misraları yaddaşında əbədi məskən salmışdı. Öz tələbələrinə bu misilsiz zövqü bəxş edən qorxmaz müəllimimiz, gözəl ədəbiyyatşünas Əli Fəhmi idi. O, heç bir dərslik və ədəbiyyatşünaslıq kitablarında nəşr edilməyən «Naz et» şeirini bizə yazdırmış, Füzuli çeşməsindən «şeir badəsi» içmiş şairin misilsiz lirikasının dərin təhlilini vermişdi. Bundan sonra biz ədəbiyyatçı gənclərin daxili aləmində Ə. Cavad, H. Cavid, M. Müşfiq dünyası ilə yanaşı bir Səməd Mənsur dünyası da yaşamağa başlamışdı. Əlli ilə yaxındır ki, bu dünyanın işığına doğru yol gedirik.

Təəssüflər olsun ki, keçən əsrin 80-ci illərində S. Mənsur barədə açıq danışmaq, yazmaq mümkün deyildi. Bu sahədə ilk addımı atan Cəfər Rəmzi İsmayılzadə oldu. O, 1981 və 1987-ci illərdə nəşr etdirdiyi «Deyilən söz yadigardır» adlı iki kitabında şairin 12 lirik və satirik şeirini oxuculara təqdim etdi. Şairin 19 satirik şeiri «Mollanəsrəddinçi şairlər» kitabında verilmişdir. Onlardan 12-si «Tuti», 7-si isə «Şeypur» jurnalında dərc edilmiş əsərlərdir ki, bu təşəbbüs artıq S. Mənsuru geniş oxucu kütləsinə Mollanəsrəddinçi şair kimi tanıdır. Üçün-

cü təşəbbüs yazıçı Anarın olmuşdur. O, əvvəlcə «Ədəbiyyat» qəzetinin 28 mart 1992-ci il tarixli nömrəsində S.Mənsurun 1925-ci ildə yazdığı üç şeirini ön sözlə oxuculara təqdim etmiş, bir il sonra isə şairin ilk kitabını yığcam və məqalə ön sözü ilə çap etdirmişdir. İki çap vərəqi həcmində olan bu kitabçada indiyə qədər işıq üzü görməyən 6-7 şeirin üzə çıxarılması S. Mənsurun cəsur bir sənətkar olduğunu və unudulmaq cəzasına məhkum edilməsinin səbəbini çox gözəl açıqlayır.

S. Mənsur yaradıcılığının üçüncü mərhələsinə məxsus olan bu şeirlər irticaçı sovet siyasətinə vurulan elə bir ədəbi zərbədir ki, hələlik ifaçılıq gücünə, «baltanı kökündən vurmaq» qabiliyyətinə görə həmin dövrdə (1925) onlara bərabər ola biləcək ədəbi nümunələrə rast gəlmirik.

Təəssüflə qeyd etmək istərdik ki, S. Mənsurda öz yaradıcılıq məhsullarına biganə bir münasibət olmuşdur. Məsələn, şairlə eyni dövrdə yazıb-yaradan Ə. Müznibin həmin illərdə iyirmiyə yaxın kitab və kitabçası çıxdığı halda, S. Mənsurun sağlığında bir kitabçası da işıq üzü görməmişdi. 1924-cü ildə Azərbaycan ədəbiyyatçıları cəmiyyətinə daxil olmaq üçün yazdığı «Sorğu vərəqi»ndəki aşağıdakı cavabı bu məsələyə müəyyən aydınlıq gətirir: «Əşar parçaları yazıram, fəqət hifz etməyirəm. Yazdığım bir neçə beytələr Tənqid-Təbliğ Teatrosunda məhfuzdur».

Naşirlik fəaliyyətilə yanaşı, şair müxtəlif mətbuat orqanlarında, o cümlədən «Molla Nəsrəddin», «İqbal», «Bəsirət», «Şeypur», «Ədəbi parçalar» və sairədə lirik və satirik şeir və felyetonlarını dərc etdirmişdir. Felyetonlarının birində «yazılması və tənqid edilməsi lazım gələn şeylər hər zaman yazılacaqdır» xəttini tutan şairin bu fikri bütün yazılarında öz əksini tapmışdır. S. Mənsurun ölümü ilə əlaqədar Ə. Müznibin yazdığı nekroloqunda şairə və onun yaradıcılığına verilən böyük qiymət diqqətəlayiqdir: «Aprel inqilabından sonra Şura idarələrində qulluq etmiş, «Mola Nəsrəddin» məcmuəsinə də satiralar yazmışdır. Lakin satiraları nə qədər Sabirə təqlid edərək yazmışsa da, fəqət Sabir qədər müvəffəqiyyətə müvəffəq ola bilməmişdir. Bununla bərabər satiraları tənqidi cəhətdən qüvvətlidir. Sabirdən başqa bütün müasir şirlərlə bərabərlik edəcək dərəcədə qüvvətli olması mənzumələrindən bəllidir».

Millətin azadlığını, Vətənin istiqlalını varlığı qədər sevən S. Mənsurun tənqid hədəfi dövrünün bütün ictimai-siyasi hadisələri, qolçomaqlar, bəylər, hiyləgər mollalar, millətin savadsızlığı olmuşdur. Xalqının maarifləmsini arzulayan, onun gələcəyi üçün narahat olan şair başqa millətlərin hünər göstərərək nələrə sahib olduqlarını, elm sahəsində nələri fəth etdiklərini «Bir möminin avropalıya xitabı» satirasında təsvir edir. Bu şeirində başqa millətlərin yerin üstündə, okeanın dibində axtarış etdiyi, yeni-yeni kəşflər nəticəsində irəlilədiyi bir zamanda millətin geridə qalmasına acı-acı gülür:

***Uydurma dərin ağlını vəzi-üləmayə,***
***Bir saətini boş yerə sən vermə fənayə,***
***Tap texnikanı, padşah ol ərzə, səmayə,***
***Bul, istər isən getməyə yol ulduza, Ayə,***
***Sal elm yolunda başını dərdə, bəlayə,***
***Məruzə oxu texnikalardan cühəlayə,***
***Lazım deyil, əlbəttə, bular biz üqəlayə.***
***Beş gün bu cahanda quru bir nam mənə bəsdir,***
***Üqbadə isə cənnəti-rizvan mənə bəsdir.***

«Bulvar qəhrəmanları», «Cavan həkimlərimizə» və bu kimi digər şeirlərində şair, hətta oxuyub savad almış gənclərin belə öz vaxtlarını boş, səmərəsiz keçirdiklərinə ürəkdən kədərləndiyini göstərir.

Oxuculara təqdim olunan bu toplunu əlinə alan hər bir oxucu S. Mənsurun amal, ideya, məslək sahibi, saf vicdanlı, heç kəsin qarşısında əyilməz, mübariz bir şəxsiyyət olduğunu bilməlidir. O, öz övladlarına və onların şəxsində bütün gəncliyə də məhz bu məziyyətləri tələqin edərək yazırdı: «Bu zəmanə alçaqlıq zamanı, ayaqöpənlər, vicdansızlar meydanıdır. Bu zəmanədə hər kəs vicdanını satmaqla yaşayır. Vicdanlar alqı-satqı malı olmuşdur. Üzlərdən həyalar mədum olmuşlar. İnsaf və mürüvvətdən əsər qalmamışdır. Lakin mən, atanız vicdanımı hifz etdim. Hər bir ağırlığa təhəmmül etdim. Ac da qaldım, təməllüq etmədim. Kimsənin qabağında kiçilmədim. Üzümün həyasını, qəlbimin insafını heç bir təhlükə qarşısında qaib etmədim».

Yaşadığı dəhşətli mühitdə alçaqlar, satqınlar, məsləksizlər arasında sənətkar sanki boğulur, üsyan qaldırır, fəryad edirdi. «Həpsi rəngdir» müxəmməsi məhz belə bir etirazın, üsyanın əks-sədası deyilmi?

***Tapmadım aləmdə bir həmdəm ki, olsun biriya,***
***Görmədim heç kəsdə bir niyyət qərəzdən maəda,***
***Küllən əbnayi-bəşər öz nəfsinə olmuş fəda,***
***Nəfsi uğrunda görürsə hər bəla, şər macəra,***
***«Məslək»ə isnade dər, məslək, dəyanət, rəngdir.***

Keşməkeşli bir dövrdə, müxtəlif partiyaların, firqələrin yarandığı bir vaxtda yaşayan şair «Sorğu vərəqi»ndə göstərdiyi kimi, «Kommunist Partiyasının və Gənclər ittifaqının üzvü olmamış», müxalif hökumətinə qarşı müxalif mövqe tutmuş, onun orqanlarında bir əsər belə nəşr etdirməmişdir. Ümumiyyətlə, heç bir partiya mənsubiyyəti olmayan şair onların məramnamələrinə inanmamış, firqələri, onların rəhbərlərinin əməllərini təhlil edərək dəfələrlə satira atəşinə tutmuşdu.

***Firqələr, onların həp təşkili,***
***Biliyorsanmı, nədən təvili?***
***Yenə əvvəl dediyim hirsü qərəz,***
***Əvət, ol bizlərə məxsus mərəz.***
***Görəcəksən baxaraq firqələri***
***Xoş əməldən hamı məhrumü bəri,***
***Bunların solları sağdan daha şum,***
***Sağları soldan otuz qat məzmum.***
***Solları sərvəti məbud sanan,***
***Təməh odlarına peyvəstə yanan.***
***Sağları kibrü qürur övladı,***
***Füqəranın qan içən cəlladı.***

«Nicat» cəmiyyəti haqqında» başlıqlı satirasında S. Mənsur firqəçilərin məsləksizliyindən belə yazır: «Başqa şəhərlər bir tərəfə qalsın, Bakı göz qabağındadır. Onun beş-altı cəmiyyətləri var. Əlan hamısının sədri milyonerlərdir. Şükür olsun Allah, nə olub məgər? İşlərimiz qabağa getməyirmi? Bu axır vaxtlarda «Nicat» da yığışıb, oranın işlərini oxumuşlar əlinə salmaq istəyənlərin əgər üzümüzə gələn «Nicat»ın təzə seçkisində ağız-burunları layiqincə əzilmədi, onda evimiz yıxıldı. Bu barədə Bakıda bir-iki Adama arxayın oluruq ki, onlar haqqnahaq hansı tərəfə əyilsinlər, o tərəfə batacaqdır. Ümidvarıq ki, haman cənablar bu dəfə də iş, bilik, məslək tərəfinə deyil, aşna, dostluq, vodka, pul tərəfinə əyiləcəkdirlər».

Bir sözlə, S. Mənsur zəhmətkeşlərin, əzilənlərin sadiq dostu, əzənlərin, zülmkarların və onlara xidmət göstərən satqınların, simasızların barışmaz düşməni olmuşdur. Xüsusilə, məslək dəllallarına qarşı çıxışı daha kəskin olurdu. Şair tanıdığı, təbiətinə yaxşı bələd olduğu «firqə üzvünü» belə səciyyələndirirdi:

***Adını firqəçi qoy, fəhlə tərəfdarı görün,***
***Yeri düşdükdə də burjuy olana Sarı görün.***

***Yel hayandan əsir isə, o tərəfə tut üzünü,***
***Gündə bir rəngə düşüb gah qara, gah Sarı görün.***

***A canım, pul gərək insana, nə lazım məslək***
***Harda xeyrin olur isə, ora gəl, barı görün.***

Belə satqınlardan əzilənlərin, azadlığa can atanların heç bir nicat görməyəcəyi nəticəsinə gələn şair yazır:

***Ah, ey bunlara ümmid qılan,***
***Bu ümidlə ələm içrə yaxılan,***

***Tutaraq damənin azadələrin,***
***«Füqəra hamisi» üftadələrin.***

***Böyləliklə, dedik, azad olarız,***
***Bilmədik, bir daha bərbad olarız.***

S. Mənsur yaradıcılığının ikinci mərhələsinin məhsulu olan bu əsərlər aydın göstərir ki, o, zəmanəsinin heç bir ictimai-siyasi qüvvəsinə tam arxalana bilməmişdi. Bu şübhələrini şair belə ifadə edirdi:

***Bigünah kəsləri mərhumi-səadət eləyən,***
***Qəlbsiz əhli-cəfa bizdə də var, sizdə də var...***

***Gərçi bizlər elədik qibleyi-aləm tərkin,***
***Yenidən xan, bəy, ağa bizdə də var, sizdə də var.***

Səksən ildən artıq bir dövr keçdikdən sonra şairin bu şübhə və nəticələrinə heyran qalmaya bilmirsən. Çünki bolşeviklərin bütün insanları xoşbəxt, dünyanı isə cənnət edəcəkləri barədəki əfsanələrinə inananlar çox olsa da, S. Mənsur belə səhvlərdən uzaq olmuşdur:

***Derlər: «Ərzi-bəşər axır olacaqdır cənnət»,***
***Belə bir zənni zəta bizdə də var, sizdə də var.***

Elə buna görə də S. Mənsur Azərbaycanın bolşeviklər tərəfindən fəthini dövrün bir sıra şairləri kimi sevinclə qarşılamadı. Təmkinlə, ağılla baş vermiş hadisələri qiymətləndirən şair 1920-ci il mayın 15-də «Beynəlmiləliyyət» adlı şeirini nəşr etdirdi. Müəllif yaradıcılığının son mərhələsinin başlanğıcı olan bu əsərində də əvvəlkilərdə olduğu kimi, yenə də hər hansı bir qüvvəyə deyil, müdafiəçisi və şairi olduğu zəhmətkeşlərə, yoxsullara müraciət edir:

Ümumiyyətlə, bu şeir şairin misilsiz gələcək mübarizəsinin başlanğıcıdır. Çünki o, sovet Rusiyası və bolşeviklər partiyasının Azərbaycana qarşı apardığı mənfur müstəmləkəçilik və şovinizm siyasətini dərk edəndən sonra elə nifrət və qəzəblə mübarizəyə qalxdı ki, bunun mislini həmin dövrün heç bir qələm sahibində görmürdük.

Türk xalqının düşmənləri onun böyük oğlu N. Nərimanova bəslənən ümidlərin həyata keçirilməsinə imkan vermədilər. O, Azərbaycanın bütövlüyü, millətin ağır iqtisadi vəziyyətdən çıxması, maariflənməsi, yeni quruluşun öz mahiyyətinə və yoxsul siniflərin arzularına müvafiq inkişafı uğrundakı mübarizəsində, demək olar ki, tək qalmışdı. Onu əhatə edən rus, erməni, yəhudi millətçiləri ilə yanaşı, hətta türk millətindən olan yerli kommunistlər də Azərbaycan müstəqilliyinin ziddinə fəaliyyət göstərirdilər. Bütün bu dəhşətli faktlar Nərimanovun 1923-1924-cü illərdə Stalinə məktub şəklində yazdığı «Ucqarlarda inqilabımızın tarixinə dair» əsərində öz dahiyanə əksini tapmış və xalqımızın böyük oğluna çox baha başa gəlmişdi. Uzun illər xalqımızdan gizlədilən bu sənəd Azərbaycan oxucularına ancaq 1922-ci ildə çatdırılmışdı.

S. Mənsur yaradıcılığının 1920-1926-cı illəri əhatə edən son mərhələsindəki bir neçə ictimai-siyasi məzmunlu lirik şeirləri istisna olmaqla, əsasən, satira və səhnə əsərləri yazmışdır. Fikrimizcə, onun bir sənətkar kimi ədəbiyyat tarixindən silinməsinin, unudulmasının əsas səbəbi də məhz bu illərdə yazılmış, lakin nəşr edilməyib əldən-ələ, dildən-dilə gəzən satiraları olmuşdur.

Sovet dövründə «Satir-aqit» səhnəsinin yaranması ilə o, yeddi pyes yazmışdır. Onlardan yalnız biri, «Dövlətin təhsili və təsiri» 1923-cü ildə Bakıda nəşr olunmuşdur. Digər altı pyes - «Maarif», «Cinayət», «Dərviş», «Rəzalət səbəbləri», «Mükafat» və «Aktyor» müəllifin «Seçilmiş əsərləri»nə daxil edilir. Bu pyeslərin də mövzusu yaradıcılığı boyu onu narahat edən, həmişə düşündürən - millətin maariflənməsi, ölkəsinin azad, hüquqi müsəlman dövləti kimi görmək arzusu və digər məsələlərə toxunmaqla bərabər, əsasən, «Satir-aqit»in tələblərinə uyğun yazılmışdır. Həcmcə böyük olmayan bu əsərlərin səhnə həyatı xüsusi araşdırmaların mövzusu ola bilər.

Hərtərəfli istedada malik və teatrın böyük həvəskarı olan S. Mənsur dram əsərləri yazmaqla yanaşı, türk ədəbiyyatından tərcümələr də etmiş və bu əsərlərin səhnədə ifa edilməsində böyük rolu olmuşdur. Dilimizə çevirdiyi və «Dəmirçi Gavə» və «Əhdə vəfa» əsərlərinin tamaşaları haqqında yazılan məqalələrdə onun yaratdığı rolların tamaşaçılar tərəfindən böyük alqışlarla qarşılanması diqqəti cəlb edir. «İqbal» qəzetinin 1913-cü il nömrəsində çıxan «Gaveyi ahəngər» («Dəmirçi Gavə») tamaşası haqqında verilmiş yazıdan: «Sözü az, mənası çox və ümumin diqqətini cəlb edəcək hərəkata malik olan Gavə rolunu Mənsur cənabları ondan gözlənilməndən çox artıq və müvəffəqiyyətlə aparırdı. Mənmur cənabları bir-iki ildir Ki, səhnəyə çıxır. Lakin bu bir-iki ildə on illik bir artist qədər gözəl oynayır. İşdə bunun üçün idi ki, dəfəatla alqışlanırdı».

Həmin qəzetdə «Əhdə vəfa» tamaşasından sonra yazılan rəydə - «Səməd Mənsur əfəndi tam bir atanın oğlunu qətl edib də çəkdiyi vicdan əzabını səhnədə deyil, həyatda göstərilən qaydada göstərirdi» kimi ifadələr onun qısa bir müddətdə səhnədə qazandığı müvəffəqiyyətlərinə verilən qiymətdir. Bu rəydə tamaşanın sonunda S. Mənsurun üzünü tamaşaçılara tutaraq təvazökarlıqla dedikləri qələmə alınmışdır:

«Doğrudur ki, insanın boynunda böyük vəzifələr vardır. Nə qarınca kimi bütün ömrünü özü üçün azuqə yığmağa sərf etməlidir və nə də bülbül kimi zövq və əyləncə ilə qəflətdə keçirməlidir. Bu nöqteyi-nəzərə alaraq, möhtərəm yoldaşlarımın müavinəti ilə millətimizin yetim və sahibsiz balalarının təlim və tərbiyəsi yolunda çalışmaqdayam. Bu yolda öz fikrimin hüsulu üçün Allah-taala həzrətlərindən müvəffəqiyyət və arkadaşlarımdan müavinət diləyirəm».

Vətən, millət, müstəqillik, milli mənlik anlayışları S. Mənsur yaradıcılığının əsas mövzularını, ana xəttini təşkil edir. Bu böyük düşüncə və amallarla yaşayıb yaradan şair dövrünün haqsızlıqlarına dözə bilməyərək 1927-ci ilin ilk günlərində 47 yaşında dünyasını dəyişmişdi.

Şairin vaxtsız ölümü münasibətilə Ə. Müznib ürək ağrısı ilə yazdıqları müasirlərinin ona verdikləri böyük qiymətin nümunələrindəndir. «Səməd Mənsur istedadə simalar Azərbaycanda deyil, başqa yerlərdə də nadir yetişə bilir. Şairlikdən başqa müsiqişünas, tarçalan və oxuyan idi. Eyni zamanda buxalterliyi mükəmməl surətdə bacarırdı. Səhnədə iştirak etməyə qabiliyyəti vardı. Nə çarə ki, çox vaxtsız tərki-həyat etdi».

Həmin fikri Buzovnalı Azər isə nəzmlə çox gözəl demişdir:

***«Hara getdi, hanı Səməd Mənsur?!***
***Şüara içrə Fazili-məşhur.***
***Şeirguluqda saniyi-Həssan,***
***Həmi xanəndə, həm nəvazəndə,***
***Barbüdlər ona kəmin bəndə».***

Yeri gəlmişkən qeyd etmək istərdik ki, S. Mənsurun da son şeirlərindən biri - «Möhtərəm dostum və qələm arkadaşım Azər əfəndiyə» ünvanlaşmışdı. Bu şerin bir beytində

***Türklüyün varlığı qeyrə nə böyük qorxuymuş -***
***Dost-düşmən onu məhv etməyə istər, Azər!***

- deyildiyi kimi, şairin belə dost, düşmən əlindən ağır əzab-əziyyət çəkdiyi aydınlaşır. Xalqına edilən təcavüzə, zülmə, təhqirlərə dözə bilməyən şairin mənəvi və ruhi sarsıntıların nəticəsində ürək ağrısına tutulmasının səbəbi - «Qocalıqdanmı? Yox, asayişi-qəlbim pozulub» misrasında öz əksini tapmışdır. Belə bir xəstə ürəklə çox yaşaya bilməyən şair dünyadan bədgüman getmədi. Yaradıcılığı boyu əsərlərində öz əksini tapan milləti maariflənməsi, vətəninin hüquqi bir dövlət olması arzularını şair, oğluna etdiyi vəsiyyətində belə ifadə etmişdi:

***«Bizim də ölkədə, Əhməd, gələr bir zaman,***
***Hüquqa malik olur millət, gülür Vətənim...***
***O gün məzarıma qoş! Sanma bir ovuc xakim,***
***O gün vürudunu gözlər o xaki-qəmnakim».***

Vətəninin azadlığı, millətin maaiflənməsi üçün var gücü ilə çalışan, bu yolda heç bir hədə-qorxudan çəkinməyən bu mübariz poeziya kütləvi oxucuya çatdırılmağa və minillik Azərbaycan ədəbiyyatının tərkib hissəsi olmağa layiqdir. Çünki rus bolşeviklərinin Azərbaycanı qəsb etməsi, onun xalqını misilsiz işgəncələrə məruz qoyması qəsbkarlara qarşı geniş miqyasda üsyan və etirazlara səbəb olduğu kimi, həmin dövrün sənətkarlarının qələmilə bir nifrəti əks etdirən dərin məzmunlu əsərlərin yazılması ilə nəticələnmişdir. Bu üsyankar ədəbiyyatın görkəmli nümayəndələrindən biri də məhz şair, aktyor, dramaturq - S. Mənsur olmuşdur.

Şairin həsrətini çəkdiyi azad, müstəqil Azərbaycana qayıdışı çox uzun çəkdi. Bizcə, S. Mənsurun bir sənətkar kimi həyatı da bundan sonra başlayır. Uğurlu olsun!

***Abbas Abdullayev***
***Təranə Hüseynova***

**BAKILI**

***Ey sərasər bədəni, fikri bətalət bakılı,***
***Başqalar məqsədü amalına alət bakılı.***

***Keçən əyyamda pakub idin əğyarə yenə,***
***Payimal olmalısan hər gələnə, hər gedənə,***
***Rütbə, mənsəb, dadaşım, verməyəcək kimsə sənə.***
***Rütbəyə, mənsəbə, yox səndə ləyaqət, bakılı.***
***Ey sərasər bədəni, fikri bətalət bakılı.***

***Öz yerində etməsə bir Adam hörmət də sənə,***
***«Kirvələr», «pasluşilər» etsə hökumət də sənə.***
***Qardaşın - tazə pristav verə zillət də sənə,***
***Ağadır, döysə səni, çəkmə xəcalət, bakılı,***
***Ey sərasər bədəni, fikri bətalət bakılı.***

***Qamçı zərbilə sata hər yetən un qiymətinə,***
***Malın al, söz demə, mehmandı, dəyər hörmətinə.***
***Ərköyün bəydi kişi, ərk edir öz millətinə,***
***Qamçısın öpməlidir fəxr ilə millət, bakılı,***
***Ey sərasər bədəni, fikri bətalət bakılı.***

*Sat soğan, kartofunu, xırda ticarətlə dolan,*
*Babalardan qalan ol rəsimilə, adətlə dolan,*
*Ayda bir aş yemə, pul yığ da, qənaətlə dolan,*
*Qoy yesin ol kişi kim, eyləmiş adət, bakılı,*
*Ey sərasər bədəni, fikri bətalət bakılı.*

*Bu cahan fanidi, bel bağlama, ey Kəblə filan!*
*Ver, yesin malını cindar, aşını mərsiyəxan.*
*Əcnəbilər daşısın neftin milyan-milyan,*
*Sən özün bir pitiyə eylə qənaət, bakılı,*
*Ey sərasər bədəni, fikri bətalət bakılı.*

*Sən öləndən sora oğlun dükanı taxtalasın,*
*Bərkin əysin, qolun atsın, yabısın, noxtalasın,*
*Əlli il yığdığını bir gecədə baxtalasın,*
*Pul udanlar oxusun ruhuna rəhmət, bakılı,*
*Ey sərasər bədəni, fikri bətalət bakılı.*

**HƏPSİ RƏNGİDİR**

*Uyma, ey dil, xəlqidə yoxdur sədaqət, rəngidir,*
*Məscidü meyxanə rəng, eyşü ibadət rəngidir.*
*Mey, riya, məşuqə, ğəş, hüsni-vəcahət rəngidir.*
*Rəngidir hər dürlü matəm, hər məsərrət rəngidir.*
*Anla, ey ənbayi-xilqət, cümlə xilqət rəngidir.*

*Görmədim bir zərri xalis buteyi-nasutidə,*
*Mənəvi min ləkkə gördüm ləlidə, yaqutidə.*
*Biqərəz insan olur görmək, fəqət, tabutidə,*
*Bilməzəm varmı sədaqət Aləmi-lahutidə,*
*Azma, fikrim, cümlə ecazü kəramət rəngidir.*

*Hər kəsin Cibrili kəqdi - qəlbidir, vicdanıdır.*
*Var isə insafı şəxsin - dinidir, imanıdır,*
*Bədniha insanların öz nəfsi - öz şeytanıdır.*
*Lohi-qəlbi arifin ayatıdır, Quranıdır,*
*Məbağı övhamidir, şərü təriqət rəngidir.*

*Bir zaman vardı ki, mən həmfikir idim zühhad ilə,*
*Sonra gördüm fərqi yoxmuş zahidin cəllad ilə,*
*Dedim: əyyaş olmalı, ta gün keçə mötad ilə,*
*Cümlə eyşü nuşu gördüm müxtəlif fəryad ilə,*
*Anladım ki, zöhdü təqva, eyşü işrət rəngidir.*

*Qıl təsəvvür bir daha şairlərin xülyasını,*
*Aşiqi-zarın başında seyr qıl sövdasını,*
*Qəbri aç, göstər ona Şirinini, Leylasını,*
*Bir ayılsın da, düşünsün gördiyi röyasını,*
*Bax, - deyər, - həqqi bütün eşqü məhəbbət rəngidir.*

*Tapmadım aləmdə bir həmdəm ki, olsun biriya,*
*Görmədim heç kəsdə bir niyyət qərəzdən maəda,*
*Külli-əbnayi-bəşər öz nəfsinə olmuş fəda,*
*Nəfsi uğrunda görərsə hər bəla, hər macəra,*
*Məsləki isnad edər, məslək, dəyanət rəngidir.*

*Bilmədim neyçünmiş Aləm, bunca da yəsü ələm,*
*Zövqi-ömrün mühiti-vərtəban dəryayi-qəm,*
*Böylə halda kimsədən bihudədir ummaq kərəm,*
*Hər gələn bulmaq dilər öz nəfsinə asudə dəm,*
*Arxalanmam kimsəyə, ülfət, rəfağət rəngidir.*

*İmdi ki, mümkün deyil olmaq aləmdə kamiyab,*
*Ey gözün qurbanına saqi, ver genə sağər, şərab,*
*Ver genə sağər, şərab, ey saqiyi, alicənab.*
*Bəlkə badənlə edə Mənsur rahət-iktibas,*
*Yoxsa, bu aləmdə yoxdur istirahət, rəngidir.*

Azərbaycan Respublikasının prezidenti İLHAM ƏLİYEVİN «Azərbaycan dilində latın qrafikası ilə nəşrlərin həyata keçirilməsi haqqında» 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir.

*Ölsəm mən əgər bir neçə kağızdan ibarət*
*Asarım olar anlayana rəhbəri-ibrət!*




*Səməd Mənsurun Əmircanda Mədəniyyət evinin divarına vurulmuş barelyefi. 2010-cu il.*
















***Kazımov Tofiq Səməd Mənsur oğlu*** (1923-1980). Azərbaycanda lirik-psixoloji teatr məktəbinin yaranması, inkişafı və formalaşması Tofiq Kazımovun adı ilə bağlıdır. O, görkəmli teatr xadimi, şair Səməd Mənsurun oğludur. Səməd Mənsur Bakıda mövcud olan bir sıra mədəni-maarif cəmiyyətləri (məsələn, «Nicat», «Səfa») teatr truppalarının rəhbərlərindən idi. Tofiq Kazımov 14 yanvar 1923-cü il Bakıda doğulub və yeddiillik təhsilini burada alıb və teatr məktəbini bitirib (1939-1942). Böyük Vətən müharibəsində iştirak edib. Döyüşlərdə yaralanaraq 1943-cü ildə qayıdıb və Gənc Tamaşaçılar Teatrında aktyor işləyib. Əyyub Abbasovun «Məlik Məmməd», Abdulla Şaiqin «Ana» dramlarının tamaşalarında Bulud və Əmrah rollarını oynayıb. 1945-1951-ci illərdə Moskvada Ümumittifaq Teatr Sənəti İnstitutunda rejissor təhsili alıb. Tələbə ikən Ağdam Dövlət Dram Teatrında Həsən Qasımovun «Kür sahilində» pyesini tamaşaya hazırlayıb. 1951-ci ildə Akademik Milli Dram Teatrında diplom tamaşası kimi Hüseyn Muxtarovun «Ailə namusu» («Alanı ailəsi») pyesinə səhnə quruluşu verib. 1952-ci il aprelin 25-də Gənc Tamaşaçılar Teatrına baş rejissor göndərilib, ancaq burada tamaşa hazırlamayıb. Elə həmin il oktyabrın 1-də Akademik teatra rejissor götürülüb. 1964-cü il martın 16-da bu teatra baş rejissor təyin olunub. Tofiq Kazımov 1980-ci il avqust ayının 2-də avtomobil qəzasında həlak olana qədər baş rejissor işləyib. 1958-ci ildə kinostudiyaya işə qəbul olunaraq «Azərbaycanfilm»də çəkilən «Səhər» kinolentində rejissor kimi çalışıb. Elə həmin il rus dram teatrında Ənvər Məmmədxanlının «Şərqin şəhəri» pyesini tamaşaya hazırlayıb. 1960-cı ildə bərpadan çıxaraq yenidən Akademik teatra quruluşçu rejissor götürülüb. Tofiq Kazımov 1960-cı ildə Musiqili Komediya Teatrında Tofiq Quliyevin «Qızıl axtaranlar» (dramaturq: Həsən Seyidbəyli) operettasına quruluş verib. Naxçıvan teatrında Məmmədəli Tarverdiyevin «Kölgəli dağ» (1964), Quba teatrında Rza Şahvələdin «Qız qalası» (1961), Şıxəli Qurbanovun «Əcəb işə düşdük» (1963), Gəncə teatrında Altay Məmmədovun «Yadındamı» (1969) dramlarına quruluş verib. Tofiq Kazımov uzun illər teatr institutunda aktyor və rejissor sənətindən dərs deyib. Xalq artistləri Ağasadıq Gəraybəyli, Məmmədəli Vəlixanlı, Kazım Ziya, Əliağa Ağayev (Zəfər Nemətovla birgə), İsmayıl Osmanlı barədə monoqrafiyalar yazıb. «Çağırış», «İşıqlı yollarda», «Şəfəq», «Qoçaq Polad» və digər pyeslərin müəllifidir. Mətbuatda teatr sənətinə, müxtəlif tamaşalara aid resenziya və məqalələrlə çıxış edib. Tofiq Kazımov 1965-ci ildə «Antoni və Kleopatra» (Uilyam Şekspir) və 1979-cu ildə «Şəhərin yay günləri» (Anar) tamaşalarına görə Dövlət mükafatı ilə təltiflənib. Respublikanın əməkdar incəsənət xadimi (1961) və xalq artisti (1 iyun 1974) fəxri adlarına layiq görülüb. Akademik teatrda sıravi rejissor kimi Karlo Haldoninin «Məzəli hadisə» (1952), Mirzə Fətəli Axundzadənin «Lənkəran xanın vəziri», Lope de Veqanın «Se-

vilya ulduzu» (1953), «Dəlilər» (1963), Maksim Qorkinin «Vassa Jeleznova» (1954), Rəsul Rzanın «Qardaşlar», Nazim Hikmətin «Qəribə adam» (1956), Ənvər Məmmədxanlının «Şirvan gözəli» (1957), Şıxəli Qurbanovun «Əcəb işə düşdük», Aleksis Parnisin «Gözəllik və sevgi adası» («Afrodita adası», 1961), Viktor Hüqonun «Mariya Tüdor» (1962), Sabit Rəhmanın «Sevimli rollar» (1963) pyeslərinə səhnə təfsiri verib. Baş rejissor kimi Akademik Teatrda Uilyam Şekspirin «Antoni və Kleopatra» (1964), «Hamlet» (1968), «Fırtına» (1974), İlyas Əfəndiyevin «Sən həmişə mənimləsən» (1964), «Unuda bilmirəm» (1968), «Məhv olmuş gündəliklər» (1969), «Bağlardan gələn səs» (1975), Cəlil Məmmədquluzadənin «Ölülər» (1966), Şıxəli Qurbanovun «Sənsiz» (1967). Əbdürrəhim bəy Haqverdiyevin «Pəri cadu» (1969), Branislav Nuşiçin «Nazirin xanımı» (1970), Sabit Rəhmanın «Yalan» (1965), «Küləklər» (1970), Bəxtiyar Vahabzadənin «Yağışdan sonra» (1971), Yucin O'Nilin «Qızıl» (1971), Cəfər Cabbarlının «Aydın» (1972), İmran Qasımovun «Nağıl başlananda» (1973), Aleksandr Vampilovun «Övlad» (1974), Məmməd Səid Ordubadinin «Qılınc və qələm» (1976, səhnələşdirəni özüdür), Maqsud İbrahimbəyovun «Ümid» (1976), Mirzə İbrahimovun «Bəşərin komediyası və yaxud Don Juan» (1977), Anatoli Şafronovun «Daşqın», Dmitri Asenovun «Qızıldan qiymətli» (1977), Mirzə Fətəli Axundzadənin «Müsyö Jordan və dərviş Məstəli şah» (1978), Əkrəm Əylislinin «Quşu uçan budaqlar» (1978), «Yastı təpə», Taufin əl Hakiminin «Karıxmış sultan» (1980) pyeslərini tamaşaya hazırlayıb. Tofiq Kazımov baş rejissorluğu dövründə teatra çoxlu istedadlı gənc cəlb etdi. Tofiq Kazımov yeni teatr poetikası yaratmaqla, onun estetik səciyyələrini müəyyənləşdirdi. Tofiq Kazımov, sözün əsl mənasında hazırladığı səhnə əsərlərində «tamaşanın müəllifi» səviyyəsinə yüksəlirdi. Tofiq Kazımov səhnəni maksimum dərəcədə boşaltmağa çalışır və bununla fəza (məkan) genişliyinə nail olurdu. Səhnə tərtibatındakı «xəsislik» əsas diqqəti aktyora yönəldirdi. Tofiq Kazımov qaysaqlanıb köhnəlmiş səhnə şərtiliklərini cəsarətlə sındırırdı. Onun quruluş verdiyi tamaşalarda pərdə, obraz rəmzə çevrilirdi. Tofiq Kazımov klassik dramlara «doğma», «toxunulmaz» kimi baxmaq fikrinin əleyhinə çıxır, həmin əsərlərin tamaşalarında cəsarətli eksperimentləri, inamlı axtarışları, dəyərli nəticələri ilə diqqəti cəlb edirdi. Tofiq Kazımov səhnədə məşq prosesində tamaşanın kompozisiyasını qurandan sonra ecazkar improvizələr edir, gözlənilməz fəlsəfi-estetik qəanətlərə gəlirdi. Bədii materialın səhnə təfsirində Tofiq Kazımovun əsas «silahı» poetik, psixoloji, dramatik fikir yükü daşıyan mizanlar idi.

Tofiq Kazımovun tamaşalarında obraz üçün məxsusi yazılmış mahnıları aktyorlar özləri oxuyurdular. Buna görə də ifaçı səhnədə həmişə obrazda olur və bununla da vəziyyəti biavasitə yaşayırdı. Tofiq Kazımov «özgələşmə effekti»nin milli formasını yaratmaq üçün epik teatrın ünsürlərindən cəsarətlə və novatorcasına bəhrələnirdi. Tofiq Kazımovun hazırladığı tamaşalarda divar, qapı, pəncərə və sairə əşyalar (obyektlər) həm özünün konkret məişət mahiyyətini yerinə yetirir, həm də atribut-obraza çevrilirdi. Akademik teatrda həmişə gənc qəhrəman rolları tanınmış, müəyyən fəxri adlarla təltiflənmiş 50-60 yaşlı aktyorlara verilirdi. Bu səmərəsiz ənənəni məhz Tofiq Kazımov cəsarətlə sındırdı. O, «Sən həmişə mənimləsən» tamaşasında 18 yaşlı Nargiləni tələbə Amaliya Pənahovaya, «Ölülər»dəki gənc İsgəndəri 28 yaşlı Həsən Turabova tapşırdı. Tofiq Kazımovun tamaşalarında həm fikir, həm də estetik forma baxımından həmişə təzətərlik, təravət vardı. Tofiq Kazımovun quruluş verdiyi tamaşalarda iyirminci əsrin hərəkət və təfəkkür sürəti, qlobal ictimai və siyasi proseslərin ritmi, insanların həyat tərzinin dinamikası, düşüncə tərzinin itiliyi müxtəlif bədii, estetik, fəlsəfi, psixoloji, formalarda parlaq təcəssümünü tapırdı. Tofiq Kazımovun tamaşalarının finalı özü bir tamaşa idi. Rejissorun əsər üçün seçib qurduğu bədii, estetik, fəlsəfi konsepsiya finalda zahirən həlim, lirik, sakit, yumşaq, ancaq enerji nüvəsində coşğunluq, əzəmət, hayqırtı olan tərzdə tamaşaçılara çatdırılırdı. Milli rejissuramızın korifeylərindən sayılan Tofiq Kazımovun məzarı Bakıda ikinci Fəxri xiyabandadır.



Əyyub
Qulu
Teyyub
Davud
Turə
İzrah
Ramiz
Rafayel
Sevil
Əyyub
Məhəmmədəli
Əbdül
Fatma
Məsmə
Əsgər
Əzizə
Cəmilə
Cəmil
Davud
Şəfiqə
Şeyda
Teymur
Vaqif
Züleyxa
Arifə
Rübabə
Əbdilə
Yaqub
Fəridə
Məryəm
Hikmət
Fikrət
Məmməd
Rəsim
Elçin
Elnur
Əyyub
Məryəm
Zakir

## GİLİZDƏN YÜKSƏLƏN SƏDAYA CAVAB

Yəqin ki, oxucuların yadındadır: «Azərbaycan gəncləri» qəzetinin 23 fevral 1974-cü il tarixli nömrəsində «Siyasi rəhbər haradadır» sərlövhəli məktubum dərc edilmişdi. Məktubda bir təsadüf nəticəsində Sevastopol şəhəri yaxınlığında tapılmış gilizin içərisindən dəqiq ünvanı oxunmayan baş siyasi rəhbər Quliyev Davud Teyyub oğlundan söhbət gedirdi.

***Quliyev Davud Teyyub oğlu*** (1907-1942). ADU-nun filologiya fakültəsini bitirib. Leninqradda namizədlik dissertasiyasını bitirib. Dilçi alimdir. O, 1923-cü ildə Lenin komsomolu sıralarına keçmiş, sonra Sov. İKP üzvü olmuşdur.1932-ci ilin mayında verilmiş bir vəsiqədə göstərilir ki, D. Quliyev «Kommunist» qəzetinin tədqiqat bürosunda işləyir. 1934-cü ilin bir sənədində isə onun Azərbaycan Dövlət Ali Pedaqoji İnstitutunda kabinet müdiri vəzifəsində çalışdığı göstərilir. D. Quliyev sonralar Akademiyanın tarix, dil və ədəbiyyat institutunda dillər şöbəsinin rəhbəri, Azərbaycan SSR Xalq Komissarları Soveti yanında yeni əlifba komissiyasının katibi olmuşdur.

Heydər
Ramazan
Hacıbala
Əlpənah
Ramazan
Əmrullah
Kərim
Heydər
Nənəxanım
Səftər
Hacıbala
Kübra
Qurban
Hümbət
Natiq
Müzəffər
Səadət
Şövkət
Bəyim
Aslan
Elman
Əflatun
Faiq
Ülkər
Rəna
Heyran
Reyhan
Ramazan
Zakir
Malik
Sona
Arif
Elista
Zenfira
Rüfət
Ədilə
Elmira
Elvira
Leyla
Rəfiqə
Kamal
Rüstəm
Şölə
Rövşən
Elnarə
Vahid
Kənan
Elçin
Firuzə
Rəşad
Günay
Afaq
Şəbnəm
Fikrət
Lyudmila
Tanya
Oqtay
Guliarə
Cabir
Abbas
Məhəmbəni
Həlmə
Hüseynbala
Nərgiz
Pərixanım
Zəyrəf
Sübhə
Tofiq
Ağahüseyn
İsmayıl
Boba
Raziyə
Tükəzban



***Ramazanov Heydər Ramazan oğlu*** (1981-1940) Sabunçu-Suraxanı neft mədənlərində neft ustası işləyib. Murtuza Muxtarovun mədənlərində işlədiyinə görə həbs olunub. 1940-cı ildə güllələnib. 1957-ci ildə SSRİ Ali Məhkəməsinin qərarı ilə bəraət alıb.

***Ramazanov Ramazan Heydər oğlu***. AZİ-nin Neft mədən fakültəsini bitirib. 1961-1965-ci illərdə Lenin rayonu komsomol komitəsinin I katibi, 1973-1980-ci illərdə həmin rayjnun İcrayqə Komitəsinin sədri işləyib. Moskvada Ali partiya məktəbini bitirib. «Azərneftgeologiya» trestində müdir müavini vəzifəsində çalışıb.

Ramazanzadə Malik Heydər oğlu (1912). Əmircanda anadan olub. Orta təhsilini Əmircanda alıb. AzNKİ-ni bitirib. 1968-ci ildən texnika elmləri doktoru, professordur. Bütün SSRİ-də ali məktəblərində onun fizikaya aid dərsliklərindən istifadə edilir. 1976-cı ildə Azərbaycan SSR Elmlər Akademiasının müxbir üzvü, Azərbaycan SSR-nin "Əməkdar elm xadimi (1970) 1931-ci ildən Az NKİ-da müəllim, 1949-cu ildən fizika kafedrasının müdiri işləyib.

Əsas tədqiqatları selenin və neftin fizikasına aiddir. Selenin istilik keçirməsini, müxtəlif dalğa uzunluqlu şüaların onun elektrikkeçirməsinə təsirini, Abşeron neftinin və neft məhsullarının istilikkeçirməsini, neftin istiliktörətmə qabiliyyətini öyrənməsidir. Energetik baxımından neftin mütləq yaşı anlayışını elmə daxil edənlərdəndir. ADR-da (1964), Yuqoslaviyada (1965) keçirilən beynəlxalq elmi konfranslarda məruzələrlə çıxışlar etmişdir. Yüksək ixtisaslı kadrların hazırlanmasında xidmətlərinə və elmi işində yüksək naliyyətlərinə görə "Şərəf nişanı" ordeni və medallarla təltif olunmuşdur.



Əsərləri: "Fizika" (qısa kursu) Bakı-1961, Fizikadan laboratoriya işlərinə rəhbərlik, Bakı 1962-1972, Optika, Bakı 1978.

## BRİQADA HƏRBİ KOMİSSARININ FACİƏSİ

Faciəli illərin müsibətlərinə düçar olmuş günahsız qurbanlardan biri də Cabir Əmrulla oğlu Əliyevdir. O, 1902-ci ildə Bakı şəhərinin Əmircan kəndində neftçi ailəsində anadan olmuşdur. 16 yaşından ağır maddi vəziyyəti onu orta məktəbi qurtarmadan Suraxanı mədənlərində əvvəl şagird, sonralar isə çilingər vəzifəsində işləməyə məcbur etmişdir. 1919-cu ilin dekabr ayında gizli komsomol təşkilatının üzvlüyündən Kommunist partiyasına daxil olub.

C. Əliyev 1920-21-ci illərdə Əmircan komsomol təşkilatının katibi, Azərbaycan Kommunist Gənclər İttifaqının (KGİ) kadrlar və təşkilatlar üzrə katibi işləmişdir.



***1936-cı il 21 yanvar Kreml. 4-cü cərgə 2-ci sıra general Cabir Əliyev***

1922-ci ildə Azərbaycan KGİ-nin katibi olmuş, həmin il orada partiya təşkilatı işinə köçürülmüş, 1922-23-cü illərdə o, Orta Asiyada Sır Dərya Vilayət KP-nın katibi işləmişdir. O, 1924-cü ildə vətənə qayıdaraq Azərbaycan diviziyasının siyasi şöbəsində rəhbərlik etməklə, Bakı 3-cü Alayın hərbi komissarı vəzifəsində işləmişdir. 1927-3-cu illər ərzində Leninqrad şəhərində Tolmaçov adına Hərbi siyasi Akademiyada oxuyub qurtardıqdan sonra Azərbaycan alayının siyasi şöbəsində müavin, sonra 932-ci diviziyada siyasi idarənin rəisi, daha sonra Azərbaycan Qırıcı Alayın hərbi komissarı işləmişdir. Dəfələrlə AK(b)P-nin büro üzvü və Zaqafqaziya İcraiyyə Komitəsinin üzvü seçilmişdir. Qırmızı Ulduz və Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

Əliyev Cabir Əmrulla oğlu 1937-ci ildə Xalq Daxili İşlər Komissarlığı tərəfindən heç bir əsas olmadan əksinqilabçı trotskiçi-millətçi kimi təqsirləndirilərək SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının 1 sentyabr 1938-ci il tarixli hökmü ilə hərbi rütbəsi ləğv edilməklə və əmlakı müsadirə olunmaqla güllələnmə cəzasına məhkum edilmişdir. Həmin gün də hökm icra edilmişdir.

1956-cı ildə Zaqafqaziya hərbi prokurorluğu tərəfindən aparılmış yoxlama nəticəsində müəyyən edilmişdir Ki, Əliyev Cabir Əmrulla oğlu haqqında istintaq materialları saxtalaşdırılmış və o, tamamilə əsassız mühakimə edilmişdir.

Ona görə Baş Hərbi Prokurorluğu Əliyev haqqında protest vermiş, 21 iyul 1956-cı ildə SSRİ Ali məhkəməsinin hərbi kollegiyası işə yenidən baxaraq öz qərarı ilə C. Ə. Əliyev haqqında çıxarılmış 1 sentyabr 1938-ci il tarixli əsassız hökmü ləğv edərək onun hərəkətində cinayət tərkibi olmadığı üçün cinayət işini xitam edərək ona bəraət verib təmizə çıxarmışdır.

## Д. А. АЛИЕВ

АЛИЕВ Джабир Амирулла оглы (1902—1938) родился в селе Амираджаны Бакинского уезда в семье рабочего-нефтяника. Начальное образование получил в сельской школе. В 1915 г. поступил в Сабунчинское высшее начальное училище, где проучился два года. Тяжелые материальные условия выкудили его прервать учебу. С 16 лет он работал на Сураханских нефтяных промыслах учеником, а затем подручным слесаря.

К революционному движению Алиев примкнул с 17 лет. По заданию большевиков распространял на промыслах листовки и прокламации, вел агитацию среди рабочей молодежи. Был одним из организаторов Сураханского отделения «Интернационалистического союза рабочей молодежи Баку и его районов» в 1919 г. Состоял членом Сураханского подпольного райкома комсомола.

В декабре 1919 г. вступил в ряды большевистской партии. В условиях мусаватского режима вел большую подпольную работу среди молодежи, участвовал в организации комсомольских ячеек в селениях Амираджаны, Бюль-Бюли, Бина, Зыря, Мардакяны, на промысле Русского товарищества «Нефть».

Принимал активное участие в борьбе за победу и упрочение Советской власти в Азербайджане. В 1920 г. в составе боевой дружины участвовал в разоружении полиции и жандармерии, в наведении революционного порядка в районе. С мая 1920 г. по сентябрь 1921 г. работал секретарем Амираджанского подрайонного комитета комсомола, затем секретарем Сураханского и Фабрично-заводского райкомов комсомола, заведующим отделом по работе в деревне БК АКСМ. В этот период отдавал много сил и энергии делу коммунистического воспитания молодежи, мобилизации ее на восстановление разрушенных мусаватистами и иностранными интервентами нефтяных промыслов и сельского хозяйства. Направленный по решению ЦК АКСМ на работу в агитпоезде им. 26, объехал многие города, селения и станции по линии Закавказской железной дороги, участвовал в создании и укреплении организаций молодежи.

На II, III и IV съездах комсомола Азербайджана избирался в состав ЦК АКСМ. С октября 1921 г. по ноябрь 1922 г. заведовал организационным отделом ЦК АКСМ, а затем был секретарем ЦК АКСМ. В конце 1922 г. перешел на партийную работу в армию. Затем по решению ЦК РКСМ был направлен в Среднюю Азию, с февраля по август 1923 г. работал секретарем Бухарского обкома комсомола, с сентября 1923 г. по декабрь 1924 г. — секретарем Сыр-Дарьинского обкома комсомола Туркестана. Избирался членом Ташкентского горкома партии, членом бюро Сыр-Дарьинского обкома КП(б) Туркестана.

В конце 1924 г. Алиев возвратился в Азербайджан, работал инструктором политотдела Азербайджанской дивизии, политруком саперной роты, военным комиссаром 3-го Бакинского полка. В 1927—1930 гг. учился в Военно-политической академии им. Толмачева в Ленинграде, по окончании которой работал заместителем начальника политотдела Азербайджанской дивизии, начальником сектора политического управления Кавказской Краснознаменной Армии. С 1932 г. был начальником политотдела, а затем военным комиссаром Азербайджанской стрелковой дивизии им. Серго Орджоникидзе.







***Cabir Əliyevin arxivindən***

Неоднократно избирался членом БК и ЦК АКП(б), кандидатом в члены бюро ЦК АКП(б), Азербайджанского и Закавказского ЦИК. В 1934 г. участвовал в работе XVII съезда ВКП(б).

Коммунистическая партия и Советское правительство высоко оценили заслуги Алиева, наградив его орденами Трудового Красного Знамени Азербайджанской ССР и Красной Звезды.


Məmmədqulu
Heybətqulu
Şahib
Novruz
Rahib
Əmirqulu
Azər
Amalya
Şahin
Səkinə
Mikayıl
İsmayıl
Mustafa
Tofiq
Gülnar
Rauf
Zərifə
Faiq
Həcər
Tamila



***Hacı Heybətqulu Məmməd oğlu***. Fəhləlikdən neft ustasına qədər yüksəlmiş, adlı-sanlı buruq ustası olmuşdur. İki oğlu, Məmmədəli və Əbdülhüseyn rus-tatar məktəbində oxumuşdur. Ruhanilərin təqiblərinə baxmayaraq, həyətində iki otaqlı məktəb bina etmək təşəbbüsündə olmuşdur. Lakin işini başa çatdıra bilməmişdir (İndi o binanın bir tərəfi Vaqif küç., 48 №li evdir).

«Hacı Heybətqulu rus dilini bildiyi üçün müsəlman fəhlələri ilə rus kapitalistləri və çar məmurları arasında tərcüməçi olmuşdur».

H. Heybətqulunun öz şəxsi kitabxanası var idi. 1920-ci ilə qədər kənd ziyalıları onun evinə yığışar, qəzet və jurnal oxuyardılar. Ev sahibi gələn qonaqları hörmətlə qarşılar, onlarla fikir mübadiləsi, yaradıcılıq mübahisələri edərdi. Hamı onun teatr həvəskarı olduğunu bildiyinə görə söhbətlərinin çoxu məhz bu istiqamətdə gedərdi. Onun Bakının tarixinə aid iki əlyazması qalmışdır. O, cəhalətə, avamlığa, savadsızlığa qarşı çıxmış, hərc-mərliyi, cəmiyyətdəki ədalətsizliyi törədənlərə qarşı mübarizə etmişdir. 1894-cü ildə Əmircanda baş vermiş fəhlə nümayişlərinin fəal iştirakçılarından olmuşdur. O, 1942-ci ildə 115 yaşında vəfat etmişdir.

Süleyman
Rubail
Qurban
Əlizaman
Süleyman
Nəcəfqulu
Əli
Ağa
Abid
İbrahim
Sədəf
Mömin
Atil
Hüseyağa
Hüseynağa
Tural
Mina
Xurdaxanım
Xeyransə
Hacər
Yunis
Kazım
Məmmədağa
Musa
Məmmədsadıx
Əliheydər
Mahmud
Zakəriyyə
Məzahir
Məryəm
Əhməd
Habib
İsa
İbrahim
Sakinə
Əkbər
Pərvaz
Rübabə
Abbasqulu
Hüseyn
Müzəffər
Nərgiz
Hüseyn
Süleyman
Rübail
Qasım
Mirzəməlik
Əjdər
Suqra
Sara
Safura
Halimə
Kubra
Mənsur
Yəhya
Abbas,
Xanım,
Nigar,Tubux,
Xalid
Solmaz
Mirzə
Behriyyə, Ofeliya,
Elmira, Azər,
Fəxriyyə
Qızqayıt,
Xoşbəxt
Minəxanım
Orxan
Hikmət
Emin, Elçin
Rəşid, Leyla
Tofiq,Lələ
Bəbə
Tamilə
İlyas
Oqtay
Ağası,Fələt
Kamil,Rəhilə
Elmira
Məmməd,Çingiz
Gündüz,Əbülfəz
Heybət,Fatma
Mürsəl,Səkin
Mədinə
İsrafil
Məhəbbət,İsrafil
Ülviyyə,Əbülfəz
Nərgiz,Kənan
Rübail,
Üzeyir
Məhəbbət
Yaqut,Zümrüd
Umbulbanu
Elxan,Heaqqet
Dilarə,Eldar
Elmira,Camilə
Vaqif,Minəyə
Gülarə
Fuad,Zərifə
Rəhilə,Ofeliya
Hacər,Qurban,
Davud
Ləyla,Səkinə
Şəmbər,Ekrəm
Nəcəf,Fikrət
Nizami
Aqşin,Əli
Kamil
Vəsilə
Elman
Rəfayel
Ramziyyə
Bəhram
Sona,Maxtura
Firəngiz,Əhməd
Şahin,Əliheydər
Rəna
Dilqüşə,Ilham
Aygün
Aybəniz
Aydın,Aynur
Gülbəniz
Tərlan,Vüqar
Elxan,Şəhla
Rövşən,Rüfəngiz
Fəxrəddin,Məhbubə
Şənbər,Sədaqət




*Mirzə Məlik*

***Memar Usta Süleyman*** XIX əsrin birinci yarısında yaşamışdır. 1830-cu ildə Nizaməddin məscidini təmir və bərpa etmişdir. Daş kitabəyə usta Süleymanın adı həkk olmuşdur. Usta Süleymanın nəslindən daha bir neçə usta çıxmışdır. Onun oğlu Abbasqulu da usta-memar idi. Usta Abbasqulunun oğlu Mirzə Məlik də (1859-1943) atasının və babası Süleymanın sənətini davam etdirmiş, dövrünün sayılan və seçilən sənətkarlarından olmuşdur. Daşdan tağ çatmaq işində mahir imiş. Məhəllə məscidlərindən birində, Daş kitabədə, «Abbasqulu və Mirzə Məlik» adları yazılmışdı. Adı xatırlanan Mirzə Məlik Abbasqulunun oğludur. Vaxtilə atasının başladığı məhəllə məscidinin tikintisini başa çatdırdıqdan sonra Binə kəndində də bir məhəllə məscidi bina etmişdir. 1918-ci ildə bu məscidin gümbəzini top gülləsi dəlib keçmiş, lakin uçmamışdır. O, 1926-cı ildə Əmircan kəndindəki klubun layihəsini vermiş (maraqlıdır ki, klubun qabaq hissəsini öz əli ilə hörmüşdür), daha çətin işlərə müraciət etmişdir.

O, Səngəçal körpüsünü inşa etdikdən sonra, Dzerjinski adına zavoda dəmirçi sexinin layihəsini vermişdir. Bu sex indii də öz möhkəmliyini qoruyub saxlayır.



***Mirzəyev Xəlil Mirzəməlik oğlu***




***Mirzəyev Abbas Mirzəməlik oğlu***



***Əliyeva Xanım Mirzəməlik qızı***



***Mirzəyeva Nigar Mirzəməlik qızı***



***Mirzəyeva Bəhriyyə***




***Mirzəyeva Ofelya***



***Mirzəyeva Elmira***



***Mirzəyeva Qızqayıt***



***Rəfayıl Məmmədsadıq oğlu***. İqtisadiyyat elmləri doktoru, professor. Xeyriyyəçi Rəfaelə deyil, sahibkar - «Aydın» istehsalat kommersiya mərkəzinin baş direktoru Rəfail Ulusoyla görüşüb söhbət etməyə söz verdim.

Bir neçə ay əvvəl Bakıdakı iri özəl şirkətlərdən birinin sahibi ilə görüşdük, söhbət elədik. Elə bu başdan deyim, sonradan bildim ki, o, məni aldadıb. Əvvəlcə özünü vətənpərvər, millət dərdi çəkən bir sahibkar kimi tanıda bildi. Şirkət haqqında səmimi bir yazı hazırladım, dərc olundu; sonradansa peşman oldum. Qəzet çıxandan sonra onunla yenidən görüşdük. Yazıda onun şəhid və qaçqınlara köməyindən, xeyriyyəçiliyindən də söhbət açmışdım. İndi təzədən görüşəndə bildirdi ki, filan rayonda məskən salmış qaçqınları da himayəyə götürəcəkdir. İntəhası, hələlik bunu gizli saxlayır. Çünki deyərlər, filankəs filan rayonda da kommersiyanı inhisara alır!..

Söhbətinin sonrasından başa düşdüm ki, bu hərif şəhid ailələrini və qaçqınları heç də ürəyi yandığına, vətənpərvərliyinə görə deyil, elə doğrudan da, özü demişkən, həmin rayonlarda alış-verişi inhisara almaq üçün himayə edir. İyrəndim ondan, özümə isə qəzəbləndim: layiq olmayan adama inanıb, haqqında yazdığıma görə. Amma iş-işdən keçmişdi. Bu səbəbdən söz verdim ki, daha belə «xeyriyyəçi»lərdən tərifli yazılar yazmayacağam.

Rəssam dostuma verdiyim sözə uyğun, onunla Rəfael bəyin yanında görüşdük. Y. Əsədov məni tanış edib, Rəfaillə söhbətini qurtardıqdan sonra getdi. İkmiz qaldıq, bir də mərkəzin prezidenti Zahidə İsmayılzadə. Mən məqsədimə uyğun olaraq Mərkəzin istehsalat fəaliyyəti ilə maraqlandım. O, qısaca Daş karxanası, kərpic sexi, xalça sexi, axır vaxtlar fəaliyyəti lap zəifləmiş «Aydınbank» kommersiya bankı, bir də son bir ildə fəaliyyəti lap öləziləmiş biznes-kommersiya işi barədə danışdı. Açığı ki, hamısından da həvəssiz, sönük. Dedi, bu saat ölkədə sahibkarlıq fəaliyyəti üçün heç bir şərait yoxdur (bunu deməsə də, bilirdim). Xaricdən mal alıb gətirmək sərf eləmir. Çünki ölkəyə lazımdı, lazım deyil, bütün mallara o qədər gömrük vergisi qoyulub ki, «əlavə xərcləri», yəni dövlət məmurlarına verilən rüşvəti də üstünə gəlsək, axırda sənə quru zəhmət qalır, bəzənsə mayadan xərcləməli olursan. Bir sözlə, aldım qoz, satdım qoz.

Zahidə xanım danışdı ki, Rəfael bəy peşə ənənələri və sənətkarlıq aradan itib-getməsin deyə, Əmircanda xalçaçılıq sexi açdırıb. Onlarla yerli qızı bu sənətə, sexdə işə cəlb edib. Amma günlərin bir günü səhər tezdən gəlib görüblər ki, dəzgahlarda toxunmaqda olan xalçaları hansı «gözünə döndüyüm müsəlmansa» doğrayıb. İstəyiblər axtarıb tapsınlar kimliyini (aydın məsələ imiş ki, bunu özgəsi yox, yerlilərdən kimsə eləyib). Ancaq Rəfail bəy razı olmayıb: mən bu camaat üçün çalışırdım; bir halda ki, gözləri götürməyib, onda heç lazım deyil.

Beləliklə, xalça sexinin avadanlığını oradan söküb gətirib incəsənət gimnaziyasına quraşdırdıb.

Ümumiyyətlə, söhbətdən aydın oldu ki, indiki gömrük-vergi siyasəti şəraitində iri miqyaslı ticarət fəaliyyəti ilə məşğul olmaq sərf eləmir. Bir yana baxanda, ölkənin indiki vəziyyətində bu, bir qədər də təbiidir: istehsal təşkil etmək lazımdır, yalnız bundan sonra geniş ticarət əlaqələri haqqında düşünmək olar. Məhz bunu nəzərə alaraq "Aydın" Avropanın bir sıra iri istehsal şirkətləri ilə burada şampinyon (göbələk) kompleksi, bitki yağları zavodu, tərəvəz qurudan və uşaq yeməkləri hazırlayan sexlər inşa etmək; həmin ölkələrdən müasir avadanlıq gətirib quraşdırmaq və adları çəkilən məhsulların birgə istehsalını təşkil etmək barədə müqavilələr imzalayıb. Lakin bank kredit vermədiyinə görə bu müqavilələr qüvvədə qalsa da, hələlik həyata keçirilə bilmir.

- Ümumən, deyəsən, bu ölkədə hələlik istehsalı canlandırmaq barədə düşünən yoxdur. - Rəfael bəyin gəldiyi nəticə budur. - Məgər istehsalı təşkil etmək üçün ölkədə meydan yoxdur? Var, özü də büğün sahələrdə, istənilən qədər. Götürək elə broyler-quşçuluq müəssisələrini. Təkcə Bakıda, Bakı yaxınlığında nə qədər bu cür iri müəssisə boş dayanıb, ya da gücünün 10-15 faizi həcmində işləyir. Bizimkilər gedib xaricdən, toyuq, yumurta, ət alıb gətirirlər. Xarici valyutaya alır, burada satanda da od qiymətinə verirlər. Çox adam bunlara ancaq həsrətlə baxa bilir. Halbuki yumurta, toyuq yerinə ancaq yem, o da qismən almaq (quş yeminin bir-iki komponentini alıb burada istehsalatı təşki etmək) daha sərfəli olardı. Bu halda uzaqbaşı işin başlanğıcında bir dəfə yumurta gətirmək lazım gələrdi. Beləliklə, həm müəssisələrdə minlərlə adam işləyib yüksək əməkhaqqı alar, həm daxili bazarda yerli istehsal hesabına mal bolluğu yaranar, həm də bunun sayəsində qiymətlər xeyli ucuzlaşardı. Eh, hansını deyəsən, düşünəndə adamı od götürür: elə bil kimlərsə bu ölkənin, bu millətin qəsdinə durub, adamlarımızın yaxşı işləyib, yaxşı yaşamalarına mane olmaq üçün cürbəcür əngəllər düşünüb tapırlar. Məgər bunların haqqında heç düşünən yoxdur?

Baş direktor elə bil bu yerdə söbətini qurtardı, danışığı kəsdi. Bir qədər gözlədim, gördüm heç kəsdən səs çıxmır, söhbəti canlandırmaq üçün «qıcıqlandırıcı» bir sual vermək qərarına gəldim:

- Deyilənlərdən məlum oldu ki, bankınızın da, kommersiya qurumunuzun da fəaliyyətini, demək olar ki, dondurmusunuz. Bəs istehsalatda vəziyyət necədir? Ümumiyyətlə, bu saat nə işlə məşğulsunuz?

Cavabı mərkəzin prezidenti verdi:

- İstehsalatda da elə bir deyiləsi sözümüz yoxdur. Axı bunun üçün də bank-kredit sistemi qaydasında olmalıdır. Boş əllə nə etmək olar? Bundan başqa, lazım olan xammal və avadanlığı xaricdən alıb gətirməyə dövlət

şərait yaratmalıdır. Bu da yoxdur. Bu şəraitdə oturub daha əlverişli zaman və şərait gözləməkdən başqa çarə qalmır.

Vəssalam. Bununla da onların söhbətə nöqtə qoyduqlarını başa düşdüm. Yəni ki, danışmağa söz yoxdur. Beləliklə, əsində söhbətimiz alınmadı və «Aydın»dan yazmaq fikrindən vaz keçdim.

**YADDAŞ**

Qələm-dəftərimi yığışdırıb çıxmağa hazırlaşırdım ki, köhnə tanışım Maarif Teymur qapıdan girdi. Şirin-şirin görüşdük. Təəccübümü gizlətmədim:

- Maarif müəllim, sən hara, bura hara?

- Necə yəni, «sən hara, bura hara»? Mən bu Mərkəzin mədəniyyət qurumunun başçısıyam. Xeyli vaxtdır, burada işləyirəm. Məni çəkə-çəkə öz iş otağına apardı. İndi də o, məni sorğu-suala tutdu: nə əcəb gəlmisən bura, yazmağamı? Mən gəlişimin səbəbini, məqsədini, söhbətimizin necə keçdiyini, axırda da - alınmadığını, deməli, yazası olmadığımı, necə vardısa, danışdım. Maarif müəllim danışdıqlarıma heç bir münasiət bildirmədən üzünü qonşu otağa tutub:

- Arzu, qızım, - deyə çağırdı, - bir bura zəhmət çək. - Ayaq səsini eşidəndə isə əlavə elədi, - Sənin o qovluğunu gətir ver qonağımıza.

- Mən sənə «yaz, yazma» demirəm, - dedi. Ancaq xahiş edirəm, bir bunları vərəqlə, indi gəlirəm.

Otaqdan çıxdı, tək qaldım. Qovluğu həvəssiz, elə-belə vərəqləməyə başladı, sonra isə... bu məşğuliyyət məni necə tutdusa, bir vaxt onu gördüm ki, dəftərçəmdə qeydlər aparıram. Beş-altı vərəqdən sonra isə qeydləri yarımçıq kəsib, sənədləri gözdən keçirdəkdə davam elədim: başa düşdüm ki, ordakıların təkcə siyahısını çıxarsam belə, dəftərçə tutmaz, özüm də gərək axşamacan oturub qalam burda.

Saata baxdım, sənədləri nəzərdən keçirməyim üç saat çəkmişdi! Və onların təsirindən indi üzümü bütün bu tay Azərbaycana tutub haray çəkmək istədim: «Eheyyy, soydaşları, «Aydın» maaliyyə cəhətən müflisləşmək üzrədir! Allahdan, milli taleyimizdən qorxun, buna yol verməyin! Onun iflası Azərbaycan mədəniyyətinə, incəsənətinə, elminə-təhsilinə, idmanına, bunların hamısından vacibi də - yaddaşımıza, milli yaddaşımıza qayıtmağımıza amansız zərbə olardı».

Mübaliğə kimi səslənməsədi, lap deyərdim bu milli mənliyimizə, mərdliyimizə, kişilyimizə zərbə vurmaq, xəyanət etmək demək olardı... Yox-yox, elə bilməyin ki, görüb-oxuduqlarımın təsiri ilə hissə qapılmışam. Yazmağa da təzə başlamamışam ki, təcrübəsizlikdən doğan çılğınlığa qapıldığımı düşünəsiniz. 35 illik yazı-pozu «staj»ım var; bu dünyada nələr görüb, nələrin şahidi olmamışam! Amma beləsinə hələ rast gəlməmişəm.

Sevimli şairimiz Bəxtiyar Vahabzadənin tez-tez işlətdiyi kəlam var; mən dünyada şahlıqdan könüllü imtina edən bircə «dəli» tanıyıram, o da Şeyx Sədidir.

Şahlıq hakimiyyət deməkdir. Hakimiyyətin ən realı və qüvvətlisi isə iqtisadi hökmranlıqdır. Morqanın, Rotşildin, Nobel qardaşlarının, Düponun, Simenslərin... hökmranlığı kimi. Bu mənada Hacı Zeynlabdin Tağıyev, Murtuza Muxtarov da «dəli» olublar iqtisadi şahlıqdan könüllü imtina etmələri, yəni hədsiz sərvətlərinin böyük hissəsini millət yolunda, milli ziyalılar, milli mədəniyyət, sənət, o sıradan incəsənət yolunda əsirgəmədən xərcləmələri mənasında.

Rəfael bəy də o yolu tutub; onlardan betər «sağalmaz dərdə» tutulub, «dəli» olub - millət dərdinə, Xəlil Rzasayağı fanatikcəsinə milli təəssübkeşliyə, onun kimi milli özünümüdafiə qəhrəmanlığına-cəsurluğuna tutulub... O, mənəvi-cismani, bu, maddi-cismani sahədə. Bəlkə elə bu ümumi dərddi ki, Rəfaelin onlarca milyon manat xərc bahasına buraxdığı neçə-neçə kitablar arasında birincilər sırasında qəhrəman-fədakar şairin «Qəhrəman Təbrizim» adlı irihəcmli kitabını böyük tirajla öz hesabına nəşr etdirib yaymağa sövq edən! Yaxud Vətəndən didərgin, Vətən həsrətlisi-tamarzısı, millət fədaisi Almas Yıldırımın «Qara dastan» şeirlər kitabını:

***Azərbaycan***
***Dərd içində boğulmuş,***
***Sevənləri***
***Diyar-diyar qovulmuş.***
***Ağla, şair,***
***Ağla, yurdun dağılmış.***
***Nerdə qopuz,***
***Nerdə qırıq kaman, hey?..***
***Nerdə böyük Vətən,***
***Nerdə Turan, hey?!***

O şeirləri ki, Xəlil Rza Ulutürk onlara qafiyə tutaraq yazıb:

***Azərbaycan,***
***Can vermişik adına,***
***Canımızdır adındakı «can» sənin.***
***Soyuq qəlblər yana bilməz oduna,***
***Namus sənin, şərəf sənin, şan sənin.***
***Azərbaycan, mənim tacım, taxtım, oy,***
***Oyanmazmı kor olası baxtım, oy!..***

Görünür, elə bu daxili yanğının təsiri ilə «Aydın»ın sahibi işə öz sələfləri, bəlkə də, qan qohumları olan Hacı Zeynalabdinin, Murtuza Muxtarovun hər biri onlarca milyon manata başa gələn xatirə-bərpa komplekslərini yaratmaqdan başlayıb. Həmyerlisi, Böyük fırça ustası Səttar Bəhlulzadənin və nakam şairimiz Tofiq Bayramın xatirələrini əbədiləşdirəcək tədbirlərə girişib. Təkcə Səttar Bəhlulzadənin dayaq üzərində ucaldılan tunc heykəlinə 10 milyon manatdan artıq (hərçənd belə işlərdə çəkilən xərclərdən danışmaq yersiz görünür) xərc çəkib. Onların hər birinin həyatı-fəaliyyəti haqqında elə bu mərkəzə mənsub «Aydınfilm» kinokompaniyası irihəcmli filmlər çəkib.

Bunlardan danışdım, yadıma Səttar Bəhlulzadə haqqında filmdə Rəfael bəyin başqalarının xeyli çəkən çıxış və nitqləri yanında bir an kimi görünən danışığı - ibrətamiz sözləri düşdü. Dedi ki, Gürcüstanın Borçalı elindən soydaşımız olan bir dostum var. Bir gün o, rəsmən gürcü sayılan rəsam Pirosmani (fikir verin: pir hara, Osman hara - gürcü hara!) haqqında danışarkən dedi: «Mənim əlimdə bu görkəmli sənətkarın türk olduğunu sübut edən təkzibolunmaz dəlil-sənədlər var. Gürcülər isə onu az qala öz Peyğəmbərlərinə çeviriblər». Dedim, o sənədləri gətir, məsələni açaq. Dedi: lazım deyil, Azərbaycan Səttar kimi dahi üçün nə etdi ki, bunun üçün nə edə? Gürcülər isə onu, əstəğfürulla, Allaha çeviriblər; insaf deyil əllərindən alasan...

Bu, millət üçün Cəlil Məmmədquluzadəsayağı, Sabir və Hadi kimi yanmağın təzahürüdür ki, Rəfaeli bircə an belə sakitləşməyə, rahatlıq tapmağa qoymur. Necə böyük çətinliklə qazandığı yüzlərlə milyon manatı, deyərdim, axırıncı qəpiyinəcən milli yaddaşımız, milli mədəniyyət və incəsənətimiz yolunda xərcləməyə sövq edir.

İnsaf naminə deyim ki, indi xeyriyyə fəaliyyəti ilə məşğul olanlar çoxdur. Sağ olsunlar buna görə! Ancaq, burası var ki, açığı onların bir hissəsi bunu şöhrət naminə, ikinci qismi - axına qoşularaq, üçüncülər - qorxudan, haram yolla qazandıqlarını ört-basdır eləmək üçün və s. edirlər. Həm də bunlar belə işlərə mənfəətlərinin uzaqbaşı 5-10 faizini sərf eləyiblər (Və buna görə onları qınamaq da olmaz - əksinə, hər halda alqışlanmalıdırlar). «Aydın» isə mənim hesabımla və görüb-oxuduqlarımdan gəldiyim nəticəyə görə, fəaliyyət göstərdiyi üç il ərzində qazandığı yüzlərlə milyon manatın, demək olar, hamısını bayaq dediyim məqsədlərə sərf eləyib.

«AYDIN»I FƏRQLƏNDİRƏN BİR BUDUR!

Sonra. Ədalət naminə deyək ki, bu gün şəhid ailələrinə, qaçqınlara, xəstə, şikəst və imkansızlara çoxları azmı-çoxmu əl tutur. «Aydın» da bu qəbildən olan yüzlərlə, bəlkə də, minlərlə soydaşımıza əl tutur. Ancaq burada, görülən digər böyük işlərlə müqayisədə, bunları sadəcə hesaba almırlar. Belə tədbirləri Mərkəzin səliqə-səhmançısı Arzu balamız da, Maarif Teymur da qeydə və siyahıya salmırlar. Ölkəmizin və xarici ölkələrin ali və ixtisas məktəblərində təhsil almaq üçün onlarla istedad sahibi olan övladlarımıza göstərdiyi yardım isə qismən «hesabdadır». Xaricdə əsərlərinin sərgisi açılan rəssamlara, arxasız-parasız yazarlarımızın kitablarının nəşrinə, beynəlxalq yarışlarda iştirak etmək üçün ağır atletlərə, şahmatçılara, xokkeyçilərə vaxtında və qədərincə göstərilən on milyonlarla manat maliyyə köməyi də həmçinin.

«İnsan» humanitar xeyriyyə fonduna, Azərbaycan Jurnalistlər Birliyinin jurnalist fonduna, ölkədə şahmatı inkişaf etdirməklə məşğul olan «Asiman» assosiasiyasına, digər fondlara, cəmiyyət və birliklərə göstərilən və ümumi məbləği milyon manatlarla hesablanan yardımı da Mərkəzdə böyük tədbirlər sırasına daxil etmirlər. Milli Ordunun yaradılmasına və saxlanmasına sərf edilən köməklər isə ciddi tədbirlərdəndir. Əmircan kəndinə su kəməri çəkilməsi işində isə dolaşıqlıq yaranıb. Bakı şəhəri su kəmərləri çəkilişi idarəsi Mərkəzin neçə milyon manat vəsaitini həzm-rabedən keçirərək, kəmərin çəkilişini yarımçıq qoyub. Ondan bir haqq-hesab tələb edən də yoxdur.

Hə, biz bax belə millətik, Sabir demiş, belə canlarıq. Böyük xeyriyyə işləri görən vətənsevər kəslərə bu təmənnasız işlərə görə «sağ ol» demək əvəzinə, onları beləcə incidirik...

Yuxarıda dedik ki, Mərkəzin öz kinokompaniyası fəaliyyət göstərir. Kompaniya artıq xeyli sayda sənədli və tarixi filmlər, bir neçə bədii film çəkib. Hazırda o, M. F. Axundovun «Hacı Qara» komediyasının «Xəsis» adı ilə ekranlaşdırır. Görkəmli səhnə ustası Nəsibə xanım Zeynalovanın anadan olmasının 80 illiyi ilə bağlı, sənətkarın həyat və yaradıcılığından bəhs edən filmin çəkilişinə də başlanmaq üzrədir.

- Gördüyünüz işlər arasında hansılarını daha böyük, sizin üçün daha əziz sayırsınız? - sualıma Mərkəzin başçıları cəmi üç tədbiri və tədbirlər sistemini göstərdilər. Bunlardan birincisi incəsənət gimnaziyası ilə bağlıdır. Bəstəkar Oqtay Rəcəbovun rəhbərlik etdiyi bu nəhəng təhsil-sənət ocağının təmirdən tutmuş konsertlər təşkilinə, qaliblərin mükafatlandırılmasınadək bütün problemlərini «Aydın» öz üzərinə götürüb. Burada 1.000 nəfərə-

dək seçmə istedad, o cümlədən 50 şəhid və 15 qaçqın övladı təhsil alır. Zarafat deyil, bu boyda xərci hər yerindən qalxan çəkə bilməz və çəkmək istəməz də. Oqtay müəllim haqlı olaraq deyir ki, neçə vaxtdır dövlət bizə bir parta da alıb vermir. «Aydın» isə təkcə keçən il məktəbin ancaq təmirinə 25 milyon manat xərcləyib.

Rəfael bəyin ən çox fəxr elədiyi tədbir - ölkəmizdə kəşf olunmuş ultrasəs aparatı ilə bağlıdır. Onu itbb elmləri doktoru Ramiz Həşimov düzəldib və 9 bu cür aparat yığdırıb. Kömək üçün Səhiyyə Nazirliyinə müraciət eləyiblər, vəsait tapılmayıb. Məcbur qalıb, bu çox bahalı aparatları patenti ilə birlikdə xaricə satmaq istəyiblər. Bundan təsadüfən xəbər tutan Mərkəzin baş direktoru 10 milyon manat ödəyərək bunları alıb, təmənnasız DİN qospitalına, hərbi qospitallara, respublika bərpaetmə Mərkəzinə bağışlayıb. Aparatın qiyməti ondadır ki, yüzlərlə cavan yaralarını müalicə üçün morfi iynəsindən və ağır əzablardan (və beləliklə, morfiyə vərdişkar olmaq təhlükəsindən) xilas edib. Onun köməyi ilə dərman kənardan, iynəsiz-şprissiz bədənin lazım olan hissəsinə yeridilir...

Mərkəzin mədəniyyət qurumu 1994-cü ilin yanvarından başlayaraq Azərbaycan televiziyası ilə birgə (müqavilə əsasında) ayda bir dəfə «Yaddaş» proqramının çəkilişini maliyyələşdirir. Deyirlər, hər belə veriliş bir neçə milyon manata başa gəlir. Bu proqramda, televiziya tamaşaçılarına məlum olduğu kimi, folklor materialları, el sənətləri və sənətkarları, etnoqrafiya, maddi mədəniyyət abidələri, ocaqlar, müqəddəs yerlər, qoruq şəhərlər, ölkənin sərvətləri, toponim və hidronimlər haqqında qiymətli, əvəzsiz film və verilişlər çəkilib nümayiş etdirilir. Maarif müəllim deyir ki, elə teleradio verilişləri şirkətinin özündə bir nəfər «Yaddaş» proqramını «Aydın»ın maliyyələşdirdiyi halda, televiziyada onun reklamlarının verilməsinə heyrətini bildirib. Cavabında Rəfael bəy nə desə yaxşıdır: «Mənim reklamım da, haqqım da milli tariximizə, tarixi yaddaşımızın oyadılmasına xidmətimdir!»

Beləliklə, təkcə «Aydın» istehsalat-kommersiya mərkəzi son illərdə, bəlkə də, bütövlükdə bir nazirliyin görə bilməyəcəyi qədər iş görüb, vəsait xərcləyib. Təmənnasız olaraq! Özü də necə işlər! Yox, bunlara indii adət etdiyimiz mənada xeyriyyə tədbirləri deməyə dilim gəlmir. Bunlar elə-belə, adda-budda xeyriyyə tədbirləri deyil. Mahiyyətlərinə fikir verəndə görürsən ki, bunlar milli dirçəliş, millətə xidmət məqsədi daşıyan, yaxşı düşünülüb hazırlanmış və həyata keçirilən bir proqramdır. Və bu cür əhatəli, hərtərəfli, yaxşı düşünülmüş vətənpərvər proqramı o qədər də böyük dövriyyəsi olmayan bir şirkətin həyata keçirə bildiyinə heyrətlənməyə bilmirsən.

«AYDIN»I QALAN BÜTÜN XEYRİYYƏÇİLƏRDƏN FƏRQLƏNDİRƏN İKİNCİ, HƏM DƏ DAHA KÖKLÜ VƏ BÖYÜK FƏRQ İSƏ BUDUR!

Görüb-başa düşməyə bilmirsən ki, doğrudan da, bu əzəl şirkət nəinki qazandığı nə varsa onu, həm də bütün səy və bacarığını qarşısına qoyduğu böyük məqsədi həyata keçirməyə səfərbər edib. Düşünürsən: hardandır «adi» bir sahibkarda belə böyük ürək, millət eşqi və təəssübü; tariximizə, mədəniyyətimizə və incəsənətimizə tükənməz sevgi!

Mən bunun da kökünü başa düşdüm: S. Bəhlulzadə, M. Muxtarov, Həmidulla Əfəndi, Seyid Hüseyn və Ümmigülsüm Sadıqzadə, milli sevgi və təəssüb yolunda qurban getmiş başqa vətən oğluları haqqında çəkilmiş filmlərə baxarkən anladım. S. Bəhlulzadə haqqında filmin bir yerində xalq rəssamı Maral Rəhmanzadə sözarası bir epizod danışdı. Qardaşını evləndirirmişlər. Maral xanım böyük olmayan mənzilini yeni ailə quran qardaşına bağışlayıb, xeyli müddət öz emalatxanasında ağır şəraitdə, yaşamalı olur. Bax, filmin bu yerində baxışlarım təsadüfən oradan boylanan və Maral xanıma diqqət kəsilən Rəfael bəyin gözlərindəki heyrət-dəhşət-əsəbilik qarışıq bir parıltı-ifadəyə sataşdı. Yəni ki, belə böyük sənətkar emalatxanada gecələməli olurmuş!... Başa düşdüm. Bu hissin adına qeyrət, həssaslıq, milli təəssüb deyirlər. Hər adamda olmur bunlar...

## KİŞİLƏRİ QORUYUN!

1968-69-cu ilin sərt qışı idi. Qar özünü hələ payızdan göstərməyə başlamışdı. Ətrafda bərk şaxta, hər yan düm ağ idi. Elektrik qatarı ilə Buzovnaya, tələbəlik dostumgilə gəlirdim. Üşüyürdüm. Vaxtı öldürmək, bir də güya şaxtanın təsirini azaltmaq üçün bayaq aldığım qəzetləri vərəqləməyə başladım. «Azərbaycan gəncləri» qəzetinin 4-cü səhifəsində verilmiş bir şeir, daha doğrusu, şeirin adı diqqətimi çəkdi - «Kişiləri qoruyun»!. İmzaya baxdım - Şamo Arifin idi. Şeiri oxudum, sonra isə bir də, bir də oxudum. Məni elə tutdu ki, bu günə qədər də yadımdan çıxmır. Şair orada üzünü vətən övladlarına tutub deyirdi ki, qardaşlar, bacılar, qarşınızda diz çöküb yalvarıram: dövrümüzdə əsl kişi azdır, barmaqla sayılası qədərdir; onları qoruyun, onların sınmasına, əyilməsinə yol verməyin...

Az vaxtda Vətən, millət üçün bu qədər iş görmüş, demək olar ki, hər şeydən tamah dişini çəkmiş «Aydın»ı da kişili-qadınlı bu cür Kişilərdən biri saymaq olar. Bu yerdə üzümü iqtidara da, ictimaiyyətə də tutub deyirəm: gəlin belə bir qeyrətli şirkəti kimlərinsə nəfsinə, rüşvətxorluğa, bürokratizmə qurban verməyək! Yaşıl işıq yandıraq el qədri bilən belə oğulların xalqa xidməti yolunda!

## АРАЗ ГЫРАҒЫНДА ДАЈАНДЫ ГАТАР



Мајор Мәммәдага Аразоғлу

Тәбдән-тәбә дүшән һава јаваш-јаваш ачылырды. Араз гырағы илә үзү мәһәллуға догру гоша релсләр үстүндә шүтүјән вә ахшамдан јол кәлән гатар дағларын әтәјиндә, елә өз јолунун үстүндәчә дајанды. Узун бир фит верилди. Мәммәдага мүәллим көзүнә төзәчә јуху кетсә дә гатарын аһәнкдар тагтылтысы кәсилән кими јухудан ојанды. Вагон пәнчәрәсиндән көрүнән јухарыдакы боз сылдырым гајалар, үзү ашағы гатара вә гатардакылара төрәф нәмә'лум бир бахышла бојланырды: һәр гаја санки бир чанлыја дөнмүшдү. «Бу гоча кишиләрин мәһәл бахышлары нә дејирди?» Һәләлик Мәммәдага мүәллим там көсирә билмир, анлашылмаз дүшүнчәләр ичиндә фикирләри там дурулмурду. Бирдән сол төрәфә бојланды. Худафәрин көрпүләри. Көрән о вахт кәнч мүәллимин гәлбиндән һансы дүшүнчәләр кечмишди. Әкәр Сәмәд Вурғун о вахт «Көрпүнүн һәсрәти» ше'рини јазмыш олсајды, шүбһәсиз ки, һәмин ше'рин һәзин мисралары онун додагларында пычылтыја дөнәрди.


**Араз гырағында дајанды гатар,**
**Елә бил гәлбим дә дајанды бу дәм.**
**Сыхлашды көјдәки сејрәк булудлар,**
**Елә бил башыма доланды аләм.**

Мәммәдага мүәллим сарсылды. Әмәји илә инсанлыға көрпү салмыш вә тарихин әбәдијјәт јаддашында јашајан ме'марын хар олмуш әмәлләринә гәлбиндән сызылан көз јашлары елә өз ичинә ахды.

Көдәр ону богурду. Архада Бакыда аиләси галырды; гызы вә бир оғлу. Һәјат јолдашыны ағыр ајаг гојуб кәлмишди. Тез дөрд көзлә әтрафа бојланды. О тајда јол јухары санки гатарын көсирәчәји мәсафәни бир карван өз дабаны илә гырырды. Бу карван да Араз боју шүтүјүрдү. Дартынырды үзүјухары. Долама јолларын ипини санки ајагларына сарыјасарыја аз гала һеч вахт битмәјәчәји, сона чатмајачағы бәлли олан бу јолларын ағ үзү илә үзү шәргә төрәф кедирди.

Араз исә чағламағындады. Бу чағлајан Аразын һәзин сәдалары алтында Мәммәдага мүәллимин хәјалы тәзәдән доланды.

Гејри-ихтијари әлини чантасындакы дәфтәрчәјә узатды. Бир кағыз чырыб чантасынын үстүндә мәктуб јазмага башлады: «Мән бу мәктубу Худафәрин үстүндән јазырам. Беш-үч дәгигәлијә гатар дајаныб: Јәгин бир аздан фит верәчәк вә биз јола дүшәчәјик. Әкәр оғлум оларса...»



Араз Бабајев һәјат јолдашы Валентина вә оғлу илә.

Мәммәдага Кәрим оғлу Бабајев Бакынын Әмирчан гәсәбәсиндә анадан олуб. Азәрбајчан педагожи институтунун тарих факүлтәсини битирдикдән сонра (1935) Исмајыллыда мүәллим ишләјиб. Бакыда, әввәл 1 сајлы, сонра 84 сајлы орта мәктәбдә директор олуб. Мүһарибәнин гызғын дөврүндә Көрчдә һәјатыны гурбан вериб. Инди артыг тарихин архивләринә атылмыш олан идеаллар уғрунда.

Һәр һалда Мәммәдага Кәрим оғлу Бабајев ләјагәтли бир зијалы өмрү јашајыб. Исте'дадлы актјор кими Бакынын Әмирчан гәсәбәсиндәки мәдәнијјәт сарајында Азәрбајчан драматуркијасында классик образлар силсиләсиндән сәһнә портретләри јарадыб. «Оггај Елоғлу»нда Оггајы, «Од кәлини»ндә Елхан Биләкәнлини, «Крал Лир»дә Лири, «Вагиф» драмында Вагиф образларыны јүксәк темпераментлә ифа едиб. О вахтын мәтбуатында Мәммәдага мүәллимин сәһнә фәалијјәти, мүәллимлији, ичтиман фәалијјәти һаггында дәфәләрлә јазылыб.

Мәммәдага мүәллимин сәһнә фәалијјәти һаггында гијмәтли сәнәдләр сырасында тарихи шәкилләрә һәјәчансыз бахмаг олмур. Чох тәәссүф ки, көзәл бир нәслин атасы, зијалылар нәслинин ән јашлы нүмајәндәләриндән бири амансыз мүһарибәнин гурбаны олур. Инди Мәммәдага мүәллимин зијалы ишығыны, өвладлары, нәвәләри јашадыр. Онун үч өвлады галыб. Он сәккиз јашында Горхмаз адлы бојүк оғлу 1956-чы илдә автомобил гәзасында һәлак олуб. Гафур Мәммәдов адына һәрби дәнизчилик мәктәбини битирибмиш. Нечә көзәл арзуларыны - Азәрбајчан һәрби дәнизчилик системиндә јүксәлмәк ниҹјәтини өзү илә бир јердә әбәдијјәтә апарыб.

Нәслин танынмыш нүмајәндәләриндән бири дә Араз Бабајевдир. Бу ад ата јадикарыдыр. Вахтилә гатар Араз гырағында—Худафәрин үстүндә дајананда Мәммәдага мүәллим аиләсинә көндәрдији мәктубда јазыбмыш ки, әкәр оғлум оларса, (үчүнчү өвладыны нәзәрдә тутур) адыны Араз гојарсыныз. Бәли, Араз мүәллимин ады дүнјаја өзүндән әввәл кәлиб. Елә Араз гырағында. Мәммәдага мүәллимин бир гызы



Мәммәдага Бабајев.



М. Бабајев "Гачаглар"да Франс рәлунда

Јухабә ханым 1936-чы илдә доғулуб, беш ушаг анасыдыр. Өвладларынын һамысы аилә саһибидир. Доғуз нәвәси вар. Јухабә ханым кичик оғлунун адыны Горхмаз гојуб. О, 1971-чи илдә доғулуб. Тичарәтчидир.

Естафет нәсилләрдән-нәсилләрә өтүб. Араз Бабајев 1966-чы илдә доғулмуш оғлуна атасынын адыны гојуб: Мәммәдага 1984-чү илдә орта мәктәби Бакы шәһәриндә битириб. Рјазанда али һәрби мәктәби гуртардыгдан сонра Бакыја кәлиб. 1992-чи илдән мүстәгил Азәрбајчан ордусунун забити кими һәрби хидмәтә дахил олуб. Һазырда һәрби рүтбәси мајордур. Чәбһәнин мүхтәлиф бөлкәләриндә гәһрәманлыгла вурушуб. Хүсусилә Фүзули бөлкәсиндә мәрдликлә дөјүшүб. Аиләнин јеканә оғул өвлады олса да һәрби хидмәтдән гәтијјән тәрхис олунмаг фикри јохдур. Инди Нахчыван бөлкәсиндәдир. Аиләлидир, бир гызы вар. Ады Нәркиздир. Улу нәнәсинин адыны дашыјыр.



Араз Бабајевин анасы евдар гадын олуб. Фатма ана 1992-чи илдә рәһмәтә кедиб. 73 јашында. Өмрүнүн сон күнүнәчән - 1919-чу илдән бәри јашадығы тарихи өз өвладларына јанғы илә данышыб. Һәјатдан вахтсыз кетмиш Мәммәдага мүәллимин гәлбиндә дашыдығы үлви дујғулары өвладларына, нәвәләринә чатдырыб.



Сәһнәдә. 1935

...Мәктуб Араз чағлајан јердә јазылмышды. Никаранлыгла јазылмышды. Нәслин талејиндән, Вәтәнин талејиндән, өвладларын талејиндән никаранлыгла. Тәсадүфи дејилдир ки, биз бу аиләнин хронолокијасыны охучулар үчүн әһатәли чатдырмаға чалышдыг. Бүнөврәси һалаллыгла гурулан сарајын өзүлү мөһкәм олар.

Араз мүәллимин шаираңә тәбиәти вар. Бир дәфә сөһбәт заманы көврәк бир дујғу илә дилләнди: Мән вахтсыз ағартдығым сачларымын алтында бејнимдә нечә дөрдләр дашымышам. Буну һәлә индијәдәк бир кимсәјә данышмамышам. Бүтүн шүурлу һәјатымы атамын арзуларына ујғун јашамышам. Чалышмышам ки, бир вахтлар Араз гырағында мәним үчүн сечилән ада лајиг олум.



"Од кәлини" тамашасында Агшин

Материалы нәшр үчүн һазырлајан вахт ешитдик ки, полковник рүтбәси илә Араз Мәммәдага оғлу Бабајев исте'фаја чыхыб. Амма ләјагәтли өмүр јолунун давамчысы олан оғлу Азәрбајчанын талејинин кешијиндә - һәрбдәдир.

Һәр һалда о, бир вахтлар атасынын шаираңә дујғуларла вәсф еләдији вәтәни нөвәләринә севдирир, нәвәләриня таныдыр. Инди севинир ки, вахты вар: Нәвәләринин әлиндән јапышыб дијардијар көздирәчәк. Вәтәни көздирәчәк. Көјчәли, Тәбризли вәтәни, Әрдәбилли вәтәни. Бу инамын гаршысына һеч нә сәдд чәкә билмәз. Әзәлчә ишғал алтында галан, инләјән торпагларын, дүшмән чајнағындан гопачағы күнүн вүсалына говушачаг. Нәвәләри бу торпағын, бу дијарын дирчәлдилмәси, һәјата гајтарылмасы уғрунда мүбаризәдә бүтүн Азәрбајчанла бир олачаг...

## ҺӘРБ ИНСАНЫН ТАЛЕЈИ, СҮЛҺ АРЗУСУДУР; ОНА КӨРӘ ДӘ АҒЫЛ ВӘ КҮЧ БИРЛИЈИ СИЛАҺЫМЫЗ ОЛМАЛЫДЫР

Полковник күнүмүзүн олајларыны бу афоризм илә ифадә едир. Ифадәнин мә'на сигләти, мә'на јүкү әслиндә онун дахилиндән көлән фикирләрин өзәјидир, мајасыдыр. Һәр һалда башга чүр ифадә едә билмирәм. О, бу барәдә данышмаздан әввәл кечдији һәјат јолуна бир даһа нәзәр салдым:



Араз Бабајев.

Гарадағ рајонунда һәрби комиссар, полковник-лејтенант Араз Бабајеви тәкчә һәрби-комиссар кими јох, һәм дә ағсағтал кими таныјырлар. Ону тез-тез шәһид аиләләриндә, ағсағталлар шурасынын јығынчагларында, өвладлары һәрби хидмәтдә олан көнчләрин валидејнләринин јанында, иш јерләриндә көрмәк олар. Бүтүн бунларын һамысыны өзүнүн вәзифә борчу силсиләсинә аид едир. Ләјагәтли хејриҗәчи кими еһтијач ичиндә олаплара әл тутур.

А. Бабајев 1942-чи илдә доғулуб. Сәккиз ил әввәл дә Гарадағда һәрби комиссарын мүавини ишләјиб. Рајонун бүтүн јашајыш мәнтәгәләрини, мүхтәлиф јаш дөврләринә аид олан нәсилләри јахшы таныјыр. Вахтилә ишдә газандыгы һөрмәт вә нүфуз мүшкүл проблемләр дүјүнүнү ачмагда онун әсас јардымчысыдыр.

- Бәс полковник күнләримиз һагтында нә дүшүнүр?

- Конкрет фактлара чох јер вермәсәм мәни охучулар да, сиз дә јәгин ки, дүзкүн башa дүшәрсиниз. Тәгдир едилән атәшкәс давам еләсә дә мүһарибә гуртармајыб. Адамлара сүлһдән, әмин-аманлыгдан данышанда һәссаслыгла диггәтлә динләјир, натигдән разы галырлар. Амма унудурлар: әсл сүлһ мүбаризәдән, өзү дә инадлы мүбаризәдән сонра газанылыр. Елә көтүрәк кечмиш мүһарибәни. Милјонларла инсан итирилиб. Бири дә мәним атам, көрүнүр ки, кечмиш Совет империјасы халгларыны, еләчә дә дүнјанын чохлу дөвләтләри фашизмә гаршы мүһарибәдә иштиракларына көрә фәхр едирләр. Демәк истәјирәм ки, көлә олмаг истәмирсәнсә, ағыл



М. Аразоғлу сағдан 2-чи (ајагүстә)

вә күч бирлији сәнин силаһын олмалыдыр. Мән һәрбчијәм. Мүстәгиллијин дә нә олдугуну пешәкар сијасәтчиләрдән аз билмирәм. Она көрә дә мүстәгиллијә кедән јолдан дөнмәмәк үчүн бизим күчлү ордумуз олмалыдыр. Ачығы адамларын психолокијасы чох зиддијәтлидир. Һамы вәтәнин азадлығыны истәјир. Чохлары исә ону бирбаша өзү илә бағламыр. Белә чыхыр ки, биз азадлығы вә мүстәгиллији бир нәфәр ки-



М. Бабајев. 1939 **1907-1942**

ми сөздә нә гәдәр гәбул едириксә, әмәли ишдә, тәәссүф ки, ондан бир о гәдәр узағыг. Ордунун интеллект потенсиалы олмалыдыр. Сијасәтдән бәлкә дә сијасәтбазлыгдан кәнар зијалыларын ордуја чәлб олунмасы үмуми ишә, билирсиниз нә гәдәр фајда верәрди?..


Мән көрмәмишәм ки, кимсә «рүтбәли» бир зијалы көнүллү, вәтәнин бу дар күнүндә һәрби форма кејмәк истәдијини билдирсин. Ди кәл белаләри сәнә ағыл дәрси нә гәдәр десән верә биләр. Сон вахтларын сөһбәтидир: бир нәфәр валидејн фәрари кими мәс'улијјәтә чәлб олунан өвладына көмәк үчүн хаһишә кәлмишди вә бу тәбиидир. Дејирәм сизә көмәк сәрик. Олунуз тәсиринии е'тираф едәр, ишинә хитам верләр вә о өз һиссәсинә гајыдар. Чаваб нә олса јахшыдыр: «Әши, института дүзәлдәрәм».

Бәли, фәрари једди ил азадлыгдан мәһрум едилди. Бу да дүшүнчәсизлијин бәһрәси.

Ишимиз республика һәрби комиссарлыгы тәрәфиндән дәфәләрлә тәгдир олунуб. Инанын, мәс'улијјәти бојнумуза көтүрсәк (валидејнләрлә биркә) Азәрбајчан ордусунун лап көзәл көләчәјинә наил олмаг мүмкүндүр. Шәргин вә гәрбин говушуғунда јерләшән Азәрбајчан орду гуручулуғунда да һәр ики гүтбүн үстүнлүјүнү әхз едә биләр.

Бир ифадә вар, ешитмиш оларсыныз: «Јашамаг көзәлдир, гардашым!» Әлбәттә, гүдрәтли, азад, бир даһа көләчәкдә көләлији, дүшмән горхусу олмајан өлкәдә! Бу өлкәни исә биз гурмалыјыг. Азәрбајчан дөвләтчилијини әскәрә силаһла горумаг шәрәфли олдугу кими, сиз дә мә'нәви дөвләтчилијимизи, бизим мә'нәвијјатымызы горумалысыныз. Бизим гәһрәман оғулларымыз чохдур. Кәрәк онлар һагтында тез-тез јазылсын, аллары әбәдиләшдирилсин. Һәрби вәтәнпәрвәрлик тәрбијәси дүзкүн гурулмаса әскәр нәјин наминә вурушдугуну дәрк едә билмәз. Бунсуз дүнјанын ән күчлү сәркәрдәләри тарихин јаддашындан силинәрди. Сиз дә бир әскәрсиниз, сөз гылынчдан кәсәрлидир. Әлбәттә, әкәр јеринде дејилирсә. Олан имканлардан истифадә един. Һәрдән чәтин дөврдә јашадығымызы габарданлара демәк истәјирәм ки, тәәссүф еләмәјин. Бүнөврә гојаны тарих даһа өзиз тутур. Билмирәм, мән фикирләримі чатдыра билдим, ја јох.

Вәтәнин мүдафиәси талејимиз - демәк алын јазымыздыр. Ким алын јазысы илә барышмырса, инсанлыгын ән үлви арзусуна - сүлһә, әминамаплыга говуша билмәз.


Hüseyn
Seyid
Abbas
Mirqasım
Seyidhəsən
Ağamirzə
Məmmədağa
Mirmehdi
Ağamir
Seyid
Səkinəxanım
Məsumə
Mənsurə
Aytəkin
Günəş
Elçin
Gündüz
Araz
Əsmər
Aybəniz



***Mirmehdi Seyidzadə***

***Seyidzadə Mehdi Həsən oğlu*** (11.11.1907-31.08.1976, Bakı) Aşqabad şəhərində anadan olmuşdur. 3-4 yaşında Bakıya köçmüşdür. 1958-ci ildə Azərbaycanın Əməkdar İncəsənət xadimi adına almışdır. 1929-cu ildə ilk mənzum nağılı «Keçəl Səməd» kitabça şəklində çapdan çıxmışdır.

Lirik şeirlərində insanın quruculuq əzmini, vətənpərvərlik duyğularını, saf məhəbbətini tərənnüm etmişdir. Klassik poeziya ənənələrini yeni məzunla zənginləşdirən qəzəlləri geniş yayılmışdır. Uşaqlar üçün şeirlər, mənzum nağıllar, kiçik pyeslər, təmsillər («Nərgiz». «Qızıl quş», «Ayaz», «Büllur qəsrlər») və s. yazmışdır.

Rus şair və yazıçılarının nağıl və şeirlərini Azərbaycan və latın dilinə tərcümə etmişdir. «Şərəf nişanı» ordeni və medalarla təltif edilmişdir.

1921-1925-ci illərdə Pedaqoji Texnikumda təhsil almışdır. Ədəbi yaradıcılığa 1925-ci ildə «Şərq qadını» jurnalında çap etdirdiyi «Kənd qızı» adlı ilk şeirilə başlamışdır. 1926-1930-cu illərdə Qubadlı və Şəmkir rayon komsomol komitələrində bir il işlədikdən sonra Bakıda kitabxana müdiri olmuşdur. 1930-1932-ci illərdə isə Maarif işçiləri kitabxanasına rəhbərlik etmişdir.

Mehdi Seyidzadənin 1932-ci ildə ayrıca kitabça şəklində nəşr edilən və mükafata layiq görülən «Şanlı gün» poeması məktəblilər üçün sevimli əsər olmuşdur. Sonra Bakıda onun bir sıra başqa kitabları, o cümlədən «Balaca təyyarəçi», «Ceyran», «Neft haqqında», «Kim güclüdür», «And» kitabları çıxmışdır.

O, müasir mövzuda uşaq şeirləri və nəğmələri, «Zirək Səməd» mənzum nağılını yazmışdır. Onun «Nərgiz», «Ayaz», «Qızılquş», «Elsevər» və sair mənzum pyesləri tamaşaya qoyulmuş, bir neçə şeirlərinə isə mahnılar bəstələnmişdir.

Azərbaycan Pedaqoji İnstitutunun qiyabi şöbəsində təhsil almış yazıçı 1932-1939-cu illərdə Azərnəşrdə redaktor, şöbə müdiri təyin olunmuşdur (1944).

Yazıçının Ömər Xəyyam, A. S. Puşkin, Jukovski, Krılov və başqa şairlərdən tərcümələri indi də oxucular tərəfindən sevilə-sevilə oxunur.

Azərbaycan Yazıçılar İttifaqının üzvü, Azərbaycan Əməkdar incəsənət xadimi Mehdi Seyidzadə Azərbaycan Ali Soveti Rəyasət heyətinin Fəxri Fərmanı və bir sıra medallarla təltif olunmuşdur.

***Mir Mehdi Həsənoğlu Seyidzadə*** 1976-cı ildə avqust ayının 30-da vəfat etmişdir.

Seçilmiş əsərləri: 2 C-də.. - B.: Azərnəşr, 1966. C.I. - 363 s.; C.II. - 363 s.

Ağacların şikayəti: (Şeirlər, təmsillər, poemalar). - B.: Gənclik, 1987. - 86 s.

Xatırlayarsan məni. - B.: Gənclik, 1978. - 260 s.

Əliyev M. Xatırla məni: Mehdi Seyidzadənin 70 illiyi münasibətilə Ədəbiyyat və incəsənət. - 1977. - 12 noyab. - S. 6.

Qasımzadə Q. Uşaqların qocaman tərbiyəçisi: (Mehdi Seyidzadənin yaradıcılığı haqqında) Ədəbiyyat və incəsənət. - 1972. - 18 mart. - S. 10.

Yusifli V. Ağanı unutmaq olarmı?: (Mehdi Seyidzadə haqqında) Panorama. - 1998. - 22 yanv. - S. 6.

Məmmədov K. «Unudulmaz xatirələr kimlərdən danışır: Mehdi Seyidzadənin eyni adlı kitabı haqqında Azərbaycan müəllimi. - 1976. - 19 mart. - S. - 3.

**RƏSAM DOSTUMA**

*Səttar Bəhlulzadəyə həsr edirəm*

*Dönüb coşqun ilhamın dalğalanan Xəzərə,*
*Hər lövhəndə canlanır yurdumuzdan mənzərə.*
*Əsərində göy gölü, Şah dağını görürük,*
*Söyüdlərin titrəyən yarpağını görürük.*
*Qartal qanad açanda, qaranquşlar uçanda,*
*Tapır gözəl əksini sənin mahir fırçanda.*
*Sənətində canlanır yaşıl dilbər meşələr,*
*Gözəllərin gözünə bənzəyən bənövşələr.*
*Arzum budur ilhamla, sevinclə yüz il yaşa,*
*Hər lövhən bu ellərçün olsun gözəl tamaşa.*

**SƏN ÖMÜR BAĞINDA AÇAN ÇİÇƏKSƏN**

*Sən ömür bağımda açan çiçəksən,*
*Sənsiz həyatımın baharı olmaz.*
*Bütün gözəllərdən daha göyçəksən,*
*Hüsnün, təravətin heç zaman solmaz.*

*Bəzən incitsən də dəli könlümü,*
*Sənindir yenə də bütün varlığım.*
*Eşqinlə başlanıb bəxtiyarlığım,*
*Üzmərəm heç zaman səndən əlimi.*

*Əmin ol, çəkərdim sənin rəsmini*
*Min rəssam olsaydım, ey gül dodaqlım!*
*Özüm yaratdığım incə lövhədən*
*Heyrətlə içində donardı ağlım.*

*Sən ömür bağımda açan çiçəksən,*
*Sənsiz həyatımın baharı olmaz.*
*Bütün gözəllərdən daha göyçəksən,*
*Hüsnün, təravətin heç zaman solmaz.*

*1930*


**BƏNZƏTMƏ**

*Sən yaqut dodaqlı incə bir qızsan,*
*Saçların bənövşə, yanağın güldür!*
*Sevda aləmində parlaq ulduzsan,*
*Eşqinlə coşmayan hansı könüldür?*

*Məcnunun Leylası gözəl olsa da*
*İncəlikdə sənə yetişməz, inan.*
*İnsanın ömrünü verirsən bada*
*Xumar gözlərini süzdüyün zaman.*

*O gözlər nazlı bir göyərçin kimi,*
*Tərlan könülləri havalandırır.*
*Kəsilir duyğunun, hissin hakimi,*
*İnsanın qəlbini dalğalandırır.*

*1931*


Səftər Abdulla
Zoya
Fəxriyyə
Rəhmə
Rəhimə
İzzət
Əjdulla
Kəmalə
Mətanət
Fariz
Yeganə
Zənirə
Fatimə
Hacı-bala
Böyük xanım
Rüfət



***Əliyeva Böyükxanım Abdulla qızı*** (1923). Azərbaycanın əməkdar həkimi (1960) Sosialist Əməyi Qəhrəmanı (1978). 1945-ci ildən Astara rayonu Ərçivan kənd xəstəxanasının baş həkimi işləyib. Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif olunub. SSRİ Ali Sovetinin deputatı olub.





„КӨЗӘЛ
ПЕШӘДИР
ҺӘКИМЛИК!“

Qadı
Əlcan
Məmmədqulu
Vəli
Əlcan
Məmməd-
qulu
Rzaqulu
Nəcəfqulu
Tutuxanım
Nərgiz
Sona
Xədicə
Maleyka
Adəm
Zöhrab
Mirzağa
Salman
Şirinbacı
Xeyrənsə
Mənzər
Əşrəf
Fəridə
Seyfəli
Nəzifə
Həzifə
Rəfiqə
Alla
Sanil
Hüseynqulu
Hacı
Şamil
Böyükxanım
Şövkət
Hüseynqulu
Anar
Firəngiz
Roza,Zina
Şükufə



***Qadiyev Məmmədqulu Əlican oğlu***. Azərbaycan Respublikası Hərbi Tribunalının sədri olub.

AZƏRBAYCAN
RESPUBLİKASININ
BAŞ PROKURORLUĞU

*AZ1001, Bakı şəhəri, N.Rəfibəyli küç., 7*
*Tel.: (99412) 492-97-03*
*Faks: (99412) 492-00-19*

06/8144 № 03.01 2005-ci il.

_____ tarixli _____ №-yə cavab

ARAYIŞ

(təmizə çıxarma haqqında)

1886-cı ildə Bakı şəhəri, Orjenikidzə rayonu, Əmircanlı kəndində anadan olmuş Hadıyev Məmmədqulu Əlican oğlu SSRİ XDİK yanında Xüsusi müşavirənin 03 sentyabr 1941-ci il tarixli qərarı ilə CM-nin 72 və 73-cü maddələri ilə antisovet qrupun üzvü olduğuna görə 8 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

Azərbaycan SSR Ali Məhkəməsi cinayət işləri üzrə məhkəmə kollegiyasının 20 iyun 1957-ci il tarixli qərardadı ilə Xüsusi müşavirənin yuxarıda göstərilən qərarı ləğv edilmiş və Hadıyev Məmmədqulu Əlican oğlunun hərəkətlərində cinayət tərkibi olmadığına görə işin icraatına xitam verilmişdir.


Həbs edilərkən onun himayəsində arvadı Balaxanım Hacınağı qızı, qızları Hacıxanım, Şövkət, oğlanları Əlican, Şamil və Sanit olmuşdur.

«Siyasi repressiya qurbanlarına münasibət verilməsi haqqında» Azərbaycan Respublikasının 15 mart 1996-cü il tarixli Qanununun 2 və 5-ci maddələrinə əsasən,

- Hadıyev Məmmədqulu Əlican oğlu,
- Hadıyeva Balaxanım Hacınağı qızı,
- Cəfərova Hacıxanım Məmmədqulu qızı,
- Babayeva Şövkət Məmmədqulu qızı,
- Hadıyev Əlican Məmmədqulu oğlu,
- Hadıyev Şamil Məmmədqulu oğlu
- Hadıyev Sanil Məmmədqulu oğlu siyasi repressiya qurbanı hesab olunmaqla təmizə çıxarılmış sayılırlar.

*Əsas:PR-27135 saylı arxiv-cinayət işi*

Dövlət ittihamının müdafiəsi üzrə
idarənin prokuroru
ədliyyə müşaviri Mahmud Ağalarov


Musaxan
Dünyamalı
Ağgəli
Nəzər
Piri
Xayməm-məd
Nurməm-məd
Şərqiyyə
Dünya-malı
Bala
Suqra
Nuru
Piri
Xədicə
Rəhiyə
Səna
Davud
Yaqub
Yusif
İslam
Nuru
Mayıl
Mahir
Ramiz
Fikrət
Lətifə
Validə
Mehriban
Sevda
Natiqə
Xatirə
Vüqar
Elşən
Mais
Sevinc
Elman
Mehman
Mətanət
Rəşad
Ceyhun
Anar
Bala
Məlik
Şəfiqə
Hacı
Səbirə
İsrafil
Məhin
İlham
Cəmilə
Səriyyə
Məlik
Müjgan
İslam



Вечерка 7/XI – 1935

ЗНАТНЫЕ ОДНОСЕЛЬЧАНЕ

## 1. Контрасты

## 2. Родина первых нефтяников

## 3. Четыре поколения буровых мастеров

## 4. Большие перемены

## 5. Знатные амираджанцы

***Piri Dünyamalı oğlu Nuriyev*** (1872-1938). Əmircanda neft quyularının qazılmasının çoxu onun adı ilə bağlıdır. Ömrünün çoxunu qazma ustası kimi işləmişdir. Vışka qəzetində 1935-ci ildə böyük bir məqalə yazılıb. Məqalədə onun ən görkəmli buruq ustası kimi xidmətləri qeyd olunub. Lenin ordeni və medallarla təltif olunub.

Piri kişi 1930-35-ci illərdə sürətli qazma metodunun təşəbbüsçüsüdür. Bütün beşillik plan tapşırıqlarını vaxtından əvvəl 2 il yarımda yerinə yetirmişdir.



***Nuriyeva Sona Piri qızı*** (1915-1984). İlk azərbaycanlı təyyarəçi qadın, Bakı təyyarəçilər klubunun yetişdirməsi olan Sona 1936-cı ildə Bataysk təyyarəçilik məktəbini bitirmiş, Azərbaycan mülki aviasiya idarəsində təyyarəçi işləmişdir. Böyük vətən müharibəsində xüsusi tapşırıqla Tehrana uçmuşdur. 1975-ci ilin əvvəllərində Beynəlxalq hava xəttində müxtəlif ölkələrə uçmuşdur.

SSRİ Ali Sovetinin deputatı olub. Lenin ordeni, Şərəf nişanı ordeni ilə təltif olunub. Haqqında çoxlu şeir, oçerk, hekayə, roman yazılıb.

SSRİ-də ilk qadın təyyarəçi idi ki, beynəlxalq hava uçuşlarında iştirak edib.



***Nuriyev Davud Piri oğlu*** (1929). Azərbaycan Sənaye Akademiyasını bitirib. Neft-mədən fakültəsində Qabfaklarda dərs deyib. «Orconikidzeneft» tresti III mədənində neft ustası, sonra müdir işləyib. 1943-1945-ci illərdə müharibə üçün onun briqadası yüksək oktanlı neft hasil etmişdir. 1947-ci ildə Lenin ordeninə layiq görülmüşdür. Müxtəlif orden və medallarla təltif olunmuşdur.

***Nuriyev Oleq Davud*** (1955). Ə. Əzimzadə adına rəssamlıq məktəbini bitirib. Moskvada rəssamlıq akademiyasını bitirib, orada da yaşayır.



***1936-cı il 21 yanvar. Azərbaycan nümayəndə heyəti Kremldə 4-cü cərgə 2-ci Cabir Əliyev, 1-ci cərgə soldan 5-ci Sona Nuriyeva.***

***Nuriyev Nurməmməd Dünyamalı oğlu*** (1920-1984). Suraxanı neft-mədən müdiri olub. Qazma ustası idi. 1937-ci ildə repressiyaya məruz qalıb. 1955-ci ildə SSRİ Ali Sovetinin qərarı ilə reabilitasiya olunub.



***Nuriyeva Rəfiyə Piri qızı*** (1922). BDU hüquq fakültəsinin Azərbaycan Elmi-tədqiqat Məhkəmə ekspertizası institutunun odlu və kimyəvi silahlar üzrə ekspertdir. Uzun illər həmin institutda aparıcı ekspert, elmi işçi, baş elmi işçi vəzifələrində çalışıb.

***Nuriyev Tofiq Davud oğlu*** (1968-2008). Moskvada Ali Aviasiya Akademiyasını bitirib. Moskva Şiremetyev aeroportunda işləyib.

***Nuriyev Yusif Piri oğlu*** (1912). AZİ-də neft-mədən fakültəsini bitirib. Suraxanıneft III mədənin qazma ustası olub.


***Nuriyev Yaqub Piri oğlu*** (1913-1945). Bakı Sənaye akademiyasının neft-mədən fakültəsini qazma ustası olub. Müharibədə həlak olub.



***Nəzərov İslam Nəzər oğlu*** (1892-1942). Atası tacir olduğu üçün ləqəb kimi «kupeu», «küpəs» tanınır. Suraxanı Əmircan mədənlərində neft ustası olub.

***Nəzərov İsrafil İslam oğlu*** (1919-1983). ATİ-də terapiya fakültəsini bitirib. Qubada sanatoriyanın baş həkimi, Bilgəhdə vərəm xəstəlikləri sanatoriyanın baş həkimi, Azərbaycan Səhiyyə Nazirliyinin I dərəcəli həkimi adına layiq görülüb. Müharibə ordenləri var. Müharibə və əmək veteranıdır.

***Nəzərova Səbirə İslam*** (1929). Xarici Dillər İnstitutunun ingilis dili fakültəsini bitirib. 154, 114 №li məktəblərdə ingilis dili müəllimi işləyib. Təhsil nazirliyinin baş müəllimi adını alıb.



***Nəzərova Şəfiqə İslam*** (1938). ADU-nun biologiya fakültəsini bitirib. Biologiya elmləri namizədi, dosentidir. Az EA Kinetika və Seleksiya İnstitutunun baş elmi işçisidir. Hazırda laboratoriya rəhbəridir.

***Nəzərov Nəzər (Hacı) İslam*** (1941). Bakı Ticarət Texnikumunu bitirib. Əmircanda «Atəşgah» restoranının 1969-1999-cu illərdə ilk direktoru olub.



***Nəzərov İslam İsrafil oğlu*** (1958). ADU-nun rus dili və ədəbiyyatı fakültəsini bitirib. Bakı Qərb Universitetinin politoloq-müəllimidir.

***Nəzərova Müjgan İsrafil qızı*** (1960). Xarici Dillər İnstitutunun ingilis dili fakültəsini bitrib. ABŞ-da ingilis dilinin qrammatikası üzrə doktorluq dissertasiyasını müdafiə edib.

Hüseynəli
Bilal
Əziz
Əziz
Bikə
Ağamirzə
Gülsüm
Ziba
Durmuş
Əmən
Bilal
Baba
Xudaverdi
Nərgiz
Abdulla
Ağəmi
Xırdaxanım
Mələk
Əyyub
Cahangir
Teyyub
Səmiyyə
Gülbala
Rəhilə
Əlibalə
Cəlilnn
Səadət
Qəzənfər
Anar
Xatirə
Sahirə
Gülnarə
Bəyükağa
Cüləgə
Elnadə
Qulu
ədilə
İsrafil
Valida
Gülcöhrə
Mikayıl
Sariyyə
Məhəmməd
Züleyxa
Kamran
Samirə
Kəmalə
Elxan
Azər

**Научно-призводственная характеристика**
**на старшего научного сотрудника Шемахинской астрофизической обсерватории АН Азерб.ССР Гусейнзаде Алибалу Азиз оглы**



Тов. Гусейнзаде А.А. в 1957 г. окончил АГУ им. С.М.Кирова, с 1959 года работает в Шамахинской астрофизической обсерватории. В течение 1961-1964 г.г. он был аспирантом в Крымской астрофизической обсерватории АН СССР. В 1969 году ему присуждена ученая степень кандидата физ.-мат. наук. Тов. Гусейнзаде А.А. в 1968-1969 г.г. работал ученым секретарем ШАО АН Азерб.ССР.

Тов. Гусейнзаде А.А. яаляется специалистом в области физики звезд. Он выполнил исследования
по горячим звездам методами фотоэлектрической спектрофотометрии.

Совместно с Г.Д.Мамедбейли и Р.А.Зейналовым исследовал творчество Н.Коперника и является одним из автором книги "Н.Коперник",которая вышла из печати в 1973 г.

С апреля 1973 г. он очень активно и плодотворно продолжает научно-исследовательские работы по физике и эволюции звезд. Очень тщательно занимается изучением истории астрономии и выявил астрономические занятия древных азербайджанцев в Гобустане 5000 лет тому назад и изучил средневековую астрономию.

В связи с постановлением Компартии Азерб. ССР от 21 января 1973 г. об изучении наследия Низами Гянджеви тов. Гусейнзаде А.А. по своей инициативе изучил его произведения с астрономической точки зрения. Он исследовал астрономическое наследие Низами Гянжеви по всем произведениям и написал отдельную книгу обьемом около 200 страниц.

Тов. Гусейнзаде А.А. является автором 15 научных работ. Он все время старается поднять научный уровень каждого моложого сотрудника, активно участвует в обсуждении научной работы каждого научного сотрудника коллектива обсерватории. Тов.Гусейнзаде А.А. активно участвует в общественной жизни об серватории, является членом редколлегии стенгазеты. Он морально устойчив и скромен в быту.

Директор Шемахинской астрофизической
обсерватории Ан Аз.ССР — Султанов Г.Ф.
Секретарь Парторганизации — Гусейнов А.М.
Председатель МК — Алиев С.Г.

**Каинатын гурулушу**

***Күнəш системинин гурулушу***

Каинат гурулушунун дүрүст мүəjjəнləшдирилмəси Күнəш системи гурулушунун дүзкүн тə'jин едилмəси илə əлагədардыр. Күнəш системинин дүзкүн гурулушуну илк дəфə 1543-чү илдə Коперник тəклиф етмишдир. Коперник системинин маһиjjəти Күнəши бүтүн көj чисимləри үчүн мəркəзи чисим гəбул етмəкдəн ибарəтдир. Бу фəрзиjjə планетləрин һəрəкətиндə Птолемеj системинə хас олан зиддиjjətləри арадан галдырды. Коперник дөврүндə jалныз алты планет мə'лум иди: Меркури, Венера, Jер (вə онун пejки Ај), Марс, Jупитер вə Сатурн. Күнəш системинин бу планетləрə уjгун олан өлчүсү 2852200000 *км*-дир. Əкəр Jерлə Күнəш арасындакы мəсафəни 149600000 *км*, jə'ни 1 астрономик ваһид (а. в.) гəбул етсəк, көстəрилən өлчү 9,54 а. в.-дир.

Һазырда Күнəш системində 9 планет мə'лумдур. Күнəшдəн Сатурна нисбəтən даһа узаг мəсафədə олан нөвбəти планет Урандыр. Бу планет 1781-чи илдə ашкар едилмишдир. Уран планетинин мүнтəзəм мүшаһидə едилмəси онун һəрəкətинин һесабланмыш гиjмətləрə уjгун олмадыгыны көстərди. Бу һадисə Күнəш системинин мə'лум планетləринин тə'сири илə изаһ едилə билмəдиjи үчүн мə'лум олмаjан бир планетин варлыгы фəрз едилди. Бир тəрəфдəн Уранын һəрəкətиндəки уjгунсузлуглара, дикəр тəрəфдəн исə Титсиус-Боде гаjдасына (планетləрин Күнəшдəн мəсафələрини əкс етдирəн гаjда) эсасланараг, 1846-чы илдə Леверje фəрз олунан планетин орбитини вə тəхминн jерини тə'jин етди. 1849-чу илдə Галле ону ашкар етди. Jени планет Нептун адландырылды. Онун Күнəшдəн орта мəсафəси 33,07 а. в., күтləси $103 \cdot 10^{27}$ *г*-дыр. Нептунун кəшф олунмасы Коперник системинин дүзкүнлүjүнү (300 ил фəрзиjjə кими галдыгдан сонра) тəсдиг етди. Нептунун кəшфи вə өjрəнилмəси 1930-чу илдə даһа бир планетин Плутонун ашкар едилмəси илə нəтичələнди. Плутонун Күнəшдəн мəсафəси 39,5 а. в.-дир. Мə'лум планетləрə анд эсас мə'луматлар 2 вə 3-чү чədвəллəрдə верилир.

*2-чи чədвəл*

| Планет | Екваторун радиусу (*км*)-лə | Күтлə ($10^{21}$ *г*-лə) | Екваторда чазибə тə'чили (*см/сан²*-лə) | Параболик сүр'ət (*км/сан*-лə) | Фырланма дөврү | Екваторун орбита маиллиjи | Көрүнəн улдуз өлчүсү |
|---|---|---|---|---|---|---|---|
| Меркури | 2437 | 0,330 | 372 | 4,3 | 88 күн | 7°00 | —0,2 |
| Венера | 6056 | 4,87 | 887 | 10,4 | 225 күн | 3°24 | —4,1 |
| Jер | 6378 | 5,98 | 982 | 11,2 | 1 күн | 23°27 | |
| Марс | 3386 | 0,64 | 376 | 5,0 | 1күн 37дəг. | 24°56 | —1,9 |
| Jупитер | 71400 | 1900 | 2500 | 61 | 9саат 50дəг. | 3°07 | —2,4 |
| Сатурн | 60400 | 568 | 1100 | 36 | 10саат 14дəг | 26°45 | +0,8 |
| Уран | 24800 | 87 | 950 | 22 | 10саат 49дəг | 82° | +5,8 |
| Нептун | 24500 | 103 | 1150 | 24 | 15саат 40дəг | 29° | +7,6 |
| Плутон | 2900 | 5,5 | — | — | 16саат | — | +14,8 |

*3-чү чədвəл*

| Планет | Орбитин бөjүк jарымоху (*млн. км*-лə) | Доланма дөврү (күнəрлə) | Екссентриситет | Орбитин екliптикаjа маиллиjи |
|---|---|---|---|---|
| Меркури | 57,91 | 87,969 | 0,206625 | 7°0 |
| Венера | 108,21 | 224,700 | 0,006793 | 3°24′ |
| Jер | 149,60 | 365,257 | 0,016729 | — |
| Марс | 227,94 | 686,980 | 0,093357 | 1°51′ |
| Jупитер | 778,34 | 4332,587 | 0,048417 | 1°19′ |
| Сатурн | 1427,2 | 10759,21 | 0,055720 | 2°30′ |
| Уран | 2869,3 | 30685 | 0,0471 | 0°46′ |
| Нептун | 4498,5 | 60188 | 0,0087 | 1°47′ |
| Плутон | 5900 | 90730 | 0,247 | 17°9′ |

Титсиус-Боде гаjдасы Марс илə Jупитер арасында планет олмасыны көстəрир. 1801-чи илдə Пиатси Серера планетини ашкар едир. 1802-чи илдə Олберс Паллада планетини кəшф едир. 1845-чи илдə Астреjа, 1949-чу илдə Икар кəшф едилир. Үмумиjjətlə, Марс илə Jупитер арасында 2000-ə гəдəр планет мə'лумдур. Буклара кичик планетлəр вə jа астеройдлəр дejилир. Бүтүн астеройдлəрин үмуми күтləси Jер күтləсинин 0,001-и гəдəрдир.

Күнəш системи гурулушунун дүрүстлəшмəси дикəр тəрəфдəн планетлəрин пejкləринин ашкар едилмəси истигамətиндə ишкишаф етмишдир. 1877-чи илдə Марсын ики пejки Фобос вə Дejмос кəшф едилмишдир. 1610-чу илдə Галилеj Jупитерин дөрд пejкини кəшф етмишдир. Һазырда Jупитерин 12 пejки мə'лумдур.

Сатурнун ən парлаг пejки Титаны 1655-чи илдə Һүjкенс ашкар етмишдир. Һазырда Сатурнун 9, Уранын 5, Нептунун исə 2 пejки мə'лумдур. Коперник дөврүндən бу вахтадəк тəкмə Күнəш системинин гурулушу һаггында тəсəввүрүмүз бу гəдəр кенишləнмишдир. Планетлəрин пejкləринə анд мə'луматлар 4-чү чədвəлдə верилир.

4-чү чәдвәл.

| Планет | Пејкин ады | Планет мәркәзиндән орта мәсафә $10^3$ *км*-лә | Фырланма дөврү (күнләрлә) | Орбитин експентриситети | Пејкин радиусу | Планетин күтләси | Пејкин күтләси $10^{24}$ *г*-лә | Орта көрүнән улдуз өлчүсү |
|---|---|---|---|---|---|---|---|---|
| Јер | Ај | 384,4 | 27,321661 | 0,0549 | 1738 | 81,5 | 73,4 | −12,7 |
| Марс | 1. Фобос | 9,4 | 0,318910 | 0,019 | 14 | | | +11,5 |
| | 2. Дејмос | 43,5 | 1,262441 | 0,003 | 8 | | | +12,5 |
| Јупитер | 1. Ио | 421,8 | 1,769138 | | 1660 | 24000 | 79 | + 5,5 |
| | 2. Авропа | 671,4 | 3,551181 | | 1440 | 37800 | 48,8 | 5,7 |
| | 3. Ганимед | 1071 | 7,154553 | | 2470 | 124000 | 153 | 5,1 |
| | 4. Калисто | 1884 | 16,689018 | | 2340 | 21000 | 90 | 6,3 |
| | 5. Амалтеја | 181 | 0,498179 | 0,003 | 80 | | | 13,0 |
| | 6. | 11510 | 250,62 | 0,155 | 60 | | | 13,7 |
| | 7. | 11750 | 259,8 | 0,207 | 20 | | | 16,2 |
| | 8. | 23500 | 738,9 | 0,38 | 20 | | | 16,2 |
| | 9. | 23700 | 755 | 0,25 | 11 | | | 17,7 |
| | 10 | 11750 | 260 | 0,140 | 10 | | | 17,9 |
| | 11 | 22500 | 696 | 0,207 | 12 | | | 17,5 |
| | 12 | 21000 | 625 | 0,13 | 10 | | | 18,1 |
| Сатурн | 1. Мимас | 185,7 | 0,942422 | 0,0196 | 260 | 15300000 | 0,038 | +12,1 |
| | 2. Енселад | 238,2 | 1,370218 | 0,0045 | 300 | 8300000 | 0,07 | 11,7 |
| | 3. Тефија | 294,8 | 1,887802 | 0,0000 | 600 | 870000 | 0,65 | 10,6 |
| | 4. Диона | 377,7 | 2,736916 | 0,0021 | 650 | 555000 | 1,03 | 10,7 |
| | 5. Реја | 527,5 | 4,517503 | 0,0009 | 900 | 2500000 | 2,3 | 10,0 |
| | 6. Титан | 1223 | 15,945452 | 0,0289 | 2500 | 41500 | 137 | 8,3 |
| | 7. Гипорион | 1484 | 21,276665 | 0,110 | 200 | 50000000 | 0,11 | 14 |
| | 8. Јапет | 3563 | 79,33082 | 0,029 | 600 | 100000 | 5 | 11 |
| | 9. Феба | 12950 | 550,45 | 0,166 | 150 | | | 14,5 |
| Уран | Миранда | 130,1 | 1,42 | | | | | |
| | Аријол | 191,8 | 2,5 | | 300 | | | |
| | Умбриел | 267,3 | 4,12 | | 200 | | | |
| | Титанија | 438,7 | 8,7 | | 500 | | | |
| | Оберон | 586,6 | 13,5 | | 400 | | | |
| Нептун | Тритон | 353,6 | 5,9 | | 2000 | | | |
| | Нереида | 6000 | 500 | | 150 | | | |

### Коперник системинин инсан тәрәфиндән сүн'и кенишләндирилмәси

Мүасир дөврдә Коперник системи дүрүстлүјүнү вә дүзкүнлүјүнү о дәрәчәдә көстәрмишдир ки, 1957-чи илдән Јер күрәси әтрафына сүн'и пејкләр чыхармаг мүмкүн олмушдур. Сүн'и пејкләрин һәрәкәти Күнәш системи гурулушуну вә гануларынын нә дәрәчәдә дәгиг өјрәнилмәсини көстәрир. Бунун нәтичәсидир ки, Ајын вә Марсын әтрафына сүн'и пејкләр бурахмаг вә онлары идарә етмәк мүмкүн олур. Јерин сүн'и пејкләри васитәсилә алынан мә'луматларын нәтичәсиндә Јерин атмосфери һаггында тәсәввүрүмүз даһа да кенишләнмишдир. Јер атмосферинин радиасија золағынын олмасы ашкар едилмишдир. Ај әтрафына чыхарылмыш вә онун сәтһинә ендирилмиш гургулар вә инсанын иштиракы Ај мәдәси һаггында билаваситә мүһакимә јүрүтмәјә имкан вермишдир. Ај сәтһинин вулкан фәаллыгы ашкар едилмишдир. Марса бурахылан пејкләр онун атмосферинин тәркибини дүрүстләшдирмәјә имкан вермишдир. Инсанын көј чисимләринин сүн'и пејкләрини јарада билмәси даһа узаг мәсафәләри фәтһ етмәјин башланғыч мәрһәләсидир.

### Каинатын мүшаһидә едилмә имканлары

Каинатын гурулушунун дүзкүн мүәјјән едилмәси үчүн, ону кифајәт гәдәр әһатә едә билмәк лазымдыр. Бу исә мүшаһидә имканларындан асылыдыр. Узун мүддәт јеканә мүшаһидә васитәси инсан көзү олмушдур. Көзүн орта диаметри 6 *мм*-дир. Көзлә көрүнән улдузларын сајы 6000-ә гәдәрдир. Бу улдузлар галактикаја дахилдир. Онлара гәдәр мәсафә 1 000 парсек тәртибиндәдир. Бир парсек 3,26 ишыг илинә бәрабәрдир. Гејд олунан улдузларын өјрәнилмәси илә галактиканын гурулушу һаггында мүһазирә сөјләмәк чәтиндир.

Даһа зәиф улдузлары көрә билмәк үчүн ишыггәбуледичисинин өлчүсү бөјүк олмалыдыр.

Каинатын мүшаһидә едилмәсиндәки мәһдудлуг телескопларын ихтира едилмәси илә мүәјјән мә'нада арадан галдырылмышдыр. XVI әсрдән XIX әсрин орталарына гәдәр телескоплар анчаг, бөјүк сәтһли ишыг топлајычылары кими истифадә едилмишдир. Бунун сәбәби топланмыш ишығын јенә дә инсан көзү васитәси илә гәбул едилмәси олмушдур.

XIX әсрин орталарында фотографија тәдгигат үсулу кими көј чисимләринин өјрәнилмәсинә тәтбиг едилмишдир. Бу үсулла мүасир бахышын әсасында дуран нәтичә алынмышдыр; каинатын мүшаһидә олунан бүтүн һиссәләриндә кимјәви тәркиб ејнидир. Беләликлә дә, каинатын һәндәси гурулушу илә јанашы, физики гурулушунун да өјрәнилмәси әсас истигамәт олмушдур.

Каинатын өјрәнилмәси бир тәрәфдән телескопларын өлчүләринин артырылмасы, дикәр тәрәфдән исә топланмыш ишығы гәбул етмәк васитәләринин артырылмасы кими ики әсас истигамәтин инкишафы илә әлагәдар олмушдур. Биринчи истигамәт үзрә диаметри 6 *м*-ә гәдәр олан телескоплар вә диаметри јүз метрләрлә олан радиотелескоплар гура билмәк кими бөјүк бир мәрһәлә кечилмишдир.

Икинчи истигамәтин инкишафы нәтичәсиндә һал-һазырда тәтбиг олунан әсас үсуллар ашағыдакылардыр: фотографик фотометрија, спектрофотометрија, фотоелектрик фотометрија, фотоелектрик спектрофотометрија, полариметрија, електрон—оптик чевиричиләр, телевизија, електрон камерасы, фотомүгавимәтләр. Бунлардан әлавә, миллиметрлик, сантиметрлик вә метрлик далгаларда тәтбиг олунан радио астрономијаја мәнсуб олан үсуллардыр. Тамамилә јени сahә олан Јер атмосфериндән кәнардакы мүшаһидәләрдә тәтбиг олунан үсуллар да мүасир астрофизиканын әсас мә'лумат мәнбәләриндәндир. Гејд олунан үсуллар, јә'ни мүасир дөврдә каинатын өјрәнилмәси үчүн тәтбиг олунан үсуллар мүхтәлиф көмәкчи һадисәләрдән истифадә етмәклә, ики мүһүм һадисәјә әсасланыр; фотографија тәбәгәсинин ишығын тә'сирилә гаралмасына вә фотоеффект һадисәсинә, јә'ни ишыг селинин електрик чәрәјанына чевирә билмәк имканына. Көстәрилән тәдгигат үсулларынын тәтбиг едилмәси нәтичәсиндә каинатын мүшаһидә олунан һиссәсинин өлчүсү 1040000000 парсекә чатмышдыр.

Мүасир дөврдә каинат һаггында тәсәввүр, гејд олунан гәдәр мәсафәдә апарыла билән мүшаһидәләрин нәтичәләринә әсасланыр. Каинаты 1000 *п* мәсафәдә өјрәнмәклә, 1040000000 *пс* мәсафәдә өјрәнмәк нә гәдәр фәрглидирсә, онун һаггындакы тәсәввүрү дә бир о гәдәр дүрүстдүр.

### Каинатын тәркиб һиссәләри

Каинатын тәркиб һиссәләри мүшаһидә олунан көј чисимләриндән, онларын тәшкил етдији системләрдән вә маддәнин варлыг формаларындан ибарәтдир. Гејд едәк ки, көзлә көрүнән бүтүн улдузлар бир улдуз системинә—галактикаја дахилдир. Галактика—улдузлардан, улдуз топаларындан, газ думанлыгларындан, космик тоздан, јүксәк енержили һиссәчикләрдән вә улдузларарасы мүһитдән ибарәтдир. Галактиканын мүстәви һиссәсинин диаметри (јә'ни Кәһкәшанын) 25000, мүстәвијә перпендикулјар һиссәсинин диаметри 50000 гәдәр, мәркәзи нүвәсинин диаметри 1300 *пс* вә мәркәзи һиссәсинин галынлыгы 5000 *пс*-дир. Галактиканын мәркәзиндән Күнәшә гәдәр мәсафә 10000, галактиканын мүстәвисиндән (Кәһкәшандан) Күнәшә гәдәр мәсафә исә 1400 *пс*-дир. Га-

лактиканын күтләси $1 \cdot 3 \cdot 10^{11}$ $M_\odot$-дир. $M_\odot$—Күнәшин күтләсидир вә $2 \cdot 10^{33}$ *г*-дыр.

Галактиканын ики пејки вардыр; Бөјүк вә Кичик Макеллан булудлары. Бөјүк Макеллан булудунун диаметри 700, Кичик Макеллан булудунун диаметри исә 400 *пс*-дир. Онларын күтләси ујғун олараг, $1,2 \cdot 10^9$ $M_\odot$ вә $1,2 \cdot 10^8$ $M_\odot$, мәсафәләри исә 42000 вә 47000 *пс*-дир. Белә ликлә, бизим галактика үчгат чисимдир.

Каинатын мүшаһидә олунан һиссәсиндәки галактикаларын үмуми сајы тәртибчә $10^{10}$-дур. Галактикаларын ики бөјүк гисмә, нәһәнк вә чыртданлара бөлмәк олар. Нәһәнк галактикаларын орта диаметри 50000, чыртдан галактикаларынкы исә 500 *пс*-дир.

### Галактика топасы

Галактикалар да улдузлар кими топалар тәшкил едир. Галактикалар топасындан бири Јерли системдир. Јерли системи тәшкил едән галактикаларын мә'лум сајы 17-дир. Бураја һәм нәһәнк, һәм дә чыртдан галактикалар дахилдир. Јерли системдә ән бөјүк галактиканын диаметри 27000 *пс*, күтләси $1,3 \cdot 10^{11}$ $M_\odot$, ән кичик галактиканын диаметри 800 *пс*, күтләси исә $1,2 \cdot 10^7$ $M_\odot$-дир. Јерли системин диаметри 600000 *пс*-дир. Бизим галактика Јерли системә дахилдир. Галактиканын бу топанын мәркәзиндән мәсафәси 8000 *пс*-дир. Башга сөзлә десәк, галактика Јерли систем топасынын нүвәсини тәшкил едән галактикалардан биридир.

Галактика топалары һаггында дүзкүн тәсәввүр ала билмәк үчүн узаг топалардан үчүнү көстәрәк.

1) Вероникаын сачлары бүрчүндәки галактика топасы. Бу топадакы галактикаларын сајы 11000 мин, топанын диаметри 17 *Мпс* (1 мегапарсек—1 милјон парсекдир) вә биздән мәсафәси 85 *Мпс*-дир.

2) Хәрчәнк бүрчүндәки галактика топасы. Бу топадакы галактикаларын сајы 300, топанын диаметри 6 *Мпс* вә биздән мәсафәси 55 *Мпс*-дир.

3) Пегас бүрчүндәки галактика топасы. Бу топадакы галактикаларын сајы 370, топанын диаметри 1,5 *Мпс* вә биздән мәсафәси 45 *Мпс*-дир.

Бу топаларын әсас хүсусијјәти онларын күрәви формада вә топанын мәркәз һиссәсиндә галактикаларын сајынын чох олмасыдыр. Мәсәлән, Пегас бүрчүндәки топада галактикалар о гәдәр сыхдыр ки, демәк олар бир-бириня тохунур.

Үмумијјәтлә, галактикалар топасынын орта диаметри 1,6 *Мпс* вә топадакы галактикаларын орта сајы 200-дүр.

### Галактика топаларынын топасы

Шәрһ олунанлардан ајдындыр ки, гәдим дөврләрдән зәманәмизәдәк каинатын гурулушуну алты планет вә улдузлар тәбәгәси кими өјрәнмәкдән галактикаларын топалар тәшкил етмәсинә гәдәр тә'јин етмәк мүмкүн олмушдур. Бу саһәдә елмин тәчрүбәсиндән алынан үмуми ганунаујғунлуг белә дир: өлчүләр артдыгча маддәнин каинатда пајланмасы бири дикәринә дахил олан даһа бөјүк мәрһәләли системләр тәшкил едир. Бу гануна әсасән белә нәтичәјә кәлмәк олар: әкәр галактикалар топа тәшкил едирсә, нөвбәти мәрһәлә галактика топаларынын топасы олмалыдыр.

Күнәш системинин өлчүсү (40 а. в.) галактиканын өлчүсүндән (25000 *пс* 1 $пс = 3,0871 \cdot 10^{13}$ *км*) $5 \cdot 10^8$ дәфә бөјүкдүр. Галактика топасынын орта өлчүсү галактикаларын орта өлчүсүндән 64 дәфә бөјүкдүр. Бу ики мисал нөвбәти мәрһәләнин өлчүләрини әввәлкиләрә әсасән тә'јин едилмәсинин нә дәрәчәдә сәһв ола биләчәји һаггында тәсәввүр верир.

Галактикалар топасындан 64 дәфә бөјүк системин өлчүсү 102,4 *Мпс* олар. Ја'ни биз өлчүләри јүз мегапарсек тәртибиндә олан системләр ахтармалыјыг. Белә системләрин һәчми тәртибчә $10^6$ $Мпс^3$, каинатын мүшаһидә олунан һиссәсинин һәчми исә $10^9$ $Мпс^3$-дир. Бу о демәкдир ки, каинатын һазырда мүшаһидә олунан һиссәсинин һәчминдә тәхминән 1000-ә гәдәр галактика топаларынын топасы јерләшә биләр.

Күнәш системиндә Јерлә Күнәш арасында тә'сир едән чазибә гүввәси Нүтон ганунуна әсасән тәхминән $6,7 \cdot 10^{11}$ динадыр.

Топалар топасында тә'сир едә биләчәк гүввәләрин гијмәтләрини тәсәввүр етмәк үчүн фәрз едәк ки, онун мәркәзи чисминин күтләси мүшаһидә олунан ән бөјүк галактика топасынынкы гәдәрдир, ја'ни $2,6 \cdot 10^{14}$ $M_\odot$. Белә чисимлә ондан 100 *Мпс* мәсафәдә јерләшән ән кичик галактика топасы арасында тә'сир едән чазибә гүввәси тәртибчә $10^{25}$ динадан кичик олмаз.

Топалар топасында сүр'әтин гијмәтини 1000 *км/сан* гәбул етсәк, әввәлки күтлә вә мәсафә үчүн кинетик вә потенсиал енержи ујғун олараг, $2,6 \cdot 10^{63}$ *ерг* вә $2,5 \cdot 10^{54}$ *ерг* олар. Бу о демәкдир ки, көтүрүлмүш шәртләр дахилиндә топалар топасы дајаныглы ола билмәз. Кинетик енержинин потенсиал енержи тәртибиндә олмасы үчүн сүр'әти 0,09 *км/сан* гәбул етмәк лазымдыр. Белә кичик сүр'әтләри һәтта тә'јин етмәк мүмкүн дејил.

Әкәр өлчүләри 100 *Мпс* әвәзинә кичилдиб 10 *Мпс* ја'ни мүшаһидә олунан ән бөјүк галактика топасынын өлчүсү тәртибиндә гәбул етсәк, әввәлки шәртләр дахилиндә потенсиал енержи $2,5 \cdot 10^{56}$ *ерг* олар. Бу о демәкдир ки, һәтта галактикаларын тәшкил етдији топалар кими, кичик системләр белә үмумијјәтлә дајаныглы дејилдир. Башга сөзлә десәк, мүшаһидә олунан галактика топаларынын әксәријјәти дајанығсыз системләрдир.

Топалар топасыны ики васитә илә мүәјјәнләшдирмәк мүмкүндүр. Биринчиси, мүшаһидә олунмуш галактикаларын вә онларын топаларынын пајланмасыны арашдырмагла, икинчиси, ријази статистиканын ганунларыны тәтбиг етмәклә, пајланманын үмуми хүсусијјәтләрини исә тә'јин етмәклә. Мүшаһидә олунмуш галактикаларын каталогларына әсасән, каинаты өлчүләри галактика топаларынын өлчүләриндән хејли бөјүк олан шәбәкәләрә бөлмәк вә һәр шәбәкәдә галактикаларын сыхлығыны тә'јин етмәк олар. Нәтичәдә галактика топаларынын мәсафәјә көрә пајланмасы алынар. Шәбәкәләрин јеринин вә өлчүләрини дәјишдирмәклә мүмкүн ола билән мараглы һаллары арашдырмаг олар.

Бу гајда илә апарылмыш тәдгигатларын үмуми нәтичәси белә дир: 1040 *Мпс* мәсафәјәдәк (каинатын һазырда мүшаһидә олунан сәрһәдди) галактика топаларынын пајланмасы бирчинслидир, ја'ни мәсафәдән асылы дејил. Ән бөјүк топаларын диаметри бүтүн мәсафәләрдә ејнидир вә тәхминән 8 *Мпс*-дир.

Ријази статистиканын ганунларыны тәтбиг етмәклә алынан үмуми нәтичә белә дир: галактикаларын пајланмасы өлчүләр кифајәт гәдәр бөјүк олдугда, ја'ни топалар топасынын көзләнилән өлчүләри тәртибиндә чатдыгда сыхлашыр. Лакин, бу ријази нәтичәнин һәгигилијини гәбул етмәк үчүн лазыми елми әсас јохдур.

Үмумијјәтлә, топалар топасынын ахтарылмасы мәсәләсиндә апарылмыш тәдгигатлары белә јекунлашдырмаг олар: һазырда јүксәк тәртибли системин топалар топасынын варлыг мәсәләси елми мәзмуна малик дејил.

### Галактикаларын ифрат системи

Галактикаларын ифрат системи дедикдә тәк галактикалардан, галактикаларын кичик дәстәләриндән, Бөјүк Ајы—Тазы бүрчүндәки булуддан вә Гыз бүрчүндәки галактикалар топасындан ибарәт нәһәнк булуд нәзәрдә тутулур. Ифрат системин мәркәзи биздән 10 *Мпс* мәсафәдә Гыз бүрчүндәки јеканә галактика топасындадыр. Бу топа ифрат системин мәркәзи нүвәсини тәшкил едир. Топанын диаметри 8 *Мпс* вә көј күббәсиндә әһатә етдији бучаг саһәси 40°×40°-дир. Мә'лум олан 1249 ән парлаг галактиканын 203-ү тәкчә бу топаја дахилдир. Јерли систем өзү Гыз бүрчүндәки галактикалар топасына дахилдир. Бу мә'луматлар ифрат системин нүвәсинин бөјүклүјү һаггында тәсәввүр верир.

Ифрат системин диаметри 30 *Мпс*, күтләси исә $10^{15}$ дән 4 *Мпс* мәсафәдә јерләшир. Бизим галактиканын $M_\odot$-дир. Кәһкәшан ифрат системи она јахын сәрһәддинифрат системин мәркәзи әтрафында доланма сүр'әти 500 *км/сан*-дир. Системин өз мәркәзи әтрафында фырланма мүддәти онун мәркәзиндән кәнарларынадәк $100 \cdot 10^9$ илдән $200 \cdot 10^9$ иладәк артыр. Бизим галактиканын өз мәркәзи әтрафында фырланма мүддәти $5 \cdot 10^9$ илдир.

Ифрат системин мүстәвиси бојунча өлчүләри мүстәвијә перпендикулјар истигамәтдәкиндән 5 дәфә бөјүкдүр. Бу онун чох сыхылмыш олдуғуну көстәрир. Ајдындыр ки, сыхылмаглыг фырланманын нәтичәсидир.

Һазырда каинатда мәвгејимизи белә мүәјјәнләшдиририк: јашадығымыз Јер күрәси Күнәш системинә, Күнәш системи галактикаја, галактика галактикаларын Јерли системинә, Јерли систем Гыз бүрчүндәки галактикалар топасына вә Гыз бүрчүндәки галактикалар топасы ифрат системә дахилдир. Ифрат системдән бөјүк систем јохдур. Каинат өлчүләри 40 *Мпс*-лик өзәкләрдән, ја'ни тәсвир олунан ифрат систем кими булудларын бәрабәр пајланмасындан ибарәтдир.

Гәдим дөврдә вә һәмчинин Коперник дөврүндә каинат һаггында мә'луматлар улдузлар тәбәгәси илә битирдисә, инди галактикаларын нәһәнк системләринин бәрабәр пајланмасы илә битир.

I Əlavə[7]

**N. KOPERNİK**

**MÜQƏDDƏS AMİR BÖYÜK PONTİFİK III PAVELƏ**

**Николај Коперникин фырланмалар һаггында китабларына мүгәддимә**

Мүгәддәс ата, мән јахшыча анлајырам ки, бә'зи адамлар мәним бу көј күрәләринин фырланмалары һаггында јаздығым китабларда Јер күрәсинә бә'зи һәрәкәтләр вердијими билән кими, мәни вә бу кими фикирләримі гышгырыгла сөјәчәкләр. Лакин мәним китабларым һеч дә о гәдәр хошума кәлмир ки, башга адамларын онлар һаггында мүһакимәләринә фикир вермәјим.

Мән билирәм ки, философ шәхсләрин дүшүнчәләри чамаатын мүһакимәсиндән узагдыр. Чүнки о, бүтүн ишләрдә аллаһын инсан идракына вердији чәрчивәдә һәгигәт ахтармагла мәшғулдур. Мән белә фикирдәјәм ки, һәгигәтә јабанчы олан фикирләрдән узаг олмаг лазымдыр.

Мән тәкликдә, өз-өзүјүмдә фикирләширдим ки, мәним әсәрим о адамлара мә'насыз көрүнәчәкдир ки, онлар әсрләр боју Јерин көјүн ортасында дурдуғуна, онун мәркәз олмасыны исбат етмәјә гәти сүрәтдә еһтијач олмадығына инанырлар. Мән исә бунларын әксинә олараг Јерин һәрәкәтдә олдуғуну дејирәм.

Бу сәбәбдән мән өзүјүмдә чох тәрәддүд етдим ки, Јерин һәрәкәт етмәсинин исбаты үчүн јаздығымы нәшр етдирим, ја јох?

Јахшы олмазмы ки, Лисидин Һиппарха көндәрдији мәктубда көстәрилдији кими, мән пифагорчуларын јолу илә кедиб фәлсәфи сирләри тәһрифи шәкилдә дејил, шифаһи, әлдән-әлә, гоһум вә достларыма өтүрүм. Әлбәттә, буну онлар, бә'зиләринин күман етдикләринин әксинә олараг, өзләринин хәбәр вердикләри тәдгигатлара гыс-

[7]. I вә II әлавәнин русчадан азәрбајчанчаја тәрчүмәси һ. Мәммәдәјлининдир.

ганмаг үзүндән етмәмишләр. Буну она көрә белә етмишләр ки, улу шәхсләрин бөјүк әмәји сајәсиндә әлдә едилән ән көзәл тәдгигатларын һәр һансы бир елмлә мәшғул олмаға тәнбәллик көстәрәнләрин истеһзаларына мә'руз галмасын. Чүнки бу онлара һеч бир газанч вермәјәчәк вә онлар вәһши арыларын бал арысы арасында олмасына бәнзәјәчәкләр вә сәрбәст елмләрлә мәшғул олмаға сә'ј етмәјәчәкләр, чүнки ағыллары касыбдыр. Бунларын һамысыны мән өз ағыл тәрәзимдә чәкдим, бир шеј галмамышды ки, јенилиқдән горхаглығымын, фикирләримин мә'насызлығы үзүндән нәзәрдә тутдуғум әсәри давам етдирмәкдән имтина едим.

Мәни, узун мүддәт төләсмәјәни вә һәтта арзу көстәрмәјәни, достларым һәвәсләндирдиләр. Бунларын ичәрисиндә капуан кардиналы Николај Шөнберг, мәни чох севән Күлм јепископу илаһи вә үмумијјәтлә бүтүн хејирхаһ ишләр вурғуну Тидемани Гизиј дә вар иди. Мәһз бу сонунчу тез-тез јанымa көлир, гәтијјәтлә төләб едәр вә һәтта мәни мәзәммәт едәрди ки, мән әсәримі гуртарым вә онун чап олунмасына имкан јарадым. Бу әсәри мән доггуз ил дејил, дөрд дәфә доггуз ил кизли сахлајырдым. Буну мәнә чохлары, башга көркәмли адамлар вә алимләр дејирди. Онлар мәсләһәт көрүрдүләр ки, кечикмәјим вә буну нәшр етдирмәкдән горхмајым. Чүнки ријазијјат илә мәшғул олanлар үчүн бунун әһәмијјәти вардыр. Онлар дејирдиләр ки, һазырда Јерин һәрәкәти һаггында мәним тә'лимим чохларына нә гәдәр мә'насыз, нә гәдәр тәәччүблү көрүнсә дә, әсәрләримин нәшриндән вә ән ајдын исбатларымла гаранлыг мәсәләләр арадан көтүрүлдүкдән сонра, бир о гәдәр тәшәккүрә лајиг көрүнәчәкдир. Бу мәсләһәтчиләрдән вә хатырланан үмидләрдән ајылан мән, нәһајәт, достларыма ичазә вердим ки, мәним әсәримі нәшр етдирсинләр, чүнки бу барәдә онлар мәндән чох хаһиш етмишдиләр.

Бәлкә Сәнин Мүгәддәслијин она көрә тәәччүбләнмәјәчәкдир ки, мән өз мүһакимәләримі, бу гәдәр зәһмәт сәрф етдикдән, вә тәрәддүд етмәдән Јерин һәрәкәти һаггында өз мүлаһизәләримі тәһрири шәкилдә верәндән сонра нәшр етдирмәјә чүр'әт етмишәм. Сәнин мүгәддәслијин исә ријазијјатчыларын үмумән гәбул едилмиш фикирләринин зиддинә олараг, бәлкә дә сағлам дүшүнчәнин зиддинә олараг, Јерин һәрәкәти һаггында нә үчүн башга шеј фикирләшдијими мәндән ешитмәк истәјир. Мәни дүнја күрәләринин һәрәкәтләринин башга нөв һесабланмасы дүшүнмәләринә вадар едән одур ки, ријазијјатчыларын өзләри бу һәрәкәтләрин тәдгигаты һаггында мүәјјән фикирә малик дејилләр, буна көрә мән Сәнин Мүгәддәслијиндән кизләтмәк истәмирәм.

Һәр шејдән әввәл, онлар Күнәшин вә Ајын һәрәкәти һаггында о дәрәчә инамсыздырлар ки, мүшаһидә вә һесабламалар әсасында бүтүн вахтлар үчүн тропик илин узунлуғуну дәгиг тә'јин едә билмирләр. Даһа сонра онлар һәм бу көј чисимләринин һәм дә көзәјән беш улдузун һәрәкәтини тә'јин етдикдә ејни принсипләрдән, аксиомлардан вә ја да ки, онларын һәрәкәтини тәсвир етмәк үчүн ејни јоллардан истифадә етмирләр. Доғрудан да, бә'зиләри јалныз һомосентрик даирәләрдән, башгалары исә екссентр вә еписикллярдән истифадә едирләр. Бунунла белә арзу едиләнә там мә'насында кәлиб чатырлар. Доғрудур, һомосентрик даирәләрә әсасланараг онларын бир чоху онларын васитәсилә бә'зи гејри-бәрабәр сүр'әтли һәрәкәтләр алындығыны исбат едир. Лакин онлар өз нәзәријјәләри әсасында мүшаһидә едилән һадисәләрә ујғун олан е'тибарлы вә мүбаһисәсиз бир нәтичә ала билмирләр.

Екссентрик даирәләрә әсасланаңлар исә мүәјјән әдәди нәтичәләр алмышлар вә бунлар көрүнән һәрәкәтләрә әһәмијјәтли дәрәчәдә ујғун олса да, мүәјјән гајда үзрә һәрәкәтләрин бәрабәрсүр'әтли олмасы принсипләрини зиддир. Башлычасы да будур ки, онлар дүнјанын шәклини вә онун һиссәләринин өлчүсүнү көстәрә биламирләр. Беләликлә, онларла белә бир һадисә үз вермәјә охшајыр: әкәр бир адам мүхтәлиф јерләрдән әлләри, ајаглары, башлары вә башга үзвләри, бунларын ә'ла чыхыш маларына бахмајараг, мүхтәлиф мигјасларда олмаларына көрә топласа, онларын бир-бириня ујғун кәлмәмәси үзүндән, инсан дејил, е'чазкар бир шәкил алынар.

Демәли, онлар Методос адланан исбат заманы јалныз мүһүм бир шеји унутмуш, ја да ишә дәхли олмајан ја бир шејдән истифадә етмишләр. Әкәр онлар принсипләрә дүзкүн ријаәт етсәјдиләр белә олмазды. Доғрудан да, әкәр онларын гәбул етдији фәрзијјәләр јалан олмасады, шүбһәсиз ки, алдыглары нәтичәләр өзләрини доғрулдардыр. Бәлкә, мәним индики данышыгларым гарајыгдыр, амма вахты илә дүнја күрәләринин һәрәкәти үчүн гурулмуш ријази әһәмијјәтли е'тибарлығы һаггында узун мүддәт фикирләшдикдән сонра мән чох нараһат олдум ки, философлар дүнја механизминин һәрәкәтини изаһ етмәк үчүн е'тибарлы нәзәријјәјә саһиб дејилдирләр. Бу механизм бизим үчүн чох бөјүк устад тәрәфиндән јаранмышдыр. Ахы, философлар дүнја илә мүгајисәсиндә чох кичик олан шејләри чох бөјүк наилијјәтләрлә өјрәнмишләр.

Буна көрә мән китабларыны тапа билдијим бүтүн философларын әсәрләрини охумаг зәһмәтини өз үзәримә götürдүм ки, көрүм бәлкә бунлардан бири көј күрәләринин һәрәкәти һаггында инди ријази мәктәбләрдә тә'лим едиләнләрдән фәргли олан фикирләр сөјләмишдирми?

Әввәлчә Тситсеронда Никетин Јерин һәрәкәти һаггында фикир сөјләдијини тапдым. Сонра Плутархын әсәриндә башгаларының да бу фикирдә олдуғуна тәсадүф етдим[8].

Бундан сонра мән дә Јерин һәрәкәти һаггында дүшүнмәјә башладым. Доғрудур, бу фикир мәнә мә'насыз көрүнүрдү. Мәндән әввәл улдузлар дүнјасының һадисәләринин әјани көстәриши үчүн башгалары тәрәфиндән истәнилән кими даирәләр ичад етмәк сәрбәстлији верилмијини биләрәк, күман етдим ки, мән дә көј күрәләринин фырланмасыны даһа е'тибарлы нүмајиш етдирмәк үчүн, башга ријазијјатчылар кими, Јерин һәр һансы бир һәрәкәти васитәсилә јохлама апара биләрәм.

Беләликлә, Јер үчүн һәрәкәтләрин варлығыны гәбул етдикдән (бунлар әсәрин өзүндә көстәриләчәкдир) вә наһајәт, чох мигдарлы вә узун мүддәтли мүшаһидәләрдән сонра ашкар етдим ки, әкәр Јерин даирәви һәрәкәтинә илә галан көзәјән улдузлары мүгајисә етсәк вә онларын һәр бири үчүн бир дөврү һәрәкәт һесабласаг, онда бу планетләрин көрүнән һадисәләри алыныр. Бундан башга, көј чисимләринин ардычыллығы вә онларын өлчүләри, бүтүн күрәләр вә һәтта көјүн өзү елә әлагәли олур ки, һәр һансы бир һиссәдә бир шејин јерини дәјишдикдә, бүтүн каинатын башга бир јериндә долашығлыг мәлә кәлмәјә билмәз. Буна көрә мән өз әсәримин ин-

[8]. Бурада Коперник Плутархын сөзләрини јунанча верир.

масында белə бир гајда гəбул етдим: биринчи китабда бүтүн көј күрələринин вəзијјətини Јерə бəхш едилən һərəкətlərlə биркə тəсвир едəчəјəм. Белəликлə, бу китаб елə бил ки, каинатын Конститусијасыны вермиш олачагдыр. О бири китабларда галан көј чисимляринин һərəкəти вə онларын орбитləри Јерин һərəкətинə нисбətən көтүрүləчəкдир. Јерин һərəкətинин варлыгы нəтичəсиндə галан күрə вə көј чисимляринин һərəкətини нечə «көзləмək» олар.

Шүбһə етмирəм ки, габил вə алим ријазијјатчылар мəнимлə разылашарлар, əкəр онлар сəһи шəкилдə дејил дəриндən өјрənмək вə дүшүнмək истəсələр (нечəки бүтүн, һəр шејдən əввəл философлар тəләб едирлəр), мəним бу əсəримдə јухарыда көстəрилмиш исбатларла таныш олармлар. Истəр алимлəр вə истəрсə гејри-алимлəрин ејни дəрəчədə инанмалары вə һеч кəсин фикриндən имтина етмəдијими көстəрмək үчүн гəрара алдым ки, əкəр мən бу өз мүлаһизəлəримі башга бирисинə дејил, Сəнин Мүгəддəслијинə һəср етсəм чох јахшы олар. Буну мən она көрə едирəм ки, Јерин ən узаг бучагында (мən өз күпləримі кечирдијим јердə) сən ən сечилən сајылырсан, сənin тутдугун јерин фикринə вə бүтүн елмлəрə вə ријазијјата олан мəһəббətинə көрə, нүфузун вə мүһакимənлə бəһтанчыларын бастырыны əзə биларсən. Мəсəл вар: хəбəрчинин дишлəмəсинə гаршы дərман јохдур.

Əкəр елələри тапылса ки, ријази елмлəрдən бихəбəр олмасына бахмајараг, онлар һаггында мүһакимə јүрүтмəјə башласалар, мүгəддəс јазыларын анлашылмајан мүəјјən бир јеринə əсасən онларын мəгсəдинə ујгун тəһриф едилмəси илə онлар мəзəммət етмəјə чүр'этлəнəрлəр вə башларлар мəним əсəримі изləмəјə, мən дə јубанмадан онларын мүһакимələрини јүнкүллүк əламəти сајарам. Ахы, бир сирр дејил ки, үмумијјətлə дессək, бəјүк одиб, амма кичик ријазијјатчы Јерин шəкли һаггында ушаг кими мүһакимə апарырды. Јерин шар шəкилдə олмасыны көстəрənləрə истеһза едирди. Буна көрə əкəр бунун кимləрдən бири бизə истеһза етсə, алимлəр тəəччүбланмəмəлидирлəр.

yeməklərin ağırlığından qırılıb iki yerə bölünsünlər. Masaya düzülmüş bayram xonçaları ev sahiblərinin mədəni səviyyəsindən xəbər verirdi. Kasıb adamların evində yalnız yerli şiriniyyat növlərinə, meyvə qurusuna, yumurtaya rast gəlmək olardı. Rusların təsirinə qapılmış mədəni ailələrdə rəngbərəng mərmərsayagı bəzədilmiş yumurtalara kimi cürbəcür şeyləri masanın üzərinə düzərdilər. Ləzzətli soyutma hind quşları ev sahiblərinin tərəqqiyə qovuşmasından xəbər verirdi. Moskvadan məxsusi gətirilmiş dadlı şokoladlar Rusiyanın ab- havası ilə doldururdu otaqları.

Bəli, bizi doyunca yedizdirib- içizdirirdilər. Sonra ev sahibi- dayım xalam nə bilim babam yaxud yaxın və uzaq qohumlarımızdan biri allahın sayəsində içi həmişə dolu olan pul kisəsindən üstündə slavyan çarı həkk olunmuş bir sikkə çıxarır və urəyindən qara qanlar axa- axa onu bizə uzadırdı. Bir qayda olaraq onların hədiyyəsi üzümüzə marçıltı ilə yapışdırılan bir öpuşlə müşayiət olunurdu. Gecələr bütün günü içəri dürtdyümüz ləziz yeməkləri lazımınca həzm edə bilməməyimiz ucbatından əzab çekməyimizə baxmayaraq özümüzü lap əntiqə hiss edirdik.

Qurban bayramı tamam başqa sayaq olurdu. Uşaqlıq illərindən bu bayram elə hey yada düşürdü. Çünki onu bağda qeyd edirdik. Biz «mədəniyyətə qovuşmuş» adamlar oruc tutmazdıq. Düzdür hərdənbir bayrama bir neçə gün qalmış yeməkdən imtina edirdik. Qeyd edim ki, bizi buna məcbur edən yox idi, özümüz könüllü olaraq ac qalırdıq. Boynuma almalıyam ki mən allaha xoş gəlməkdən ötrü orüc tuturdum. İstəyirdim ki, dindarlığımdan mütəəssir olan allah ürəyimdən keçən arzuları bir-bir həyata keçirsin.

Orucluq vaxtı yemək də içmək də qadağan idi. Hətta dişləri də yumaq olmazdı. Axı su damcısı qupquru qurumuş damaqlara toxunub insanda təşnəlik hissi oyada bilərdi. Papiros çəkənlər gərək orucluq vaxtı onu tərgidəydilər. Kişinin arvadına toxunmağa ixtiyarı yox idi.

Lakin axşam vaxtı ilk ulduzlar səmada peyda olan kimi caamatın içində bir vurhavur düşürdi ki, gəl görəsən. Aclıqdan- susuzluqdan heydən düşmüş adamlar əllərinə keçəni tələm- tələsik içəri dürtürdülər. Sonra bir müddət yediklərini həzm etməklə məşğul olardılar. Bir qədər keçəndən sonra dan yeri qızarana qədər camaat yemək- içməyindən qalmırdı. Yatanlar gecələr neçə kərə yuxudan durub yeyib-içərdilər.

Ramazan ayının axırında qurbanlaq qoyun kəsərdilər. Onun iç- içalatının açıq havada ocaq qalayıb bişirərdilər. Uşaqlıqda yediyim o qovurmanın dadı indi də damağımdadır. Çim yağa batmış barmaqlarımı dırnaqlarımı yalayardım ki bir damgısı da yerə düşməsin. Qovrulan ətin ətri dünyanı başına götürərdi Adamı bihuş edərdi. Ah ilahi harada qaldı o günlər, o zamanlar...

Bir dini bayramdan da yaman xoşum gəlirdi. 680-cı ildə Kərbəlada Əlinin oglu Hüseyn bütün ailəsi ilə birlikdə məhv edilmişdir. Biz hər il bu faciəni qeyd edirik. Nənəm bu bayramı mütləq qeyd etməli idi. Yerli adətənənəyə görə bu gün bizim qəbul otağımızı tamam boşaldardılar və qonaqların sayına müvafiq olaraq döşəməyə xalça sərib divar boyu iki- üç cərgə yastıq düzərdilər. Adam çox axışıb gələn günlər döşəməyə yastıqla sərsər örtülərdi. Bircə molla xanım üçün divarın dibində tən ortada lap şahların taxtını xatırladan hündür bir kürsü qoyardılar.

Çadraya bürünmüş qadınlar bir- bir içəri girərdilər. Onların dabansız ayaqqabıları tappıldayar geniş ipək tumanları yumşaqça xışıldayardı. Qışqırıqlarından lap başım gicəllənərdi. Bu günlər evdə bir səs- küy olurdu ki, az qalırdı adamın qulaqları tutulsun.

Gözəl parçalardan tikilmiş şərqsayagı geyimlər son dərəcə zərif və gen olardı. Ağ köynəklərin yaxaları əsəl zərgər dükanını xatırlayırdı nələr yoxdur bu qadınların döşlərində. Mirvaridən və yaxud qızıl puldan hazırlanmış boyunbağları qızıl zəncirlər nə bilim cürbəcür daş- qaşlar... Düzdür çox vaxt bu zərgərlik məmulatlarının kefiyyəti bir şey olmazdı. Lakin onlar parlayaraq cingildəyərək bərq vurar, adamın gözlərini qamaşdırardı və oxşayardı. Özünü göyün yeddinci qatında hiss etmək üçün qadına bundan artıq nə lazımdır ki?....

Geyimlərdən söhbət açanda tumanı, daha doğrusu tumanları da yaddan çıxarmaq olmaz çünki onlar mərtəbəmərtəbə bir- birinin üstünə yığılar, qalanardı. Tumanların sayı və genişliyi onları geymiş qadının var- dövlətinin həmcindən xəbər verərdi: «Tumanını mənə göstər söyləyim kim olduğunu».

...Nənəmizlə aramızdakı fərq get- gedə dərinləşib uçuruma çevrilirdi. Axı onun həyatı hicri tarixinin ilk illərində yaşamış qadınların həyatından heç bir şey fərqlənmirdi. Deməli bizim aramızdakı məsafə yaş fərqimizlə yeni bir neçə onilliklə deyil on dörd əsrlə ölçülməli idi. «Mədənilərdən» də, ruslardan da yaman zəhləsi gedirdi qadının. Rus dilini bilmirdi, çünki onun gənclik illərindən bu dili bilmək heç də vacib deyildi. Nənəmin nəzərində rus müstəmləkəçi idi çoxəsrlik adət- ənənələrimizin söküb- dağıdan məhv edən bir adam idi. Başqa irqdən idi rus, başqa dinə qulluq edirdi rus, uzun sözün qısası kafir idi rus. Çar Rusiyasının zülmü nənəmin qəlbində əks- səda vermişdi. Onun nifrətinin səbəbini başa düşmək heç də çətin deyildi-adət etdiyi, canına- qanına nüfuz etmiş həyat tərzi ətrafında yavaş- yavaş dagılıb məhv olurdu. Əri onu boşayıb rusla evlənmişdir. Sonra nənəm qızlarına öz ruhunda tərbiyə verməyə cəhd göstərmişdi, özü kimi yaşamağa hazırlamışdı. Lakin qızları ərə gedən kimi çadranı atmış avropasayagı geyinib- gecinməyə, rus və Azərbaycan dillərinin əcayib şəkildə qarışmasından əmələ gəlmiş bir «dildə» danışmaga başlamışdılar. Düzdür, onların «mədəniyyəti» geyimlərindən və dillərindən başqa heç bir şeydə təzahür etmirdi. Lakin nənəmin bəxtini qara etmək üçün bu özü də geninə-

boluna kifayət idi. Bu hələ harasıdır? Oğlanlarının hərəkəti yazıq arvadı lap dəli edirdi. Ataları onları rus litseyinə qoymuşdu. Onlar da litseydə bir qədər təhsil alıb bir necə dəfə Rusiyaya və xaricə səfərə çıxdıqdan sonra əl- ayaqlarına dolaşan müsəlman dinindən üz döndərməyə başlamışdılar. Bakıda zəngin neft yataqlarının tapılması Qafqaz müsəlmanlarının köhnə adət- ənənələrinin buxovlarından azad olması prosesini xeyli gücləndirirdi: gözlənilməz var- dövlət onlara hədsiz imkanlar vermiş, qarşılarında geniş üfüqlər açmışdı. İndi onlar mədəniyyətin bəxş etdiyi bütün nemətləri dadır, ulu ulu babaların sadə və sərt həyat tərzindən imtina edirdilər.

Nənəm bu dəyişikliklərin nəticəsini açıq- aydın görmək istəyirdisə gərək nəzər salaydı öz nəvələrinə. O uşaqlarına özü tərbiyə vermişdi. Odur ki, onlar böyüyüb boya- başa çatana kimi müsəlman dininin bütün qaydaqanunlarına riayət etmişdilər. Elə indinin özündə də onlarda ana tərbiyəsinin təsiri hiss olmaqda idi. Biz isə tamamilə yad bir atmosferdə böyümüşdük, nənəmin nəzərlərindən onun əziz keçmişinin inkarına çevrilmişdik. Belə ki, Azərbaycan dilində güc- bəla ilə danışırdıq. Amma yeri gəlmişkən bir şeyi qeyd etməliyəm: düzdür dogma dilimizdə pis danışırdıq, amma nənəmizin sayəsində çox gözəl söyüş söyməyi öyrənmişdik. Nənəm mənim yaddaşımda elə o şəkildə - hikkəli söyüş söyən, qargış edən bir arvad kimi həkk olunub. Çox vaxt o elə- belə könülsüz adətkarda olduğuna görə, bir də ki nüfuzunu qoruyub saxlamaqdan ötrü söyüş söyərdi. Lakin allah göstərməsin onun qəzəbləndiyi vaxtlar da olurdu. Arvad özündən çıxıb oda- alova dönürdü, səsi bütün aləmi başına götürürdü, söyüşləri qarğışları dolu kimi üstümüzə tökülürdü.

Boylu - buxunlu idi mənim nənəm. Yaşa dolandan sonra yaman kökəlmişdi, güclə yeriyirdi. Lakin bu hərəkətsizliyin özü də onun əzəmətinə bir rövnəq verirdi. Lap qocalanda da bu qədər çolma- çocuqa nökərə- qulluqçuya əmr verməyə adət etmiş nənəm qaməti sayəsində bir nəciblik kəsb edirdi. Hətta söyüş və qargış onun ağzından sel kimi töküləndə də qadın əzamətini itirmirdi. Təşəxxüslə xəlqilik qəribə bir şəkildə çulqalaşırdı bu qadının şəxsiyyətində.

Əslinə baxsan mənim nənəmlə aram heç də pis deyildi. Lakin onunla əlaqələrim çox qəribə bir şəkil alırdı- kobud sözlər söyüşlər idi məni nənəmlə bağlayan. Yazıq arvadı dolayıb ələ salmaq üçün min bir yol axtarıb tapırdım. Fikrim - zikrim ondan elə hey bir şey qoparmaq idi. Zarafatlarıma nənəm birtəhər dözürdü lakin bir şey istəyəndə üzünü görmə- hövsələdən çıxıb cin atına minirdi. Nənəm simiclikdə yaman ad çıxarmışdı. Ən xəsis adamlar da ona heyrət edirdilər.

Nənəmlə görüşmək və onun əhvalını xəbər almaq üçün demək olar ki hər gün alt mərtəbəyə düşərdik. O isə yanımıza çox nadir hallarda qalxardı. İki- üç pilləni dəf edəndən sonra ayaq saxlayıb xeyli nəfəsini dərərdi. Yanımıza gəlib çatanda yazıq arvad tamam taqətdən düşər, güclə nəfəs alardı. Ona baxanda adamın lap yazığı gələrdi. İçəri girən kimi nənəm otaqdakı ən geniş kresloya sərilərdi. Sonra xınalı dırnaqları olan totuq əllərini dizi üstə qoyan uzun-uzadı bizə tamaşa edərdi. Bizim məşğul olduğumuz işlərin nə mənasını, nə də onlardan aldığımız zövqü dərk edərdi mənim nənəm. Qırıldadığımız barbar dilində nənəm bircə kəlmə də başa düşmürdü. Lakin arvad heç də bizə həsəd aparmırdı, bəlkə də bizə yazığı gəlirdi. Çox güman ki, o, öz hisslərinin təfərrüatına varmadan sövqi-təbii qarşımıza çıxacaq çətinlikləri əvvəlcədən görürdü. Axı mənim kimi bəsit adamların həyat dairəsinin darlığının və məyusluq və düşkünlüyün tələsinə çox çətin düşərlər. Halbuki bizim əqli və hissi imkanlarımız geniş olduğu kimi qarşımıza çıxan çətinliklərin də sayı-hesabı yox idi. Görünür haqlı idi nənəm: azadlıq, sərbəstlik böyük qurbanlar tələb edir.

Ümumiyyətlə çadralı qadınlar heç də bədbəxt görünmürdülər. Mən çox görüb- götürmüşəm, lakin qeyd edim ki ömrümdə beləcə deyib- gülməyi, rəqs etməyi, zarafatı (düzdür çox vaxt bu zarafatlar yaman kobud olardı), şənlənməyi xoşlayan adamlar çox nadir hallarda rast gəlmişəm. Onların həyat tərzi də arzuları da çox bəsit idi. Çoxlarının pislədiyi çoxarvadlılıq bu qadınlara heç də pis təsir etmirdi. Axı onlar ərlərini nə sevir, nə də onları özlərini həyat yoldaşı hesab edirdilər. Ər bu qadınların hakimi- mütləqi idi. Arvadın bircə vəzifəsi vardı: əri üçün uşaq doğmaq. Arvad ərini az- az görərdi. O ki qaldı günüyə, onunla qiybət qırmaq bir yerdə evin işini görmək uşaqları böyütmək olardı. Elə bizim ailəmizdə baş vermiş maraqlı bir əhvalat bu arvadların xasiyyətindən gözəl xəbər verir.

Nənəmin altmış yaşlı qardaşının cəmisi birgə arvadı var idi. Üstəlik uşagı da olmurdu. Arvadının günüsüzlükdən və uşaqsızlıqdan az qalırdı bağrı çatlasın. Bir gün o qərara gəldi ki, bu vəziyyətə dözmək artıq mümkün deyil və qəti şəkildə elan etdi ki əri mütlək evlənməlidir.

Bir gün səhər nənəm başına xına yaxardı. Bir də gördük içi qəzəbdən qovrulan saçları pərişan Bəyim gəlir nə gəlir! Elə içəri girmişdi ki ərindən şikayət etməyə başladı:

- Abbasa dedim: "Ay Abbas, axı niyə təzə arvad almırsan?". Mənə nə cavab versə yaxşıdır? "İstəmirəm, cəhənnəm ol başımdan". "Necə yəni istəmirsən!" "İstəmirəm də! Bir arvadla güclə bacarıram! Bax belə". "Siz allah bir buna baxın, - kişinin sözünü kəsdim,- peygəmbər Əleyhülsalamın bir necə arvadı vardı! Sənə nə olub ki. Heç olmasa ikisinin ala bilmərsən?". "Peygəmbər heç kimi iki arvad almağa məcbur etmirdi axı",- o hazırcavablığından məmnun mənə cavab verdi. "Sözüm yoxdur,- kişinin sözünü kəsdim - lakin qulağında sırğa edib as: lap dünya dağılsa da səni məcbur edəcəyəm ki, ikinci arvad alasan. Hər şeydən əvvəl ondan ötrü ki, sən yazığın uşağı olsun, yerinə- yurduna yiyə dursun. Sonra da ki, tək yaşamaqdan lap təngə gəlmişəm. Elə bilirsən

ki, bu ev mənim- o ev sənin qaçıb söhbət etməyə bir adam axtarmaq asan məsələdir? Bütün rəfiqələrim arasında bircə mən bədbəxt tək- tənha yaşamağa məcburam, istəyim budur ki, evlənəsən, ay Abbas». Əvvəlcə kişi məni birtəhər rəhmə gətirmək istədi: «Ay rəhmətliyin qızı, yaxşı bilirsən ki, tamam heydən düşmüşəm, ikinci dəfə evlənməyə taqətim qalmayıb». «Qorxub eləmə, toy gecəsinə və bircə uşaq əkməyə gücün çatar». Onda Abbas özündən çıxdı: «rəddol başımdan, zəhlətökənin biri zəhlətökən- Ağlını başına yığ və birdəfəlik qan ki, yaşım artıq altmışı haqlayıb! Bir də ki mənəm bu xarabanın sahibi! Mənə əmr verəcəksən? Məni güclə evləndirəcəksən?». Kişi o ki var söydü məni. Mən də cavabımdan qalmadım: «Əşşi, dedim, evlənəcəksən, evlənəcəksən. Lap dünya dağılsa da, evlənəcəksən!». «burnunun ücunü görəndə!». «Səndə nə insaf var, nə mürüvvət, xacənin biri xacə, arvadsifət! İkinci arvad də saxlaya bilmirsən, hələ adını da kişi qoymusan». Nə başını ağrıdım, ürəyimdə nə vardı, çırpdım üzünə. Kişi acıqlanıb evdən çıxıb getdi. Gör bir özünü necə naza qoyur! Amma mənə də Bəyim deyərlər. Dediyimdən dönməyəcəyəm. Bəs indi mən neynim?

Bəyim az qalırdı ki, ağlasın.

- Bəs indi mən hansı külü töküm başıma?- deyə o, nənəmdən bir də xəbər aldı.

Nənəm onun dediklərinə məhəl qoymadan başına xına yaxıb, üstündən də qoz ağacı yarpaqları düzdü. Arxayın- arxayın işini görüb qurtardıqdan sonra, nəhayət, dilləndi:

- Xoşuna gələn savab bir gız axtar. Tapanda mənə deyərsən. Abbası yola gətirmək mənim boynuma! Sən bir bu dəli- qudurmuşun tərsliyinə bax. Deyəsən axı ruslara, görüm onları lənətə gəlsinlər, oxşamaq istəyir sənin ərin. Kişiyə bax, ey! Uşağı yox, arvadı da ki, bircə dənə! Yox, bu lap ağ oldu! Darıxma, get özünə bir yaxşı günü tap, fikirləşib bir şey eyləyərik. Bir dayan, Aslanın, tanımadan, hə, o bacısı əmimoglum Məhəmmədə getmiş qozbeli deyirəm də, axı onun kiçik qızı boya- başa çatıb. Qəşəng qızdır, xasiyyəti də həlimdir. Bir get ona bax, gərək ki xoşuna gəlsin. Lap mum kimi günü çıxar ondan.

Bəyim nənəmin məsləhətinə qulaq verdi, qız də çox xoşuna gəldi. Onda nənəm düşdü Abbasın canına. Əvvəlcə, kişi qəti şəkildə evlənməkdən imtina etdi. Xeyli söz- sözbət oldu. Nənəm Abbasa çox yalvarıb- yaxardı. İş böyüdü, mübahisələr səbəb oldu. Nənəm qardaşı ilə xeyli küsülü qaldı. Axırda yazıq kişi tab gətirə bilməyib razılığını verdi. Cavan arvad də uşaq dogmadı amma nə olsun ki, Bəyim özünə günü qazandı və bomboş evdə canını birdəfəlik çürütməyin daşını atdı.

Sən demə, çoxarvadlığın da bəzi xeyri olurmuş.

İlin tən yarısını biz bağda keçirərdik. Burada mən hər gün əsl müsəlman həyatını müşahidə edə bilərdim. Bakıda aləm qarışmışdı bir- birinə- rus da vardı, erməni də gürcü də, axtarsan bir- iki nəfər avropalı də tapa bilərdin. Bağımız yerləşən kənddə isə təmiz müsəlman əhalisi yaşayırdı.

Allahın bədnəzərdən qoruduğu bağımıza vurulmuşdum. Burada vəzifələr kiçilik, sərbəstlik artırdı. İstədiyim qədər oynaya, atlanıb- düşə bilərdim, kef idi. Bağ bir də ona görə xoşuma gəlirdi ki, bütün bibioğlu və bibiqızlar yığışardılar buraya.

Bahar gələn kimi səbirsizliklə bağa köçməyi gözləyərdik, şəhər lap zəhləmizi tökərdi. Artıq may ayında Bakıda istidən və tozdan nəfəs almaq mümkün deyildi. hazırlığımız yaman uzun çəkərdi- necə olmasa, axı bağda düz altı ay qalmalı idik.

O vaxtlar avtomobil hələ bizlərə gəlib çatmamışdı. Odur ki, yolun yarısını qatarla, digər hissəsini isə faytonla qət edərdik. İşıqlı bir may səhəri bütün qışı həsrətini çəktiyimiz o yerlərə aparardı bizi kiçik bir qatar. O vaxtlar bütün yer üzünü bürümüş dəmiryol şəbəkəsindən xəbərim yoxdu. Odur ki, bu kiçik qatar mənə möhtəşəm və qəşəng görünürdü. O, tanış adam kimi yola düşməzdən əvvəl fit çalır, tələsmədən yerindən tərpənir və daşlı- kəsəkli çölləri keçib gedirdi. Çox yavaş- yavaş, hər addımbaşı saxlaya- saxlaya gedirdi. Nəhayət gəlib son dayanacağa çatardıq. Həmişə də gecikmiş gəlib çıxardıq. Son dayanacaq neft rayonunun lap mərkəzində yerləşirdi. Burada milçək və toz əlindən tərpənmək mümkün deyildi. Hər tərəfdə buruqlar və çənlər görünürdü. Neftin ətrini ləzzətlə çəkərdim ciyərlərimə. Axı mən özüm də bu tərəflərdə doğulmuşam, deməli, əsl neft balası idim. Odur ki onun iyi burnumu oxşardı.

Günəşin işığında par- par parıldayan iki fayton qulluğumuzda hazır olardı. Kiçik vağzalın çıxacağında Zeynal və Zeyi adlı iki faytonçu bizi gözləyərdi. Bir xeyli görüşüb- salamlaşardıq. Zeynalla Zeyinin də biz yaşda balaları vardı. Odur ki, onlar bizə ata kimi nəzər yetirər və keçən payızdan bəri xeyli böyüdüyümüzü xüsusi nəvazişlə bildirdilər. Sonra onlar yükümüzü faytona qoyub yerimizi rahatlayardılar. Bir aləm yol getməli idik. Atlar sürətlə çapıb gedərdi. Neft mədənlərindəki tikililərini divarları at ayaqlarının səsindən cingildəyərdi. Biz «istiyə bax», «toza bax» deyə ah- uf edirdik. Düz iki saat ərzində fayton kələ- kötür yolla yırğalana- yırğalana irəliləyər, bizi möhkəm silkələyərdi. Sonra birdən ətrafda hər şey tamam dəyişərdi. Söhbət yoldan getmir. O necə idi, elə də qalmışdı. İlahi, görəsən o yollar kimi narahat yollar vardımı dünyada! Lakin mənzərə dəyişərdi: üfüqdə dalğalanan ucsuz- bucaqsız yaşıllıq görünürdü: ətirli bir möcüzə idi bu xışıldayan yaşıllıq dənizi faytonumuz bomboş çölləri arxada qoyub həmin dənizə sarı çapardı. Bu yaşıl ümman hündür divarlarla əhatə olunmuş mülkləri həyətlərində cəmləşmişdi. Hasardan ki, qırağa çıxdın qupquru çöl idi. Həyətimizin taybatay açılanda güllü- çiçəkli, yamyaşıl bağımıza heyran- heyran baxardıq. Təəccüblü burası idi ki, hasarın o tayında qəmgin və

boz səhralar uzanıb gedirdi. Uzun müddət faytonlar iki tərəfində hündür qovaq ağacları bitən xiyabanlardan keçər, tövlələrin, bağı elektriklə təmin edən emalatxananın, qoyunların mənzilinin (mən pəyələri beləcə adlandırırdım) ətrafında fırlanar, sonra bir qədər də çapıb evə doğru istiqamətləndirilmiş gözəl daş pilləkənin qarşısında dayanardı.

Bağa gəlməyimizin bu ilk anları məni vəcdə gətirərdi. Güllər bu anda həmişə olduğundan daha iri və təravətli görünərdilər. Onların ətri adamın qəlbinin dərinliklərinə nüfüz edərdi. Hava tamamilə hərəkətsiz olanda belə qovaqların yarpaqları titrəyər, mənə nə isə pıçıldayardılar. Sanki onlar da mənimlə görüşüb söhbət etməkdən ləzzət alardılar. Bu ilk dəqiqələrdə hovuzların suyü daha şəffaf, səma daha mavi görünərdi.

Mənzil başına gəlib çatandan sonra mən çox şeylə görüşüb salamlaşmalı idim. Özü də canlılarla yox. Həm də bitkilərlə, minerallarla. Uşaqların çoxu kimi mən də qəti əmin idim ki, əşyaların da, bitkilərin də ruhu var. Başqaların gözündə cansız görünən şeylər mənim aləmimdə sevinc duyur, həyəcan keçirirdi. Tələsirdim dostlarımla görüşməyə. Onlar özlərini mənimlə əşya kimi aparmırdılar, son dərəcə sadə bir dildə soruşduqlarıma cavab verirdilər. Lakin eşidib dərk edə bilən bir adam üçün bu tamamilə kifayət idi. Lap az adam bilirdi bu əşyaların dilini. Föryleyn Anna məni bir ağacla və yaxud skamya ilə söhbət edən yerdə tutanda yaman qəzəblənər və məni möhkəm cəzalandıracağı ilə hədələyərdi. «Axı nə üçün?»- mən təəccüblə soruşardım. Mənə elə gəlirdi ki, yaşlıların mənə məxsus olan bu aləmi sezə bilməsi onların anadangəlmə korluğuna, haqsızlığına dəlalət edir. Mənim dünyamın tən yarısı onların nəzərlərindən yayınır, digər yarısı isə duman içində görünürdü onların gözlərinə. Yaşlılara yazığım gəlirdi, onların korluğu isə ürəyimlə onlara qarşı həqarət hissi oyadardı. Ən qoca qovaq ağaclarından biri mənim babam idi. Heç kimə açıb söyləmədiyim bir arzum vardı: kaş mənə həyat bəxş edən elə bu qoca qovaq olaydı. O öz qovaq dilində mənə xoş sözlər söyləyir, xışıl- xışıl yarpaqları ilə məni oxşayardı. Mən ona başıma gələn sərgüzəştləri danışanda o butun yarpaqları ilə mənə qulaq asardı. Ağacın mənə bəslədiyi rəğbət hissini nə hərəkətlə göstərmək olardı, nə də sözlə ifadə etmək. Lakin onun mənə söylədikləri bəşər nitqi kimi aydın və anlaşıqlı idi.

Tənəklikdə işlədilməyən bir quyu da vardı. Mən tez- tez ona tamaşa etməyə gedərdim. Ürəyi dolu quyu tənhalıqdan şikayət edər, ah- zarla ağlayardı. Onun gözlərini görməsəm də qəti əmin idim ki, yaşa qərq olmuş xırda gözləri və qırmızı göz qapaqları var. Quyunun isti divarları kərtənkələlərin görüş yeri idi. Keçmiş təntənəsindən quyuya qalan da elə bu kərtənkələlər idi. Mən hər dəfə onların sayır və məmnuniyyətlə artmalarını müşahidə edirdim. Deməli, qoca yoldaşı vardı və mən heç bir vicdan əzabı çekmədən onu tərk edib gedirdim.

Beləliklə, hər bir küncdə- bucaqda, hər xiyabanda mənim dostum- tanışım vardı. Bu tərəfdə bir armud ağacı, o tərəfdə pilləkən, şümşad ağacı, qızılgül kolu, hovuz idi mənim sirdaşlarım. Mən özüm seçib- bəyəndiyim dostlarımla özümü xoşbəxt hiss edirdim. Bəşər nəslindən fərqli olaraq əşyaların mənə münasibəti onlara şamil etdiyim keyfiyyətlərlə müəyyən olunurdu. Odur ki, onlar hamısı mənə ürəkdən, təmənnasız dost idilər.

Babam zahirən qəşəng adam deyildi. Bu bir yana qalsın, nəvələrindən heç biri ondan nə bir nəvaziş görmüşdü, nə də bir xoş söz eşitmişdi. Onunla oturub- durmaqdan xoşum gəlmirdi, məni ona bağlayan heç bir hiss mövcud deyildi. Xanazır xəstəliyindən təzəcə sağalmışdım. Bu münasibətlə babamın yanına getmək lazım idi. Bu məni yaman dilxor edirdi. Amma boyun qaçırmaq heç cür mümkün deyildi. Ona görə qərara gəldim ki, bu xoşagəlməz borcu nə qədər tez versəm, bir o qədər yaxşı olar.

Babam Musa çinarın kölgəsində oturmuşdu. Mən iti addımlarla ona tərəf getdim və yaraşıqlı, qara saqqallı üzündən öpdüm. Sanki kəpənəyin qanadı yüngülcə onun üzünə toxundu. Sonra keçib babamın ayaqları altındakı skamyada əyləşdim və gözlərimi əngin səmaya dikdim. Göydə süzən buludlara tamaşa etmək mənə əcdadımın üzünə baxmaqdan daha artıq zövq verirdi. Kəlmə kəsmirdik. Sanki beləcə oturmaq ağır bir yükdü, düşmüşdü ikimizin də boynuna: babam mənim burada olmağıma tab gətirməli idi, mən də sitayiş etməli olduğum adamın yanında oturmağa dözməliydim. Babamın yanında kifayət qədər qaldığımı hiss edən kimi ayağa qalxdım. Babam da vəzifəsindən xəbərsiz deyildi: tez əlini cibinə salıb pul axtarmağa başladı. Yaman uzun çəkdi onun pul axtarmağı. Cibindən çıxartdığı pullara heyfi gəlirdi, tez də onları geri dürtürdü. O belə hesab edirdi ki, əlinə keçən pullar mənim üçün çox böyükdür, bədxərclik edə bilərəm. Nəhayət, babam razılıq əlaməti olaraq boğuq səslə öskürdü və utanırmış kimi, gizlicə ovucumun içinə bir on qəpiklik pul basdı. Bizim ailənin bütün üzvləri həyata açıq gözlə baxırdılar, pul hədiyyə verməyi də, almagı da bacarırdılar. Mən heç özüm də bu adətin əleyhinə deyildim. Əksinə, on qəpikliyi götürməklə özümü alçalmış hesab edirdim. Bununla belə, mən nəinki bu pulu qəbul etməliydim, hətta sevincimin aşıb- daşındığını da nümayiş etdirməliydim.

Lakin bu an bəxtim gətirdi: babamın ikinci arvadı bizə yaxınlaşdı, məni bağrına basıb öpdü. Sonra birdən onun gözləri baprmaqlarım arasında tutdugum on qəpikliyə sataşdı. Arvad özündən çıxdı, nə çıxdı: «Ağa Mussa!» (o həmişə ərinə hörmət əlaməti olaraq «aga» deyə müraciət edirdi), qıza bir az çox pul versəniz dünya qopar? Axı bu on qəpikliklə neynəmək olar?».

Üzündə dərin əzab ifadəsi həkk olunmuş babam yenidən ciblərini axtarmağa başladı. Nəhayət, bir manatlıq tapıb onu ürəksiz- ürəksiz mənə uzatdı və tez də arxasını çevirdi. İndi onun məndən də, öz səxavətindən də zəhləsi gedirdi.

Babam Bakının ən varlı adamlarından olmaqla yanaşı, həm də ən xəsislərindən biri idi. Heç də təsadüfi deyildir ki, onun adı şəhərimizin tarixinə məhz pul üstündə əsməsinə görə düşmüşdü, lakin diqqət versən, görərsən ki, bu qəribə adamın daxili aləmi, kökü- səbəbi məlum olmayan, saysız- hesabsız ziddiyyətlərdən təşkil olunmuşdur. Onun xəsisliyinin fövqəladə mürəkkəbliyini nəzərə çarpdırmaq üçün bu ziddiyyətlərdən bircəsini misal gətirmək kifayət edər. Bakının xeyriyyə cəmiyyətlərindən birinin rəmzi olan süni çobanyastığı çiçəkləri küçələrdə satılanda babam evdən bayıra çıxmaqdan çəkinərdi. O, küçədə ayıq- sayıq dayanmış, adam görən kimi qırğı kimi onun üstünə şığıyıb cəld əlindəki gülü onun yaxasına sancan, sonra da içində manatlar cingildəyən dəmir qabları cəlbedici bir görünüşə silkələyən şəxslərin dilsiz- ağılsız qurbanı olmaq istəmirdi. Lakin babam öləndən sonra məlum oldu ki, o xeyli adama, çox vaxt heç tanımadığı naməlum şəxslərə böyük məbləğdə pul paylayıbmış. Özü də reklamsız- filansız, özünü gözə soxmadan. O həmçinin kasıblara da əl tutar, onların balalarına təqaüd təyin edərdi.

Babamı iki dəfə oğurlamışdılar. Hər iki dəfə də böyük məbləğ bahasına sağ- salamat canını bu sərgüzəştdən qurtarmışdı. Mən qürurla deyə bilərəm ki, adam oğurlanmaqdan Bakı Amerikanı bir neçə il qabaqlamışdı. Lakin bizim tərəflərdə yerli qanqsterlərə «qoçu» deyərdilər. Onlar da öz amerikalı həmkarları kimi səmərəli, cəld və gizli fəaliyyət göstərirdilər. Rus polisi qurbanlardan başqa hamıya böyük mənfəət gətirən adam oğurluğunun qarşısını almırdı. Odur ki, qoçular hər dəfə yaxalarını cəzadan qurtara bilirdilər. Bundan əlavə onlar səxavət və mərdlikləri ilə də ad- san çıxarmışdılar. Qoçuların öz müştərilərini harada gizlədikləri barədə heç bir doğru- düzgün məlumat yox idi. Qurbanların özləri də bu barədə dinib- danışmırdılar. Camaat güman edirdi ki, onlar qoçuların tapşırığı ilə sürürlər. Lakin canını qurtarmış adamların sir- sifətinə baxanda belə bir nəticəyə gəlmək olardı ki, qoçular onlarla yaxşı rəftar edirdilər, xüsusilə onların yeyib- içməklərinin qayğısına qalırdılar. Oğurlananlar əsirlikdən kökəlmiş və rəngləri durulmuş halda qayıdırdılar. Ədalət naminə demək lazımdır ki, onlar öz məcburi istirahətləri üçün xeyli puldan keçməli olurdular.

Xəsis babamın gözlənilməz əli açıqlığından bir misal gətirim: o, vərəmdən ölmüş oğlu İsmayılın xatirəsinə son dərəcə dəbdəbəli bir bina tikdirmişdir. Sonralar müvəqqəti Azərbaycan hökümətinin müvəqqəti parlamenti bu binada yerləşirdi.

Budur, sonralar tarix müəllimlərinin vəcdə gətirən, xalq kütlələrini isə sonsuz əziyyətlərə və məhrumiyyətlərə düçar edən qasırgalar yenə də başımızın üstündə əsməyə başladı.

Rusiyada indi böyükdən tutmuş kiçiyə qədər, hamıya yaxşı məlum dramatik hadisələrin nəticəsində taxt- tacından əl çəkmiş, Kerenski də öz növbəsində hakimiyyətdən uzaqlaşmağa məcbur olmuşdu. Oktyabr inqilabının səs- sədası dünyanı başına götürmüşdü, qırmızılarla ağlar vətəndaş müharibəsi cəbhələrində ölüm- dirim mübarizəsinə girişmişdilər. İmperiya dağılırdı...

Tarixi ayrı, irqçə və din- etiqadca ruslardan fərqlənən xalqlar fürsətdən istifadə edib imperiyadan ayrılır, öz müstəqil dövlətlərini təşkil etməyə cəhd göstərirdilər. Qafqazda yaşayan gürcü, erməni və Azərbaycan xalqları öz müqəddəratlarını özləri həll etmək hüququ tələb edir və öz respublikalarını yaratmaqla hüquqlarını sübüta yetirməyə çalışırdılar.

Azərbaycanın paytaxtı Bakı da hərəkətə gəlmişdi. Burada müxtəlif siyasi qruplar və təşkilatlar yaranır və labüd şəkildə onların arasında çəkişmələr, didişmələr, rəqabət meydana çıxırdı. Sosialist təmayüllü bir erməni siyasi təşkilatı ölkəni kommunist təhlükəsindən xilas etmək bahanəsi ilə hərbi diktaruna yaratmağa müvəffəq oldu. Amma xalq arasında belə söz gəzirdi ki, əslində, təşkilatın başında bolşeviklər durmuşlar. Bilmək olmaz. Lakin əsas məsələ burasındadır ki, erməni təşkilatı özlərini müdafiə etmək üçün imkanı olmayan müsəlmanları qıraraq hakamiyyət başına gəlib çıxmışdı. Bir ingilis yazıçısının ifadəsi ilə desək, həmişəki kimi döyüşən millətçiliyin qurbanı yenə də xalq kütləsi olurdu.

Bir faktı xüsusilə qeyd etmək lazımdır: əgər Türkiyədə qırğınlar bir istiqamətdə baş verirdisə. Yəni türklər ermənləri qırırdısa, Azərbaycanda ermənilər bütün əvəzini çıxır, öz növbələrində, azərbaycanları məhv edirdilər: xristianlarla müsəlmanlar arasında əsl din davası gedirdi. Rus hakimiyyət orqanları isə laqeydcəsinə bu qardaş qırğınını seyr edir, onun qarşısını almaq üçün heç bir tədbir görmürdü. Çox güman ki, onlar müstəmləkəçilik siyasətinin ən məşhur prinsipi olan «parçala və hökm sür» mövqeyindən çıxış edirdilər.

Qaranlıq gecə idi. Freyleyn Anna gəlib məni yatağımdan qaldırdı. Mən dəhşət içində dik atıldım.

İşıq kəsilmişdi: evimiz də, butun şəhər də zil qaranlıga qərq olmuşdur. Harada atıldığı məlum olmayan güllələrin vıyıltısı eşidilirdi. Hər dəqiqə daşnaqlar (erməni millətçilər partiyasının üzvlərini belə adlandırırdılar) içəri soxulub evimizi tarmar edər, bizim də hamımızı güllədən keçirə bilərdilər. Telefon işləmirdi. Biz sanki taleyi tükdən asılmış, hamının yaddaşından pozulub- silinmiş bir adada idik. Hamımız analığım Əminənin Mavritaniya üslubunda tikilmiş, indi isə qaranlığa qərq olmuş otağına yığışmışdıq. Gözləyirdik. Çarəmiz nə idi? Səhər saat dördə yaxın kim isə var gücü ilə giriş qapısını döyəcləməyə başladı: elə bil evimizi də, bizim bütün ümüdlərimizi də alt- üst edib dağıtmaq istəyirdilər. Belə zənn edirdik ki, daşnaqlardı, bizi öldürməyə gəlirlər. Atam tapançasını götürüb otağını tərk etdi.

Bu vaxta kimi hamıda yelyebin qadın təsiri bağışlayan, lakin bu təhlükəli andan başlayaraq casarət və səda-

qət nümayiş etdirən Əminə də onunla birlikdə çıxdı. Ölüm gəlib bizim gözlərimiz qarşısında durdu, lakin görünür hələ vaxtımıza varmış: bir qədər keçəndən sonra gözlərindən sevinc yağan atam Əminə ilə birlikdə geri döndü. Onlarla birlikdə silahlı daşnaqlar deyil, bizimlə üzbəüz yaşayan erməni qonşularımız otağa daxil oldular. Onlar imdadımıza çatıb bizi evlərinə dəvət etdilər.

İçəri girən kimi ev sahibləri bu dar ayaqda insanı xüsusilə riqqətə gətirən bir qonaqpərvərliklə bizi qarşıladılar. Sonra yatmaq vaxtı gəlib çatdı. Lakin bu heç də asan məsələ deyildi: adam çox, çarpayı az. Bəzilərimiz döşəməyə, xalının üstünə sərilmiş döşəyin üstünə uzandıq. Mən kiçik bir otaqda gecələdim. Freyleyn Anna da kiçik qardaşımla birlikdə bu otaqda divanın üstündə uzanmışdı. Körpənin kəsik- kəsik qışqırıqlarından və atışmanın səsindən gözümə yuxu getmirdi.

Səhər biz ürəyimiz yana - yana dəhşətli bir hadisənin şahidi olduq: evimizin qabağında yuk maşınları dayanmışdı. Kəmərlərinə patrondaş taxmış adamlar pəncərələrdən maşının içinə cürbəcür əşyalar atırdılar. Əyinlərinə əcayib və çirkli paltar geymiş bu adamların təcavüzkar və vahiməli görünüşünə baxanda az qalırdı adamın bağrı yarılsın. Biz allaha şükür edirdik ki, bu səhnəni kənardan, tamaşacı sifətilə seyr edirik. Əgər biz küçəni o biri üzündə, öz evimizdə olsaydıq, çox güman ki, bizi də şeylərimiz kimi pəncərədən üzüaşağı tullayacaqdılar. Evimizi talan etməkdə davam edirdilər: əvvəlcə çəngəllərimiz yağış kimi maşının içinə töküldü, sonra bağları havada yellənən bir korset görünürdü. Kəşmir şalı hələ enməmişdi ki, arxasınca atılan XIV Lüdovik üslubunda hazırlanmış şamdan gəlib onu keçdi. Əminə: «Mənim göy məxmər paltarım»,- deyə güclə dillənə bildi. Freyleyn Anna qəmgin- qəmgin üstündə düz bir il ərzində naxış vurdugu yastığının yerə düşməsini seyr edirdi.

«Mənim təzə penuarım»,- deyə bacım Züleyxa öz növbəsində ah çəkdi. Bir xasiyyətim vardı: mənə elə gəlirdi ki, dünya da bütün əşyaların canı və ruhu var. Şeylərim pəncərədən aşağı atıldıqca yavaşca öz- özümə təkrar edirdim: «Yazıq paltom, gör bir nə müsibətlərə duçar olursan. Əlvida». Bu tövrlə mən yük maşınlarından birinə atılan, tülkü dərisi ilə işlənmiş sevimli paltomla vidalaşırdım.

Elə həmin gün günortadan sonra atam Əminə ilə bir yerdə çıxıb getdilər.

Atam çıxıb gedəndən bir gün sonra gecə saat üçdə bir dəstə silahlı quldur bizi yuxudan oyatdı: onlar hər yerdə atamı axtarırdılar. Quldurlar dama dırmaşıb, şkafları açıb içəri baxır, süngü ilə çarpayıların altını yoxlayırdılar. Adam gizlənə biləcəyi güman olunan hər yeri axtardılar, ələk- vələk etdilər. Əlləri boşa çıxmış quldurlar evdə olan bütün şərab ehtiyatını içdilər. Sonra qəzəblə atamın arxasınca söyə- söyə çıxıb getdilər.

Həmin günün səhəri nəməlum hərbçilər qaldığımız evin damına bir pulemyot qoydular və üzbəüz evi, yəni bizim dogmaca evimizi, gülləbaran etdilər. Bu intiqam güllələri gedib hədəfinə çatmırdı- atam uzaqda idi. Lakin bu mənasız hərəkət əsgərlərdə ruh yüksəkliyi yaradır, onlarda öz güclərinə inam əmələ gətirirdi.

Qonaq qaldığımız ailədə üç qarı vardı. Onlar çox vaxt növbə ilə, hərdənbir isə bir yerdə halımıza ağlayıb giley- güzar edirdilər.

Onlara qulaq asanda qüssədən az qalırdı adamın bağrı çatlaya. Qarılardan ən yaşlısı xüsusilə ürəyi yuxa idi. Gözü bizə sataşan kimi, o dəqiqə düçar olduğumuz fəlakət yadına düşür, halımıza yanıb gözlərindən sel kimi yaş axıdardı. Onun ipək kimi ağ, yumşaq saçları, baxışları adamın canına sirayət edən şəfqətli qara gözləri vardı. Yaşının ötməsinə baxmayaraq, üzünün dərisi hamar və qırmızımtıl idi. Sonsuz bir ümman idi bu qadının mərhəməti və şəfqəti. Qorxudan tir-tir əsdiyimi görüb rəhmdil qarı məni bağrına basır, ürəyimi ələ almağa cəhd göstərirdi. Lakin məni ovundurmaq çətin məsələ idi: qorxu bütün canıma nüfuz etmişdi. Bir də axı mən mənən tək-tənha idim...

...Şəhərin görüşünü çox acınacaqlı idi: mağazalar talan olunmuş, səkilər sökülmüş, pəncərələrin şüşələri qırılmış, evlərin fasadları güllədən deşik-deşik olmuşdur. Bütün bunlar bizdən də möhkəm adamları məyusluğa uğrada bilərdi. Hətta adətən deyib-gülən Züleyxa da tutulmuşdu və dinib-danışmırdı.

Atamın göndərdiyi Faytonçu gediş-gəliş çox olan küçələrə girməkdən ehtiyat edərək, atları asta-asta limana tərəf yönəltdi. Faytonumuz tezliklə tərsanələrin yaxınlığındakı bir evin qarşısında dayandı. Faytondan düşdük. Xidmətçi bizi evə apardı. Burada Əminə əynində işçi paltarı olan bir kişi ilə üzbə-üz oturmuşdu. Bu ki bizim atamız imiş! Yenidən qucaqlaşıb öpüşdük, göz yaşları tökdük. Bizə xəbər verdilər ki, İrana yollanırıq. Rusiyaya çaxnaşma salan inqilab bizim Bakını da təlatümə gətirmişdi. Qaçıb aradan çıxmaqla atam başımızın üstünü alan təhlükəni sovuşdurmağa cəhd göstərirdi. İranda bizi tanıyan olmayacaqdı və ümid edirdik ki, birtəhər başımızı girləyə bilərik.

Biz gəmi tankerlərimizin birinin kapitanının evinə düşmüşdük. O, gəmini yola düşmək üçün hazır vəziyyətdə saxlayırdı. Elə həmin axşam çətinliksiz-filansız gəmiyə mindik. Lakin qorxu bizi üzüb əldən salırdı: səfərə çıxmazdan əvvəl daşnaqlar gəmini yoxlamalı idilər. Əgər atamı tanıyan olsaydı, hər şey fəlakətlə nəticələnə bilərdi. Belə qərara alındı ki, atam maşın şöbəsində ocaqçı sifəti ilə işləsin, biz isə kapitanın uşaqları kimi təqdim olunaq. O ki qaldı Əminəyə və Freyleyn Annaya, onlar başlarına çadra örtüb özlərini əsl müsəlman qadını kimi aparmalı idilər.

Lakin təşvişlərimiz əbəs idi, qorxulu heç bir şey baş vermədi. Göyərtəyə qalmış daşnaqlar çox mülayim idilər. Bununda əsas səbəbini çox güman ki, kapitanın onlara təklif etdiyi araq dolu stəkanlarda axtarmaq lazımdır.

Daşnaqlar heç maşın şöbəsinə düşmədilər də. Atam isə bu vaxt orada əlində bel, başında araxçın bir zamanlar istismar etdiyi adamları təqlid etməyə cəhd göstərirdi. Başları içkidən dumanlanmış daşnaqlar kayut-kompaniyaya ötəri nəzər saldılar. Burada kapitanın arvad-uşağı əlindən tərpənmək mümkün deyildi. Hər şeyi iki görən daşnaqlar təəccüblənsələr də, özlərini o yerə qoymadılar və bir təqdim görmədilər. Bir neçə dəqiqədən sonra hələ də elektrik işığından məhrum zülmət Bakıdan uzaqlaşmağa başladıq. Başımızın üstündən təhlükə sovuşandan sonra keçirdiyimiz hissləri ifadə etmək üçün hələ heç bir dildə dəqiq söz yoxdur. Amma belə bir söz tapmaq lap yerinə düşərdi. Bu hissi təsvir etmək istəyirəm. Fərz edək ki, qorxu sizi qıc edib, həm fiziki, həm də psixi cəhətdən büzüşüb yumağa dönmüsünüz, daxilinizdə elə bir tələtüm vardır ki, mədə-bağırsağınız tir-tir titrəyir, spazmadan dişləriniz bir-birinə elə sıxılmışdır ki, çənəniz ağrıyır. Sonra sanki yuxudan dik atılıb görürsünüz ki, sizdə vahimə yaradan şey artıq çıxıb, qorxularınız artıq sizi təqib etmir. Sanki dünyanı sizə yenidən qaytarırlar: özünüzü tamamilə sərbəst hiss edirsiniz, bədəniniz nıvraqlanır, dərindən nəfəs alırsınız. Mən məhz bu hissələri, bu ovqatı təsvir etmək üçün dəqiq-düzgün söz axtarıram.

Adam gözlərinə inanmır, deyəsən axı bizi azad etmişlər. Həssas adamlar bu məqamda xoşbəxtlikdən ağlayır, dinə pənah gətirərək allaha şükür edir, dinsizlər isə elə-belə sevinirlər. Keçirdiyi bu tələtümlü, bu enişli-yoxuşlu hisslərdən sonra adamda bir iştah oyanır ki, gəl görəsən!

Gəmi açıq dənizə çıxan kimi biz üstünə cürbəcür ləziz yeməklər düzülmüş stolun üstünə cumduq. Xörəklər sanki nağıldan gəlmiş möcüzə idi. Bəlkə də bizə, iki həftə sərasər mərci yeməkdən cana doymuş adamlara belə gəlirdi! Nələr yoxdu üstündə! Təzə kürü də, nərə balığı da, toyuq-plov da, şəkərbura da... Biz kürünü qaşıqla, toyuğu əllə yeyirdik ki, tez doyaq. Dünya çıxmışdı yadımızdan. Heç kim dinib-danışmırdı. Elə hey bu ləziz yeməklərdən dürtürdük. Qızardılmış toyuq, qızılı rəngə çalan nərə balığı inqilabı da, lap ermənilərlə müsəlmanların bir-birini qırmasını da yaddaşımızdan silib aparırdı. Mən ümid edirdim ki, bu əla yeməklərdən sonra kefim durulacaq, rahat nəfəs ala biləcəyəm. Amma nə bilmək olar allahın işini!

Bütün yol boyu ürəkbulanması məndən əl çəkmədi. Bakıda keçirdiyim təşvişlər dəhşətli gəmi tutması ilə əvəz olunmuşdu. Gəl gör ki, camaat özünü əla hiss edirdi, əzab çəkən elə bircə mən idim. Düçar olduğum dərdi təkbaşına çəkməyə məcbur olduğum üçün o mənə daha acı, daha ağır görünürdü. Gəmi Ənzəliyə gəlib çatanda mən az qalmışdım canımı tapşırım allaha.

İranda deyəsən altı ay qaldıq. Bəlkə daha artıq burada yaşamağa məjbur olduq! Deyə bilmərəm. Elə hey qeyri-şüuri olaraq ömrümün bu ağır, xoşagəlməz günləri haqqında xatirələri unutmaq istəyirəm. İstinin, bürkünün, ağcaqanadın və malyariyanın çulğalaşmasından əmələ gəlmiş bir üzüntü idi bu dövr mənim üçün.

Ənzəlində, yaxşı yadımda deyil, kanalla, bəlkə də Xəzərdən ayrılmış bir qolla əhatə olunmuş eybəcər bir binada yaşayırdıq. Atam bizim Rəşt şəhərinə göçməyimizi qərara alana kimi bu evdə yaşadıq. Şəhərdə cəmisi bircə daş bina vardı. Özü də bomboş meydanın ortasına ucalırdı. Qalan binaların nədən tikildiyini müəyyən etmək müşkül məsələ idi. Lakin şübhəsiz ki, daşdan deyildilər.

İran torpağına təzəcə qədəm basmışdıq ki, kiçik xan adlı bir nəfərin başçılığı altında İran vətənpərvərləri ölkəyə qalib sifəti ilə soxulmuş ingilislərə qarşı müharibəyə başladılar. Vətənpərvərlər uzun saqqal saxlayırdılar. Onlar and içmişdilər ki, yalnız təcavüzkarlar torpaqlarını tərk etdikdən sonra üzlərini qırxacaqlar.

Bir neçə təyyarə şəhəri bombardman etməyə başladı. Küçələrdən güllə səsi gəlirdi. Budur, biz yenidən qurban sifətilə tarixi hadisələrin iştirakçısına çevrilirdik. İlahi, necə də tarixi hadisələrdən uzaq olmaq istərdik! Atılan güllələrin asanlıqla deşib keçə biləcəyi, tanımadığım məsaməli materialdan tikilmiş evdən burnumuzu çıxarmağa belə qorxurduq.

Hərdənbir azadlıq müharibəsinə ara verilsə də, bizə evdən bayıra çıxmağa icazə vermirdilər. Söhbət, əlbəttə ki, qadınlardan gedir. Düzünə qalsa, bayırda bizim bir işimiz-gücümüz də yoxuydu. Bundan əlavə, biz yalnız başdan-ayağa çadraya bürünəndən sonra küçədə görünə bilərdik. Bu vaxta kimi tərəqqinin sayəsində biz bu lənətə gəlmiş örtüyün nə olduğunu bilmirdik. Çadranı başına örtərək ona tamamilə dolaşmamaq və yaxud onu yerə salıb itirməmək üçün müəyyən təcrübəyə malik olmaq lazımdır. Gərək bir əlinlə çadranı üzünün yanında tütaydın ki, «həbsxanandan» yalnız gözlərin görünsün, digər əlinlə isə onu bədəninə yapışdıraydın.

Əminəm ki, bu başıbəlalı örtük islam dininin çox da uğurlu ixtiralarından deyildir. Bakıda heç olmasa ürəyinə yatan rəngdə çadra örtmək mümkün idi. Burada isə çadranın rəngi mütləq qara olmalı idi. Adama elə gəlirdi ki, qapqara qarğalar ölkəni başına götürmüşlər.

İranda xoşagəlməz bir cəhət də vardı: yadımdan çıxdı sizə xəbər vermədim, burada şiələr yaşayırdı: Əminə isə sunni idi və addımbaşı öz «kafirliyini» büruzə verirdi. Bu isə İranda yaman pislənirdi. Analığım sunniliyini biabırçı bir xəstəlik kimi gizlətməli idi. Başqa vaxt din məsələlərini heç vecinə də almayan Əminə bu münasibətdən yaman əzab çəkirdi. Ona elə gəlirdi ki, əqidəsini açıq-aydın bürüzə verməməklə, o öz prinsiplərinə xəyanət edir. Məhz buna görə də Əminə hamımızdan artıq Bakıya can atırdı.

Bakıdan gələn xəbərlər ümidverici idi və atam qərara gəldi ki, Ənzəliyə qayıtmaq vaxtı çatmışdır: axı oradan əlini uzatsan, gedib Vətənə çatar.

Biz yenidən Xəzərin qırağındakı eybəcər binaya düşdük. Gözümüz yolda, qulağımız səsdə idi. Lakin sən say-

dığını say, gör fələk nə sayır. Elə Vətənə dönmək ürəyimizdən keçirdi ki, malyariya daraşdı canımıza. İnsafmürüvvət bilməyən tufan kimi gah qalxan, gah da enən, adamın vücudunu tir-tir titrədən qızdırma heç vaxt xatirimdən silinməyəcəkdir.

Bir neçə ay da beləcə gəlib keçdi. Sonra xəbər gəlib çatdı ki, türklər, yəni Türkiyədə yaşayan əsl osmanlı türkləri, Bakını tutmuş və bütün Qafqazda qayda-qanun bərpa etmişlər. Elə həmin gündən də fikrimiz-zikrimiz geri qayıtmaq idi. İntizardan gözlərimizin kökü saralmışdı: Lakin yenə də xeyli müddət gözləməli olduq. Türklər inqilabçıların qiyam qaldırmasından ehtiyat edirdilər, odur ki, gəmilərə Bakı limanına girməyi qadağan etmişdilər. Şəhərimizdə hökm sürən sakitlik və firavanlıq haqqında xəbərlər qulağımıza gəlib çatdıqca intizardan az qalırdı bağrımız çatlaya.

Nəhayət, günlərin bir günü vaxtı ilə öz gəmisində bizi İrana gətirmiş, hiyləgərliyi, cəsarəti və şən xasiyyəti ilə bütün Xəzər dənizində tayı-bərabəri olmayan kapitan ailəmizi Bakıya qaytardı. Ərköyün dalğalar gəmimizi atıb-tutur, mən yenidən cavan canımı allaha tapşırırdım. Nəhayət , əziz şəhərimizə və başdan-başa dağıdılıb talan olunmuş evimizə gəlib çıxdıq. Mebellərin yalnız ən iriləri ayaq üstə idi, lakin onlara da xeyli ziyan vurulmuşdu. Məbəd şəklində hazırlanmış şkafların oxlarını güllə ilə qırmışdılar, taxta heykəlləri bıçaqla yonmuş, XIV Lüdovik üslubunda qayrılmış yazı masasına arxası üstə çevirmişdilər. Bir vaxtlar masanı bəzəyən, üstündə Amur-Psixeya əhvalatından bir səhnə həkk olunmuş yekə medalyon qırılıb parça-parça olmuşdu. İnsanların zorakılığı ucbatından bədbəxt Amur və Psikeya yenidən bir-birindən ayrı düşmüşdülər. Amma biz evə qayıtmağımıza elə şad idik ki, hətta bu qırılmış mebel və əlüzyuyanların özləri də bizə qəşəng görünürdülər.

Səkkiz ay idi ki, ailəmizin digər üzvləri haqqında heç bir məlumatımız yox idi. Bakıya qayıtdıqdan sonra onlar haqqında da xəbər tutduq: Leyla öz əri, oğlu və Sürəyya ilə birliklə inqilab alovlarında alışab-yanan Rusiyaya uzun və təhlükəli səyahətdən sonra, nəhayət, gəlib Odessaya çıxmış və indi də iki ay idi ki, intizar içində Batuma yollanan gəmini gözləyirdi. Onların gözləməsi hələ uzun çəkə bilərdi, çünki başdan-başa minalanmış Qara dəniz müxtəlif xalqların və partiyaların döyüş meydanı idi.

Türklər Bakıda, demək olar ki, hər gün bir nəfər başıbəlalını boğazdan asmaqla sakitliyi və qayda-qanunu bərpa etmək istəyirdilər. Şəhər istirahət bağlarının birində dar olsun deyə, boğazdan asılmışlar günün günorta çağı küləkdə yellənirdilər. Etiraf etmək lazımdır ki, bu metodun bir yaxşı cəhəti də vardı: tezliklə oğurluğa, quldurluğa və qatma-qarışıq dövrlər məxsus digər hadisələrə son qoyuldu. Şəhərdə qayda-qanun bərpa olundu.

Bir qədər keçəndən sonra ingilislər türkləri əvəz etdilər. Dünya müharibəsində müttəfiqləri almanlarla birlikdə məğlub olmuş türkləri məcbur etdilər ki, öz torpaqlarına qayıtsınlar. Neftdən ötrü sinov gedən ingilislər neft mədənlərində onların yerini tutdular.

Evimiz ingilis zabitlərinin görüş yerinə çevrildi. Əminə naz-qəmzədən əzilib-büzülən böyük bacım Züleyxa ilə birlikdə qonaqları qəbul edirdi. Əminə ilə həddindən artıq dostlaşmış Züleyxadan həm məndən yaşlı olmasına, həm də özünü sərbəst apara bilməsinə görə zəhləm gedirdi. Eyni zamanda ona paxıllığım də tuturdu. Bacım elə lovğalanırdı ki, gəl görəsən. O elə qudurmuşdu ki, hətta camaatın qabağında papiros çəkməkdən belə çəkinmirdi.

Bakı göz qabağında avropalaşırdı. Həminə tarixin tələtümlü dövrlərində olduğu kimi, indi də adət ənənələr zəifləyir, din öz təsir gücünü itirirdi. Artıq Əminənin davranışı ailədə heç kimi maraqlandırmırdı. Qafqazda və bizim keçmiş sahibimiz geniş Rusiyada baş verən hadisələr ailə üzvlərimizi Əminənin həddindən artıq açıq qalmış döşlərindən, hətta onun yad kişilərə naz-qəmzə satmasından daha artıq maraqlandırırdı. Atama gəldikdə, onun fikri-zikri siyasəti yanında idi və Əminəni başlı-başına buraxmışdı. İndi hamı ağızdolusu müstəqil Azərbaycandan, muxtar və xoşbəxt Ermənistandan, Kareliyadan, nə bilim, Qazaxıstandan söhbət edirdi. Respublikaların adlarını müşayiət edən epitetlər və adları bu epitetlərə uyğunlaşdırılmış respublikalar heyrət içində donub qalmış xalqların üzərinə yağış kimi yağırdı. Tezliklə ingilislər də Qafqazı tərk etdilər və bizim minarəli, neft mədənli şəhərimiz müstəqil Azərbaycan Respublikanının paytaxtına çevrildi. Yeni respublikanın öz parlamenti də vardı. Burada təmsil olunmuş partiyaların sayı, demək olar ki, iclaslarda iştirak edən deputatların sayı qədər idi. Respublikanın ömründə əlinə tüfəng götürməmiş miskinlərdən təşkil olunmuş ordusu da vardı. (Çar Rusiyasında bizim xalqın cavanları hərbi qulluqdan vergi verməklə azad edilmişdi). Amma buna baxmayaraq, münzəzəm olaraq hərbi paradlar təşkil olunur və bu paradlar zamanı vətənpərvər ruhda nitqlər söylənirdi. Paradın sonunda gənc bir vətənpərvər tərəfindən tələm-tələsik bəstələnmiş himi də ifa olunurdu. Bu, əlbəttə, himnin uğursuzluğuna müəyyən qədər bəraət qazandırırdı. Mükəmməl təşkil olunmuş başqa respublikalarda olduğu kimi, bizim respublikamızda da prezident və cürbəcür nazirlər vardı. Mənim atam ticarət naziri təyin olundu. Bu faktı parlaq və gözəgəlimli ifadəsi kimi evimizin qabağında qaravul çəkmək üçün daimi olaraq iki nəfər əsgər qoydular. Axı, evimiz indi nazir evi idi. Eybəcərliyi təsvirə gəlməz, adı Əflatundan başqa gözə çarpan heç bir keyfiyyəti olmayan qapıçımız indi yaşıl livreya geyinmişdi. Atam sarı dəridən tikilmiş əla bir portfel aldı. Bu portfel müstəqil Azərbaycan Respublikası və atamın nazirliyi ilə birlikdə qeyb oldu. Amma nə biləydik Azərbaycan Respublikasının süqutunu; hələlik ürəklərimizin sevinci aşıb-daşırdı.

İngilislər Bakını tərk edəndən sonra bacılarım, nəhayət, uzun müddət ilişib qaldıqları Odessadan Bakıya qa-

yıda bildilər. Nələr çəkməmişdi bu yazıqların başı! Bu qədər sərgüzəştdən sonra onların sağ qalmasına adam təəccüb edirdi. Lakin düçar olduqları əziyyətlər onlara möhkəm təsir etmişdi. Son dərəcə qəribə geyinmiş bacılarım arıqlayıb əldən düşmüşdülər. Sürəyya özünə kişdən paltar tikmişdi: paltarın heç bir biçimi yox idi. Bu isə Sürəyyanın özünü də biçimsiz göstərirdi. Lakin bacıma elə gəlirdi ki, o çox qəşəng geyinmişdir. Züleyxa həqiqəti dik onun üzünə deyəndə Sürəyya yaman dilxor oldu. Leylaya gəldikdə, o, ikiqat pərdə arasında qoyulan yun astar parçasından tikilmiş don geyinmişdi. Leyla onun geyiminə tutulan iradları heç vecinə də almırdı. O əvvəlki kimi şən, hərarətli və coşğun idi, keçmişdə olduğundan daha artıq bir qətiyyətlə qərara almışdı ki, özü bildiyi kimi yaşasın. O, ata evinə qayıtdı və bizimlə bir yerdə yaşamağı qət etdi. O belə hesab edirdi ki, əri nifrətə layiqdir. (Lakin qohumların hamısı tamamilə əks fikirdə idi) və onunla bir yerdə yaşamaq heç cür mümkün deyil. Nə ərinin yalvarışları, nə də onun təhdidləri (düzdür, bu təhdidlər son dərəcə zəif idi) heç bir nəticə vermədi. Ərinin yersiz təkidləri Leylanın canını boğazına yığırdı və nəhayət, bacım qərara gəldi ki, ondan boşansın. Bu, Leylaya atasıgildə yaşamaq hüququ verirdi. O yenidən öz qızlıq otağına köçdü. Oğlu da qonşu otaqda qalırdı. Bu gündən sonra Leylə əri ilə zəhlətökən bir qohum kimi rəftar etməyə başladı. Bununla belə, Leyla əri ilə dil tapmalı idi. Axı arvadını dərin bir məhəbbətlə sevən kişi boşanmaqdan inadkarlıqla imtina edirdi. Bədbəxt ər anasıgildə qalmağa məcbur idi. O, oğluna pərəstiş edirdi və hər gün onu görməyə, bir də ki insafsız Leylanın ürəyini almağa gəlirdi. Lakin bütün bunlar nahaq idi. Əgər bir qadın «öz kefi ilə yaşamaq istəyirsə», yer üzündə ərindən daha artıq ona mane ola biləcək bir adam tapmaq çətindir. Yəqin ki bütün qadınlar mənim dediklərimi təsdiq edərlər. Leyla qəti qərara gəlmişdi ki, ərini başından eləsin.

Amma dünyanın işinə bax ki, biri yaxasını ərinin əlindən almaq istəyir, digəri isə yolla olursa-olsun getməyə can atır. Bacılarım Sürəyya və Züleyxa bu arzu ilə yaşayırdılar. İndi tez-tez abırlı müsəlman ailəsindən olan gənc, «demək olar ki» həkim və yaxud «demək olar ki» mühəndis (adətən onlar hamını inandırmağa çalışırdılar ki, təhsillərini başa vurmağa bir-iki, qalmış tərk etmişlər) böyük bacılarımdan biri ilə evlənmək istəyirdi. Onların hansı ilə evlənməyin heç bir əhəmiyyəti yox idi. Bu məsələni gələcək yeznələr tamamilə atamın ixtiyarına buraxırdılar. Sövdələri baş tutmayanda onlar inadkarlıq göstərməyib, mənim həddi-buluğa çatmağımı gözləməyə də razı idilər.

Biz şəhərə sentyabrın biri qayıtdıq. İstidən nəfəs almaq mümkün deyildi. Bağdan dərd, qussə və intizar içərisində yola düşdük: əmin idik ki, malımız mülkümüz tamam əlimizdən çıxmışdır.

Evimiz tamamilə müsadirə edilmişdir. Təkcə hərbi müsiqiçilərin yerləşdiyi axırıncı mərtəbədə bibim Rəna iki otağı qoruyub saxlaya bilmişdi. Yeməyimiz də, durub-oturmağımız da, yatmağımız da nəfəslik musiqi alətlərinin sədaları ilə müşayiət olunurdu. Hərə ağlına nə gəldi çalırdı. Nəticədə evdə bir səs-küy, bir qara-qışqırıq olurdu ki, gəl görəsən: ağız deyəni qulaq eşitmirdi. Az qalırdı adam dəli olsun. Təkcə əmimin vecinə deyildi: o kar olduğuna görə heç nə eşitmirdi. Bu də Rəna bibini cin atına mindirirdi. Elə də əsəbi olan qadın indi hər bir xırda şeydən ötrü özündən çıxırdı. Yazıq əmim lap qapazaltıya çevrilmişdi. İş o yerə gəlib çatmışdı ki, qadın açıq-aydın ərini başqaları kimi tutulmamasından heyfsləndiyini bildirirdi. Özü də Rəna bibi var gücü ilə qışqırırdı ki, əri onu yaxşı eşitsin: «Gör bir nə bədbəxtəm mən! Camaatın ərk həbsxanadadır. Mən yazıq də sənin nazın ilə oynamalı, qeydinə qalmalıyam. Xeyr, xeyr, məndə o bəxt haradan ki, canımı sənin əlindən qurtarsınlar!».

Bibim bərkdən ah çəkirdi ki, əri onun səsini eşitsin. Kişi də yaxşı eşitmək üçün əlini qulağının dibinə qoyur, ikrahla çiyinlərini çəkir və bütün karlar kimi bağırırıdı: «Neynim, allah sənə ağıl verməyib də!».

Yetimliyimi bəhanə edən bibim yerimi ərinin çarpayısında salır, kişini də qonşu otağa, kiçik bir divanın üstündə yatmağa göndəriridi. Səhər gəlib görürdük ki, yazığın ayaqları divandan kənara çıxıb havada yırğalanır. O, ağzını geniş açıb elə bərkdən xoruldayırdı ki, əsgərlərin qeyri-ahəngdar musiqisinin də sədalarını batırmağa nail olurdu. Bu xoşagəlməz səhnəni müşahidə edən Rəna bibi deyinirdi: Yazıq qızım, əgər məsləhətimi bilmək istəyirsənsə, heç vaxt ərə getmə. Səhərlər kişilər arvadın beynini aparırlar, sonra da kefləri istəyəni ondan tələb edirlər, amma əvəzində də heç bir şey vermirlər. Bu miskini ki görürsən, heç uşaq əkməyə də iqtidarı çatmadı.

Ərindən zəhləsi gedən Rəna bibi ciddi-cəhdlə onu əsəbiləşdirmək üçün vasitələr axtarırdı və axırda, deyəsən, istəyinə nail oldu: indi arvad qışqırıb-bağırmaq əvəzinə yavaşdan danışırdı. Yazıq kişi bir kəlmə də eşitmirdi. O əbəs yerə qulaqlarını şəkləyir, bibimin dodaqlarına diqqət yetirirdi. Kişi qırıq-qırıq sözlərdən başqa heç bir şey eşitmirdi.

«Ay arvad, nə dedin axı! Heç bir şey eşitmirəm», -deyə kişi hiddətlə deyinirdi. Rəna bibi barmaqlarını dodaqları üstə qoyub başı ilə otağımızı əsgərlərin qaldığı otaqdan ayıran qapını göstərirdi. Yazıq kişinin də beynindən min cür fikir, min cür güman keçirdi, lakin içini yandırıb-yaxan marağın təşnəsini heç cür söndürə bilmirdi.

Mən Rəna bibimi çox sevirdim. Bunu onun mənə bəslədiyi xüsusi rəğbətlə izah etmək olardı. Lakin elə bunsuz da qadını açıqürəkliliyinə, xeyirxahlığına, ağlına-kamalına görə sevməmək mümkün deyildi. Lap onun eyiblərində-zəhərli dili də, qumar oyununa ehtirası da, adamda rəğbət hissi oyadırdı. Çox vaxt gecələr gözümüzə yu-

xu getmədiyinə görə yanaşı uzanıb uzun-uzadı söhbət edərdik. Əmim qonşu otaqda xoruldayırdı, əsgərlər də öz nəfəsli alətlərini üfürərdilər. Bakının, bu küləklər şəhərinin, xəzrisiz-gilavarı da vıyıldayıb onların səsinə səs verərdi.

Biz lap donuz kimi his-pas içində idik. Payızın əvvəllərində tüğyan edən, adamın nəfəsini kəsən istilər az imiş, bu tərəfdən də şəhər su kəməri partladı. Bu çətin dövrdə onu təmir etmək son dərəcə müşkül bir məsələyə çevrilmişdi. Biz şəhərin küçələrində gəzişib növbə ilə gah rus, gah da Azərbaycan dilində: «Voda, voda! Ay su alan, ay su alan!» qışqıran susatanlardan içməyə su alırdıq.

Bizim isti diyarda indi suyu stəkanla ölçürdülər və kəmərlər işə düşməmişdən əvvəl yuyunmaq haqqında heç söhbət ola bilməzdi. Kəmərin təmir olunmasını gözləməkdən gözlərinin kökü saralmış əhali çirk içərisində yaşayırdı. Belə bir şəraitdə bitin sirkənin şəhəri başına götürməsi heç də təəccüblü deyildi. Darağımın dişləri arasında ilk dəfə yekə bir biti görəndə tüklərimin necə ürpəşdiyini hələ indi də xatırlayıram. Amma dünyanın işləri çox qəribədir: birinci bitdən canıma üşütmə düşdüyü halda, yüzüncüsü nəzərimə sataşanda heç vecimə də almadım.

Bu biri tərəfdən də üfünət dünyanı başına götürmüşdü. Əsgərlər çirkab qablarını elə otaqlarındaca qoymuşdular və çox nadir hallarda onların boşaldırdılar. Qablardan gələn iy bütün mənzilə, bəlkə də bütün evə yayılırdı. Pilləkənlə yuxarı qalxanda iy adamı vururdu. Çox qəribədir, bu üfunətli, musiqili, hisli-paslı heç də təəssüf hissi ilə xatırlamıram. O vaxtların şirini də vardı, acısı da. Bir də ki, məni hər cür əziyyətə qatlaşmağa məhz o zamanlar öyrətdi.

Allaha şükür, o vaxtlar bircə aclıqdan əzab çəkmirdik. Qafqaz torpağı çox bərəkətlidir. Bu diyarda nə istəsən bitir. Nəqliyyat vasitələri sıradan çıxdığına görə kənara ərzaq çıxartmaq mümkün deyildi və bizim tərəflərdə yaman bolluq yaranmışdı. Halbuki Rusiyanın bir çox yerlərində camaat acından ölürdü. Bizim tərəflərdə ərzaq cəhətdən firavanlıq idi. Rusiyada xüsusilə araq qıt idi. Bizdə isə ürəyi istədiyin qədər içki tapa bilərdin. Elə cəsarətli adamlar peyda olmuşdu ki, bu qiymətli mayeni Moskvaya aparıb qızıl qiymətinə satırdılar. Düzdür, tutulub həbsxanaya düşmək təhlükəsi də vardı. Amma təşəbbüsə dəyərdi: səfər uğurlu olanda bu adamlar böyük var-dövlət qazanırdılar.

Bacım Leylanın qulluqçusu Katerina ağzına kimi adamla dolu cədvəlsiz-filansız hərəkət edən qatarlarla müntəzəm olaraq Moskvaya gedib-gəlirdi. Xoşbəxtlikdən, qulluqçu qadın çöp kimi arıq idi. O, bədəninin müxtəlif hissələrinə müvafiq alümindən qablar düzəltdirmişdi. Arvad onların içini araqla doldurub dünyanın fəth etməyə yola düşürdü. Katerina hər dəfə bir neçə litr araq aparıb ağlasığmaz qazanc əldə edirdi. O, əlinə keçən bütün pulları gətirib Leylaya verirdi ki, uşağı üçün xərcləsin. Qulluqçu Leylanın körpəsini elə dərin bir məhəbbətlə sevirdi ki, onun üçün canından belə keçməyə hazır idi.

Şəhərə qayıdandan bir həftə sonra həbsxanaya, atamla görüşə yollandıq. Həbsxana uzaq Bibi-heybətdə, neft mədənləri rayonunda yerləşirdi. Neft çıxarılan hər yerdə olduğu kimi, burada da nə ot bitirdi, nə ağac. Hava yaman bürkü idi. Leyla içi bozartma ilə dolu yekə bir qazan aparırdı. Mənim də əllərimdə cürbəcür bağlamalar vardı. Əvvəlcə biz milyonçular şəhərinin yeganə nəqliyyatı olan iki miskin yabının güc-bəla ilə çəkib apardığı konka ilə getdik. Atlara baxanda adamın ürəyi sızlayırdı. Arıqlıqdan sümükləri elə çıxmışdı ki, sanki bu dəqiqə dərilərini deşib çıxacaqlar. Sürücü insaf-mürüvvət bilmədən atları var gücü ilə qamçılayır, yazıq heyvanlar da bu insan və dəmir yığınını çəkirdilər.

Konkanın son dayanacağı ilə həbsxana arasında xeyli məsafə vardı. Yol Xəzər dənizi sahili boyu uzanıb gedirdi. Yolun qırağında bircə kölgə də yox idi ki, adam ilin bu son -gələn ilin yazına kimi qeyb olacağını sanki dərk edib xüsusilə qəzəblənmiş istisindən daldalana bilsin.

Yolun sağ tərəfində boz buruqlar ucalırdı. Bir vaxtlar biz avtomobillə Bibi-Heybəti keçib, Dəniz sahilinə gedirdik. Düzdür, o tərəflərdə də bomboş səhra idi. Lakin hər halda mavi dəniz adamın gözlərini oxşardı. İndi isə atamın görüşünə piyada gedirdik bu yolu. Bütün keçmiş səfərlərimiz bir-bir gözlərim qarşısından gəlib keçir, mənəvi əzablarıma fiziki işgəncələr də, əlavə olunurdu. Lap yorulub əldən düşmüşdüm. Bu vəziyyətdə bircə çarə qalırdı-hər şeyi unudub xəyala dalasan. Mən artıq ərinin qarasınca deyinən Leylanın sözlərini eşitsəm də, mənasına varmırdım. Hərdənbir də qeyri-müəyyən bir səs çıxarırdım ki, güya ona qulaq asıram.

Bir saatdan sonra gəlib həbsxananın həyətinə çatdıq. Burada adam əlindən tərpənmək mümkün deyildi. Xeyli gözləmək lazım gəldi. Şərq itaətinə adət etmiş adamlar səslərini çıxarmadan qızmar günəşin altında bişirdilər. Yeməklərin çəkib gətirdiyi milçəklər adamın lap zəhləsini tökürdü. Bir saat da burada gözləməli olduq. Sonra əlifba sırası ilə görüşə gələnləri səsləməyə başladılar. Yeri gəlmişkən, bu cəhətdən bəxtim yaman gətirmişdir: familiyam əlifbanın ilk hərfi ilə başladığı üçün nə qədər intizarın ömrünü qısa etmişəm. Biz bozartmanı və qalan bağlamalarımızı hərbçiyə birinci verdik. Amma bu hələ harasıdır: bundan sonra görüşə gələnlərlə dolu başqa bir həyətdə bir saat da gözləməli olduq. Vaxt uzanırdı. Nəhayət, bir nəfər əsgər gəlib bizi barmaqlıqla ikiyə bölünmüş bir həyətə apardı. Mən arıqlayıb çöpə dönmüş, pərişan saqqallı atamı gördüm. Cır-cındır dustaq geyimi vardı əynində. Barmaqlıqdan ikiəlli yapışmışdı. Bizi görən kimi atam qaralıb arıqlamış qollarını bizə tərəf uzatdı. Hıçqırıq məni boğurdu. Bu an atama elə yazığım gəlirdi ki! Onun arıq əllərini öpüşlərə qərq

etdim.

-Bəsdir, di sakit ol,-deyə atam mənə müraciət etdi.-Allaha şükür, görürsən ki, özümü heç də pis hiss etmirəm.

Göz yaşları qoymurdu ki, atamla bircə gəlmə kəsim. Atamın sözləri ürəyimi parça-parça edirdi. Allahın işinə bax, mənim arıq, çirkli atam həbsxanada özünü yaxşı hiss edirdi. Taleyin hökmünə belə itaətkarlıq mənə hər bir şikayətdən də ağır təsir bağışlayırdı.

Atamla görüşlərdən bir xatirə hafizəmdə həkk olunub qalmışdır. İlk baxışdan başıma gələn əhvalatın çox da böyük əhəmiyyəti yoxdur. Lakin hərdən əhəmiyyət siz bir şey bizi xoşbəxt edə bilir, qaranlıqda günəş kimi parlayır.

Bir gün mən yenə də həbsxanadan qayıdırdım. Tamam yorulub əldən düşmüşdüm. Soyuq adamın lap canına işləyirdi. Bakıya nadir qonaq gələn qar səkiləri örtmüşdü. Köhnə ayaqqabılarım (bizim şəxsi əmlakımızı tamamilə müsadirə etmişdilər) elə hey sürüşürdü.

Gəlib evə çatdım. Elə yorğun idim, elə üşüyürdüm ki, danışmağa da, gileylənməyə də taqətim qalmamışdı. Yerinə girib yatmaq-həbsxananı, əziyyətlərimi, məyusluğumu unutmaq istəyirdim. Lakin bu soyuq otaqda yuxuya getməyin özü də müşgül məsələ idi. Yerimdə büzüşüb qalmış, bir parça buz ətə çevrilmişdim. Birdən möcüzə baş verdi: göydən özü ilə istilik və rahatlıq gətirən bir pambıq yorğan düşdü mənim üstümə. Sanki indi cənnətdə idim. Yuxuya daldım. Ürəyimə də, bədənimə də hərarət yayan bu şəfqəti ömrüm boyu yaddan çıxara bilmərəm. Gör mənim əziz və həssas bibim mənəvi və fiziki əzablarımı nə yaxqı dərk edirmiş.

Günlərin bir günü Mariya Nikolayevna (belə idi bizim müəllimənin adı) mənim və bibim qızı Gülnarın ardınca gəldi.

-Qəşəng qızlarım,-deyə o təntənə ilə sözünə başladı,-mənə elə gəlir ki, sizin şüurunuz artıq göhnəliyin qalıqlarından təmizlənmişdir və siz bizim ideyaların ədalətliyini dərk edirsiniz. Bunu sözlə yox, işlə sübüt etmək istərdinizmi!

-Bəli, istərdik,-deyə bir ağızdan cavab verdik.

-Lap yaxşı, bu tərəflərdə yerləşən mülklərin siyahısını tutmaq üçün komissiyalar təşkil olunacaqdır. Asan işdir, amma adamın zəhləsini tökür. Görən bir karandaş, bir parça da kağız götürəsiniz əlinizə. Bu iş böyük tələb edir, çünki evlərdə nə var, hamısını siyahıya almaq lazımdır. Bizə kömək edərsinizmi!

Yaman çətin sual idi. Nə qədər ki, kommunist rolunu dörd divar arasında icra edirdik, birtəhər dözmək olardı. Amma tanış-bilişlərin əmlakını siyahıya almağa gələndə işlər ağırlaşırda. Mariya Nikolayevna bizimlə xeyli söhbət elədi. O bizim tərəddüdlərimizin səbəbini bilirdi: axı biz dost-tanışımızı özümüzdən incik sala bilərdik. Vasvasılığımızın səbəbini yaxşı dərk edən qadın onları dəf etmək üçün bizi ruhlandırırdı. «həyatda asan heç bir iş yoxdur,-deyə o bizə müraciət edir, atılan hər bir addım qətiyyət və səbat tələb edir». Onun fikrincə, əgər biz həqiqətən tərəddüdlərimizi dəf etməyi qərara almışdıqsa, nə vaxtsa ilk addımı atmaq lazım gələcəkdi. Təklikdə Gülnarla xeyli məsləhətləşdik. Amma son nəticədə mən özüm qərar qəbul edib Mariya Nikolayevnaya razılığımızı bildirdim: naz-qəmzə satmaqda tayı-bərabəri olmayan Gülnar qalan işlərdə son dərəcə qətiyyətsiz idi. Freyleyn Anna və bibim nahaq yerə bizi fikrimizdən daşındırmağa cəhd göstərmirdilər. Axı biz bu hərəkətlərimizlə atamı, Leylanın ərini və ailəmizin digər üzvlərini həbsxanaya salmış adamlara kömək əli uzatmış olurduq. Amma biz onların bütün dəlillərini, ürəyini qırdığımız nənəmin hıçqırıqlar içində üstümüzə yağdırdığı söyüşlərini bir qulağımıza alıb, o biri qulağımızdan verirdik. İnqilabi çoşğunluq ruhumuza hakim kəsilmişdi və biz Leninin şəklini nümayişkaranə yaxamıza sancıb cümduq ictimai borcumuzu yerinə yetirməyə, əlimizdə kağız-qələm getdik taleyimizin yeni səhifələrini yazmağa. Bizə elə gəlirdi ki, dərin tellərlə kommunizm ideyasına bağlıyıq. Hündürboy, cavan bir oğlanın başçılıq etdiyi, Mariya Nikolayevnadan, Gulnardan və məndən ibarət «Varlıların əmlakını siyahıyaalma komissiyası» öz görünüşü ilə bir təsir buraxmırdı. Var gücü ilə bizi fəaliyyətə təhrik edən Mariya Nikolayevna olmasaydı, çox güman ki, biz öz vəzifələrimizi yerinə yetirə bilməyəcəkdik.

Utancaq Sergey cibindən bir parça kağız çıxartdı. -Budur,-deyə o bizə müraciət etdi,-qonşunuz Mustafayevdən başlamalıyıq.

-Yox, yox,- deyə Gülnarla mən bir ağızdan qışqırdıq,-bu heç cür mümkün deyil.

-Yaxşı,-deyə cavan oğlan siyahıdakı ikinci adamın familiyasını oxudu. -Onda gedək Muxtarovlargilə.

-Onlara heç olmaz. Allah göstərməsin, Muxtarov elə hirslidir ki.

-Bəs onda neyləyək! Siyahıdakı üçüncü adamın familiyası Əkbərovdur.

-Ay allah, bu lap pis oldu! Ələkbər bizi yazxşı tanıyır, qolumuzdan tutub atar çölə.

-Di bəsdir,-deyə Mariya Nikolayevna sözümüzü kəsdi,-kefə-zada getmirik ki, borcumuzdur, yerinə yetirəcəyik. Əgər belədirsə, onda elə siyahıdakı birinci adamdan başlayaq.

Gülnarla mən yerimizdə donub qalmışdıq. Adı siyahıda birinci gedən Mustafayev ağlı çaşmış fağır bir qoca idi. Lakin nənəmin uzaq qohumu olan arvadı son dərəcə həyasız və əzazil bir arvad idi və ondan nə desən gözləmək olardı. Biz nahaq yerə Mariya Nikolayevnanı fikrindən daşındarmağa cəhd göstərdik. O, inanından dönmədi ki, dönmədi.

-Nəyin bahasına olursa-olsun, borcumuzu yerinə yetirməliyik,-deyə qadın qulaq asmadan dönə-dönə təkrar edirdi.-Əylənməyə getmirik ki. Adam gərək öz hərəkətləri üçün cavab verə bilsin.

Mariya Nikolayevna var gücü ilə Mustafayevlərin darvazasını döyəndə deşik axtarırdıq. Bu anda ikimizin də beynindən eyni fikir keçirdi: kaş tarixi materializm kerçəkləşməyib elə dərsliklərdəcə qalaydı. Bağban bizi yaxşı tanıyırdı. O elə düşündü ki, biz qonaq gəlmişik. Odur ki, qapını açıb bizi ehtiramla və xoş üzlə salamladı:

-Xoş gəlib, səfa gətirmisiniz! Sizi görsə, bəlkə Balacaxanımın fikri bir balaca dağıla. Qorxur ki, bu murdar ruslar evini əlindən alsınlar. Ay görüm onların lənətə gəlsinlər, canları yansın! Hə bunlar yəqin sizin dostlarınızdır.

Sonra o bizə göz vurub sözünə davam etdi:

-Yaxşı ki bu donuzlar öz dillərindən başqa dil qanmırlar. Dediklərimi başa düşməzlər. Ay allah, bir gör nə pis zəmanədə yaşayırıq. Başımıza nə çarə qılaq!

Biz evə yaxınlaşdıqca olan-qalan inamımız da əriyib gedirdi. Balacaxanımın hikkəsi haqqında elə sözlər danışırdılar ki! O, süpürgə ilə qızlarını döyür, ərini götəkləyirdi. Əgər yoldan keçənin sir-sifəti xoşuna gəlmirdisə, bərnini mürəbbə qarışıq düz onun təpəsinə çırpırdı. Babalı deyənlərin boynuna, söyləyirdilər ki, arvad tümanının altında tapança da gəzdiridi. Bədxahları deyirdilər ki, ərini bu günə qoyub dəli-divanə edən də elə Balacaxanımın özüdür. Bu bir sübüt edir ki, hətta müsəlman ölkələrində də qadınlar ərlərinə işgəncə verirlər. Qızları zəhləsini tökəndə Balacaxanım onları bir otağa salıb qapını bağlardı. Bəzən bir aya kimi yazıqlar orada dustaq qalardılar. İndi biz belə bir arvadın əmlakını siyahıya almağa gəlmişdik. Balacaxanımın bizi necə qarşılayacağı səhnəsini gözlərim qarşısına gətirəndə az qalırdı ağlım başımdan çıxa. Məqsədimizi bilən kimi arvad yəqin ki, bizi söyüb biabır edəcək, əlinə nə keçdi başımıza çırpacaq, üzümüzə tüpürəcəkdi. Bəlkə bizi qorxutmaq üçün lap tapançasını da çıxaracaqdı. Çox güman ki, atəş də açacaqdı. Bizi öldürmək istəməsə də, tavana bir-iki güllə çaxmaq nədir ki, onun əlində! Bir vaxtlar bunu sınaqdan keçirmişdi.

Balacaxanımı görəndə ayaqlarım qurudu və öyrəndiyim bütün nə varsa yaddaşımdan silinib getdi. Yanımızdakı kişini görən Balacaxanım üzünü örtdü. Lakin onun hiddətli qartal baxışlarını görəndə adamın canına üşütmə düşürdü.

-Allah göməyiniz olsun,-deyə o bizə türk dilində müraciət etdi.-Müsəlman xanımın nəvələri bizə xoş gəliblər. Xeyir ola!! Yanınızdakı bu adamlar kimdir! Bütün yaşlı adamlar kimi o da rus dilini bilmirdi.

-Bu adamlar...bu adamlar..-deyə mən özümü itirmiş halda, dilim topuq vura-vura cavab verdim...-Biz...yəni bunlar..Yəni...Ani olaraq ağlıma bir fikir gəldi:

-Bu adamlar bizdə qalırlar. Çox dəhşətlidirlər. Bizi də məcbur edirlər ki, bir yerdə gəzib onlara kömək edək. Əlbəttə ki, əvvəlcə biz imtina etdik Amma bizi qorxudub dedilər ki, kömək etməsək, dustaq edəcəklər. Siz allah, Balacaxanım, günahımızdan keçin. Onların əmrini yerinə yetirməyə məcburuq.

Nə Mariya Nikolayevna, nə də Sergey mənim dediklərimdən bircə gəlmə də başa düşmürdülər. Onlar hiss edirdilər ki, mən Balacahanıma vəziyyəti başa salıram. Odur ki, səbrlə durub gözləyirdilər.

-Görüm bunların başları batsın, dilləri qurusun, allah lənət eləsin.

-Deyəsən, axı arvadın bizə qəzəbi tutub!-Mariya Nikolayevna xəbər aldı.

-Hə, bir az var,-mən təvazökarlıqla cavab verdim.-Fikir verməyin, keçib gedər.

-Hər halda, başlamaq lazımdır. Mən sizinlə bu otaqda qalıram. Qoy Sergeylə Gülnar da qonşu otağa keçsinlər.

Mariya Nikolayevna get-gedə özündən çıxıb söyüş yağdıran Balacaxanıma heç bir əhəmiyyət verməyib, sakitcə keçib stolun arxasında əyləşdi və otaqdakı mebelləri bir-bir vərəqə yazmağa başladı.

-Köpəklər, donuzlar, çaqqallar,-deyə Balacaxanım söyə-söyə Sergeylə Gülnarın olduğu otağa keçdi. Əgər Sergey onun dediklərinin yarısını başa düşsəydi, utandığından yerə girərdi. Bir qədər keçəndən sonra Balacaxanımın səsi kəsildi: namaz vaxtı idi. İşimiz yaman ləng gedirdi və lap zəhləmizi tökmüşdü. Evdə Mariya Nikolayevna məmnuniyyətlə öz vəzifəsini icra edirdi. O, sidqi-qəlbdən əmin idi ki, gördüyü hər bir iş inqilabın qələbəsinə və xalqın tərəqqisinə kömək edir. Mən isə bu darıxdırıcı işin tezliklə başa çatmasını səbirsizliklə gözləyirdim. Bundan əlavə, qorxurdum ki, Balacaxanıma dediyim yalanın üstü açıla, arvad da ara vermədiyi söyüş və qarğışları ilə üstümə hücum çəkə.

Axşam yorğun-arğın evə qayıtdıq. Üç arvad-nənəm, bibim və Freyleyn Anna bizi dövrəyə alıb o ki var tənbeh etdilər. Biz onların danlaqlarına utanıb-qızarmadan, həya etmədən cavab verir, tam müstəqilliyimizi izah edir və fürsəti fövtə verməyib kommunist təbliğatı aparırdıq.

-Axı dediyiniz nədir! Mən onlara müraciət edirdim.-Budur, beş nəfərdən ibarət bir ailənin otuz dörd qazanı, iki dücur süfrəsi, nə bilim iki yüz otuz boşqabı var. Hələ xırda-para şeyləri demirəm. Bəs evində heç bir şeyi olmayan yazıq fəhlələr neyləsinlər! Yox, bu heç insafdan deyil. Sizin ürəyiniz daşdır, heç rəhminiz yoxdur.

-Görüm lənətə gələsiniz, qanmazlar, binamuslar, -deyə nənəm var gücü ilə qışqırırdı,-valideynləriniz həbsxanada çürüyürlər, siz də gedib bu murdarlarla vaxt keçirirsiniz.

-Biz vaxt keçirmirik, biz var qüvvəmizlə bəşəriyyətin tərəqqisinə xidmət edirik. -Gülnar təntənə ilə cavab

verdi.

-Axmağın biri axmaq,-deyə anası sözə qarışdı,-heyif ki, atan burada yoxdu. Səni yaxşıca götəkləyərdi, onda özünə gələrdin. O gün başıma kül oldu ki, sənin kimi qızı doğdum.

-Səndən xahiş eləməmişdik ki,-deyə Gülnar da cavabında bağırdı.-Kefiniz durmuşdu, onun üçün də məni əkib-doğmusunuz.

Bu minvalla dava-dalaş bir saat da davam etdi.

## FRANSA GÖYLƏRİNDƏ ŞƏRQ ULDUZU

XXI əsr Azərbaycan xalqının tarixində ən faciəli səhifələrdən biri onun çoxlu sayda, özü də əsasən, ziyalı nümayəndələrinin məcburi şəkildə xarici ölkələrə köçməsi olmuşdur.

Köçkünlər içərisində bir çox yazıçılar, publisistlər, alimlər vardı ki, sonralar Vətəndən uzaqlarda, qürbətdə yazıb-yaratmağı davam etdirir və yaxud yaradıcılıq addımlarını atmağa başlayırdılar.

Və bu da qanunayğun haldır ki, məhz indi, ölkədə, eləcə də həyatın bütün olaylarında, o cümlədən yaradıcılıq və naşirlik sahəsində mürəkkəb yeniləşmə prosesinin getdiyi bir zamanda unudulmuş adlar ədəbiyyata qaytarılır, obyektiv ədəbi prosesin ziddinə olaraq kənarda qalmış olduğu cərgədə özlərinə möhkəm yer tuturlar. Odur ki, bu və ya digər səbəbdən Azərbaycan ədəbiyyatşünaslığının tədqiqat obyektinə çevrilməmiş ədəbi proseslərə və hadisələrə elmi qiymət verilməsi bir zərurət kimi meydana çıxır.

Hazırda mühacirət ədəbiyyatı XX əsr Azərbaycan bədii fikrinin üzvi hissəsi kimi özünü büruzə verir. İndi hamıya aydındır ki, Məhəmməd Əmin Rəsulzadənin, Əhməd bəy Ağaoğlunun, Ədlimərdan bəy Topçubaşovun, Əli bəy Hüseynzadənin adları Azərbaycan mədəniyyəti və ədəbiyyatı üçün nə dərəcədə böyük əhəmiyyətə malikdir.

Ümmül Banunun adı isə bizdə yalnız 1985-ci ildən məlumdur. Hətta çoxları belə bir yazıçının varlığını özü də sağ-salamat olub xaricdə, Parisdə yaşadığını və onun bir neçə onilliklər ərzində gözəl sənət əsərləri yaratdığını bilmirdi.

Qüdrətli neft sənayeçiləri Musa Nağıyev və Şəmsi Əsədullayevin nəvəsi, Azərbaycan Demokratik Respublikasının ticarət naziri Mirzə Əsədullayevin qızı olan və anasının xatirəsinə Ümmül Banu adlandırılan bu qız 1905-ci ilin yanvar ayında Bakıda doğulmuşdu.

Həddən artıq tez, yaşın kövrək bir dövründə Ümmül Banu ən yaxın adamı itirməyin bütün dəhşətlərini dərk edir. O, keçmişi belə xatırlayır: «Mən anamı görməmişəm. 1905-ci ilin qışında inqilab tufanını yatırmağa çalışan təcavüzkar qüvvələr Qafqazda xalqlar arasında toqquşmalar törətdilər. Anamı kortəbii qəddarlıqdan və talanların ağılsızlığından qorumağa çalışan atam onu hamiləlikdən azad olmaq üçün Bakıdan uzağa kəndə göndərir. Xeyirxah məqsəd bədbəxt sonluqla nəticələnir: doğuş ağır keçir, yaxınlıqda həkim olmur, anam ölür, amma mənə həyat verməyə imkan tapır...

Gördüyünüz kimi, elə olur ki, həyatımın ilk günlərindən mən bir şeyi anlayıram: dərd-sər qurban seçəndə nə milliyyətə baxır, nə də dini mən subiyyətə və heç kimə aman vermir»*

Banu şəxsiyyətinin formalaşması üçün mühüm amil hesab edilən ana qayğısından məhrum olur. Kövsər, Suriyə və Kubra adlı üç bacısı ilə o, dayənin himayəsində qalır, xarici mürəbbiyə tərəfindən tərbiyə olunur.

Banunun taleyi ilə tanış olanda ictimai hadisələrin və sosial-siyasi dəyişikliklərin insanların taleyinə necə daxil olduğunun, onu necə yaxıb dağıtdığının, yeni məcraya yönəltdiyinin şahidi olursan.

Banu öz ağır taleyi barədə bu sətirlərin müəllifinə 1991-ci il noyabrın 1-də yazdığı kədər dolu məktubda belə qeyd edir: «mənim bioqrafiyamı yazmaq çətindir: o, mürəkkəb və uzundur, müxtəlif hadisələrlə zəngindir. Mən axı hətta ikinci dəfə fransız arxitektoruna ərə gedərək burjua xanımı olmuşam və bir neçə il Tuluzada yaşamışam.

Nə qədər məşğuliyyətim olub-manekençi, satıcı, katibə, tərcüməçi, jurnalist, radioda ədəbi redaktor, yazıçı. Hələ bir çoxunu yadımdan çıxarmışam. Bütün bunları danışmaq çətindir, hətta mənim özümə belə...» Gələcək yazıçı doğma diyardakı qayğısız həyatın rahat axarından məhrum olanda hələ uşaq idi.

Tamamilə qanunayğundur ki, onun qohum-əqrəbası Oktyabr inqilabına və sovet quruluşuna düşməncəsinə münasibət bəsləyirdilər və əvvəlcə Türkiyəyə, oradan da 1924-cü ildə Parisə mühacirət etmişdilər.

Vətəndən uzaqlarda yaşayan, öz xalqı ilə fəal mədəni əlaqələri olmayan Ümmül Banu öz əsərlərini fransız dilində yazır və Fransada bu ad ilə tanınır. Lakin onun yaradıcılığı bütövlükdə bu və ya başqa şəkildə öz dərin kökləri ilə Azərbaycana bağlı idi.

Ümmül Banu yaradıcılığının özünəməxsusluğu çox cəhətdən onun taleyinin qeyri -adiliyi ilə bağlıdır: müasir ədəbiyyatda ikinci bir yazıçı tapmaq çətin mümkün olsun ki, yaradıcılığı bioqrafiyası ilə bu şəkildə sıx çulğaşmış olsun.

1943-cü ildə onun «Nami» adlı ilk romanı çapdan çıxır. Bu əsərdə yazıçı artıq öz mövzusunu-Qafqazda inqilab illərində tamamilə iflasa uğramış sosial qüvvələrin bədii təsvirini müəyyənləşdirmişdi. Həmin əsər ona

müvəffəqiyyət gətirmədi.

Uğursuzluqdan ruhdan düşməyən yazıçı avtobioqrafiya xarakterli «Qafqaz günləri» (1945) romanını yazır. Əsər fransız ictimaiyyətinin nəzərini dərhal cəlb edir və müəllifinə çox böyük müvəffəqiyyət qazandırır.

Daha sonra «Paris günləri» (1947), «Ernst Yungerlə görüş» (1951), «Mən tiryəki seçdim» (1959), «Sonra» (1961), «Yad Fransa» (1968), «Son ümidin çağırışı» (1971), «Ernst Yungerin portreti» (1971), "Ernest Yunger müxtəlif simalarda" (1989), «Mariya mənə nələr söylədi»(1991) əsərləri meydana çıxır.

Bir çox əsəri Fransada dəfələrlə təkrar nəşr olunmuşdur. Bu kitablar içərisində öz uşaqlıq həyatından, sevdiyi Vətəndən bəhs edən «Qafqaz günləri» (1985), «Mən tiryəki seçdim» (1989) və «Paris günləri» də vardır.

O Fransada təkcə gözəl romanlar müəllifi kimi deyil, həm də F. Dostoyevskinin əsərlərinin fransız dilinə mahir tərcüməçisi kimi də tanınır. O, Tatyana Tolstoyun «Xatirələr»ini, ingilis dilində bir çox hekayələri, alman dilindən Ernst Yungerin romanlarını da tərcümə etmişdir. O, İvan Buninin, Teffinin (N.A.Loxvitskaya), Ernst Yungerin, Lui Araqonun, Elza Triolenin, Monterlenin yaradıcılıqlarının gözəl bilicisi kimi də məşhurdur, tərcümə elədiyi müəlliflərlə onu yaxın dostluq telləri bağlayırdı. Burada xüsusi olaraq qeyd etmək lazımdır ki, hələ uşaqlıqdan Avropa dillərini bilməsi, yüksək səviyyədə təhsil alması ona Avropa yazıçılarının qəlbinə yol tapmağa, onların ədəbi yaradıcılıq aləminə daxil olmağa imkan vermişdi. Təsadüfi deyildi ki, yazıçı qeyd edirdi: başqa elə bir qüvvə yoxdur ki, adamları bədii ədəbiyyat kimi birləşdirə bilsin. Yazıçı istedadı qürbətdə doğma torpağa, onun mənəvi sərvətlərinə, Azərbaycan xalqına dərin məhəbbət, Vətən həsrəti hisslərindən qida alır. Məgər insan da Vətənini unuda bilər? Uzaqda olsa da o, insanın qəlbində öz yerini tapır.

İdeologiyanı, sosial quruluşu tərk etmək olar, xalqı, doğma torpağı isə tərk etmək mümkün deyil. Bütün bunlar olmasaydı-Ümmül Banu «Qafqaz günləri» kimi, hətta fransız dilində yazılmış olsa belə, dərin milli ruhlu əsəri yarada bilməzdi.

Avtobioqrafik material üzərində qurulan kitab yazıçının bütün bəşəri və ədəbi təcrübəsini birləşdirmiş, onun müşahidələrinin, düşüncələrinin, şübhə və gümanlarının ümumiləşdirilmiş yekunu kimi meydana çıxmışdır. Bu axtarışlar belə bir başlıca məsələ ilə bağlı idi: insan həyatı, onun əsas mahiyyəti nədir, insan taleyi hansı qanunların və amillərin təsiri ilə formalaşır?

Bu fəlsəfəçiliyin özü, klassik Şərq ədəbiyyatı ənənələrindən biri kimi Azərbaycan ədəbiyyatı klassiklərini də narahat etmiş həyatın əbədi problemlərinə müraciət olunması həmin ənənələrin yeni mərhələdə davam etdirilməsidir. Azərbaycan torpağı, onun insanları, Abşeronun zəngin və əsrarəngiz təbiəti romanın səhifələrindən boylanır. Doğma yerlərə sonsuz məhəbbət uşaqlıq xatirələrinə həsr olunmuş romanın bütün səhifələrinə hopmuşdur.

Əsədullayevin Mərdəkanda yerləşən, böyük parkı və çarhovuzları olan şəhərkənarı bağına düşərkən qız rastlaşdığı gözəl mənzərədən heyrətə gəlir : «Kəndə gəlişimin ilk dəqiqələri məni əfsunladı: heç yerdə bu cür iri və tər, ətirli, bihuş edici gül-çiçəyə rast gəlməmişdim. Hətta hava sakit, sükunətdə olanda belə, qovaq ağacları sanki adi qaydada yox, daha çox sevindiklərindən həzin-həzin səslənirdilər, elə bil heç yerdə, heç vaxt buradakı kimi təmiz su, mavi səma olmamışdı».

Aktyorluq, yaradıcılıq təbiətinə malik adamların çoxu kimi, gələcək yazıçı da onu əhatə edən füsunkar aləmlə öz vəhdətini hiss edir və bu, müəllifi vəcdə gətirir: «Başqaları üçün cansız olan əşyalar mənim gözümdə canlandılar və mən onlarla salamlaşmağa tələsdim,»-deyə yazıçı yazır.

Tamamilə təbiidir ki, «Qafqaz günləri» əsərində bilavasitə ilkin uşaqlıq illərinin təəssüratları yazıçının məişət və sərt sosial təcrübə ilə kamilləşmiş həyatından alınan cizgilərlə tamamlanır. Əgər Mərdəkana gəlişi onun Azərbaycan kəndinin patriarxal həyatının sadə, toxunulmamış yenilikləri ilə bağlıdırsa, uşaqlıqdan canına-qanına hopmuş və özü də həddən çox xoşladığı neft qoxusu ona başqa şeyləri xatırladır. Neft çıxarılan rayonlardan birində yaşamış yazıçı «əsl neft övladı idi», onun qoxusunu həvəslə ciyərlərinə çəkirdi. Elə buradaca yazıçı Bakı nefttinin Azərbaycanın həyatındakı rolundan, neft sahibkarlarından, onlara «bəşər mədəniyyətinin bütün nemətlərindən istifadə etmək» imkanı vermiş sərvətdən söhbət açır.

20-ci əsrin əvvəllərində Azərbaycanda baş verən hadisələr-inqilabın gətirdiyi terror və dağıntılar, Azərbaycan Demokratik Respublikasının süqutu, Azərbaycanın bolşeviklər tərəfindən fəth olunması əsrdə güclü realist boyalarla təsvir edilmişdir.

Romanın səhifələrində biz dövrün real şəxsiyyətlərinin-neft sənayeçilərinin, tacirlərin, bəylərin, əməkçi xalqın hökümətin nümayəndələrinin bütöv bir dəstəsi ilə tanış oluruq. Əsərdə yazıçı ona yaxın və əziz olan adamların -babası Musa Nağıyevin, fanatik müsəlman qadını zabitəli nənəsinin, atası Mirzə Əsədullayevin, bacılarının xeyirxah Freyleyn Annanın obrazlarını çox böyük rəğbət və məhəbbətlə yaratmışdır. Əsil müsəlman ailəsinin övladı kimi o, xalqının ənənəvi bayramları Novruz və Ramazandan həvəslə söhbət açır.

Romanda dilin, real obrazların gücü ürəkdən gələn hüznlü bir lirizmlə qovuşur ki, bu da oxucuda kədər hissi yaradır; ömrün bahar çağında əbədi tərk olunan Vətən həsrəti ilə dolu bir kədər hissi.

Qeyd etmək lazımdır ki, yazıçı əvvəllər o dövrün köçkünlərinin çoxu kimi, uzun çəksə də, yad ellərdə həyatın daimi olmayacağına, bolşeviklərin tarixin səhnəsindən çəkiləcəklərinə və Vətənin yenidən onu öz ağuşu-

na alacağına inanırdı. Lakin bu, baş vermədi. O da öz təşnəsini qəlbinin dərinliklərinə qovmaqla, həsrət dolu kədərini boğmağa çalışırdı. Bunun üçün o, kifayət qədər fəal, mənən güclü idi. O, Parisi doğmalaşdırmağa çalışırdı; «Paris günləri» kitabının «Qafqaz günləri» əsəri ilə paralel yarandığı kimi.

Məlum olduğu kimi, Paris 20-ci əsrin əvvəllərində bir çox Qərb və Şərq yaradıcı ziyalılarını, aristokrat və sənayeçilərini özünə cəlb edən mərkəz, Avropa mədəniyyətinin nümunəsi, mənəvi azadlıq simvolu idi. Parisə düşməsi Avropa təhsili almış, Vətənində qanlı ziyafət qurmuş terror və zorakılıq cəhənnəmindən qurtulmuş gənc azərbaycanlı qızı sevindirməli idi.

«Şərq ekspresi bütün gücü ilə həsrəti çəkilən bu torpağa can atırdı: o, qulaqbatırıcı bir gurultu ilə, relslər vəhşicəsinə bir rəqslə yolun birində digərinə ata-ata şəhərə yaxınlaşırdı. O öz polad dili ilə mənə azadlıq və xoşbəxtlikdən xəbər verirdi, o məni inqilabın dörd ili ərzində, dağıntı və dəhşətlər içərisində, yerlə yeksan edilmiş dünyanın tör-töküntüləri üzərində gözlədiyim xəyallar diyarına aparırdı».

O, romanda şəhərə aşağıdakı təntənəli sətirləri həsr edir «Paris bu ad qarşısında riqqətə gəlmiş qəlbim üçün sanki bir günəş, şəfəq saçan cənnət, uzun və narahat tarix boyünca yaradılmış daşlara və küçələrə, meydan və abidələrə hopmuş arzu idi.

Bu bütün arzuların ən parlağı idi. Bu elə bir aləm idi ki, orada misli görünməmiş nemətlər yaradan mikroaləmləri özündə qovuşdururdu. Mən Parisə həmişə sadiq olmuşam..» Biz bunu da əlavə edək-Vətənə də.

Qərb və Şərq özünəməxsus vəhdət yaratmaqla istedadlı azərbaycanlı yazıçının şüurunda beləcə qaynayıb qovuşmuşdu.

Doğrudan da, o ulduz Fransanın ədəbi göylərində parladı. Lakin bu, heç də o demək deyildi ki, Ümmül-Banu daha öz uzaq Vətəninin həsrətini çəkmirdi. Doğma torpaqla bağlı olan hər şey daim onu özünə cəlb edirdi. «Orada baş verən hər şey məni hədsiz dərəcədə maraqlandırır. Mən həmişə oraya getmək, şəhər və kəndləri gəzmək, adamlarla söhbət etmək, onların necə yaşadıqlarına baxmaq istəmişəm».

O, «Qafqaz günləri» (1985) kitabını ikinci nəşrinə yazdığı ön sözdən çox böyük təəssüf hissi ilə qeyd edir ki, ona Vətən görmək qismət olmadı. «Azərbaycanla bağlı hər şey məni daim narahat edir», Qafqazda millətlərarası zəmində baş verən toqquşmalardan narahat olması heç də təsadüfi deyil. Burada yazıçının 1988-ci ildə Fransanın «Mond» qəzetinə və «Literaturnaya qazeta » ya verdiyi müsahibələri xatırlatmaq istərdik.

Bizə elə gəlir ki, «Paris günləri» romanında Fransa torpağına gəldiyindən həddən ziyadə şad olduğunu, bu torpağı sürgün yeri kimi yox, həsrətini çəkdiyi bir yer kimi qəbul etdiyini bir daha təkrarlaması yazıçının yalnız daxilindəki həsrət yanğısını boğmaq üçün idi. Onun yaradıcılığı qismətinə düşən taleyə qarşı məğrurcasına bildirilən etiraz, istedad və zəhmətsevərlik nəticəsində əldə olunan xoşbəxtlik idi.

«Banu fransız dilində yazan Azərbaycan mənşəli ilk qadındır».

-1990-cı ildə nəşr edilən «Paris günləri» romanına yazılmış redaksiya məqaləsində çox haqlı olaraq göstərilir. Bu günədək yazıçının əsərlərindən Azərbaycanda yalnız «İvan Buninin son höcəti» povesti dərc olunmuşdur. Əsər 1988-ci ildə «Azərbaycan» və «Literaturnı Azerbaycan» jurnallarının səhifələrində, Azərbaycan və rus dillərində verilmişdir.

İnanırıq ki, yaxın gələcəkdə onun kitabları onun doğma Vətənində daha geniş şəkildə tanınacaq, bu əsərlər Azərbaycan milli mədəniyyətinin ayrılmaz hissəsi olacaqdır. Buna onun haqqı var.

## MÖHKƏMLİK SINAĞI

-İnsan təbiəti mükəmməl deyil. Deyirlər ki, bədənin hüceyrələri yeddi ildən bir təzələnir. Elə isə necə olur ki, insanlar az dəyişirlər? Niyə axı biz keçmişdən ibrət dərsi ala bilmirik?

Bunları Ümm əl-Banin Əsədullayeva səlis rus dilində güclə sezilən bir şivə -fransızcadan daha çox Qafqaz ləhcəsi ilə deyir. Banin-azərbaycanlı yazıçının ədəbi təxəllüsü belədir.

Baninin Fransada dəfələrlə nəşr edilmiş avtobioqrafik kitabı «Qafqaz günləri» adlanır. Nənəsi dindar müsəlman qadın, atası-milyonçu neft sahibkarı, müsavat hökümətinin ticarət naziri idi. Banin atasının həbsdən qayıtması, xarici pasport alıb Türkiyəyə qaçması xatirinə sevmədiyi nüfuzlu bir adama ərə getdi. Sonra Paris. «Sovetlərin tezliklə yıxılacağına» dair xam xəyallar tezliklə yox oldu...

Banin xatırlayır:

-Anam yadımda deyil. 1905-ci ildə inqilab dağlasını yatırmaq üçün mürtəce qüvvələr Qafqazda milli ixtişaş saldılar. Azərbaycanlıları, ermənilər, rusları, kürdləri, iranlıları bir-birlərinə qarşı qaldırdılar. Hamilə anamı ağına-bozuna qəddarlıqlardan və azğın talanlardan qorumaq üçün atam Bakıdan uzaqlara yola saldı. Atamın xoş niyyəti kədərli sonluqla nəticələndi: doğum çox ağır keçdi, yaxınlıqda həkim olmadı, mənə həyat verməyə macal tapan anam keçindi.

-Qafqaz günləri, Qafqaz günləri...-Banin asta-asta danışır.-Qırxıncı illərdə inqilab barədə romanımı yazarkən ağlıma gələrdimi ki, əsərin adı haçansa müəyyən mənada peyğəmbərlikdə deyilən sözlər olacaq. Budur..Zaman gəlib, bu diyarın adamları bir daha möhkəmlik sınağına çəkilir. Həm də yalnız onlar yox-bütün insanlar.



***Əsədullayeva (Veber) Züleyxa Xələf qızı*** (1919-2001). Əmircan. 1943-cü ildə Türkiyənin İstanbul şəhərindəki Universitetin tarix və ədəbiyyat fakültəsini bitirib. 1949-1952-ci illərdə Türkiyə Baş Qərargahında ingilis dili üzrə tərcüməçi işləyib. 1952-ci ildə ABŞ-a getmiş və orada müxtəlif şirkətlərdə tərcüməçi kimi işləmişdir. 1990-cı ildə Azərbaycana gəlmişdir. 1995-1997-ci illərdən «Mobiloya» şirkətində işləyib. 1997-ci ildən «Penzoyl» Amerika şirkətində prezident müşaviridir. Xeyriyyəçilik işləri ilə məşğul olmuşdur. Rus, ingilis, fransız, alman, türk, portuqal dillərini bilmişdir. 2001-ci ildə Türkiyədə vəfat etmiş, Azərbaycan hökuməti və özünün vəsiyyəti ilə Əmircan qəsəbəsinin qəbirstanlığında dəfn edilmişdir.

***Babayev Abgül Zəfər oğlu*** (1913-1986). Babayev Abgul Zəfər oğlu 8 avqust 1913-cü ildə Bakı şəhərində sahibkar ailəsində anadan olmuşdur.

Əmək fəaliyyətinə Abgül Zəfər oğlu 1929-cu ildə başlamışdır. Əvvəl ocaqçı kimi işləyən Abgül Zəfər oğlu sonralar Bakı şəhəri sanitar təşkilatının maşinisti kimi davam etmişdir.

1936-cı ildə M. Əzizbəyov adına Azərbaycan neft-kimya institutunun kimya fakültəsini bitirmişdir. Qazolin zavodunda işləyərək xüsusi yağlar zavodunun kimya laboratoriyasına rəhbərlik etmişdir.

1938-ci ildə A. Babayev Azərbaycan əczaçılıq institutunun biokimya kafedrasının aspirantı olmuşdur, sonrakı illərdə isə həmin kafedranın assistenti və dossenti vəzifəsində çalışmışdır.

1941-ci ildə Sovet ordusu sıralarına səfərbər olmuşdur və kimyəvi qoşunlarda xidmət etməyə göndərilmişdir. Lakin 1943-cü ildə yaralandıqdan sonra (kontuziya almışdır) o ordu sıralarından tərxis olunmuşdur.

Müharibə qurtarandan sonra A. Babayev elmi fəaliyyətini davam etdirir. 1945-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. Elmi tədqiqatlarını Respublikamızın yeraltı sərvəti olan Naftalan neftinin müalicəvi təsirinin mexanizmlərinin öyrənilməsi istiqamətində aparmışdır. Naftalan neftinin müxtəlif fraksiyaların naften karbohidratları üzərində geniş aparılmış tədqiqatlar əsasında A. Z. Babayevin dərc edilmiş elmi əsərləri arasında SSSR EA nəşriyyatı tərəfindən nəşr olunmuş «Naftalan, onun bioloji təsiri və müalicəvi tətbiqi» adlı kitabı xüsusi diqqətə layiqdir (həmmüəlliflər A. İ. Qarayev və R. K. Əliyev).

Cəmiyyətimizin yüksəlməsi naminə o, 50 ildən çox vicdanla qulluq etmişdir, onlardan 40 ilini N. Nərimanov adına Azərbaycan Tibb İnstitutuna həsr etmişdir.

1950-1967-ci illər ərzində A. Z. Babayev Azərbaycan Tibb İnstitutunun məhkəmə və analitik kimya kafedrasına, 1969-cu ildən isə fiziki-kolloid və biofizika kafedrasına rəhbərlik etmişdir.

1960-cı ildən «Neft karbohidratların bioloji oksidləşməsinə dair bir sıra üsulları» adı altında doktorluq dissertasiyasını yerinə yetirmişdir. 1962-ci ildən isə professor adına layiq görülmüşdür.

Təhsil işləri ilə yanaşı o mühüm elmi iş də aparırdı. A. Babayevin narkomaniya ilə mübarizənin elmi əsaslarının yaradılması sahəsində zəhməti çox böyükdür. O, bir çox zəhərli maddələrlə mübarizə üsullarını işləyib hazırlamış, narkotik maddələrin obyektdə təyini ilə əlaqədar çoxlu təddqiqatlar aparmış, özündən sonra böyük irs qoymuşdur. Bu sahədə A. Babayevin 149 dərc edilmiş elmi işi var. Ümumiyyətlə o, 150-dən çox elmi əsərin və bir sıra monoqrafiyanın müəllifidir. Professor Babayev habelə anasının obyektlərdə və biosubstansiyalarda təyini problemləri ilə bağlı elmi tədqiqatları ilə elmdə yeni cığır açmışdır.

Yüksək səviyyəli tibbi kadrların hazırlanmasına A. Z. Babayev böyük diqqəti ilə yanaşırdı. Bu işdə o, böyük əmək, bilik, zəngin təcrübə sərf etmişdir. Onun elmi yaradıcılığının çox təmayüllü səbəbindəndir ki, onun yetişdirmələri müxtəlif elm sahələrinin mütəxəssisləridir. Onun rəhbərliyi altında biologiya, kimya, tibb, farmasevtika elmləri üzrə 16 namizədlik dissertasiyası müdafiə edilib. Üç doktorluq dissertasiyasının məsləhətçisi olub.

Professor A. Z. Babayev elmi-pedaqoji fəaliyyəti ilə yanaşı ictimai işlərə də geniş yer ayırırdı. Respublika Səhiyyə Nazirliyinin prezidiumunun üzvü idi. Tibb institutunun elmi cəmiyyətinin şuralarında, elmi-koordinasiya şurasının işində, silsilə tədris-metodiki komissiyasının fəaliyyətində iştirak edirdi. O, Azərbaycan biokimyaçıları cəmiyyətinin və Ümumittifaq elmi-texniki cəmiyyətinin Azərbaycan bölməsinin fəxri üzvü seçilmişdir.

Çoxillik layiqli əməyə görə professor A. Z. Babayev «Əmək veteranı», «Əmək şücaətinə görə» Lenin yubileyi medalları ilə təltif olunmuşdur. 1980-ci ildə ona Azərbaycan SSR əməkdar elm xadimi fəxri adı verilmişdir.

Onu tanıyanlar yaxşı xatırlayırlar ki, o, necə gözəl insan, humanist bir şəxs, həddindən artıq tələbkar bir pedaqoq idi. O, gənc tədqiqatçıların sevimlisi, böyük müəllimi və yaxın məsləhətçisi olmuşdur.

Respublikamızda narkomaniya ilə mübarizənin elmi əsaslarının ilk yaradıcısı və banisi hesab edilən Babayev Abgül Zəfər oğlunun adı və işi bu sırada birincidir və heç vaxt unudulmayacaq.

***Babayev Raufbəy Abgül oğlu*** (1940). Babayev Raufbəy Abgul oğlu 1940-cı ildə Bakı şəhərində qulluqçu ailəsində anadan olmuşdur.

1948-ci ildə 171 saylı orta məktəbə getmiş və 1958-ci ildə oranı bitirmişdir. 1958-ci ildə N. Nərimanov adına Tibb İnstitutunun əczaçılıq fakültəsinə daxil olmuşdur. 1963-cü ildə həmin institutu bitirmiş və provizor ix-

tisasına yiyələnmişdir.

1963-cü ildə Azərbaycan SSR Səhiyyə Nazirliyi nəzdində Baş Apteklər idarəsinin Mərkəzi aptek bazasına 4 saylı şöbənin müdir müavini vəzifəsinə təyin olunmuşdur. Sonralar həmin bazada kimyaçı-analitik vəzifəsində çalışmışdır.

1965-ci ildə R.A.Babayev Elmlər Akademiyasının Fiziologiya sektorunun aspiranturasına daxil olmuş, 1968-ci ildə oranı bitirmişdir.

1968-1974-cü illər ərzində AMEA A. İ. Qarayev adına Fiziologiya İnstitutu «Fizioloji fəal və radiomüdafiə maddələri» laboratoriyasında kiçik elmi işçi vəzifəsində çalışmışdır.

1970-ci ildə «İntakt və şüalanmış heyvanların qanın lipidlərinə bir sıra fizioloji aktiv maddələrin təsiri» adlı namizədlik dissertasiyasını müdafiə etmişdir və 1974-cü ildə həmin laboratoriyanın böyük elmi işçi vəzifəsinə keçirilmişdir.

1977-ci ildən biologiya elmləri namizədi R.A.Babayev Azərbaycan SSR EA Prezidiumun qərarı əsasında Fiziologiya İnstitutunun nəzdində yaradılmış «Eksperimental farmakologiya» laboratoriyasına (sonralar bu laboratoriya «Fizioloji aktiv maddələrin farmakologiyası» adını almışdır) rəhbərlik edir. Bu laboratoriyanın məqsədi AMEA Botanika İnstitutunda və Azərbaycan Tibb Universitetinin əczaçılıq fakültəsinin kafedralarında alınan təbii və bir sıra kimya profili İnstitutlarda sintez olunan perspektivli preparat birləşmələrin müalicəvi təsirinin və zərərsiz olmasının müəyyən edilməsi istiqamətində aparılan işlərdən ibarət olmalıdır.

Belə ki, buna əsaslanaraq laboratoriyanın elmi işləri bu istiqamətdə aparılırdı: «Selenin bir sıra təbii və sintetik birləşmələrin fizioloji aktiv xassələrin aşkar edilməsi və öyrənilməsi» və «Allium cinsinə aid bitkilərdə «Allipolin» bitki mənşəli antisklerotik maddəsinin alınma üsullarının işlənib hazırlanması, bunun əsasında skleroza qarşı preparatın yaradılması». Bununla yanaşı laboratoriyada respublikamızda alınmış bir sıra təbii və sintetik birləşmələrin bioloji əhəmiyyəti və toksikliyi öyrənilmişdir.

Sonrakı illərdə laboratoriyada aparılan işlər «təbii və sintetik mənşəli yeni fizioloji aktiv maddələrin farmakoloji xassələrinin öyrənilməsi» mövzusuna həsr edilmişdir. Bu müddət ərzində alınmış nəticələrə əsaslanaraq bir sıra müəlliflik şəhadətnaməsi alınmışdır.

Sonralar laboratoriyadakı işlər «Homeostazın biokimyəvi mexanizmlərinin tənzimlənməsinə məqsədli sintez olunmuş fizioloji aktiv birləşmələrin təsiri» adı altında aparılmışdır. Bu istiqamətdə 1989-cu ildə Azərbaycan Tibb Universitutinin farmakoqnoziya və botanika kafedrasında alınmış pariotinin 0,2% linimentin şüa yanıqları zamanı yanıq əleyhinə olan aktivliyinin tədqiqi başa çatmışdır. Hal-hazırda Xarkov kimya-əczaçılıq zavodunda «Parizol 0,2%» adlı aerozol şəklində olan preparat buraxılır.

Babayev R. A. rəhbərliyi altında laboratoriya «Təbii və sintetik mənşəli fizioloji aktiv maddələrin spesifik və farmakoloji xüsusiyyətlərinin öyrənilməsi» mövzusunda bir sıra elmi-tədqiqat işləri aparılmışdır. Belə ki, 1993-cü ildə miokardin eksperimental yaradılmış pituitrin işemiyası fonunda murdarcavari çaytikanı flavonoidlərin cəminin kardiotonik xassəsinin müəyyən edilməsi istiqamətində tədqiqatlar aparılmışdır.

1993-1995-ci illərdə zəfəran gövdəsində alınmış 1% ekstraktın - «Şafranol» preparatının farmakoloji tədqiqatları aparılmışdır.

Sonrakı illərdə laboratoriyanın ciddi istiqamətindən biri təbii və sintetik mənşəli radioprotektorların alınması və aşkar edilməsi idi. Belə ki, bir sıra dərman bitkilərinin lipofil fraksiyalarının radio müdafiə xassələri öyrənilmişdir, antioksidant xassəyə malik terpenoid birləşmələrin farmakoloji tədqiqi intensiv aparılmışdır.

Fəaliyyət göstərdiyi müddət ərzində «Fizioloji aktiv maddələr farmakologiyası» laboratoriyası Leninqrad Sanitar-gigiyena İnstitutu ilə, Rusiya EA Bax adına biokimya institutu ilə, Latviya Respublikası üzvü kimya institutu ilə, V. L. Komarov adına Botanika institutu ilə, oftalmologiya, kurortologiya, mikrobiologiya və virusologiya institutları ilə «Farmakologiya və xalq təbabəti» elmi cəmiyyəti ilə sıx əlaqələr yaratmışdır.




Hal-hazırda laboratoriyada Babayev Raufbəy Abgul oğlunun rəhbərliyi ilə perspektivli təbii və sintetik birləşmələrin farmakoloji xüsusiyyətlərinin müəyyən edilməsi istiqamətində geniş tədqiqatlar davam etdirilir.

Babayev R. A. 110 çapdan çıxmış elmi əsərlərin müəlliflidir, onlardan 11 - müəlliflik şəhadətnaməsi, 2 - patent ixtiradır. Onun rəhbərliyi altında 2 namizədlik dissertasiyası müdafiə edilib.

***İsrafil İbrahim oğlu***, Suraxanı rayon İcraiyyə Komitəsinin sədri işləyib.


***Salamova Bikəxanım Ağacavad qızı***. ADU-nun kimya-biologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib. 97 №-li məktəbin direktoru işləyib. Əməkdar müəllimdir.





***Salamov Ağacavad Əli oğlu***. (1933) Azərbaycan Neft Akademiyasını bitirib. «Suraxanıneft» idarəsinin II. V.VII mədənlərinin müdiri, texniki istehsalat şöbəsinin rəisi işləyib. 1985-1990-cı illərdə Yeni Suraxanı qəsəbə sovetinin icraiyyə komitəsinin sədri işləyib.

***Salamova Raisə Əli qızı***. 1934-cü ildə Əmircanda anadan olub. ANKİ-nin geofizika fakültəsini bitirib. Yer qatlarının fizikası üzrə dissertasiya müdafiə edib, fizika elmləri namizədi idi. ANKİ-nin fizika kafedrasının dossenti idi.



***Xəlil Əliyulla oğlu*** (1931-1992). Geologiya-mineralogiya elmləri doktoru, professor. Xəlil Əliyulla Bakı şəhərində doğulmuşdur. 1955-ci ildə Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsini bitirib. Geologiya İnstitutunda işləməyə başlamışdır. 1961-ci ildə «Kiçik Qafqazın şərq dağətəyi zonasında (Ağcakənd. Ağdərə və Xocavənd çökəkləri) üst təbaşir çöküntülərinin mikrofaunası (foraminiferlər) və stratiqrafiyası» mövzusunda namizədlik dissertasiyası, 1969-cu ildə isə «Kiçik Qafqazın gectəbaşir formininferləri» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1976-cı ildən ömrünün sonünaqədər «Mikropaleontologiya» laboratoriyasına rəhbərlik etmişdir. Qafqazın üst təbaşir və paleogen çöküntülərinin paleontologiyası və stratiqrafiyası sahəsində mütəxəssisdir. Elmi fəaliyyəti gectəbaşir və foraminiferlərin mərhələli inkişafı, onların biostratiqrafiyası, sistematikası və filogeniyasının öyrənməklə bağlıdır. O, Qafqazın təbaşir və paleogeninin regional stratiqrafik sxemlərinin müəlliflərindən biri, plankton foraminiferlərinə görə bu sistemlərin zonal sxeminin müəllifidir. 1991-ci ildə Azərbaycanın təbaşir çöküntülərinin paleontologiyası və stratiqrafiyası üzrə silsilə işlərinə görə Respublikanın Dövlət Mükafatına layiq görülmüşdür. İbtidailər faunasının mikromorfoloji tədqiqatlarında müasir üsullardan geniş istifadə olunmasının təşəbbüsçüsüdür. Plakton foraminiferlərin sistematikası və təkamülü üçün taksonomik əhəmiyyəti olan mikromorfoloji əlamətləri əsaslandırmışdır. SSRİ EA Okeanologiya İnstitutunun elmi ekspedisiyalarında iştirak etmiş, Mərkəzi Atlantikanın pleystosen və qolosen foraminiferlərini tədqiq etmişdir. Xeyli elmi əsərin müəllifidir. Bir neçə namizədlik və doktorluq dissertisiyalarına rəhbərlik etmişdir.

***Dünyamalıyeva Arzu Qəzənfər qızı.*** ADU-nun riyaziyyat fakültəsini bitirib. Dissertasiya müdafiə edərək dossent rütbəsi alıb. ANKİ-nin ali riyaziyyat kafedrasının müəllimidir.

***Salamov Asəf Ağacavad***. ADU-nun fizika fakültəsini bitirib. Novosibirskdə biofizika üzrə elmi işini bitirib, dissertasiya müdafiə edərək elmlər namizədi alimlik dərəcəsini alıb. Hal-hazırda İngiltərədə Kembric Universitetinin, sonra ABŞ-da San-Fransisko şəhərində qadın orqanlarında şişlərin müalicəsi üzrə elmi işini müdafiə edib. San-Fransisko Universitetinin professor-doktorudur.

***Quliyev Məlik Bəytulla*** (1935). 1959-cu ildə M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun geoloji kəşfiyyat fakültəsini bitirib. Qaradağneft mədən idarəsinin rəisi, Ekologiya komitəsi müavini olub. Orconikidzeneft mədənləri idarəsinin neftçıxarma rəisi, tədqiqat üzrə texnik, «Qum adası» Neftçıxarma idarəsinin rəisi olub.

***Əliyeva Xırdaxanım Əli qızı*** (1924-1989). ANKİ-nın mexanika fakültəsini bitirib. Balaxanı Əzizbəyov adına Mexaniki təmir zavodunda direktor işləyib.

***Əliyeva Nərgiz Əli*** (1917-2001). ATİ-nin müalicə-profilaktika fakültəsini bitirib. İsmayıllı rayonu, Basqal kəndində xəstəxananın baş həkimi olub.

***Məmmədov Əbülfəz Yafəz*** (1913-2001). ANKİ neft mədən fakültəsini bitirib. Əzizbəyov neft mədənində müdir işlyəib. 1945-ci ildə Bakı Ali Partiya məktəbini bitirib. 1952-ci ildə Kaqanoviç rayonu Partiya Komitəsinin katibi olmuşdur. 1955-ci ildə Stalinneft mədənlərinin müdiri işləyib.



Polkovnik-leytenant ***Salamov Yusif Davud oğlu***, 31 may 1961-ci ildə Əmircan qəsəbəsində anadan olub.

1978-ci ildə 114 №li orta məktəbi bitirib.

1979-cu ildə Azərbaycan SSR Ali Soveti adına Bakı Ali Ümumqoşun Komandirləri məktəbinə daxil olub və oranı 1983-cü ildə bitirib.


Tofiq Bayram peziyası mövzu, forma və məzmun cəhətdən çox zəngin və rəngarəngdir. Bununla bağlı bir məsələni xüsusilə qeyd etmək istərdik. Aşıq məktəbləri. Aşıq mühitləri olduğu kimi poeziya məktəbləri, poeziya mühitləri də ola bilər. Adətən Azərbaycanın Şərq bölgəsində əruz vəzni üstünlük təşkil edir. Şərq bölgəsinin nümayəndəsi Tofiq Bayramda bunun əksini görürük.

Yeri gəlmişkən qeyd edək ki, Tofiq Bayramın şeirləri Səməd Vurğunun çox xoşuna gəlib və haqqında deyib: «Bu gəncin dili səlis, misraları ləngərlidir».

Qürur hissi ilə deyə bilərik ki, Səməd Vurğun yaradıcı gənclərlə bağlı söylədiyi bütün fikirlərində olduğu kimi, Tofiq Bayram haqqında dediklərində də yanılmamışdı.

Doğrudan da şairin dili səlis, saf, şirin və cazibəlidir. Görkəmli alman alimi Leybnisin dərin mənalı, təcrübədə təsdiqini tapmış müdrik kəlamı vardır: «Mənə mükəmməl dil verin, sizə mükəmməl mədəniyyət verim».

Göründüyü kimi Tofiq Bayram dilimizə, ədəbiyyatımıza, bütövlükdə mədəniyyətimizə eyni dərəcədə layiqli xidmət göstərmişdir.

Tofiq Bayram yaradıcılığında «Ana» mövzusu aparıcı yerlərdən birini tutur. Şair analara böyük ehtiram və şükranlıqla neçə-neçə dərin mənalı şeirlər həsr edib: «Analıq haqqı», «Şair arvadına», «Anna sevinci, anna qəzəbi», «Ay gecikən məhəbbətim», «Vağzalı çalınır, anam ağlayır», «Qadın ürəyi», «Qadınlar və analar haqqında qəsidə» və s. kimi bir-birindən gözəl şeirlərdə real həyat həqiqətləri bariz şəkildə əks etdirilir.

Tofiq Bayram Azərbaycanı tarixdə yaşadan, onun ilham mənbəyinə çevrilmiş korifeylərimizdən: N.Gəncəvinin, M.Fizulinin, M.F.Axundovun, Ü.Hacıbəyovun, S.Vurğunun, R.Rzanın, Maestro Niyazinin və bir çox dəyərli sənətkarlarımızın ədəbi portretlərini elə ustalıqla canlandırmışdır ki, oxucu ilə bu böyük dühalar arasında sanki ədəbi bir dialoq yaranmışdı. Bu şeir-sənət dühaları şairin həyat və yaradıcılığına elə dərin təsir etmişdir ki, onun forma, mövzu, məzmun və dil baxımından cilalanmış əsərlərini oxuduqca valehedici bir mənzərənin şahidi olursan.

Dostluq şarjları Tofiq Bayram yaradıcılığında da əhəmiyyətli yer tuturdu. Duzlu-məzəli şarjlarına görə o, qələm dostlarının xüsusi hörmət və ehtiramını qazanmışdı.Onun Anar, Nəbi Xəzri, Hüseyn Arif, Səyavuş Aslan, İsi Mələkzadə, Sabir Əhmədov, Oqtay Kazımov və Musa Yaquba həsr etdiyi şarjların ideya məğzini xoş məramlı niyyət, həddindən ziyadə səmimiyyət, nikbinlik, zarafatyana sataşma təşkil edir.

Şairin uğurlu tərcüməsində Azərbaycan oxucuları A.Tvardovskinin «Üfüqlərdən-üfüqlərə» (1966) və «ürəkdən-ürəyə» (1975), Rəsul Həmzətovun «Durnalar» (1973) və «Dostları qoruyun» (1989) şeir kitabları, Puşkinin «Mosart və Salyeri», Tvardovskinin «Yaddaşın hökmü», Anna Axmatovanın «Rekviyem» poemaları, ispan dramaturqu Hope de Veqanın «Hiyləgər məşuqə» əsəri ilə tanış olmaq imkanı əldə etmişdir. Şair eləcə də Y.Yevtuşenko, T.Çiladze, İ.Abaşidze, Q.Quluyev, L.Xaustov və başqalarının bu gün də şüur və qəlblərə sirayət edən poeziya nümunələrini yüksək bədii şəkildə tərcümə edərək Azərbaycan oxucularına töhfə etmişdir.

Tofiq Bayram yaradıcılığı ilə yaxından tanışlıq belə qənaətə gəlməyə imkan verir ki, şairin forma, üslub, məzmun və ideya baxımından bir-birindən fərqlənən, bütövlükdə poetik təfəkkürün bəhrəsi olan əsərləri bir ortaq nöqtədə doğma xalqına, vətəninə qeyrətli bir oğul kimi xidmət etmək anlamında birləşir:

***Vətən mənim bu günüm,***
***Sabahkı toy-düyünüm.***
***Haqqım var ki, öyünüm,***
***Azərbaycan deyəndə.***
***Ürəklərdə döyünüm,***
***Azərbaycan deyəndə...***
***Mən Vətənə Fizuli,***
***Abbas Səhhət deyirəm.***
***Mən Vətənə Üzeyir,***
***Müşfiq, Səməd deyirəm.***
***Günəş kimi müqəddəs***
***Bir həqiqət deyirəm***
***Azərbaycan deyəndə.***

Tofiq Bayramın xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, Əməkdar incəsənət xadimi

(1984), Dövlət mükafatı laureatı (1988) kimi fəxri adlara layiq görülmüş, ümumilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Əmircan kəndində istirahət parkı adına verilmiş və parkda büstü qoyulmuşdur. Parkın açılışında şəxsən iştirak edən, ədəbiyyatımızın böyük qayğıkeşi Heydər Əliyev şairin yaradıcılığına yüksək qiymət vermişdir.

Mənalı ömür yaşayan Tofiq Bayram 1991-ci il aprel ayının 18-də dünyasını dəyişdi və Əmircan qəbristanlığında dəfn edildi. Nə edəsən ki, «bir yandan boşalıb, bir yandan dolan dünya»mızın keçilməz qanunları vardır. Tofiq Bayramın yoxluğunu ürək ağrısı ilə qeyd etsək də, təsllini onda tapırıq ki, şairin ölməz poeziyası yaşayır və tam əminliklə deyə bilərik ki, ədəbiyyatımızda layiqli yeri olan şairin poetik irsi gələcək nəsillərin də qəlbində yaşayacaqdır.



***Əmircan. Tofiq Bayram adına küçədə şairin ata mülkü***



***Tofiq Bayram ailə üzvləri arasında. Həyat yoldaşı Zərifə xanım, oğlanları Zakir, Cavanşir və Cahangir***



***Zərifə xanım nəvələri arasında***



***Tofiq Bayram öz qohumları arasında***

***f.e.d. prof. Qəzənfər Paşayev***
***f.e.n. Gülzar İbrahim qızı***



***Tofiq Bayram ailə üzvləri arasında***

**QADIN ÜRƏYİ**

***Necə rəhmlidir, necə amansız,***
***Necə mehribandır qadın ürəyi***
***Sən onu sındırsan, bil ki, a qansız,***
***Ağlayan kamandır qadın ürəyi.***

***Güldürsən, ömürlük səadətindir,***
***Söndürsən, yanmağı bir də çətindir.***
***O, əsil qayğının, məhəbbətindir,***
***Sevgisiz zindandır qadın ürəyi.***

***Onu alçaldan da, ucaldan da biz,***
***Dərd verib vədəsiz qocaldan da biz.***
***Qədrini biləndə bu cahanda biz,***
***Həmişə cavandır qadın ürəyi.***

***Bəzən gül tək solar acı bir sözdən,***
***Ağlayar xəlvəti, gülsə də üzdən...***
***Bəzən uşaq kimi bir ürəksizdən***
***Məhəbbət umandır qadın ürəyi.***

***Bir namərd əlindən zəhər içəndə,***
***Keçirər ömrünü o yas içində.***
***Bəzən ən qiymətli libas içində***
***Nalədir, fəgandır qadın ürəyi.***

***Sənsiz əl çəkərəm arzudan, kamdan,***
***Nə çıxar sevgisiz-sənsiz ilhamdan?***
***İncitsən dözərəm, Tofiq Bayramdan***
***İncimə, amandır, qadın ürəyi.***



*Tofiq Bayramın bacısı Svetlana xanım, Zərifə Salahova və Anar*




*Maestro Niyazi*



*Tofiq Bayram və Mirzə İbrahimov*



*Tofiq Bayram və Fərhad Bədəlbəyli*



*Elçin Əfəndiyev, Höküma Billuri, Qurban Xəlilov, Hüseyn Arif, Qabil, Ayaz Vəfalı, Tofiq Bayram. 1984-cü ildə Əməkdar incəsənət xadimi adına layiq görülməsi mərasimində.*



*Görkəmli akademik Əlisöhbət Sumbatzadə və Tofiq Bayram Səttar Bəhlulzadənin məzarını ziyarət edərkən.*



*Xəlil Rza, Əkrəm Cəfər, Lətif Kərimov, Tofiq Bayram və Səid Rüstəm*



**KEÇ GÜNAHIMDAN**

Sağalmaz xəstənəm, dərmanım sənsən,
Həkimim, hakimim, fərmanım sənsən.
Dövlətim, şöhrətim, ad-sanım sənsən.
Yeganə ümidim, gümanım sənsən,
Mən necə əl çəkim son pənahımdan:
Sənə yalvarıram:
Keç günahımdan!...
Vaxt ötür, səfərə yığılır köçüm,
Rəvamı özgəni axtarım, seçim?
Bir dərya ömrümdən qalıb bir içim,
Ondan da yolunda hazıram keçim,
Keçim öz canımdan, öz var yoxumdan,
Bəlkə ayılmadım şirin yuxumdan.
Sənə yalvarıram:
Keç günahımdan!...
Mənə qurban verdin cavanlığını,
Nur etdin ömrümün qaranlığını.
Heyf, ucuz tutdum qurbanlığını,
Görmədim, duymadım insanlığını,
Qəzəbin soyusun etirafımdan,
Sənə yalvarıram:
Keç günahımdan!...
Elə ucaltmısan, enə bilmərəm,
Elə yandırmısan, sönə bilmərəm.
Sənsiz lal olaram, dinə bilmərəm,
Əl çəkə bilmərəm, dönə bilmərəm
Mən öz bugünümdən, öz sabahımdan
Sənə yalvarıram:
Keç günahımdan!...
Ömrün tək qanadlı quşa dönməsin,
Həsrətin gözümdə yaşa dönməsin.
Baharın borana, qışa dönməsin.
Ürəyin bərkiyib daşa dönməsin,
Daşlar da od tutub yanar ahımdan,
Sənə yalvarıram:
Keç günahımdan!...



***Zərifə xanım böyük bəstəkar Qara Qarayevin yubiley tədbirində Tofiq Bayramın «Ölməz sənətkar» şerini oxuyarkən Bülbül adına musiqi məktəbində.***

**VAĞZALI ÇALINIR, ANAM AĞLAYIR**

Duvağa bürünüb yola düşürsən,
Qonşular telinə çiçək bağlayır.
Ay bacım, sən haldan-hala düşürsən,
«Vağzalı» çalınır, anam ağlayır.

Köçürsən üzüağ, məğrur, hayalı,
Gedirsən könlünü verdiyin yerə.
Buydu anamın da fikri-xəyalı,
Bəs niyə kövrəlir o, birdən-birə.

Ortada quş kimi süzür gəlinlər,
Qızlar oğrun-oğrun yar soraqlayır.
Gülür, fərəhlənir toya gələnlər,
«Vağzalı» çalınır, anam ağlayır.

Bir evdən bir evə səadət gedir,
Biri yola salır, biri səsləyir.
Bir ana qızını burda ləngidir,
Bir ana həsrətlə gəlin gözləyir.

Ona təskinlik də gərək deyildir,
O göz yaşlarında sevinc var, bacım.
Səadət həmişə gülmək deyildir,
Ana qız toyunda ağlayar, bacım.

Gedirsən ən şirin arzu-kam kimi,
«Vağzalı» çalınsın, get yavaş-yavaş.
Dünyada hər ana öz anam kimi,
Bircə toy günümdə ağlayaydı kaş.

**AY GECİKƏN**
**MƏHƏBBƏTİM**

İllər boyu səni gəzdim,
Ay gecikən məhəbbətim.
Sən yubandın, mən tələsdim,
Getdi gənclik təravətim.
Ay gecikən məhəbbətim.

Mən bir yanda sənə möhtac,
Sən bir yanda gəzdin əlac.
İki qəlbdə bir ehtiyac,
Övladıyıq bir həsrətin,
Ay gecikən məhəbbətim.

Saç ağartdım bu yollarda,
Harda idin, söylə, harda?
Bir yarpağam son baharda
Saralıram yetim-yetim,
Ay gecikən məhəbbətim!

...Bir könül var, əmanətdir,
Acısı da şirin dərddir.
Bir qadına xəyanətdir
Bir gözələ sədaqətim,
Ay gecikən məhəbbətim!

Cəzam varsa , verən gəlsin
Könlü hicran görən gəlsin.
Məcnun gəlsin, Kərəm gəlsin,
Desin nədir qəbahətim,
Ay gecikən məhəbbətim!

**KAŞ Kİ, ÖLƏCƏYİM**
**GÜNÜ BİLƏYDİM**

Bələkdə köçsəm də qoynuna, kəndim
Burda son məskənim, ilk ünvanım var.
Hər yerdə, hər zaman sənə güvəndim,
Sənsiz nə ürəyim, nə də sanım var.

...Sinəndə Səttarın sənət gülzarı,
Yolumu gözləyən ata məzarı.
Qapıdan boylanan ağbirçək qarı,
Mənə oğul deyib qol açanım var.

Mənim səcdəgahım sənsən cahanda,
Adın dövr eləyir ürəkdə, qanda.
Xoşbəxtəm, vətənim Azərbaycanda
Dilimin əzbəri Əmircanım var.

Kaş ki öləcəyim günü biləydim,
Biləydim nə zaman son nəfəsimdir,
Demirəm dünyaya bir də gələydim,
Bir dəfə gəlmişəm, elə bəsimdir.

...Kimin ki, qəlbinə toxunmuşam mən
Gizli bir həsrətlə ona yanaşım.
Haqlı gileylənən, haqsız inciyən
Bütün dostlarımla mən halallaşım.

...Eşidim Bakının addım səsində
Sonuncu əlvida nəğməsini mən.
Eşidim bir körpə qəhqəhəsində
Ömrümün uğurlu əvəzini mən.

Gözümdə qüssə yox, ürəyimdə qəm,
Ötən günlərimə çətin ki, yanam.
Əgər qəbrim üstə bir gülə dönsəm,
Bilin, ürəyimdir yerdən boylanan.

....Ürəklə yazmışam neçə nəğməni,
Biri yadda qalan, biri itəndir.
Demərəm, ey Vətən, bağışla məni,
Torpağın altı da mənə Vətəndir.



Тофиг БАЙРАМ

ШЕ'РЛЭР

# ӘМИРЧАН ЛӨВЊӘЛӘРИ

## КӘНДИН ФӘХРИ ВӘТӘНДАШЫ

Она мәнзил вердилар
Шәһәрин мәркәзиндә,
Деди: Көрәјим дејил.
Дедилар: Бағын олсун
Бағларын мәркәзиндә,
Деди: Көрәјим дејил.
Бағым да вар, евим дә,
Ушағым јох мәним.
Бағым — јашыл табиәт,
Евим — ана Вәтәним.
Дедилар: Машын верәк
Сәнә нәвәдәнкәнар.
Деди: Көрәјим дејил.
Симиндә көзәсәм.
Јоллар мәндән ајрылар,
Дағлар мәнә гынајар.
Төкәрләрин алтында
Әзилсә бир јул, чичәк
Бүтүн күллар, чичәкләр
Өлкәдә ел үзәчәк,
Јәрјүзүнә үстүмә
Бүтүн дағлар, гајалар,
Гызыл гана дәнәчәк
Фырчаларымы бојаләр.
Сәнәтим Мәнкүнүнә
Сәҹдә гәфәсдир мәшын.
Гојун тәбиә галым,
Табиәтә јарашым...

Хорузлар бан верәндә
Чыхарды мәнзилиндән,
Дан јери чырпыҹды.
Сых, дәлгалы сечләри
Бәзәрди өз әлиндән,
Бармаглар дарағыҹды.
Бәдән мәзәк, шүвәрәк,
Гоплар гамма јиннәдән,
Өлчүдә рәнк ишләри.
Өмүрбојлу көлүндән
Инк дәмчы кими дән
Онун мавн көзләри.
Кәнддә Фузулинин
Өзәбәрдән дејәҹәји,
Һәр әддымы јоллара
Бир бәхшиш, бир һәдијјә.
Нә гышын бораләри,
Нә јајын истиләри
Ланкитмәрди бир анлыг
Јәнишини Сәттарын.
Өзүндән кечәндә
Сигарет түстүләри
Кәндә хәбәр верәрди
Көлишини Сәттарын.
Бир ејлинмиш будағы
Өјкиб галдырарды
Бармағының учунда.
Бир чәрәк гырынтысы
Үрәјини гырарды,
Сығаларды сечүндә,

Јығарды чантасына,
Өз-өзүнә дејинб:
«Ахшыг, дәвә көрмәјән
Тохлар һәддини дүшүр,
Бә'зи рәссамлар кими
Бәр-бәзәкли көјнүб
Һеҹ, тек-түк әдәмлар
Инкидән јохсулашыр.
Гој апарым шәһәрә,
Бу бир сәваблыг олсун;
Гошсун көрчиләрә
Мәндән гонаглыг олсун...».
Онун сәдаҹи мәним —
Елвитрин гатары,
Билети дә дәним.
Көлишн галдырарды
Бүтүн отуранлары:
—Бујур, Сәттар мүәллим,
—Кәл отур, Сәттар әми.
Тәләбәләр, нәфтчилар
Јығыларды башына,
Гатардан дүшмәјә дә
Ким нә унударды,
Хәзәрнин зилләјиб
Илаһи бахышына
Онун һәр көләмәнә
Һәвә кими ударды.
Тарзән нечә төләсәр
Өз тарыјла көрүшсүн,
Дурна нечә төләсәр

Гатарыјла көрүшсүн.
Лоғман нечә төләсәр
Хәстәнини јанына,
Мәчнун нечә төләсиб
Ләјлисинә говушсун, —
Бах, бель төләсәрдә
Рәссам иш атасына.
Бүрүләрдә шәһәрни
Дөнәсиндән, тикиндән,
Сәттар сонсуз дејилди,
Бу Вәтән торпағына
Мин көзәллик дөгүлүб
Онун хиш бәтиндән.
Бир отаға сығарды
Кеј кәл, Чыдыр мејданы.
Өз Кәпәзи бојадды
Күчәҹ, хамат оңа.
О, чәмәнли, чәшмәли
Бүтүн Азәрбајчаны
Үрәјиндән, көзүндән
Кечүрәрди көтәнә...

Инди һејкәлә дөнүб,
Јенә Өмирчандадыр.
Үрәјинә дәр көлир
Көксү гранит дашын.
Нәфәси хәдсиздә,
Шәһрәти чәһәндәдир
Бу әбади сәнинин,
Бу фәхри вәтәндашын.

# КИТАБХАНАЧЫ

Кәндин китабханасы икиҹан мәртәбәдә,
Өсир көһнә пилләләр бир-бириниң далында.
Јорулмаздым бу јерә галхсајдым јүз дәфә дә,
Охујардым көзләрим јумуруб гаралынча.

Бурда һамыдан әввәл мән ачардым гапыны,
Унудуб ләззәтини футбол ојнамағын дә.
Бир аj мәзәб көзләјиб «Нағыллар» китабыны
Бириндәсә охудум гирәт отағында.

Бә'зән дә башлајанда биринчи сәһифәни,
Сонунчу сәһифәни битирмәдән гоймадым.
Китабын һәр чүмләси әфсунларды мәни,
Өн истәкли достуму итирмәкдән горхардым.

Чөкмә јох, бәјимә јығыларды сөвәтим,
Һәр китаб көзләримә таза бир чыраг ҹды.
Мәним академијам, мәним университетим,
Мәним сәһрли дүнјам кичик бир отаг ҹды.

Годим китаблар кими үз-көзүндән нур јаған
Бир инсанла бу јердә көрүшәрдим һәмишә.
Бирчә сөзү вар ҹды: «Охујана чән гурбан,
Сәвадсызын көзүндә — әлəм гәрәклиг мәшә».

Бурда көчиб өмрүнүн ән мә'налы күнләри,
Мин отага нур јајыб бир отагда отурак.

Тахта аjагларында тахта пилләкәнләри
Гајғы илдир галхыб-енир бу чәбһәчи әтәрак.

Ағыр-ағыр төрәниб јериjәрди габаға,
Таныjарды узагдан мәним әддым сәсими.
Бир шә'ри башлајанда әвәзлә охумага
Она гулаг асдығча гысардым нәфәсими.

Көрәндә бир сәһифә позулуб, гараланыб,
Бу дәрд оны гочалдыб гамятини әjирди.
Сенырды, үрәjиндә мәрмәрләр сыраланыб,
Һәр сырылмыш китабдан она күлүб дејирдим.

Өлмәлчә јалышдырыр голан сәһифәләри,
Өлү газабдан әсир, синәси габарыбды.
Елә бил һүчүм вахты јараланмыш әскәри
О... тапшырыб...ерини...дејүш гајдарды...

Ајлар, илләр доланишт узаныр бир сап кими,
Тозланыр, дөjүшүр бу отаға көләнләр.
Һамын көһнә гапыны галын бир китаб кими
Алагулу муәллим ачыб-ортур һәр сәһәр.

Јенә көзүндә әjнәк, бахышлары мәһрибан,
Бир аз годан әjилиб, сачы дөнүб күмүшә.
Јенә һамын көләләр: «Охујана чән гурбан,
Сәвадсызын көзүндә — әлəм гәрәклиг мәшә».

Бу дүнјада бирчә шеj она дәрдәнҹ, әзабдыр:
Ајагына көз дикир сөз дүшәндә дәвәдән.
Китабларын ичиндә јазылмамыш китабдыр,
Инсанларын ичиндә ән сөнмәјән бир инсан.

Anadan gəlmə şair qardaşım Tofiq Bayrama onunla Əmircanda görüş məclisindən xatirə

***27 XI 1982 Qabil***

Gələcəyinə böyük ümidlər bəslədiyim şair dostum Tofiq Bayrama müəllifdən yadigar

***6. IV. 71. Kərim Faiq (kor)***

Abşeron torpağı qədər odlu, Xəzər dalğaları qədər təmiz, Səttar sənəti qədər əlvan nəğmələr bəstələyən bu kitaba səmimi rəy yazan şair dostum Tofiq Bayrama gözəl arzularla

***15. IX. 77 Əli Tudə***

Səmimiyyət və yaxınlığımı bildirmək üçün söz tapmadığım şair dostum Tofiq Bayrama Musa Yaqubdan yadigar

***27. XII. 73 Musa Yaqub***

## МӘНИМ ИЛК ҮНВАНЫМ

Илк синиф отағым, илк мүәллимим,
Шә'рә мизраб вуран илк сары симим,
Илк севким, чәваблыг севкинимә, гәмким,
Үрәји ешгимлә чөлаjаным вар.

Ушаглыг достларым раст көлир мәнә,
Сечләри охшаjыр думаг jелкәнә.
Нәчәси бәбәдир, нәчәси көкә,
Мәним дә о күнә бир думаным вар.

Шәкр мин jүзәjа гонаг гуш дејил,
Елдән ајрылмаjан күнү хош дејил,
Бир тоjда, мәчлисдә jерим бош дејил,
Мәндән сәсәвәтлә сөз ачаным вар.

Нә шөһрәт ачыjам, нә пул һәриси,
Тәләjим, гисмәтим илһам пәриси,
Сабаһын Сәттары, уста Пәриси,
Шә'рә ганад верән jүз чәваным вар.

Мәним сечдикәчим сәнсән чәһәндә,
Адын дөвр еләjир үрәкдә, гәлбдә,
Хошбәхтәм, вәтәним Азәрбаjчанда
Дилимин әзбәри Өмирчанын вар.

Şeirlərindən şeir yazmağı öyrəndiyim, şeirin vəfalı dostu, dostla dost, düşmənlə düşmən olan təmiz qəlbli, böyük ürəkli Tofiq Bayrama kiçik xatirə

***XII. 70 Ağa Laçınlı***

Gözəl şairimiz, zərif qəlbli insan, tələbkar redaktor, bu kitabça üçün xüsusi əziyyət çəkmiş, dostum Tofiq Bayrama ən xoş arzularla

***7. V. 79 Ağasəfa***

İnsan elə yaşamalıdır ki, o, evinin yox, bütün kainatın hökmdarı olmalıdır. Böyük şəxsiyyət olmayan yerdə böyük sənətdən söhbət aparmaq olmaz. Hər cür möcüzənin qaynağı cəsurluqdur. Belə bir insan yanız Tofiq Bayramdır.

***1970. Süleyman Rüstəm***

Tofiq Bayram ensiklopedik zəkalı, yüksək təfəkkürə malik böyük ürək sahibidir. Şairlik, vətəndaşlıq, qeyrət və hünər onun şəxsiyyətində birləşmişdir. Odlu-alovlu, coşğun, Prometey hünərli bir şairdir.

***1975. Aslan Aslanov***

Tofiq Bayram öz istədiyinə nail olmuşdur. O, A. Tvardovskinin «Üfüqlərdən üfüqlərə» əsərini məhəbbətlə Azərbaycan dilinə tərcümə etmişdir. Misralar rus dilindən tərcümə olunmuşdur. Amma əlinizi ürəyinizin üstünə qoyub deyə bilərsinizmi ki, oxuyanda onların tərcümə olunduğunu hiss etdiniz? Əlbəttə, deməzsiniz. Çünki misralar rəvandır, axıcıdır. Sözlər yerində işlənmişdir, vəzn də, qafiyə də düzdür, aydındır. Orijinalla müqayisə etdikdə açıq görünür ki, mütərcim müəllifin hər misrasına, hər ifadəsinə, sözünə ehtiramla yanaşmışdır. Onun demək istədiyi fikri ruscada olduğu kimi Aərbaycan dilində də obrazlı şəkildə verə bilmişdir.

***1975. Rəfail Hağıyev***

T. Bayramın tərcüməsi mənim orijinalımdan qatqat güclüdür. Universitetdə görüş zamanı Tofiq mənim şeirlərimi oxuyanda oxucular onu çox yaxşı qarşıladı-

lar. Bunları mən öz gözümlə gördüm. Tofiq mənim şeirlərimi odlu-alovlu oxudu.

***Rəsul Həmzətov***

Azərbaycanın odlu, alovlu poeziya qartalı, sevimli şairimiz Tofiq Bayram həmişə yaşayacaq.

***İslam Səfərli***

Artıq ömrünüzün və yaradıcılığınızın müdrik çağına qədəm qoyursunuz. Mənalı ömür yolunuz, zəngin həyat təcrübəniz müasir gənclər üçün, şübhəsiz ki, yeni-yeni şeirlərinizlə oxucularımızı sevindirəcəksiniz. Yubileyiniz münasibətilə sizi bir daha təbrik edir, sizə möhkəm can sağlığı və uğurlar arzulayıram.

***1984. Mirzə İbrahimov***

Sizin ana dilində yazdığınız şeirlər nənə laylası qədər şirin, cana hopan, ata tələbatı qədər ciddi səslənən çoxcəhətli şeirləriniz biz oxuculara daima mənəvi qida verir. Şair ömrünün parçalanaraq oxucu ömrünə qarışması şairin indiki və gələcək oxucularla birgə yaşamasıdeməkdir.

***Akademik: Budaq Budaqov***

Özünəməxsus yaradıcılıq xüsusiyyətləri, orijinal istedadı və yazı manerası ilə seçilən şairlərdən biri T. Bayramdır. O, hələ ilk qələm təcrübələrindən başlayaraq öz oxucusunu tapmış, ədəbi ictimaiyyətin diqqətini cəlb etmiş, şirin oxunan və hər yeni əsəri ilə təzə, təravətli fikirlər təbliğ edən bir odlu-alovlu şair kimi tanınmışdır.

***Niyazi***

Tofiq Bayram həqiqi dostunu tanıyan, nöqsanını üzə deyən, əsl bir insan idi.

***Teymur Elçin***

Böyük Səməd Vurğunun vəfatından sonra mənim üçün Azərbaycana gəlmək, onun yerini boş görmək son dərəcə ağır idi. Amma bir gün gənc və istedadlı şair Tofiq Bayramın odlu-alovlu şeir oxumasını gördükdən sonra mən inandım ki, Səməd Vurğunun layiqli davamçısı yetişir.

***1959. Nazim Hikmət***

Tofiq Bayram anadan müdrik, ağsaqqal, elin dərdini, qeyrətini çəkən bir əsgər, döyüşçü, mübariz kimi doğulmuşdur.

***Məmməd Rahim***

Yazmaq, yaratmaq, tərcümə ilə can və başla işləmək, rus dilinin qrammatikası və ədəbiyyatı ilə dərindən məşğul olmaq Tofiq üçün nəfəs almaq qədər təbii və gözəl bir işdir. Hərəsi bir dissertasiya həcmində yazılmış kitabları ilə mən şəxsən dostum, qardaşım Tofiq Bayramla fəxr edirəm.

***Məktəb dostu, professor***
***Şamil Salmanov***

Tofiq yalnız yubileyi günlərində deyil, o, həmişə yadıma düşür, o, həmişə ürəyimdədir... Tofiq sənətə, sənətkara qiymət verən, onu uca tutan şəxsiyyət idi. 1963-cü ildə bir gecə qarlı qış axşamını Tofiq bizim evdə keçirib. O, şeir vurğunu idi. Yazdığım «Vətən» kantatası onun sözlərilə musiqi dünyasına yol açıb.

***Arif Məlikov***
***Xalq artisti, bəstəkar***

«Mən Tofiq Bayram qədər auditoriya tərəfindən hərarət və xüsusi məhəbbətlə qarşılanan şair görməmişəm».

***Andrey Vaznisenski***

Şeirimizin inam, əqidə yolunda vətəndaşlıq pafosunun genişlənməsində, yüksəlməsində misilsiz xidməti olmuş gözəl şair qardaşım, ilk gənclik illərimizdən həmişə qolumuzdan tutmuş xeyirxah ziyalımız Tofiq Bayrama - yaradıcılığına və şəxsiyyətinə dərin hörmətlə

***Sabir Rüstəmxanlı***

Xalqımızın Səməd Vurğun nəfəsli ustad şairlərindən biri kimi bütün qəlbimlə sevdiyim əziz Tofiq Bayrama qardaş töhfəsi

***Hüseyn Kürdoğlu***

Mərd, vüqarlı, qeyrətli, odlu-alovlu şairimiz, qələm yoldaşım Tofiq Bayrama

***Yusif Əzimzadə***

Qeyrətli, odlu, qüdrətli şair qardaşım Tofiqə - əzizimə balaca nişanə

***Şəmşad Rza***

Şeirlərində kişilik vüqarı və dərdli fikirlər gördüyüm, əziz, sevimli şairimiz Tofiq Bayrama qardaş məhəbbətilə

***Məsud Əlioğlu***

Mən Tofiq Bayramın tərcümələrinə minnətdaram. Azərbaycaın poeziya həvəskarlarının yaxşı rəyinə səbəb olmuş seçilmiş şeirlərinin toplandığı «Durnalar» kitabına daxil olan əsərlərin tərcüməçisi Tofiq Bay-

ramdır. Tofiqin tərcüməsi oriinaldan qat-qat güclüdür.

***Rəsul Həmzətov***

***«Mən öz imamı qoruyacağam,***
***Ana balasını qoruduğu tək!***
***Oğul anasını qoruduğu tək!***
***Əsgər Vətənini qoruduğu tək!»***

Hikmətilə məni heyrətdə qoyan, ən qadir qayğıkeşlərimdən biri dostum Tofiq Bayram!

***Əli Qurbanov***

Şeirlərinin dəlisi olduğum gözəl insan, gözəl şair Tofiq Bayrama kiçik hədiyyə

***Qərib Mehdiyev***

İstedadlı, ilhamlı, odlu-alovlu şairimiz Tofiq Bayrama ən xoş arzularla

***Xəlil Rza***

Tofiqimizin böyük kitabxanasına lap kiçik bir hədiyyə

***Məmməd Aslan***

Müasir poeziyamızın keşiyində mərdanə və tələbkarcasına duran şairimiz Tofiq Bayrama müəllifdən xatirə olaraq

***Teyyub Qurban***

Qardaşım Tofiq!

Sənə baxanda özümü, Səməd Vurğun xilqətli, inamlı və vüqarlı bir şair kimi görürəm.

***Hüseyn Arif***

«Mənim əzizlərim» kitabı üzərində böyük zəhməti olan odlu-alovlu şair qardaşım Tofiq Bayrama

***Tofiq Mütəllibov***

Ürəyi ilə, şeirləri ilə, münasibətləri ilə həmişəcavan Tofiq Bayram üçün ilk qələm götürdüyüm günlərin minnətdarlıq hissilə

***Nüsrət Kəsəmənli***

Gözəl insan, gözəl şair, xeyirxah insan, torpağımızın yanan oğlu Tofiq Bayrama dostuma, qardaşıma məhəbbətlə

***Məmməd İsmayıl***

Həm mənim dostum, həm də «Kommunist» redaksiyasının dostu, gözəl şairimiz Tofiq Bayram ən xoş arzularla

***Əfqan***

Əzizim Tofiq!

Şeir üfüqlərində sənə daha qüdrətli qanadlar arzulayıram.

***Qulam Məmmədli***

Ustadım Tofiq Bayramın oğluna

Elimiz, obamız, xalqımız səndən böyük ümid gözləyir, Zakir!

Sən öz işinin böyük şairisən. Uğur olsun sənə, qardaşım. Müəllifdən balaca nişanə.

***Şəmşad Rza***

Azəri xalqının odlu-alovlu şairi, böyük zəkaya malik, dərin düşüncə, anadan şair doğulmuş Tofiq Bayrama ən xoş arzularla

***Manaf Süleymanov***

Həqiqi dostunu tanıyan, nöqsanını üzə deyən, sevimli şairimiz Tofiq Bayrama müəllifdən yadigar

***Teymur Elçin***

№10 12-13 iyun 2001 KASPİ 065 (246) xatirə

# Инчимә, амандыр, гадын үрәји

## Сәттар Бәһлулзадә Тофиг Бајрама Фәхри Хијабанда дәфн олунмамасыны вәсијјәт едиб

**Абасгулу Ага Бакыхановун, Сәттар Бәһлулзадәнин дүнјаја көз ачдығы Әмирчан кәндиндә доғулду. Елә ушаглыгдан "ағыр олур, батман каһ" самбалыјнан сајылды, сечилди. Биринчи синифдә көзалты еләдији Зәрифә ханыма, али мәктәбдә охујанда үрәјини ачды. Әдәбиҗјата чох еркән кәлди. Чохлары она бәнзәмәк истәсә дә, о һеч кәсә бәнзәмәди. Јаздығы һәр мисрасы дилләр әзбәри олду. Сәккизликләри илә Азәрбајчан әдәбиҗјатына јенилик, тәзә нәфәс кәтирди. Горки адына вә Азәрбајчан дөвләт мүкафатына лајиг көрүлдү. Әмәкдар инчәсәнәт хадими олду.**

**Көрәк елә јанам күлүмдән белә,**
**Нәсилләр танысын Тофиг Бајрамам!**

— дејди.

Чәми 57 ил өмүр сүрмүш Азәрбајчан әдәбиҗјатының азман сәнәткарларындан бири Тофиг Бајрамын евиндәјәм, 35 ил бир јердә өмүр сүрдүјү, она үч оғул бәхш етмиш Зәрифә ханымла онун һәјаты вә јарадычылығы барәдә сөһбәтләширик.

**– Зәрифә ханым, шаирләр бир аз дәјмә-дүшәр олурлар. Шаирә һәјат јолдашы олмаг гадын үчүн ағыр дејилми?**

— Мән Тофиг Бајрамын һәјат јолдашы олмагымла, онун сағлығында да, өлүмүндән сонра да фәхр етмишәм. Тофиг инчә гәлбли адам иди. Мән инанмырам ки, өзәк адам мәни Тофиг гәдәр дүјәҗәди. О, чох сәдагәтли адам иди. Истәр мәнә, истәрсә дә өвладларына гаршы чох сәмими иди. Дүздүр, характери ағыр иди, анчаг үрәји чох јумшаг иди. Мән дә өз нөвбәмдә һәмишә сәмими вә сәдагәтли олмушам. Бир јерә кетмәк истәјәндә әввәлчә она дејирдим. Әкәр јох дејирдисә, дүшүнүрдүм ки, белә олмалыдыр.



Мән мүәллимә ишләјирдим. Бир дәфә мүәллимләр ушаглары Губустана екскурсијаја апарырдылар. Мән дә өз синифимин шакирдләрини апармалыдым. Ахшам дедим ај Тофиг, ушаглары Губустана апармалыјам. Мәнә јох деди. Анчаг күнорта өзү кәлиб мәни машынла Губустана апарды.

**– Белә чыхыр ки, Тофиг мүәллим сизи гысганырмыш.**

— Нә билим валлаһ, мәнә дејирди ки, һара лазымса мән өзүм апарачам сәни. Оғлум Москвада охујурду. 5 ил али тәһсил алыб, 3 ил дә аспирантурада охујуб. Мән оғлумун јанына кетмәмишәм. Кедим дејәндә, дејирди ки, мәни тәк гојуб һара кедирсән. Һәм дә рәһмәтлик гонаг-гаралы адам иди. Евдә мәндән башга чај-чөрәк һазырлајан јох иди. Әкәр Тофигин гонагы кәлибсә, демәли нә ишим варса, тәзијә салыб онун гонагларынын үчүн суфрә ачмалыјдым. Ону да дејим ки, Тофигин нөинки гонаглары, өзүнүн јолунда нә иш көрүрдүмсә, мәнә хош иди. Мәним өн хош күнләрим Тофигло кечиб.

**– Зәрифә ханым сиз гысганмырдыныз ки?**

**– *(күлүр)*** Билирсиниз, ева кеч кәлән вахтлары да олурду. Ону дејим ки, Тофиг әкәр шәһәрдә идисә, мүтләг кечәни евинә кәләрди. Көрүшләри олурду. Гадынлар ону чох севирдиләр. Мән бунларын һамысыны тәбии гәбул едирдим. Амма бәзи гадынларын өндәзәдән чыхмыш һәрәкәтләрини көрәндә мәнә пис тәсир едирди. Јена дә мән һиссләримә бурузә вермәздим, ичимдә сахлајардым. Бир дәфә дедим Тофиг, гадынларын бу гәдәр сәнинлә јахынлыгы мәнә пис тәсир едир. Белә олмаз ахы. Мәним бу сөзүмдән сонра Тофиг "Гадын үрәји" шеирини јазды:

**Инчитсән дөзәрәм,**
**Тофиг Бајрамдан,**
**Инчимә, амандыр,**
**гадын үрәји.**

Дедијим кими Тофиг инчә үрәкли адам иди. Мән дә башa дүшүрдүм ки, о, шаирдир, ону севәнләр шаир кими севирләр.

**– Ешитдијимә көрә, Азәрбајчанын халг шаири Мәммәд Рәһим Тофиг мүәллими бир шаир кими чох севирмиш вә гајғысына галырмыш.**

— Әввәла ону дејим ки, Мәммәд Рәһим сөзүн һөгиги мәнасында ағсаггал адамыјды. Ејни заманда истедадлы кәнчләрин гајғысына галырды. Тофигә исә хүсуси гајғы кәстәрирди. Тофиг Мәммәд мүәллими өзүнә ата һесаб едирди, һәм дә она дәдә дејә мүраҹиәт едәрди.

Һеч јадымдан чыхмаз, бир дәфә кәлди ки, дәдәм бизи гонаг чағырыб. Јығышдыг кетдик. О күну о, ағсаггал киши өзү бизә гуллуг еләди. Кабабы өзү бишириди вә дејирди ки, өзүм биширдијим јемәк мәнә ләззәт верир. Онун ханым-хатын һәјат јолдашы вар иди, Мәләк ханым. Ағбирчәк гадын иди. Бизи јола саланда Мәләк ханым мәнә бир халат һәдијә верди. Инанын ки, бу кичик һәдијә шаирләрин евиндә бир сәс-күј јаратмышды ки, кәл көрәсән. Јәни Мәләк ханым һәр адама һәдијә вермәзди. Әлфи Гасымовун һәјат јолдашы мәнә зәнк едиб сорушду ки, доғрудан Мәммәд Рәһимин һәјат јолдашы сәнә халат бағышлајыб? Мән һә дејәндә о, деди ки, Зәрифә ханым, сиз өмәли сәләф адамсыныз ки, Мәләк ханым сизә һәдијә вериб. Демәк истәјирәм ки, сөһбәт һәдијәнин гијмәтиндән кетмирди, ону кимин бағышладығындан кедирди. Еһ, көзәл инсанлар варды (аһ чәкир). Анчаг сиз фикир верин. Бу гәдәр мәһрибан адамлар шәрдә бир-бириндә күзәштә кетмирдиләр. Елә мүбаһисә едирдиләр ки, елә бил бир јашда идиләр. Онларын (икисинә дә Аллаһ рәһмәт еләсин!) һеч бири зәиф шеһә көрә кимәсә күзәштә кетмәздиләр.

**– Тофиг Бајрамын белә бир шеири вар. "Мәнди һүсејин күчәси нөмрә бир". Бу шер јеканә шеирди ки, Азәрбајчан телерадио ширкәтинә һәср олунуб. Анчаг нәдәнсә телевизија онун һагтында хәбәрлик едир. Сизчә белә дејилми?**

— Габаглар бир чох верилишләрин әввәлиндә о шеири дејәрдиләр. Анчаг даһа демирләр. Галды о шеирин тарихчәсинә, Тофиг әвәлә Мәһди һүсејни һәм јазычы кими, һәм дә шәхсијјәт кими чох севирди. О күчә дә Мәһди мүәллимин адыны дашыјырды. О шеирин јазылмасы да Мәһди һүсејнә һөрмәтдән ирәли кәлиб. Тофиг Бајрамын бир шаир кими, бир шәхсијјәт кими пухтәлашмәсиндә Мәммәд Рәһимлә јанашы Мәһди һүсејнин вә мәестро Ниҹазинин бөјүк өмәји олуб. Габаглар әдәбиҗјат вә инчәсәнәт хадимләри хүсуси гатарла кәнд өмәкчиләринин көрүшүнә кедәрдиләр. Јадымда дејил, һансы рајондаса Тофиг чыхыш едәндә ону Ниҹази ешитмишди. Көрүшдән сонра Тофиглә таныш олмуш вә ону бир шаир кими бәјәндијини билдирмишди. Танышлыгдан сонра өјрәниб ки, Тофиг ишләмир. Бакыја гајыдан кими Ниҹази Тофиги Опера вә Балет Театрында ишә дүзәлтди. Онда Мәһди һүсејнә зәнк едиб Тофигин һагтында сорушанда, Мәһди мүәллим Тофиги һәм көзәл шаир кими бәјәндијини вә һәм дә онун ишсизлијиндән нараһат олдуғуну дејибмиш. Сонралар Тофиг мәдәстро Ниҹазијә дә бир нечә шер һәср етди. Она гајғы көстәрән инсанлары һәмишә һөрмәтлә јад едәрди.

**– Зәрифә ханым, кәлин бир аз да Тофиг Бајрамын Азәрбајчан әдәбиҗјатына јени нәфәс кими кәтирдији сәккизликләрдән данышаг.**

— Тофигин јаздығы һәр сәккизлијин бир тарихчәси вар. Низами Кәнчәвијә јаздығы Низами чөлнәки сәккизликләриндә даһи сәнәткара олан мәһәббәтини "Шер паҹтахты" сәккизлијиндә

**Бакы инчимәсин,**
**Кәнчә шаһәри,**
**Шер паҹтахтыдыр**
**Азәрбајчанын**

ифадә едиб. Еләчә дә Сабиро, С.Вургуна вә Сәттар Бәһлулзадәјә һәср етдији шерләриндә сәккиз мисрада поетик фикирләр дејиб Тофиг.

**Сабир шеримизин**
**Короғлусудур,**
**Каш онун "дәлиси" олајдым**
**мән дә!**



**Вахтсыз гочалды ки,**
**вахтындан габаг**
**Вурғун шеримиздә**
**ағсаггал олсун.**

Рәһмәтлик Сәттар Бәһлулзадә илә көһнә идиләр. О, чох севирди Сәттары бир рәссам кими. Сәттарын даим бармағынын арасында Аврора сигарети оларды. Одур ки, Тофиг она һәср етдији шериндә

**Чәкдијин Аврора илләрдән**
**бәри**
**Әлиндә алтынчы бармаг**
**кимидир...**

јазмышды. Бу сәккизлији Тофиг С.Бәһлулзадәнин өлүмүндән сонра јазмышды. С.Бәһлулзадәнин һеч кәси јохуду. Одур ки, о, Тофигә вәсијјәт етмишди ки, мән өлән дә гојма мәни Фәхри Хијабанда дәфн етсинләр. Мәни Әмирчанда валидејнәримин јанында дәфн един. Тофиг рәһмәтлијин вәсијјәтинә әмәл етди.

**– Зәрифә ханым, "Әсрин ојуну" шериндә:**

**Хоккеј киши ојунудур**
**Әсл киши!**
**Шаирин дә хоккеҗија**
**Вар охшары, бәнзәјиши.**
**Ән дөјүшкән мисраларым**
**Кечә-күндүз һүчумдадыр.**
**Һәјат хоккеј мејданы тәк**
**Гәләмимин учундадыр.-**

**дејир. Бу, садәчә хоккеј ојунуна шер јазмагдыр, јохса, доғрудан да идманы севирди Тофиг Бајрам?**

— Һә, о вахт, о шер дә бир сәс-күј јаратды шаирләр арасында. Тофиг өзү идманчыјды. Бөксүнә мәшғул олурду. Һәм дә идманын бүтүн нөвләринин һәвәскарыјды. Бир хоккеј, бир футбол олмазды ки, Тофиг она бахмасын. О, нөјин ки, ојунлара бахарды, инанын ки, бүтүн ојунчуларын адыны билирди, истәр хоккеидә, истәр футболда. Тофигин бундан башга идман һагтында бир бөјүк поемасы "Идман" гәзетиндә чап едилиб. Умумијјәтлә, о, нә јазырдыса, орда мүтләг тәзә фикир дејирди. Одур ки, онун шерләри чох севилирди.

**– Калин бир аз да Тофиг мүәллимлә илк танышлығыныздан данышаг.**

— Биз икимиз дә Әмирчан кәндиндәник. Орта мәктәби бир охумушуг. О, һәлә орта мәктәбдә охујанда шер јазарды. Јадымдадыр биз сәккизинчи синифдә охујанда Сталин вәфат етди. Тофиг "Ананын сәси" адлы бир шер јазмышды. Онда халг Сталин үчүн ағлајырды. Тофиг о шери нечә охудуса, ән үрәји мәнкәм адамлар белә көврәлиб ағладылар. Галды бизим танышлығымыза, дедијим кими орта мәктәбдә бир охујурдуг. Анчаг о вахт мәктәбдә әдәб-әркан вар иди. Һызла өглянын севки, мәһәббәт бәрасиндә демәк олар ки, данышмасы јасаг иди. Мән орта мәктәбдә һеч вахт онун мәнә олан истәјини һисс етмәмишәм. Сонра биз али мәктәбә кирдик. Тофиг һәр ахшам бизим института кәләрди вә мәни көзләјәрди. Мән дәрсдән чыханда мәнимлә сөһбәт едә-едә ева кедәрдик. Белә-белә бир дә көрдүм артыг о, мәним үрәјимә кириб. Сонра евләндик. Үч оғлумуз олду. Јенә дә дејирәм ки, мән Тофиг Бајрамын һәм адыјла, һәм шаирлији илә, һәм дә шәхсијјәти илә фәхр едирәм.

Dayandur SEVGİN

**P.S.** ***Бир наданын она алим кими дәрс вермәјинә дөзмәјән,***

**"Һәр үрәјим ағрыјанда**
**Демә, нәдир белә дәрдин**
**"Валокардин кәтир ана,**
**Валокардин"**

***истедадсызлара, паразитләрә гаршы әмансыз олан, истедадлыларын исә даим гајғысына галан, Јер үзүндә ган төкән илбисләрә өлүм, сүлһ башынын үстүндә көјәрчинә дөндәрәнләрә алтыш дејән шаир,***

**Дүнјада һәр ана өз**
**анам кими,**
**Тәкчә тој күнүндә**
**ағлајајды каш!-**

***дедим. Тәкә аналәрын көз јашы тој күнүндә севинчдән, фәрәҳдән ахсын.***

***Тофиг Бајрама исә Аллаһ ган-гәһи рәһмәт еләсин.***

**QARABAĞI VERMƏRƏM**

Bütün aləm danışır
Mənim səxavətimdən.
Qonağa pay verəndə
Bahasını verərəm.
Dostlara süfrə açıb
Öz halal nemətimdən,
Evimin ipəyini,
Xarasını verərəm.
Lazım olsa, yolunda
Keçib can sərvətimdən,
Çıxarıb ürəyimin
Parasının verərəm.

Kimlər ki, şəfqət tapır
Ana təbiətindən,
Dərman kimi dağların
Havasını verərəm,
Amma dağı vermərəm.
Mən heç zaman dönmərəm.
Fikrimdən, niyyətimdən,
Lazım gəlsə gözümün
Qarasını verərəm,
Qarabağı vermərəm.

***Tofiq Bayram***



***Rəssam Səttar Bəhlulzadə və Tofiq Bayram***





***Əmircan Tofiq Bayramın adına istirahət parkında abidəsi***



***Tofiq Bayramın abidəsinin açılışı***





***Ulu öndərimiz Heydər Əliyev 1998-ci il sentyabrın 24-də Əmircanda Tofiq Bayramın büstünün açılışında iştirak etmişdir.***



***Səttar Bəhlulzadə və Tofiq Bayram***





***Abdullayev Ağaxan*** 1950-ci idə Bakı şəhərində anadan olmuşdur. 1958-1968-ci illərdə 84 saylı orta məkəbdə təhsil almışdır.

1969-1973-cü illərdə A.Zeynallı adına Orta İxtisas Musiqi Məktəbində təhsil almışdır.


1973-cü ildə Əbilov adına Mədəniyyət evində muğam ixtisası üzrə müəllim vəzifəsinə dəvət olunmuşdur.

1977-ci ildən A.Zeynallı adına musiqi məktəbində muğam müəllimi kimi çalışır.

1975-ci ildə Filarmoniyanın səhnəsində fəaliyyətə başlayıb.

Rusiya, Qazaxıstan, Gürcüstan, Özbəkistan, ABŞ, Kanada, Almaniya, Hollandiya, İsveç, Belçika, Avstriya, Fransa, Avstraliya, Hindistan, İraq, Tunis, Türkiyə, İran və s. ölkələrdə konsert proqramları ilə çıxışlar edib.

1992-ci ildə Azərbaycan Respublikasının Əməkdar Artisti fəxri adına, 1998-ci ildə Azərbaycan Respublikasının Xalq artisti fəxri adına layiq görülüb. Prezident təqaüdçüsüdür.



***Eldar Hidayət oğlu Mikayılov***. Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbini bitirib. Onun yaratdığı "Nizami", "Yeni Xilə", "Leyli və Məcnun", "Bakı" və s. xalçaları sənət baxımından çox maraqlıdır. "Şəbu-Hicran" xalçası ölməz şairimizin dahi Füzulinin adına layiq sənət əsəridir.

**Gənclərin yaxın dostu**

Tale məni çoxlarının ancaq adını eşitdiyi bənzərsiz fırça ustası Səttar Bəhlulzadə ilə həmyerli etmişdi. Məndə rəssamlığa meylin yaranmasında bu amilin də rol oynadığını etiraf etməliyəm. Onun Əmircanda yaşamasının digər sənət həvəsli uşaqlara da təsir etdiyi birmənalıdır. Etiraf edək ki, bu kənd yeni-yeni rəssamların yetişdirilməsinə görə Abşeron kəndləri arasında öndə gedir. Mən isə Səttar Bəhlulzadəni, bilavasitə mənə dərs deməsə də, özümə mənəvi ata, həyat müəllimi bilirəm. Bir-birimizi çoxdan tanısaq da, mənim rəssamlıq məktəbinə qəbul olunmağımdan sonra görüşlərimiz daha sıx-sıx oldu. Böyük sənətkarla bağlı xatirələrim həddindən çoxdur. Amma bunların arasında üç hadisəni tez-tez xatırlayıram. İlk dəfə onun emalatxanasına daxil olmağımı heç vaxt unutmuram. Elə ilk xatirəm də bununla bağlıdır... Mən içəri girəndə qapının yanında molbert qoyulduğundan içəri tam görünmürdü., bu an heç Səttar müəllimi də görmək mümkün deyildi, sən demə o, emalatxanasının küncündə oturubmuş. İçəri girər-girməz diqqətimi cəlb edən ilk şey sağ tərəfdə qoyulan su kranının açıq qalması oldu. Gördüm ki, su axır, altında da içərisi fırça dolu bir şüşə banka var. Fikirləşdim, yəqin ki, yadından çıxıb. Salamsız-kəlamsız onu bağladım. Kranı bağlayan kimi də emalatxananın küncündən qışqırtı gəldi:»Kimdir onu bağlayan?» dedim ki, Səttar müəllim, mənəm, gördüm ki, axır, mən də bağladım. O da qayıtdı ki, bayaqdan şəlaləni təsvir etmək istəyirəm, şəlaləni, onun səsini təsəvvürümə gətirməyə çalışıram. Bu təəssüratı yaratmaq üçün bayaqdan bankanın kranın altında yerini axtarıram ki, şəlaləyə oxşasın, onun səsini versin. Sən də hər şeyi korladın, çıx bayıra. Mədəni şəkildə qovdu məni. Hamı kimi mən də bundan inciməmdim. Çünki uşaq kimi xasiyyəti vardı, tez küsər, tez də barışardı. Elə ertəsi gün mən emalatxanaya baş çəkəndə onda dünənin incikliyindən əsər-əlamət qalmamışdı. Odur ki, içəri girməyimlə onun: «Adə harda qalmısan? Bir çay dəmlə görək!» -deməsi bir oldu.

İkinci xatirəm isə onun Moskvaya getməsi ilə bağlıdır. 1973-cü ilin payızında orada rəssamın fərdi sərgisi açılmışdı, odur ki, o, Moskvaya getmək istəyirdi. Müəyyən adamlar onun bu gedişinə mane olmağa çalışırdılar. Bunun üçün onun yoluxucu xəstəliyə düçar olduğunu bəhanə gətirirdilər. Həmin günlərdə rəssamın yaxın dostu Gülmurada məxsus olan çayxanaya gələrkən orada Səttarı ilk dəfə ağlayan gördüm. Onun bu halından Gülmurad da narahat oldu, ondan ağlamağının səbəbini soruşdu. Səttar asta-asta dilləndi:»Gülmurad mənim toyum olmayıb. Mən Moskvada fərdi sərgimin açılmasına özümə qurulan toy hesab edirəm. Ora da məni getməyə qoymurlar, deyirlər ki, yoluxucu xəstəsən. Amma bilirəm ki, başqa şeyə görə mane olurlar». Bu sözləri eşidən kimi Səttarı götürüb «leçkomissiya»nın baş həkiminin yanına getdik. O, Gülmuradın dostlarından idi. Məsələni ona başa salandan sonra həkim qayıtdı ki, mən ona yoluxucu xəstəliyi olmaması barədə arayış verərəm. Ancaq aeroportda onu görən kimi qaytaracaqlar. Mənə bu barədə şifahi göstəriş veriblər. Çəkinirlər ki, Moskvaya gedər, orada artıq-əskik danışar, qanqaraçılıq düşər. Gülmurad cavabında bildirdi ki, hər ehtimala qarşı sən o arayışı ver, birdən Moskvada gərəkli olar. Mən onu Moskvaya təyyarə ilə yox, qatarla aparacam, orada yoxlama aparmırlar. Arayışı əlinə alan Gülmurad cibindən bir şax yüzlük çıxarıb mizin üstünə qoydu. Düzü, yüzlüyün adını


o vaxta kimi eşitmişdim, amma canlı görməmişdim. Baş həkim pulu görüb Gülmurada etirazını bildirdi və qeyd etdi ki,axı biz dostuq. O da izah etdi ki, bu rüşvət deyil, sadəcə Səttarın Moskvada böyük sərgisi açılıb, bunu şirinlik hesab elə. Həkim həmkarlarına qonaqlıq verərsən. Beləcə, rəssam, dostlarının müşayiətiylə Bakı-Moskva qatarı ilə yola düşdü. Etibarlı dostlarının sayəsində arzusuna çatdı... Qayıdandandan sonra tez-tez Moskva səfərini xatırlayardı. Söhbətinin sonuna özü də gülərdi, elə onu həvəslə dinləyənlər də: «Moskvaya gedən «nümayəndə heyətinin» mərkəzi fiquru mən idim, bir tərəfimdə dayanan çayçı Gülmurad idi, o biri tərəfimdəkilər isə Xamizlə lotu Ağababa».

Bir il sonra isə böyük sənətkarla son görüşüm oldu. 1974-cü ilin bir payız günü baş verən bu görüşün axırıncı olacağını heç vaxt düşünməzdim.

Axşam dərsdən evə qayıdanda mənə bildirdilər ki, rəssamın qardaşı oğlu bizə gəlmişdi. Səttar xəbər göndərib ki, Eldar nə vaxt evə gəlsə mütləq mənə dəysin. Durmayıb onlara yollandım. Saat 9-10 arası olardı. Qapını açıb içəri girdim. Gördüm ki, elə dəhlizdə,döşəyin üstündə uzanıb yatıb. Onu qaldırmağı qıymadım, gözləməyə qərar verdim. Yanında balaca albomu görəndə fikrimdən onun rəsmini çəkmək keçdi. Götürüb onun karandaşla rəsmini çəkdim. Özümü nə qədər sakit aparmağa çalışsam da, elə həyirtiyə ayıldı. Hal-əhval tutandan sonra məni çağırmasının səbəbini dedi. Bildirdi ki, səhər müalicə üçün yola düşür, dünyanın işini bilmək olmaz, bəlkə, bir də görüşmədik. Çağırdım ki, halallaşaq. Beləcə, ayrıldıq. İndi o vaxt çəkdiyim rəsm mənə tez-tez həmin günləri, sevimli müəllimim Səttar Bəhlulzadəni xatırladır...



***Hacı Eldar Mikayılzadə. Səttar Bəhlulzadəyə ithaf olunur. 2008***



***Hacı Eldar Mikayılzadə. Səttar dünyası. 1999***



***Teymur Ənvər oğlu Göyçayev*** (11 avqust 1958). Xalq artisti, dirijor və Qara Qarayev adına Dövlət Kamera Orkestrinin bədii rəhbəri.

T.Göyçayev Bakı Musiqi Akademiyasının Simli Alətlər fakültəsini (skripka üzrə) 1981-ci ildə fərqlənmə diplomu ilə bitirmiş, 1985-ci ildə musiqi ifaçılarının Zaqafqaziya müsabiqəsində iştirak etmiş və laureat adı qazanmışdır. Sənətçi kimi Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik orkestrində artist işləmiş, 1986-cı ildən bu günəcən Bülbül adına orta ixtisas musiqi məktəbində, daha sonralar Bakı Musiqi Akademiyasında pedaqoji fəaliyyət göstərmişdir. Halhazırda Bülbül adına məktəbin direktorudur.





1998-ci ildən Q.Qarayev adına Azərbaycan Dövlət Kamera orkestrinin bədii rəhbəri kimi məsuliyyətli bir vəzifəyə layiq görülür. T.Göyçayevin rəhbərlik etdiyi Kamera orkestri bütün Dövlət tədbirlərinin, ziyafətlərin yüksək bədii səviyyədə keçirilməsində iştirak etmişdir.

2000-ci ildən Azərbaycan Respublikasının Əməkdar İncəsənət Xadimi və 2002-ci ildən isə Prezident mükafatçısıdır. 2005-ci ildə isə Azərbaycan Respublikasının Xalq Artisti adına layiq görülmüşdür







**Mündəricat**

1. Tarixi oçerk .....9
(Səcərələr)
2. Heybətqulu.....91
3. Rüstəmli .....135
4. Məmmədəli.....166
5. Dadaş.....172
6. Əlpənah.....177
7. Mirzəağa..... 189
8. Turabli.....194
9. Əliyunus.....203
10. Hacıalı.....215
11. Pirqulu.....219
12. Bəbir.....245
13. Canbulat..... 249
14. Yarimxan.....253
15. Dövlətəli.....255
16. Hacıbaba .....265
17. İbadullah.....286
18. Ümud.....301
19. Bünyətəli..... 304
20. Şıxibrahim..... ....309
21. Malik.....312
22. Kərim.....314
23. Xidırağa .....316
24. Mirzobba.....318
25. Musa.....320
26. Kövsərli.....322
27. Şirməmməd.....325
28. Binnyətəli..... ...327
29. Məmmədəmin.....325
30. Ağaqulu.....340
31. Ağaəli.....342
32. Kazım.....344
33. Teyyub.....355
34. Heydər.....357
35. Heybətqulu..... .....360
36. Rübail..... .....362
37. Abbas.....370
38. Abdulla.....373
39. Məmədqulu.....375
40. Musaxan.....377
41. Əziz.....380
42. Sübhan..... ...387
43. Əmbiya.....389
44. Zülfəli..... ...391
45. Nağdalı.....393
46. Məmmədrəhim..... .....395
47. Əhməd..... .....397
48. İmamverdi.....400
49. Qədim.....402
50. Atakişi.....404
51. Ələkbər..... 406
52. Məsim.....408
53. Dəmirbəyli.....410
54. Balaəhməd.....456
55. Həsən.....480
56. Məmmədalı.....482
57. Xəlil..... 484
58. Bəyverdi.....486
59. Atabala..... 487
59. Təhməz.....489
60. Sabir.....491
61. Rəhim.....492
62. Rəfi.....494
63. X.Bayramov.....498
64. T.Bayram.....498
65. A.Abdullayev.....509
66. E.Mikayılov.....509
67. T.Göyçayev.....510

**FƏRİDƏ KƏRİM QIZI BÜNYATOVA**
**ƏMİRCAN (XİLƏ) ŞƏCƏRƏLƏRİ**

Kompüter tərtibatçısı
və dizayner: ***Namiq VƏLİOĞLU***
Texnoloq: ***Nəriman RƏHİMOV***
Korrektor: ***Cabir HACIBƏYLİ***
Kompüter yığıcısı: ***Bənarə CƏMALƏDDİNQIZI***

Yığılmağa verilib: 25.11.2011
Çapa imzalanıb: 25.02.2012
Kağızın formatı: 70x100 1/8
Sayı: 400 nüsxə

Kitab "Tuna" mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.
Ünvan Bakı şəhəri